

Əzizə Cəfərzadə

# TANIDIQLARIM VƏ SEVDİKLƏRİM XATİRƏLƏRİMDƏ

**Şəxsən gələcəyə ümidlə baxıram. Əgər bircə gün, lap bircə saat bu inam qırılsa, yaşamaram.**

"XAN" XATİRƏ ƏDƏBİYYATI 58

XAN NƏŞRİYYATI

Əzizə Cəfərzadə

# TANIDIQLARIM, SEVDİKLƏRİM XATİRƏLƏRİMDƏ

Xatirə Ədəbiyyatı seriyasının 58-ci kitabı

QЗИК 2710
AŞM
Fonduna qəbul olundu
AЗMDK 7313

NƏŞRİYYATI

Layihə rəhbəri / **Şamil Sadiq**

Naşir / **Səbuhi Şahmursoy**

Tərtibatçı / **Turan İbrahimov**

Redaktor / **Cavid Qədir**

Korrektor / **Səbinə Abdullayeva**

Texniki redaktor / **Sevda Qulamova**

Rəssam / **Vasif Səftərov**

Dizayn və qrafika / **Zülfiyyə Abbasova**

**© Əzizə Cəfərzadə / Tanıdıqlarım, sevdiklərim xatirələrimdə**
**("Xatirə Ədəbiyyatı" silsiləsi)**
**"XAN" nəşriyyatı / Bakı / 2021 / 388 səh.**

**ISBN: 9781930897366**

Kitabda Xalq yazıçısı Əzizə Cəfərzadənin müxtəlif illərdə müəllimləri, qələm dostları, elm, incəsənət xadimləri, eləcə də müxtəlif sənət sahibləri və digər tanıdığı şəxslər haqqında yazdığı xatirələri yer alıb. Bu xatirələrin bir hissəsi müxtəlif illərdə ayrı-ayrı mətbu orqanda çap olunub. Bəziləri isə yazıçının Ev Arxivində saxlanılan materiallar əsasında tərtib edilib. Yazıçının xatirələri küll halında ilk dəfə bu kitabda oxuculara təqdim olunur.

**© "XAN" nəşriyyatı / 2021**
**© Turan İbrahimov / 2021**



Əzizə Cəfərzadə
1921-2003

# TƏRTİBATÇIDAN

Xalq yazıçısı, filologiya elmləri doktoru, professor Əzizə Cəfərzadə tarixə öz möhürünü vurduğu tarixi romanlarla yanaşı müəllimləri, tanışları, birgə işlədiyi, ünsiyyətdə olduğu şəxslər, qələm dostları haqqında da ara-sıra xatirələr yazıb və bunların bəzilərini dövrü mətbuatda dərc etdirib. 1995-ci ildən başlayaraq qələmə aldığı xatirələrini "Tanıdıqlarım, sevdiklərim xatirələrimdə" başlığı altında qeyd edərdi. Əzizə ananın çoxcildli əsərlərini çapa hazırlayanda bu əsərləri də toplayıb həmin başlıq altında çap etdirmək fikrindəydim. Amma "Hədəf Nəşrləri" rəhbərliyi ilə görüşümüzdə onların xatirə seriyasında kitablar çap etdiklərini və Əzizə Cəfərzadənin xatirələrini də nəşr etmək istədiklərini nəzərə alıb bu kitabı oxuculara təqdim edirəm.

Bu xatirələr Əzizə Cəfərzadənin böyüdüyü və yaşadığı mühit haqqında təsəvvür yaradır, kimlərdən dərs aldığını, kimlərlə çiyin-çiyinə çalışdığı, müxtəlif sahələrdə işləyən insanlarla ünsiyyəti olduğu şəxsləri bizə tanıdır. Burada ilk nəzərə çarpan və maraq kəsb edən onun dövrünün iki böyük din xadimindən – Hacı Şeyx Fərəcullah Pişnamazzadə və Şeyx Mirmöhsüm Həkimzadə ilə ünsiyyəti, onlardan gizli dərs almasıdır. Əlbəttə, o dövrü nəzərə alanda pioner, komsomolçu, kommunistin şeyxlərdən ərəb əlifbası və ərəb dili dərsi alması qeyri-adi hadisədir. Hələ onu demirəm ki, bu dərslərlə yanaşı o, bu böyük din xadimlərindən İslam dini tarixini də öyrənirdi. Nəzərə alsaq ki, bu dərslərdən öyrəndikləri Əzizə Cəfərzadənin bədii və eləcə də elmi fəaliyyətində, xüsusilə, 17 il çalışdığı Elmlər Akademiyasının Əlyazmalar Fondunda (indiki Əlyaz-

malar İnstitutu) işlədiyi dövrdə çox işinə yarayıb. Əzizə Cəfərzadə xatirələrində məktəb müəllimləri Abbasqulu ağa Bakıxanov nəslindən olan Allahverdi Bakıxanov və Xanım Bakıxanovaları xüsusi məhəbbətlə yad edir. Heç şübhəsiz ki, tarix fənninə maraq, bəlkə də, tarixi romanlar müəllifi kimi formalaşıb məşhurlaşmasında tarix müəllimi Xanım müəllimənin böyük rolu olub. Yazıçı xoş xatirələrlə universitet müəllimləri Əli Sultanlı, Feyzulla Qasımzadə, Mikayıl Rəfili, Həbib Səmədzadə, Cəfər Xəndan, İsmayıl Əfəndiyev, Əbdüləzəl Dəmirçizadə, Şamil Məmmədbəyli, Arif Dadaşzadə, Əlisöhbət Sumbatzadə, Heydər Hüseynov, Aleksandr Makovelski, Məmmədağa Şirəliyev, Y.Reçitskaya, Mir Cəlal Paşayev, Məmmədcəfər Cəfərov, Məmmədhüseyn Təhmasibi yad edir. Onlar haqqında qələmə aldığı bütün xoş sözlər bir tələbə minnətdarlığıdır. Çox maraqlıdır ki, bu müəllimlər daha sonralar Azərbaycanın seçilib-tanınan professorları, Elmlər Akademiyasının müxbir üzvləri, akademikləri və yazıçıları kimi məşhurlaşıblar.

XX əsr Azərbaycan ədəbiyyatının sütunları sayılan daha yaşlı nəslə mənsub yazıçı və şairlər Abdulla Şaiq, Məmməd Səid Ordubadi, Səməd Vurğun, Süleyman Rəhimov, Süleyman Rüstəm, Mehdi Hüseyn, Mirzə İbrahimov, Əli Vəliyev, İlyas Əfəndiyev, Mirvarid Dilbazi, Nigar Rəfibəyli, Hökumə Billuri və b. haqqında xatirələri bu yazıçıların sənəti ilə yanaşı böyük insani keyfiyyətlərini də nümayiş etdirir. Bundan əlavə, şübhəsiz ki, yaşıdları, daha gənc nəsildən olan yazıçı və alim dostları haqqında da xüsusi məhəbbətlə yazılmış xatirələri var. Bunlar II Dünya müharibəsindən əvvəl, müharibə vaxtında və ondan sonrakı ağır dövrdə sınaqdan çıxmış, Əzizə ananın özü kimi bütün bu fəsadlarda bərkimiş insanlardır.



Məmməd Səid Ordubadi nümunəsi onun bir tarixi roman janrına bağlı yazıçıya çevrilməsində mühüm rol oynayıb.

Əbülhəsən gənclik yaşlarında yazılarına bir inam yaratmış ağsaqqal yazıçıdır və Əzizə ana onun dəstəyini müxtəlif yazılarında dəfələrlə qeyd edib.

Söhbətlərində Səməd Vurğun və Mirzə İbrahimovun həyatında böyük rolu olduğunu dəfələrlə qeyd edib. Səməd Vurğun onu həm Yazıçılar Birliyinə, həm də Kommunist Partiyasına üzvlüyə təqdim edib. Bundan əlavə, Əzizə ana ciddi xəstə olanda ona maddi yardım və həkim göndərib. İlk kitabı 1948-ci ildə dərc edilməli olan "Hekayələr" kitabının çapına Səməd Vurğun yaşıl işıq yandırıb.

Əzizə ana xatirələrində qeyd edir ki, Mirzə İbrahimov dəfələrlə onun işi müşkülə düşəndə – universitetdən qovulanda ona dəstək olub. Əzizə Cəfərzadə: "Onun həyatı — həyat məktəbidir. İnsan olmaq, gərək olanda kimsəsizə, çarəsizə kömək əli uzatmaq məktəbidir" – deyə gündəliyində yazıb.

Professor Əli Sultanlı 6 aylıq universitet təhsili zamanı 3 dəfə qovulmasına baxmayaraq diplom işini yüksək qiymətləndirib, hətta onu çap edilməsini və Əzizə ananın aspiranturada saxlanılmasını məsləhət görüb. 1950-ci ildə Əli Sultanlı, həmçinin elmlər namizədliyi müdafiəsində onun opponentlərindən biri olub.

Xatirələri içərisində xüsusi yeri uzun illər rəfiqəlik edib tez-tez görüşdüyü yazıçı Əzizə Əhmədova, Azərbaycanın Xalq rəssamı Maral Rəhmanzadə, SSRİ Xalq artisti Zeynəb Xanlarova kimi Azərbaycanın məşhur qadınları turur.

Tez-tez evimizin qonağı olan yumorist, yazıçı Cahangir Aslanoğlu, Azərbaycan Xalq rəssamı Nəcəfqulu, şairlər

Məmməd Aslan, İsgəndər Etibar kimi adamlar haqqında da maraqla oxunan xatirələri var.

Nə qədər qəribə görünsə də, Əzizə Cəfərzadə İmadəddin Nəsimi və Məhəmməd Füzuli ilə bağlı da xatirələrini də yazıb. Xarici səfərlərdə Hələbdə və Kərbəlada olarkan hər birinin məzarını tapıb ziyarət etmək üçün həddindən artıq əmək sərf edib.

Xatirələr ancaq xoş yox, həm də çox böyük təəssüf ediləcək, ibrət götürüləcək hadisələri də özündə əks etdirir.

Anamın əziz oxucusu, güman edirəm ki, bu əsəri tərtib edərkən aldığım ləzzəti mənimlə bölüşəcək, bir həyat təcrübəsindən bəhrələndiyim kimi, siz də bu kitabı maraqla oxuyacaqsınız!

**Turan İbrahimov**



# ÖZÜ VƏ AİLƏSİ HAQQINDA XATİRƏLƏRİ

## Ömrün ötən illərinə boylananda[1]

*XX əsr – bu mürəkkəb, son dərəcə ziddiyyətli, bir ucu qaranlıq, bir ucu işıqlı, sevinci az, qəmi çox əsrimiz üzü qüruba gedir. XXI əsrin dan yerinə yaxınlaşırıq. Həmişə dan yerinin gözəlliyinə qibtə etmişik, amma qürub çağının da öz gözəlliyi var. Elimizin ağbirçəyi, görkəmli yazıçı, ədəbiyyatşünas, professor Əzizə xanım əsrimizin 1997-ci ilini 75 yaşı ilə qarşıladı. Bu 75 illik ömür, əslində, XX əsrin bir insan ömründə təcəssümüdür. İşıq da, qaranlıq da, sevinc də, kədər də bu ömürdən keçir – iyirminci, otuzuncu illərin repressiya dalğası, müharibə illərinin ağrı-acıları, özünütəsdiq və özünəinam illəri bir-birini əvəz edir. Bir də Qanlı Yanvar günləri. Amansız rus əsgərlərinin gülləsinə qurban getmiş şəhidlərimizin məzarı başında qara geymiş bir ağbirçəyimiz yanıqlı səslə ağı deyir. Əzizə xanım idi o – bu məmləkətin çiçəyi burnunda gedən nakam oğul və qızlarının ruhuna layla çalırdı.*

*Sənətkar var ki, yaşamaq onun üçün təkcə yaradıcılıq sevinci deyil, həm də yanğıdır, ehtirasdır. Bu yanğı, bu ehtiras ömrünün son günlərinə qədər onu tərk etmir. Bizim Əzizə xanım da bu yaşınacan qələmindən ayrılmayıb, qələm onun söz qardaşı olub. Bu sənətkar ömrünün acılı-şirinli, sevincli-qəhərli anlarına baş vurmaq üçün sevimli yazıçımızın qonağı oldum.*

*Vaqif Yusifli*
*("Panorama" qəzeti, 8 yanvar 1997)*

**– Əzizə xanım, ömrünüzün uşaqlıq, gənclik çağlarını necə xatırlayırsınız? Sizi dünyaya gətirən ata-ananız – onların bir insan kimi həyatınızda rolu...**

[1] Yusifli V. "Ömrün ötən illərinə boylananda" / "Panorama" qəzeti / 1997, 8 yanvar / №4 / səh. 3-4 (Əzizə Cəfərzadə ilə müsahibəni Vaqif Yusifli aparıb).

– 1921-ci ilin 29 dekabr günündə Bakıda dünyaya göz açmışam. Əslim-köküm Şamaxıdandır. Mənim bir insan kimi yetişməyimdə üç övlad yetirən (onların üçü də elmlər doktorudur) anamın böyük rolu olub. Onun sinəsi folklor xəzinəsi idi.

Anam zəngin bir ailədən çıxmışdı. Atası Şamaxının adlı-sanlı seyidlərindən olub. Özü də pay yığan yox, pay verən seyid nəslindən. Anası isə Şirvan hökmdarı Mustafa xanın nəvəsiydi.

Anam Tağıyevin qızlar məktəbində təhsil almışdı. Ona dövrünün tanınmış ziyalı qadınlarından Hənifə xanım Məlikova (Zərdabinin ömür yoldaşı), Şəfiqə xanım Əfəndizadə dərs demişdilər. Anam rusca gözəl danışır, Quranı yaxşı bilirdi. Haqqımda söz açan bəzi müəlliflər yazırlar ki, Əzizə Cəfərzadə folkloru, adət-ənənələri gözəl bilir. Amma mən bu tərifi özümə yox, anama aid edərdim. O, həm də ilk oxucum idi.

Atam isə səyyah ruhlu insan olub. Gözəl at sürməyi vardı. Peşəsi də elə at saxlamaq, onları bəsləyib satmaq idi. Şeir yazmağı da vardı. Hansı şəhərdə olurdusa, oradan qiymətli əlyazmalar gətirərdi.

Doğrudur, 1928-ci ildən daha anamla yaşamadı, amma bu, əbədi ayrılığa çevrilmədi. Hər yay atam bizi özü ilə yaylağa, dincəlməyə aparardı.

**– İlk kitabınız 1948-ci ildə nəşr olunmalıydı, amma nə səbəbdənsə mətbəədən yığışdırıblar.**

– Əvvəla, onu deyim ki, 14-15 yaşımdan ədəbi mühitdə görünməyə başlamışam. 1937-ci ildə 16 yaşım olarkən ilk hekayəm "Ədəbiyyat qəzeti"ndə çap edildi. Və tez bir zamanda bütün görkəmli yazıçılar məni tanıdılar. Doğru deyirsiniz, 1948-ci ildə ilk kitabım çap edilməliydi, lakin elə mətbəədəcə nəşrini saxladılar. O illərdə məşhur rus şairi Anna Axmatovanı, yeri gəldi-gəlmədi, möhkəm tənqid edirdilər, guya bu şair gəncliyə burjua ruhu aşılayır. Azərbaycanda da onun "tərəfdarı" kimi yapışdılar məndən.



Məni "Axmatovşina"da təqsirləndirib kitabımın çapını dayandırdılar.

**– Əzizə xanım, Səməd Vurğunun, Mehdi Hüseynin, Rəsul Rzanın, Əbülhəsənin, Süleyman Rəhimovun – neçə görkəmli sənətkarın cavanlığını görmüsünüz, onlarla yaradıcılıq ünsiyyətində olmusunuz. Başlayaq böyük şairimiz Səməd Vurğundan...**

– Həyatımda Səməd Vurğun kimi nurani, xeyirxah, gözəl insan görməmişəm, desəm, yanılmaram. Onun təklifilə Yazıçılar İttifaqına üzv qəbul olunmuşam. İlk kitabımın çapdan çıxması xəbərini də müjdə kimi Səməd Vurğun mənə çatdırıb.

Bir dəfə ölümcül xəstələnmişdim. Hiss edirdim ki, sonumdur. Rəhmətlik Ənvər Əlibəyli qonşumuz idi, bunu Səmədə çatdırdı. Səməd eşidib bərk həyəcanlanmışdı. O zaman Ədəbiyyat Fondunun sədri Kabakov deyilən bir rus idi. Səməd hirslənib demişdi: "Kabakov Moskvada pürrəngi çay içir, Əzizə isə burada ölür". O, təcili 500 manat pul və öz maşını ilə doktor Veysovu yanıma göndərdi. Məni xəstəxanaya apardılar, ölümdən qurtardım.

**– Səməd Vurğunla heç yol yoldaşı olmusunuzmu?**

– Bəli! Doktorluq dissertasiyamın mövzusunu Moskvada təsdiq etdirib Bakıya qayıdırdım. Təyyarədə Səmədi də gördüm, yanaşı oturduq. Çox yorğun idi. Və birdən, "Qız, bir bayatı de" (çoxlu bayatı, qoşma, təcnis əzbərlədiyimi bilirdi) – deyə mənə müraciət etdi. O dediyim bayatı indi də yadımdadır:

*Süsənbər suda səni,*
*Saxlasın Xuda səni.*
*Əlacım ona qalıb,*
*Görüm yuxuda səni.*

Səməd Vurğun dedi ki, cinas kəlmələri işlətmək şeirdə böyük məharət tələb edir. Üç söz tapmışam, bunları müt-

ləq şeirdə işlədəcəyəm: ürək dayandı, ürəkdə yandı, ürək də yandı.

Bir sözlə, Bakıya qədər şeirləşdik.

**– Bəs Mehdi Hüseyni necə xatırlayırsınız?**

– Mehdi Hüseyn şəxsiyyət idi – həm yazıçı, həm də insan kimi. Yaradıcılığı ilə insanlığı arasında uçurum yox idi. Son dərəcə zabitəli və ciddi, həm də mehriban və qayğıkeş idi. Olurdu ki, aramızda nəsə xırda bir inciklik və anlaşılmazlıq baş versin, amma tez sovuşub keçirdi.



*Əzizə Cəfərzadə Azərbaycan Yazıçılar Birliyində Süleyman Rüstəm, Səməd Vurğun, Mirzə İbrahimov və başqaları ilə (1949)*

Bir dəfə (deyəsən, 46-47-ci illər idi. O, kinostudiyanın direktoru, mənsə ssenari şöbəsinin müdiriydim) məni çağırıb dedi ki, qız, yanında pulun varsa, mənə bir otuz manat ver. Onda vəziyyət çox ağır idi. Çıxarıb verdim. Dedi ki, evə gedirəm, qoy Fatma (yoldaşı) bilməsin, cibimdə pul yoxdur.

Mən – onun qələm yoldaşı eybi yox, amma həyat yoldaşı bunu bilməməlidir. Kişi qeyrəti buna yol vermirdi.

**– Ötən illərə boylananda daha kimlər yadınıza düşür?**

– Vallah, elə günüm olmur, Süleyman Rüstəmi, Rəsul Rzanı, Əbülhəsəni, Sabit Rəhmanı, Mir Cəlalı, Mirzə İbrahimovu xatırlamayım. Bu şəxsiyyətlər XX əsr Azərbaycan ədəbiyyatının sönməyən ulduzlarıdır.



Rəsul Rza romanlarım haqqında məqalələr yazıb, böyük məhəbbətlə təbliğ edib. Əbülhəsən həm gözəl yazıçı, həm də duzlu-məzəli bir kişiydi. "Əzzim, əzzim" kəlməsi dilindən düşməzdi. Çox təəssüf eləyirəm ki, onun da 90 illik yubileyini keçirmək kimsənin yadına düşmədi.

**BİR AÇIQLAMA:** Əzizə Cəfərzadə çağdaş Azərbaycan nəsrində öz yeri, mövqeyi olan yazıçıdır. O, "Aləmdə səsim var mənim", "Yad et məni", "Vətənə qayıt", "Sabir", "Bakı-1501", "Zərrintac", "Cəlaliyyə" tarixi romanlarının müəllifidir. Bu romanlar Azərbaycan xalqının tarixini, adət-ənənələrini, məişətini öyrənmək, dərk etmək baxımından böyük əhəmiyyətə malikdir. Əzizə xanımın "Gülüstandan öncə" romanı da yenicə nəşr edilib. Bu roman da tarixi səpgidədir. Yazıçı mötəbər tarixi mənbələr əsasında sübut edir ki, Azərbaycanın iki yerə parçalanması 1813 və 1828-ci illər müqavilələrindən əvvəl – 1805-ci ildə Kürəkçay sahilində İbrahimxəlil xanla Zaqafqaziyadakı rus ordusunun baş komandanı Sisianov arasındakı müqavilədən başlanıb. Ruslar ayrı-ayrı Azərbaycan xanlarını, beləcə, bir-birindən təcrid edərək onları rütbələrlə şirnikləndirmiş, nəticədə, böyük Vətən içəridən parçalanmaya məruz qalmışdı.

Əzizə xanım həm də klassik ədəbiyyat bilicisi və araşdırıcısıdır. "Fatma xanım Kəminə", "Könül çırpıntıları", "Azərbaycanın aşıq və şair qadınları", "Şirvanın üç şairi", "Mücrüm Kərim Vardani – Sünbülüstan", "Hər budaqdan bir yarpaq" və s. kitablar gərgin zəhmətinin bəhrəsidir. Mən onun ictimai fəaliyyətindən də söz aça bilərəm. Əzizə xanım uzun müddət Azərbaycan Qadınlar Cəmiyyətinin sədri olub, neçə xarici ölkədə Azərbaycanı təmsil edib.

**– Əzizə xanım, son illərdə Sabiri, Mirzə Cəlili inkar eləyənlər tapılıb. Sübut eləmək istəyirlər ki, Sabir və Mirzə Cəlil bu xalqın milli ruhunu ayağa qaldırmaqdan-**

sa, ona qəhrəmanlıq "dozası" aşılamaqdansa, mənliyini təhqir edib, alçaldıblar. Gərək bu sənətkarlar tənqid və ifşa yolunu tutmayaydılar, qəhrəmanlıq himnləri, fəxriyyələr qələmə alaydılar.

– Bu, ən azı nadanlıqdır. Sabir də, Mirzə Cəlil də əsrin o başından bu başına və hətta gələcəyimizə də işıq saçan dahilərdir. Onlar milləti sevmək və ayağa qaldırmaq üçün tənqid, islah yolunu seçmişdilər. Yeri gəlmişkən, deyim ki, inkarçılıq bütün dövrlərdə olub, istər ictimai-siyasi sahədə, istərsə də mənəviyyat aləmində. İranda olanda mənə dedilər ki, sizdən bir alim gəlmişdi, Cəfər Cabbarlını inkar edirdi. Dəhşətli deyilmi? Məsəl var, deyir, şeytan səndən əl çəkir, sən əl çəkmirsən.

Əgər tənqidə qalsa, onda gərək ruslar Qoqolu ədəbiyyatdan çıxdaş edəydilər. O millət ki özünün eyiblərini görür, bunu aşkara çıxarır, deməli, qüvvətli millətdir. Lakin son illərdəki açıq-saçıq, bir-birinin şəxsiyyətini, mənliyini ayağa salan "tənqid"lə əsl, sağlam tənqid arasında zəmin-asiman fərq var. Əsl tənqid intibah ruhunda olur – ayıldır, ayağa qaldırır. Onda sən mənliyini dərk edirsən, mübarizəyə səfərbər olursan.

**– Əzizə xanım, ötən ilin son bazar günü – dekabrın 29-da yetmiş beş yaşınız tamam oldu. Bir qədər geciksək də, sizi "Panorama" qəzetinin bütün oxucuları adından təbrik edirəm. Allah sizin bu müdriklik yaşınızın üstünə bir bu qədər də yaş artırsın. Qoy sonuncu sualı da verim: Siz xalqımızın güvənc yeri olan yazıçılarımızdansınız. Necə bilirsiniz, bu çətin, ağır günlər çoxmu davam edəcək?**

– Təbrikə görə çox sağ olun! Mən də bu məmləkətin bir övladı, bir ana kimi əldə etdiyimiz müstəqilliyə ürəkdən sevinirəm. Bu müstəqilliyi illər boyu gözləmişəm. Biz onu qorumalıyıq. Şəxsən gələcəyə ümidlə baxıram. Əgər bircə gün, lap bircə saat bu inam qırılsa, yaşamaram.

**Bakı, 8 yanvar 1997**



## Qırx ilə bərabər dörd il[2]

*Yenə də açıldı xatiratımın*
*Baharı andıran gül dodaqları...*

Çoxdan, hələ II Dünya müharibəsindən əvvəl gözəl müəllim və insan, əsl sənətkar aktyor Kazım Ziyanın Xalq şairi Süleyman Rüstəmdən mənə – biz tələbələrinə əzbərlətdirdiyi "Xatiratım" şeirindən bu misralar yaxınlarda yenə yadıma düşmüşdü. Təsadüf elə gətirdi ki, həmin vaxt mənə zəng elədilər. Dedilər ki, Ağsu rayonu haqqında kitab buraxacağıq və siz də orada Çaparlı sovetliyində işləmisiniz, xatırladığınız bir şey varsa, mütləq yazın.

Yəni unutmuşam ki, xatırlayam da? Çaparlıda acılı-şirinli elə günlərim olub ki! Vəsfə gəlməz. Şair olsaydım, poema həsr edərdim o günlərə...

Yaxşı yadımdadır. Müharibə başlananda bir az sonra qızları da səfərbərliyə almağa başladılar. Amma kəndlərdə və elə şəhərlərin özündə kişi müəllimlər müharibəyə yollandıqlarından məktəblərdə müəllim çatışmırdı. Odur ki, qızların içərisindən nisbətən müəllimliyə yararlı, savadlı olanları əsgərliyə aparmır, kənd məktəblərinə təyin edirdilər. Mənim baxtıma da Kürdəmir rayonu düşdü. Ora yollandım. Əlbəttə, anam məni tək buraxmayacaqdı.

Kürdəmirdə Maarif şöbəsində məni ömrümdə adını eşitmədiyim Çaparlı sovetliyi yeddiillik məktəbinə rus dili müəllimi təyin etdilər. Rus dilini o zaman yaxşı bilirdim. Məktəbdə isə müəllim yox imiş. O zaman Kürdəmirdə anamın Ağalarbəyli və Curuxluda Əlyarbəyovlar ailəsindən qohumları yaşayırdı. Onlar məni Çaparlıya apardılar. Çaparlı kəndi Kürdəmirə baxırdı. Hələ Ağsu rayonu təşkil olunmamışdı. Beləliklə, 1942-1943-cü dərs ilində

[2] Cəfərzadə Ə.M. / "Qırx ilə bərabər dörd il" / Bakı / "Azərbaycan" jurnalı / Aprel 2000 / №4 / səh. 156-160

sentyabrın birindən başlayaraq Kürdəmir rayonu Çaparlı yediillik məktəbində rus dili müəllimi kimi fəaliyyətə başladım. 1943-cü ildən – Ağsu rayonu təşkil olunandan sonra Kürdəmirlə əlaqəmiz kəsildi. Daha maaş, hansısa maarif işi, məktəbin tələbatı, iclas və s. üçün Kürdəmirə getməli olmurdum. Çünki gələn kimi məni dərs hissə müdiri, az sonra isə məktəbin direktoru təyin etdilər. Hər ay Kürdəmirə getmək zəhmətindən azad oldum. Amma hər halda Çaparlı kəndindən Ağsuya getmək özü də mənimçün çətinlik yaradırdı. Axı onda nə maşın, nə avtobus, nə trolleybus, nə də tramvay vardı. Bazar günləri bütün qadınlar bazara pay-piyada gedirdilər. Hərəsi o ağır, o aclıq illərində balalarının boğazından kəsib yığdığı beş yumurtanı, yarım girvənkə yağı... eh... Yada salanda və indi torpaqlarımızın əlimizdən çıxdığı bu illərdə o dolu bazarları görəndə gözlərim dolur. Ay yazıq arvadlar! Ərlər müharibədə, qardaşlar, atalar, oğullar gedib. Evin, uşaqların, bütün təsərrüfatın qayğıları anaların çiynində, hələ pambıq yığımı!.. Kimin həddi vardı ki, xəstələnə, ölüsünə üç, yeddi saxlaya? Toy üzü görmədim Çaparlıda. Pambıq yığımına biz müəllimlər də uşaqlarla birlikdə gedirdik. Cəhənnəm əzabı çəkirdi analar, qız-gəlinlər. Obaşdan durub lap kiçiklərçün yeməyə bir şey hazırlayır, balaca bağlamasına bir az şor-çörək qoyub tarlaya qaçır, yalnız hava qaralanda, itlə qurd seçilmədən deyərlər, o vaxt işdən qayıdardılar. Çörəklərini tarlanın çökəklərinin qırağına, arxın üstünə süfrə açıb yeyirdilər. Xırda körpəsi olanlar qundağı arxın qırağında, ya da çökəklərin birində uzandırar, "yatırdar". O zamanlar Çaparlıda bircə ağac da yox idi, kölgəsinə uşaq qoyasan. Ağlayanda südsüz döşünün kitrəsini uşağa əmizdirir, ac körpə anasının damarlarından qanı sorurdu, elə bil. Qaranlıqda qayıdanda kəndin gözəlləri, elə təmizlik, səliqə sevən qadınların hamısı başlarını ya ayranla (Eh... ayran olanda uşaqlara dovğa bişirirdilər), daha çox gilabı çoğan[3] – nə tapsalar, bir aftafa su qızdırıb başlarını

[3] Çoğan (lat. Gypsophila) – qərənfilçiçəklilər sırasının qərənfilkimilər fəsiləsinə aid bitki



yuyur, ev-eşiyi yığışdırmağı unutmurdular. "Yorğunam" deyən, yorğunluğa baxan kimdi? Pambıq vətənin xilasıyçün bir nömrəli plan hesab olunurdu. Təkcə bunlar olsaydı, nə vardı ki? Bəs vergilər? İndi inanmazlar, amma toyuğun oldu-olmadı, yumurta, qoyunun oldu-olmadı, yun, qaramal heyvanın var-yox, ət, inəyin oldu-olmadı, yağ vergisi verməliydin. Bəzən bu vergiləri yığmağa biz müəllimləri də cəlb edirdilər. Yunu olmayan döşəyini boşaldırdı. "Təki orada balalarımızçün yaxşı olsun", – deyirdi hamı. Tank kalonlarına hər rayon, hər sədr, hər kənd tank almalıydı, bunun da pulunu çox vaxt biz müəllimlər yığırdıq. Əlbəttə, raykomun göstərişi, təklifi və tələbiylə. "Yox" demək az qala "hitlerçi" olmağa bərabərdi.

Kəndlərdə, o cümlədən Çaparlıda odun, neft, qaz, işıq yox idi. Odunu uşaqlar (əlbəttə, məktəblilər) pambıq tarlalarında qalmış pambıq çöplərindən yığıb gətirirdilər. Bəzən pambıq planı dolmayanda, qış, qar-çovğun tez düşəndə (elə bil təbiət də insanların səbrini imtahana çəkirdi, qış elə tez düşür, qar, yağış çox olurdu) tufandan, çovğundan yığıma getmək mümkün olmasa da, gedirdi qadınlarımız. Açılmamış pambıq qozalarını yığıb gətirir, evlərdə təzəklə yanan yer-kərpic sobaların üstündə qurudur, şabalıd kimi partladıb içərisindəki pambığı "yığır", təhvil verirdilər. Vallah, II Dünya müharibəsi illərində qadınların çəkdiyi zəhmət tonlarla romanlara sığmaz qadın əməyi hələ də lazımınca qiymətləndirilməyib. Ordunu geyindirən, yedirən, silahlandıran qadınlardı, o cümlədən Çaparlının o mehriban, zəhmətkeş, dözümlü, namuslu qadınları.

Tanıdıqlarımdan kimin adını unutmuşamsa, bağışlasın məni, qocalmağıma, hafizəmin zəifləməsinə çıxın, amma bunlar yaxşı yadımdadı: Səkinə, Xəndan, Güllü, Türfə, Ürfət, Şəkər, Şirinbikə, Nərgiz, Sahıb, Gülnaz, Böyükxanım, Anamxanım, Şeyda kişinin arvadı Narınc, Babacanın arvadı... Xeyrulla kişinin arvadı... Vallah, bağışlayın məni, Çaparlının, Qiyaslının, Daşdəmirbəylinin, Ağalarbəylinin,

Curuxlunun anaları, qız-gəlini! Əgər hamınızı saysam, yadıma salıb yazsam, bir kitab olar.

Uşaqlar (ayaqyalın, başıaçıq olanlar vardı) oduna, başqa iş-gücə gedəndə məktəbə gəlməyəndə atı minib kəndləri gəzir, atdöşü gətirirdim uşaqları məktəbə. Bu kəndlərdə aclara əl tutan adam çox idi. Kimin nəyi vardısa, bölüşürdü. Tarlada "süfrə" açanda üç-dörd adamın bağlamasından çörək çıxır, qalanları "göy sıxması", "göylü cad", "jmıx", "arpa qovurğası", "şit şor" olurdu. Yazda bəlküm yeməkdən uşaqlar "ota düşür", çətənə qovurub yeməkdən başgicəllənməsi tapırdılar. "Başaq" yığmaq da qadağaydı. İndi qədəri dəqiq yadımdan çıxıb, amma deyəsən, kimin əlində dörd yüz qram sünbül tutsalar, damlayırdılar. Belə bir müsibət kəndin ən qoca qadınlarından olan kimsəsiz Şəkər qarının başına gəlmişdi. Əlində sünbül tutub onu rayon mərkəzi Ağsuya aparmışdılar. Camaat xeyli narazı qalmışdı. O zamankı raykom katibi Hüseyn Mamedov, kənd sovet sədrləri Xeyrulla kişi, qonşu kəndlərin nüfuzlu sədrləri (həmişə planları doğruca doldurur, xalqın güzəranı qayğısına qalırdılar) Daşdəmirbəylidən Xasay bəy, Qiyaslıdan Əvəz kişi, qoca sakinlərdən Muradxan əmi, Abdulla kişi, Meşdağbalı əmi, Cəfər kişi və başqaları müdaxilə etdilər. Qarının vəziyyətini anlada, onu məhkəmənin cəngindən xilas eləyə bildilər.

Hər gün tarlada arvadlar yemək yeyən vaxt onlarçün qəzet oxuyurdum (başqa müəllimlər də: Ayişə müəllim, Nüybar müəllim və b.), əsasən, müharibə xəbərləriylə maraqlanır, qələbəni dörd gözlə gözləyirdilər. Hər dəfə qoşunumuz beş-altı kəndi alanda sevinir, böyük şəhərləri verəndə ağlaşır, kədərlənir, oradakı qadınların halına yanır, "yazıqlar" deyirdilər. Belə vaxtlarda bir az ruh yüksəkliyi qazanmaq, səbir, ürək-dirək verməkçün Səməd Vurğunun, Rəsul Rzanın, Məmməd Rahimin, Əhməd Cəmilin, o zamankı bütün şairlərin bu mövzularda yazdıqları vətənpərvər şeirlərini, Ordubadi, Əbülhəsən, Süleyman Rəhimov, Cahanbaxş, Mehdi Hüseyn, Ənvər Məmmədxanlı, Əli Vəliyev və başqalarının yenə də müharibə mövzusunda hekayələrini oxuyurdum. Faşist zülmünü təsvir edən nəsr əsərlərini oxuduqca qadınlar ağlayır, gözlərinin yaşını silib daha böyük qətiyyətlə, hikkəylə pambığı yığmağa girişir, elə bil düşmən boğazını üzürdülər. Qələbədən soraq verən səbir, mətanət təlqin edən əsərləri dinlədikcə qismən də olsa, sakitləşir, dərindən ah çəkib, yəqin ki, qəlbində öz əzizini də yada salır, ona da igidlik, qələbə, balalarının üstünə dönmək arzulayır, həsrət günlərinin başa çatmasıyçün daha əzmlə çalışırdılar. Həmişə o qadınlarımızın mətanətinə, səbrinə, dözümünə heyran qalmış, belə anaların övladlarına qələbə arzulamışam.

Vəziyyətim yaxşı deyildi. Hamı kimi mənimçün də ağır keçirdi. Həmişə hər şey tapa bilmirdim. Anam zəif, xəstəhal qadındı, işləmirdi. Kiçik qardaşım Əhməd məktəbimizdəcə oxuyurdu, şagirdimdi. Böyük qardaşım Məmməd (indi hər ikisi filologiya elmləri doktoru, professordur) yanıma gələndən sonra bircə o işləməyə başladı. Fermada hesabat işlərinə baxırdı. Yalnız bir-iki ay işləyə bildi. Yaşı düşməsə də, boyu yaradı, və onu əsgərliyə apardılar. Amma o işlədiyi zaman mənim bir məsələdə iştirakıma, nəsə bir xeyirxahlıq etməyimə səbəb oldu. Bir gün dedi ki, bacı, şagirdlərindən Gülhüseynin anası Türfə xalanı dolaşdıracaqlar. Fermada sağılan süddən nə qədərsə çatmır, ona görə yoxlama gəlmişdi. Mən də, kənd camaatı da yaxşı bilirdik ki, Türfə ölər, evinə haram aparmaz. Sadəcə öz tərəfindən yanına gəlib istəyən fağır-füqəra kənd adamlarına süd verib. Elə kolxoz sədri Sarı da bilirdi bunu. Amma fakt bu idi ki, südün camaata paylanması haqqında siyahı tərtib olunmamışdı. Hamısı Türfənin boynunda qalacaqdı. Əri cəbhədəydi, ailəsini tək dolandırırdı. Külfəti o dolandırsa da, Allah eləməmiş, balasını acından öldürərdi, bir qab kolxoz malına, lap elə süd olsun, dəyməzdi. Bu, həm də müharibə dövründə ən ağır günahlardan biri hesab olunurdu. Elə bil cəbhədəki əzizinin boğazından kəsib

oğurlayırdın. Qərəz, Türfəni məktəbə, müdir otağına çağırtdırdım. Aramızda təxminən belə bir söhbət oldu:

– Kimlərə payladığın yadındadı?

– Əlbət ki, ay uçtel (rus dili müəllimi gəldiyimdən əvvəl də məni elə belə çağırırdılar), sədrin özü də yaxşı bilir, tapşırıb özü, hamısı da, qədəri də yadımdadı. Amma Sarı Tarı saxlamış sabah-sabaha saldı, sonra da yadından çıxdı, deyəsən. Düzəltmədi siyahını nə o, nə hesabdar.

Kağız-qələm götürüb Türfənin dediyi siyahını tutdum. Kimlərə nə qədər süd payladığını yazdım, müxtəlif xətlərlə qolladıq, əlimizə düşəni gizlicə çağırıb qol çəkdirdik. Qərəz, iş düzəldi, siyahı öz vaxtında komissiyanın qənşərinə çıxarıldı. Məsələ də qurtardı, getdi. Mən Türfəgildə, qonşuluqda olurdum. Anamxanım adlı bir əsgər ailəsinin boş otağını vermişdilər bizə. Gözəllər gözəli Ürfət adlı dayısı qızı vardı qonşuluqda. O da cavankən dul qalmışdı, əri əsgərlikdəydi. Kağızı da gəlmirdi, öldüsü-qaldısı bilinmirdi. Hər gün al obaşdan durub tarlaya gedirdi hamıdan əvvəl. Hamıdan sonra qaş qaralanda qayıdırdı. Elə mehriban, elə canlı-qanlı, sədaqətliydi ki. Əsgərlərdən gələn məktubları çox vaxt mən oxuyurdum özü oxuya bilməyənlərçün. Bu zaman Ürfətin gözlərində elə bir həsrət, intizar oxuyurdum ki! Bu nakam gözəl gəlinin övladı da olmamışdı ki, istəkli ərinin ətrini ondan alsın, başını qatsın. Odu ki, işi-gücü tarlada bacardıqca çox işləmək, pambıq yığmaqdı. Planını artıqlamasıyla yerinə yetirməyə can atır, elə bununla da, cəbhəyə yardım edirdi. Bütün arvadlar beləydi. İnanın ki, gülərüzlü, mehriban Narınc briqadir Şeyda bəyin arvadı olmasına baxmayaraq o kəndlərdə tanıdığım Çəltikçi, Rəhimağalı, Ağalarbəyli, Cuxurluda, Daşdəmirbəylidə, Ərəbqiyaslıda Gülüş, Şövkət, yaşlı qadınlar Xəndan, Şəkər, Dünyabəyim, Safra gəlinləri, Sahıb, kənd sovet katibi olsa da, Nərgiz, məktəbimizin xadimi olsa da, Güllü arvad, Əsəd kişinin arvadı Maya xanım, Böyükxanım, Səkinə arvad, Göhər və onlarla başqaları eyni fədakarlıqla işləyirdilər. Hələ üstəlik vergi almağa qapılarını kəsdirəndə



axırıncı nələri vardısa, verirdilər: "Təki orda əzizlərimizçün yaxşı olsun" deyirdilər. Bu sözü dönə-dönə eşitmişəm ana-bacılardan.

Dediyim kimi, mənim də vəziyyətim hamınınkı kimiydi. Sovetliyin bəzi kəndlərinin vəziyyəti yaxşıydı, oralardan hamıya əl uzadan vardı. Dönə-dönə Daşdəmirbəylidə Xasay bəyin evində Camal bacıya qonaq olmuşam. İndinin özündə də arabir məni unutmayan, hərdən məktub yazan kiçik gəlinləri Maya xanımla dostluq etmişəm. Hər ay Xasay bəy mənə bir batman un göndərib. O və Qiyaslının sədri Əvəz. Bu iki nəfər olmasaydı, çörək sarıdan günüm qaraydı. Əvəz qardaş tez-tez, "bizim qarı səni görmək istəyir, elə kəndin qırağından gəlib uşaqları aparırsan, bir bizə gəl" – deyirdi. Getdim. Əvəzin "qarı" dediyi bu gözəl xanımı doya-doya, sevə-sevə xatırlayıram. "Qarı buymuş, Əvəz qardaş?" Əvəzin qardaşı müharibədə yaralanmış, Bakıya gətirilmişdi, Şüvəlan qəsəbəsinin indiki 156 saylı məktəbində (binasında yerləşən hospitalda) müalicə olunurdu. Cəbhəyə qayıdacaqdı. Əvəz kolxozu bircə saat da qoyub gedə bilməzdi, yanvar tətili idi, məndən xahiş etdi: bacısıyla birlikdə (yol-riz bilməyən, ömründə Qiyaslıdan kənara çıxmayan qadındı) Bakıya getdik. O zaman maşın filan yox idi. Olsaydı da, xüsusi iş üçün, hətta kolxoz sədrinin yaralı qardaşını görməyə bizə at da vermədilər. Sığırlıda qatara minməkçün dəvə kirələyib bizi yola saldılar. Gedəndə də, qayıdanda da bu bacı, mən və dəvəçinin macəralarımızı yazmaq xeyli çəkər.

Amma getdik də, qardaşı İbrahimi gördük də. Sonra o yenidən cəbhəyə qayıtdı. Gerisini bilmirəm.

Orada xoş xatırladığım adamlardan biri Xeyrulla kişiydi. Yamanca dostlaşmışdıq. Bir dəfə nədənsə məktəb müdirlərini Bakıya çağırmışdılar, Maarif Nazirliyinə. Xeyrulla kişi məndən xahiş elədi ki, onunçün bir papaq alıb gətirim. Söz verdim. Bakıya ABŞ-ın verdiyi studbekker maşınlarında gəlirdik. Ot tayalarının üstünə minir, otu saxlayan kən-

dirlərə sarılırdıq ki, Ağsu dolaylarında yıxılmayaq. 1942-ci ilin son günü, 1943-cü ilin əvvəli yaxınlaşırdı. Sürücülər bizi, yəni sərnişinləri "gizlin" daşıdığından adamları Bakıya çatdıranda Xırdalanda haqqını alıb düşürürdü ki, milisə rast olmasın. Cərimə verməsin. Xırdalandan Bakıdakı evimizəcən (Yuxarı Dağlıq küçəsi, indiki Abdulla Şaiq küç №80) pay-piyada gəlməliydim. Hamı da mənim kimi. Çarə nə idi? Gəlib evə çatanda xala bildiyim, anamın əmisi qızı, əlil və olduqca zəhmətkeş qadın İzzət bacının saatı gecə saat 11-i göstərirdi. Elə haldaydım ki, ot tayası məni elə hala salmışdı ki, İzzət bacı su qızdırıb yuyunmağı təklif edəndə sevindim. Evin ortasına iri ləyən qoydu. Daim işləyən divardan asılı radiosu xəbərlər verəcəkdi, dinləməyə hazırlaşırdıq. Elə suyu başıma tökən vaxt radio dilləndi: "Əziz dinləyicilər, sizi 1943-cü ilin gəlişi münasibətilə təbrik edirik". Göz yaşlarım başıma tökülən suya qarışdı. Deməli, yeni ili teştin içində qarşılayırdım. Bir dəfə Qanada olanda yeni ili Atlantik okeanın sularında axşamüstü ora vaxtilə saat 6-da qarşılamışam. Bu iki yeni il yadımdan çıxmır. Qərəz, Maarif Nazirliyində işləri tamamlayıb, yeni vəzifə təyinatı alıb, Çaparlıya dönmək istəyəndə Xeyrulla kişinin papağı yadıma düşdü, aldım, apardım. Səhər Xeyrulla kişini bir neçə nəfərlə bərabər idarənin önündə gördüm. Təzə papaq başındaydı. Mübarək deyib soruşurdular:

– Hardan aldın, əyşi?

– Uçtel sağ olsun, Bakıdan gətirib.

Kimsə məndən soruşdu:

– Uçitel, a on dengi dal?

Mən gülə-gülə, məsəli tərcümə edə bilməyən sorğuya belə cavab verdim:

– Astalos na "arpa dəyən".

Xeyrulla kişi rusca bilməsə də, "arpa dəyəni" bilirdi, cəld dedi:

– Vallah, ay uçtel, arpa dəyənə qalmayacaq.

Səhəri günü məktəbə gəlib papağın pulunu verdi.



Ağır günlərimin birində səhər yeməyə bir şeyimiz olmadığından ac qarına kiçik məktəbli qardaşım Əhmədlə birlikdə məktəbə yollandıq. Heç bir saat çəkmədi ki, Əhməd dərs dediyim sinif otağının qapısını kəsdirdi:

– Ana səni evə yeməyə çağırır.

Böyük tənəffüsdə evə gəldim.

– Ana, kimin yolunu kəsmisən?

– Heç kimin, ay bala! Daşdəmirbəylidən şagirdlərin – Mursaqulovlar bacı-qardaş gəlmişdilər, onlar gətirib.

Baş pendiri göndərilən qabdakı əla qaymağa batırıb yeməyə başladıq. Çörəyimiz yox idi.

– Heç padşah da belə nahar eləməyib, ana!

Mənə yaxından əl tutanlardan biri kəndin hörmətli adamlarından olan Ehtibar kişiydi. Onun arvadı Sahıb bacı, oğlu, əlaçı tələbəm Ağamayıl yadımdan çıxmır. Sədəf qarı, Qaliyə gəlinin əri cəbhədəydi. Haçan mənə at lazım oldu, Ehtibar kişi özünün yorğa, "qaragöz" adlandırdığım atını verirdi. Hara gərəksə, gedir, kəndlərdə qəzet oxuyur, vergi yığanlara yardım edir, müharibədən danışır, şeir oxuyurdum. Mənə bu ailənin böyük hörməti vardı. Bir gün rayona maaşa getmişdim. Səhər tezdən eyvanda əl-üzümü yuyurdum. Məktəbin zəngi eşidilirdi. Ehtibar kişinin arvadı Sahıb bacının qışqırtısını eşitdim:

– Ə-ə-ədə, ə-ə-ədə, Ağamayıl, Ağamayıl, ədə niyə məktəbə getmirsən?

– Uçtel maaşa gedib, ana, məktəbdə yoxdu.

– Ə-ə-ədə, uçteldən başqa məktəbdə ayrı miyəllim yoxdu? Ay səni həzrətabbasın beşaçılanına gələsən. Tez ol! Uçtel gecə qayıdıb, dədən atı bağladı töyləyə.

Məni gülmək tutdu Sahıbın qarğışına. Sonra ona dedim:

– Ay Sahıb bacı, həzrət Abbas vaxtında beşaçılan yoxdu, axı.

– Nə bilim, ay uçtel, dilimə elə gəldi. Nə bilim, tüfəng haçan çıxıb? Gözümü açıb görmüşəm.

Ağamayıl sonralar da məni unutmur, görüşümə gəlirdi Bakıda.

Məktəbimizin direktoru Əhməd adlı üzünün, əllərinin dərisi ala-tala olmuş bir yaşlı kişiydi. Böhtan dolu məktublar yazmışdı Bakıya – Maarif Nazirliyinə, hətta məktəbin xadiməsi Güllü bacı haqqında deyibmiş ki "olduğum evə girib, şalvarımı və tavayla məktəbə məxsus qəndi aparıb". O vaxt biz uşaqlara şəkərdən bişirilmiş qəndlə çay verirdik. Əlbəttə, müdir məktəbdə olmayanda məcbur olub, ev sahibəsinin yanındaca qəndi aparıb məktəbə uşaqlarçün. Şalvardansa heç xəbəri yoxdu. Halal arvad idi, ehtiyac içində yaşasa da, heç kəsə xəyanət etməzdi. Bakıdan komissiya gəlib məktəbi, mənim, Güllü bacının haqqında yazılanları yoxladı və müdiri Çaparlıdan uzaqlaşdırdılar.

Bakıda o zaman maarif naziri olan Xalq yazıçısı Mirzə İbrahimov məni görəndə gülümsədi, dedi:

– Sənsənmi o Çaparlı müəllimi? Mən nazirliyə gəlmiş şikayət məktubunu oxuyanda bilmədim ki, orada yazılan "şayka" düzəldib "quldurluq eləyir" deyilən adam kimdir? Familyandan da bilinmir.

Mənim əzizim Nərgiz bacı həmin adam haqqında camaat deyən kimi kişini ləqəbilə adlandırıb özünə düşmən qazanmışdı.

Bir dəfə qapılar açıq, dərs keçilən vaxt ucadan demişdi:

– Ay uçtel hey... O "ala müəllim" idarəyçün kağız söz vermişdi. Hardadı?

Mən eyvana çıxıb işarə etsəm də, iş-işdən keçmişdi. Müdir bu "ala müəllim" ləqəbindən xeyli əsəbiləşmişdi. Əlbəttə, xəstə adam idi, gərək deyildi. Neynəyəsən, hamı necə, Nərgiz də elə.

Qoruyurdu məni hamı. Kolxoz sədri Sarı bir dəfə anama demişdi ki, "Müəlliməyə deyin, bəzi (adları özüm demirəm) evlərə çox get-gəl eləməsin, oturmasın oralarda. Bit basıb onları. Amma o da kasıblara əl tutmağa can atırdı. Lakin neynəsin ki, onun kolxozu Daşdəmirbəylidə Xasayın (iki qardaşı cəbhədəydi), Qiyaslıda Əvəzin kolxozları kimi çox da varlı deyildi.



Bacarıqlı, əlaçı şagirdlərim vardı: Gülhüseyn, Nuhu, Səfər, Mustafa bəyin oğlu Əli, Mursaqulovların oğlu... Məni bağışlayın, qız şagirdlərim! Sizin adınız ona görə yadımda qalmayıb ki, sakit idiniz, özünüzü müharibə dövrünün böyük bacıları, anaları kimi aparırdınız, məni incitmirdiniz, mən də sizi heç danlamırdım, adınızı tez-tez çəkmirdim oğlanlar kimi. Səfər teleqram və məktubları Ağsu poçtundan alıb eşşək üstündə gətirəndə hamınız, elə mən də sizinlə birlikdə uğunub gedirdik. Teleqram eşşək üstə gəlirdi. Ayrı nəqliyyat vasitəsi yox idi.

Çaparlı sovetliyindəki qardaşlarımız, atalarımız mənə də atalıq, qardaşlıq, cavanlarsa övladlıq ediblər: Curuğ kişi, Əsəd kişi, Yunus, Uruf, Əlməhəmməd, Aslan... Sonralar onların övladları və başqaları məni unutmadılar. Çaparlıdan Muradxan kişi, Babacan, Abduləli və başqaları da eləcə. Necə deyim ki, xeyli əvvəl başım müdafiələrə, kitablara qarışdığından elə bilirdim ki, Çaparlı camaatı məni unudub. Günlərin birində poçtdan mənə bir bağlama gətirdilər. İçərisində əla narlar vardı. Yaqut dənəli behişt meyvəsi. Allah, bu kimdəndi, hardandi? Bağlamada kiçik bir məktub vardı: "Əzizə müəlliməl Bax, gör, qanqaldan başqa gül bitməyən, pambıqdan başqa ağac yetirməyən Çaparlıda necə narlar yetişir? Bunu bilməyinizi istədim". Yazan əlaçı şagirdim, indiysə həmin məktəbin direktoru Gülhüseyn Rüstəmovdu. İlahi! Deməli, məni Çaparlıda hələ unutmayıblar. Sevincimi təsvir edə bilmirəm. Orada yeni məktəb tikilib və keçmiş şagirdim Gülhüseyn, nəinki müəllimdir, hətta həmin məktəbin direktorudur!.. Bundan böyük xoşbəxtlik olarmı müəllimçün?!

Çaparlıda cəmi dörd il yaşayıb işləmişəm, amma elə bil ki, qırx il ömür sürmüşəm orada. Gözəl insanların xasiyyətinə bələd olduğum kimi, bir sıra adət və ənənələrimizi orada öyrənmişəm. İlk dəfə "Çillə çıxarmaq" adətini orada görüb "Aləmdə səsim var mənim" romanımda təsvir etmiş,

Türkiyədəki çıxışlarımda haqqında danışmışam. İndi bəzi adamlarda namərdlik, fırıldaq, satqınlıq, "özüyçün qapışdırmaq" kimi xislətləri görəndə o günlər nə qədər ağır olsa da, o müqəddəs günlər, o son tikəsini qəriblə, ehtiyacı olanla bölüşən müqəddəs bacı və qardaşlarım yadıma düşür. Acı da olsa, o günləri xoş xatirələrlə yada salıram. Sağ olsun bu kitabı tərtib edənlər ki, mənə o qırxa bərabər dörd ili yenidən yaşatdılar. Çaparlı sovetliyi kəndlərindəki camaatdan çox şey öyrənmiş və yeri düşdükcə romanlarımda işləmişəm. O adamlar kiçik ilahələrdir: o qadınlar mənə səbir, dəyanət, dözüm, çətinə düşənə əl tutmaq dərsi verdilər – övladlarına verdiyim dərs əvəzində. O zaman Çaparlıda kim mənə bir piyalə süd, şor, bir sərnic ayran, iki büküm yuxa veribsə, bilirəm ki, məcburən yox, ürəkdən özü istəyib verib, halal edin mənə! Dünyasını dəyişənlərə böyük Allahımızdan rəhmət diləyir, sağ-salamat qalanlara – məni yada salanlara uzun və sağlam ömür arzulayıram. Sağ olun, Allah amanında!

**Bakı, 1997**



# Atam (Kərbəlayi Məhəmməd)[4]

Atam yamanca at sevən idi, həmişə 5-6 atı olurdu (irili-xırdalı). Bunların içində əvvəl Kəhər day, sonra da Bozat onun sevimli minik atları idi. Boz madyan, qara madyan daima yadıma boğaz gəlir. Analığım onları minməyə qoymaz, "bala salar" – deyərdi. Mən də onları sulamaq üçün Pirsaata aparanda minməz, elə noxtanın ucundan yapışıb aram-aram təpədən çaya enən cığırla gedərdim. Bu məni heç fərəhləndirməzdi. Əsl bayramım atam kənddən, ya şəhərdən qayıdanda olurdu. Bu zaman o, atın yəhərini alan analığıma yəhəri yerləşdirmək haqqında əmrlər verə-verə mehriban, hər şeyi anlayan qonur gözlərlə mənə baxardı. Mən isə Kəhər dayın, ya da Bozatın yüyənindən tutub gözləyər, suya aparmazdan əvvəl həyətdə təri soyutmaq üçün o baş-bu başa gəzdirərdim. Atın kifayətcə soyuduğuna nəzər yetirən atam çoxdan həsrətlə gözlədiyim əmri verərdi:

– Di apar...

Elə buna bənd idim, çılpaq ata sıçrayıb yüyəni əlimə dolar, boynumu Kəhərin qara yalına tərəf əyib götürülər, analığımın "Allah, sən saxla!" çığırtısına da qulaq verməzdim. Kəhərlə bir-birimizi elə başa düşürdük ki, elə bil iki canda bir qəlb idik. Yalına yatanda canımız birləşir, ürəklərimiz bir döyürdü. At məni götürüb yorğalayır, evdən aralanan kimi ayağımın yüngül hərəkətindən məqsədimi anlayıb dördnala çapırdı, hayıf ki, özümü qartal kimi hiss

[4] "Atam" (2000-2003) / Əzizə Cəfərzadənin Ev Arxivi. Fond "P" / Qovluq №21 / Sənəd №35 / vərəq – 2

etməyim heç üç dəqiqə də çəkmirdi. Evimizdən Pirsaata qədərki məsafə Kəhər üçün nə idi ki?.. Kəhər suya girəndə tələsmir, aram-aram suyun ən təmiz yerinə irəliləyir, qara, yumşaq dodaqlarını dibindəki ağ xırda daşlar belə görünən bərrak[5] suya salıb sümürür, arabir başını qaldırıb qarşı sahildəki çəmənə baxır, bala-bala ona mane olan yüyənin kəmçəsini göyşəyir və bu zaman onun qara dodaqlarından şeh kimi parlaq damcılar axıb şıppıltı ilə çaya tökülürdü. Bu zaman Kəhərin boynuna doğru əyilib, yüyənin kəmçəsini ağzından çıxarıb burnunun üstünə tərəf itələyəndə minnətdarlıq duyulan səslə yavaşdan kişnəyir, sonra yenə su içməyə cumurdu. Kəhər suyu içdikdə böyürləri aşkarca qarnına tərəf sıxılmış qıçlarımın altında qalxır, sanki qovuqlanırdı... At suyu içib doyandan sonra dal-dalı geriləyir və sudan çıxırdı. Bu zaman onu evə tərəf deyil, kəndin arxasındakı Ağuçqundan İncəbelə tərəf gedən düz yola döndərir və daimi marşrutuma bələd olan at dördləmə götürülür, Pirsaat vadisində əsən mehdən də sürətlə irəli uçurdu. Yol dağın döşünə, kəndimizin qəbristanı başlanan yerə qədər uzanırdı. Burdan o yana Şamaxı poçt yoluna çıxan cığıra keçməyib, atı kəndə qaytarır və bu beş dəqiqəlik yolu bir neçə dəfə o baş-bu başa çapıb kəndə, evimizin qabağına gəlirdim. Kəhərin çaparağında evin daşı titrəyirdi. Analığım məni "Allah, sənə şükür"lə qarşılayır, atam bir söz demədən yüyəni əlimdən alır və atı tövləyə çəkirdi. Burada hər ikimiz köməkləşib onu qaşovlayır, yalını səliqəyə salır, məxmərlə tozunu alır və qarşısına arpa-saman tökürdük. Kəhərə arpa verməyi atam heç kəsə etibar eləmirdi. O, qədərincə arpanı xəlbirə götürüb tövlənin qapısına işığa gəlir, bir də xəlbirləyir, içinə düşən daş-kəsəyi diqqətlə seçir, sonra axurun yanına gəlib, sağ

[5] Bərraq – çox parlaq, bərq vuran, parıldayan



əllə səbirsizliklə ayağını yerə döyən atın boynunu şappıldadır, aram səslə kişnəməsinə gülümsəməklə cavab verib, sağ əlilə samanın ortasını çalalayır və səliqə ilə arpanı bura tökürdü. Kəhər qara, yumşaq dodaqlarını qılçıqlı arpanın üstünə elə yumşaqlıqla basırdı ki, elə bil arpa deyil, olduqca yumşaq nəsə götürür.

2000-2003

## Məşədi Böyükağa və Hacıağa əmilər[6/7]

Mənə çox vacib olan iki kiçik hadisəni danışmaq istəyirəm. Bunlar Meşədböyükağa əmimin qardaşı Hacıağa əmimin həyatı ilə bağlı, anektoda bənzər bir şey olsa da, olmuş, həqiqi, biri gördüyüm, biri də atamın gördüyü, danışdığı hadisədir.

Çox qəribə kişi idi. Balacaboy, arıq, cılız idi, amma çox biliyə malik, sərt səsnən danışan kişi idi, çığıra-çığıra. Əsəbi adam idi. İki də arvadı var idi. Bir gün bu arvadlar dalaşır, nə təhər olursa, bu gəlir arvadları ayırmağa:

– Ay köpək qızları, bəsdirin, – deyib arvadları ayırmaq istəyəndə arvadlar bunu itələyirlər, evdə də yaxında yekə ehsan qazanı var imiş, kişinin arxa hissəsi düşür ehsan qazanının içinə, əlləri və ayaqları qalır bayırda, çığırır, – Ay köpək qızları, əl verin mənə, durum.

Arvadlar ikisi də başlayırlar gülməyə və heç birisi əlini uzatmır. Elə bu dəmdə Meşədböyükağa girir içəri, görür bu kişini. Bunu da qah-qah tutur, ancaq hər halda böyük qardaşıdı, əlini uzadır qaldırsın. Deyir:

– Əşi, day bundan sonra bu qazanda ehsan bişirmək doğru deyil. Sən o qazanı xarab elədün.

İkinci hadisə özümlə əlaqədardı.

Həmin Meşədböyükağa əmim Badam bibimi, yəni özünün əmisi qızını qaralamışdı. Meşədböyükağa əmi, ümu-

[6] "Meşədi Böyükağa və Hacağa əmilər" (1999-2001) / Əzizə Cəfərzadənin Ev Arxivi, Fond "P" / Qovluq №21 / Sənəd №22 / vərəq – 4

[7] Əzizə Cəfərzadənin atasının yalnız Şərəfnisə adlı bir bacısı sağ qalıb, anası isə yeganə qız olub. Ona görə xala, dayı və əmisi olmayıb. Yeganə bibisi Şərəfnisə isə ermənilər 1918-ci ildə Şamaxıda qırğın törətdikdən sonra ailəsi ilə birlikdə İranın Məşhəd şəhərinə köçüb. Məşədi Böyükağa və Hacıağa əmilər burada əmi adlandırılsa da, ailəyə çox yaxın olan uzaq qohumlardandır – Turan İbrahimov.



miyyətlə, hansı kəndə, hansı rayona gedirdisə, orada bir ev tikir, siğə eliyirdi özü üçün mütləq. Bir gün mənə doktorluğu müdafiə eləyəndən sonra dedi ki, artıq alimliyini təsdiq edirəm, sənin kəsdiyin kəbinə dururam. Bibinin kəbinini kəs. Al bibivi mənə. Dedim, baş üstə.

"Yox" deyə bilməzdim. Gəldim. Badam bibi bizə gəlmişdi. Dedim, bibi, bəs Meşədböyükağa əmi səni istəyir və mənim kəsəcəyim kəbinə durur. Dedi:

– Nə deyirəm ki, mən də razıyam. Amma bir şərtlə. Əmindən soruş ki, sabah bazara gedəcək, dolu zənbilnən əvvəl mənim qapımdan içəri girəcək, ya Tutunun?

Tutu əmimin birinci arvadı, öz dayısı qızı, kəbinli arvadı idi. Bütün övladlarının anası idi. Çox mehriban, gözəl insan idi.

Bir dəfə Meşədböyükağa əmim bizə gələndə növbəti dəfə (tez-tez gəlirdi) soruşdum ki, əmi, sən hansı qapıya gedəcəksən? Bibim deyir, bazardan gələndə səbətnən, zənbilnən əvvəl hansı evə gələcəksən? Badam bibinin qapısından girəcəksən, ya Tutu əmidostumun? Dedi ki:

– Bıy, əlbəttə, öz evimə, Tutunun yanına.

Dedim:

– Hə, onda bibimnən əlini üz.

Bu söhbətdən bir qədər sonra kəndə getmişdim. Tava kəndində bizim qədimdən bir ailəvi dostumuz var idi. Rza kişi, karvançı idi. Qədimdən karvanla bağlı bir sıra şeylərin əksəriyyətini ondan eşidib öyrənmişdim. Həmin bu Rza kişinin çox gözəl xanımı var idi. Zərif, qəşəng qaraca kənd qadın idi. Amma çay üstündə[8] bişən beçə çığırtmasını onun kimi bişirən olmurdu, özü də bilirdi ki, bunun aşiqiyəm. Təcili surətdə beçə çığırtmasını hazırlayıb, elə

[8] Pirsaat çayı qırağında olan kəndlərə camaat "çayüstü kəndlər" deyirdilər.

gətirib tavanı ortaya qoyanda bu yandan Qubalıdan (bir-iki kilometrəcən araları var idi), Zahacalı əmim gəlib çıxdı. Ay xoş beş, on beş, ay dayı nəvəsi, səni xoş gördük. Məni qucaqlamaq, öpmək, dəm-dəstgahnan təbrik eləmək... Yan-yanaşı əyləşdik. Başladıq beçə çığırtmasını bismillah eləməyə. Dilim dinc durmadı. Tikələri çeynəyə-çeynəyə dedim ki, əmim Meşədböyükağa alimliyimi təsdiq eləyibdi. Deyir ki, sənin kəsdiyin kəbinə dururam. Badam bibini mənə al.

Elə bu sözü demişdim ki, elə bil bu balaca kişiyə barıt qoydular altından, partladı qalxdı ayağa. Çığırdı:

– Əmim qızı istəklim, deyiklim idi. Nə ixtiyarı var onun?

İndi ha deyirəm ki, ay kişi, nə Badam bibi razı oldu, nə mən kəbin kəsmişəm, nə almışam. Kişini sakitləşdirə bilmirik. Rza kişi də arvadı Zabta əmidostu da gülə-gülə oturub baxırlar. Axırı Zabta əmidostu (çox qayğıkeş qadın idi) dedi:

– Əşi, otursana aşağı, çörəyini yeginən. İndi nə alan var, nə satan. Qıza haram eləməginən yediyini, qoysana çığırtmasını yesin.

Beləliklə, yarıküsülü ayrıldıq.

Deyəsən, bu elə axırıncı görüşüm idi onunla.

**1999-2001**



# MÜƏLLİMLƏRİ HAQQINDA XATİRƏLƏRİ

## Mənim birinci şeyxim (Hacı Şeyx Fərəcullah Zeynalabdin oğlu Pişnamazzadə)[9]

Əslində, birinci müəllimim anam olub. Ərəb əlifbası hərflərini, türkcə çap kitablarını, xüsusilə, olduqca asan oxunan "Molla Nəsrəddin" jurnalının evimizdə olan bağlılarını oxumağı mənə o öyrədib. Evdə dərs verərdi, bir neçə şagirdi vardı. Mən də o cümlədən. Amma bu, hələ olduqca az idi. Onun fikrincə, ərəb dilini, Quranı oxumağı öyrənməli, əsl müəllimdən dərs almalıydım. 1945-1946-cı dərs ilində Maarif Nazirliyi tərəfindən rayonda işlədiyim Çaparlı kənd məktəbinin direktoru vəzifəsindən azad olub, ali təhsil almaq üçün Bakıdakı evimizə qayıtmış, uğurla imtahanları verib, Azərbaycan Dövlət Universitetinin Filologiya fakültəsinə daxil olmuşdum. Lakin mənə cəmi bir-iki ay oxumaq, parta arxasında oturmaq nəsib oldu. Səbəbini bir az aşağıda izah edəcəyəm. Elə bu zaman anam məni məhəlləmizdəki Şəkili Axund adı ilə tanınmış Aşağı Dağlıq küçəsində bizim evə yaxın mövqedə yaşayan Hacı Şeyx Fərəcullah Zeynalabdin oğlu Pişnamazzadənin evində (əlbəttə, gizli şəkildə) oxumağa – dərs almağa qoydu. Nurani simalı gözəl insandı. Aşağı Dağlıq küçəsilə Bir may küçəsinin kəsişdiyi tində olan ərzaq mağazası yanında çox vaxt onu məhəllə ağsaqqallarının əhatəsində görərdim. Tanıyırdım. Qışda əynində Xorasan kürkü, yayda əba olardı. Sonralar öyrəndim ki, ərəb dili və Quran dərs müəllimim 1870-ci ildə Şəkinin gəncəlilər məhəlləsində dünyaya gəlib. İyirmi il İraqın Nəcəfül-əşrəf və Kərbəla şəhərlərində təhsil alıb, axund Şeyx Fərəcullah adıyla xalq arasında geniş

[9] Cəfərzadə Ə.M. / "Mənim birinci şeyxim" / "Bu gün" qəzeti / 1998, 1 mart / səh. 7 Şeyxim (Şeyx Fərəcullah) (18.01.1998) / Əzizə Cəfərzadənin Ev Arxivi, Fond "P" / Qovluq №17 / Sənəd №10 / vərəq – 7

şöhrət qazanıb. Tehrandaykən Həsən xanın qızı, beş qardaşın bircə bacısı Rübabə xanımla evlənib. Hələ Nəcəfdəykən şərq təbabətiylə maraqlanıb, həkimlik də öyrənməyə başlayıb. Bunu biləndə təqaüdünü kəsiblər: "Bizə molla lazımdır" – deyiblər. Əvvəlcə Şəkidə fəaliyyət göstərib, 1930-cu ildə Bakıya köçüb. Kitabxanasında İbn Sinanın əsərləri və onlarla tibbə, nücuma[10], fiqhə[11] aid kitablar varmış, 1952-ci ildə Şeyx cənabları vəfat etdikdən sonra oğlu həkim Müctəba onları məscidə verib. Qızları Siddiqə orta məktəbdə biologiyadan dərs deyib. O biri qızı Məqbudə xanım həkimdir. Şəkidə qızını hələ o zamanlar Qız Gimnaziyasına aparıb qoyanlardan biri, bəlkə də, birincisi şeyx özü olub. Beş balasının hamısını ali təhsilli, savadlı, millətinə xeyir verən nəcib insanlar kimi böyüdüb. Bu gün nəvəsi Nemət Məmmədəli oğlu BDU-da fizikadan dərs deyən dosentdir. Oğlanlarından beşi də II Dünya müharibəsində iştirak edib. Cavad adlı oğlu isə Mozdokda tankın içində həlak olub. Şəkidə qızlar üçün məktəb açıb. Öz qızlarını də həmin məktəbə oxumağa qoyduğundan qaragüruhun məzəmmətlərinə məruz qalıb. Elə tərəqqipərvər fəaliyyətinə görə də, bəlkə, o vaxtı "allahsızlar" ona toxunmayıblar. Ərəb dili və Qurani-Kərim müəllimim, sən demə, ədəbiyyatımızı, təkcə öz ədəbiyyatımızı öyrənməklə qalmayıb. Onun rus ədəbiyyatına bələdiyyəti və Lev Tolstoyla yazışması məlumdur. O, Lev Tolstoyun iki məktubuna cavab yazıb. Bu, o zaman idi ki, Lev Tolstoy "Hacı Murad" əsəri üzərində çalışır və İslam dini qanunlarıyla maraqlanırdı. Tolstoy, Şeyx Fərəcullahdan İslam dininə aid xeyli şey öyrənib və bu dinə müsbət münasibətində Şeyximin böyük rolu olub. Həmin məktublar Tbilisinin Tarix muzeyindədir. Əliaçıqlığımız, qonaqpərvərliyimizlə bağlı Qərbin məşhur şəhərlərinə aparılan, səpələnən qədim əlyaz-

[10] Nücum – astrologiya
[11] Fiqh – şəriət hüququ, hüquqşünaslıq. Burada, həmçinin İslam dini nəzərdə tutulub.



malarımız kimi bu məktubların da taleyi beləcə olub, hələ lazımınca əldə edilib tədqiq olunmayıb.



*Hacı Şeyx Fərəcullah Zeynalabdin oğlu Pişnamazzadə*

Amma Şeyximin o zamanın ən məşhur şəxsiyyətlərindən olan "Molla Nəsrəddin" məcmuəsinin baş redaktoru Cəlil Məmmədquluzadə ilə yazışması geniş oxucu kütləsinə Mirzə Cəlilin 1985-ci ildə çap olunmuş "Seçilmiş əsərləri"nin 6-cı cildindən məlumdur. Bu məktublardan aydın olur ki, Şeyx Fərəcullah cənablarıyla Mirzə Cəlil arasında dərin, səmimi dostluq, get-gəl olub. Bir-birinin ailə, oğul-uşaq qayğılarından xəbərdar olublar. Hətta Mirzə Cəlil ailəsi ilə birlikdə Şəkidə Şeyxin evində qonaq da olub. Görünür, ədib Bayram Bayramov "Karvan yolu" romanındakı bir bütöv fəsli həmin hadisələrə həsr edərkən məhz dediyimiz məktublardan istifadə edib. 21 noyabr 1922-ci ildə Mirzə Cəlilin Şeyxə yazdığı məktubdan aydın olur ki, axund dostuyçün meyvə göndəribmiş. Mirzə Cəlil zarafat duyulan ailəvi hal-əhvaldan sonra onu "Fəzilətli Fərəcullah Pişnamazzadəyə" müraciətilə başladığı məktubda yazır: "... Nuxu (Nuxa, Şəki) dünyasını mən həmişə sizdən ibarət bilmişəm və bilirəm. Sizi mən böyük bir yadigar hesab edirəm və hər bir şey öz qaydasınca – əgər qız tərbiyəsi bizim gələcəyimiz üçün əsaslı bir məsələdir, bu məsələ dairəsində Sizin məqamınız birinci, yəni ən yuxarı

mərtəbədə tutulmalıdır. İndi bilmirəm, nə vəziyyətdəsiniz, nə məşğələdəsiniz! Bəlkə, Siz də mənim kimi bir qədər yorğunsunuz və bəlkə, mənim kimi Siz də az-maz məyussunuz? Ancaq Nuxu ətrafında gurultulu qız tərbiyəsi söhbətinin birinci dəfə kimlərdən qulaqlara gəlib çatması heç yaddan çıxılası deyil. Uşaqlara atalıq salamı, sizə qardaşlıq xeyir-duam. Sağlıqla yaşayın, qardaşım. Cəlil".

Məktubdan Şeyxin açdığı qız məktəbi ətrafındakı hay-küy, təqiblərdən başqa əgər cümlələrin altını oxusaq, görərik ki, Mirzə Cəlil və eləcə də Şeyx cənabları ictimai quruluşdan nələr çəkib, necə "yorğun"durlar, nədən "məyus"durlar. O illərdə cərəyan edən ictimai hadisələri yada salsaq, dövrün hər iki şəxsiyyətinin nə kimi təqiblərə məruz qaldıqları anlaşılacaq.

İkinci məktub 12 aprel 1923-cü ildə Şəkiyə göndərilib. Ömrü uzunu mollaları, xurafat əsiri rövzəxanları, ümumiyyətlə, yalançı din xadimlərini qamçılayan, "Molla Nəsrəddin"in hər sayında dövrün tanınmış irticaçı mollalarını tənqid atəşinə tutan Cəlil Məmmədquluzadə Şeyximə belə müraciət edir:

"Misli-bərabəri az olan fazili-həqiqi axund Fərəculla Pişnamazzadə həzrətlərinə" (Görün mənim müəllimim – şeyxim necə bir şəxsiyyət olub). Məktubdan aydın olur ki, Şeyx Fərəcullah cənabları Mirzə Cəlilin yaradıcılığına, "Molla Nəsrəddin" nəşrinə yüksək qiymət verirmiş.

Mirzə Cəlil yazır:

"Hər iki məktubunuz yetişdi. Nəhayət şad oldum. Məni bu dərəcədə qiymətləndirməyiniz barmaqlarıma artıq bir qüvvət verir. Çünki bu kifayətdir ki, Siztək nadirül-vücudlar cızma-qaralarımızı təqdir edirsiniz".

Cəlil Məmmədquluzadə Şeyx Fərəcullahın qız məktəbləri və öz qızlarını oxutması kimi o zamanlar çox çətin, ağır təqiblərə məruz qalan fəaliyyətinə, həm də onun ədəbi əsərlərə, yazıçının ədəbi-ictimai fəaliyyətinə verdiyi diqqəti yüksək qiymətləndirirdi. Bir də Mirzə Cəlilin "nadir şəxsiyyət", "fəzilət sahibi" və s. kimi ifadələri əbəs deyildi,



adi nəzakət qanunları deyildi. Şeyxim zəmanəsinin bir sıra qaragüruhçu mollalarına əsla bənzəmirdi. Maarifpərvər, xalqını sevən, millətinin inkişafına candan yardım etməyə çalışan, eyni zamanda hərtərəfli biliyə malikdi. O fiqhi bildiyi kimi, tibbi, astronomiyanı və başqa elmləri dərindən öyrənir və həyatda gənc nəslin inkişafına, tərbiyə verdiyi, hamısını ali təhsilli gördüyü balaları kimi, millətin gələcəyi olan gənc nəslin də beləcə inkişafına çalışırdı.

İndi deyə bilərəm ki, bax, ilk dini təhsil müəllimim belə şəxsiyyət idi və anam məni onun yanında dərsə qoymaqda əsla səhv etməmişdi. Ancaq təəssüflər olsun ki, Şeyx Fərəcullah Pişnamazzadənin – o vaxtlar Qafqaz müsəlmanlarının şeyxülislamının müavini olan müəllimimin yanında çox oxuya, dərs ala bilmədim.

İrəlidə dediyim kimi, heç yenicə, böyük həvəslə daxil olduğum universitetin filologiya fakültəsində də oxuya bilmədim. Əlimdə o zaman "xalq düşməni" hesab olunan ərəb əlifbası ilə kitab tutdular. Kitab Türkiyədə çap olunan siyasətdən uzaq adi roman idi. Onu mənə gözəl şair və mənim texnikumdaykən ədəbiyyat müəllimim olmuş Osman Sarıvəlli vermişdi. "Hardandır bu kitab səndə?" – deyə 2-ci şöbə soruşanda Osman müəllimin adını vermədim, "Atamın kitablarındandır" – dedim. Atam isə 1939-cu ildə artıq vəfat etmişdi və KQB onu məzarından qaldırıb kitab məsələsini "həll edə" bilməyəcəkdi. Osman müəllimin adını versəydim, "gənc nəslin, komsomolçunun tərbiyəsinə xələl gətirir" deyə çək-çevirə salacaq, bəlkə, tutacaqdılar da. Qərəz ki, həmin kitaba görə məni universitetdən qovdular. Doğrudur, sonra, o vaxtlar maarif naziri olan Xalq yazıçısı Mirzə İbrahimovun müdaxiləsi, rektorumuz gözəl insan və alim, professor Qarayevin və dekanımız şair Məhəmməd Hadinin bacısı oğlu, şübhəli şəkildə həlak olmuş Həbibulla Səmədzadənin yardımıyla məni universitetə ekstern yolu ilə qaytardılar. Amma artıq parta, mühazirələr görə bilmədim. Universiteti ekstern yolu ilə bitirdim. Deyə bilərsiniz ki, bunun Şeyx Fərəcul-

lah həzrətlərinə nə dəxli var? Bilavasitə dəxli var. Anam bu hadisədə KQB müdaxiləsi və çək-çevirə salındığımı görüncə Şeyxi qorudu. Məni ondan ayırmalı oldu. Çünki Allah eləməmiş, onun mənə gizli dərs verdiyi bilinsəydi, çək-çevir daha da uzanacaq, qəlizləşəcək və şübhəsiz ki, Şeyxə ziyanı dəyəcəkdi. Dərsim yarımçıq qaldı. Amma bu gün də o ilk müəllimimin dərsarası söhbətləri, izahatları gözümün önündə canlanmaqda, sırğa olub qulaqlarımdan asılmaqdadır. O elə mehriban, elə həlim, elə bağışlamağı, günahı əfv etməyi bacaran adam idi ki!.. Mənim kimi nadinc, intizamsız şagirdə necə dözdüyünə indi də heyranam. O mənə təkcə çərəkə, Quran oxumaqla qalmırdı. Həyatda rast gələcəyim və gəldiyim hadisələri elmin anlaya biləcəyim başqa sahələri haqqında ağ bığları arasından incə təbəssümlə tərpənən dodaqlarıyla elə izahatlar, məlumatlar verirdi ki, indi də yadımdadır. Şeyximin dərsə hazır gəlmədiyim, verdiyi yazıları yazmadığım günlərdə bu bığaltı təbəssümlə, həlim səslə "neynək, sabah yazıb gətirərsən. Yükün ikiqat artıq olacaq amma. Dünənki, bugünkü tapşırıq. Az deyil ki? Bəlkə, çoxdur, azaldaq?" deyirdi. Qıp-qırmızı qızarar, bu nəcib insanın, bu səmimi, bağışlaya bilən müəllimin, yüksəkdən səsini eşitmədiyim kişinin demədiyi, göstərmədiyi iradı məni içdən qovururdu. Mənə çoxlu ərəb məsəlləri öyrətmişdi. Onları sonralar ədəbi yazılarımda – roman və povestlərdə işlətdiyim olub. Dərslərimiz dini mahiyyətdən çox ədəbi səciyyə daşıyırdı, şeirlə, nəsihətamiz məsəl və atalar sözləri ilə keçirdi.

Şeyximdən dərsdə ayrılsam da, əlaqəm kəsilmədi. "Molla Nəsrəddin", "Qadın azadlığı", Sabir, Mirzə Cəlil və başqa yazıçılarımızın, şairlərimizin qadın məsələsiylə bağlı məqalələrini, ümumiyyətlə, qadın məsələsində marağımı təmin etmək üçün tez-tez ona müraciət edir, Quranın harasında, hansı surəsində bu haqda nələr deyildiyi, Allah kəlamında qadın məsələsini öyrənmək üçün evinə gedirdim. Ona birinci belə müraciətlə yolda – Aşağı Dağlıq küçəsi ilə Bir may küçəsinin kəsişdiyi yerdə yaxınlaşdım.



Dediyim kimi, ağsaqqalların əhatəsində dayanmışdı. Aralıda durub intizarla tək qalmasını gözləyirdim. Başa düşdü ki, ona nəsə demək istəyirəm. Ətrafındakılara nə dediyini bilmirəm, ondan bir addım kimi aralandılar. İşarəylə məni yanına çağırdı. Gəlib mətləbimi deyəndə nazik-nazik, xəfifcə gülümsədi:

– Mübarək olsun, – dedi, – eşitdim, müdafiə eləmisən. Amma evi ki tanıyırsan. Qapım həmişə üzünə açıqdır. Belə suallara küçədə cavab almaq...

Sözünü bitirmədi. Sonralar onlara ara-sıra gedər, məni narahat edən maraqlandığım fiqhə, təfsirlərə dair suallarıma cavab alardım. Xüsusilə, Mirməhəmməd Kərim axundun tərcümə və təfsir etdiyi türkcə üçcildlik Quranı əldə edib alıb oxumağa başlayandan sonra heç vaxt cavabsız qoymadı məni. Heç vaxt o nadinc şagirdinə ağır üz göstərmədi. Rəhmətlə yad edirəm.

Aspiranturada mərhum Əli Azəri, Ələsgər müəllim mənə dərs deyəndə, sonralar romanlarda tarixdən bəhs edəndə və din xadimləriylə üzləşməli olanda Şeyximin dərsləri mənə xeyli kömək edirdi.

Xüsusilə, "Aləmdə səsim var mənim" romanında Seyid Əzim Şirvanini müdafiə edən, yalan olmasın, Sovet dövrü nəsrimizdə, bəlkə də, yeganə müsbət din xadimi surətini yaradanda Axund Hacı Şeyx Fərəcullah Pişnamazzadə gözlərimin önündə canlanıb həmişə. Axı mən Ağa Seyid Əli ağanı görməmişdim. Amma eləcə onun kimi tərəqqipərvər ruhani surətli Şeyxim gözlərimin önündəydi. Mənə elə gəlirdi ki, Ağa Seyid Əli ağa məhz şeyxim kimi belə hərəkət edə, belə danışa bilərdi. Hər ikisinə Allahdan rəhmət arzulayıram. Hər ikisinin ruhu şad və bizə duaçı olsun Allah qarşısında. Bu gördüyünüz şəkil Axund Şeyx Fərəcullahın mənə dərs dediyi illərdə çəkilib. Mən onu belə görmüşəm, belə nurani xatırlayıram. Allahın rəhməti səninlə olsun, Şeyxim.

**Bakı, 15-18 yanvar 1998**

# Şeyxülislam Şeyx Mirmöhsüm Ağayla görüşlərimdən[12]

Əslində, ərəb əlifbası, fars dilini öyrədən altı müəllimim olub: birinci anam, ikinci Hacı Şeyx Fərəcullah Zeynalabdin oğlu Pişnamazzadə, üçüncü Şeyx Mirmöhsüm Şeyx Əli oğlu Həkimzadə, dördüncü Əli Azəri, beşinci Məmmədağa Sultanov və altıncı Fazil Seyidov. Bunlardan yalnız ikisi – əvvəlcə Şeyx Mirmöhsüm cənabları ərəbcədən, sonra da aspiranturada Əli Azəri mənə farscadan müntəzəm dərs deyib. Bizim qədim, XIX-XX əsrlərdə fəaliyyət göstərən qabaqcıl fikirli vətənsevər ruhani alimlərimiz Şeyxülislam Əhməd ağa Səlyani, Axund Turab, Axund Mirməhəmməd Kərim, Şeyx Qəni, Axund Yusif Talıbzadə və b. haqqında ruhani atalar və ruhani mətbuat zaman-zaman söz açıb. Məhz onlar İslamın mütərəqqi cəhətlərini xalqa çatdırmaqda böyük işlər görüblər. Belə alimlərdən biri də O idi. Şeyx Mirmöhsüm Həkimzadə! Həm də onda böyük cürət var idi!.. Axı həmin illərdə 1937-1938-i görmüşlərdən kim götürərdi öhdəsinə şeyxülislamlığı? Öz canı bir yana, ailəsinin, uşaqlarının da dinc həyatı təhlükə altına düşürdü. Hamı – bütün onu tanıyanlar və ailəsini sevib hörmət edənlər təşviş keçirirdi onun üçün. Xüsusilə, möhtərəm xanımı – adı kimi yumşaq, gözəl təbiətli Məleykə xala! Tez-tez bizə uğrayıb dərdini rəfiqəsi və uzaq qohumu anamla bölüşürdü. Anam təskinlik verirdi Məleykə xalaya. Öz qorxularını ürəyinin dərinliyində gizləyib Məleykə xalanı sakitləşdirər, göz yaşlarını silər, titrək dodaqlarına təbəssüm qondurub evinə yola salardı. Hamı Ağa üçün qorxardı.

[12] Cəfərzadə Ə.M. / "Şeyxülislam, Şeyx Möhsüm Ağayla görüşlərimdən" / "Bakıpost" qəzeti / 1997, avqust / səh. 3
"Şeyxülislam, Şeyx Möhsüm ağayla görüşlərimdən" (08.1997) / Əzizə Cəfərzadənin Ev Arxivi, Fond "P" / Qovluq №21 / Sənəd №3 / vərəq – 5





*Şeyx Mirmöhsüm Şeyx Əli oğlu Həkimzadə*

Fars dilini, ərəb əlifbasını öyrənməyimin kiçik bir tarixçəsi var. 1945-ci ildə 37-nin səsi hələ eşidilirdi. Ərəb əlifbası "xalq düşməni" səviyyəsindəydi. Həmin ilin sentyabrında Azərbaycan Dövlət Universitetinə daxil olmuşdum. Hələ üç ay keçməmiş əlimdə ərəb əlifbasıyla kitab tutdular və məni universitetdən çıxardılar. Sonra universiteti ekstern yoluyla bitirməli oldum, məni aspiranturada saxladılar. Bax elə bu zaman məlum oldu ki, ərəb əlifbası, ərəb və fars dilləri mənə lazımmış. O zaman biz aspirantlar on bir minimum imtahanı verirdik. Bunlardan beşi dil: ərəb, fars, rus, ingilis və Azərbaycan diliydi. Qalanları ixtisas fənlərindən və fəlsəfədən ibarət idi.

Əlbəttə, bizi aspiranturada gələcək ədəbiyyatşünaslar kimi hazırlayanlar ərəb əlifbasını, fars və ərəb dillərini bilməyimizi vacib sayırdılar. Axı bizim ədəbiyyat, demək olar ki, min il boyu həmin əlifbayla yaranmışdı. Min il boyu fars və ərəb dillərində yazıb-yaradan şairlərimiz, alimlərimiz olmuşdu. Xaqani, Nizami, Füzuli, Hacı Zeynalabdin Şirvani...

Hə, bu zaman anamdan öyrəndiyim əlifbayla öz dilimizdəki və Türkiyədə çap olunan kitabları oxuya bilirdim. Fars və ərəb dillərinisə öyrənməliydim. Anam əvvəlcə məni Şəkili Axund Hacı Fərəcullahın yanına apardı.

Amma axundun yanında çox oxuya bilmədim. Anam məni çoxdan evimizin əzizi olan Məleykə xalanın yanına apardı. Xeyli xısın-xısın danışandan sonra şeyx cənablarının otağına keçib razılığını aldılar və məni hörmətli müəllimə tapşırdılar. Bunun özü də cürət istəyirdi. Dərslər gizli keçilməliydi, axı sovet gəncinə ərəb əlifbasından dərs demək...

İlk dərsdən başlayaraq daxilimdə Şeyx cənablarına qorxu qarışıq bir məhəbbət hissi oyandı. Qorxurdum. Çünki şeyx cənabları çox tələbkar və tündməcaz idi. Onun təbəssümünü xatırlamıram belə. Məndən razı qalıb-qalmadığını yalnız yeni dərsə keçməsindən anlardım. Şeyx cənablarına məhəbbətimsə dərin biliyi, ərəb və fars dillərinə mükəmməl aşina olması, dərin alimliyi, din tarixini, dini elmləri dərindən bilməsinə görəydi.

Məhz onun təkidiylə İslam tarixindən bəhs edən ərəb yazıçı-tarixçisi Corci Zeydanın "Əzrayi-Qureyş", "17 ramazan", "Ərmənusə", "Kərbəla yanğısı", "Səlib müharibələri" kitablarını oxumuşdum. Bu kitablar alimlərdən Mirməhəmməd Kərim axund tərəfindən dilimizə tərcümə və ərəb əlifbası ilə nəşr edilmişdi. Bu kitablar elə gözəl dillə tərcümə olunub ki, kiçik redaktə ilə indiki əlifbamıza çevirsək, maraqlı, xeyirli və savab iş olar. Təəssüf ki, İslam tarixindən bəhs edən bu kitablar mərhum Şıxəli Qurbanovun təşəbbüsünə baxmayaraq yeni əlifbamıza çevrilmədi. Vaxtilə xalqımızın sevimlisi Şıxəli Qurbanov həmin əsərləri kirildə çap etdirmək istəyirdi. Məni MK-yə çağırıb annotasiya da almışdı. Lakin ömür vəfa eləmədi. Şıxəlimiz əlimizdən getdi.

Şeyx cənabları suallarıma cavab olaraq mənə dini ayrı-seçkilik, təriqətbazlıq kimi məsələləri başa salsa da, bu haqda düşünməyi belə qadağan etmişdi. Məni əsl müsəlman kimi düşünməyə vadar edən də o idi. "Allah bir, peyğəmbər bir, Qurani-Kərim birdir. Ayrı-seçkilik salanlar İslamı zəiflədir, kökünə balta çalırlar", – deyirdi.

Şeyx cənabları mənimlə çərəkədən başlamadı. Çərəkəni anam keçmişdi. Ərəb əlifbası ilə tanışlığımı nəzərə alıb



birbaşa Qurana keçdi. Təəssüf ki, o zaman mən daha çox oxuya, Şeyxin dediklərini dərkə çalışır, yazıya fikir vermirdim. Elə indinin özündə də ərəb əlifbasilə yaxşı oxuyuram, farsca yaxşı oxuyuram, dürüst yazmağı bacarmıram.

Şeyx cənabları mənə çoxlu ərəb məsəlləri, ulularin, xüsusilə, rəsuli-xudanın, həzrəti-Əlinin kəlamlarını öyrədirdi. "Amenna və səddəqna" (inanırıq və sədaqətliyik), "Lafəta illa Əli, la seyfə illa zülfüqar" (Əlidən başqa cavan, qılıncından kəsərli qılınc yoxdur), "Allahümə tübbe aleyna qebl-əl movt" (Ölən anda bizə rəhm et), "Və la müəzzibna bəd əl movt" (Öldükdən sonra da bizə əzab vermə), "Qüd: Allahi, tədəqə nəfsəkə və səlasə" (Əvvəl öz nəfsinə üç talaq ver). "Kim mənə bir hərf öyrətsə, onun quluyam". "Elm Çində də olsa, ardınca get!" "Elmi beşikdən qəbrə qədər öyrən". "Elmdən iki hərfi düstur tut: birinci, Xaliq sənə baxır, nə iş görürsənsə, görür; ikinci, Allah təala sənin əməlinə möhtac deyil" kimi deyimləri ilk dəfə ondan eşitmişdim.

Deyirdi ki, üç xislət insanın nəcabətinin, yaxşılığının sübutudur: Dəniz kimi əliaçıq, comərd, günəş kimi şəfqətli, torpaq – yer kimi səxavətli olmaq.

Burdaca deyim ki, İslam ulularının gözəl kəlamlarını mənə təlqin etməsi yadıma düşdükcə təəssüf edirəm ki, Bakıda möhtəşəm İsmailiyyə binasının (İndiki Milli Elmlər Akademiyasının Rəyasət Heyətinin binası) üstündə insanı elmə, yaxşılığa çağıran, dəvət edən ərəb əlifbasının gözəl xəttiylə müəyyən yazıların üstü indiyəcən açılmayıb, bəs indi açılmasa, haçan açılacaq?

Dərslərimdə Şeyxim mənə bəzi mədrəsə, mollaxana şagirdlərinin həyatından lətifəyəbənzər əhvalatlar danışmaqla "qələt" sözünün əsl mənasını anlatmışdı. Elə anlatmışdı ki, qələt, yəni səhv eləməyim. Belə dərslərim yadımda daha yaxşı qalırdı.

Onu da deməyi lazım bilirəm ki, bədii-tarixi əsərlərə marağımın oyanmasında Şeyximin rolu böyük olub. Sonralar romanlarımda ərəb məsəlləri, İslam ulularının kəlamlarını

işlətdikcə, dini məsələlərə münasibətim bilindikcə, böyük şair və yazıçılarımız, xüsusilə, "Aləmdə səsim var mənim" romanına böyük məqalə yazmış Xalq şairi, ustad Rəsul Rza təəccüb edirdilər. Axı mən 37-dən keçmişdim. Heç bir dini təlim almamışdım zahirdə. Bəs bu biliklər hardandı?

Şeyximin, müəllimimin təlimiylə ərəb və fars dillərindən minimumları uğurla verdim. Və təəssüf ki, elə ondan sonra da dərslərimi buraxdım. Başım yazılarıma qarışdı.

Şeyx cənabları xəyalımda olduqca təmizkar, vasvasılığa varacaq qədər təmizkar, ciddi, tələbkar insan və müəllim kimi qalıb. İslam dininə yaxınlığım, ayinlərə rəğbətim də elə inamla başlayıb, Şeyximlə möhkəmlənib.

Yaxşı olardı ki, ara-sıra mətbuatda, radio və televiziyada bizim o dövrlərin mütərəqqi ruhaniləri haqqında danışılaydı. Onlarla bağlı xatirə gecələri keçiriləydi. Onda dindarlar da, 70 il dini tiryək hesab edənlər də anlar ki, bizim neçə-neçə gözəl, tərəqqi sevən, millətin inkişafıyla bərabər əqidəsinə, gözəl əxlaq sahibi olmasına çalışan ruhanilərimiz, din xadimi alimlərimiz olub.

"Alim öləndə aləm ağlar", "Alimin mürəkkəbi şəhid qanı kimi müqəddəsdir" deyib nənə-babalar. Şeyx Mirmöhsüm ağa belə alimlərdəndi. Onu əsrin əvvəllərində elmiylə şöhrət qazanmış Axund Əbu Turab, Şeyx Yusif Talıbzadə, Mirməhəmməd Kərim ağa və b. kimi alim və fazil şəxslərlə yanaşı xatırlatmaq vacibdir.

Şeyximə, müəllimimə Allahdan rəhmət arzulayıram.

**Bakı, avqust 1997**



## Universitet müəllimlərim[13]

Azərbaycan Dövlət Universitetinin 70 yaşı tamam olur. Bizim S.M.Kirov adına Qırmızı Əmək bayrağı ordenli universitetimizi[14] müharibədən əvvəl və sonrakı illərdə bitirmiş və indi çoxu təqaüdçü, əmək veteranı olan, bir qismi isə hələ də fəaliyyət göstərən sabiq tələbələrin, demək olar ki, yaşıdıdır universitetimiz.

Universitetimizlə bir ildə, bir gündə anadan olanlarımız var. Universitetimizlə bir gündə, bir ildə əmək fəaliyyətinə başlayanlarımız köçüb, qovuşub əbədiyyətə. Bizim üçün o zamanlar arzuların ən ucası, arzular arzusuydu. Elm ocağına qədəm qoyduğumuz gün tanıdığımız, hələ ondan çox-çox əvvəl bədii və elmi, populyar əsərləri, tədqiqatları, tənqidi məqalələri ilə tanıdığımız, səslərini radio dalğalarında eşidib üzlərini görmədiyimiz alimlər müəllimlərimiz olacaqdı, əlimizə elmin açarını verəcək, bilmədiyimizi öyrədəcək, yazmaq, yaratmaq bacarığımızla həvəsimizi mükəmməlləşdirəcək, elm göylərində uça bilmək üçün qanad verəcək, tədqiqat masasının ardında əyləşib tarixin, ədəbiyyatın dərinliklərinə dala bilmək üçün səbirli olmaq öyrədəcəkdilər. Öyrəndiklərimizi başqalarına da verə bilmək üçün el-günümüzə, onun tarixinə, ədəbiyyatına, çoxəsrlik mədəniyyət dünyasına dalmaq, almaq və qaytara bilmək səbatı təlqin edəcəkdilər bizə.

Əməllərimiz uca olduğu kimi, müəllimlərimizə, professorlarımıza məhəbbətimiz də ölçüyə gəlməz idi. Kimləri tanıdıq universitetə daxil olduğumuz günlərdə? Əli Sultanlı, Feyzulla Qasımzadə, Mikayıl Rəfili, Həbib Səmədzadə, Cəfər Xəndan, İsmayıl Əfəndiyev, Ə.Dəmirçizadə, Şamil Məmmədbəyli, Arif Dadaşzadə, Ə.Sumbatzadə, Heydər Hü-

[13] Cəfərzadə Ə.M. / "Universitet müəllimlərim" / Bakı: "Azərbaycan dili və ədəbiyyatı tədrisi" – "Azərbaycan məktəbi" jurnalına əlavə / 1989. №3 / səh. 53-55 "Universitet müəllimlərim" (01.07.1989) / Əzizə Cəfərzadənin Ev Arxivi, Fond "P" / Qovluq №21 / Sənəd №8 / vərəq – 6

[14] İndiki Bakı Dövlət Universiteti (BDU)

seynov, Makovelski, M.Şirəliyev, Reçitskaya, Mir Cəlal, M. C.Cəfərov, M.H.Təhmasib... Saya qalsa, böyük bir siyahı alınar və çoxunu mətbuatdan tanıyır, əsərləri ilə sevirdik. Evdə, çöl-bayırda rast gəldiklərimizə bizə kimlərin dərs deyəcəyini qabarmış sinəmizi dolduran iftixar hissiylə söyləyirdik, tərifdən yorulmurduq. Şekspir deyib ki, "əgər sən sevdiyinin tərifi ilə dinləyiciləri yormamısansa, deməli, sevməmisən". Biz də müəllimlərimizi sevirdik, dinləyicilərimizi yoranacan danışırdıq onlardan.

Geyimimizdə, davranışımızda, danışığımızda onlara bənzəmək istəyir, biliklərini öyrənmək, məhəbbətlərini qazanmaq üçün qabıqdan çıxırdıq. Təqlid edirdik mühazirə, danışıq maneralarını. Gələcəkdə onlar kimi, onlara bənzər müəllim, alim olmaq ən böyük arzumuz idi. Onlar buna layiq idilər. Onlar "mənim-sənin adamın" ifadələrini bilmirdilər. Kimin adamı, haralı olduğumuzdan xəbərsiz, biliyimizə qiymət verirdilər. Bacarıqlını, yaxşı oxuyanı cürətlə irəli çəkir, əzizləyir, inkişafına səy göstərirdilər. Onların harada, necə və nə yediklərini, papiros çəkib-çəkmədiklərini bilmirdik, yersiz danışıb-gülməklərini, qeybətlərini görüb-eşitməmişdik. Nəzərimizdə ən yaxşı, ən qüsursuz insanlar, atalarımız, böyük qardaşlarımız, inandığımız mürəbbilərimiz – müəllimlərimiz idilər.

Professor Rəfilinin dəbdəbəli, təmtəraqlı, heyranedici mühazirələri, Əli Sultanlının Bayron, Şiller, Şekspir yaradıcılığından əsl aktyor məharətilə verdiyi bədii lövhələr, F.Qasımzadənin hərtərəfli, geniş, əhatəli, ən xırda detalları, unudulmuş şəxsiyyətləri də əhatə edən duzlu söhbətləri, İ.Əfəndiyevin yarıhənək-yarıgerçək beynimizə "mıxlamaq" istədiyi "təriflər" unudulmaz idi və indinin özündə də həmin səslər, həmin mülahizələr sabiq tələbələrin qulağında səslənir.

Müharibə qurtarar-qurtarmaz dərs dediyim kənd məktəbindən Bakıya döndüm, ali təhsil almalıydım. Əlbəttə, universitetin filologiya fakültəsinə daxil oldum: 1945-1946-cı dərs ili idi. Heç üç ay məftunu, acı olduğum mü-



hazirələri dinləməmişdim ki, əlimdə ərəb əlifbası ilə kitab "tutduqları" üçün universitetdən bayıra atıldım. Az qala bütün ümidlərim boşa çıxırdı. Dekan müavinimiz Həbibulla Səmədzadə, xüsusilə, onunla söhbətdən sonra rektorumuz professor Abdulla Qarayev imdadıma çatdı. Məni qaytardılar yerimə, amma gözəl alim, tədqiqatçı və dərin düşüncəli pedaqoq olan Həbibulla Səmədzadə mənə məsləhət gördü ki, o zaman mən vəziyyətdə olanlar da daxil olmaqla, müharibədən qayıdanlar üçün təşkil olunan ekstern yolu ilə qurtarım universiteti. Həbibulla müəllim mənə dedi: "Qız, o dil, o xasiyyət ki səndə var, səni buradan çıxaranlar yenidən bir bəhanə taparlar. Sən yenə də dilini saxlamayıb dilləşərsən, bu dəfə heç kəs köməyinə gələ bilməz. Hazırlığın var, neçə ilin müəllimisən, eksternə keç, o yaxşıdır". Rəhmət olsun sənə, əziz müəllimim. Onsuz da, ailə vəziyyətimiz elə idi ki, işləməyə məcbur idim, əyani oxusaydım.... Yaxşısı budur, müəllimlərimizdən danışım. Ekstern imtahan verdiyim aylarda müəllimlərim, xüsusilə, Əli Sultanlı, Cəfər Xəndan, Feyzulla Qasımzadə, Mir Cəlal mənə necə bələd oldularsa, altı-yeddi ay ərzində bütün imtahanları qurtara bilməyimi də nəzərə alıb özləri məni aspiranturaya məsləhət gördülər.

Aspiranturaya imtahanları Xalq yazıçısı İsmayıl Şıxlı ilə birlikdə verirdik. Bu imtahan prossesini hörmətli yazıçımız "Mənim rəqibim" hekayəsində təsvir etdiyindən və bizim hər ikimizin aspiranturaya girə bilməyimiz üçün istəkli müəllimimiz Əli Sultanlının çəkdiyi zəhməti layiqiylə təsvir etdiyindən o hadisəyə toxunmuram. Yalnız onu demək istəyirəm ki, Əli müəllim heç birimizi itirmək istəmirdi. Yer isə bir idi. İndi zaman çox dəyişilib, təəssüf ki, zamanla birlikdə insan əxlaqında da elə çalarlar meydana gəlib ki, hazırda cürət edib bir aspirantı beləcə müdafiə etsən, dərhal natəmizlər təmizi ləkələməyə çalışar, "görəsən, yerlisidi, qohumudu, nədi? Ya da "nə mənfəətisə var ki, əlləşir" – deyərlər. O vaxt isə bizim müəllimlər belə ləkələrdən arı idilər. Çünki qohum-dost, tanış-biliş, natəmizlik kimi

mənfiliklərdən uzaq idilər. Elm üçün, özləri üçün ləyaqətli bildikləri, istedadına əmin olduqları əvəz, davamçı, kadr hazırlamaq məqsədi güdürdülər. Bu ali məqsəddən özgə işləri yox idi.

Müəllimlərimiz olduqca xeyirxah idi, tələbə və aspirantların həyatı, ehtiyacı həmişə onları düşündürür, əllərindən gələn yardımı edirdilər. Aspiranturada oxuduğum illərdə (1947-1950) hələ ölkə özünə gəlməmişdi, müharibənin yaralarını sağaldırdı, vəziyyət ağır idi. Həm oxuyur, həm işləyirdim. Cismən çox zəif olmağım müəllimlərim və aspirant yoldaşlarımın nəzərindən qaçmamışdı. Xəbərim olmadan mənə istirahət evinə putyovka düzəldib yola saldılar.

Müəllimlərimiz bizi gündən güneyləyir, yağışdan daldalayırdılar. Amma cismən. Elmdə isə heç bir güzəşt etmirdilər. Yazdığımız əsərləri tez oxuyur, bizi süründürməyə salmır, görüşüb ətraflı söhbət edir, qüsurlarımızı başa salır, uğurlarımızı da təmkinlə söyləyib bizi qanadlandırırdılar. Elə buna görə də universitetin o illərdəki aspirantları cərgəsindən Bəxtiyar Vahabzadə, Gülhüseyn Hüseynoğlu, Gülçöhrə Rəhimova, Rəhim Nağıyev, Qoşqar Əhmədov, Rəhim Hüseynov kimi alimlər yetişdi. Sonuncular texniki elmlər sahəsindən olsalar da, rus, xarici dil, fəlsəfə və tarix dərslərini birlikdə keçir, minimumları birlikdə verirdik. Minimumlar da çox və mürəkkəb idi. Biz Azərbaycan ədəbiyyatı tarixini ixtisas fənni kimi keçir, bundan başqa tarix-fəlsəfə, ərəb dili, fars dili (mərhum müəllimimiz Əli Azərinin zəhmətini unutmaq olmaz), rus və ingilis dillərində hazırlaşırdıq. Axı universitet özü üçün müəllim, elm üçün tədqiqatçılar hazırlayırdı. Əsl kadrlar. Və onların heç birini tapşıran, heç biri üçün üzgörənlik edən yox idi.

Biz də həm universitetin, həm də müəllimlərimizin qayğılarına layiq olmağa, zəhmətlərini itirməməyə, istədikləri səviyyədə davamçıları olmağa çalışırdıq. Bir-birimizdən öyrənməyə, bir-birimizə kömək etməyə can atır, minimumları bir yerdə hazırlayırdıq. Birimizin tanımadığı, tapmadığı mənbəni o biri tapanda hamımız bundan istifadə edirdik.



Universitetimiz bizə ümidlə, gələcəyin alim-müəllimləri kimi baxırdı. Bizim üçün isə universitetimiz doğma ata yurdu, ata ocağı, ana qucağı idi.

Bir dəfə "məni çox istəyənlərdən biri" elmi rəhbərim F.Qasımzadəyə pıçıldayır ki, "o dissertasiyasını özü yazmır". Hər şeydə yaxın dostu Əli Sultanlı ilə məsləhətləşən elmi rəhbərim bu fikri ona dedikdə Əli müəllim söyləyir: "Yox, ola bilməz, diplom rəhbəri olmuşam. N.Vəzirovu yazırdı. Fikirlərində səhv də olsa, orjinaldı, özünündü" – deyir və hər şeyi öz gözləri ilə görüb, öz əli ilə yoxlamasa, özü oxumasa, heç bir "görmüşəm"ə inanmayan Mirzə Feyzulla müəllim məni sınamaq üçün görüşəndə suallar verməyə başladı: "Cizyə nədir? və s. kimi. Axı mövzum M.F.Axundovun "Kəmalüddövlə məktubları" ilə əlaqədar idi. Maarifçi ziyalı-gənc surətlərini yazırdım. Suallarına təəccüb elədim, bunu görüb mənə bir mövzu və bir neçə vərəq verdi, aralıda əyləşib nə isə oxumağa başladı. Bir qədər sonra yazdığımı oxudum ona. Görünür, razı qalmışdı. Sonra özünün xısın-xırda təbəssümü ilə Əli müəllimlə söhbətini mənə danışdı. Bundan, bu imtahandan sonra övladına çevrildim. Xanımı Tubu bacı biz aspirantlara qapı açıb çay verməkdən yorulmuşdumu, ya yox, bilmirəm. Amma bizi həmişə mehribanlıqla qarşılar, uğurumuza sevinərdi.

Bizim o əziz, o qayğıkeş müəllimlərimizin, istəkli professorlarımızın yetişdirmələri indi yeni binalarda, daha geniş, işıqlı otaqlarda dərs alan tələbələrə mühazirələr oxuyur və əməklərinin zaya getmədiyinə şadam. O illərin aspirant və dissertantları, o illərin məzunları indi hər gün universitetin qapılarından girib-çıxdıqca, "ruhunuz şad olsun, gözəl əvəz hazırlamısınız" – deyə düşünür. Bəxtiyar Vahabzadə, Gülhüseyn Hüseynoğlu, Tofiq Hacıyev, Abdulla Abbasov, Pənah Xəliov, Vaqif Vəliyev, Azad Nəbiyev, Kamil Vəliyev... Siyahını uzatmaq olar. Amma ehtiyac görmürəm. Azərbaycan elminin müqəddəs ocağı, univer-

sitetimiz, onun dil və ədəbiyyat – filologiya ilə bağlı kafedraları, dekanlıq etibarlı, hazırlıqlı, bacarıqlı əllərdədir.

Xüsusilə, son bir-iki ildə Azərbaycan dili, qədim ərəb əlifbasına əsaslanan Azərbaycan əlifbasının gənc nəslə öyrədilməsi (həmin əlifbaya görə universitetdən çıxarılmışdım) uğrunda mübarizədə, qərarların həyata keçirilməsində universitet professor və müəllimlərinin müstəsna rolu olub.

Bir daha ruhunuz şad olsun, əziz müəllimlərimiz. Təəssüf ki, hələ də arzularınızı tam həyata keçirmək üçün bugünkü imkanlarımızdan, aşkarlıq və demokratiyanın verdiyi imkanlardan lazımınca istifadə edə bilmirik. Ümid yaxşı şeydir. Ölkəmizdə gedən yenidənqurma imkanlarımızı genişləndirir. İnanıram ki, orta təhsil məktəblərinə və Azərbaycan dil-ədəbiyyat tarixi-filologiya elminin inkişafı üçün daha layiqli, elmi hazırlığı olan kadrlar yetişdirəcəyik. Bu, vəsiyyətiniz və hazırladığınız alimlərin, müəllimlərin müqəddəs arzusu və vəzifəsidir.

Beləliklə, təkcə universitetin adlı-sanlı professor və müəllim heyətinin deyil, hətta onların ailələrinin də qayğısını hiss edirdik.

Müəllimlərimiz, doğma universitetimiz bizi təzəcə pöhrə verən, amma küləyə-yağışa-tufana davamlı ağaclar kimi böyüdür, yetişdirir, qayğımıza qalırdı.

Universitet müəllimlərimizin insaniyyəti, dərin bilik verən mühazirələri, sözlərinin ahəngi, davranışlarındakı mədəniyyəti, ata qayğısı, hətta geyim- keçimləri belə bizim üçün indinin özündə də örnəkdir. Onlar kimi olmaq, tələbələrimizə onlar kimi məzmunlu dərs vermək, laqqırtıdan, qeybətdən, kin-küdurətdən, yüngüllükdən uzaq olmaq, bir-birinə dost əli uzatmaq indi də qəlbimizdə onların əziz öyüdü kimi yurd salıb. Hərdən mənə rəy üçün və ya opponentlik üçün əsər, dissertasiya gətirəndə öz işlərimi yarımçıq qoyur, tez oxumağa çalışır, obyektiv rəy verəndə müəllif təşəkkür etməyə başlayır. Deyirəm: "Mənə təşəkkür eləməyin. Professorlarımız Feyzulla Qasımzadə, Əli Sultanlı, Cəfər Xəndan, Həbibulla Səmədzadə kimi əsl alimlərə rəhmət oxuyun. Onlar mənim yazılarımı tez oxuyub, məni "qapı dalında qoymayıb", obyektiv rəy veriblər. Mən də onlardan öyrənmişəm, onların şagirdiyəm. Rəhmət oxuyun onlara. Bizə belə olmağı onlar öyrədiblər".



Bu gün universitetin 70 illiyi bayram ediləndə siz o cərgədə, tribunlarda olmayacaqsınız. Əziz müəllimlərimiz, sizin yeriniz idi o yerlər. İndi bu yerlərdə sizin əməyinizlə yetişənlər əyləşəcək. Ruhunuz şad olsun. Anam torpaq pərqu olsun sizə: universitetimizin bayramıdır.

**Əzizə Cəfərzadə**
**C.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin professoru**
**İyul 1989**

## Məmmədcəfər müəllim (Məmmədcəfər Cəfərov)[15]

Məmmədcəfər müəllim haqqında yazmaq olduqca çətin və məsuliyyətli işdir. Nə qədər onu yaxından tanısaq da, mehriban, nəvazişli təbəssümləri, təmkinli baxışlarıyla dilinə gətirmədiyi qüsurlarımızı islah etsə də, qorxmadan, çəkinmədən yaratdığı şəraitə uyğun hər dərdimizi ona söyləyə bilsək də, yenə aramızda keçilməz hörmət, məhəbbət, bəlkə də, heyranlıq, pərəstiş qalası vardı.

Məmmədcəfər müəllim təkcə obyektiv olduğu qədər qayğıkeş, münəqqid deyildi.

Məmmədcəfər müəllim təkcə "Füzulisevər" dünyasına öz ecazkar tədqiqi əsərləriylə bizi poeziyamızın, ümumiyyətlə, ədəbiyyatımızın dərinliklərinə, möcüzələrinə aparan tədqiqatçı deyildi.

Məmmədcəfər müəllim təkcə şirin və kəskin yumor, satira mühakiməsinə malik – Mirzə Cəlil, Sabir davamçısı, övladı deyərdim – deyildi.

Məmmədcəfər müəllim təkcə səmimi, ürəklərə nüfuz edə bilən dərdlərini, qayğılarını bölüşən, ağıllı məsləhətləriylə yardım, həm də gözə soxmayan yardım edən dost deyildi.

Təvazökar idi, öz qanuni haqqını belə istəməyə utanan, olduqca nəcib insan idi, filosof idi, yaş fərqinə varmadan əsl insani, bəşəri məhəbbətlə sevən, sevə bilən ər kişiydi.

Məmmədcəfər müəllim mənə dərs deməyib, universiteti ekstern yoluyla bitirdiyimdən mühazirələrini dinləmək səadəti qismət olmayıb. Soruşa bilərsiniz ki, bəs bayaqdan saydıqlarımı hardan, nədən bilirəm? Dekanımız olub, opponentim olub, iş başında tez-tez görüşmüşük, müsahib

[15] "Məmmədcəfər Cəfərov" (2001) / Əzizə Cəfərzadənin Ev Arxivi, Fond "P" / Qovluq №21 / Sənəd №36 / varəq – 3



olmuşuq. Ümumi tanışlarımızın xeyrində, şərində birgə iştirak etmişik. Nə qədər ipə-ilməyə yatmayan tələbə, aspirant, sonra da müəllim olmuşamsa, bir o qədər də ümid bəslədiyi tələbə kimi qayğısını görmüşəm. Yetişməmdə əvəzsiz rolu olub. Təkcə opponent kimi deyil, həm də gözəgörünməz, istiqamətverici hərəkətlərilə bu günümü hazırlayan müəllimlərimdən Həmid Araslı, M.Quluzadə, Əli Sultanlı, Cəfər Xəndan, F.Qasımzadə kimi müəllimlərimdən biri, bəlkə də, birincisiydi Məmmədcəfər müəllim. Kimim-kimsəm yoxuydu, o zamankı müəllimlər kiminsə xahişi, tapşırığı və s. ilə deyil, məhz ümid bəslədiyi, gələcəyinə inandığı, millət üçün xeyir verən olacağına əmin olduqları gəncin qollarından tutub dayaq olur, irəlilədirdilər.

Bu ümumi, bu gün üçün zəruri məsələdən sonra Məmmədcəfər müəllimin hafizəmdə xüsusilə qalmış iki kiçik, zahirən dəyərsiz, amma əziz müəllimimizin xarakterini daha yaxşı anlamaqçün əhəmiyyətli epizodlardan ikisini xatırlamaq istəyirəm.

Müdafiəmdən bir qədər sonra dekanlıqdaydım, söhbət mühasibatlıqdan düşdü. Məmmədcəfər müəllim mənə dedi:

– Qız, sən cürətlisən, bir öyrən, gör, onlar mənə nə qədər borcludurlar?

Mühasibatlığa gedənəcən bu borcun nədən ibarət olduğunu bilmirdim. Deməmişdi. Burada öyrəndim ki, opponentlər bizim müdafiəmizçün, sən demə, hər birinə 18 manat pul almalıymış. Məmmədcəfər müəllim onlarla dissertanta opponent olduğu halda bircə dəfə də gedib haqqını istəməyib. İcraçıların da insafı kəsilsin, başqası gəlib bir müdafiə haqqını aldığı halda Məmmədcəfər müəllim

mühasibatlığı narahat eləməyib, onların da insafına soyuq dəyib. Özləri görəsi işi bizlənmədən görməyiblər.

Beləydi Məmmədcəfər müəllim, elə bilməyin ki, milyonçuydu, hardasa başqa gəliri vardı, yo-o-ox, sadəcə Məmmədcəfər müəllimdi.

İkinci epizod Xalq şairi Bəxtiyar Vahabzadənin toyu ilə bağlıdır. Həmin toyda universitetin, ümumiyyətlə, o dövrün – elmimizin, ədəbiyyatımızın bir çox görkəmli nümayəndəsi iştirak edirdi. Əlbəttə, Bəxtiyarın aspirantura yoldaşları, tay-tuşları və qələm dostları da burdaydı.

Məmmədcəfər müəllim tanınmış, sevilən müəllimlərimiz, alim və ədəbiyyatşünaslarla bir cərgədə əyləşmişdi. Qardaşım, xeyirxah dostum Məsud Əlioğluyla yanaşı oturub, əlbəttə, danışan, sağlıq deyən ulularımızı maraqla dinləyir, hər şeyi dörd gözlə müşahidə edirdik.

Toyda müxtəlif millətlərin nümayəndələrindən də vardı. Gözəl qadınlar əlvan toy libasında sanki gözəllik yarışına çıxmışdılar. Bu qadınlardan biri yerindən qalxıb çalğıçılara yanaşdı, nə pıçıldadısa, çalğıçılar onun istədiyi havanı çalmağa və gözəl xanım da oxumağa başladı. Xanəndə deyildi, amma elə gözəl, elə ürəyəyatımlı səslə elə bir lirik mahnı oxuyurdu ki, hamımız donub səsin sehrinə dalmışdıq, bütün qonaqlar. Hətta bəy Bəxtiyarla, onun ürəklər bəzəyi, qaymaq kimi ağ-zərif gəlini Dilarə xanım da.

Birdən gözüm istəkli müəllimimizə sataşdı. Mən, deyəsən, elə Məsud qardaşım da onun baxışlarında elə bir məftunluq, elə bir gözəlliyə pərəstiş duyduq ki... Sanki o indicə yerindən qalxıb bu misilsiz ifa sahibini, Allahın xoş saatda, yaradıcı qələmi cuşa gələndə xəlq etdiyi ifaçını pərəstiş səcdəsi edəcəkdi. Mahnı bitdi, qadın yerinə qayıtdı, amma heç kim ecazkar təsirdən ayıla bilmirdi. Sözsüz,



bir kəlmə də danışmadan Məsud Əlioğlu qardaşımla vədələşdik: o bəxtiyar gecədə müəllimimizi evinə qədər biz müşayiət etdik. Maşınımız yox idi. Piyada gedirdik. İkicə sözü təkrar eşidərək: Bu səs... bu ifa... Vəssalam. Heyrətamiz heç nə yoxdur. Məgər sevdiyi Füzuli gözəllik qarşısında baş əyməyib? Heç vaxt unutmayacağıq Məmmədcəfər müəllimi, ədəbi, fəlsəfi satirik araşdırmalarıyla. Ədəbiyyat, məhəbbət həmişə sənə yoldaş olub, müəllimimiz. Tanrımız səndən rəhmətini kəsməsin.

**Bakı, 2001**

# Şair, alim, müəllim (Cəfər Xəndan)[16]

"Penisillin"i icad etmiş ingilis alimi Fleminq demişdi: "Xoşbəxt o şagirddir ki, müəlliminin qapısı onun üzünə açıq olub". Bizim nəsil də məhz belə xoşbəxt şagirdlər olmuşuq: müəllimlərimizdən akademik Feyzulla Qasımzadənin, professorlar Əli Sultanlı və Cəfər Xəndanın qapısı da, qəlbi də, elmi-biliyi də həmişə üzümüzə açıq olub.

Cəfər Xəndan – dekanımız, prorektorumuz, otuz səkkiz yaşlı rektorumuz. Başlıcası, müəllimimiz. Gözümüzün qabağında, universitetdə oxuduğumuz illər boyu pillə-pillə elmin, ictimai həyatın zirvələrinə ucalan bu mehriban insan. Hər şeydən əvvəl insan, hərtərəfli biliyə malik alim, şair, tərcüməçi, ictimai xadim. Gülümsər, mehriban, qayğıkeş müəllim. Onun haqqında dilimizdəki-dünyadakı bütün xoş sözləri demək olar. Gözəl simasına vurğun-vurğun baxmaq olardı. Gözəl nitq qabiliyyəti, yüksək pafosu, səsinin ürəyəyatımlı, məlahətli ahəngi, hər biri qəlbə nüfuz edən mühazirələrini saatlarla dinləməkdən doymaz və dinlədiklərimizi də heç vaxt unutmazdıq. Unutmarıq da. Axı biz onun "şparqalkasız" sinədən söylədiyi mühazirələrə, kəskin hafizəsi sayəsində əzbərdən dediyi şeirlərə qulaq asdıqca bir mühazirəçi kimi ona bənzəmək istərdik. Ona, bir də Əli Sultanlıya. Bir qədər sənətkar aktyor yapışığı, təsir gücü var idi bu mühazirələrdə. Tədqiqi əsərlərində və məqalələrində olduğu kimi mühazirələrində də elmi də-

[16] Cəfərzadə Ə.M. / "Şair, alim, müəllim" / "Kommunist" qəzeti / 1980, 14 may / səh. 4
"Cəfər Xəndan" (08.05.1980) / Əzizə Cəfərzadənin Ev Arxivi, Fond "P" / Qovluq №21 / Sənəd №11 / vərəq – 6



rinliklə yanaşı bədiilik var idi. Hər bir şairin dövrünü, fəaliyyətinin mühüm cəhətlərilə yaradıcılıq xüsusiyyətlərini, bədii sözə münasibətini əsl alim obyektivliyi ilə heç kəsə üz görmədən, güzəştə getmədən təhlil edirdi. İstər Azərbaycan klassik ədəbiyyatının görkəmli tanınmış şəxsiyyətləri olsun, istərsə də gündə görüb-tanıdığı, dostu-müsahibi olan, çörək kəsdiyi əməl yoldaşları Süleyman Rəhimov, Sabit Rəhman, Əbülhəsən, hətta ürək dostu Səməd Vurğun olsun. Mühazirələrdə və kitablarında biz onun bir kəlmə də alim vicdanının səsi əleyhinə gedib kiməsə güzəştə getdiyini, qeyri-obyektiv danışdığını görmədik, eşitmədik, oxumadıq. Qayğının, məhəbbətin öz yeri var idi onun yanında, obyektivliyin öz yeri. Kamil bildiyi şərq poeziyası, ərəb-fars-türk dillərinə dərindən aşinalığı mühazirələrinə elmi dərinlik ilə yanaşı xoş bədiilik gətirirdi. Nizami, Firdovsi, Xəyyam, Sədi, Namiq Kamal, Ə.Hamid, Tofiq Fikrət, Məhəmməd Hadi, M.Ə.Sabir, Hüseyn Cavid, Mikayıl Müşfiq və bütün xatirələrdə dostluğu yad edilən Səməd Vurğun şeirlərini əzbərdən söylər, heç bir kitaba-dəftərə müraciət etməzdi. Mikayıl Müşfiqdən, yaradıcılığının çox erkən məhv olmasından və az yaşında necə zəngin irs qoyub getməsindən yana-yana danışardı. Təsadüfi deyil ki, Mikayıl Müşfiq haqqında ilk monoqrafiyanı da məhz Cəfər Xəndan yazmışdı. Azərbaycan poeziyasının vurğunu idi. Ömrünü bu poeziyanın böyük nümayəndələrindən biri Mirzə Ələkbər Sabirin yaradıcılığının tədqiqinə həsr etmiş, bu mövzuya dönə-dönə qayıtmışdı. M.Ə.Sabir yaradıcılığına çoxları müraciət etsə də, Sabir yaradıcılığının sənətkarlıq xüsusiyyətlərindən ilk dəfə məhz Cəfər Xəndan danışmışdı. İlk "Sovet ədəbiyyatı" dərsliyini, ilk XX əsr Azərbaycan ədəbiyyatı tarixini də o yazmışdı. Televiziya Mədəniyyət Universitetini də o təşkil etmiş və burada ilk mühazirələri oxumuşdu. Cəfər Xəndanın yaradıcılığında bu "ilk dəfə" sözünə o qədər rast gələrsiniz ki...

Yerevanda tanınmış ziyalı və ədəbiyyat pərəstişkarı Zeynalabdin müəllimin ailəsində dünyaya gəlmişdi. Sonralar Kirovabad (Gəncə) uşaq evində böyüsə də, səkkiz yaşında ikən itirdiyi atasının ədəbiyyata marağı qanına hopmuşdu. Bəlkə də, buna görəydi ki, ilk yaradıcılığa şeirlə başlamışdı. Birinci kitabı "Bəyaz gecələr" idi və maraqlıdır ki, bu şairanə kitabın redaktoru Cəfər Xəndanın qəlbən sevdiyi bir şair – Mikayıl Müşfiq idi.

Bədii yaradıcılıq sahəsində Cəfər Xəndan həm də gözəl mütərcim idi. Tərcümələri üzərində də öz şeiri, öz əsəri üzərində çalışan kimi çalışdığı aydın idi. Elə buna görə də klassik poeziya, xüsusilə, Nizaminin lirik-həzin-aşiqanə qəzəllərinin tərcüməsi Cəfər Xəndan yaradıcılığında mühüm yer tuturdu. Bu qəzəllər ölümsüz Üzeyir Hacıbəyovun melodiyalarında Nizami sözlərini hər bir azərbaycanlının dillər əzbəri etdi. "Sevgili canan", Bülbülün və Üzeyir Hacıbəyovun tabutu başında oxunan "Sənsiz" Cəfər Xəndanın dili ilə söylənən, təğənni[17] edilən rekviem kimi səslənirdi. Cəfər Xəndan şair Nizaminin bəşəri kədərini dürüst, candan duya bilmiş, onun qələminə layiq misralarda dilləndirə bilmişdi. Cəfər Xəndanın klassik poeziya ilə bağlılığı təkcə bunlarla və klassik poeziyanın ayrı-ayrı görkəmli şəxsiyyətləri haqqında yazdığı məqalələr, oçerk və tədqiqatlarla bitmirdi. Bu maraq onu daha geniş tema ilə bağlayırdı. Az öyrənilmiş, bəlkə də, heç tədqiq edilməmiş Cənub və Cənub poeziyası Cəfər Xəndan yaradıcılığında həm alim, həm də şair kimi mühüm yer tuturdu.

416-cı Taqanroq atıcı diviziyasında komissar kimi cəbhələrdən keçən azərbaycanlı əsgərlərə atalıq qayğısı göstərən Cəfər Xəndan 1945-ci ildə qələbədən sonra mayor rütbəsi ilə cəbhədən qayıdanda onun mütənasib boy-buxununa yaraşan hərbi geyiminin döşünü Qızıl Ulduz ordeni və çoxlu döyüş medalları bəzəyirdi. "Silahı qələmlə əvəz etdi" demirəm, çünki orduda da qələmi yerə qoymamışdı.

[17] Təğənni – oxuma, zümzümə etmə



Faşizmə nifrət, qələbəmizə inam yaradan şeirlər, məqalələr yazırdı. Qayıdan kimi də Cənub mövzusu bu illər yaradıcılığının leytmotivinə, sonra isə dissertasiya mövzusuna çevrildi. İran Azərbaycanının poeziyasını tədqiqata belə başladı.

1950-1958-ci illər arasında universitetdə prorektor, rektor işlədiyi illərdə yazdığı saysız-hesabsız məqalə, oçerk, şeir, tərcümə və s. ilə yanaşı çap etdirdiyi kitabların təkcə siyahısına nəzər salsaq, necə deyərlər, adamın gözü qaranlıq gətirər, həm də elə il var ki, hərəsinə iki kitab düşür.

1950-ci ildə "Azərbaycan Dövlət ədəbiyyatı", 2 cilddə, 570 səhifə, 1951-ci ildə "XX əsr Azərbaycan ədəbiyyatı", 1952-ci ildə "Sovet ədəbiyyatı", 2 cilddə, 1954-cü ildə C. Cabbarlı haqqında monoqrafiya, 1955-ci ildə "XX əsr Azərbaycan ədəbiyyatı tarixi", 500 səhifə, 1956-cı ildə "Molla Nəsrəddin" jurnalı haqqında monoqrafiya, 1958-ci ildə "Mir Cəlal haqqında", və s. Ümumiyyətlə, Cəfər Xəndanın sağlığında altmışdan ziyadə kitabı, elmi tədqiqi monoqrafiyaları və dərslikləri dərc olunub. Partiya və hökumətimiz onun məhz bu xidmətini nəzərə alıb ki, bu il 70 illik yubileyi münasibəti ilə onun seçilmiş əsərlərinin iki cildliyi "Yazıçı" nəşriyyatı tərəfindən yubileyə töhfə kimi çap edilir.

Professor Cəfər Xəndan təkcə tədqiqatçı alim kimi deyil, həm də elmi kadrların yetişdirilməsinə xüsusi qayğı göstərirdi. Heç də gizli deyil ki, müharibədən sonra Azərbaycan elminin belə kadrlara böyük ehtiyacı var idi. Cəfər Xəndan böyük həvəs, eyni zamanda təmkinlə bu kadrların yetişməsinə əmək sərf edir, gənclərə elmi rəhbərlikdən, nisbətən yaşlı alimlərə opponent, məsləhətçi olmaqdan heç vaxt imtina etmirdi. Onlarla elmlər doktoru və əllidən ziyadə namizəd yetişdirmişdi. Opponenti olduğu alimlər içərisində akademiklərimizdən Məmməd Arif, Feyzulla Qasımzadə, M.C.Cəfərov, Həmid Araslı, Əziz Mirəhmədov, filologiya elmləri doktorlarından Məsud Əlioğlu, K.Talıbzadə, B.Vahabzadə, Qulu Xəlilov, Bəkir Nəbiyev, Təhsin Mütəllimov

və onlarla başqaları da var. Mənim də opponentim istəkli professorumuz Cəfər Xəndan olub. Özü də nə qədər nəcib insan idi. Əsərimizi aylarla saxlayıb ürəyimizi üzməzdi. Qüsurlarımızı təkcə göstərməklə kifayətlənməz, bu qüsurları görüb, başa düşüb, təshih etməyimizi də istər, yardım edərdi. Sonra da həvəsləndirən rəy verərdi. İndi ara-sıra mənə oxumaq, rəy vermək üçün məqalə, elmi-tədqiqat işi gətirəndə çalışıram ki, müəllimim, professorum kimi tez oxuyum. Təşəkkür edəndə, "mənə etmə" – deyirəm. "Mənə təşəkkür etmə. Müəllimlərim belə olub. Əli Sultanlı, Feyzulla Qasımzadə, Cəfər Xəndan bizim əsərlərimizi belə oxuyublar. Onları xoş sözlə yad edin. Məncə, bu, bütün şagirdlərinə bəs edər, eləcə mənə də".

Əlli yaşına çatmamış bir neçə insan ömrünə kifayət olan qədər iş görüb həyatdan gedən istəkli müəllimimizin minnətdar şagirdlərindən biri – Hüseyn Arif gözəl deyib, yana-yana deyib:

*Yaşımız əllini keçmişdir artıq,*
*O isə əlliyə yetmədi, getdi.*

Təsəllimiz budur ki, təkcə Azərbaycan üçün deyil, Sovet İttifaqının bir sıra başqa respublikaları üçün də elmi kadrlar yetişməsində məsləhətçi və opponent kimi yaxından iştirak edən əvəzsiz professorumuz Cəfər Xəndan təkcə şagirdlər deyil, həm də zəngin bir irs qoyub gedib ki, onun hər bir sözü, fikri bu gün də yeni nəslin tərbiyələndirilməsi işinə xidmət edir və xalqımızın ölməz oğulları ilə yanaşı yaşayır.

**Bakı, 14 may 1980**



# YAZIÇILAR HAQQINDA XATİRƏLƏRİ

# Şaiq əfəndi
# (Abdulla Şaiq)[18]

Biz, ondakı uşaq-muşaq, böyük hörmət və ehtiramla gözəl uşaq şeirlərinin müəllifi, yazıçı, dramaturq, alim Abdulla Şaiqi belə adlandırar, ona məhz belə müraciət edərdik. Bir də Azərbaycan tarixi romanının korifeyi, ağsaqqalı Məmməd Səid Ordubadini "Səid əfəndi".

Bizim nəsil Abdulla Şaiqin şeirləriylə, oynaq, incə, uşaq anlayışına olduqca yaxın şeirləriylə dil açmışdıq. Hamısını analarımız, 20-ci illərdən əvvəl təhsil almış, "Dəbistan", "Məktəb" və s. kimi uşaq jurnalları, "Bəsirətül-ətfal", "Uşaq gözlüyü", "İkinci il", "Gülzar" kimi Şaiq pedaqoqun dərsliklərindən həyata qədəm qoymuş analarımız öyrətmişdi bu şeirlərini bizə. Anam onun "Tülkü həccə gedir", "Tıq-tıq xanım" kimi əsərlərini bizə yaddaşdan söylər, əzbərlətdirər, dilimizin qüsurlu olmamasına çalışardı, Şaiq əfəndinin ecazkar misralarıyla.

Sonradan məktəbliykən o zamankı "Gənc Tamaşaçılar Teatrına" ayaq açdıqdan sonra Şaiq əfəndinin "Xasay", "El oğlu", "Vətən", "Qaraca qız", "Fitnə" və başqa dramlarının tamaşasına gedir, dönə-dönə tamaşa etdiyimiz bu əsərlər bizə vətəni sevməyi, igid, düzgün olmağı öyrədirdi. Uşaqlığımızdan başlayaraq Şaiq əfəndi gənclik illərimizəcən bizim müəllimimiz idi. Bizim nəslin.

Sonralar Yazıçılar İttifaqına getdikdə və orada mehriban, gülən simalı, incə hərəkətli Abdulla Şaiqi gördükdə ona böyük ehtiramla, üsulluca salam verir, məhəbbətlə baxırdıq. O, elə insan idi ki, onu görəndə, seyr edəndə adam özü də qeyri-ixtiyari üsullaşır, zərifləşirdi. Əlbəttə,

[18] Cəfərzadə Ə.M. / "Şaiq əfəndi" / Bakı: "Mədəniyyət dünyası" Elmi məqalələr toplusu, II buraxılış / "Xaqan" nəşriyyatı / 2001 / səh. 16-17
"Şaiq əfəndi (Abdulla Şaiq)" (16.04.2001) / Əzizə Cəfərzadənin Ev Arxivi, Fond "P" / Qovluq №21 / Sənəd №19 / vərəq – 2

bizim o zamankı gənclik arasında milli xüsusiyyətlərimiz olan böyüyə hörmət Şaiq əfəndiyə qarşı xüsusi əhəmiyyət alırdı. Biz ona təkcə salam verə bilirdik, danışmağa, nəsə soruşmağa cürət etmirdik. Qorxudan deyil, dedim ki, o bizə şəfqətlə elə baxırdı ki, qeyri-ixtiyarı ona hörmətimizdən inanın ki, dilimiz tutulurdu, bəlkə.

Şaiq əfəndigillə bir məhəllədə olurduq. İndi həmin o "Yuxarı dağlıq küçəsi" Abdulla Şaiq adını daşımaq şərəfinə nail olub. Amma bir məhəllədə yaşasaq da, böyük-kiçik hörməti o tərəfə baxmağımıza da mane olurdu. Bilirdim ki, qibləm o tərəfədi. Onun qızı Gülbəniz, oğlu akademik Kamal Talıbzadə ilə xeyli sonra yaxınlaşdım. Şaiqin ömrünün son illərində, demək olar ki, Azərbaycanda olmamışam. Sevdiyim şairin və insanın vəfatından qayıdandan sonra xəbər tutmuşam. Allahın rəhmətinə qovuşmuş ən gözəl insanlardandı Şaiq əfəndi.

Rəhmət deməzdən əvvəl bir hadisəni xatırlayıram. Qonşumuzda bir müəllimə yaşayırdı, cavandı, o zaman həyat ağır olduğundan qiyabi oxumağa məcbur olmuşdu. Ailəliydi. Bir dəfə imtahandan qayıdanda mənə şikayətləndi ki, "mənə elə yaxşı sual düşmüşdü ki, bilmirəm, niyə karıxdım, cavab verə bilmədim". "Nə düşmüşdü?" sualıma, "Abdulla Şaiqin uşaq yaradıcılığı" – dedi. Yaxınımızda oynayan qızcığazı döyükmüş gözlərlə bizə baxıb soruşdu: "Mama, "Ay pipiyi qan xoruz"u da bilmədin?" Lətifəyə bənzəyir. Amma Abdulla Şaiqin uşaq şeirləri bütün azəri-türk balalarının həmişə dilinin əzbəri olub. Onda – öz sağlığında da, indi – o dünyasını dəyişəndən sonra da.

Böyük yaradanımız, ulu Tanrımız sənə qəni-qəni rəhmət eləsin. Sevdiyin ana torpaq, bizə sevdirdiyin Vətən pərqu olsun sənə, Şaiq əfəndi.

**Bakı, 16 aprel 2001**



## Klassiklərimizin arxivində nələr var... (Məmməd Səid Ordubadi)[19]

Həyatını Azərbaycanda Sovet hakimiyyətinin yaranması uğrunda mübarizəyə həsr etmiş kommunist yazıçı M.S.Ordubadinin arxivində saxlanılan tarixi sənədlər, xüsusilə, ədibin öz əli ilə yazdığı 150-yə yaxın müxtəlif əlyazması öz rəngarəngliyi, zənginliyi ilə nəzər-diqqəti cəlb edir. Ordubadinin arxivində cəmi 750 material var.

Arxivdə əsas yerlərdən birini, şübhəsiz ki, ədibin sənədləri, xüsusilə, öz əli ilə yazdığı tərcümeyi-halı tutur. Bu sənədlər M.S.Ordubadinin keçdiyi həyat yolunu işıqlandırır. Bu sənədlər M.S.Ordubadini nəzərimizdə yalnız bir şair, dramaturq və romançı kimi deyil, Azərbaycanda Sovet hakimiyyətinin qurulması uğrunda bütün varlığı ilə çalışan görkəmli inqilabçı-bolşevik Sovet hakimiyyəti qurulduqdan sonra əsl mənada mədəni inqilab uğrunda çarpışan mübariz əsgər, qələmi ilə keçmişin qara, kifsimiş mirasını bütün eybəcərliyi ilə ifşa edən qüdrətli sənətkar – mübariz sovet adamı kimi canlandırır.

Sənədlər bizə öyrədir ki, Ordubadi yaşlaşdıqca gəncləşən, sönməz qəlbinin bütün atəşini xalq işinə sərf edən əsl insan olub, öz xalqını, partiya və hökumətini dərin məhəbbətlə sevib. Yazıçının avtoqrafları ümumi küll halında deyil, nəsr, dram, şeir və s. kimi ədəbi formalara görə toplanıb. Arxivin nəsr hissəsində 30-cu illər Azərbaycan sovet nəsrinin ən qüvvətli nümunəsi olan "Dumanlı Təbriz" romanının mükəmməl avtoqraf nüsxələri var. Bunlar müxtəlif dövrlərdə yazıçının öz əli ilə yazdığı monumental əsərin tam nüsxələridir. "Dumanlı Təbriz"in Sürəyya xanım Bəylərbəyova tərəfindən tərcümə edilmiş rus variantı da ədibin nəsr əsərləri içərisində görkəmli yer tutur.

[19] Cəfərzadə Ə.M. / "Məmməd Səid Ordubadi" / "Azərbaycan müəllimi" qəzeti / 1961, 14 may / səh. 4

Nəsr bölməsində M.S.Ordubadinin, əsasən, tanınmış romanlarından "Döyüşən şəhər", "Gizli Bakı", "Dünya dəyişir", "Qılınc və qələm" kimi iri əsərləri ilə yanaşı maraqlı süjeti, səmimi dili ilə oxucuların rəğbətini qazanmış kiçik hekayələrinin də avtoqraf nüsxələri layiqli yer tutur. Bunlardan ikinci bölmə ədibin dram əsərlərindən ibarətdir. Məsələn, "İmtahan", "Çekist", "Serjant İvanov adına körpələr evi" və başqalarını göstərmək olar. Eyniadlı romanı əsasında səhnələşdirdiyi "Dumanlı Təbriz" dramı, "Maral", "İntizar çəkənlər", "Beş manatlıq gəlin", "Quluş bəy Kazımiç", "Polad qızı", "Ağ mühacirlər" və başqalarını göstərmək olar.

Arxivin poeziya bölməsi heç də o birilərindən kasıb deyil. Burada şairin poemaları, lirik şeirləri, dini, ruhaniliyi, keçmişin, ağır mirası olan yaltaqlıq, ikiüzlülük və başqa mənfur sifətləri qamçılayan satiraları toplanıb. İstər "Molla Nəsrəddin", istərsə də başqa məcmuələrimizdə "Hərdəmxəyal" və başqa imzalarla nəşr etdirdiyi satirik şeirlərlə yanaşı Ordubadinin "Kirov", "İyirmi altılar", "Çaylar", "Zəlzələ" kimi poemaları, habelə incə, rübabi nəğmələr, marşlar və sair sənədlərlə də bu bölmədə tanış olmaq mümkündür.

Arxivdəki məqalələr və xatirələr bölməsi də maraqlıdır. Burada yazıçının "Həyatım və mühitim" adlı böyük memuarı və "Sarisin xatirələri" mühüm yer tutur.

Ədib öz məqalələrində qədim Şərq mənbələrindən geniş ölçüdə istifadə edərək bu və başqa ədəbi və ictimai hadisəni işıqlandırmağa səy göstərib.

Bir qrup məqalələrində isə Ordubadi özünəməxsus geniş diapozonla din və mövhumat əsaslarını ifşa edir. "Bab və baha", "Məhərrəmlik əleyhinə tarixi vəsiqələr", "Mövhumatla mübarizə", "Əski dünya, əski din" məqalələri bu qəbildəndir.

Ədəbi tənqidi məqalələrinin bəzisində ədib bu və ya başqa ədəbi hadisələrdən, şəxsiyyətlərdən bəhs edir. Cəlil Məmmədquluzadədən danışan "Böyük ədib haqqında



xatirələrim", "Şəmsəddin Təbrizi...", "Müharibə dövründə ədəbiyyat", "Ədəbiyyatımızda şeir" məqalələri bu qrupa daxildir.

Arxivdə Ordubadini bir dövlət xadimi kimi nəzərimizdə canlandıran "Deputatın qeydləri", məruzə və çıxışları da saxlanmaqdadır.

Bütün böyük yaradıcılıq planları ilə yanaşı olaraq M.S.Ordubadi xalqımızı qardaş xalqların ədəbi irsi ilə tanış etmək işində də böyük rol oynayıb. O, Puşkinin "Boris Qodunov"u ilə yanaşı "Bülbül", "Qızlar nəğməsi" kimi incə nəğmələrini də azərbaycancaya tərcümə edib. Bundan başqa arxivdə Ordubadinin ölməz dramnəvis[20] Şekspirdən, Çin yazıçısı Emi Siyaodan və sair tərcümələri də var.

**14 may 1961**

P.S. Əzizə Cəfərzadə Əlyazmalar fondunda (indiki Əlyazmalar İnstitutu) işləyərkən şöbəsinin əməkdaşları Mərziyyə Paşayeva və Mehri Məmmədova ilə birlikdə M.S.Ordubadinin arxivini tədqiq edib və onun izahlı təsvirini hazırlayıb. Bu tədqiqat işi Mehri Məmmədova tərəfindən çapa hazırlanaraq 2015-ci ildə kitab şəklində dərc edilib: "Məmməd Səid Ordubadinin arxivinin izahlı təsviri". Bakı: "Elm və Təhsil", 2015, 372 səh. – T.İ.

[20] Dramnəvis – dramaturq

## Məmməd Səid Ordubadi haqqında xatirəm[21]

Çox şey məni tarixə bağlayıb. Xüsusilə, oxuduğum kitablar. Ondan əvvəl tarix müəllimim, Qüdsi nəslinin gözəl nümayəndələrindən biri olan Xanım Bakıxanova. Qədim dünya tarixini elə canlı, elə ləzzətlə danışardı ki... Beynənnəhreyn, Neynəvə... Sonralar görüşü mənə qismət olan o yerləri sanki gözümlə görərdim. Oxuduğum kitablar dedim... Yusif Vəzir Çəmənzəminlinin "Qızlar bulağı"nı su kimi içirdim, az qala əzbərləmişdim onu. Xüsusilə, Məmməd Səid Ordubadiydi, "tarix müəllimim". Onun ən kiçik hekayəsinəcən ("Serjant İvanov adına körpələr evi"), felyetonlarını... Yox, əlbəttə, romanlarıydı müəllimim. Ən çox oxuduğum kitablar: "Dumanlı Təbriz", "Döyüşən şəhər", "Gizli Bakı"... Bunların dili, sadə insanların, obrazların unudulmaz surəti şüuruma, qəlbimə həkk olunmuşdu. "Ədəbiyyat qəzeti"ndə çap olunan ilk hekayəm "Əzrayıl" çıxandan sonra belə ağlıma gəlməzdi ki, gün gələcək, Ordubadini yaxından görəcəyəm.

Amma belə zaman gəldi. Çaparlıdan qayıdandan sonra "Cümə"lərimizdə[22] oxuduğum hekayələr hamının, xüsusilə, ustad Səməd Vurğunun xoşuna gəldi. Məni ittifaqa qəbul etdilər. Partiya üzvü kimi də Yazıçılar İttifaqında uçota dayandım. Bax elə bundan sonra Ordubadi – sevdiyim əsərlərin müəllifiylə yaxınlığım başlandı. Hər partiya iclasında onu görürdüm. Əvvəllər danışmağa cürət etmirdim. Partiyada, ittifaqda təkcə bir qadındım. Xalq yazıçısı Əli Vəliyevin sevimli arvadı Qumru xanım burda hesabda olsa da, iclaslara gəlmirdi. Təkdim, utanır, bir küncə qısı-

[21] "Məmməd Səid Ordubadi" (1997-1999) / Əzizə Cəfərzadənin Ev Arxivi, Fond "P" / Qovluq №21 / Sənəd №23 / vərəq – 1

[22] Həmin dövrdə hər cümə günü Yazıçılar Birliyində yığışıb yazıçıların əsərlərinə qulaq asır və müzakirə edirlərmiş – T.İ.



lıb, səssiz-səmirsiz dərsliklərimdə şəkillərini görüb oxuduğum S.Vurğun, Ə.Vəliyev, R.Rza, M.Rahim və başqalarının qarşısında cınqırımı da çıxara bilmirdim. Duydu bunu böyük ədib Ordubadi. Məni öz qanadının altına aldı, yanımda otururdu hər iclasda. Balaca qaş bıçağıyla quru əncirləri xırdalayıb ağzına atırdı. Mənim də ovcuma basırdı. "Ye, xeyirlidi". Ürəyim oynayırdı, məgər orada nəsə yeyə bilərdim?

Arabir iclaslar, çıxışlar uzananda deyirdi: "Sən fikir vermə, bunlar boş qabdan boş qaba tökürlər, işində ol, ye. Baxmağa vaxtları hardadı?" Onun ən böyük dərdi oğluydu. Həddən ziyadə ərköyün böyümüş bu kəmağıl oğlan yazıq atasının başına açmadığı oyun qalmamışdı. Bir gün də Bülbülün evinə girib (qonşuydular) ordenini oğurlamış və sinəsinə taxıb şəhərdə gəzəndə tutulmuşdu. Buraxılandan sonra da avaraydı. Sevimli ədibimin nələr çəkdiyini ara-sıra dediklərindən anlayırdım. Yardım etmək istədim. O zaman mən Kinostudiyada işləyirdim. Mənə çox hörmət bəsləyən Xalq yazıçısı, studiyanın direktoru Mehdi Hüseyni razı saldım, onu işıq sexinə işıqçı-fəhlə düzəltdik. Bir müddət mənim nəzarətimdəydi. Amma atanın qulağı o qədər də çox dinc qalmadı, tezliklə yenə avaralanmağa başladı. Yaxşı ki, ömrü gödək oldu. Amma hər halda son günlərinəcən bu köməyimi unutmurdu. Hər görəndə razılıq edirdi bədbəxt ata – böyük, əvəzsiz ədib. Tariximizi, dilimizi, adət-ənənələrimizi dərindən bilən, qoruyan ədib. Mənim əsl ustadım. Rəhmətlə yad edirəm həmişə.

**1997-1999**

# Ustad Xalq yazıçısı haqqında şagird sözü (Əbülhəsən)[23]

Mən Əbülhəsən Ələkbərzadəni indi də təkcə Xalq yazıçısı, dövrümüzün çağdaş romanımızın banilərindən biri kimi xatırlamıram. Mənim üçün o, həmişə bir müəllim, bir ustad olub. Doğrudur, o zamankı gənc yazıçıların bir çoxu kimi mən də Əbülhəsən realizminin deyil, valehliklə Ənvər Məmmədxanlı romantizminin aludələrindən biriydim. Mən də, indi çox haqsız yerə unudulmuş mərhum Həbibə xanım Zeynalova da... Amma bu aludəçiliyimizə baxmayaraq o zaman da, indi də dediyim kimi, Əbülhəsən mənim üçün ustad olub. Çünki Yazıçılar İttifaqına ilk qədəm qoyduğum 1937-ci ildə Əbülhəsən nəsr şöbəsində məsləhətçi işləyirdi, biz cavanlar, əsasən, ona müraciət edir, ilk qələm təcrübələrimizi ona oxuyur, ondan məsləhət alırdıq. Həm də onun təqdimatıyla bizim kimi təzə dil açan nasirlərin əsərləri Yazıçılar İttifaqında böyük, tanınmış, artıq əsərləri dərsliklərə düşmüş nasirlərlə yanaşı məşhur "Cümələr"-də oxunurdu və Səməd Vurğun, Rəsul Rza, Mehdi Hüseyn, Ənvər Məmmədxanlı kimi şairlər, yazıçılar bizim ilk hekayə və şeirlərimizi dinləyib məsləhətlər verirdilər. Əbülhəsənin əsərlərini, ilk romanlarımızı, "Dünya qopur", "Yoxuşlar" və başqa hekayələrini məktəbdəykən oxumuşdum. Titrək, kövrək gəlirdim qulluğuna. Verdiyi məsləhətləri "Allah hökmü" kimi qəbul eləyirdim. İlk hekayələrim də onun təqdimatıyla "Ədəbiyyat qəzeti"ndə çap olunmuşdu. Sonralar dostlaşdıq, ailəvi yaxınlaşdıq və duydum ki, ustad artıq imzamı izləyir. "Natəvan haqqında hekayələr"imi də o, "Azərbaycan" jurnalında redaktor olduğu vaxt çap etmişdi. Hələ bir dəfə az qala mənə görə işə

---

[23] Cəfərzadə Ə.M. / "Əbülhəsən" / "Ədəbiyyat qəzeti" / 1997, 20 iyun / səh. 7 "Əbülhəsən" (10.03.1997) / Əzizə Cəfərzadənin Ev Arxivi, Fond "P", Qovluq №21 / Sənəd №9 / vərəq – 9



düşəcəkdi. O zamanlar Respublika Əlyazmalar Fondunda (indi institut) baş elmi işçi və şöbə müdiri işləyir, ara-sıra əldə etdiyim maraqlı materialları mətbuatda yayırdım. Belə işlərdən biri Bağçasarayda nəşr olunan "Tərcüman" adlı qəzetin redaktoru İsmayıl bəy Qaspıralının "Molla Nəsrəddin"in baş redaktoru Cəlil Məmmədquluzadəyə yazdığı məktub idi. Fraqmentlər içindən tapmışdım. Məktubda Qaspıralı M.Cəlilə yazırdı ki, Sizin ümumislam aləmi üçün müştərək olan felyeton və məqalələrinizdən, jurnalınızın karikaturalarından Misir – Qahirədə çap etdirdiyim jurnalda yayımlamaq üçün icazə istəyirəm.

Məni "Molla Nəsrəddin"in təsir, yayılma coğrafiyası elə aldı ki, sevinə-sevinə həmin məktubun fotosurətini və izahlı məqaləmi "Azərbaycan" jurnalında çap etdirdim. Az sonra məni mərhum Şıxəli Qurbanov MK-yə çağırdı və dedi: "Kazandan məktub gəlib ki, o Cəfərzadə kimdir ki, islamçı, millətçi Qaspıralını tərifləyir? Dedi, özünü qoru, səni də, redaktoru da işə sala bilər belələri". Amma Əbülhəsən də çağrılmışdı və mənə bu barədə bir dəfə də ağır söz demədi, qorxutmaq istəmədi.

Əbülhəsən müəllim həyat həqiqətlərini olduğu təki, görüb-duyduğunu xalqının taleyinə yanan əsl sənətkar kimi rəsm edən ədib idi. Onun İkinci Dünya müharibəsindən bəhs edən "Müharibə" romanını ilk dəfə "Azərbaycan" jurnalının (deyəsən, o zaman "Vətən uğrunda" adlanırdı) səhifələrində oxuduqda dəhşətə gəlmişdik. Gəncliyə ilk dəfə olaraq müharibə haqqında həqiqəti söyləyən bu romanla bağlı Əbülhəsən müəllimin başı hansı bəlaları çəkmədi? Kitab çıxanda adı da dəyişdirildi. Halbuki Əbülhəsən müəlliməcən müharibə haqqında yazılan bütün roman, poema, şeir və hekayələrdən fərqli olaraq bu romanda "ura-ura" yox idi; yalançı dəbdəbə filan yox idi, hərbin acı həqiqətlərindən danışırdı ədib. Çünki Əbülhəsən müəllim romanı kitablar, dövri mətbuat məqalələri əsasında yazmamışdı, müharibənin ən qızğın cəbhələrində iştirak etmişdi; əsgərin vəziyyətini görmüşdü, duymuşdu, halı-

na yanmışdı və yazmışdı həqiqəti. Kitab çapdan "Dostluq qalası" adıyla çıxdı, xeyli dəyişikliklər aparmağa məcbur etmişdilər, adibi tənqid etmiş, danlamışdılar. Eyni sözü Əbülhəsənin "Sədaqət" romanı haqqında demək lazımdır. Bu əsər durğunluq adlandırılan dövrdə yazılmışdı və demək olar ki, ilk dəfə burada kəndlinin, kənd əməkçisinin real həyatı təsvir olunmuşdu. Kəndlinin evinin qabağından, həyətinin, həyət qapısının ağzından başlayaraq əkilən kolxoz üzümlükləri böyük qardaşlarımızçün əla şərab istehsal etmək məqsədi güdürdü və kəndlinin bir qarış da torpağı qalmırdı ki, heyvanını otarsın. Pambıq əkinlərinə havadan buraxılan zəhərli dərmanlar kəndlinin həyatını da zəhərləyir, arı pətəklərini, heyvanlarını qırırdı. Bax elə o zaman həmin roman nəzəri cəlb etmişdi xalq arasında. Oxucular, demək olar ki, ilk dəfə xalqın dili olan yazıçı sözü eşitmişdi, dərdlərinin tərcümanı olmuşdu yazıçı. Bu əsərlə də bağlı Əbülhəsən xeyli danlaq çəkdi, həqiqəti deyən dilini, sözünü eşitmədilər.

Əbülhəsən müəllimə "Xalq yazıçısı" adı çoxdan verilməliydi. Amma gec də olsa, hamımızı sevindirən bu hadisə Əbülhəsəni çox təşvişə salmışdı. Narahatdı. Yadımdadır, onun haqqında danışmağı mənə təklif edəndə məmnuniyyətlə qəbul elədim. Bu münasibətlə görüş İsmayıllıda keçirilirdi. O zaman xalqımızın ən ağıllı, vətənsevər, millətsevər, xalq oğullarından biri mərhum Qəşəm Aslanov İsmayıllı rayonunda birinci katibiydi. Ustad ilə görüş çox səmimi bayrama çevrildi. Bu heç də rəsmi təntənə deyildi, məhz millətin taleyinə yanan bir yazıçının öz oxucularıyla sənli-mənli görüşüydü. Amma səhnəyə çıxanacan dodaqaltı nəysə deyirdi, narahatdı. Diqqətlə qulaq verdim, "Çox gecdir, gecdir" - deyirdi. Amma elə ilk çıxışlardan bizim - öz şagird və oxucularının səmimiyyətini görüb inandı, nisbətən sakitləşdi.

Əbülhəsən müəllim daim hərəkətdə, harasa, nəyəsə tələsən, can atan insan kimi qalıb hafizəmdə.



"Əzizim-əzizim" deyərdi tez-tez danışanda. Hamıya müraciəti bu sözlərlə başlardı. Öz şagirdlərinin, yetirmələrinin uğuruna onun kimi qəlbən sevinən ikinci adam nadir tapılar. Yadımdadır: "Aləmdə səsim var mənim" romanımı necə sevinclə qarşıladı. Elə bil romanı özü yazmışdı, uğurum da onunuydu. Millətini, doğma yurdunu qəlbən sevən insan kimi hələ sözarası dedi də: "Qız, Şirvanın hər yerinin nemətlərinin adını çəkmisən, bəs Basqal kəlağayısının adı niyə düşməyib qələminə?" "Ustad, dedim, roman hələ jurnalda bitməyib, ikinci hissəsi çıxanda Basqalı da, kəlağayısını da görəcəksiniz". Doğrusu, bu təkidi olmasaydı, belə bir sənətkarın iş-gücdən macal tapıb başqasının romanını jurnal variantında oxuduğuna gümanım gəlməzdi, bəlkə. Bu görüş qanadlandırdı məni. Sonra roman haqqında fikirləri mərhum xalq yazıçıları Əli Vəliyev və İmran Qasımovdan da eşitdim. Əsl sözü isə öz böyük məqaləsilə özünə və hamıya tələbkar olan, Xalq şairi Rəsul Rza dedi və yazdı.

Əbülhəsənlə son görüşüm yazıçılarımızın Səməd Vurğun adına yaradıcılıq evində oldu. Bir-iki gün söhbətləşə bildik, xəstə idi, elə oradan da onu sevdiyi Basqala apardılar. Doğulduğu və həyatının son dövrünü keçirdiyi, dünyasını dəyişdiyi məskəni olan Basqalda yatır ustad. Amma tale elə gətirdi ki, vəfatı yazıçılar qurultayına təsadüf etdi, son mənzilinə müşayiət edə bilmədik. Yalnız dostlarından Qılman İlkin və Novruz Gəncəliyə qismət oldu onu ana torpağa tapşırmaq. Bizdən qurultay günlərində daldalamışdılar bu qəmli xəbəri. Talesizliyinə bax ki, indi, demək olar, yaddan çıxıb, xatirə salınmır belə nə mətbuatda, nə dərsliklərdə, nə başqa məlumat mənbələrində ki, heç olmasa, gənclik belə bir nasirimizin olduğunu bilsin, tanısın. Məqaləni yazıb qurtarmışdım ki, Azərbaycan Yazıçılar Birliyində İrs komissiyasının sədri, möhtərəm adibimiz Qılman İlkindən vəziyyəti soruşdum. Dedi: "on dörd maddədən ibarət təklif vermişəm, biri də yerinə yetirilməyib. Bədbəxtin adıyla, nəinki bir küçə, heç bir dalan da adlan-

dırılmayıb. Doxsan illiyində təkcə mənim bir məqaləm çıxdı – vəssalam!" Basqallılar doğma oğulları haqqında necə, nə düşünürlər, bilmirəm. Amma onu bilirəm ki, indiyəcən onun məzarını İrs-xatirə komissiyası üzvləri ziyarət etmək istəyib, hazırlaşıb, amma böyük Xalq yazıçısının, ilk romançı, gözəl nasir və çoxlarının ustadı olan bir şəxsiyyətin məzarının sinə daşını Bakıdan İsmayıllıya aparmaq işi problemə çevrilib. Arzu edirəm ki, İsmayıllı camaatı doğma torpağında ədəbiyyat xəzinəmizin incilərindən birinin yatdığını dərk etsin və ona layiq abidə yaratsın. Bəlkə, ustadın ruhu şad oldu. Biz də ziyarətinə gedək. Həyatda nə qədər təvazökardısa, dəfni də, məzarı da eləcə dəbdəbəsiz, təvazökaranə oldu. Hər halda... İkinci arzum da budur ki, ədibin irsini çapa hazırlayan komissiya onun "Dostluq qalası" romanını məhz ilk variantda olduğu kimi "Müharibə" adıyla və eləcə də hərbin acı səhifələrini dadmış insanın qələmindən çıxan şəkildə çap etdirsin.

Ruhu şad olsun!

**23 iyul 1991**



## Böyük Süleyman haqqında kiçik xatirə (Süleyman Rəhimov)[24]

Gözümü ədəbiyyata açan gündən iki nəfər canlı yazıçı, nasir ədib görmüşəm. Biri Əbülhəsən, o biri Mehdi Hüseyn. Heç biri ilə də neçənci ildə, hansı ayda tanış olduğum dəqiq yadımda deyil. Deyəsən, 1937-ci il idi. Bir qədər sonra xırdaca hekayələrimi Yazıçılar İttifaqının nəsr üzrə məsləhətçisi Əbülhəsən və M.Hüseyn bəyənib, tək bir çap etməyə başladı. Nəzərə çapmayacaq dərəcədə xırdaca qız idim, xırdaca da hissiyyatlı hekayələr yazardım. Əbülhəsən və Mehdini də redaksiyadan tanıyırdım. Amma romanlarını oxuduğum o böyük Süleyman Rəhimovu, Məmməd Səid Ordubadini şəxsən tanımırdım. İlk oxuduğum romanlar: "Yoxuşlar", "Dünya qopur", "Şamo", "Dumanlı Təbriz", "Kin" və s. içərisində "Şamo"nun ayrıca yeri var idi. Amma indi heç cür deyə bilmərəm ki, mən onun da, Ordubadinin də nəzərini nə ilə cəlb etmişdim. Doğrudanmı o böyük ədiblər xırdaca yazılarımı oxumuşdular? Axı onlar bizim "ədəbi gecələr"də iştirak etmirdilər, ya mənə heç təsadüf etməmişdilər. Bilmirəm. O unudulmaz gecələr bizim – o vaxtkı gənc nasirlərin qəlbində, yaradıcılığında unudulmaz iz qoyub. Mən o gecələrdə böyük Səməd Vurğunun gənclərə qayğısını görmüşəm. Hər "cümə"mizdə gələrdi, ona baxıb başqaları da gələrdi. Belə gecələrdə Mehdi kimi, Əbülhəsən kimi o zamanın tanınmış nasirləri də öz əsərlərini oxuyardılar və biz cavanlar da onlarla yanaşı öz yazılarımızı oxuyardıq. Belə gecələrdən birində mən Mehdinin "Tərlan" romanından Güləli oğlunun ölüm səhnəsini təsvir edən parçanı dinləmişəm və indi də ədibimizin səsi qulağımdan getməyib.

[24] "Böyuk Süleyman haqqında kiçik xatirə" (Süleyman Rəhimov) (01.03.1989) / Əzizə Cəfərzadənin Ev Arxivi, Fond "I" / Qovluq №21 / Sənəd №2 / vərəq – 9

Bütün bunların Süleyman Rəhimovu tanımağıma heç bir dəxli yoxdur, amma bir də gördüm ki, o məni tanıyır, salamlaşır, mehriban-mehriban baxır, nəvazişlə qımışır, elə bil cücəyə, güc, ürək verir. Elə bil, "qorxma, boy-buxunum, qəddü qamətim, ər-kişi gözəlliyim, getdikcə nəhəngləşən, "uzaqvuran toplara çevrilən" yaradıcılığım səni qorxutmasın, oxuyuram yazılarını, tanıyıram səni" deyir mənə. "Ümid edirəm, elə ona görə də tanıyıram səni" – deyir mənə. Bir də gördüm, Süleyman müəllim, o böyük nəsr ustadı arzu eləyib ki, satirik hekayələri haqqında fikir söyləyim, yazım. Bu həyatımda iki böyük ədibdən aldığım sifariş idi. Birini o zamanlar "Azərbaycan" jurnalının redaktoru olan Əbülhəsən ustad yetirmişdi mənə, demişdi ki, "Mehdinin "Səhər" romanı təzəcə çapdan çıxıb. Redaksiyada məsləhətləşirdik ki, təqrizi[25] kimə tapşıraq. Ədib arzuladı ki, Əzizəyə tapşırın". Yazdım o vaxt, ustadımız, nasirimiz haqqında, onun romanı haqqında. Yaxşı da qarşılanmışdı. Bir də bu oldu. Bir zaman Süleyman Rəhimovun "Məzəli rəvayətlər dəftərindən" ümumi başlığı altında silsilə hekayələri çap olunurdu. "Satirik hekayələr" adı ilə yazdığım məqalə "Ədəbiyyat və incəsənət" qəzetinin 29 may 1963-cü ildə çıxan nömrəsində çap olundu. Hekayələri "Molla Nəsrəddin" jurnalı, Cəlil Məmmədquluzadə ənənələri ilə bağlamağım ustadın, xüsusilə, xoşuna gəlmişdi. "Düz demisən, bu ənənəni davam etdirmək lazımdır. Cəmiyyətdəki qüsurları yalnız bu ənənəyə sadiq qalıb yazılan əsərlər islah etmək gücünə malikdir", – dedi görüşəndə. Qarşımda üç şəkil var. Bunlardan biri müdafiəmlə bağlıdır. 1970-ci ildə dekabr ayının üçündə çəkilib. Süleyman müəllim məni nəzərdə tutub qlobal fikirlər söylədi. Şərq qadınının azadlıq problemindən, hüquq problemindən, Azərbaycan ədəbiyyatı, bu sahədə doktorluq müdafiə edən ilk qadını tək qoymayıb, yeni-yeni alim qadınların yetişməsi və yardım göstərmək, şərait yaratmaq problemlərindən danışdı.

[25] Təqriz – müsbət rəy, resenziya



İki başqa şəkil də mənim üçün çox əzizdir. Bunlardan hər ikisi böyük ədibimiz, ustad və müəllimimiz Süleyman Rəhimovun anadan olmasının yetmiş beş illiyi ilə bağlı görüşlərdə çəkilib.

Birinci görüş, yəni mənim də iştirak etdiyim görüş Azərbaycan Neft və Kimya İnstitutunda keçirilmişdi. İndi xalq yazıçısı Bayram Bayramov, gözəl nasir, həyatdan vaxtsız getmiş dost Salam Qədirzadə, tanınmış mühəqqid, jurnalist Cəlal Məmmədov və mən müşayiət edirdik böyük Süleymanı. Elə səliqəli, elə cazibədar idi ki, institutun bütün xanımlarının gözü ondaydı, həm oxucu, pərəstişkar oxucu, həm də yubilyar kimi. İndi dəqiq xatirimdə deyil; mən də çıxış etdim, yoldaşlarım da, xüsusilə, Bayram Bayramov ürəkdən gözəl sözlər söylədi. Süleyman Rəhimov haqqında o gecə elə ürəkdən, elə candan səmimi sözlər söyləndi ki, bir nəfər də kağız üzərindən söz oxumurdu, hamı qəlbindən, məhz indi qəlbindən dilinə axıb gələn sözləri deyir, fikirləri söyləyirdi. Tələbələr, müəllimlər onu gül-çiçəyə qərq etdilər. Çıxış edib planlarından danışdı. Arzularını söylədi tələbələrə. Aldığı çiçəkləri mənim və institutun professoru, indi mərhum olmuş Əruzə xanım arasında bölüşdürdü. Beş qızılgüldən ibarət bir dəmət götürdü. "Bu da evdəkilərin" deyə gülümsədi. Mən Əruzə xanımın anası Xədicə xanımın vaxtilə Azərbaycanda ilk qadın qəzeti "İşıq"ı nəşr etdiyini söylədim. Bir də Əruzə xanımın əlindən öpdü: "Ananıza layiq qızmışsınız. Halal olsun Xədicə xanım kimi anaların südü sizə, hər ikinizə. Zəhmətləri hədər getməyib. Sizinki də hədər getməsin".

Gülümsəyərək mənə baxdı: "Ay qız, hələ oğlunu evləndirməmisən?" Güldüm: "Yo-o-ox, Süleyman müəllim, o uşaqdır hələ". Əli ilə çiyninin bərabərini göstərdi: "Bura çatıb?" "Uşaqdır, Süleyman müəllim", – bir də təkrar etdim. Dedi: "Atam Hüseyn kişi məni evləndirəndə on yeddi yaşım vardı". Bu zarafatın çox uzaq tarixçəsi var idi. O, haçansa həyat yoldaşım təyyarəçi Məmməd və oğlum Tu-

ranla tanış olmuş, hər ikisini sevmişdi. Arabir görüşəndə hər ikisini soruşar, salam göndərər və həmişə də Turanı evləndirib-evləndirmədiyimi soruşardı. Biz danışa-danışa binadan çıxdıq. Üzüaşağı dəniz kənarına tərəf yollandıq. Hamılıqca əvvəl məni yoluzaq etdilər, sonra hamısı birlikdə Süleyman Rəhimov, Bayram Bayramov, Salam Qədirzadə və Cəlal Məmmədov sahilə tərəf yönəldilər. Süleyman müəllimgilin evi çox uzaq deyildi bizdən.

Həmin dövrlə əlaqədar ikinci şəkil Sumqayıtda çəkilib. Yenə də ədibimizin yubileyi münasibətilə görüşə getmişdik. Üç nəfər idik. Ustad, gözəl, incə, ürək titrədən şeirlər müəllifi, şair qardaşım Məmməd Aslan və mən. Bizi zavodun partiya təşkilatı katibi Laura adlı bir xanım qapıda qarşıladı. Süleyman müəllim cavan, gözəl qadının adını eşidəndə sanki duruxdu, pillələri çıxanda yavaşca dedi: "Gül kimi qıza bir azərbaycanlı adı tapmayıblar, rəhmətliyin nəvələri. Laura da gözəldi, amma..." Sözünü bitirmədi, adamlar bizi əhatə etdilər. Nəriman Nərimanov adına klubun səhnəsinə qalxmazdan əvvəl Süleyman müəllim cibindən xırdaca bir daraq çıxarıb saçını daradı, səliqəyə saldı, gözucu bədənnüma aynada özünə nəzər atdı... Düzünü deyim ki, həmişə Süleyman müəllimin səliqə-sahmanlı geyinməsinə heyran olmuşam, qibtə eləmişəm. Adam arasında baş daraya, güzgüyə baxa bilməmişəm. Necə gəldi, elə çıxmışam səhnəyə. Amma elə indinin özündə də şəkilə baxanda ustadın yanında onun səliqəli, yaraşıqlı görkəmilə özümün dağınıq saçıma baxır, xəcalət çəkirəm. Niyə biz ondan ustad kimi yazmaq, müşahidə edə bilmək qabiliyyətini öyrənməyə çalışırdıq. Amma nə qədər hansında müvəffəq olduğumuzu deyə bilmərəm. Təki hər ikisində ustada layiq şagirdlər olardıq.

Süleyman müəllimlə bağlı daha bir görüş xatirimdən çıxmır. Moskvada, 1976-cı ildə Yazıçıların VI qurultayında. O görüşdən də bir şəkil qalıb yadigar.



Əslində, böyüklərlə şəkil çəkdirmək üçün irəli çıxan olmamışam. Bütün bu şəkillər təsadüfən çəkilib, amma hayıf. Nə biləydim ki... Məgər bilmirdim ki, insanlar bir-birilərini itirirlər? Heç olmasa, xatirat yazaydım. İndi həmin xatirələr xəyalımda bizim ustad ilə İstisu yaylağında ailəvi görüşlərimizi, Qədəm xanımın qayğılarını, səliqə-sahmanını yadıma salardı.

Ustad ilə mən bir çox yığıncaqlarda, iclaslarda, Yazıçılar İttifaqının qurultay və plenumlarında görüşmüşəm. Eləcə də adi günlərdə. Ancaq bu görüşlərdəki çıxışları həmişə məzmunu, məzmunundakı genişliyi, bir qədər uzun olsa da, nüfuzedici mənası ilə yadımda qalıb. Amma biri, xüsusilə. Deyəsən, haçansa (il xatirimdə deyil) Natəvan adına klubumuzda gənc yazıçıların yığıncağı keçirilirdi. O zaman təzə-təzə tanınmağa başlayan bir tənqidçi dostumuz vardı. Gürcüstandan gəlmişdi. Abbas Kirəcli – çox ümidverici, ciddi tənqidçi, alim idi. Tanınmış şair və ədiblərimiz belə onun qeydlərini maraqla dinlərdilər. Hayıf ki, çox gənc yaşlarında faciəli şəkildə həlak oldu. Hə, həmin yığıncaqda Abbas Kirəcli çıxış etdi, bəzi rəhbər işçilərin, qəzet və jurnal redaksiyası əməkdaşlarının gənclərə gərəyincə yardım etmədiklərini tənqid elədi. Çox kəskin danışdı.

Həmin yığıncaqda ustad da danışdı. Gənclərə tövsiyələrini söylədi, necə yazdığından, nədən başladığından danışdı. O çıxışdan bir çoxlarının düzgün başa düşməyib incidiyi bir parça, xüsusilə, hafizəmə həkk olunub. Ustad təxminən belə dedi: "Abbas, çox da, "Gənclərə kömək eləmirlər" – deyib hay-həşir salmayın. Məgər bizim əlimizdən tutub yazıblar bizimçün? Başımızdan elə basıblar ki, çıxmağa ümid qalmayıb. Biz də sizin başınızdan elə basacağıq, əgər pırtlayıb üzə çıxdınız, deməli, sizdə mübarizəyə qalib gəlmək ümidi var, yox çıxmadınız, deməli, layiq deyilsiniz". Təxminən deyirəm. Bax, gənclərə kömək deyib zahirdə bağıranlar onun "səhv"ini düzəltməyə, malalamağa çalışdılar: "Kömək etmək lazımdır" dedilər və sonra da etmədilər. Söz idi hamısı. Əslində, Süleyman müəllimin

"ustad silləsi"ni məcazi mənada qəbul etmək lazım idi. Doğrudan da, ədəbiyyat həyatın özü kimi mübarizə meydanıdır, bir-iki tənqidə, narahatlığa dözməyib meydandan qaçan, dayə axtaranların meydanı deyil. Doğrudan da, kim davamlıdırsa, ədəbiyyatı o yaradıb. Təkcə istedad deyil, əmək, mübarizə əzmi istedadın əkiz qardaşlarıdır. Ustad bizi başa salırdı ki, dayə axtarmayaq, mübarizə əzmini itirməyək, öz gücümüzə inanaq. Mən onda da, indi ondan daha artıq haqq verirdim. Süleyman müəllimin həmin çıxışına. Elə rəhmətlik Abbas qardaşımız da iclasdan sonrakı söhbətlərimizdə nəsihəti düzgün qəbul etmişdi.

Uzun müddət xırda hekayələr yazmışdım, təsadüfdən-təsadüfə çıxış edirdim bədii yazılarla, daha çox elmi işlə məşğul idim. Namizədlik, doktorluq dissertasiyaları, elmi tədqiqat işləri, o zamankı Əlyazmalar Fondunda fəaliyyətimlə bağlı məqalələr... Görünür, bütün bunlar Süleyman müəllimə artıq məni bir tədqiqatçı kimi tanıtmışdı. Odur ki, "Aləmdə səsim var mənim" romanım nəşr olunanda ustadın nəzərini cəlb etmişdi, oxumuşdumu, ya yox, bilmirəm, amma "Vətənə qayıt" dərhal, onun ardınca çap olunanda bir gün Yazıçılar İttifaqında rastlaşdıq. Gülə-gülə dedi: "Qız, "Aləmdə səsimi" oxuyanda, "Sərrast atılmış təsadüfi güllədir" – dedim səni Əli Qara oğlu tərifləyəndə. Amma indi görürəm ki, təsadüf deyilmiş, qüvvət yığırsanmış. Oxuyacam. Uğur olsun", – dedi. Düzü, onun həmin ifadəsini mənə bir vaxt çatdırmışdılar. Hətta Əli Qara oğlu Vəliyevin həmin kitabı mükafata təqdim etmək haqqında fikir söylədiyini də demişdilər. Amma nə tənqiddən inciməyə, nə tərifdən qürurlanmağa macalım yox idi. Ustad düz deyirdi: Yazmaq lazımdır.

Süleyman Rəhimova Sosialist Əməyi qəhrəmanı adı verildikdə üç dost şairə Mədinə Gülgün, yazıçı Əzizə Əhmədova və mən gül-çiçək götürüb Balaş Azəroğlu müəllimlə birlikdə onun görüşünə evinə getdik. Getmişdik ki, təbrik edək, xalqımızın onunla fəxr etdiyini, böyük romanları ilə



millətimizin adını ucaltdığını söyləyək. Ürəyimizdə sözlər əzbərləyirdik hər birimiz, yəqin ki, içəri girəndə Süleyman müəllimi təmtəraqlı, gözəl, boylu-buxunlu, səliqə-sahmanla, tər-təmiz, qəşəng geyinmiş görəndə, elə bil toya hazırlaşan ər-igid indicə at minib cövlan edəcək zənn etdim. Yoldaşlarımı bilmirəm, amma mən o əzəmət, o kişi gözəlliyi qarşısında qəlbimdə əzbərlədiklərimi unutdum. Bapbalaca uşağa çevrildim.

Vəziyyətdən Mədinə xanım çıxdı. Süleyman müəllimin mühacirət illərində onlara etdiyi köməklikləri xatırlaya-xatırlaya Balaş müəllimlə birlikdə onu öpdülər. Adaşım və yazıçı bacım Əzizə xanımla mən də ürəklənib hərəmiz bir tərəfdən onu öpdük eyni zamanda. Gülüb bizi oturmağa dəvət etdi. Elə böyük, elə xoşbəxt, elə təntənəli idi ki, evlərinin o böyük zalına sığmırdı. Divarlar ona, yaradıcılığına dar gəlirdi sanki.

Hörmətli oxucu görür ki, xatirə yaza bilmirəm. Memuar yazmaq özü də böyük istedad tələb edir, hər yazanın işi deyil. Odur ki, əslində dönə-dönə görüşdüyüm, söhbətlər etdiyim, çıxışlarını, nəsihətlərini dinlədiyim ustadımız haqqında bu yazını yazdıqda gücsüzlüyümdən utanıram. Utanıram ki, niyə o qiymətli günlərin qiymətini dərk etməmişəm, qeydlər etməmişəm. Qəsdən sevə-sevə oxuduğum: "Şamo", "Məhtaban", "Ana abidəsi", "Saçlı" kimi hər biri ədəbiyyatımızda bir hadisə olan əsərlərinin təhlilini vermirəm. Onları təkcə oxumamışam, Qiyabi Pedaqoji İnstitutda dosent, kafedra müdiri işlədiyim illərdə "Kurs işi", "Diplom işi" vermişəm. İndi bu, sovet ədəbiyyatı alimlərinin, münəqqidlərimizin işidir.

Hətta onunla kədərli günlərində, oğul dərdi ilə yandığı, həm də gizli-gizli yandığı, bir dağ dəyanətilə Qədəm xanımın vəfatına dayandığı, hətta özünün də cənazəsi ucundakı kədərli, dərdli günlərimizdən qəsdən danışmadım. Bu yazımda böyük insan və ustad ədibimiz haqqında albomumda qalmış bir neçə şəkillə bağlı kiçik xatirəmi yazdım. Kim bilir, bəlkə, bu yazının həcmi böyüdü bir zaman, in-

didən deyə bilmərəm. Amma onun yaradıcılığının və şəxsiyyətinin əzəməti qarşısında haçan, nə zaman, nə yazsam mənə kiçik görünəcək. Süleyman Rəhimov hafizəmdə, qəlbimdə Savalan, başı qarlı Şah dağ, Baba dağı əzəmətində qalıb. Xatirəmin kiçikliyinə baxmayaraq xatiratım böyükdür və eləcə də böyük qalacaq.

**1 mart 1989**



## Böyük insan, Xalq yazıçısı (Mirzə İbrahimov)[26]

**20.10.1981**

Mirzə İbrahimovun yetmiş yaşı tamamdır. Ona Sosialist Əməyi qəhrəmanı adı verilib. Bu münasibətlə universitetdə bu gün görüş keçirildi. Mən də səhnədəydim. Bütün kafedralar danışacaq. Ayrıca danışmağıma macal yoxdur. Amma bağırmaq, "Onun həyatı həyat məktəbidir. İnsan olmaq gərək olanda kimsəsizə, çarəsizə kömək əli uzatmaq məktəbidir" demək istərdim.

O olmasaydı, bu gün mən yox idim. Mənim kimilər yüzlərlədir. 1945-ci ilin axırlarında məni ərəb əlifbası ilə türk müəllifinin kitabını oxuduğuma görə universitetdən - təzəcə oxumağa başladığım filologiya fakültəsindən qovmuşdular. Mirzə müəllim o vaxt maarif naziri idi. Yanına getdim. Məni rektorumuz professor Abdulla Qarayevə necə tapşırmışdısa, dərhal haqqımdakı əmri geri götürdülər. Bunları düşünərkən səksən yeddi yaşlı professor Əziz Şərif professor Abbas Zamanovun müşayiətilə gəldi.

Qalxıb zala, danışanlara əhəmiyyət vermədən elmimizin, xalqımızın ağsaqqalı, "Molla Nəsrəddin" yadigarını öpdüm. Yanaşı əyləşdik, çiynimi qucaqladı: "Səni ilk dəfə görəndə bu Əzizə olacağın ağlıma da gəlməzdi. Deyirdim, bu kövrək qız ömrü uzunu qəlbinin həyəcanlarını ifadə edən xırda hekayələr yazacaq".

Bu böyük tarixi, kişilərə də ağır romanları, bu geniş elmi biliyi necə toplayıb yazmısan? Sağ ol, qızım" — deyə

[26] Mirzə İbrahimov haqqında Əzizə Cəfərzadənin ayrıca yazılmış xatirəsi olmasa da, "Rübabə Sultanım" romanında və digər xatirələrində dəfələrlə adı çəkilir. Yazı Əzizə Cəfərzadənin gündəliklərindən götürülüb – T.İ.
Gündəlik (10-01-81-31.12.99) (10.01.1981) / Əzizə Cəfərzadənin Ev Arxivi, Fond "P" / Qovluq №157 / Sənəd №9 / vərəq – 197

pıçıldadı. "Aləmdə səsim var mənim" romanımın Moskvada rusca çıxdığını deyəndə elə şad oldu ki! Elə bildim, yanında oturduğum mənəvi atamdır.

23.10.1981

Mirzə İbrahimova Ali Sovetdə "Oraq və Çəkic" qızıl medalı təqdim edildi. Yaxşılara nəsib olmalı gözəl məclisdi. Təriflər... Təriflər... Heydər Əliyevin əla, bilici çıxışı hamını valeh elədi. Mən isə ürək ağrısı ilə oturub onun ağır günlərini, dəyanətini, səbatını qibtəqarışıq əzab hissiylə düşünürdüm. Ürəyim elə ağrıdı ki, axşamçağı yubiley təntənəsinə gedə bilmədim. Televizorla seyr etdim. Yaxşı ki, yaxşı bitdi. Həyatının bu çağında əzabına son qoyuldu.



## Mehdi Hüseyn ömründən bir neçə an[27]

Mehdi Hüseyn 40-60-cı illərin Azərbaycan nəsri və dramaturgiyasında xüsusi yeri, sözü olan Xalq yazıçısı, tanınmış, sevimli ədib idi. Gənclik onu hələ məktəbdən, dərsliklərdən tanıyırdı. O zamanlar televiziya olmasa da, şair və ədiblərimiz xalq arasında, deyərdim ki, indikindən daha çox tanınır və əsərləri daha çox oxunurdu. Mehdi Hüseynin "Daşqın", "Tərlan", "Səhər", "Fəryad" və başqa romanları, klassik hekayələrimizlə yanaşı dura bilən hekayələri, "Cavanşir", "Nizami" kimi tarixi dramları, bir sıra tarixi, inqilabi mübarizədən bəhs edən kinossenariləri, ədəbi-tənqidi məqalələri, klassik ədəbiyyatımız haqqında tutarlı çıxışları və fikirləri, rus və sovet xalqları ədəbiyyatı haqqında yazıları ilə ədəbiyyatımızın ən görkəmli simasına çevrilmişdi. Yaradıcılığı çoxcəhətli, əhatəliydi. Harada, hansı sahədə günün, xalqın mənəvi inkişafının tələbinə cavab verən əsər lazım idisə, janrından asılı olmayaraq Mehdi Hüseyni məhz o cəbhədə görmək mümkün idi. Qaynar ədəbi mühitin qaynar, atəşli oğluydu, başçısıydı. Uzun illər Səməd Vurğundan sonra Azərbaycan Yazıçılar İttifaqına başçılıq etmiş, orden və medallarla təltif olunmuş, Xalq yazıçısı adına layiq görülmüş, SSRİ Dövlət mükafatını qazanmışdı.

Mehdi Hüseynin əsərlərində lap elə "Daşqın", "Kin", "Xavər" kimi kitablarından başlayaraq xalqın o zamankı həyatı, arzu və istəkləri öz əksini tapırdı. Doğrudur, Mehdi Hüseyn olduqca mürəkkəb zamanda yaşayırdı. Bütün sovet xalqları kimi, Azərbaycan xalqı da özünün tanınmış

[27] Cəfərzadə Ə.M. / "Yazıçı, ictimai xadim, dost" / "Bakı" qəzeti / 1989, 7 dekabr / səh. 3
"Mehdi Hüseyn ömründən bir neçə an" (05.12.1989) / Əzizə Cəfərzadənin Ev Arxivi, Fond "P" / Qovluq №21 / Sənəd №12 / vərəq – 7

yazıçı və şairlərini – Hüseyn Cavidi, Mikayıl Müşfiqi itirmişdi. H.Nəzərli, Seyid Hüseyn, Böyükağa Talıblı kimi nasirlər, Ruhulla Axundov, Əli Nazim kimi münəqqidlər məhv edilmişdi. Bu böyük itkinin yerini doldurmaq, bu boşluğu, xalqın canında yaradılan qorxu hissini yox etmək, onun qəlbində, heç olmasa, öldürülən mənliyinin qığılcımlarını qoruyub saxlamaq zərurəti, daimi qorxu altında yaşayan şair və yazıçılarımızın qəlbinin dərinliklərində yaşayırdı. Bunu büruzə verə bilmirdilər, verə bilməzdilər də. Lakin hər halda bu lazım idi. Elə buna görə də mənə elə gəlir ki, bəzi o zamankı şair və yazıçılarımız, o cümlədən Mehdi Hüseyn tarixi mövzulara əl atdılar. Onlar bu gün deyə bilmədiklərini, bu günün həyatında yarada bilmədikləri konfliktləri, surətləri, vətənpərvərlik hisslərini, Mirzə Fətəli Axundovun nəsiyyətinə qulaq verib, əməl edib, tarixə köçürdülər. Bu yolda xalqın söndürülməkdə, boğulmaqda olan hisslərini qorumağa çalışdılar.

Mənə elə gəlir ki, bu vətəndaş şair və yazıçılarımızın ən böyük xidmətləri də elə bundaydı. Tarixi mövzularda yazdıqları əsərlərlə konfliktsizlik, "yaşasın" dolu ədəbiyyatın və oxucunun dadına çatırdılar bu yolla. Mehdi Hüseynin "Cavanşir", "Nizami", "Səhər", "Komissar" və başqa bu kimi əsərləri gəncliyin qəlbində öz unutdurulmaqda olan keçmişini, tarixinə məhəbbət, vətənpərvərlik, əslini, kökünü unutmamaq, öz keçmiş qəhrəman babaları ilə fəxr etmək hissi aşılayırdı. Məncə, Mehdi Hüseynin başına bəla kəsilmiş "Şeyx Şamil" də, beləcə, həmin məqsədlə yaranmışdı.

Mehdi Hüseyn həmin fikirləri özünün Böyük Vətən müharibəsi mövzusunda yazdığı hekayə və povestlərində də ön plana çəkirdi. "Vətən çiçəkləri", "Fəryad", "Ürək" və onlarla bu mövzulu hekayələr o zamankı gəncliyin tərbiyəsində böyük rol oynamışdı. Bu əsərlərdə vətən məhəbbəti, beynəlmiləl dostluq, qarı düşmənə nifrət hissi əsas yer tuturdu.



Müharibədən sonra yaratdığı əsərlərində də Mehdi Hüseyni ədəbiyyatın başına bəla kəsilmiş hər şeydən çox konfliktsizlik bəlası düşündürürdü.

Odur ki, bu zaman götürdüyü mövzularda, heç olmasa, təbiətin qorxulu qüvvələrinə qarşı çarpışan, tufanlarla pəncələşib yerin dərin qatlarından qara qızıl çıxaran fəhlə obrazı Mehdi Hüseynin yaradıcılığında əsas yerlərdən birini tutur. Həm nəsrdə, həm də kinossenarist kimi. "Qara daşlar" həm nəsr əsəri, həm də ssenari kimi beləydi. Mehdi Hüseyn "Alov" pyesində hələ o zaman, durğunluq illərində belə kəskin xarakterlər yaradır, Azərbaycanın fəhlə və ziyalılarının həyatında baş verən gərgin hadisələri realist qələmlə tamaşaçıya çatdırırdı. Onun Kamalov, Qaşqay surətləri cavanşirlərin, nizamilərin nəsliydi ki, doğruluq, dürüstlük, paklıq, təmizlik və əqidə uğrunda çarpışırdılar.

Mehdi Hüseyn bir ictimai xadim kimi də öz dövründə sevilirdi, böyük hörmət qazanmışdı. Xalqın ona böyük inam və etimadı var idi. Harada hansı vəzifə tapşırılsaydı, Mehdi Hüseyn o vəzifənin öhdəsindən layiqincə gələrdi. Birlikdə çalışmışıq və bütün tapşırıqlarına işçilərin böyük inam bəslədiyinin şahidi olmuşam. Çünki xasiyyətindəki sərtliyə baxmayaraq Mehdi Hüseyn büllur kimi təmiz, ədalətli adam idi. Bütün həyatı ömrünü həsr etdiyi idarə adamlarının gözü qarşısında cərəyan etdiyindən ona bəslənən inam və etimad hər an daha da artırdı.

Xalq yazıçısı Mehdi Hüseyn haqqında yazmaq mənim üçün çox çətindir. Biz – o zamankı gənclər onun simasında sözün əsl mənasında ustad, yol göstərən, ağsaqqal, ədəbiyyat, tənqid sahəsində özünün müstəqil, mükəmməl sözü olan nasir, dramaturq, tənqidçi görür, tanıyır və sevirdik. Yazıçılar İttifaqının sədri olduğu illərdə də onu məhz kəskin, sözü düz-doğru gözün içinə deyən, heç bir günaha güzəştə getməyən, amma işgüzar, hər yerdə sözü ötən, dediyini, verdiyi sözü yerinə yetirən bütöv şəxsiyyət kimi tanıyır, hörmət edirdik.

Elə gətirdi ki, ilk hekayəm "Əzrayıl"ı məhz Mehdi Hüseyn çap etdirdi "Ədəbiyyat qəzeti"ndə. Bir növ "Uğurlu yol" dilədi mənə. Sonralar da tez-tez Yazıçılar İttifaqında görüşür, Səməd Vurğunun rəhbərliyi altında aparılan "Cümələr"imizdə yaxından iştirak edirdi. Mehdi Hüseynin həyatından bir neçə an xüsusilə yadımda qalıb. Bu gün yubileyi günlərində yaradıcılığı haqqında qəsdən danışmır, biz gənc nasirlərlə bağlı günlərini xatırlayıram. Bir dəfə "Cümələrin" birində elə gətirdi ki, Mehdi Hüseynlə bir vaxtda yığılanlara öz hekayəmi oxumalı oldum.

Əvvəlcə onu deyim ki, ustad Səməd Vurğun biz uşaq-muşağın ədəbi dərnəyinə – cümələrə özü gələr və tanınmış yazıçıları da dəvət edərdi. Bir gənc yazıçı ilə birlikdə bir məşhur ədib də öz yeni əsərini oxuyar, hamı da öz fikrini deyər, əyər-əskiyi bildirər, məsləhət verərdilər. Həmin xatirimdə qalmış gecədə Mehdi Hüseyn özünün "Tərlan" romanından bir parça oxudu. Bu Güləli oğlunun öldürüldüyü səhnənin təsvir olunduğu parça idi. Heyranlıqla qulaq asırdıq. Güləli oğlunun ölümü elə təsirli verilmişdi ki, sonradan özümün nə və necə oxumağım, kimin nə dediyi, necə məsləhət verdiyi yadımdan çıxıb. Yalnız günahsız yerə öldürülmüş, çölün düzündə qalmış cənazəsinə "göyün dərinliklərindən sayrışaraq baxan xırdaca-xırdaca ulduzlar" qalmışdı xatirəmdə. Vahiməliydi, qorxunc idi və uzun illər o səhnəni unutmadım, xatırladıqca üşənirdim. Gecədən sonra ustada yaradıcılığına məftun gözlərlə baxırdım.

Tez-tez öz hekayələrimi ona oxuyar, rəyini öyrənərdim. Axı onun rəyi o zamankı ədəbi mühit üçün çox mühüm idi. Əvəzsiz idi, obyektiv idi. O zaman müharibənin qurtarmasına bir neçə ay qalmış mən Bakı kinostudiyasında Mehdi Hüseyn və İlyas Əfəndiyev ilə birlikdə çalışırdım. Gənc olsam da, hər iki böyük sənətkar məni öz ailələrinin bir üzvü, bacıları kimi qəbul edir, qayğıma qalırdılar. Gecələr çox uzun çəkən partiya iclaslarından, komendant saatı olan şəhərdə evə tək qayıtmağım çətin idi. Mehdi müəllim heç



vaxt buna razı olmurdu. Komendant saatı ləğv olunandan sonra da gecikəndə mütləq sağ-salamat uzaq Dağlı məhəlləsində olan evimizə çatmağımın qayğısına qalır, yaxşı tanıdığı və çox sevdiyi anamın nigaran qalmamasına çalışırdı. Deyirdi: "Əgər sənə bir az öz istedadına görə hörmət edirəmsə, daha çox o gözəl, əsl insan olan ANANA görə hörmət edirəm". O ağır aclıq, yoxsulluq illərində mən də, mənim kimi gənclərin çoxu da Mehdi Hüseynin qayğısını çox görüblər.

Bir dəfə Mehdi Hüseyn özünün "Fəryad" əsərini bizə oxudu. Bilmirəm, nədənsə mənim fikrimlə də hesablaşırdı, razılaşırdı. Tənqidə, haqsızlığa dözümsüz olan ədib yaradıcılığına və şəxsinə məhəbbətimə inanmışdı ki, bir çox əsərinin ilk oxucusu olmuşdum. O cümlədən də "Fəryad"ın. Elə bu inamına görə idi ki, "Səhər" romanı çıxanda kitab haqqında "Azərbaycan" məcmuəsində ilk rəyin məhz mənə tapşırılmasına etiraz etməmişdi. Halbuki o zaman Mehdi Hüseyn artıq tanınmış, məşhur ədib və İttifaqın sədri idi. Elə həmin irəlicə adını çəkdiyim "Fəryad"a görə də biz bir-birimizdən incimişdik. Mən ona "Esmeralda" adlı hekayəmi oxuyanda gülərək belə ifadə işlətdi: "Hə, nə olsun, hamı bilir ki, kapitalist dünyasında yoxsulları incidirlər". O demək istəyirdi ki, hekayəmdə tendensiyaçılıq var, bilmədiyim mühitdən yazmışam. Mənim də dilim dinc durmadı, cavabında dedim: "Hə, nə olsun, hamı bilir ki, hitlerçilər sovet adamlarını incidir, bəs niyə "Fəryad" edirsən?" Qalxdı, bir söz demədi, qaş-qabağını tökdü və məndən üz çevirdi. Eləcə küsüşdük. Ustad şagird kimi ərklə.

Bundan sonra bir müddət incik dolanmağımıza baxmayaraq "Səhər" çapdan çıxanda o zamanın tanınmış tənqidçi və ədəbiyyatşünasları meydanda olduğu halda "Azərbaycan" jurnalı təqriz yazmağı mənə tapşırmışdı. Mehdi Hüseynlə məsləhətləşəndə bir sözdə belə etiraz etməmiş, jurnalın redaktoru mərhum Xalq yazıçımız Əbülhəsən ustadın deməyinə görə (o zaman Əbülhəsən müəllim jurna-

lın redaktoru idi) deyibmiş: "Obyektivdir". Doğrudan da, məqalə çıxandan sonra oxumuş, bəyənmişdi. Məqalədə tənqid hissəsində belə ifadə var idi ki, sözə tələbkar olan Mehdi Hüseyn yazır ki, saqqalımın tükü uzandı. Saqqal elə tük məfhumu verir. Əbülhəsən müəllim deyirdi ki, redaksiyada məqaləni gözdən keçirəndə bərkdən güldü, əlini üzündə dolaşdırıb dedi: "Qız olanda nə olar? Düz deyir də... Saqqal elə tükdür".

Görüşlərimizdən biri bizi barışdırdı. Bu, elə bir gecə idi ki, universitetin binasında böyük alimimiz, ustadımız Əli Sultanlı doktorluq dissertasiyası müdafiə edirdi. Mehdi Hüseyn gələndə elmi şura artıq işə başlamışdı, təkidlərə baxmayaraq arxada, biz cavanlarla birlikdə əyləşdi. Çıxışları böyük maraqla, diqqətlə dinlədi, harasa tələsirdi. Səsvermə qurtarmamış Əli müəllimin əlini sıxıb getdi, gözlərində elə qığılcım çıxırdı ki, Azərbaycan dramaturgiyasının tarixinin belə bacarıqlı tədqiqi aşkar idi ki, onu fərəhləndirir, sevindirirdi. O qığılcımlardan müdafiəmdə mənə də nəsib oldu. İnciklik də bitdi.

Qələbə gününü bütün kinostudiya kollektivi ilə birlikdə qarşıladıq. Mayın doqquzunda səhər Levitanın səsini eşidən kimi qələbə elanını dinləyən direktorumuz Mehdi Hüseynin kabinetinə doluşduq. Ağlayırdım: "Ay dəli qız, niyə ağlayırsan, sevinmək lazımdır", – dedi. Amma özünün də o qığılcımlar saçan gözlərindəki qığılcımlar nəmliydi sanki. Bəlkə, bu mənə belə gəlmişdi. Mənə elə gəlirdi ki, onu işçilərimizin hamısından daha çox, daha yaxşı duyuram. Nə qədər olsa, kiçik də olsam, az da yazsam, qələm yoldaşı idik və o, 1942-ci ilin fevralında vəfat edən qızımın dəfnində elə qayğılar göstərmişdi ki, bu dəfni elə təşkil etmişdi ki, ağır illərin ağırlığını, cəbhələrdə çarpışan ömür yoldaşımı onun bircə balasının dəfnində əvəz etmişdi. Həm maddi, həm mənəvi...

Mehdi Hüseyn haqqında xatirələrimi çox istəyiblər məndən. Yaza, səliqəyə sala bilməmişəm. Çünki həmişə o ağır illər o körpənin dəfn mərasimi ilə birləşərək gözlərimi



dumanlandırıb və fikrimi tamamlaya bilməmişəm. İndi də elə. Doğrusu, qəlbimdə o qədər xatirə, o qədər söz var ki, bir məqaləyə sığmaz və yubiley məqaləliyindən çıxar. Sağlıq olsun...

Mən və mənimlə ədəbiyyata eyni dövrdə gələn gənclik Mehdi Hüseynin ata, ustad qayğısını, tələbkarlığını, barışmazlığını, eyni zamanda inkişafımıza yardım edən obyektivliyini unutmayacağıq. Ədəbiyyatımız tarixində isə özü, öz əməlləri, ölümsüz əsərləri ilə oxucuların qəlbində yer tutub.

**4-5 dekabr 1989**

## Yenə də açıldı xatiratımın... (Süleyman Rüstəm)[28]

Süleyman Rüstəm... Gənclik illərimin Xalq şairi. Doğrusu, böyük-kiçiklik, yaş, vəzifə fərqləri onunla yaxınlıq etməyimə, dostluğa filan imkan verməmişdi. Heç işim də düşməmişdi. Dərd-sərimi götürüb yanına getməmiş, kömək də istəməmişdim. Amma həmişə mehribanlığını, şəfqətini duyurdum. Heç yadımdan çıxmaz: bir bayram olmurdu ki, mən telefonda onu əvvəl təbrik edə bilim. Həmişə o əvvələ düşürdü, telefonda səsini eşidəndə xəcalət çəkirdim. Elə də gözəl sözlərlə təbrik edirdi ki. Bir dəfə dedim: "Kaş bircə dəfə mən qabağa düşəydim, Süleyman müəllim". Həmişə mən götür-qoy edənəcən o qabağa düşürdü.

Bir gün "Gənclik" nəşriyyatındaydım. Süleyman Rüstəm gəldi. Əzizə Əhmədovanın stolunun qabağındakı mizin arxasında üz-üzə əyləşdik. Elə bu vaxt Əzizə xanımı Moskvadan telefona çağırdılar. Üzr istəyib uzunca bir sorğuya cavab verməli oldu. Girəvə bizə düşdü. Ordan-burdan danışırdıq. Birdən nədənsə onun "Yenə də açıldı xatiratımın baharı andıran gül dodaqları" beytilə başlayan şeiri yadıma düşdü. Gəncliyimin o zamankı yayğın, bəyənilən şeirlərindəndi. Amma indi çoxdan unudulmuşdu, heç kitablarında da, deyəsən, rast gəlmirdim. Sanki elə bu "acığa" şeiri oxumağa başladım: Orada çox şeydən danışılırdı. Amma əsas mövzu gəncliyin məhəbbət dolu, həyəcan dolu sehrli həyatı, "gözəl Şuşa"da keçən günləri xüsusi məhəbbətlə tərənnüm olunurdu:

[28] Cəfərzadə Ə.M. / "Yenə də açıldı xatiratım ..." / "Ədəbiyyat qəzeti" / 1997, 25 aprel / səh. 2
"Yenə də açıldı xatıratımın..." (Süleyman Rüstəm) (22.01.1997) / Əzizə Cəfərzadənin Ev Arxivi, Fond "P" / Qovluq №21 / Sənəd №10 / vərəq – 4



*Gənclik illərində gözəl Şuşada,*
*Yadındamı? Dağ başında, meşədə,*
*Yağış tutdu bizi xeyli islandıq...*
*Yadındamı, gülüm, gül əndamına*
*Yapışmışdı yaşıl, ipək əlbisən.*
*Sanasan gedirdik el bayramına,*
*Mənim ilk öpüşüm, sənin ilk busən,*
*Biri-birinə nələr anlatmadılar?*
*O günü unutmaq olurmu, ey yar?!*

Şeirdən Şuşanın ətri gəlirdi, gəncliyin həyat eşqi ilə dolu səsi, sevdalı günləri elə real təsvir olunurdu ki, heyran olmamaq mümkün deyildi: Gözəl Şuşada seyrə çıxan sevgililərin həyəcan, məhəbbət dolu anları da:

*Uzaqdan gəlirdi tar, kaman səsi,*
*Neçindi onların ağlayan səsi?*
*Sus, ey dərdli kaman, sus, ey dərdli saz,*
*Uyusun şeirimin baharı bir az.*

Mən şeiri oxuduqca həmişə gülümsər gördüyüm gözlərində elə bir təəssüf qarışıq şəfqət canlanırdı ki, "Sən bunu haçan, harda oxumusan?" – soruşdu. Dedim ki, "Bunu bizə "Orfoepiya" kitabının müəllifi Xalq artisti Kazım Ziya bədii qiraət dərsində öyrədib". Doğrudan da, Kazım Ziya bu şeiri çox sevərdi. İndi çoxlarının, təəssüf ki, nahaqca yerə unutduğu o sənətkar bizə qəribə, o dövr üçün nadir şeirlər seçib oxuyar, öyrədərdi. Yeri düşmüşkən, Kazım Ziyanı xatırlayıb, dediyi bir beyti söylədim:

*Ey muradım əksinə dövran edən kəcrov fələk,*
*İndi neynərsən ki, könlüm namurad olmaq dilər.*

Süleyman Rüstəm fikrə daldı, "Gözəl sənətkar idi. Bir gör fələyə necə meydan oxuyub?" – dedi.

Heç ağlıma da gəlməzdi ki, Xalq şairi Süleyman Rüstəm mənə şeir ithaf edər. Amma etmişdi: Onun "Ana" şeiri mənə yazılıb və həmin ithafı ilə də mətbuatda dərc olunub:

## ANA

*Əzizə Cəfərzadəyə*

*Ey könül, nəğməmizin ilk sözü – fəxr et, anadır,*
*Yerlərə, göylərə, tarixlərə şöhrət anadır.*

*Anadan əmdiyimiz saf südə and olsun ki,*
*Gözümə sönməz işıq, qəlbimə qüvvət anadır.*

*Anamın incə, şirin laylasına qurban olum,*
*Yer üzündə əbədi, ülvi məhəbbət anadır.*

*Cana gəlməz yeni dünyaya gələnlər anası.*
*Körpələrçin anadır dövlət, hökumət anadır.*

*Məncə, qeyrətli qıza, mərd oğula alnı açıq –*
*Keçdiyi nəğməli yollarda səadət anadır.*

*Ey Süleyman, anadan yaz, anadan yaz, anadan,*
*Vətənə, millətə, dünyamıza şöhrət anadır.*

Günlərin bir günündə Süleyman Rüstəmin yetmiş illik yubileyi keçirilirdi. Dəvətnamə almışdım. Bir də gördüm ki, təbrik edənlər sırasında mən də varam. Səhnəyə çıxdım, həmin "Ana" şeirini oxudum. Kazım Ziya müəllimin öyrətdiyi daxili, məntiqi vurğularla. Bir az da danışdım. Amma təəssüf ki, çıxışlarımı heç vaxt yazmadığımdan, indi nə dediyimi xatırlamıram.

İrana getmişdim. Hələ indiki kimi açıq danışıqlar, səhnələrdən açıq çıxışlar mümkün deyildi. Məni Tehranda evlərinə qonaq dəvət edir, şairlər "qonaqlıq" adıyla ədəbi



görüş və mübahisələr aparırdılar. Görüşlərdən birində iki çıxış məni narahat elədi. Biri bu idi ki, Bakıdan gedənlərimizdən biri Cəfər Cabbarlını tənqid etdi, "xalqa böhtanlar deyib" və s. kimi sözlər söylədi. Cavabını verdim ordaca. İkinci indiki gəncliyin bəzilərinin Süleyman Rüstəmə münasibəti cənublu şair qardaşlarımızı çox kövrəltmiş, daha doğrusu, qəzəbləndirmişdi. Deyirdilər: "Neynirsiz, canım, Süleyman Rüstəm öz "Cənub şeirləri" ilə bizim inqilabımızın bayraqdarıdır". "İnqilabın bayraqdarı". Bəlkə də, bu ifadə başqa cür işlənməliydi. Bəlkə də, uzun illər, əsrdən ziyadə bağrımızdan keçən "Araz dərdini", "Araz yarasını", deməli, dilimizə gətirə bilmədiyimiz "Azərbaycanın istilasını – ikiyə bölünməsini" bir anda unutmağa qoymayan Cənub şeirləri məhz "Azadlıq bayrağı"ydı. O zaman heç kəsin deməyə cürəti çatmayan bu məsələ, bu azadlıq, istiqlaliyyət eşqi həmin Cənub şeirləri pərdəsinə bürünmüşdü.

Doğrusu, o zamanın ədəbiyyatını indi "ifşa edənlər" bilmirlər ki, həmin illərdə düşünən, yaradıcı ziyalılar nə çəkirdi. Hər birinin içində bir "Qlavlit" əyləşib, nəyi demək olmaz əmrini yerinə yetirtdirirdi. O zamankı şair və ədiblərimizdən hansı bu ölçüdən kənara çıxmışdı? Hansı o başabəla həyatı "tərənnüm" etməmişdi? Balacalığında nəvəm Tuğay Süleyman Rüstəmin məşhur şeirini oxuyanda özü bildiyi kimi, uşaqlara məxsus ifadəylə, "Qənfet yemək istəyən Azərbaycana gəlsin" – deyirdi. Bax, başqa şairlərimizin olduğu kimi, Süleyman Rüstəmin də "qənfet" nəzmləri yaddan çıxacaq, millətin xatirində məhz bayrağa çevrilmiş o Cənub poeziyası qalacaq, bir də həzin məhəbbət lirikası ki, qəzəllərində səmimi, ərkyana bir dillə tərənnüm edirdi. Mən bu imandayam. Xatırlayanlar, unudulmağa qoymayanlar sağ olsunlar. O dövr şair və ədiblərimizin ruhu şad olsun, amin!

**Bakı, 22 yanvar 1997**

## Sən elə sənətkarsan ki...
## (Əli Vəliyev)[29]

Əli Vəliyev haqqında məqalə yazmaq tapşırığını alanda, əlbəttə, sıralarla düzülmüş kitablar, qalın-qalın cildlər içərisində "Gülşən"i də, "Qəhrəman"ı da, "Budağın xatirələri"ni də, "Zəngəzur qartalları"nı da, "Ürək dostları"nı da, "Bir cüt tərlan"ı da, "Təzəgül"ü də, "Turaclıya gedən yol"u da, "Samovar tüstülənir"i və onlarca başqalarını da oxumuşdum. Bununla belə, bu otuzdan ziyadə kitaba yenidən baxanda mənə elə gəldi ki, Əli Vəliyevin yaradıcılığı ilə təzədən tanış oluram. Burada yüzlərlə hekayə var idi. Etiraf edim ki, çoxunu oxumamışdım. Doğrudur, Xalq yazıçısı Əli Vəliyev hələ "Nənəmin cəhrəsi" kitabı ilə bir oxucu kimi mənim də qarşımda geniş, gözəl, öz ətri və ab-havası olan aləm açmışdı. Mənim də əlimdən qocaman bir yazıçı tutub Sultanbud meşələrinin ecazkar gözəllikləri içərisində gəzdirmişdi. Sultanbud meşələrində zalım bir ağanın əlindən zülmlər görmüş fağır kəndli qadının taleyi, otuzuncu illərdə həyata təzə qədəm qoyan gənc sovet qızlarından hansını mütəəssir etməmişdi?

Xalq yazıçısı! Bu ad Əli Vəliyevin yazdığı roman, povest və hekayələrində təsvir olunan insanların taleyi ilə sıx bağlıdır. Öz xalqının keçmişini, gündəlik həyatını, sinfi mübarizəsini, kommunizm gələcəyini quran əmək cəbhəsinin qəhrəmanlarını, onların istək və arzularını tərənnüm edən yazıçının elə ilk hekayələri də onun məhz Xalq yazıçısı kimi yüksək ada layiq olacağını bildirirdi.

Əli Vəliyev bütün yaralıcılığı boyu görüb tanıdığı real insanları təkcə doğru, dürüst təsvir etməklə qalmır, məhz onların qəlbini, ruhunu duyub kommunizm cəmiyyətinə xas olan insanın ümumiləşdirilmiş surətini yaradır. Onun qəhrəmanları öz dövrü, onu əhatə edən cəmiyyət üçün fövqəladə deyil, ən sadə adamlardır. Əli Vəliyev bu adi, sadə adamın elə nəcib, elə girami xüsusiyyətlərini təsvir edir ki, həmin adi adam başqalarından öz gözəlliyi, nəcabəti, qəlbi ilə seçilir və müəllif onu yüzlərlə insanın içindən seçib oxucusuna sevdirə bilir. O, insanları yaxşı tanıyır. Elə buna görə də qələmində qəhrəman kimi fərdiləşdirilən bu surət müasir kolxozçudan bəhs edərkən şöhrətliləri, inqilab tarixindən danışarkən məşhur inqilabçıları deyil, bəzən onun təsvir etdiyi bir şəxs, bəlkə də, Qubadlının, Kəlbəcərin və ya başqa rayonun komsomol işində, bəlkə də, cəmi üç gün işləyib, namərdlərə düçar olub. Ya tutublar, ya işdən çıxarıblar; bəlkə də, sinfi düşmənlərin güllələrinə qurban gedib. Bax, Əli Vəliyevin məharəti bundadır ki, çox gözəl tanıdığı, öyrənib bildiyi, yaşayıb duyduğu həmin dövrü oxucuya tanıtdıra bilir. İş bundadır ki, Əli Vəliyev rayonları gəzib, həyatı, insanları öyrənib, o dövr və o insanlar haqqında əsl tədqiqatçı kimi iş aparıb. Az qala, heç bir izi qalmayan, sadəcə fədakar insan olan o, naməlum gəncin də unudulmasından ehtiyat edib. İstəyib ki, o təmiz pak tinətli inqilab oğullarının biri də unudulmasın, kölgədə qalmasın. Bəzən tədqiqatının, ağır axtarış və tapıntılarının nəticəsi, bəlkə də, cəmi üççə səhifəlik bir oçerk olub – amma bu üççə səhifə böyük və səbirli axtarışlar bahasına başa gəlib. Xalq yazıçısı, xalqın və inqilabın övladlarını məhz beləcə yana-yana sevə bilər. Bu axtarışlar zamanı Əli Vəliyev hansı rayondan bəhs edirsə, oranın yerli koloritini də öyrənir. Onun xalq dilinin zəngin xəzinəsindən bəhrələnən gözəl, ifadəli, xalqa məxsus dili hər bir yerliçilikdən, şivəpərəstlikdən təmizdir. Ədibin dilində yerli mənsubiyyət, yerliçilik deyil, məhz Azərbaycan dili öz əlvan boyaları, incə bayatıları, holavarları, ağıları, atalar sözü və məsəlləri və s. ilə canlanır.

[29] Cəfərzadə Ə.M. / "Sən elə sənətkarsan ki..." / "Azərbaycan qadını" jurnalı / 1974 / №11 / səh. 20

Bu yaxınlarda Əli Vəliyevin "Azərbaycan müəllimi" qəzetində bir məqalə-oçerkini oxudum. Orada dəvə və dəvəçilik haqqında bayatı, məsəl, adət və ənənə, dəvənin bəzəkləri və s. – hər bir şey elə gözəl təsvir olunmuşdu ki, Əli Vəliyev həm xalqın oğlu, həm də Xalq yazıçısı kimi öz doğma xalqının unudulmaqda olan gözəl, qiymətli adət-ənənələrini müdrik ədib qələmi ilə gənclərə təlim edir. Onun əsərlərində xalqımızın qonaqpərəstliyi, kişilərimizin dostluqda dərin sədaqəti, qadınlarımızın mərdliyi, qadın hörməti və s. kimi ənənələr bu və ya başqa surətin xarakterində, eyni zamanda əsərin ümumi ruhunda öz əksini tapır.

Əli Vəliyevin hekayələri yığcamlığı, həyatiliyi, tarixi həqiqətə sadiqliyi ilə də oxucunu valeh edir. O, vurğunu olduğu Vətən torpağının igid oğul və qızlarını təkcə bədii ümumiləşdirmə yolu ilə bədii təsvir etməklə kifayətlənmir. Adama elə gəlir ki, Əli Vəliyev inkişafımızda azacıq belə rolu olmuş kimin isə unudulacağından, adının itib-batacağından, zəhmətinin zay olacağından ehtiyat edir, dövlət və partiyamızın tapşırıqlarını mərdliklə yerinə yetirən, işıqlı gələcək naminə işləyən, bu uğurda həlak olan və ya ömür sərf edən insanların haqqında ürək dolusu, vurğun-vurğun yazır. Artıq çoxdan ad-san, xalq məhəbbəti qazanmış qocaman yazıçı olmasına baxmayaraq bəziləri kimi oçerklər yazmağa ərinmir, məsləhət bildiyi şəxslər haqqında xatirələr, yazıçı qeydləri və oçerklər yazır. Əli Vəliyev şəxsi həyatı bütün və hər cür qüsurlardan, ləkələrdən pak, təmiz, gənc nəsil üçün qətiyyəti, obyektivliyi, dürüstlüyü ilə nümunə olan həyatdır. Bu gözəl insan ömrü gözəl əmələ həsr olunub: Xalqın inkişafına əngəl olanlara qarşı barışmazlıq və xalqın işıqlı gələcəyi naminə çalışanların surətini əbədiləşdirmək!

Müsbət qəhrəmanlarının çoxu qadınlardır. Əli Vəliyev ana və nənələrimizin, bugünkü qızlarımızın həyatını, taleyini diqqətlə izləyir, onların fədakar əməyini, ictimai həyatda, ailədə düzlük, paklıq və mərdliklərini elə bir dürüstlüklə, heyranlıqla, realist qələmlə təsvir edir ki, xalqımızın uzunmüddətli tarixi mübarizəsi bu qəhrəman qızların taleyində öz əksini tapır. Azərbaycan qadınının keçmişi, bu günü, gələcəyi gözlərimizin önündə canlanır. Əli Vəliyev təsvir etdiyi qadın qəhrəmanları səviyyəsini məhz bir xalq oğlu, anaya dərin hörmət, bacıya dəruni məhəbbət bəsləyən əsl mərdanə mərd cəbhəsindən həll edir. Onun "Gülşən" povesti və digər romanlarında yaratdığı Gülşən, Xanpəri kimi mərd qadın surətləri buna misaldır.

Əgər Əli Vəliyev haqqında yazsaydım, kitabımın adını Qorkidən alınan bir sözlə, yəni böyük hərflə "İnsan" qoyardım. Əli Vəliyev yazıçı, ictimai xadim, jurnalist olmaqla yanaşı, həm də əsl insandır. Onun yanına məsləhətə, ən sadə söhbətə gələn adam da xalqın müdrik oğlu, bir "Budaq baba"sı ilə söhbət etdiyini düşünə bilir. Hələ bir xahişi yerə saldığını, bir məsləhəti qızırğandığını, məncə, deyən ola bilməz. Mehribanlığı ilə yanaşı Əli Vəliyev həm də olduqca obyektiv, həm məhəbbətində, həm də nifrətində açıq, kəskin şəxsiyyətdir. Haqlı bildiyini onun kimi axıra qədər müdafiə edən, haqsız olduğuna əminlik hasil etdiyinə qarşı da onun kimi sona qədər amansız olan adam tapmaq çətindir.

"Azərbaycan qadını" jurnalının oxucuları Xalq yazıçısı Əli Vəliyevi hələ "Şərq qadını" dövründən tanıyır, sevir, elə o zamandan da onu həm mövzu, həm də üslubuna görə xalqın yazıçısı, yəni öz yazıçıları bilirlər. Bu uğurda Əli Vəliyevə ən möhkəm can sağlığı, həyatımızın yeni səhifələrini əks etdirən əsərlər, yaradıcılıq müvəffəqiyyətləri və uzun ömür arzulayırıq.

**Bakı, noyabr 1974**

## Uzaq xatirə (İlyas Əfəndiyev)[30]

İlyas Əfəndiyevlə ilk görüşüm və az sonrakı yaxın dostluğum çoxdanın söhbətidir. O zaman hələ həyata ilk hekayəmlə qədəm qoymuş kövrək qədəmli öz yağı içində qovrulan yazmaq-yaratmaq həvəskarıydım. Mərhum Hidayət Əfəndiyevin "İşçi-müəlliflər dərnəyi"ndə də təzəcə görünməyə başlamışdım. İlyas Əfəndiyev isə ilk "Kənddən məktublar"ı ilə özünü dövrün nasirliyi ilə bir cərgəyə qoya bilmiş, mənə görə artıq kamil nasir idi. Yazıçılar İttifaqında nəsr bölməsinə Əbülhəsən rəhbərlik edirdi. Hamımız da dərnəkdə qəbul olunmuş hekayələrimizlə ona müraciət edirdik. Bir dəfə Əbülhəsənin yanına ikinci nəşr olunmuş "Xəzər" hekayəmi götürüb gəlmişdim. Yanında ayaq üstündə bir cavan dayanmışdı. İlahi! Allah bu oğlana əsl kişi gözəlliyini elə səxavətlə vermişdi ki! Göz çəkmək olmurdu. Özü bunu hiss etsə də, əhəmiyyət verən deyildi. Boylu-buxunlu, şəkil kimi, amma ciddi, çox ciddi. O, Əbülhəsən müəllimlə nədənsə danışıb getdi. Nədən danışdıqlarını bilmirdim. Amma çox mehribandılar. O getdi. Əlbəttə, Əbülhəsən müəllimdən, şəkli dərsliklərimizə düşmüş, məşhur romançı "Dünya qopur", "Yoxuşlar" müəllifindən bu cavanın kim olduğunu soruşa bilməzdim. Təbiətimcə nadinc, cürətli olsam da, hekayələrimi utana-utana, qorxa-qorxa gətirirdim. Amma bəxtim gətirdi. Əbülhəsən müəllim gülə-gülə dedi:

– Əzizim-əzizim, bax, istedad belə olar. Elə "Kənddən məktublar"ı birinci çap olunan kimi məşhur yazıçılarla bir

[30] Cəfərzadə Ə.M. / "Uzaq xatirə" / "Yeni Azərbaycan" qəzeti / 1997, 27 sentyabr / səh. 3
"Uzaq xatirə" (İlyas Əfəndiyev) (27.09.1997) / Əzizə Cəfərzadənin Ev Arxivi, Fond "P" / Qovluq №21 / Sənəd №6 / vərəq – 7



cərgəyə çıxıb. Yoxsa sənin kimi?! Bir ildə bir hekayə gücnən...

Ürəyim guppuldadı. Əlbəttə, "Kənddən məktublar"ı oxumuşdum. Gənc qız ürəyinin çırpıntılarını, gənc, əlinə ilk qələm götürən həvəskar kimi məftunluqla oxumuşdum. Sevmişdim əsəri. "Kaş mən də belə yaza biləydim..."

Doğrusu, İlyas Əfəndiyevlə nə zamandan salam-kəlama başladığımız yadımda deyil. Hər halda müharibədən əvvəl idi. Müharibə başlananda artıq evdar anaydım. Ömür yoldaşım cəbhədəydi. İşləmək lazımdı. Əlimdə xəstə, iflic qayınanam vardı. Artıq gənc yazıçı kimi ittifaqda tanınırdım. Haqqımda o zamankı münəqqidlərdən Orucəli Həsənov rəhmətlik nə isə yazmışdı da. Mehdi Hüseyn kimi o zamanın korifeylərindən olan bir ədib məni tanıyır, deməyinə görə, imzamı izləyir, yazılarımı bəyənirdi. Elə ona da müraciət etdim. Məni direktor işlədiyi Bakı kinostudiyasında Kadrlar şöbəsinin müdiri vəzifəsinə qəbul elədi. Elə İlyas müəllimlə yaxınlığımız, dostluğumuz da buradan başladı. Ömür-gün yoldaşım cəbhədəydi hamı kimi. Həyatımız olduqca ağır keçirdi. İlyas müəllimlə bir otaqda hərəmiz bir stolun başında qarşı-qarşıya əyləşirdik. Dərdlərimə qardaş kimi şərik olurdu. 1942-ci ilin fevralında qızım Səma öldü. O günlər anladım ki, əsl dost, qardaş necə olar. Studiyanın böyüklü-kiçikli bütün əməkdaşları da dərdimə şərikdi, amma İlyas müəllim, Mehdi Hüseyn, Rza Təhmasib, Əlsəttar Məlikov, xüsusilə, evimizə gəlib mənə deyil, anama başsağlığı verirdilər. Sonralar Mehdi müəllim, elə İlyas da deyərdilər ki, səni anana görə daha çox istəyirik. Anam onların qayğı və hörmətini, Səmanı dəfn etməkdə yardımlarını ayrıca qiymətləndirirdi. Həm də anam hər iki ədibin o dövrdə imzalarını mətbuatda izləyir, əsərlərini oxuyurdu.

Qızım əlimdən gedəndən sonra məni də yaşıdım qızlar kimi səfərbərliyə çağırdılar. Lakin o zaman artıq kənd məktəblərində, elə şəhərin özündə də məktəblərdə kişi müəllimi, demək olar ki, qalmamışdı. Səfərbərliyə alınan

qızlardan nisbətən savadlı, müəllimliyə layiq olanları kənd məktəblərinə göndərdilər. Dörd ilə yaxın Ağsu rayonunun Çaparlı kənd orta məktəbində əvvəlcə müəllim, sonra dərs hissə müdiri və direktor işlədim. Müharibənin qələbələrlə irəliləyən aylarında Bakıya gəlib Maarif Nazirliyinə müraciət etdim. Nazir, yazıçı Mirzə İbrahimovdu. Məni təhsilimi davam etdirə bilmək, ali təhsil ala blmək üçün kənd məktəbindən azad etdi (artıq yaralı da olsa, kişi müəllimlərdən qayıdanlar vardı). Amma yenə həmişəki kimi həm oxumalı, həm də işləməliydim. Bakı kinostudiyasına getdim. Mehdi Hüseyn direktorluğunda, İlyas müəllim ssenari şöbəsi müdirliyində baqiydi. Məni yenidən işə qəbul etdilər. Yenə İlyas müəllimlə bir otaqda qarşı-qarşıya əyləşdim. Yenə də nə tapırdıqsa, o ağır illərdə, bölüşürdük. Bircə parça qara çörəyi iki bölüb yeyirdik. İlyas müəllim bir qədər də elə bil ki, böyümüş, şöhrətinin üstünə şöhrət gəlmiş, ədib, dramaturq, dövri mətbuatın korifeylərindən olsa da, həmincə sadə, mehriban, gülərüz İlyas Əfəndiyevdi. Şöhrəti artdıqca pərəstişkarları da artırdı. İndi artıq yaşı yetmiş altını keçmiş qadın kimi deyə bilərəm ki, İlyas müəllimi "gözəl" dalınca qaçan görməmişdim. Şəhərin ən gözəl qadınları onun ardınca gəzirdi, ondan ötəri ifadə üçün üzr istəyirəm, "sinov gedirdilər". İlyas müəllim isə artıq evliydi, iki ay parçası oğul atasıydı. Mehdi Hüseyn, mən İlyas müəllimi bəladan qorumaq üçün məhəbbətimizin bütün gücündən istifadə edirdik. Amma bəzi sırtıq "gözəl"lərin qarşısını almaq olmurdu. Yeri düşəndə belələrinə anladırdıq. Evlidir. Gözəllər gözəli xanımı var. Çarə eləmirdi. Mən, doğrudan da, Tövsiyyə xanımı çox bəyənir, sorğularına qardaşım haqqında ən doğru, ləyaqətli cavablar verirdim. Lakin təəssüf ki, namərdlər tapıldı. Və...

Mehdi Hüseyn, o zaman kinematoqrafiya naziri olan Xalq şairi Rəsul Rza və başqa dostlar İlyası bəlalardan qorudular. Və İlyas müəllim ömrünün sonunacan evlənmədi, cavan həyatını məhəbbətinin yadigarı olan oğullarına – Elçinə, Timuçinə həsr edib nümunəvi ata və müəllim oldu onlarçün.



Müharibə qurtardı. Artıq universitetdə oxuyur, Teatr Texnikumunda direktor işləyirdim. Həyat elə qaynayırdı ki, İlyas müəllimlə çox az, yalnız ittifaqdakı iclaslarda görüşürdük. Namizədlik müdafiə edəndə də məni ilk təbrik edənlərdən biri o, biri də Mehdi Hüseyn idi. Ara-sıra balıq kababına bizə qonaq gələrdilər. İkisi də sevərdi ağ balıq kababını. Bir dəfə heç yadımdan çıxmır. Anam süfrəni hazırlayıb harasa vacib bir iş üçün getmişdi. Əlbəttə, əziz qonaqlarımıza – ədəbi aləmdə müəllimim və qardaşım saydığım adamlara mən xidmət edəcəkdim. Mənə elə gəldi ki, süfrədə duz yoxdur. Evdə vurnuxmağa başladım. Birdən Mehdi müəllimin kinayəli səsini eşitdim:

– İlyas, qələmdaşına de ki, süfrədə duz var, axtarmasın.

İlyas güldü:

– A-a-a-a-az, eşitdin? Bir də, ay Mehdi, neynəsin? Ev üzü görür ki, duzun yerini də bilsin? İşlə oxu, hər igidin işi deyil.

Doğrudan da, həmişə "ikinövbəli" olmuşam, həm oxumuşam, həm də işləmişəm. Yaşamaqçün. Xüsusilə, o ağır illərdə...

– Mehdi müəllim, nədən bildiz ki, duz axtarıram?

– Gördüm, hər şey yerindədi, duzqabı balacadı, iri boşqabın böyründə "gizlənib".

İlyas müəllim məni həmişə adımdan əvvəl bir "a-a-az"-la səslərdi. Yaşımızda fərq vardı, məndən azı 13-14 yaş böyükdü, amma özünü elə aparırdı ki, elə mehriban, elə ərkyana, elə gülərüz olurdu ki, yaş həddi silinirdi. Mən də ixtiyarsız bəzən onu sadəcə "İlyas" səsləyirdim. Halbuki evimizdə böyüyə hörmət kultu vardı.

O illərdə, elə sonralar da İlyas müəllimin (haqqı üçün deməliyəm ki, Ənvər Məmmədxanlının da) nəsri gənc nasirlərçün nümunəydi, örnəkdi, bəzən hətta təqlid yeriydi. İlyas kimi yazmaq, İlyasın diliylə danışmaq (həyatda deyil, yazıda) üzüağlıq, qürur, yaxşı yazı nümunəsi sayılırdı biz

yazıçı "uşaq-muşaq" arasında. Onun hətta tərcümələri də: Turgenevin mənsur parçaları nə gözəl, nə təzə idi güllər... romantika, zərif, axıcı, musiqili azəri türkcəsindəydi. Özünün hekayələrindən də daha çox mənsur şeir ətri, rayihəsi duyulurdu. Deyərsiniz ki, niyə İlyas müəllimin məhz nəsrindən məftunluqla danışıram? Onun "Dağlar arasında üç dost", "Körpüsalanlar", "Söyüdlü arx" və başqa mənsur şeir ətri gələn əsərlərini dönə-dönə oxuyurduq, sevirdik, öyrənirdik, bəzimiz təqlid edirdik. Ona görə ki İlyas Əfəndiyevi hələlik nasir kimi tanıyırdıq. Onun əlçatmaz zirvəsinə – dramaturgiyasına gəldikdə... Bu biz tamaşaçılar üçün möcüzəydi. Doğrudur, "İntizar"ı da, "Bahar suları"-nı da görmüşdük, İlyas qələminin burada da gücünə inanmışdıq. Amma hər halda şəxsən məni, nəinki İlyas yaradıcılığında, hətta ümumiyyətlə dramaturgiyamızda "Sən həmişə mənimləsən"i titrətdi. Ədəbi ictimaiyyətə, İlyas və ümumiyyətlə, dramaturgiya pərəstişkarlarına, tamaşaçılara toy-bayram təsiri bağışladı. Bu yazımda İlyas Əfəndiyevin əsərlərini, yaradıcılığını təhlil etməyi qarşıma məqsəd qoymamışam. Sadəcə o böyük sənətkar, o əvəzsiz ədib və dramaturqla yaradıcılıq illərində mənə xoşbəxtlik kimi üz verən "bir otaqda oturub bir tikə qara çörəyi iki böldüyümüz" günləri xatırlayıram. Bu mənimçün əvəzsiz səadət günləriydi. Sonralar ömür yoldaşım təyyarəçi Məmmədin səfərləri ilə əlaqədar iynə dalınca sürünən sap kimi ölkələr, qitələr gəzməyə başladım. Ədəbiyyatçılar aləmindən uzaqlaşdım. Amma onun hər əsərinin tamaşasına gedirdik. Gah anamla, gah da ömür yoldaşımın imkanı olanda, onunla. "Unuda bilmirəm"in tamaşasından evə qayıdanda anam mənə dedi, "İlyasa zəng elə, de ki, anam deyir, "Allah onu yerin-göyün bəlalarından saxlasın". Anamın əmrini yerinə yetirdim. Əlbəttə, telefonda İlyasın "Çox sağ olsun, ananın əllərindən öpürəm"ini eşitdim, simasının nə şəkil aldığını görə bilmədim. Əminəm ki, məhəbbət vardı o gözlərdə.

Tamaşaların birində necə oldusa (deyəsən, "Məhv olmuş gündəliklər"di), çıxanda İlyas müəllimlə rastlaşdıq.



Afrikadan təzəcə dönmüşdük. Qarayanız, arıq, nostalgiya xəstəliyilə cılız qızın yanında boylu-buxunlu, kişi gözəlliyinə malik və ona çox yaraşan təyyarəçi geyimində ömür dostum Məmmədi görəndə gülə-gülə soruşdu:

– A-a-a-az, bu gözəl oğlanı necə ovlamısan?

İnciyə bilmədim də:

– Olur da... İlyas müəllim Allah hərəyə bir baxt...

İlyas müəllim nəzərimdə elə əvvəlki İlyas Əfəndiyevdi zahirində. Amma yaradıcılığı ilə o qədər uca, elə zirvədəydi ki, əlçatmaz ucalıqdaydı ki!..

– Allah, anam demişkən, sizi yerin-göyün bəlalarından saxlasın, İlyas müəllim, dramaturgiyamızda bərabəriniz yoxdur.

– Qoy görək, a-a-az...

Müdafiələr, iş-güc, səyahətlərim məni ədəbi aləmdən 1970-ci illərəcən xeyli ayırmışdı. İndi artıq nə iclasa gedirdim, nə də ədəbi aləmdə görünürdüm. Deyəsən, İlyas müəllim də yalnız yaradıcılıqla məşğuldu. Görüşmürdük. Amma hər bayramda, hər xoş gündə, hər uğurlu əsərdə bir-birimizi telefonla da olsa, xatırlayır, təbrik edir, yenə də dərdləşirdik.

İlyası bir müddət həyat məsələlərimdə oğlu, zahirində də, yaradıcılığında da atasından geri qalmayan Elçin əvəz etdi. Amma bu əvəz deyildi. Təsəlliydi. İlyasın yoxluğuna inana bilmirəm. İlyasın indi də hardasa, sakit guşədə əyləşib, bizi heyrətə gətirən yeni əsər yazdığına ümid bəsləyirəm.

Allah sənə rəhmət eləsin, qardaşım, sən onun, o böyük Allahın sənə bağışladığı qənirsiz istedadı xalqından, millətindən əsirgəmədin. Geriyə baxmaya bilərsən. Nigaran qalmaya, "nəyisə demədim" düşünməyə bilərsən. Qardaşım, sən o Allahın neməti olan yaradıcılığını bol-bol, qana-qana verdin insanlara. Ruhun şad olsun!

**Bakı, 27 sentyabr 1997**

# Füzuli ürəkli
# (Əliağa Vahid)[31]

Vahid! Bu ad özü-özünə danışır, təğənni edir. Vahid! Bu ad üçün vizit vərəqəsi lazım deyil. Vahid xalqımızın təsəvvüründə və qəlbində qəzəl, məhəbbət himni olan Füzuli şeiriyyəti onun davamı deməkdir. Vahid sənətsevərlərin nəzərində xalqımızın mənəvi sərvəti olan Muğamat – "Segah", "Şahnaz", "Şur", "Bayatı-Şiraz", "Rast", "Zəmin-xara" deməkdir.

Vahid azərbaycanlılar üçün Füzuli ürəkli, Üzeyir diləkli bayramdır, toy-büsatdır, rindlər məclisidir, şeiriyyət və musiqi məclisinin bəzəyi, yaraşığıdır. Eldə-obada qəzəl pərəstişkarı olan elə ahıl tapılmaz ki, Vahid qəzəlindən, heç olmasa, bir beyt bilməsin, elə cavan tapılmaz ki, sevdiyinə Vahidin incə, rübabi qəzəllərindən birini söyləməsin. Çünki Vahid özü el-obamızın, suyumuzun gözəllərini böyük iftixar hissi və ürəkdən gələn misralarla tərənnüm edib, onlardakı zahiri gözəlliyə, qara qaşlara, qara gözlərə valeh olduğu kimi qız və gəlinlərimizin batini gözəlliyinə – sədaqətinə, vəfasına, səmimiyyətinə heyran olub. Vahid qəzəllərində pak, ülvi məhəbbətlə, şux nikbinlik, həyatsevərliklə yanaşı, bu məhəbbəti alçaldan, ucuz tutanlar da qəzəblə damğalanıb. Vahid sənəti dərindir, genişdir, çoxcəhətlidir, gözəldir. Vahid eşqinə, Vahid vüsətinə, Vahid rübabına eşq olsun!

**16.02.1978**

[31] "Vahid (haqqında)" (16.02.1978) / Əzizə Cəfərzadənin Ev Arxivi, Fond "P" / Qovluq №11 / Sənəd №12 / vərəq – 1



# Kövrək şairə
# (Nigar Rəfibəyli)[32]

Nigar Rəfibəyli ilk şeirlərindən birində anasına, ümumiyyətlə, analığa müraciətlə çadranı – İslamiyyətin qadınlarımızın üzünə çəkdiyi qara pərdəni atmağı tələb edərək yazırdı:

*O ruhunu altında gizləyən qara pərdə.*

Bu illərdə qadın təhsil alır, əmək cəbhəsinə qədəm qoyurdu. Şairlərimiz də bu yeni mövzunu yeni formalarda tərənnümə səy göstərirdilər. Həmin illərdə günün müxtəlif hadisələrinə öz incə, lirik şeirləri ilə cavab verməyə çalışan Nigar Rəfibəyli də belə mübariz ruh ilə ədəbiyyata gəlmişdi.

Bununla belə, Nigar Rəfibəyli lirik şairdir. Onun lirikası təbiətlə, təbiətin gözəllikləri, insanı şərəfləndirən əməyin qüdrəti, yeni cəmiyyətdə kamilləşən qadının – ananın səciyyəsini tərənnüm edirdi.

Elə buradaca deyək ki, bir şair-ana kimi Nigar Rəfibəylinin yaradıcılığında ana mövzusunun xüsusi yeri var. Bu da təbiidir. Nigar xanım anadır. Onu dünyadakı bütün anaları həyəcana gətirən, anaları gözüyaşlı qoyan qanlı müharibələr dəhşətə gətirir. Onun incə, lirik, həzin qələminə belə anlarda kəskinlik, nifrət, qəzəb axıb gəlir. "Anaların səsi" şeirində bu məsələ necə də səmimi ana qəlbinin üsyanı ilə verilib.

Anaların istəyi sülhdür və Nigar Rəfibəyli qızının "Sülh nədir, ana?" sualına özünəməxsus şəkildə, həm də uşağın anlaya biləcəyi dildə cavab verir:

[32] Cəfərzadə Ə.M. / "Kövrək şairə" / "İki ömrün işığı" kitabı / Bakı, "Gənclik" / 1987 / səh. 196-200

*Sənin məktəb qucağında dərs oxuyub, dərs yazmağın,*
*Şən musiqi, azad dilin, o işıqlı dərs otağın,*
*Əzbər deyib şirin-şirin oxuduğun nəğmə, dastan,*
*Sənin xoşbəxt təbəssümün – sülh bunlardır, qızım, inan.*

Nigar Rəfibəyli övladlarını dərin məhəbbətlə sevən ana surəti yaradarkən heç də bu övladları balağına tikib dizinin dibində oturtmaq istəyən və bunu məhəbbət adlandıran anaları nümunə almır. O istəyir ki, övladları insanlara səadət gətirsin, uzaq ellərə işıq aparsın, ehtiyacı olanlara yardım göstərsin, bir sözlə, cəmiyyət üçün faydalı insanlar olsunlar. Uzaq ellərə gedən balası üçün nə qədər qəmlənsə, iztirab çəksə də, ana başa düşür ki, övladı gərəkli işlə məşğuldur, qaranlıqda qalanlara nur aparır.

Nigar Rəfibəylinin yaradıcılığında xüsusilə nəzərə çarpan mövzulardan biri vətən mövzusudur. Nigar Rəfibəyli vətəni canlı insanı, ananı sevən kimi sevir. Uzaq ellərə səyahətində vətən üçün darıxır, vətənsiz yaşayanların acı, hicranlı, kədərli həyatına təəssüflənir.

Nigar xanım üçün vətən həm də onun nəğməli, qayğılı, zəhmətkeş insanlarıdır. Bu insanlar xoşbəxt dövranın oğul və qızları, şairin bacı və qardaşlarıdır. Ağır gündə, dara düşəndə bir-birinin dadına çatan, səsinə haray verən sovet adamlarıdır. Şair özünü bu insanlara, bu doğma vətənə borclu sayır və borcunu vermədən dünyadan gedən insanlara təəssüflənir.

Məsələ bundadır ki, vətən və onun doğma əziz insanları mücərrəd bir aləmdə deyil, kürreyi-ərzin üzərində yerləşir. Ona görə də yer üzündə baş verən bütün yaxşı və pis əməllər bizim də taleyimizdə, gələcəyimizdə öz əksini tapır. Əgər hardasa yeni tipli silah kəşf edilirsə, bu bütün dünyanın insanları, həmçinin də bizim anaların övladları üçün təhlükə deməkdir. Ona görə də şairi həm də bir vətəndaş kimi Yer kürəsinin, doğma planetimizin dərdləri, əzabları, gələcəyi düşündürür.



Odur ki, Nigar Rəfibəyli özgə yurduna göz dikən qəsbkarları dinc insanların isti ocağını söndürən, obaları viran, günahsız körpə balaları mələr qoyanları lənətlə damğalayır və deyir:

*Ana kimi müdhiş olur, bunu bilsin azğın düşmən...*
*Can qurtara bilməyəcək sənin aslan qəzəbindən.*

Ana qəzəbinin bu müdhişliyi qarşısında kim olursa-olsun baş əyməli, dünyada əbədi sülh yaranmalıdır. Bütün analar kimi, bu arzu ana-şairimizin – Nigar Rəfibəylinin də yaradıcılığına xasdır. Bu baxımdan "Vətən qızları", "Anaların səsi", "Qəhrəmanın ölümü", "Anama", "Layla" və başqa şeirləri diqqəti cəlb edir.

Nigar Rəfibəyli yaradıcılığında diqqəti xüsusilə cəlb edən təbiətin əlvan boyaları, bir rəssam könlü, duyğusu ilə tərənnüm olunan təbiət gözəllikləridir.

Bu kimi şeirlərinin təkcə adlarına baxın: "Bahar nəğməsi", "Karvan bulud", "Dəniz", "Nərgiz gülü", "Ağ çiçəklər", "Yasəmən", "Dağ yolları", "Qərənfil", "Alagöz", "Bülbül", "Lalə", "Günəşdən qorxma", "Çiçəklər", "Payız düşüncələri", "Bahar lövhəsi", "Bahar gəlir" və s.

Bu kimi şeirlərində lirizm təbiətin özündən, bu gözəllikləri duyan qadın-şair qəlbindən gələn nəğməyə bənzəyir.

Nigarın təbiəti tərənnüm edən şeirlərində nəğmə ahəngi, şəlalələrin səsi, bülbülün cəh-cəhi, nəsimin nəfəsi var.

*Ey günəş, qızıl günəş, dənizdə batan günəş,*
*Hər sabah şirin-şirin məni oyadan günəş.*

Yaxud "Bahar nə nazəndə, nə nazəndədir" misrası ilə nəqəratlanan "Bahar nəğməsi" şeirindən görünür ki, təbiətin bütün mənalı, cazibəli, dilrüba mənzərələrini sevdiyi kimi, Xəzəri də vətən rəmzi kimi sevir. Ayrı-ayrı şeirlərində Xəzərin dönə-dönə məhəbbətlə adını çəkdiyi kimi,

Xəzərə və onun zəhmətkeş neftçilərinə də şeirlər qoşur. Onları əfsanəvi Fərhad, Şirin, Məcnunla müqayisə edir.

Bununla belə, dəniz şeirlərində də Nigar xanım incə qəlbli lirik şair olaraq yüksəlir və öz dinləyicisini də dənizin ənginliklərinə, onun cazibəsindən, vəcahətindən zövq almağa səsləyir.

Bu zəriflik, bu təbiət vurğunluğu lirik şairin, hətta hərbin acılarından, dəhşətlərindən bəhs edən ictimai məzmunlu şeirlərində də özünü göstərir. Bu kimi şeirlərində də o müharibə canilərinin törətdiyi fəlakətlər içərisində, eyni zamanda çiçəklərin solmağına təəssüflənir. Şair bombalardan solan çiçəkləri dərin-dərin mənalandırır. Onları insanlığın gələcək səadətinin, xalqlar dostluğunun rəmzinə çevirə bilir. Saat səkkiz on beşdə, Xirosimaya atom bombası atıldığı dəqiqədə şairə deyir:

*Səkkiz on beşdə birləşib sükut edir xalqlar*
*Bir də bu matəm sükutunu yaradan*
*faciələr olmasın deyə,*
*Dostluq bağçasında açılan çiçəklər*
*saralıb solmasın deyə.*

Nigar Rəfibəylinin yaradıcılığında nəzəri cəlb edən mövzulardan biri də əmək mövzusudur. Nigar xanım azad, xoşbəxt əməyi vətənlə, vətənin səadətilə bağlayır. Əmək mövzusuna həsr etdiyi şeirləri içərisində "Alın təri", "Əmək sevinci", "İnsan kamil olsun gərək", "Mən səni sevirəm, insan" kimi şeirləri olduqca maraqlıdır.

Nigar Rəfibəylinin yaradıcılığında beynəlxalq mövzular da özünə geniş yer tutur. "Dolores İbaruri", "Ukrayna", "Cəmilə", "İma Sumak", "Bəşər oğlu", "Amerika töhfəsi", "Səkkiz on beş", "Afrodita", "Hollandiya çiçəkləri", "Rahibə", "Bosfor sahillərində" və onlarla başqa şeirləri buna misaldır. Bu kimi şeirlərində şairə hələ də imperializmin soyğunçu pəncəsində inləyən xalqların taleyinə acıyır, onların azadlıq uğrunda çarpışan oğul və qızlarını alqışlayır.



Nigar Rəfibəyli SSRİ və dünya poeziyasının bir çox gözəl nümunələrini, eləcə də Məhsəti Gəncəvinin ölməz rübailərini şirin, rəvan şəkildə tərcümə edib.

Nigar Rəfibəyli incə ruhlu, həzin şair olduğu kimi, eyni zamanda həssas ruhlu ana, həlim təbiətli dost və baş yoldaşıdır. Məlumdur ki, Nigar Rəfibəyli Xalq şairimiz Rəsul Rzanın ömür yoldaşıdır. Onun Təranə və Fidan adlı iki qızı, Anar adlı oğlu var. Təranə və Fidan kimi yaxşı mütəxəssisləri demirəm, oxucu və tamaşaçılara öz əsərləri və redaktoru olduğu "Qobustan" toplusu ilə çoxdan tanış olan yazıçı Anar kimi oğul böyütmək ananın ən böyük səadətidir.

Təbiət ona insan səadətini bol-bol verib. Gözəl ilham, qabiliyyətli övladlar, Rəsul kimi həyat yoldaşı. Bununla belə, deməliyəm ki, Rəsul Rza kimi bir şair – ərlə ömür sürmək gözəl olduğu qədər də çətindir. Şair nazına, ərkinə dözmək sizə zarafat gəlməsin. Onun qayğısını çəkmək özü elə böyük əməkdir. Bir də üstəlik özün şair olasan. Evində ən tələbkar, yüksək zövqə malik olan ər və oğul. Özünüz düşünün, onun hər şeirinə evin içində tələbkar oxucular qiymət verməli olur. Bütün bunlardan başqa deməliyəm ki, qadın həyatı analıq, evdarlıqla əlaqədar olduğu üçün onun yaradıcılıqla məşğul olması bir qədər də çətindir. Nigar xanımın xidmətçisi yoxdur. Ev işləri, xörək bişirmək. Bütün bunlara şair "Mətbəx şeirləri" başlıqlı mənzumələrində yaxşı cavab verib.

Gördüyünüz kimi, Nigar xanım zəhmətkeş, bununla belə, incə, lirik, kövrək, zamanın tələbləri ilə ayaqlaşan vətəndaş şairdir, həmişə sıradadır, həmişə yazır.

**Bakı, 1987**



*Əzizə Cəfərzadə, Mirvarid Dilbazi, Nigar Rəfibəyli, Mədinə Gülgün və b. Hind şairi Amtita Pritamla görüşdə*



# Şairə və Ana (Mirvarid Dilbazi)[33]

"Şairə və ana. Tale iki şahlıq tacını bəxş etmiş ona". Xalq şairi Mirvarid Dilbazinin "Avtoportret" şeirindən alınmış bu ikicə misra bütün yaradıcılığının, bütün həyatının leytmotividir. O zəhmətkeş şairə, xalqının həyatı ilə birlikdə, xalqının tarixi ilə bağlı yaradan bir şairə, təkcə bir qızının deyil, yaşına düşən bütün oğlan və qızlarımızın, daha doğrusu, oxucularının anasıdır. Avtoportret şairin 1982-1983-cü illərdə nəşr olunmuş və zəngin yaradıcılığının yalnız son bir neçə ilinin məhsulunu özündə toplamış üçcildliyinə daxil edilib. "Bu üçcildlik haqqında məqalə yaz" dedilər mənə. "Bəlkə, ünvanı səhv salmısınız, axı elə bu günlərdə Xalq şairi Mirvarid Dilbazinin yaradıcılığı mövzusunda mənim adaşım, gözəl yazıçımız Əzizə Əhmədova namizədlik dissertasiyası müdafiə edib. Bəlkə, onu nəzərdə tutmusunuz". "Yox, dedilər, o namizədlik dissertasiyasında şairəmizin bütün yaradıcılığı üzərində tədqiqat aparıb. Sözünü deyib. Jurnalımız isə sizin sözünüzü eşitmək istəyir bu üçcildlik haqqında". Məmnuniyyətlə razı oldum. Başqa cür mümkün də olmazdı. Tədqiqatımın mühüm hissəsini qadın şairlərimizin və aşıqlarımızın yaradıcılığı üzərində axtarışlara həsr etmişəm. "Könül çırpıntıları", "Azərbaycanın aşıq və şair qadınları", "Fatma xanım Kəminə" kitabları və başqa məqalələr belə yaranıb. Mirvarid xanımın yaradıcılığı da XIII yüzillikdən bəri ədəbiyyatımızda adı bəlli yüzəcən şair və aşıq sənətkarımız içərisində xüsusi yer tutur. Xalq şeiri səpkisində şeirləri, bayatıları son illərdə diqqətimi daha çox cəlb eləyib. Özü də təkcə mənim yox, bütün sənətsevərlərin.

[33] "Şairə və Ana" (Mirvarid Dilbazi haqqında) (1983-1984) / Əzizə Cəfərzadənin Ev Arxivi, Fond "P" / Qovluq №18 / Sənəd №24 / vərəq – 13

Mirvarid xanımı çoxdan tanıyırdım. Sevirdim. Mahnılarını dinləmişdim: "Evimizə gəlin gəlir", "Çoban Qara"... Lap çoxdan dönə-dönə evində olmuşdum. Müharibənin o acı illərində cəbhələrdə çarpışan ömür yoldaşımızın dərdini birgə çəkmişdik. Həsrət, hicran qəlbimizi birgə qovuran günlərdə qələbəni eyni ehtirasla gözləmiş, arzulamışdıq. Bəzi şeirlərinin ilk dinləyicisi mən olmuşdum. Mənim də "Qızımın hekayələri" kitabıma ilk xeyir-duanı o vermişdi. Az qala, məcbur etmiş, inandırmışdı ki, onlar uşaq hekayələridir. Halbuki onları çap etdirməyi ağlıma da gətirmirdim. İnanmırdım ki, onlardan bir şey çıxar, uşaq ruhunu duya bilməyimə məni Mirvarid Dilbazi inandırmışdı. Redaksiyaya da özü təqdim etmişdi. Bir sözlə, Mirvarid Dilbazini çoxdan tanıyırdım. Mətbuatda çıxan hər əsərini oxuyur, imzasını izləyirdim.

"Azərbaycan" jurnalının əməkdaşları onun üçcildliyi haqqında mənə "yaz" deyəndə düşünürdüm ki, bu qədər doğma, tanış, özü demişkən, "qələm bacım" haqqında yazmaq asan olar mənimçün. Sevindim. "Əlbəttə, məsləhətsə, yazaram!" Qadın şairlərin yaradıcılığı mənə yaxındır. Amma...

Amma üçcildlik haqqında yazmağı boynuma alandan, kitabları götürüb eləcə vərəqləyəndən sonra ümmana, hisslər, duyğular ümmanına düşdüyümü gördüm. Bütöv bir ömrün əməl nəticəsindən bir parça olsa da, bir aləm idi bunlar. Bütöv bir ömrün əmək bəhrəsi, zəhmət gülüstanı idi. Bu bağda nə var idi, nə yox idi? Hansı gülün rayihəsi, hansı hissin çaları, hansı rəngin, nəğmənin ahəngi idi bunlar? Bu bəzən bir poema qədər uzun, bəzən "şeir" kəlməsinin özü qədər kiçik inci düzümləri?

Üçcildlikdə hansı mövzu yoxdur? Poeziyamızı məşğul edən hansı problemin yanından ötüb şair? Hansı bəşəri tema ona təsir buraxmayıb, onu həyəcanlandırmayıb? Ana və analıqmı, sülh və antifaşizmmi? Hansı sadə və ya mürəkkəb peşə sahibi, planetimizi öz əməyi ilə gülüstana döndərən hansı nəcib sənət adamı? Neftçimi, ya pambıqçımı? Alimmi, ya sənətkarmı? Təzə yaranan ailəmi, övlad tərbiyəsimi? Məhəbbətin ən səmimi ahəngi, çalarlarımı? Həsrətimi, hicranımı, vüsalımı, yoxsa Vətən məhəbbəti üstünlük təşkil edir? Ana əvəzi bacımı, yoxsa yeganə bala məhəbbətimi, övladmı? Bütün bu və daha bir çox duyğular, hisslər, düşüncələr Mirvarid Dilbazi poeziyasının mövzusunu, məğzini təşkil edir. Həm də bunların hər birinə bir yox, iki yox, xeyli şeir inciləri həsr edib şair. Demək, bu hisslərin, bu duyğuların, bu bəşərin özü qədər qədim problemlərin heç biri onun üçün ötəri mövzu olmayıb, rast gələndə toxunmayıb, bu bəşəri duyğular onu həmişəlik məşğul edib, həmişə düşündürüb, həmişə narahat edib, bəşər üçün qayğılanıb, narahat olub şair. Ona görə də yazıb, ona görə də hər sətrinə öz kövrək ana-vətəndaş qəlbinin bircə parçasını əlavə etməyə, bircə damla ürək qanını qatmağa çalışıb, bacarıb da.

Mirvarid Dilbazinin, nəinki bütün yaradıcılığının, hətta əlimizdəki üçcildliyinin belə mövzu dairəsini, təxmini də olsa, müəyyənləşdirmək çətindir, bəlkə, heç mümkün də deyil. Bəlkə, heç lazım da deyil. Çünki sovet həyatının, sosialist cəmiyyəti uğrunda mübarizənin elə pilləsi, mərhələsi, şəxsiyyəti, hadisəsi yoxdur ki, bu döyüşkən şair – Mirvarid Dilbazi onun yanından laqeyd ötüb keçsin, ona bir şeiri, poeması ilə cavab verməsin. Şeir meydanına, poeziya aləminə düşdüyü gündən sovet həyatının, xalqın inkişafı uğrunda mübarizənin qəhrəmanları Mirvarid Dilbazi yaradıcılığında öz əksini tapmağa başlayıb.

Bununla belə, hər halda bu zəngin, çoxcəhətli, çoxşaxəli mövzular dünyasında Mirvarid Dilbazi üçün aparıcı, istiqamətləndiriciləri də var. Bunların içərisində xüsusilə seçilən bir neçəsidir: Ən ön sırada, səhv etmədən, demək olar ki, vətən məhəbbəti gedir. Bu məhəbbət doğma yurd, "Musaköy"dən, "Avey"dən başlayır, "Azərbaycan"a, "Azərbaycan ellərinə", oradan da ümumiyyətlə, Sovet vətəninə – Sovetlər ölkəsinə keçir.

"Musaköy"ün susuz keçmişi onun övlad qəlbini yandırır:

*Heyif ki, çoxları köçdü dünyadan,*
*Arzular ürəkdə torpağa getdi.*
*Əfsuslar olsun ki, bilmədi onlar,*
*O məyus, köməksiz, gücsüz insanlar,*
*Gümüş qovaqların kölgə saldığı,*
*Müşgül söyüdlərin fikrə daldığı,*
*Fəxrəli arxının altında bir vaxt*
*Yanacaq bu kəndin gur işıqları.*

Dünyadan arzusu gözündə köçmüş məyus baba və nənələrin dərdi şairəni nə qədər kədərləndirsə də, bu gün gur işıqları yanan kəndin səadətilə iftixar etsə də, əsas məsələ bundadır ki, şair, uşaqkən kölgəsində böyüdüyü, təbiətinə vurulduğu o gümüş qovaqlar, müşgül söyüdlər ilkin vətən – doğma yurddur, unudulmazdır, unuda bilmir, lakin unutmasa da, keçmişinə yansa da, bu günü ilə fəxr etsə də, artıq özü, kəndi böyüdüyü kimi Vətən məhəbbəti haqqında anlayışı, təsəvvürü də böyüyüb, genişlənib. İndi o sevimli salxım söyüdlü doğma torpaq yalnız rəmzdir, yurd rəmzidir. Böyük bir ölkənin vətəndaşı kimi indi onun üçün ipəkli "Şəki", "Şuşa", "Naxçıvan", "Marxal" adları ilə getdikcə vətən məfhumu genişlənir.

*Uca zirvələri dumanlı, qarlı,*
*Döşləri laləli dağlar mənimdir.*
*Qızıl sünbülləri qurşağa çıxan*
*Muğan da, Şirvan da öz vətənimdir.*

Amma o ilk "müşkül söyüdlü" torpağın ətri hələ də burnundadır, könlündədir, böyük vətənin ətrinə qarışıb:



*Anamdan ilk ayrılanda yeddi yaşım bitməmişdi,*
*Laylasının həzin səsi qulağımdan getməmişdi.*
*Elə bil ki, qırılmışdı sevincimin qanadları,*
*Bəzən durub gizli-gizli ağlayırdım gecə yarı,*
*Hara getsəm, o saf xəyal ayrılmazdı məndən bir an.*
*Sən könlümdə başladiyim o duyğusan, Azərbaycan!*

Və bu duyğu böyüdükcə böyük vətən üçün iftixar hissinə çevrilir. Artıq Azərbaycan Arazın o taylı-bu taylı timsalında onun üçün vəhdət halında bir Vətəndir; şair ona şeir bağçasının çiçəklərindən çələng hörür:

*Səni yüksəldərik ellər içində,*
*Dilini saxlarıq dillər içində,*
*Bizi öz qoynunda, güllər içində*
*Gülüstanlarında böyüdən vətən,*
*Sənə çələng hörüm hansı nəğmədən?!*

Vətən məhəbbəti ana adı ilə, ana-vətən adı ilə bağlıdır. Elə Mirvarid Dilbazinin şeirlərində də bu iki hiss çox yerdə vəhdət halında tərənnüm olunur. Ana, ana-vətən, ana-torpaq birləşir, bir Azərbaycan, bir Sovetlər vətəni məfhumunda doğmalaşır. Doğma yurdda bir ana var, doğma yurdda bir övlad var, ana doğma yurdun qucağı, beşiyi, övlad doğma yurdun gələcəyidir. Bütün poeziyamıza xas olan bu duyğular, aparıcı mövzu, müqəddəs mövzu şəklində Mirvarid Dilbazinin şeirlərindən qızıl xətt kimi keçir. "Balıqçı kimi","Ana dili kitabı","Oğul həsrəti","Anan kimi sevsin həyat","Ana ömrü-şair ömrü","Ana və qız","Ana görüşünə oğlu tələsir","Ana heykəli", "Elə böyük xalqın qızıyam ki, mən", "Qadın", "Analar", "Məhəbbətdən isinir sinəm", "Son sözüm", "Mənim ürəyim" və onlarla başqaları bu ülvi, bu əbədi hissin təzahürüdür:

*Neçə məhəbbətin odu sinəmdə,*
*Anayam, yoldaşam, övladam mən də.*
*Yanıb bir şam kimi qurtarsam haçaq,*
*Son sözüm yenə də "Ana" olacaq.*

Övlad kimi ana məhəbbətini tərənnüm edən şair Mirvarid Dilbazi yaradıcılığı boyu bir an da unutmur ki, o anadır, tərbiyəçidir, gələcək nəsil qarşısında məsuliyyət daşıyır. Nənəsinin, anasının ən gözəl xasiyyətlərini, ənənələrini qızlarımıza aşılamaq borcu, vəzifəsidir. Keçmişdən nənə və analardan gözəl nə alıbsa, nəsillər arası bir körpü, ötürücü kimi gənc nəslə ötürməli, köçürməlidir, yaşanmalıdır nənələrin isməti, sədaqəti, namusu, vəfası, tərbiyəçilik qabiliyyəti, sadəliyi, yüksək analıq qabiliyyəti, ana qayğıları... O qədərdi ki, azərbaycanlı anada bu gözəl, təkrarolunmaz, məhz bizim analara xas olan milli koloritli xüsusiyyətlər. Bir şair-vətəndaş-ana kimi Mirvarid Dilbazi qızlarımızda, gələcək nəslin analarında məhz bizim analara, nənələrə xas olan keyfiyyətləri görmək istəyir; elə buna görə də "Azərbaycanlı qız"ın portretini yaratmaq istədiyi şeirində oxuyuruq:

*Paltarı qızıl lalədən,*
*Xəyalları dağ sübhünün*
*Göyü kimi aydın, parlaq.*
*Bütün pisliklərdən uzaq,*
*Sözü, söhbəti kəsərli,*
*Darda dözümlü, hünərli,*
*Ürəyində tufan qopsa,*
*Bir aydınlıq gecə kimi*
*Sakit üzü...*

Onun bəyəndiyi gözəlin "Yaraşıqlı sinəsi üstündə daş-qaşlar işıqlanmır. Qulağında almaz sırğa işıldayıb parpar yanmır. Paltarının üstündə də yoxdur nə gül, nə zər,



çox gözəldir, mənalıdır gözündəki düşüncələr. Bu qızın geyinməyə" alı da var, şalı da var. İstəyirsə, zərxaranın gözəlindən geyər paltar" Lakin:

*Ancaq səni sevindirməz,*
*Yalnız bircə bəzək-düzək.*
*Çünki arzun, əməllərin*
*Sifətində açır çiçək.*
*Odun varmı cansız, hissiz*
*Daş-qaşdakı bu işığın?*
*O işıqlı ürəyindir*
*Hər bəzəyin, yaraşığın.*
*Arzu, amal yollarında*
*Saçlarına düşsə də dən,*
*Yenə mənim gözlərimdə*
*Min gözəldən sən gözəlsən.*

Əşyapərəstliyin, xarici mal dalınca qaçmaq azarının gənclik arasında yayılmağa başladığı zamanda qızlarımızı təmiz, boyasız, nənələrimiz kimi igid, saf təbiətin övladı görmək arzusu ilə yaranan əsərlər içərisində Mirvarid Dilbazinin şeirləri, xüsusilə, ona görə seçilir ki, o qədimlər demişkən, sevilib, seçilib.

Öz həyat tərzi yaratdıqlarına nümunədir. Bəzi "əxlaq müdərrisləri" kimi dediyi ilə işi arasında uçurum yoxdur. Zəhmətkeş insandır Mirvarid Dilbazi, şairə-ana öz əməksevərliyi ilə də gəncliyə nümunədir.

Elə buna görə də yaradıcılığının mühüm hissəsi əmək adamlarının, sosialist quruculuğunun qəhrəmanlarını tərənnümə həsr olunub: "Lahıc qızları", "Çoban Qara", "Əməkdir mənim adım", "Avtoportret", "Mənim istəkli xalqım", "Çayçı qızlar nəğməsi", Lerik silsiləsi, Lənkəran, Şamaxı, Qazax, Şəki əməkçilərinə həsr olunmuş şeirlər belədir. İnsanı İNSAN eləyən əmək şairin həyatında və yaradıcılığında həlledici, mühüm amildir.

*İnci, mirvari deyil,*
*Əməkdir mənim adım.*
*Həyatımda bir gün də*
*Əməksiz yaşamadım.*

Şairin "elinin, ailəsinin bəxtiyarlığı, ona varlığı sevdirən, ömrünün günəşli bahar səhəri, xəyanət bilməyən yaxın dostu əməkdir". Elə buna görə də şair deyir:

*Onu həmdəm eyləyək,*
*Hər zaman ömrümüzə.*
*Biz üç dostuq əzəldən:*
*Qəlbim, əməyim və mən.*

"Ey gələcək nəsillər", "El kimi sadə", "Deyirlər" və onlarla başqa əməyin vəsfinə həsr olunmuş şeirdə şair öz oxucularında əməksevən, vətənpərvər, vətəndaş hissləri tərbiyə edən poeziyamızın ön sıralarında addımlamağa çalışır. Əməyin, qalib insan əməyinin təntənəsi üçün birinci növbədə sülh, əmin-amanlıq lazımdır. Şair-ana-zəhmətkeş-vətəndaş sülhün keşiyində duran Sovetlər ölkəsini tərənnüm edərkən qarşısında ən qatı düşmən – faşizm, hər növ müharibə qızışdırıcıları, dilindən, dinindən, irqindən asılı olmayaraq hər növ silahlı bəşər düşməni – atomları, paketləri görür. O incə ürəkli şair, sevən ana kimi dünyanın hansı səmtində bircə azadlıqsevən gənc zindana salınıbsa, dünyanın hansı yerində bircə insan hüququ tapdalanır, bircə ana-bala vay deyirsə, həyəcanlanır, narahat olur, qayğılanır. Onun bir dünya vətəndaşı kimi – müasir dövrün umumbəşər qayğısı çəkən insanları kimi hər şeylə işi var: "Madrid məhbəsləri", "Vətəni parçalanan Təbriz mərdi", "Əlcəzairli qız", üzür könlünü. Lorkanın ölümü, Kalaman Valdışın ölümü, Ruzbeh, Nazim Hikmət, Neruda, Musa Cəlil, Lumumbanın yetim böyüyən balaları, məhbəslərdə doğulan körpələr Mirvarid Dilbazinin "sevinci, kədəri"-dir. Hamısı ilə işi var bu narahat insanın, hamısının qayğısı bu xırdaca, yumruq boyda ürəyə necə sığıb? Bu nəcib görkəmli, balaca cüssəli, lakin qəhrəman igilərdən cürətdə geri qalmayan ana-şair elə məhz ana-şair kimi qayğı çəkir, dünyanın sevinci ilə sevinir, kədəriylə kədərlənir.



*Körpə bala, məyus olma!*
*Bitməmişdir mübarizə.*
*Görməməkçün məhbəslərdə*
*Sizi bir də əsir, bala,*
*Bütün xalqlar qanlı hərbin*
*Qabağını kəsir, bala!*

Sülhün dayağı olan bir ölkəni tərənnüm edərkən Mirvarid Dilbazi dünyanın təhlükə altında yaşayan insanlarının taleyini bircə an da unuda bilmir. Beynəlmiləlçi şair kimi dünyanın bütün əmək adamlarının irqindən, dil və dinindən asılı olmayaraq dərdi, kədəri ona yaxındır, öz qüssəsi kimi yandırır onu, həyəcan doğuran səsini ucaldır:

Neçə xalqın övladları üzür hələ öz qanında:

*Yetim böyüyür Lumumbanın balaları,*
*Madrid məhbəsləri, Afina qalaları*
*Körpələri Günəşdən, Aydan gizlədir.*
*Gizenqanın köksünü qanlı dırnaqlar didir.*
*Vətəni parçalanmış Təbriz mərdi,*
*Sinəsini yandıranda sağalmayan dərdi,*
*"Elə oğul istəyir vətən!"*
*Deyə bağırır qüssədən.*
*Bir sevinc, bir səadət azdır mənə, az!*
*İnsan olan insanlığın dərdini necə duymaz?*

Bütün üsyankar, bəşəri kədər, ölüm-qan əleyhinə şeirlərində Mirvarid Dilbazi bir tərəfdən "Qu yastığı soyuq daşlar, döşəkçəsi həsir bala"lar üçün qayğı çəkən ana, di-

gər tərəfdən beynəlmiləlçi bir Azərbaycan vətəndaşıdır. Beynəlmiləlçilik poeziyamızın canını təşkil edən xüsusiyyətdir. Qeyd etmək lazımdır ki, hələ Xaqanidən, Nizamidən üzübəri minillik poeziyamızda heç bir xalq, irq, millət haqqında bircə misra pis söz deyilməyib, bircə xalqın nümayəndəsi haqqında acı, nifrət oyadıcı böhtan işlənməyib. Bu qədim, dədə-baba ənənəmizə sadiq qalan Azərbaycan Sovet poeziyasının görkəmli nümayəndəsi kimi Mirvarid Dilbazi də bütün yaradıcılığı boyu beynəlmiləlçi şair kimi çıxış edib. Onun üçcildliyinə daxil olan "Rus meşələrinin nağılı", "Ermənistan şeirləri silsiləsindən kövrək xatirələr", "Yaşıl Gürcüstanın nadir gözəli" silsiləsi, "Azadlığa gedən yol" bəşəri silsilə, "Araz boyunca", "Baltika" və başqa şeirləri, poemaları beynəlmiləlçi ruhla aşılanmış əsərlərdir. Bu silsilədə böyük rus xalqına ehtiramla qələmə alınmış silsilə xüsusilə maraqlıdır. Burada Rusiyanın iftixarı, dünya ədəbiyyatının ən gözəl, ən poetik nümayəndələrindən biri olan A.S.Puşkin rus xalqının qəhrəman qızı Zoya Kosmodemyanskaya, rus təbiətinin valehedici, "ağ çiçəkli qış mənzərələri", ağcaqayın meşələri, nəhayət, dünya məzlumlarının ümid beşiyi "Qızıl meydan" – Leninin məzarı böyük səmimiyyətlə təsvir olunur, rus xalqının səciyyəsi tərənnüm edilir:

*Ey böyük rus xalqı, beləsən sən də,*
*O tarla kimidir geniş sinəndə.*

*Zamanın sərt əsən küləklərindən,*
*Hər kiçik toxumu qorumusan sən.*

*Gəzirəm aylarla mən bu diyarda,*
*İtməmiş qoynunda adsız məzar da.*

Qardaşlıq, dostluq bu beynəlmiləlçi silsilə şeirlərin qanındadır.



"Üç qonşu, üç qardaş", "Sayat Novanı dinlərkən", "Gürcüstanın payızı", "Yaşıl Gürcüstanın nadir gözəli", "Vasilyok" bugünkü beynəlmiləlçi şeirimizin aparıcı mövzusuna həsr olunmuş və gəncliyin beynəlmiləl ruhda tərbiyələnməsində əhəmiyyəti böyükdür.

Mirvarid Dilbazi nə qədər siyasi mövzularda yazır-yazsın, siyasi lirikada nə qədər müvəffəq olur-olsun, ruhən o təbiət vurğunu, incə qadındır. Demək olar, elə şeiri yoxdur ki, orada bir çiçək parlamasın, bir yarpaq titrəməsin, bir qönçə ətir saçmasın. Təbiətin ecazkar mənzərələrinə – dağlara, çaylara, şəlalələrə, dənizə, bağlara, meşələrə, bulaqlara həsr etdiyi şeirlərdən başqa, hərəsi bir çiçəyin, bir gülün, bir şəfalı otun, ağacın rəsmini çəkən xırdaca şeirləri var ki, sanki rəssam fırçası ilə çəkilmiş şəkildir.

*Qışda qar örpəkli, yazda ağ çiçək,*
*Payızda narıncı meşə pöhrəni,*

– meşələrin,

*Rəngində Günəşin işığı, zəri,*
*Açılır qar altda zərif gülləri,*

– nərgizlərin,

*Qantəpər, sarı çiçəyim!*
*Dərman gülüm, dağ göyçəyim...*

– "Bəyan","Cincilim","Yonca","Boymadərən"... hərəsi şairin "aran evinə yaylaq ətri" gətirir. Bilmirəm, yadındadırmı Mirvarid xanımın? 1947-1948-ci illərdə "Uşaqgəncnəşr" uşaqlar üçün çiçəklər haqqında əlvan kitab buraxmaq istəyirdi. O kitabın səhifəsində uşağa tanıtmaq istənilən müəyyən bir çiçəyin, gülün rəssam tərəfindən çəkilmiş rəngbərəng şəkli, o biri yanaşı səhifəsində həmin çiçəyə aid şeir verilməliydi. Lap böyük ana şairimiz Xurşidbanu

Natəvanın "Gül dəftəri" adlanan (təəssüf ki, indiyəcən fotofaksimilesi və ya əlvan surəti oxuculara çatdırılmayan) albomu kimi bir kitab nəzərdə tutulmuşdu. Yadımdadır ki, o vaxt nəşriyyat şairlərimizə müraciət edib güllərə dair şeirlər, xırdaca miniatürlər istəmişdi. Bu miniatürlərdə həmin çiçəklərin ən vacib xüsusiyyətləri canlandırılmalıydı ki, uşaqlar həmin çiçəkləri tanıya bilsinlər, təbiəti sevsinlər, qorusunlar. O zaman həmin çağırışa böyük həvəslə cavab verən şairlərimiz içərisində mərhum Mirvarid xanım Dilbazi də var idi. Yadımdadır ki, o zaman bir neçə çiçək haqqında gözəl, ətirli şeirlər yazmışdı. Təəssüf ki, onlar üçcildliyə daxil olunmayıb. Amma burada şairin son bir neçə ildə təbiətə böyük məhəbbətlə yazdığı şeirlər oxucusuna birbaşa təbiəti sevin demədən, ana torpağa məhəbbət, onu gələcək nəsillər üçün bütün gözəllikləri ilə birlikdə qoruyub saxlamağa, mühafizə etməyə çağırır. O zaman çiçəklər haqqında kitaba ən ciddi yanaşanlardan biri Mirvarid Dilbazi (heç bilmirəm, həmin kitab çıxdımı sonralar), görünür, mövzunu unutmayıb, təbiətin gözəlliklərinə məftun şair ürəyi ilə davam etdiribdir.

Güllər, çiçəklər, quşlar, yerə nur yağdıran yağışlar həmdəmidir şairin. Abşerona göbələk, əzgil gəlib, fərəhlənir şair. Quşlar qayıdır yuva qurur, uşaq kimi sevinir şair.

Vətən torpağında, planetimizdəki bütün sevinclərlə işi var onun. Elə buna görə də:

*Necə dağdan keçib yolum,*
*Çiçək olub sağım, solum,*
*İstəyirəm günəş olum*
*Bənövşələr üşüyəndə,*

– deyir. Böyük arzu ilə incəcik şeirin zahirində xəfif bir bayatı ruhu var. Təbiidir ki, Mirvarid Dilbazi, xüsusilə, axır illərdə bayatıya meyil göstərir. Zahiri sadəliyin arxasında bir elin müdrikliyi duran bayatı, şairin dilində "Dünya



haqqında bayatı", "Vətən haqqında bayatı", "Məhəbbət, sədaqət haqqında bayatılar"a çevrilir.

*Qürbətə düşdü yolum,*
*Buludam, qoyma dolum,*
*Qeyrətli oğulların*
*Qurbanı özüm olum.*

*Ağrın var, can a dünya!*
*Bəşərə ana dünya.*
*Yaran təzə sağalır,*
*Boyanma qana, dünya!*

"Böyük başın dərdi də böyük olar" deyərlər. Əlbəttə, üçcildlik, təxminən əlli çap vərəqi, yəni otuz beş-qırx min misra içində axtarılsa, tutarlıyla yanaşı tutarsız da parçalar, misralar, qafiyələr tapmaq olar. Məsələn, çox halda ölçü xatirinə misralara girmiş "hər" sözcüyü: "Çıx hər imtahandan qəhrəman kimi", "Keşiyində hər haqqın" (cild 1, səh. 24-25), "İstər bu pillələri gündə on dəfə enəm, bir dəfə töyşüməzdi sinəm" (c. 1, səh. 310) – məlumdur ki, pillə enəndə sinə töyşüməz, qalxanda töyşüyər. "Sehrli sərvlər dayanmış qoşa, "Edirlər zülmətdə ona tamaşa"(c. 2, səh. 286) axı zülmətdə necə görmək – tamaşa eləmək olar? "Bu gözəli bəzəmişdi insan adlı öz aşiqi" (c. 3, səh. 128) "öz" sözcüyü bizcə artıqdır. "Bürünmüsən necə də xəzəl yarpaqlarına" (c. 3, səh. 28) xəzəl – özü elə yarpaq məfhumu verdiyi üçün xəzəl yarpaqlarına ifadəsi bizcə doğru deyil və s.

Ənənəvi, qüsur göstərmək xatirinə deyilməyib bu bir-iki kəlmə. Mirvarid Dilbazinin üççildliyi elə böyük əməyin nəticəsidir ki, bugünkü gəncliyin tərbiyəsi üçün oraya toplanmış şeirlərinin canına, qanına vətən məhəbbəti, əməyə hörmət, beynəlmiləlçilik, insansevərlik duyğuları elə hopub ki, nəinki orada qüsur axtarmaq, görmək belə mümkün deyil.

Ana ürəyi həmişə dolu, kiçicik buluddur, dolmasa, boşalmasa, olmaz. Şair ürəyi hisslər dünyasıdır – alışıb-yanmasa olmaz. Mirvarid xanım Dilbazi həm anadır, həm şair. Həm ana ürəyinə, həm şair qəlbinə malikdir. Dolub-boşalmasa, alışıb-yanmasa, mümkün deyil. Bunlarsız ana-şair üçün həyat da yoxdur. Qoy həmişə dolsun, qoy həmişə alışıb-yansın. Özü də, biz də bəhrələnərik bu yanğıdan, həmişə cavan ana-şairimizə uğur olsun.

**1983-1984**



## Şairə, ana, vətəndaş (Hökumə Billuri)[34]

"Hökumə Billurinin əlli yaşı tamam olur" – dedilər, inanmadım. Xəyalımda nərmə-nazik, kövrək qız canlandı. Onu ilk dəfə belə görmüşdüm, hafizəmə də beləcə həkk olunub qalmışdı. Bu incə qəlbli, sadə qızın əyninə hərbi paltar geydiyini, əlinə silah aldığını eşidəndə heyrətimi gizlədə bilməmişdim. Bu o demək deyildi ki, ümumiyyətlə, qadın igidliyinə inanmırdım. Axı biz tanış olanda Böyük Vətən müharibəsi təzəcə qurtarmışdı. Sovet qadınlarının cəbhədə və arxada göstərdiyi rəşadətlər haqqında qəzetlərimiz hər gün yazırdı. Amma nədənsə Hökumə Billuri şair olduğuna görəmi, "ana" deyəndə kövrələn, dolan gözlərini bu qədər yaxından gördüyümə görəmi, bilmirəm, təsəvvürümdə silahlı döyüşçü kimi canlanmırdı. H.Billuri bir şair kimi gözümüzün önündə böyüdü, ilk kitabı – "Mənim arzum" 1949-cu ildə nəşr olunanda cəmi iyirmi üç yaşı vardı. Amma zahirən heç bu yaşı ona vermək olmazdı. Elə indiki kimi... İlk kitabında Hökumənin hər misrası odlu qəzəb saçırdı, xalqını qəlbən sevən şairin vətəndaşlıq cürəti elə bu ilk misralardan özünü göstərirdi. Onun həmin dövr şeirlərində vahid bir mövzu var idi: Vətən uğrunda, xalqın azadlığı uğrunda çarpışanların haqq səsi, mübarizə yolu. Şeirlərinin təkcə adları nələr demir: "Araz", "Boğar dalğasında səni inqilab", "Sənin nəyin var?", "İntiqam", "Olacaq ölkəmiz yenə gülşən", "İnanıram o parlaq günə", " Azərbaycan", "Ananın cəbhəyə məktubu" və s. Bu şeirlərdə müəllif böyük ümidlə Cənubi Azərbaycanı xalqının gələcək səadətini tərənnüm edir, onun azadlıqsevən insanları adından inamla danışır.

[34] Cəfərzadə Ə.M. / "Əlli nədir ki..." / "Ədəbiyyat və incəsənət" qəzeti / 1976, 25 sentyabr / səh. 3

Maraqlıdır ki, hələ 1944-cü ildə Zəncanda yazdığı "Sülhün keşiyində" adlı şeirindən başlayaraq şair qurtuluş yolunu Sovet İttifaqında görür, ölkəmizi böyük ümidlə vəsf edir.

Kitabdan kitaba H.Billurinin mövzu dairəsi genişləndi. Artıq onun şeirləri təkcə intiqama, azadlıq uğrunda mübarizəyə çağırmaqla qalmırdı, Vətən, ana məhəbbəti, övlad qayğıları, sülh, əmin-amanlıq, əmək və rəşadət, insanın taleyi kimi mövzulardan yazırdı.

Ümumiyyətlə, sovet ədəbiyyatının tələblərindən geri qalmamağa çalışırdı. Bununla belə, onu hər şeydən əvvəl İran Azərbaycanında yaşayan qardaş və bacılarının taleyi düşündürürdü.

"Arazın şikayəti", "Danışır anam", "İnsanlar", "Yadıma düşdü", "Təbrizdə bayram", "Mənim xalqım", "Necə unudum", "Sarban", "Unudulmaz bahar", "Bacı məhəbbəti" və onlarla digər şeirini H.Billuri bu mövzuya həsr edib. Bu kədər qarışıq, lakin gələcəyə, xalqının səadətə qovuşacağına dərin inam hissi ilə dolu şeirlərdə H.Billuri elin sədaqətli qızı və şairi kimi çıxış edir. Bu cəhət onun lirik şeirlərində də özünü aydın göstərir:

*Sən qürbətdə qalalı*
*Qürbəti sevmişəm mən.*
*İndi əvvəlkilər tək*
*Haray çəkib demirəm:*
*"Haray qürbət əlindən".*

H.Billuri sovet xalqını, əməksevər müasirlərimizin həyatını, bəşəriyyətin səadəti və sülh naminə ölkəmizin apardığı əmin-amanlıq siyasətini, kommunizm quruculuğu uğrunda mübarizəni məhəbbətlə qələmə alır:

*Mən kommunist deyiləm,*
*Bu zirvəyə hələ mən*
*Qalxa bilməmişəm, ah,*



*Döyüşlərdən bir sabah*
*Qalib çıxarsam əgər,*
*... Xalqa işim, əməyim*
*Gətirsə bir səadət,*
*Bəlkə, onda mənə də*
*Kommunist deyəcəklər...*

Onun kosmonavtlardan G.Titov və V.Tereşkovaya, azadlıq fədailərindən Firudin İbrahimi, P.Lumumba, Beloyanis və başqalarına həsr etdiyi şeirlərdə şair-vətəndaşın bu ölməz insanlara dərin məhəbbəti ifadə olunub.

H.Billuri 15 şeir kitabının, tədqiqat əsərlərinin müəllifidir. O, həyatını vətənə həsr edən şairdir; qayğıkeş ana, sədaqətli yoldaşdır:

*Bəlkə, qalacağam min-min ürəkdə*
*Bir ana, bir insan, bir yoldaş kimi.*
*Qəlbində gəzdir min bir arzunu,*
*El üçün can verən vətəndaş kimi.*

Şairin kamala yetmiş şeirini oxuyanda yaşının əllini haqladığına inandım. Nə olar?.. Bu nə ömürdür ki? Axı, vətənimiz, Azərbaycanımız uzunömürlülər diyarıdır...

**Bakı, 25 sentyabr 1974**

## Lələyi yandır, dadına çataram (Qılman İlkin)[35]

Bu hekayələrdə sonsuz nəvaziş, insanın, çətinə düşənin dadına çatmaq, ilahi insan məhəbbəti var. Eləcə Qılman müəllimin özündən var nəsə...

Özü belədir Qılman müəllim. Zəng çalır: "Necəsən?" Xəstə olduğumu bilincə, "Gəlirəm" – deyir. Deyirəm: "Pilləkənimiz ucadır, qıymıram". "Ay qız, mən pilləkən soruşmadım, evdəsən, gəlirəm, dedim". Gəlir də, o uca, yorucu, cavanların belə gileyləndiyi pillələri çıxır. Özüylə birlikdə canlı, ümidverici sükunət gətirir. O gedəndən sonra da evdə nəfəsi, verdiyi ümid, xoş duyğular qalır. Lap hekayələrindəki Eldarın ("Tovuz lələyi"), Nəcibənin səsinə səs verən şikəst qoca, anasız qız ("Təklik") və başqaları kimi. Bu hekayələri ayrı-ayrılıqda, dövri mətbuatda oxumuşdum. Amma indiki vaxtda az qala kübarlıq, nəciblik, qayğıkeşlik unudulmağa başladığı, ədəbiyyatda da öz yerini az qala nanəcibliklərə buraxdığı dövrdə Qılman müəllimin bu kitabı bulanıq sel suları içində öz təmiz, qayğı dolu hissləriylə pak, əlçatmaz müqəddəs adadır.

"Şirvannəşr" xeyirxah iş görüb və bu kitab – "Tovuz lələyi" indiki zamançün zəruri məram kimi geniş təbliğ olunmalı, yayılmalıdır. Bəlkə, harın, müharibəni, torpaqlarımızın itkisini, çadır şəhərləri unudan, heç yadına da salmayıb ağalıq, milyarderlik eşqilə meydan sulayanlara görk olsun.

Nağıllarımızdan gələn "Lələyi yandır, dadına çataram" rəvayətləri vaxtilə millətimizə xas olan gözəl ənənəni canlandırdığı üçün Qılman müəllimə minnətdarlığımı bildirirəm, adət və ənənələrimizin ən gözəl cəhətlərini

[35] Cəfərzadə Ə.M. / "Lələyi yandır, dadına çataram" / "İmpuls" qəzeti / 2001, 28 sentyabr / səh. 15



canlandırmaqla qocaman ədib sanki deyir: "Bax, biz beləydik, belə də olub qalacağıq. Bu müvəqqəti çalpaşıqlar sizi qorxutmasın, ümidinizi itirməyin". Qılman özü də var, qəhrəmanları da, milləti də. Var və var olacaq!

**Bakı, 08 sentyabr 2001**



*Əzizə Cəfərzadə və Qılman İlkin*

# İsmayıl Şıxlının rəqibi[36]

Əslində, bu, heç xatirə deyil. Ədib, Xalq yazıçısı İsmayıl Şıxlının yubileyində çıxışımdı.

Dostlar bilir ki, İsmayılın "rəqibiyəm". Aspiranturaya daxil olanda nəsə yardım etmişəm. Yer bir, biz iki, hər ikimiz də Əli Sultanlının sevimlisi. İkimizin də qəbul olunmağımızı istəyirdi. İsmayıl onda ordudan qayıtmışdı. Əsgər şinelindəydi. Onun o bir yerə düşməsinə şərait yaratmışdım. Olmadı. Mən keçdim. Amma Əli Sultanlı öz böyük ürəyi və qayğısı ilə rektorun yanına gedib əlavə yer aldı və ikimiz də aspiranturaya daxil olduq.

Görəsən, indi mən də gedib eyni xahişi etsəm, nə düşünərlər? Qohumudur, yerlisidir, tapşırılıb, başqa "keçəcəyi" var... Görün, hardan-hara gəlmişik. Nə isə mövzudan uzaqlaşmayaq.

Həyatdır. Adam həyatda çoxuna yaxşılıq eləyir: Yaddan çıxıb gedir. Amma əsl mərd unutmur. İsmayıl da unutmadı, tərbiyəvi əhəmiyyətə malik olan bu hadisəylə bağlı "Mənim rəqibim" adlı hekayə yazdı, adımı da saxladı. Səhnələşdirib televiziyada nümayiş etdirdi. Yenə ürəyi soyumadı. Hər il yeni auditoriyaya girib ali təhsil ocağına ilkin qədəm qoyanlar qarşısında, mühazirədən öncə bu hadisəni danışdı. "Belə olun" deyirdi sanki. Közü öz qabağına çəkənlərə cavab verdi (mənlə bağlı); ustadını unudanlara cavab verdi – Əli müəllimin simasında.

Bu gün bir yubilyarın simasında üç şəxsiyyəti alqışlayıram:

1. Aspirant yoldaşımı.
2. Vətən oğlu qardaşımı.
3. Yazıçı qələmdaşımı.

Həm də həmişə məftunu olduğum üç bayatıyla.

---

36 "İsmayıl Şıxlının rəqibi" (1998-2000) / Əzizə Cəfərzadənin Ev Arxivi, Fond "P" / Qovluq №40 / Sənəd №3 / vərəq – 3



I. Müharibədən əvvəl İsmayılı tanısaydım, cəbhəyə yola salanda belə deyərdim əsgər qardaşıma:

*Sacları külləsənə,*
*Kül vurub külləsənə.*
*Sən igidlər nəslisən,*
*Dəyməz heç güllə sənə.*

Qayıdıb gəldi əsgər qardaşım. Çox sağ ol, İsmayıl, qəhrəman Şıxlılar nəslinin başını uca elədin; çox sağ ol, İsmayıl. Səninçün taleyin ən gözəl mükafatı olan Ümidə xanıma qovuşdun. Millətimiz ləyaqətli ailə qazandı.

II. Əsgər paltarında gəlmişdin, İsmayıl, aspirant yoldaşım oldun. Sənə hörmətimi vurulmaq kimi anlamadın. Axı mənim də qardaşım, ömür yoldaşım cəbhələrdən keçmişdilər; hələ qayıtmamışdılar. Sənə hörmətim onlara məhəbbətimdi. Aspirant dövrünü birgə keçdik. Mərhum professorlarımız, əzizlərimiz Əli Sultanlı, Feyzulla Qasımzadə, Cəfər Xəndan, Məmməd Cəfər Cəfərov, Məmməd Arif, Həbibulla Səmədzadə (Məhəmməd Hadinin bacısı oğlu), Muxtar Hüseynzadə, Həmid Araslı...

*Gün doğdu üzə düşdü,*
*Sürmələr gözə düşdü.*
*Ustad köçdü dünyadan,*
*Əvəzi bizə düşdü.*

Məncə, ləyaqətlə əvəz etdik sevimli müəllimlərimizi. Qiymət verəndə obyektiv olduq. Yataqxanadakıların, yeməyi qara qalac çörəklə şor olanların qayğısına qaldıq. İndi mənə rəy üçün dissertasiya gətirəndə tez oxuyuram. Təşəkkür edəndə deyirəm, "mənə təşəkkür etməyin, Əli Sultanlı, F.Qasımzadəyə, Cəfər Xəndana, Həmid Araslıya, Mirzağa Quluzadəyə rəhmət oxuyun. Onlar mənim əsərlərimi belə oxuyublar. Mənə də bunu vəsiyyət ediblər. Sən də elə".

III. Yazıçı qələmdaşım İsmayıl. Tarixi əsərlərinin pərəstişkarıyam. Dönə-dönə çıxışlarımda demişəm, yenə də deyirəm: Moskvanın tələbilə tariximizi elə baş-ayaq etmişdilər ki, bizdən həqiqət gözləyən tələbə-oxucularımıza bədii priyomlarla əsl həqiqəti çatdırmağa çalışırdıq. Ədəbiyyatda Ordubadi, Çəmənzəminli müəllimlərimiz kimi Ənvər Məmmədxanlı, İsmayıl Şıxlı, Fərman Kərimzadə, Əlisa Nicat... bir qədər də mən qədim mənbələr əsasında əsl dürüst Azərbaycan tarixinin səhifələrini açırdıq. Deyirəm, İsmayıl!

*Bacın deyər, bar olsun,*
*Düşmənlərin xar olsun.*
*Cahandar tək surəti*
*Yaz, əllərin var olsun.*

Sən özün elə mərdlikdə, kişilikdə, obyektivlikdə Cahandar ağanın prototipi idin. Biz dostların əbəs yerə məhrəmanə görüşlərdə səni Cahandar ağa adlandırmırdıq.

Var ol, vətən oğlu, aspirant yoldaşım, yazıçı qardaşım. Gözlərin nurdan, qələmin ilhamdan ayrı düşməsin.

**2001**



# Şair (İsmayıl Soltan)[37]

İsmayıl Soltanı onun apardığı ədəbiyyat dərnəyindən tanımışdım. O zaman o "Kaspi bolşeviki" adlı qəzetdə çalışırdı. Arvadı Xumar xanım olduqca gözəl, qara xallı, mehriban, şirindil bir gəlin – qarabağlı balası idi. Bir dəfə küçədə onlara rast gəldim, Xumar xanımla tanış etdilər məni. Bu mehriban qadın doğma Ağdamdan, ata-anasından ayrı elə qəribsəyibmiş ki, mənə bir bacı kimi yaxınlaşdı. Evimizə gəldi. Anamı, qardaşlarımı görəndən sonra bizdən daha ayrılmadı. O zaman biz Yuxarı dağlıq (indiki Abdulla Şaiq) küçəsində yaşayırdıq. Soltangil isə Sovet küçəsi ilə Şorsun (indiki Bəşir Səfəroğlu) kəsişdiyi yerdə qalırdılar. Cəmi iki kvartal aramız var idi. Xumar ərini də bizə gətirdi. Anama "kəbleyn" deyib elə isinmişdilər ki, doğma ana-baladan artıq, birevli kimi olduq. Bu 1936-1937-ci çətin illər idi. Tez-tez, demək olar ki, hər gün görüşür, günün hadisələrini ürək döyüntüsü ilə izləyirdik. O qədər yaxın idik ki, qonaqlıq olanda bizdən yorğan-döşək aparırdılar. Övladları olmurdu. Soltan ondan yaşlıydı. Bir neçə il idi ki, evlənmişdilər. O illər çox uzaqda qaldığından və o vaxtlar qeydlər etmədiyimdən indi ay və günlərini dəqiq yaza bilmirəm. Deyəsən, 1937-ci ilin payızı idi. Soltan Xumarla birlikdə Ağdama Xumarın atasıgilə qonaq getdilər. Qayıdanda Xumarın özündən kiçik bacısı Səkinəni də özlərilə Bakıya gətirdilər. Xumar deyirdi:

– Yazıq bacımın üzünü pambıqdan qurtardım. Tumanlığının balaqları şırım-şırımdı. Qoy oxusun, adam olsun.

Qızı yaxınlığımızdakı məktəbə düzəltdilər. Hadisədən təxminən il yarım keçdi. 1939-cu ilin 2 mayında anamla Soltangilə getmişdik. Soltanla Xumar evdə yox idilər. O

[37] "İsmayıl Soltan" (01.02.1986) / Əzizə Cəfərzadənin Ev Arxivi, Fond "P" / Qovluq №21 / Sənəd №26 / vərəq – 8

zamanda Bakıda dəb olan Mayovkaya – çölə getmişdilər dostları ilə. Səkinə evdə tək idi. Başına ağ haşiyəli iri qara kəlağayı örtmüş, uclarını şişgin qarnının üstünə çəkmişdi. Mən əlbəttə o zaman təcrübəsiz qız uşağı idim, bir şeydən şübhələnmədim, heç nə anlamadım da. Amma böyük həyat təcrübəsi olan anam nədənsə qaşlarını çatdı və Səkinəyə dedi:

– Xumara deyərsən, mənə dəysin. Sözüm var.

Səkinə nazlı gəlin kimi süzgün baxışlarla bizi süzdü:

– Yaxşı, – deyib harayasa uçan xəyalına daldı.

Çıxdıq. Anamın dodaqaltı deyintisini eşitdim: "Bu qız heç mənim xoşuma gəlmədi".

Səhəri gün Xumar işdən sonra bizə gəldi. O zaman artıq iri qız olsam da, anamla aramızda pərdə var idi. Xumarla xısın-xısın danışığını görüb otağıma çəkildim. Çağırılanda gələcəkdim. Amma az sonra Xumarın yüksəkdən anama dediyi sözləri eşitdim:

– Yo-ox, Kəbleyi, elə şey yoxdu. Qonşu arvadlar, ev sahibəsi də mənə deyib. Savaşıb abırlarını almışam. Qız uşağı bacıma böhtan deyirlər.

– Sən bir həkimə apar onu.

– Kəbleyi Soltan özü aparıb. Deyir: Yazıq uşaq, bacımın pambıqda bulanıq su içməkdən dalağı şişib.

Bu arqument qarşısında anam susmağa məcbur oldu. Amma yenə dedi:

– Xumar, qızım, ata-anan burada yoxdu. Bacını sən gətirmisən bura. Sənin üstünə düşür. Özünü necə aparır, adına söz çıxar, hər nə...

– Bəli, bəli, Kəbleyi. Elə Soltannan da elə danışırıq. O da göz olur üstündə. Sən nigaran olma o barədə. Bacım yazıq xəstədi, palçıqlı su içməkdən şişib dalağı. Elə belə-belə şeylərə görə qopardıb gətirmədimmi onu?

1939-cu ildə mayın 2-si, 3-də baş verən hadisələr yadımda bu dəqiqliyi ilə ona görə qalıb ki, çox qeyri-adi hadisə idi və məhz may ayı idi. Və həmin ildə, həmin may ayında atamı ağır xəstə vəziyyətində müalicə üçün Bakıya gə-



tirdilər. Xumar və Soltanı atam da çox istəyirdi. İllah da Soltan atamın yanında əyləşib şair ruhlu xəstəyə klassik poeziyamızdan, türk ədəbiyyatından gözəl parçalar oxuyardı. Poeziya haqqında söhbətləri gecə yarıyacan uzanardı. Atam xəstəliyini də unudardı Soltanla. Soltan o zaman nəşri mümkün olmayan lirik parçalarını atama oxumaqla təskinlik tapardı. Türk divan ədəbiyyatını yaxşı, dərindən bilir, sevir, bir çox klassik əsərləri əzbərdən söyləyirdi. Gözəl hafizəsi var idi. Hamidi, Fikrəti, Cənab Şəhabəddini, Yəhya Kamalı, Faruq Nafizi əzbər söyləyirdi.

Anam Xumarı da mehriban, incə, sadə təbiətinə görə sevirdi. Xumar işdən, yorğun olsa da, hər gün atama dəyməyə gəlir, böyrünə qısılırdı. Atam da Xumarın başını sığallayıb sinəsinə sıxır, alnından öpürdü. Xumar deyirdi:

– Məmməd əmiynən görüşəndən sonra yorğunluğumu unuduram. Barmaqlarımın zoqqultusu yadımdan çıxır (makinada yazırdı).

Deyəsən, iyunun əvvəlləri idi, səhərə yaxın qapımız döyüldü. Gələn gözü yaşlı, həyəcanlı Xumar idi. Anamı qapı ağzındaca qucaqlayıb hönkürdü:

– Kəbleyi! Kəbleyi...

Məlum oldu ki, gecə yarısı Səkinənin vəziyyəti pisləşib. Təcili yardım maşını çağırıblar. Həkim gəlib Səkinəni müayinədən sonra Soltandan soruşub:

– Pervıy rod? (İlk doğuşdu?)

O da cavab verib:

– Da... (Hə)

Yalnız bu zaman bədbəxt, aldadılmış, sonsuzluğa məhkum Xumar başa düşüb ki, bacısı və əri ona xəyanət ediblər. Səkinəni aparıblar doğum evində bir oğlu olub. O gündən Soltan evlərinə və ata-anamdan utandığı üçün bizə gəlmədi. Atam hey soruşurdu:

– Ay balam, Soltan hanı, görünmür?

Pənahı biz olan Xumar xəstə, son günlərini yaşayan atamı qəzəbləndirməmək üçün deyirdi:

– Ezamiyyətə gedib.

Atam namus əsiri idi. Əgər həqiqəti bilsəydi, yerindən qalxa bilsəydi, yəqin ki, Xumarın xatirinə və bacıya xəyanəti cəzalandırmaq üçün onları yox edərdi. Bizi də onların adını çəkməyə qoymazdı. Ölənəcən (26 avqust vəfat etdi) hadisəni bilmədi. Xumarın ata-anası kənddən gəldilər. "Neynək, neynəmək olar: Onun balası var, o qalsın, bu çıxsın evdən". Qərar bizə dəhşətli gəldi. Anlamırdıq, anlamaq istəmirdik. O günlərdə bacı və sevgili ər xəyanətindən Xumar az qala dəli olurdu. Anam onu özünə qəsd etməkdən necə saxladı, bilmirəm. Amma saxladı. Elə irəlicədən deyim ki, sonralar müharibə illərində Soltan cəbhədə olanda onun üç balasına və arvadına yenə də həmin bədbəxt Xumar dayaq olurdu. Nə isə... Bu hadisə bir şair və kişi kimi İsmayıl Soltana şərəf gətirmir. Danışmazdım da haqqında. Amma təəssüf ki, bir şair kimi məhvinə səbəb oldu. Ona nifrət edirdilər. İşdən çıxardılar, dərnəkdən uzaqlaşdırdılar — tərbiyəsiz tərbiyə verə bilməz. Hətta bir müddət Yazıçılar İttifaqından da uzaqlaşdırıldı. Onunla tanış, dost olanlar da utanır, salamlaşmağa ehtiyat edirdi. Halbuki istedadlı sənətkar idi, Soltan yaxşı şair idi. S.Vurğun, R.Rza dövründə başlamışdı təbliğ olunmağa, yaxşı da ad qazanmışdı. Bu hadisə ilə özü özünü öldürdü. Doğrudur, o, nəsil – övlad istəyirdi, yaşı ötürdü, Xumarın isə olmurdu övladı. Lakin hər halda baldız-bacı məsələsi ona bu ata olmaq arzusuna belə bəraət vermədi. İnkişafdan qoydu onu. Bədahətən və ya qafiyələrini sifariş verməklə şeir yazırdı. Ədəbiyyatı gözəl bilirdi. Onunla bütün müharibə boyu çox məktublaşmışıq. Anamla lap bacı-qardaş olmuşdu. Evlərimiz elə qaynayıb qarışmışdı ki, Xumardan sonra yenidən həmin mənzilinə qayıdanda yenə də ayaq açdı bizə. Artıq atam yox idi. "Mən onu Xumarla ilk dəfə kəndə gələndə tut ağacının dibində sevmişəm", – deyən Səkinə işin ağırlığını öz üzərinə götürsə də, münasibətlərimizdə soyuqluq yaranmışdı. Hamını özü kimi bilən Səkinə bütün qadınlara Soltanı qısqanırdı. Bu savadsız, qısqanc qız Soltana üç uşaqdan başqa heç nə verə bilmədi. Soltan arıq, ucaboy kişi idi. Ön dişləri iri və sarıydı (papirosdan), boğazında xənəzir yarasının izi var idi. Gözəl deyildi. Amma yaxşı müsahib idi. Çox oxuyurdu, çox yazırdı. Göyçayda bacısı, qardaş-əmioğlusu (atası öləndən sonra anası ilə əmisi evlənmişdilər), əmisi (dərzi Məhəmməd məşhur idi Göyçayda), şərikli evləri var idi. Bir epizod xüsusilə yadımdadır. Hər şeyə bir ləqəb qoşmağı sevən şamaxılılar demişkən, o illərdə, o ağır illərdən çıxmış bəzi qadınlar əllərinə pul keçən kimi "təzə xanım" olmuşdular. Piano yuxarı məhəllədə dəb düşmüşdü. Səkinə də Soltanı piano almağa məcbur elədi. Soltanın o qədər pulu yox idi, Soltan anama demədən həyətimizdə yaşayan, pulunu müamiləyə[38] verən bir arvaddan min manat borc alır. Gedib mağazadan pianonu alıb aparırlar evə. Hər ay min manata üç yüz manat müamilə verməli imiş Soltan. Kitabı bu günlərdə çıxmalıymış. Nədənsə gecikir, çıxanda da Əbülqasım pulunu ləngidir. Düz üç ay Soltan hər ayına üç yüz manat gətirib müamiləni arvada verir. Bir dəfə söz arası anam bunu öyrənir, dəhşətə gəlir. Doqquz yüz manat artıq pul verdiyi halda hələ də borcdan çıxa bilmir. Anam həmin gün arvadın pulunu verib Soltanı gələcək müamilələrdən qurtardı. Danladı. Sonra kitab çıxanda Soltan borcumuzu qaytardı. Söz bunda deyil. Səkinə şairi əsla başa düşmür, ömründə evlərində çalınmayan həmin piano kimi nahaq, avara xərclərə salırdı. Soltan da istedadını xalturaya, boş işlərə, tərcüməyə filan sərf edirdi. Nədənsə əminəm ki, əgər Xumar o evdə olsaydı, əgər övlad həsrəti Soltanı bu addıma vadar etməsəydi, yolunun üstünə Səkinə çıxmasaydı, Soltan xalqın, ictimaiyyətin gözündən düşməzdi. Əqrəbası, dostları ondan üz çevirməzdi. İstedadı parlar, özü də yaxşı bir şair kimi daha da inkişaf edərdi. İsmayıl Soltanı – klassik poeziyamızın, divan ədəbiyyatının ən mükəmməl bilicilərindən, pərəstişkarlarından, istedadlı şairlərimizdən biri kimi çox tez və məncə, havayı yerə nadinc əlilə itirdik.

**Şüvəlan, yanvar-fevral 1986**



[38] Müamilə – borc verilən pul müqabilində alınan faiz, sələm

## Ənvər Məmmədxanlı haqqında xatirəm[39]

Bədii nəsr dilimizin yaranmasında incəcik hekayələrinin müstəsna rolu olan ustad Ənvər Məmmədxanlını 1936-1937-ci illərdən tanıyırdım. Bütün yaşıdım oxucular kimi. Uzaqdan-uzağa. Hekayələrini oxumuşdum, balaca kitabxanamda "Burulğan"ı vardı. Lirik, şairanə dilinə vurğundum. Həm də təkcə mən yox. Məncə, yaşıdım olan nasirlərin hamısı. O, bizimçün ilk gəncliyin məhəbbət məktubları qədər əziz, əvəzolunmaz, təkrarsızdı. Onun kimi yazmaq, dilimizi onun kimi bilmək ən uca arzumdu. Uca boyu, susqun, məğrur görkəmiylə də rəfiqələrimin çoxunu məftun etmişdi. Qəhrəmanlarının "ağ çiçəkli" təbəssümünü görməsə də, onun lirik qəhrəmanları kimi dişlərinə ağ çiçək alıb, eləcə də gülümsəmək istəyirdi çoxları.

Ağlıma da gətirməzdim ki, ustad Ənvər Məmmədxanlı haqqında xatirə yazmalı olacağam. O Ənvər Məmmədxanlı ki, əsərlərini heyranlıqla oxuyur, nəsrini şeir kimi içirdik.

Çox sonralar Respublika Əlyazmalar Fondunda işlərkən Ənvər müəllimlə tanışlığımız belə demək mümkünsə, dostluğa çevrildi. Ona M.F.Axundov haqqında yazacağı romançün materiallar toplarkən yardım edirdim. Xeyli müsahib olduq. Hətta ömür yoldaşımla onun Vidadi küçəsindəki mənzilində də olmuşduq. Sözü sərt deyirdi, düz deyirdi, kiminlə olsa, müsahibinin ağlabatan fikrini düşünür, dərinliyinə varmadan nəticə çıxarmır, pisləmir. M.F.Axundov haqqında material toplarkən ustaddan bilmək, əmin olmaq və ürəyinə yatırsa, sonra yazmaq məharətini öyrəndim. Yadımdadır, M.F.Axundovla bağlı, Xurşidbanu Natəvan və başqa o dövr adamlarıyla bağlı

[39] "Xatirə" (Ənvər Məmmədxanlı haqqında) (1995-1998) / Əzizə Cəfərzadənin Ev Arxivi, Fond "P" / Qovluq №14 / Sənəd №33 / vərəq – 1



məktubların, arxiv materiallarının surətini ona verəndə bu ziddiyyətli dövrün qərami məktublarının ona təsiri məni ilgiləndirirdi. Romanı yazmadığını görəndə səbəbini soruşdum. Bir neçə görüşdə ötəri cavablandırdı: "Mənə verdiyin məktubları özün də oxuyursan, eləmi? Onda səbəbini anlarsan". Ustad heç vaxt mənən onu təmin etməyən bir mövzuda əsər yazmamışdı.

**1995-1998**

# Aşıq Sənəmlə görüşüm[40]

Aşıq Sənəmlə görüşüm heç yadımdan çıxmaz. İlk dəfə onun şəklini görmüşdüm. Aşıqların I qurultayında iştirak edən yeganə aşıq qadın idi Sənəm. Sonralar Sənəmin izi itmişdi, sağdımı, hələ də yaradırmı, bilmirdik. "Qobustan" jurnalı 1974-cü ildə Sənəmin o vaxtkı şəklini çap etdi, soraqladı, cavabı isə mənə gəldi. Sabiq tələbələrimdən, Gülüzən kəndindəki səkkiz illik məktəbin direktoru Sənəmin dilincə mənə məktub yazmışdı, məktub məni qocaman aşığın bayatısı ilə Balakən rayonunun Gülüzən kəndinə çağırırdı:

*Eləmi Gülüzənə,*
*Gün düşüb Gülüzənə,*
*Sənəmi görmək istəsən,*
*Gəlginən Gülüzənə.*

Televiziyanın bir neçə əməkdaşı ilə birgə getdik. Həmin bu gördüyünüz şəkil o zaman, yəni 1975-ci ilin baharında çəkilib.

Kəndə gələn kimi bizi aşığın elliləri qarşıladı. Sanki kəndə hay düşdü, hayla səsləndi:

*Hayla haylanın bəndi,*
*Hayla bürüdü kəndi,*
*Birin sən de, birin mən,*
*Görək kim kimi yendi.*

[40] Cəfərzadə Ə.M. / "Aşıq Sənəm" / "Kənd əməkçisinin təqvimi" – 1988 / səh. 16-17
"Aşıq Sənəmlə görüş" (04.05.1987) / Əzizə Cəfərzadənin Ev Arxivi, Fond "P" / Qovluq №9 / Sənəd №4 / vərəq – 2





*Əzizə Cəfərzadə Aşıq Sənəmlə görüş zamanı, 1975*

Sənəm nənə bizi görəndə, beləcə, meşədən gətirdiyi odunlar kimi qocaman, ildırımsındırmaz kötüyə bənzəyirdi. Sualıma cavab olaraq dedi: "Biz Muğal tayfasındanıq, türkdilli xalqlara mənsubuq. Səhvən bizi gah monqollar, gah da Dağıstan tayfaları ilə qarışdırırlar. Bizdə bayatıya "hayla" deyilir, haylayıb səsləmişik dostu, yarı, sevdalını:

*Hayla haylanın başı,*
*Hayla bilməz hər naşı,*
*Hayla bir elə şeydi,*
*Qərib yerin yoldaşı.*

Hayla gecələri düzəldərdik qabaqlar, televiziya, radio, mədəniyyət evləri olmayan vaxtlarda. Kimin nə əyər-əskiyi oldu, haylaynan düzəldərdik. Elimizin həyatında baş verən hər bir yeniliyi də haylaynan əbədiləşdirərdik. Haylalar tariximizin bir sözü, bir misrasıdı. Hayıf ki, muğalların haylalarını yaxşıca toplayan yoxdu. Bir vaxtlar aşıqlar qurultayına gedəndə Salman Mümtaz bir qadınla gəldi, görüşdü mənnən, xeyli hayla yazdı dilimdən".

Sənəm nənənin güclü hafizəsi var idi. Artıq həyatdan köçüb, amma həmyerliləri onu indi də sağlığında olduğu kimi unutmur, xatırlayır, hörmətlə yada salırlar.

1986-cı ilin payızında Balakən rayonunun Gülüzən kəndi gül içində üzürdü, doğrudan. Buraya respublikanın tanınmış şairləri, alimləri, ziyalıları, pionerlər, fəhlə və qulluqçular gəlmişdi. Gülüzənlilər öz sevimli aşıq nənələrinin xatirəsini əbədiləşdirmək üçün kəndin girəcəyində onun adı ilə bağlı "Sənəm bulağı" tikib istifadəyə vermiş, böyük bağ salmışdılar. Elə qonaqları da buna görə dəvət etmişdilər. Burada Aşıq Sənəmin adı ilə bağlı "Tambur çalan qızlar ansamblı" çalıb-çağırır, öz böyük nənələrinin bayatı-haylalarını oxuyurdular. Sənəm nənənin məzarının da üstü götürülmüş, gül-çiçəyə qərq olmuşdu.

**Bakı, 4 may 1987**



## Yazıçı, redaktor (Xalidə Hasilova)[41]

Xalidə Hasilova 1936-1937-ci dərs ilində Zaqatala pedaqoji məktəbini əla qiymətlə bitirib. Əmək fəaliyyətinə Zaqatala rayonunun Qımıl kəndində tam olmayan orta məktəbin birinci və üçüncü siniflərində dərs deyərək başlayıb.

1938-ci ildə Pedaqoji məktəbi yenicə bitirib dərs deməyə başlayan gənc qızın həmin ildə "Şərq qadını" jurnalının birinci nömrəsində çap olunmuş məqaləsindən aldığımız bu parça nə qədər qəribə, deyərdim ki, ecazkar səslənir. O gənc müəllim Xalidə Hasilova bu gün "Azərbaycan qadını" jurnalının beş redaktorudur. 1937-ci ildə 16, 1938-ci ildə 30 qadını savadlandırmağı qarşısına məqsəd qoyan, Xalidə Hasilova bu gün bütün Azərbaycan qadınlarının sevdiyi jurnala rəhbərlik eləyir, onların dərd-sərinə, arzu və istəklərinə şərik olur.

1938-ci ildə "Şərq qadınında kövrək, eyni zamanda aydın, dürüst məqsəd və istiqamət"lə çıxış edən kiçik məqalə müəllifi bu gün oxucuların yaxşı tanıdığı yazıçı Xalidə Hasilovadır. Xalidə Hasilova, özünün də dediyi kimi, gənclərimizin çoxutək orta məktəbdə oxuyarkən şeirlər yazmağa başlayıb.

Lakin özü yaradıcılığa xeyli sonra – universiteti bitirdikdən sonra başlayıb, ilk hekayəsi 1949-cü ildə "Xalça" adı ilə "İnqilab və mədəniyyət" jurnalında çap olunub. İlk kitabı isə 1950-ci ildə "Kiçik hekayələr" adı ilə çapdan çıxıb. O vaxtdan bəri Xalidə Hasilovanın Azərbaycan, rus və başqa dillərdə iyirmidən çox hekayə və povestlərdən ibarət kitabı çap edilib.

[41] Xalidə Hasılova haqqında verilişin ssenarisi (10.11.1979) / Əzizə Cəfərzadənin Ev Arxivi, Fond "P" / Qovluq №24 / Sənəd №13 / vərəq – 21 əsasında çapa hazırlanıb.

Bunların içində uşaq və gənclər üçün yazılmış "İki yoldaş", "Lalənin kitabı", rus, gürcü və başqa dillərdə çap edilmiş "Sirli atlı", "Təmizkar sağsağan", "Ulduzlu papaq", "Rəna evlərini axtarır", "Lalələr", "Yaşıl ayna", "Dəniz çağırır", "Zəhra" və başqa kitabları var.

Xalidə Hasilova "Onun taleyi", "Unutmaram", "Çəhrayı rəng", "Nəğməli könül" povestlərinin müəllifidir.

Bütün povest və hekayələrində Xalidə Hasilovanı müasirimiz olan insanın taleyi, onun cəmiyyəti, özünü əhatə edən insanlıq münasibəti maraqlandırır. Quran, yaradan bu insan bütün varlığı ilə əməli gələcəyə tuşlanmış gənclikdir. Bu gənclik köhnəliyə, geriliyə, avamlığa qarşı mübarizədə bərkiyir, şəhərlər salır. Qumsal səhraları çiçəkli, bağlı-bağatlı, həyat qaynayan sosialist şəhərinə çevirir. Belə gənclərin bir neçəsinin surəti "Unutmaram" povestində çəkilib. Müharibə, faşizm taunu bütün arzularını ürəyində qoyan, cəbhələrdə həlak olan, igid azərbaycanlı qız Solmaz, şəxsən özü arzularına çatmasa da, hər halda məhz belə bir həyat, belə bir gələcək uğrunda çalışır. Onun Kamala olan saf, pak məhəbbəti yarımçıq qalır, amma hər iki gəncin arzuları bu gün çiçəklənir və bu günümüzdə öz əməlləri, fədakarlıqları ilə iştirak edirlər.

Söhbət müharibənin nakam qoyduğu qızdan getdiyi üçün, yeri gəlmişkən, Xalidə Hasilovanın "Onun taleyi" povestindən də bir qədər danışmaq istərdim. Çünki müharibənin insanlara, xüsusilə, ana qəlbinə vurduğu ağır yara məhz bu povestdə diqqət mərkəzində durur. Xalidə Hasilova çox maraqlı mövzu işləyib. Əri sərhədə yaxın yerlərdə hərbi qulluqda olan ana – Məlahət kiçik qızını və ərini itirir. Müharibənin dəhşətli, ağır itkiləri bu mərd sovet qadınını sındırmır. O, mətanətlə yaralıların həyatını xilas edir, əlindən gələni qələbəmiz üçün əsirgəmir, müharibədən sonra isə yetim qalmış bir qızı övladlığa götürür, boya-başa çatdırır. Bütün həyatı boyu mərdlər cərgəsində namərdlərə qarşı döyüşən bu mətin qadını tale mükafatlandırır.



Xalidə Hasilovanın bu povesti mövzuca Azərbaycan ərazisində cərəyan etməsə də, bu əsərdə vətən məhəbbəti əsas, aparıcı yer tutur. Maraqlıdır ki, Xalidə Hasilovanın təsvir etdiyi vətəndən didərgin düşmüş oğlanın – Nazimin həsrətində, taleyində faciələrə məhz müharibə, faşizimin törətdiyi dəhşətlər səbəb olub.

Nazim doğma yurdumuz uğrunda Azərbaycandan uzaqlarda faşizmə qarşı çarpışarkən taleyi elə gətirir ki, faşistlərin caynağına keçir. Müharibə qurtarandan sonra da düşmən təbliğatının toruna düşür, əziz ata-anasına sədəmə toxunmasın deyə yad ellərdə qalır. Onu inandırırlar ki, əgər qayıtsan, təkcə özün tutulmayacaqsan, ata-ananı, sevimli bacını da sürgün edəcəklər. Nazim vətən və əzizlərinin həsrətiylə öz adını dəyişib Həsrət qoyur və bu adla da yad ellərdə yaşamır, sürünür. Qulağı səsdə, gözü turistlərdədir.

Xalidə Hasilova dramaturgiya sahəsində də qələmini sınayıb. Maksim Qorki adına Gənc Tamaşaçılar Teatrında müvəffəqiyyətlə oynanan "Bir sahilin adamları" pyesi cəmiyyətimizdə yad ünsürlərə qarşı, insanın mənəvi paklığı məsələsinə həsr olunub. Bu pyesdə Rizvan baba kimi yeni və yaddaqalan, maraqlı surətlər var.

Xalidə Hasilova ədəbi yaradıcılıqla yanaşı SSRİ xalqları və rus nəsrinin bir sıra maraqlı əsərlərini Azərbaycan dilinə tərcümə edib. Özü də bu tərcümələr onun yaradıcılığında bir-iki təsadüfi hadisə deyil, ardıcıl səciyyə daşıyır, yaradıcılığında mühüm yer tutur. Bununla belə, Xalidə Hasilova tərcüməçi deyil, onlarla hekayə və povestlərin müəllifi – nasirdir. Xalidə Hasilovanın deyərdim ki, ən uğurlu əsəri "Nəğməli könül" povestidir. Ən uğurlu ona görə deyirəm ki, burada Xalidə Hasilovaya daha yaxın və doğma olan incəsənət işçilərinin həyatı təsvir olunub. Könül adlı xanəndə qızın taleyi povestin mərkəzində durur. Xalidə Hasilova sənətə meşşan münasibətli, ona pul-qazanc mənbəyi kimi baxanları, qadını şəxsi əşyasına çevirən ərləri tənqid edərək maraqlı səhnələr yaradır.

Xalidə Hasilova oxuculardan çoxlu məktublar alır. Bunların içərisində "Unutmaram", "Çəhrayı rəng", "Nəğməli könül", "Xatirə" kitabları ilə əlaqədar gələn məktublar daha çoxdur. Oxucular Xalidə Hasilovaya təşəkkür edir, bu və ya başqa surətə, hadisəyə münasibətlərini bildirir və ona yaradıcılıq uğurları arzulayırlar. Məsələn, Mingəçevirdən nümunə. Oxucu Qasımova yazır: "Zəhmət adamları, onların yaddaqalan obrazları yazıçı Xalidə Hasilovanın qələmiylə çox yaxşı təsvir edilib. O, bir qadın və bir ana kimi hər hadisəyə həssaslıq və incəliklə yanaşıb". Zəngilandan Nəsibə Əliyeva "Çəhrayı rəng" haqqında yazır: "Bu povesti oxuyanda Nazimin neçə il vətən, el-oba həsrətiylə döyünən ürəyinin çırpıntısını sanki eşidir, ona öz sadə qəlb sözlərimlə təskinlik verirəm. Xalidə müəllimə, bilmək istərdim ki, bu həqiqətdirmi? Əgər həqiqətdirsə, indi onlar hardadırlar?"

Xalidə Hasilova, eyni zamanda ictimai həyatda fəal iştirak edən yazıçıdır. Söhbətimizin əvvəlində dedim ki, "Azərbaycan qadını" jurnalının redaktorudur. Bundan əvvəl 1966-1972-ci illərdə balaca balalarımız üçün çap edilən "Göyərçin" jurnalının redaktoru olub. O, respublika və respublikadan kənar, ittifaq miqyasında bir sıra məsul yığıncaqlarda iştirak edib. Uzun illərdən bəri Azərbaycan Yazıçılar İttifaqı, həmçinin Sovet qadınlar komitəsi prezidiumunun, Azərbaycan KP MK yanında Respublika Qadınlar Şurasının üzvüdür. İki seçki boyu Yazıçılar İttifaqı Partiya Təşkilatı katibidir. Redaktoru olduğu jurnalda fəaliyyəti ilə əlaqədar olaraq Azərbaycan rayonlarının hamısında qadın jurnalları ilə əlaqə saxlayır. Oxucular, sadəcə həyatında hansısa hadisə baş vermiş qadın və qızlar məsləhət üçün doğma jurnala müraciət edəndə burada qayğıkeş, eyni zamanda tələbkar və ciddi insanla qarşılaşırlar.

Xalidə Hasilova heç nəyi sabaha qoymağı sevmədən dərhal hadisəyə müdaxilə edir və bacardığı köməkliyi göstərir. O, xüsusilə, ana-qadın hüququnun azacıq da olsa, tapdalanmasına qarşı dözülməz münasibət bəsləyir.



1959-cu ildən Azərbaycan sovet yazıçılar qurultayı, 1963-cü ildən Sovet İttifaqı KP üzvü Xalidə Hasilovanın ədəbi və ictimai fəaliyyəti dövlət və partiyamız tərəfindən yüksək qiymətləndirilib və o, "Şərəf nişanı" ordeni, V.İ.Leninin yubiley medalı, "Xam torpaqların fəth edilməsinə görə" medalı alıb, iki dəfə Azərbaycan, bir dəfə Belarusiya SSR Ali Soveti Rəyasətinin fəxri fərmanı ilə təltif olunub.

**Bakı, 10 noyabr 1979**

## Adaşım, rəfiqəm (Əzizə Əhmədova)[42]

Qəribə aləmdi ədəbi aləmimiz. Bir-birimizin yaradıcılığından, kitablarının çap olunub-olunmamasından, bir-birimizin hansı duyğularla, necə yaşamağımızdan xəbərimiz yoxdur. Mənəvi ehtiyac duyurdum nəfəsinizi dinləməyə, səsinizi eşitməyə. Elə bilirdim ki, yazsam da, nəşr olunsam da, ədəbi aləmdən, dostlarımdan, yaradıcı dostlarımdan ayrılıb tənha adaya düşmüşəm. İsmayılçün, Qabilçün, Fikrətçün, Əlibalayçün, Oqtayçün və hələ neçəsiyçün darıxmışdım. Unudulduğumu zənn edirdim. Belə deyilmiş. Sən demə, böyük Sabirin poeziya günlərində də məni yada salan olub. Sən demə, təzə kitabları çapdan çıxan dostlarım məni unutmayıb, mənə öz kitablarını bağışlayıblar. Onlardan biri Əzizə Əhmədovadır. Onun "Köz kürəsi hörümçəklər ölkəsində" kitabı yaxınlarda nəşr olunub.

Bir-birimizi oxumağı yadırğamışıq. Ciddi, kəskin olduğu qədər də obyektiv tənqiddən də məhrumuq. Bəlkə, elə buna görə də hər şeyi unutmamağa çalışdım, kitabı su kimi içdim və bir neçə kəlmə dost sözü, məni düşündürən, ürəyimə yatan şeyləri hörmətli oxucularımla bölüşmək istədim.

Əvvəlcə onu deyim: Şadam ki, yazıçı bacım Əzizə Əhmədovanın ilk kitabı "Xınalı qayalar"a da dost sözünü mən yazmışam və o vaxtdan dostluğumuza bir zərrə xələl gəlməyib. Sonra onun "Könül dünyası"na dalmış, "Mavi gözlərin işığı"ndan həzz almışam. Hər uğuruna sevinib sevincimi də oxucularımızla bölüşmüşəm.

Bu əlimdəki kitabını oxuduqca düşünürdüm ki, onun meydana gəlməsi təsadüfi deyil. Axı Əzizə Əhmədova yaradıcılığında ilk dəfə "ağzını açanda" "Xınalı qayalar"da uşaqlara müraciət edib. Və elə "Mavi gözlərin işığı"nacan Əzizə Əhmədovanı uşaqların sevimli yazıçısı kimi qəbul etmişəm. Çünki o, uzun illər məhz "Gənclik" nəşriyyatına rəhbərlik edib, uşaqlarçün kitablar çap edib, uşaqlar üçün yeni-yeni əsərlər yaranmasına və nəşrinə çalışıb, uşaqlar üçün dünya ədəbiyyatının ən gözəl nümunələrini tərcümə edib (C.M.Barri – "Piter və Vendi", A.A.Miln – Vinni Pux və hamı, hamı, hamı", A.Rıbakov – "Atəş", V.Hauf – "Balaca Muk", A.Qaydar – "Məktəb", "Təbilçinin taleyi", İ.Franko – "Balaca Miron" və b.).

Sonra da 21 avqust 1985-ci ildə "Azərbaycan müəllimi" qəzetində "Balacalar üçün" adlı məqaləmdə yazdığım kimi, uşaq nəsrimizə ilk dəfə irihəcmli əsər-roman yazıb. Məşhur İsveç yazıçısı Astrid Lindqrenin "Balaca və Karlson"unu balalarımıza tərcümə vasitəsilə çatdırmaqla kifayətlənməyib. Cippolino, Buratino, Cırtdan, Karlson və b. kimi uşaqlar arasında sevilən obrazlar silsiləsini Damdabaca surətilə də zənginləşdirib. "Damda yaşayan Karlsonla bacada yaşayan Damdabacanın macəraları" kitabı yazıçı Əzizə Əhmədovanın ədəbi uğuru oldu. Təəssüf ki, o zaman tənqidçilərimiz və kino sənətkarlarımız Damdabaca surətinin yanından ötüb keçdilər; sonrakı illərdə də başımıza gətirilən bəlalar əsərin diqqət mərkəzindən uzaq qalmasına səbəb oldu. Amma Əzizə Əhmədova öz ədəbi kəşfini yeni kitabla zənginləşdirdi və nəticədə, "Köz kürəsi hörümçəklər ölkəsində" və "Acgöz quldurlar" əsərləri meydana gəldi. Əvvəlcə onu deyim ki, elə o zaman Damdabaca surəti bu kitabın yazılmasını tələb edirdi. Uşaqlar bilməliydi ki, bu Damdabaca kimdir? O haradan uçub gəlib? İndi məlum olur ki, bu gün görüşə gələn bu yeni kitabda Damdabaca ilə bağlı daha iki əsər verilib. Əgər bu üç əsəri, yəni artıq çapdan çıxmış kitabı və indi nəşr edilən iki yeni əsəri oxumaq növbəsinə sıralamış olsaq, onda "Köz kürəsi hörümçəklər ölkəsində" birinci, "Damda yaşayan Karlsonla bacada yaşayan Damdabacanın macəraları"

[42] Cəfərzadə Ə.M. / "Uşaq nəsrimizdə ilk trilogiya" / "Ədəbiyyat qəzeti" / 1998, 9 iyul / səh. 4

ikinci, "Acgöz quldurlar" üçüncüdür (kitabın əvvəlindəki müəllif sözündən). Deməli, ədəbiyyatımızda ilk dəfə olaraq uşaqlar üçün trilogiya yaranıb. Bu trilogiyada müəllif uşaqların anlayışına, ruhuna uyğun obrazlar, hadisələr, macəralar, yeni çağdaş məzmunlu nağıllar, vətənimizin başqa-başqa dilbər guşələri, zəngin, rəngarəng təbiətiylə bağlı hekayətlər yaradıb. Onları şirin, yumorlu bir dillə, əlvan türkcəmizin atalar sözləri, tapmaca, nağıl, düzgü, yanıltmac və sairələrilə bağlı təsvir edir. Həm də bu dil folklorumuzla sıx bağlıdır, zərifdir, axıcıdır, surətlərin səciyyəsinə uyğun olaraq müxtəlifdir. Nağıl içində nağıl söyləmək, hər nağıl-hekayətdən bir tərbiyəvi nəticə çıxarmaq uşaqlar üçün yazılan əksər poeziya və nəsr nümunələrimizə xas olan xüsusiyyətdir; Əzizə xanım bu ənənəmizdən kənarda qalmayıb.

Kitabda od parçasına – uşaqlara sadə söhbətlərdə bilik verilir. Həm də bu ciddi bilikləri verəndə uşaq anlayışına yaxın və aydın olmaqçün nasir yenə də folklora, nağıl personajlarımıza müraciət edir (Ağ qoç, Qara qoç və b.), Bəzi nağıllarda müasir elm canlandırılır; uşaq təfəkkürünə uyğun canlılıqla, bir az da yumorla verilir. Surətlər: Təkcə elə qırx bir mağarada yaşayan hər hörümçəyin səciyyəsi uşağı gopçu, huşsuz, qorxaq, xəbərçi, paxıl, lovğa, yaltaq, qarınqulu, pinti və başqa pis xislətlərdən çəkindirir; onları didaktik moizələrlə deyil, canlı səhnəciklərlə xeyirxah, təmizkar, doğruçu, zəhmətkeş və s. olmağa çağırır. Bu onun hələ "Xınalı qayalar"dan başladığı mövzudur: Uşaqları yaxşılığa dəvət üçün, gözəl xislətli xarakterlər tərbiyə etmək üçün onlara məhz tərbiyəvi nəticə çıxan hekayətlər danışmaq, onları təbiətin möcüzələrilə tanış etmək (bitki və heyvanat aləmi, hətta yağışın zivəyə düzülmüş şehəbənzər damlalarıyla), cəmiyyətdə insan əlilə yaranmış əvəzsiz, misilsiz abidələrlə qarşılaşdırıb, məhz bu gözəllikləri (şəhərləri, qalaları və s.) yaradan ata və babalara layiq böyümək...



Müəllif kitabın üz qabığında öz məktəbli oxucularına müraciətlə yazır: "Əziz məktəbli dostum! Çox ola bilər ki, sən bu kitabı oxuyarkən oradakı bəzi tarixi həqiqətlərin, bəzi vacib həyati məsələlərin mənasını kiçik olduğun üçün o qədər də dərk etməyəsən. Ancaq narahat olma! Əminəm ki, vaxt keçəcək, böyüyəcəksən, kitabda yadında qalan, bir vaxtlar mənasını dərk etməkdə çətinlik çəkdiyin həmin məsələləri xatırlayıb düşünəcəksən, qəlbindəki xalq sevgisi, yurd məhəbbəti bir qədər də güclənəcək. Mənim isə arzum budur!" Budur yazıçının məqsədi!

Ürək ağrısı, təəssüf hissiylə deməliyəm ki, bu maraqlı uşaq yazıçısının – uşaq nəsrimizdə mühüm iş görmüş Əzizə Əhmədovanın əsərlərini münəqqidlərimiz ya görüb oxumayıb, ya da... Nə deyim, vallah, mənə elə gəlir ki, münəqqid ər kişilərimiz qadın yazıçılarımızın yanından sükunətlə keçirlər. Nə üçün? Zəifsə, zəifini, qüsurlarını deyin, ya da... ya da doğru qiymətini verin. Bundan ötəri xüsusi "qadın yazıçılarçün qadın tənqidçilər qrupu" yaratmaqmı lazımdır?

Mətləbdən uzaq düşüb yaradıcılıqla məşğul olan bacılarımın gileyini sözarası söylədim. Doğrusu, elə mətləbim də mütəxəssislərin: tənqidçi və uşaq ədəbiyyatı haqda yazanların diqqətini Əzizə Əhmədovanın trilogiyasına cəlb etməkdi. Mənsə...

Mənsə adaşıma, yazıçı bacım və dostuma yaradıcılığının bu məhsuldar dövründə yeni-yeni əsərlər yazmasını arzulayıram. Bu, həm onun özü, həm də gənc nəslə məxsus ədəbiyyatımızın zənginləşməsi baxımından çox lazımdır. Başqa fikir və düşüncələrimi özünə söyləmişəm. Bacım, uğurlar diləyirəm sənə!

**Bakı, 9 iyul 1998**

# Təbiətə və insana qayğıkeş yazıçı (Ənvər Yusifoğlu)[43]

Ənvər Yusifoğlunun insana, təbiətə böyük məhəbbət və qayğı dolu "Cərrahlar", "Düşmənimin düşməni" romanlarını oxuyandan sonra müasirlərimizin bitkin surətini yarada bilən qocaman ədibimizə qibtə edirdim. Kiçik hekayə və povestləri, demək olar ki, xatirimdə az qalmışdı. Çünki adını çəkdiyim romanlarında günün elə aktual məsələlərinə toxunurdu ki, oxuculardan ətraf mühiti, insan qəlbini qorumaq, ona qayğı ilə, məhəbbətlə yanaşmaq tələb edən ədib özü də təbiətin və insanın vurğunu kimi nəzərimdə yüksəlirdi.

1976-cı ildə Ənvər Yusifoğlunun "Gənclik illərinə səyahət" adlı kitabı çapdan çıxıb. Kitaba ədibin müxtəlif illərdə nəşr olunmuş üç povesti ("Gənclik illərinə səyahət", "Alazan sahillərində", "Dağlarda tonqal") və iki hekayəsi ("Xamlamış cığırlar", "Gecə qardaşları") daxildir. Rəssam Q.Süleymanov kitabın cildinə qəribə, deyərdim ki, Ə.Yusifoğlunun bütün yaradıcılığına xas ola bilən şəkil çəkib. Qabarlı bir əl yaşıl yarpaqlar üzərində çırpınan titrək, zərif quşcuğazı barmaqlarından qalxan hərarətlə isindirir, qoruyur. Kitabın özündən əvvəl üz qabığındakı şəkildən söz açmağımız əbəs deyil. Çünki bundan əvvəlki romanlarında da, ("Düşmənimin düşməni" və s.) oxuduğumuz digər hekayə və povestlərində də Ənvər Yusifoğlunun, demək olar ki, bir əsas mövzusu var: Qayğı! Təbiətə qayğı, insana qayğı. Ənvər Yusifoğlunun əsərlərindəki bu təbiətə qayğı məsələsini rəssam yaxşı duyub. İnsan əli təbiəti məhv etməməlidir, qorumalıdır – deyən Ənvər Yusifoğlunun yü-

[43] Cəfərzadə Ə.M. / "Gözəllik qayğı sevir" / "Azərbaycan" jurnalı / 1977 / №4 / səh. 200-202
"Ənvər Yusifoğlu haqqında" (01.04.1977) / Əzizə Cəfərzadənin Ev Arxivi, Fond "T" / Qovluq №16 / Sənəd №3 / vərəq – 12



rütdüyü ideyanı əks etdirməyə çalışıb. Və mənə elə gəlir ki, kitabın üz qabığı onun qapısıdır, oxucu bu qapıya yanaşıb onu açmaq istədikdə ilkin tanışlığı, oxudan əvvəlki əhvali-ruhiyyəsi də buradan başlayır.

Ənvər Yusifoğlu yaradıcılığının mayası insana məhəbbət və təbiətə məftunluqdan yoğrulub. Təsadüfi deyil ki, kitabın əvvəlində və axırında gedən əsərlərin hər ikisində məhz bu mövzu işlənib. "Gənclik illərinə səyahət"də insana məhəbbət və qayğı məsələsi tanınmış inqilabçı, Lenin partiyasının sədaqətli oğlu Ruhulla Axundov və Nüsrətin simasında inqilabi vüsətlə verilir, burada Azərbaycan zəhmətkeşlərini ayıltmaq, onları (xüsusilə, ən məzlum kütlə olan hambalları) inqilabın uğurlarından bəhrələndirmək, gözlərini açmaq, işıqlı aləmə çıxarmaq məqsədi güdür. Oxucu bir parça çörək avarası olub vətənindən, diyarından, arvad-uşağından ayrı düşmüş binəsiblərin ağ günə çıxması üçün fədakarlıqla can qoyan Lenin əsgərlərini görür, onların fədakarlığından örnək götürür, məhz belə insan olmağa can atır. Ruhulla kimi, Nüsrət kimi! Kitabın sonundakı "Gecə qardaşları" hekayəsində isə kiçik səhv (səhvdirmi hələ?) üçün oğlundan, qızından üz döndərən, xırdaca nəvəsinin uzatdığı çiçəkləri rədd edib gözü yaşlı qaytaran, öz aspirin günləri ilə yalnız şəxsi dincliyini, səhhətini qorumağı dünyada hər şeydən üstün tutan, "Canınıza baxın, canınıza! Bu dünyada oğul, dərdi, qız dərdi, nə bilim, nəvə dərdi çəkmək havayı şeydir" – deyən Sadıq həkimin – ziyalı bir adamın hərəkətlərindən iyrənir, nifrət edir və yenə də bu nəticəyə gəlir ki, insana qayğı sözün əsl mənasında insanı xoşbəxt edə bilər və edir də. Belə qarıngüdənlər isə təkliyə-tənhalığa məruzdur, yalquzaq həyatı keçirirlər, fərəhsizdirlər, hamı onlardan üz döndərir və onlar da elə buna layiqdirlər.

"... Kimə isə təmənnasız, əvəzsiz yaxşılıq edib, əvəzində heç bir mükafat almayan" insanlar Ənvər Yusifoğlunun məhəbbətlə təsvir etdiyi Ruhulla, Nüsrət ("Gənclik illərinə səyahət"), Nuru ("Dağlarda tonqal"), Qadın ("Xamlamış

cığırlar") surətləridir. Bu adamlar yeni bir aləmin, bəxtiyar kommunizm dünyasının qələbəsi uğrunda öz böyüklü-kiçikli işlərini görür, yeni insan xarakterinin gözlərimizin önündə necə yaranıb inkişaf etdiyini, hansı prosesləri keçdiyini canlandırırlar.

Ənvər Yusifoğlunun ən böyük qayğılarından biri insanı əhatə edən mühitdir. Təbiətin gözəllikləri kimi amansızlıqla qamçılayır. Lüzumsuz yerə ağacdan bircə yarpaq, bircə budaq qoparanlar, şəxsi mənfəəti üçün meşələri qırıb ziyan verənlər, çayların daşmasına ("Alazan sahillərində"), torpaq üzərindəki bitib-tükənməz gözəlliklərin məhv olmasına səbəb olanlar insanların düşmənidir. Ənvər Yusifoğlu bütün yaradıcılığı boyu təbiətə vurğun vətəndaş yazıçı kimi çıxış edir. Təbiət təsvirlərində nasir Ənvər şair Ənvərə çevrilir. Şəlalələrin şaqraq səsi, quşların rəngarəng nəğmələri, bulaqların zümzüməsi, yaşıl don geymiş, başı ağ örpəkli dağlar, zümrüd libaslı meşələr Ənvər Yusifoğlunun qələmində göyqurşağı kimi min bir rəng çalır. Canlanır. "Köhnə arılar beçələrə çiçəklərin, güllərin səmtini, istiqamətini nəğmə ilə, rəqs ilə göstərirdilər. Arıların rəqsinə bülbüllər cəh-cəhləri, torağaylar nəğmələri ilə dəm tuturdu" ("Xamlamış cığırlar"). "Dan yeri meşənin, dağın üstündən yox, uca göylərin lap dibindən sökülürdü. Bağlardan, meşələrdən, qayalardan uçan quşlar alatoran içində qəribə mahnılar oxuyurdu. Bəziləri şikayətlə civildəyir, bəziləri qəhqəhə çəkib gülürdü. Min səsli qəribə bir simfoniya çalınırdı. Qayalardan əsən sərin meh, havanı varaq-varaq edən quş qanadları dağnanəsinin, kəklikotunun, sarıçiçəyin ətrini yayırdı". "Quzu dilinə bənzər narın, yaşıl tikanlı körpə yarpaqların arasındakı qərənfil biçimli çiçəklərdən qovrulmuş badam qoxusu gəlirdi" ("Dağlarda tonqal"). "İydələr çiçəkləyəndə, almalar özək bağlayanda, leyləklər uzaq səfərdən qayıdıb daş armudun, piləli palıdın başında, evlərin damında yuva qurub, bala çıxardanda, leysan daşqınlarına müntəzir sular ağarıb köpüklənəndə, buludlar karvan-karvan olub dağlardan aran



üfüqlərinə tərəf axışanda Qanığa qonaq gəlin!" ("Alazan sahillərində")

Ənvər Yusifoğlu iydə ətriylə dolmuş havanı qanadları ilə vərəq-vərəq edən quşların min bir səsli musiqisinə heyran olmaqla qalmır, oxucunu da bu ecazkar təbiətin gözəlliklərindən zövq almağa çağırır. Başlıcası, bu gözəllikləri qoruyub mühafizə etmək lazım olduğunu yada salır, tələb edir; bir yazıçı, vətəni sevən vətəndaş kimi tələb edir. Bu zaman onun səsində oxucu qoca deyingənin nəsihətlərini deyil, məhz inandırıcı surətlərin vasitəsilə yaratdığı, lövhələrin vasitəsilə təsvir etdiyi yerləri görür, sevir, o da bir vətəndaş kimi, məsələn, elə Salam, Həmzə kişi, Arçil, Şalva ("Alazan sahillərində"), Qadın ("Xamlamış cığırlar") təki əlinə girəvə düşəndə təbiətin düşmənlərinə qarşı çıxmaq niyyətinə düşür. O da Salam kimi az qala axırıncı ceyranı meşədə kabab edib araqla ötürə-ötürə, "İstəyirəm, Qafqaz cüyürü barədə elmi əsər yazıb, alim olam" – deyən üzdəniraq meşəbəyi Kamran, xalqın sərvətini – meşələri qırıb öz dədə malı kimi xərcləyən meşə "qoruqçusu" Sərvər və başqaları ilə mübarizəyə girişmək istəyir. İstəyir ki, onların əlini meşə qırdıqları balta ilə üzsün, "Bəsdir, meşələrdə bəylik elədiyiniz, bəsdir, Azərbaycanı yaşıllıqlardan məhrum etdiyiniz" – desin. Oxucu da istəyir ki, "Cökəliyin qayğısına qalmaq lazımdır. Lap tezliklə bu məsələni ümumi iclasda danışmaq, bu bal şəhdinin üstünə balta qaldıranların cəzasını vermək lazımdır" – deyənlərin sayı artsın və əməli işə keçsinlər.

Qəribə görünsə də, Ənvər Yusifoğlunun "Gənclik illərinə səyahət" kitabını, "Düşmənimin düşməni" romanını oxuyarkən 1961-ci ildə şahidi olduğum bir hadisə yadıma düşür: O zaman Peredelkindəki yaradıcılıq evimizdə mərhum Korney Çukovskigildə qonaq olmuşam. Yazıçılardan bir çoxu da orada idi və Korney Çukovski Pioner Tonqalına hazırlaşırdı. Kim isə ona zarafatla dedi ki, qoca adamsan, sənə dinclik lazımdır. Qoy tonqalı cavanlar qalasın. K.Çukovski qoca olmadığını pionerlərlə tonqal ətrafında ameri-

ka hindularının ona bağışladığı lələk papağı taxaraq etdiyi rəqsilə sübut elədi. Bu öz yerində, amma az sonra atmacaya verdiyi cavab mənalı, olduqca gərəkli idi. O təxminən belə dedi: "Uşaqlarımıza təbiəti sevdirmək, başlıcası, tanıtmaq lazımdır. Qoy tanısınlar və sevsinlər, onda qayğı ilə yanaşarlar quşa da, cücüyə də... Təəssüf ki, meşələrimizin üstünə tökülən dərmanlar quşları və cücüləri məhv edir. Qorxuram ki, bir neçə ildən sonra uşaqlarımız cücüləri yalnız şəkildə görəcək, onları canlı-canlı görmək səadətindən məhrum olacaqlar".

Təsəvvür edin: Cücüləri canlı görmək səadəti!..

Bax, Ənvər Yusifoğlunun əsərlərini oxuduqca məhz bu məsələnin onu da narahat etdiyini görür, duyursan. Onu narahat edən budur: "Azərbaycanda dağlar döşündə, meşələrdə, dərin yarğanlarda və əlçatmaz, ünyetməz yerlərdə nə qədər maral bulaqları, durna bulaqları hədər axıb gedir. Əvvəllər xalq köçəri idi, ilin yarısını bu bulaqların yanında yaşardı. Bəs indi? İndi vəziyyət dəyişib. Camaat oturaq olub, aranda qalır, bulaqlardan ayrı düşüb, bulaqların suları isə, doğrudan da, marala, durnaya, dağ keçisinə qismət olub. Ya da baxımsız qalıb torpaq basır, tərk olub gedirlər" ("Dağlarda tonqal").

İnsanları təbiətin şəfalı bulaqlarından, ətirli çiçəklərindən, meşələrindən bəhrələndirmək, safa çıxartmaq, xəstəlikləri məhv etmək, həm də bütün bunları elə etmək ki, təbiətə ziyan dəyməsin, onun gözəlliyi birə beş artsın, gələcək nəsillər üçün qorunub saxlansın. Uşaqlarımız quşların, balıqların, çiçəklərin, böcəklərin adını unutmasın, şəklini yalnız kitablarda deyil, həyatın özündə, təbiətin qoynunda görsünlər. Yazıçının qayğısı budur.

Kitabda Alazan-Qanıxçayın hər iki sahilində əsrlərdən bəri qardaş kimi yaşayan, indi də sosializmi quran gürcü və Azərbaycan xalqlarının tarixi, qırılmaz dostluğu maraqlı lövhələrdə, insanların bir-birinə və təbiətə münasibətində verilib. Həmzə ilə Arçilin, Salam ilə Şalvanın dostluğu buna canlı misaldır. Qanıxçayın insan əməyini puç edə



bilən dəhşətli daşqını zamanı hər iki xalqın oğul və qızları birlikdə canlarından keçirlər, hər iki kolxozun ağsaqqalı – sədri daşqının uçurduğu yerə birlikdə bədənlərindən hasar çəkirlər. Maraqlıdır ki, xəyanətə qarşı mübarizədə də hər iki xalqın müsbət insanları oğruya, xəyanətkara qarşı birləşir, heç biri özününkünə güzəştə getmir, üz görmür. Arçilin Mürsəl kişiyə dediyi bu sözlər ədibin beynəlmiləl ideyasını aydınlaşdırır: "Sizdə də, bizdə də bir məsəl var, deyərlər: Su murdarlıq götürməz. Sizdə də, bizdə də meşəni, ağacı qıran, talayan murdar adamlar var, Alazanı bu murdar adamlardan təmizləmək lazımdır. Bax, Salam bu məsələni açıb dedi".

Ənvər Yusifoğlu dilin zənginliklərindən, onun canlı danışıq ifadələrindən, atalar sözləri və məsəllərdən, idiomlardan, adət-ənənələrdən bacarıqla, bol-bol istifadə edərək surətlərin dilini fərdiləşdirir. Bütün bunlar əsərin uğurlu cəhətləridir. Oxucunu da ürəkdən sevindirir.

Ənvər Yusifoğlu nəsrimizin elə təcrübəli nümayəndələrindən biridir ki, çoxlarımızın hekayə, povest və romanlarını birinci dəfə o oxuyub, ilk söz deyib, necə deyərlər nəşrinə xeyir-dua verib. Elə buna görə də onun kitabının redaktəsi ilə əlaqədar bir məsələni demək istərdim. Yaxşı redaktor daşqın çayın məcrasından çıxmaması üçün sinə gərən sədd olmalıdır. İlham coşanda yazıçı bəzən fərqinə vara bilmədiyi xətalara yol verir, kiçik, ya böyük, fərqi nədir ki. Bax, elə bu zaman redaktor onun köməyinə gəlir. Redaktor sənətkarın əsərinə valeh olmamalı, sənətkarın yedəyində getməməli, əsərə candan yanaşmalı, sənətkarın qəlbinə toxunmadan ürək ağrısı ilə onun diqqətini bu və ya digər iri-xırda qüsura cəlb etməlidir, düzəlməyincə yazıçıdan əl çəkməməlidir (Ənvər Yusifoğlu məhz belə redaktor olub). Redaktor, məncə özü qələm işlətmədən sənətkarın diqqətini həm məzmun, həm də dil xətalarına cəlb etməyi bacarmalıdır. Bəzən yazıçı düşünür ki, o, illərlə material toplayıb, aylarla tər töküb, yana-yana yazdığı əsəri meydana qoyub, özü əsər yazmayan redaktor cürət edib ona irad

tutur. Amma axı redaktor həm yazıçının, həm də oxucunun xeyrini nəzərə alır. Xalqın sərvəti olan bədii əsər üçün qayğı göstərir. Yazıçı həmin qayğını minnətdarlıqla qarşılamalı və lazımi təshihləri etməlidir. Yalnız belə qarşılıqlı əlaqə dostluq qüsurlarımızın sayını azaldar.

Ənvər Yusifoğlu bacarıqlı, istedadlı sənətkardır. Onu dünyanın bütün tərəqqipərvər adamlarını düşündürən məsələlər narahat edir və bu məsələlərə riyasız qəlbinin bütün həssas duyğuları ilə cavab verir. Ona bu nəcib işində yeni-yeni uğurlar diləyirik.

**Bakı, aprel 1977**



## Gözəl nasir, satirik, dramaturq (Seyfəddin Dağlı)[44]

Yəqin ki, nasir və dramaturqumuz Seyfəddin Dağlını tanıyırsınız. Və təəccüb elədiniz ki, onun bu gün altmış yaşı tamam olur. Heyrətinizdə haqlısınız. Çünki onu uzun illərdən bəri tanıyan mən özüm də qəzetdə altmış illiyi münasibətilə verilən təbriki görəndə heyrətlənmişdim. Necə, Seyfəddin müəllimin altmış yaşı var? Adətən, bunun dalınca belə cavab gəlir: Heç inanmaq olmur, maşallah, elə cavandır ki, altmış yaş vermək olmaz. Amma burada məhz Seyfəddin müəllimə gələndə tamamilə əksinədir. Mən, onu illərdən bəri tanıyan qələm yoldaşı belə uzun illər Seyfəddinə müəllim demişəm, onu başı qarlı Baba dağı kimi kühənsal[45], bilmişəm. Çünki yaradıcılığından, tutduğu mövqeyindən başqa Seyfəddin müəllim həm də çox ağır, zəngin, ciddi, azərbaycanlı, ər qeyrətli, təmkinli adamdır. Elə buna görə də təəccübləndim ki, sən demə, elə biz – ədəbiyyata təxminən eyni illərdə gəlmiş Süleyman Vəliyev, İshaq İbrahimov, Ələviyyə Babayeva və başqaları yaşıdıymışıq.

Seyfəddin ədəbiyyata otuzuncu illərin axırlarında gəlib. İlk hekayəsi o zamankı "Şərq qadını", indiki ("Azərbaycan qadını") jurnalında çıxıb, adı da "Bəxtəvər". Elə müəllifinə də bəxtəvər, uğurlu yol açıb, uğurlu bir yaradıcılıq yolu.

Həqiqətən də, o yazıçı, o ədib bəxtəvərdir ki, insanların dodaqlarına qeyri-ixtiyari təbəssüm gətirir, onlara gülüş bəxş edir. Bir indicə dedim ki, Seyfəddin Dağlı ciddi, təmkinli adamdır, amma o, "Bəxtəvər"i istisna eləsək, elə ilk yaradıcılıq illərindən ədəbiyyata bir jurnalist kimi, həm də

[44] Seyfəddin Dağlı haqqında TV-də çıxışı (01.09.1981) / Əzizə Cəfərzadənin Ev Arxivi, Fond "P" / Qovluq №8 / Sənəd №12 / vərəq – 8
[45] Kühənsal – yaşlı

yumorlu, satiralı felyetonlar yazan bir jurnalist kimi gəlib. Ciddi olmaq kimi yumorla, satirayla yazmaq da olduqca çətindir. Bu xüsusi istedad tələb eləyən bir janrdır. Az sözlə, xırdaca cizgilərlə böyük bir ictimai bəlanı ifşa edəsən, damğalayasan. Yazarından həm istedad, həm də hünər tələb eləyir. Hünər. Mən deyərdim ki, igidlik tələb eləyir. Axı doğru söz acı olur, bu doğru sözü, bu acı sözü hamı şirin-şirin qəbul eləmir, onun dalında durmaq, onu qəbul eləməyənlərin tənəsinə, qınağına dözmək, hədəsindən çəkinməmək... Baxın, bunlardır satira yazan ədibin mükafatları.

Seyfəddin Dağlı öz felyetonları, satirik hekayələri və komediyaları ilə istəkli oxucu və tamaşaçılarına az təbəssüm bəxş eləməyib, eləcə də özünə cəmiyyətimizdəki yad ünsürlər içərisində az düşmən qazanmayıb. Bəxtəvər taledir. Həsəd aparmalı taledir: Cəmiyyətin saf qismi dostun, pərəstişkarın, cəmiyyətin düşmənləri düşmənin olsun.

Seyfəddin Dağlının ilk əmək fəaliyyəti "Kommunist" qəzeti ilə bağlı olub, burada o, çitets[46] deyilən sənətdən başlayıb, şöbə müdirinə, məsul katibə kimi yüksəlib. Buradan da o, vaxtilə dediyimiz kimi, "Qızıl ordu"ya – "Sovet ordusuna" gedib. Böyük Vətən müharibəsi illərində İranda çıxan "Vətən yolunda" qəzetində fəaliyyətə başlayıb. Elə mən deyərdim ki, İran xalqlarının o zamankı şah rejimi dövründə ağır həyatı Seyfəddin Dağlının bir sıra gözəl satirik hekayələrinin məzmununu təşkil elədiyi kimi onun bu janrı öz yaradıcılığında inkişaf etdirməsinə də səbəb olub.

Əgər birinci kitabı 1948-ci ildə çap olunan "Hekayələr" ona elə bir sevinc gətirməmişdisə, xarici ölkə zəhmətkeşlərinin həyatından bəhs edən və 1950-ci ildə çap olunmuş "Məşəl" kitabı öz mövzusunun aktuallığı, məzmunu, xüsusilə, candan yazılması ilə müəllifinə şöhrət və geniş oxucu kütlələrinin məhəbbətini qazandırdı.

---

[46] Çitets – qiraətçi, oxucu (rusca)



1941-ci ildə orduya çağırılan Vətənin dağı Seyfəddin oğlu yalnız 1956-cı ildə ordudan tərxis olunub dinc əmək cəbhəsinə qayıtdı. Amma Seyfəddin Dağlı – felyetonçu, satirik komedioqraf, yazıçı üçün sakitlik nə gəzirdi? Elə indinin özündə də yəni ordudan tərxis olunandan sonra da sözün əsl mənasında silahla qoruduğu cəmiyyətimizi düşmən ünsürlərdən qələmi ilə təmizləməyə girişdi. Bir müddət Azərbaycan Radio və Televiziya İdarəsində müxtəlif məsul vəzifələrdə çalışdı, amma xalq arasında deyiblər: Niyyətin hara, mənzilin ora. Baxın xalqın, partiyanın, cəmiyyətin həmişə mübarizə apardığı, partiyanın mübarizəyə səslədiyi cəbhə, satira cəbhəsi o zamankı "Kirpi" jurnalına Seyfəddin Dağlını aparıb çıxardı. Seyfəddin vəzifədən vəzifəyə qaçan adam deyil, o "Kirpi"də də 17-18 il fasiləsiz redaktor işlədi. "Kirpi"də gedən bir sıra çox ciddi ifşaçı əsərlərin müəllifi onun döyüşkən redaktoru Seyfəddin Dağlı idi.

Beləliklə, bu il altmış yaşını, ədəbi fəaliyyətinin qırx ilini qeyd etdiyimiz Seyfəddin Dağlı indi iyirmidən ziyadə kitabın müəllifidir. Bunların içərisində gözəl felyeton, satirik və yumor dolu hekayələr, roman-felyeton və s. toplanıb. "Sabiqlər", "Vergülağa və Absatəli", "Göyçək oğlan", "Kəcil qapısı", "Yaylaq qayğıları", "Aldada bilməzsən", "İpək gül", "Bahar oğlu" və başqalarını göstərmək olar.

Qeyd etməliyəm ki, Seyfəddin Dağlı təkcə nasir, gözəl satirik hekayələr müəllifi olmaqla qalmır, o həm də dramaturqdur. Bizə sevinc, təbəssüm bağışlayan "Adı sənin, dadı mənim", "Mənziliniz mübarək", "Kölgələr pıçıldaşır" və başqaları. Onu da deyim ki, Seyfəddin Dağlının məhz həmin bu adını çəkdiyim üç komediyası SSRİ Mədəniyyət Nazirliyi tərəfindən bəyənilib, təbliğat şöbəsinə qəbul olunub ki, ittifaqın müxtəlif teatrlarında tərcümə edilib tamaşaya qoyulsun.

Seyfəddin Dağlı təkcə satirikdirmi? Əlbəttə, yox. Onun çox ciddi mövzulara, həm də böyük həvəslə, uğurla müraciət etdiyini bilirik. Böyük Vətən müharibəsi mövzusu,

xarici ölkə əməkçilərinin həyatının inikası məhz buraya aiddir. Elə Vətən müharibəsi illərində yazdığı "İmtahan qəbul edin, müəllim!", "Qorxaq", "Ay nənə", "Ay Mamed" kimi hekayələrini, məncə, oxucular indi də unutmayıb. Burada ana məhəbbəti, azərbaycanlı döyüşçü – zarafatçıl Məmmədin Bakıdan Berlinə qədər keçdiyi döyüş yolu çox canlı təsvir olunub. Xüsusilə, hitlerizmə qarşı yazdığı "Üç ailə" öz kəskin ictimai əhəmiyyəti ilə diqqəti cəlb edib.

Seyfəddin Dağlının mövzularından danışanda burada əsas etibarilə iki nöqtəyə toxunmağı lazım bilirəm. Bunlardan birincisi, əlbəttə, televisiyada tamaşa etdiyimiz səhnələşdirilmiş satirik hekayələrdir. Bu zaman Seyfəddin Dağlı partiyanın sədaqətli oğlu və əsgəri kimi xalqın qanına, canına, inkişafına ziyan vuran antipodlara, cəmiyyətə yad ünsürlərə, müxtəlif cildə girmiş əliəyrilərə, rüşvətxorlara, süründürməçilərə, modabazlara, ərizəbazlara, imzasız məktub yazan və sovet idarələrinin başını yersiz yoxlamalara qatıb, yaxşı, namuslu adamları ləkələməyə çalışanlara qarşı amansızlıqla çıxış edir. Seyfəddin Dağlının qələmi kəskin, dili amansız, nifrəti ölçüsüzdür. Çünki o paklıq adından, təmiz, namuslu insanlar adından çıxış edir, çünki o, indinin özündə də Vətəni, cəmiyyəti yad ünsürlərdən qoruyan əsgərdir. on beş-on altı il cəbhədə, ömrü uzunu, bütün yaradıcılığı boyu qələmi ilə bu cəbhədə çarpışan əsgərdir.

Seyfəddin Dağlının ikinci əsas mövzusu İran xalqının şah rejimi illərində taleyi, acınacaqlı günləri və bu şah rejiminə qarşı apardığı azadlıq mübarizəsinin inikasıdır. Bu mövzuya da Seyfəddin Dağlı bütün yaradıcılığı boyu tez-tez və deyərdim ki, ardıcıl olaraq müraciət edib. Onun qələmindən çıxan və Cənubi Azərbaycan qadınının şah rejimi illərindəki acınacaqlı taleyindən bəhs edən "Keçil qapısı" romanı bədbəxt küşvərlərin həyat adlanan sürünməyə məhkum edilmiş bəd taleyindən danışır.

Bu il "Yazıçı" nəşriyyatı ədibin "Bir kolleksiyanın axırı" romanını çapdan buraxır. Həmin mövzuya həsr olunub. Elə indinin özündə Seyfəddin Dağlı xarici fəhlələrin, zəhmətkeşlərin taleyindən bəhs edən, İran xalqlarının şah istibdadı əleyhinə, qərbin, xüsusilə, Amerika Birləşmiş Ştatlarının Şərq ölkələrinin daxili işlərinə müdaxiləsi mövzusunda satirik pyes üzərində çalışır. Vacib, aktual mövzudur və mən də sizinlə birlikdə inanıram ki, Seyfəddin Dağlı həmin mövzunun öhdəsindən bacarıqla gələcək. Çünki mövzu da, xarici ölkə əməkçilərinin mübarizəsi də ədibin qəlbindən keçən ən maraqlı hisslərə toxunur.

Bəlkə, elə buna görədir, yəni həmişə ən aktual mövzulara toxunduğu üçündür ki, Seyfəddin Dağlının əsərləri rus və SSRİ xalqlarının dillərinə həvəslə tərcümə olunur. Onun rus dilində "Дама с музыкой", "Два килограмма кислорода", "Satirik hekayələr", "Карйера Ногталарова" "По собственному желанию" kitabı "Советски писатель" nəşriyyatı tərəfindən, həmçinin "Библиотека Крокадила"da yumoristik hekayələri nəşr olunub. Eyni zamanda Yerevanda ermənicə satirik hekayələr kitabı çap edilub.

SSRİ xalqlarının, demək olar, elə bir dili yoxdur ki, Seyfəddin Dağlının bu və ya başqa yumorlu satirik hekayəsi həmin dilə tərcümə olunmasın. Bundan başqa dünya gülüş mərkəzi Qabrovo – Bolqariya ədibimizin yumorlu hekayələrini bolqarcaya tərcümə edib, eləcə də müxtəlif hekayələri ərəbcəyə, fransızcaya, farscaya tərcümə olunub.

Bütün bunların bir əsas səbəbi var. Şöhrət nahaq gəlmir və Seyfəddin Dağlı boş bir yerdə öz-özünə göyərmiş çiçək deyil. Seyfəddin Dağlı öz sələflərini böyük məhəbbətlə izləyən, onlardan həmişə və minnətdarlıq hissilə öyrənən ədibdir. O, böyük satira ustalarımızdan Cəlil Məmmədquluzadəni, Sabiri dərin məhəbbət hissilə davam etdirir. Təkcə bir misal – Cəlil Məmmədquluzadənin "Bəlkə də, qaytardılar" hekayəsi yadınızdadırmı? Orada sabiq, yəni keçmiş kapitalistlər inqilabın ilk illərində Sovet – şura hökumətinin çox davam eləməyəcəyini, yenə də əski mövqelərinin geri qayıdacağını xəyallanaraq bu ümidlə yaşayırlar. Sey-

fəddin Dağlının "Sabiqlər"i kimlərdir? Keçmiş nazir, keçmiş rəis və keçmiş müdir. Seyfəddin yazır: "Nazir yoldaş ona görə sabiq olub ki, tabeçiliyindəki işçilərlə qaba rəftar edib, tənqidi boğub, aşağıdan deyilənlərə qulaq asmayıb, yuxarıdan isə özü ağıllı-başlı bir söz deyə bilməyib. Rəis yoldaş öz üzərində işləmədiyi, həyatdan geri qaldığı üçün sabiq olub. Müdir yoldaşı isə dövlət malına pis nəzərlə baxması sabiq eləyib". Bax, bu sabiqlər də elə bilirlər ki, onlarsız idarələrdə iş getməyəcək, əvəzedilməzdirlər və gec-tez onları geri qaytaracaqlar. Mirzə Cəlil ənənəsindən ən gözəl istifadə nümunəsidir. Seyfəddin Dağlının əsərlərindəki şirin dilindən, öz eybəcər müştərilərinə tapdığı ifşaedici, sərrast adlardan, yaradıcılığının başqa gözəl cəhətlərindən bu yazımda geniş danışa bilmirəm. Əsərlərini oxuyub və tamaşa etdikcə bunları mənsiz də görürsünüz. Burada əziz gündə yazıçı yoldaş, qələm dostu haqqında bir neçə dost sözü deyirəm və dost dedim yadıma bir məsəl düşdü. Deyirlər, "dostunu göstər, deyim, sən özün kimsən". Seyfəddin Dağlı gözəl dostdur. Onun dostlarından tək birinin, sizə çox yaxşı tanış olan Əməkdar incəsənət xadimi, rəssam, xalqın çox sevdiyi rəssam Nəcəfqulunun adını çəkmək istəyirəm. Xalqa yad ünsürlərə qarşı amansızlıq bu iki sənətkarı bir-birinə elə candan, elə möhkəm bağlayıb ki, onları bir-birindən ayrı danışmaq, bəlkə də, çətindir. Seyfəddindən "Dostların kimdir?" soruşsalar, məncə, birinci Nəcəfqulunun adını çəkər. Çünki Nəcəfqulu da öz yaradıcılığında Cəlil Məmmədquluzadənin, Sabirin, əziz Xalq rəssamımız Əzim Əzimzadənin pərəstişkarı, davamçısıdır. Seyfəddinlə Nəcəfqulu uzun illər "Kirpi"də əməkdaşlıq etdikləri kimi yaradıcılıqda və həyatda, ailədə də dostdurlar. Seyfəddin həmişə Nəcəfqulunun "Kirpi"nin "Molla Nəsrəddin" ənənələrini orada gedən rəsmlərdə davam etdirməsinə, Sabir "Hophopnamə"sinə çəkdiyi illüstrasiyalara yüksək qiymət verir. Elə biz də sizinlə, məncə, o fikirdəyik.

Seyfəddin Dağlının "Bahar oğlu" əsərindən yazmağı qəsdən axıra saxladım. Çünki Seyfəddin onu bizim hamımıza olduğundan daha əziz insanın həyatına – ölməz ədibimiz Cəfər Cabbarlının həyatına həsr edib. Nə üçün hamımızdan? Çünki Seyfəddinə ölməz Cəfəri görmək, onun kürəkəni olmaq, onun Sonasına ana demək, onun qızı Gülarəyə ömür yoldaşı olmaq səadəti nəsib olub. Cəfərin nəvələri Seyfəddinin övladlarıdır. Cəfərin həyatını xüsusi məhəbbətlə həm nəsrlə, həm səhnədə canlandırıb. Elə buna görə də dostu Nəcəfqulu altmış illiyində ona məhz Cəfərin portretini hədiyyə verib.

Gözəl satirikimizə, bizə təbəssümlü dəqiqələr bəxş edən komedioqrafımıza – Seyfəddinimizə möhkəm cansağlığı, iti göz, həmişə qanadlı ilham arzulayım. Yaradıcı ömrü uzun olsun, axı onun və cəmiyyətimizin düşmənləri hələ təmizlənməyib. Axı elə bir neçə gün əvvəl əzizimiz Heydər Əliyev otuz ton qarpızı çölə tullayıb gedən əliəyrilərdən danışanda yadıma Seyfəddin Dağlı düşdü. Onun müştərisidir Heydər Əliyevin dediyi, partiyanın mübarizəyə dəvət etdiyi səhnə.

Uğur olsun, Seyfəddin müəllim, yaşıdım olduğunu indi bilmişəmsə də, elə adətimcə yenə "müəllim" deyirəm.

**Avqust 1981**

## Qonşumuz
## (Ənvər Əlibəyli)[47]

Ənvər Əlibəyli ilə qonşu idik. "1930-cu ildən köçdüyümüz Yuxarı dağlıq (İndiki Abdulla Şaiq) küçəsində, bizim əvvəl 80 №-li, sonralar 82 №-li evdən azacıq aralı dalanda öz şəxsi evlərində olurdular. Dalanın lap dibində ikimərtəbəli ev idi. Darısqal həyətlərinin bir küncündə sonradan bir mərtəbə otaq da tikmişdilər. Nəmiş idi. Ənvər Şövkət xanımla evlənəndən sonra burada yaşayırdılar. İki qardaş, bir bacı idilər. Ənvər və Ədhəm (Hətəm) qara, bir az da çopur, əvəzində bacıları Sima alyanaq, olduqca gözəl, məhəlləmizin ən mütənasib, yaraşıqlı qızıydı. Ənvər gəncliyində məhəlləmizdə ötkəmliyi ilə seçilirdi. Onun qorxusundan məhəllənin avaraları qızlara sataşa bilməzdilər.

**Fevral 1986**

[47] "Ənvər Əlibəyli" (01.02.1986) / Əzizə Cəfərzadənin Ev Arxivi, Fond "P" / Qovluq №21 / Sənəd №27 / vərəq – 1



## Ürək möhlət verəydi
## (Məmməd Aslan)[48]

Dost şair haqqında yazmaq xoş olduğu qədər də çətindir. Xoşdur, çünki sən bu şairi sevirsən, hər şeirindəki uğuru, qələbəni öz qələbən, öz uğurun sayırsan. Necə deyərlər, hər sözündə qüsur tapmır, yalnız aydınlıq, işartı axtarırsan. Gördüyün qüsur isə ürəyini ağrıdır, sanki bu kəm-kəsirlərdən sənə də pay düşür.

Bax, bugünkü poeziyamızın bir neçə nümayəndəsinin əsərlərini, şeiriyyəti fəth edən hər misrasını və yaxud ən xırda qüsurunu qəlbimlə duyub, qəlbimlə qəbul edirəm – özümünkü kimi. Məndən xeyli gənc olmasına baxmayaraq hələ özünü tanımayıb ilk şeirlərini mətbuatda oxuyan gündən şair Məmməd Aslanı müdrik ağsaqqal hesab etmişəm. Elin xırdaca-xırdaca, incə-incə, dərin-müdrik kəlamlarını, şirin-şəkər bayatılarını, müdrik atalar sözlərini, məsəllərini, tapmaca və yanıltmaclarını özündə toplamış, onları qanına hopdurmuş, qəlbinə həkk etmiş şair-ağsaqqal. Mənə elə gəlir ki, babalarımızın elə kəlamı yoxdur ki, Məmməd yaranma tarixinə, şərhinə aid əfsanə, yaxud hekayət nəql etməsin. Yəqin, elə bütün bunların nəticəsidir ki, M.Aslanın "Ürək möhlət verəydi" kitabındakı ("Yazıçı", 1981) şeirlər müdrik bir şairin və ağsaqqalın söylədiyi nağıllar, əfsanələr, nəsihətlər, gözəlləmələr kimi rahat oxunur, şirin dinlənir, asan yadda qalır. Bunu kitabın ilk səhifələrindəki "Krım gəraylısı" şeirində görmək olur:

*Sinəsi nər, qayası nər,*
*Başdan-başa nərdi bu yer.*
*Gecə gümüş məcməili –*
*Ay bədr olan yerdi bu yer...*

[48] Cəfərzadə Ə.M. / "Ürək möhlət verəydi" / "Bakı" qəzeti / 1982, 1 iyun / səh. 3 "Ürək möhlət verəydi" (Məmməd Aslan haqqında) (16.01.1978) / Əzizə Cəfərzadənin Ev Arxivi, Fond "P" / Qovluq №8 / Sənəd №19 / vərəq – 9

Bu, nağıldımı, əfsanə başlanğıcıdımı? Bəli, nağıldı, əfsanə başlanğıcıdı! Amma başlanğıcdan gündəlik həyatımızla, tariximizlə, gəncliyin tərbiyəsi ilə bağlıdır.

Məmmədin bütün şeirlərindən ana xətt kimi keçən mövzu var: Vətən məhəbbəti. Krımda müalicədə olan şair dənizdə "Azərbaycan" gəmisini görür, Vətən həsrəti onu kövrəldir. Şair üzünü gəmiyə tutub deyir: "Bu gün nə gözəl gündü, acəb çıxdın uğruma, əyil bir az sahilə, səni basım bağrıma" ("Azərbaycan" - Qara dənizdə).

Vətən məhəbbəti Məmmədin "Qaragöldə görüş" adlı gözəl qoşmasında - mənzum məktubunda da öz bədii ifadəsini tapıb:

*Kövrələn biz, "Vətən!" deyə ötən biz,*
*Vətən mənəm, Vətən sənsən, Vətən biz!*
*Vətənsizlər necə dözür Vətənsiz?! –*
*Tənha ağac çəkər düzdə, Şəkərim!*

Çox sərrast deyilən bu parçada Vətənin qədr-qiyməti görünməklə yanaşı "vətənsizlər"ə də tutarlı cavab verilib. Hələ burada qəribə heyrət də var: Şair ucsuz-bucaqsız Vətənimizdə bir neçə günlüyə belə Vətənsiz yaşaya bilmir, hətta bunu heç təsəvvürünə gətirmir, bəs "vətənsizlər"...

Bu qürur və vətəndaşlıq hissi M.Aslanın tarixi simalarımızla qarşılaşdığı, onlara şeirlər qoşduğu anlarda da özünü büruzə verir. Şair üçün tarix bu gündür, tarix, tarixi şəxsiyyətlər yoxsa, deməli, bu gün də yox dərəcəsindədir. Bu dürüst həqiqəti müəllif Nəsimi haqqında, Füzulinin didərgin düşmüş məzarı barədə və başqa bu qəbildən olan şeirlərində də tərənnüm edir.

İraqda Füzulinin qəbrinin yerlə-yeksan edilməsi ilə bağlı yazılmış "Yuxusu dağılmış məzar" şeirindəki yanğını, qəm-kədəri elə-belə, adi sözlə ifadə etmək çox çətindir. Şair şeirimizin sərkərdəsi Füzuli üçün "sinəsini yarıb orada rahat yer" açır və bu hiss bütün azərbaycanlıların, ölməz Füzuli poeziyası pərəstişkarlarının qəlbindən doğan duyğu kimi səslənir:



*İlhamın əlçatmaz qeyrəti – babam,*
*Bu qoca dünyanın heyrəti – babam,*
*Bir ovuc torpağın həsrəti – babam,*
*Hara sığışdıraq bu dağı, söylə?!*

"Zirvədə qalan ömürlər" başlığı altında toplanan şeirlər bədii keyfiyyəti ilə yanaşı dərin ictimai məzmunu ilə də maraqlıdır. Burada bir az qəribə, bir az da faciəli taleyə malik şairlərin adları əbəs seçilməyib. Vətən həsrətli, qürbətdə bir ovuc torpaq həsrətli, məzarı doğma yurddan, el-obadan uzaq düşənlərin taleyi "Sirli cilvə", "Heyrət", "Nazim yanğısı", "Bir az da yaşasaydın...", "Zirvədə qalan ömür" şeirlərində məhəbbətlə qələmə alınıb.



Məmməd Aslan və Əzizə Cəfərzadə

Məmməd Aslanın xalq poeziyasına, ozan incilərinə bağlılığı hər şeirində, misrasında, seçdiyi sözlərin, qafiyələrin, cinasların özündə belə görünsə də, "Dədəm Qorqud gəzən yerlər" silsilə şeirlərində bu ruh, deyərdim ki, daha üstündür. Onların bəzilərində Koroğlu təpəri, Koroğlu cəsarəti var.

"Dədəm Qorqud gəzən yerlər" şeirində olduğu kimi:

*Burda itməz haray, havar:*
*Bu dağlarda obalar var,*
*Obalarda babalar var –*
*Hər biri Qorqud əvəzi.*

Elə bil Koroğlu Çənlibelin zirvəsində durub qıy vurur, dəlilərini səsləyir. "Cığatelli", "Güləbird bayatıları", "Qoşqar haqqı!", "Kəlbəcər", "Dəlidağın övladları" silsiləsi... hamısında yenə doğma elin, obanın, ana Vətənin gözəllikləri, qəhrəmanlıq nümunələri təqdir və tərənnüm edilir. Məmmədin bu şeirlərində istər böyük olsun, ya kiçik, hər birində torpağa, təbiətə əsl övlad məhəbbəti, dağ qüruru, bənövşə ətri var.

Məmməd Aslan yetkin hər misrası ustalaşmış, klassik şeir sərvətimizdən, xalq poeziyamızın xəzinəsindən bəhrələnmiş və artıq öz sözünü özünə məxsus yenilikçiliklə deyən şairdir. O, sözə, dil materialına həm məftundur, həm də bu sözləri qayğı ilə, bacarıqla işlədə bilən şairlərimizdəndir. Məmməd şeirlərində bəzən lap gözlənilməz, çox maraqlı və yerində işlədilən, oxucusunu düşündürən qafiyələr, cinaslar, təşbehlər seçir. "Kəlbəcər", "İztirab", "Qoşqar haqqı!", "Mələk nənə" və başqa şeirlərindəki qafiyələr təzə-tər olduğu qədər də qədim, oynaq və uyarlıdır. Bu sözləri şairin bədii ifadə vasitələri haqqında da demək olar. O, yeri gəldikcə bədii təkrirlərdən, xüsusilə, səslərin sıralanmasından bol-bol istifadə edir. Bu şeirlərin əksəriyyətində gizli musiqi var. Onlara bəstəkar əli toxunsa... mahnıya, nəğməyə çevriləcək. Əsl həqiqətdə Məmmədin şeirlərinin çoxu elə nəğmədir, musiqidir. Şeir kiçik olanda, xüsusilə, lirik şeir daha gözəldir. Onlar həm də yığcamlığı, zahiri kiçikliyində duyğu böyüklüyü ilə seçilirlər. Bu yazılarda ustad şair – ozan-aşıqlarımızdan gələn ahəng, yanğı, təbiilik mövcuddur.

Məmməd Aslan əsl ana dilimizdə olan, indi unudulub lüzumsuz yerə ərəb-fars kəlmələri ilə əvəz edilən sözlərimizi yerində, bacarıqla, anlaşılan şəkildə şeirə qaytara bilir: "Bağrı qəmlər ilə badaş könlümü", "Ər gərək duruş gətirə", "qoruq qaytağ" və s.

Şair dostum Məmməd Aslana onlarla belə poetik axtarışlar, yeni kitablar arzulayıram.

**Bakı, 1 iyun 1986**

## "Tək səbir"lə birlikdə (İsgəndər Etibar)[49]

Yazımı bu sətirlərlə başlamağım təəccüblü görünməsin. Deməsəydilər, "Tək səbir" qəzetinin baş redaktoru, şair İsgəndər Etibarın altmış yaşı haqladığına inanmazdım. O, şairlər yurdu Şamaxıda göz açıb dünyamıza. Mətbuata "Səslər" şeiri ilə səs salıb ilk dəfə 1962-ci ildə "Azərbaycan gəncləri"nin səhifələrində. Əmək fəaliyyətinə elə həmin illərdə, doğma yurdunda nəşr olunan "Yeni Şirvan" qəzetində başlayıb, Bakıya köçəndən sonra "Kənd həyatı", "Kənd əməkçisinin təqvimi" jurnallarında işləyib. 1981-ci ildə Azərbaycan Yazıçılar Birliyinə üzv qəbul olunanda artıq tanınmış şair, "Səslər", "Nəğməli günlər", "Tarla yolu", "Sənə yazılan nəğmələr" kitablarının müəllifiydi. Bundan sonra yeni kitablar gəldi və... İsgəndər Etibar M.Ə.Sabir, C.Məmmədquluzadə ənənələrinin bu gün də davam etdirilməsi üçün zərurət duydu. İsgəndər Etibar bu ənənə üzərində qurdu yaradıcılığını. "Tək səbir"lə birlikdə İsgəndərin də yeni yaradıcılığı, satira və yumor sahəsində olduqca maraqlı yaradıcılığı başlandı. Lirik şair yenidən doğuldu. Bu dəfə M.Ə.Sabir ənənələrinə canı, qanıyla bağlı satirik meydana gəldi. Onun satirik və yumorlu şeirlərində rüşvətxorlar, müasir hampalar, vəzifə düşkünləri ifşa edilir. Onun satiraları maraqlı formaları ilə diqqəti cəlb edir.

[49] Cəfərzadə Ə.M. / "Tək səbirlə birlikdə" / "Liberal press" qəzeti / 1997, 29 yanvar / səh. 4



Misal üçün:

### SOLO

*Görüşlərdə, ekranda biz,*
*Hapa-gopa basanlarıq.*
*Harda varıq gecə-gündüz*
*Pul, vəzifə pusanlarıq.*

### XOR

*Biz vəzifə dəlisiyik,*
*Bu millətin zəlisiyik...*

Bu baxımdan "Qulbeçələr", "Yaltağın monoloqu", "Ay dədə", "Hara gedir bu millət", "Qaçın, qaçın dollar gəlir", "Toxların himni", "Adətimiz qandadır", "Canavar" və başqa şeirlərini müasir satiranın ən yaxşı nümunələri hesab etmək olar. Şairin 1996-cı ildə çap olunmuş "Dəli kimdir bu gün?" kitabında elə satira yoxdur ki, günümüzün zəruri məsələlərinə toxunmasın, yaltaqlığın, rüşvətxorluğun, satqınlığın, müxtəlif haray-həşirlə millətin başını piyləyib dərisini soyanların əsl simasını açmasın.

Təəccüblü deyil ki, "Molla Nəsrəddin"i zəmanə yaratdı" deyimini nəzərdə tutsaq, elə şair İsgəndər Etibarı da, həm də bu şeirlərin dərc olunduğu "Tək səbir"i də zəmanə yaratdığı məlum olacaq.

Oxucular arasında geniş maraq qazanmış bu qəzet hələ ki, öz mövqeyində yeganədir və şair İsgəndər Etibarın müəyyən maddi çətinliklərlə qarşılaşaraq oxucuya çatdırdığı satirik qəzetdir.

Vaxtilə lirik şair kimi tanıdığımız İsgəndər Etibar bu qəzetin səhifələrində rüşvətxorluğu, qorxaqlığı, bir sözlə, hər cür natəmizliyi amansızlıqla və özünəməxsus dil və ifadə tərzi ilə tənqid və ifşa etməyi bacaran sənətkara çev-

rilir, gözümüzün önündə, Mirzə Cəlil, Mirzə Ələkbər Sabir məktəbindən öyrənə-öyrənə, ilhamlana-ilhamlana.

35 il əvvəl "Azərbaycan gəncləri"ndə oxucuya ilk sözünü deyən şair qardaşımıza daha 35-40 il söz deməyə qüdrət, imkan, ilham arzulayıram böyük Allahdan!

**Bakı, 29 yanvar 1997**



# Şirvana bağlı oğul (İsgəndər Etibar)[50]

İsgəndər Etibarı bir şair kimi ilk addımlarından tanıyıram. "Səslər" ilk səsləriydi ki, oxucu qulaqlarına hələ radiodan tanıdıldı. "Nəğməli güllər" gənc şairin məhəbbət lirikasından, kövrək hisslərilə yanaşı vətənə məhəbbətindən, insanlara inamından danışırdı. Beləcə, kitabdan kitaba böyüyür, mövzusu genişləndikcə gözümüzün önündə bərkiyir, səsi ucalır, daha çox oxucu qazanırdı. Kamilləşmə yolundaydı.

Amma hər halda şair İsgəndər Etibar o zamanlar haqqında məhəbbətlə danışsam da, başqa həmyaşlarından, qələm yoldaşlarından seçilmirdi. Bu seçilməkçün səbəb lazımmış, təkan lazımmış. Sən demə, Sabir nəfəsi, Mirzə Cəlil nəfəsi dəysə də, hələ nə özü, nə oxucusu bundan xəbərdar deyilmiş.

Oxucuların, geniş mənada rəğbətini qazanmış "Tək səbir" qəzeti öz əlləriylə meydana gəldikdə bu istedad üzə çıxdı. Sən demə, İsgəndər Etibar həm də yaxşı satirik, gözəl yumoristmiş. Şeirləri hecadan, xüsusilə, əruzdan doğularaq ətrafımızdakı çatışmazlıqları, rüşvətxorluğu, qorxaqlığı, yaltaqlığı, bir sözlə, hər cür natəmizliyi amansızlıqla, özünəməxsus ifadə tərziylə tənqid və ifşa etməyi bacaran sənətkara çevirdi. Gözümüzün önündə güclü, kamil satirik şair yaranır. Heyranı olduğu Mirzə Cəlil, Mirzə Ələkbər Sabir nəfəsindən öyrənə-öyrənə, ilhamlana-ilhamlana.

Bütün bunlar tezliklə oxucuya məlum oldu və geniş kütlələrin rəğbətini qazanmış, getdikcə kamilləşən, heç nədən heç kimdən ehtiyat etmədən, heç kimə vəzifəsinə, mövqeyinə, varına görə üz görmədən qələm işlədən şair canlandı

[50] Cəfərzadə Ə.M / "Şirvana bağlı oğul" / "Tək səbir" qəzeti / 1995, 1-10 noyabr / səh. 4

qarşımızda. Bu soraqdı. Sabirdən soraqdı və onun yaradıcılığını izləyənlərin sevincinə səbəb oldu bu irəliləyiş.

Bəs bu ağır və şərəfli yolu keçib bugünkü şair və ictimai xadimə çevrilən İsgəndər Etibar kimdir? 1937-ci ildə şairlər yurdu, Azərbaycan ədəbiyyatına, bəşər mədəniyyətinə Xaqani, Nəsimi, Seyid Əzim, Sabir, Səhhət vermiş Şamaxıda dünyaya göz açmış Yer oğlu, TORPAQ övladıdır. Onun doğma yurda, münbit, münbit olduğu qədər də müqəddəs torpağına nə qədər bağlı olduğunu bilməkçün tərcümeyi-halına, keçdiyi təhsil və əmək yoluna nəzər salmaq kifayətdir. Şamaxı Kənd Təsərrüfatı Texnikumu, Azərbaycan Kənd Təsərrüfatı İnstitutu – bu təhsil... "Yeni Şirvan" qəzetində Kənd təsərrüfatı şöbəsinin müdiri, Bakıda "Kənd həyatı" jurnalının redaksiyasında şöbə müdiri, Azərbaycan Kənd Təsərrüfatı Nazirliyində, "Kənd əməkçisinin təqvimi" redaksiyasında (həmin təqvimi də az qala ədəbi jurnala çevirmişdi, elə maraqlı ədəbi materiallar verirdi ki!) göründüyü kimi, torpağa bağlılıq onun təhsili və əmək fəaliyyətində başlıca yer tutub. İsgəndər Etibar torpağın oğludur. Amma eyni zamanda şairlər yurdunun yetirməsidir. Allahın bəxş etdiyi ilham da, doğma yurdun suyu, havası, çörəyi də onu şair yetişdirib və bütün ədəbi fəaliyyəti, bütün əmək fəaliyyətiylə doğma yurduna – Şirvan, Şamaxı torpağına bağlı oğuldur. Bu oğulun bütün çalışmaları yurdumuzun çiçəklənməsi, Şamaxı-Şirvan torpaqlarının keçmiş əsatiri şöhrətinin yenidən canlanması, onun övladlarının daha yaxşı yaşaması, şəhərə su çəkilməsi və başqa xeyirxah işlərlə bağlıdır. Elə başçılıq etdiyi "Şirvan xeyriyyə cəmiyyəti" də, "Tək səbir" qəzeti də bu nəcib işlərin canlandırılmasına xidmət edir. Atılan tənə oxlarından ehtiyat etmədən xalqına, millətinə, yurduna xidmətdədir İsgəndər Etibar. Ona uğurlar arzulayıram.

**Bakı, 1 noyabr 1995**



# Sən kimsən, Fikrət? (Fikrət Sadıq)[51]

Bu sualı şair Fikrət Sadığa mən verməmişəm. Onun 1997-ci ildə "İşlə ev arasında" adlı kitabının redaktoru və ön sözün müəllifi Məmməd Namaz yazıb. İncə şeir duyumuna, şeiri dərindən qavramaq istedadına malik olan Məmməd Namaz. Məktubdurmu bu müqəddəmə, gözəl şeirlərinə valeh olduğu şairin kitabına girişdirmi, nədir? Elə həvəs, elə məftunluqla yazılıb ki, ilk səhifədən oxucunu valehliyə hazırlayır sanki. Bu, müqəddəmədən öncə inqilab bayrağı coşqun Xəlil Rzamızın Fikrət Sadığın əlli yaşı tamam olanda yazdığı təəssüratdır. Xəlil Rza şairin "Yerdən göyə" kitabını oxumuşdu o vaxt. Mən də o 50 illikdə vardım. Xəlil deyirdi: "... Fəxr etdim ki, Azərbaycan torpağının illər boyu yetirdiyi şairlər sırasında Fikrət Sadıq adlı bir ŞAİR də var. Mərd, mətin, cəsur, vüqarlı bir şair". Təxminən 20 il sonra Fikrət Sadıq sanki Məmməd Namazın sualına, Xəlil Rzanın sözlərinə cavab olaraq deyir:

*Öz suçumu, günahımı,*
*Əzəl gündən bilmişəm mən.*
*Ölümdən niyə qorxum ki?*
*Doğulanda ölmüşəm mən.*

Koroğlu nərəsindən geri qalmırdı bu nida:

*Mən anadan olan günü ölmüşəm...*
*"... Mənim kimi piyaləsi dolan, gəl!"*

[51] Cəfərzadə Ə.M. / "Sən kimsən, Fikrət?" / "Xalq qəzeti" / 2000, 30 may / səh. 7 "Sən kimsən, Fikrət?" (01.05.2000) / Əzizə Cəfərzadənin Ev Arxivi, Fond "P"/ Qovluq №14 / Sənəd №4 / vərəq – 4

Qoy dostlarım nə deyir-desin, qoy Fikrət Sadıq Koroğlu nərəsi çəksin, qoy... Amma mənim nəzərlərimdə bu gün yetmiş yaşı tamam olan şair Fikrət Sadıq kövrək, utancaq, təvazökar, tez sınan, tezcə də barışan, xəfif uşaq ürəkli insandır.

Doğrusu, iyirmi il əvvəl əlli illiyində iştirakım tarixincə yadımdan çıxmışdı. Müdrik, ağ saçlı, saqqalı olmasa da, ağsaqqal kimi tanıdığım Fikrətlə danışanda, onun idraka çağıran şeirini oxuyanda yaşımı unudurdum. Mənə elə gəlirdi ki, Fikrət ərən babalardan biridir. Uşaqlaşırdım. Amma sən demə, ondan nə az, nə çox, düz doqquz yaş böyüyəmmiş. İşə bax! Halbuki yetmiş deyil, yüz yetmiş yaş desəydilər, inanardım. Onun ağlı, təmkini, sözü, şeiri qarşısında həmişə kiçik bacı heyranlığı duymuşam. Sən demə...

Çoxdan tanıyıram Fikrəti, onun poeziyasını. Tarixini deyə bilmərəm. Amma deyəsən, elə "anadangəlmə"... Yəni hər ikimizin haçansa ədəbi aləmə gəlişimizlə. Poeziya məftunluğumuzla. Fikrətlə görüşlərdə olmuşuq. Şeirlərini öz ağzından dinləmişəm. O gözəl şeirlər qəlbimdə "neyçün şair olmadım, belə rəvan olmadım?" hissi oyadıb. "Sən yazasan, mən oxuyam". Təvazökarlıq ona şeir oxumasında da mane olur. Özünü heç vaxt qabağa vermir, gözə soxmur. Eləcə fikirlər dolu Fikrət olub qalıb. Əsl, həqiqi şeir, poeziya sevənlərin qəlbində onun inciləri elə yer tutub ki!.. Amma özü bu şeirləri oxuyanda elə utana-utana oxuyur ki, sanki gözəl poeziya nümunəsi təqdim etmir, qəbahətli bir iş görür. Geyim-keçimində də heç vaxt "dendi"liyə can atmayıb, sadə, ən sadə oxucuları, dinləyiciləri səviyyəsindən yuxarı qalxmayıb.

Bəlkə də, bu xislət, bu əxlaq ona uzun illərin ağır əməyinin, zəhmətincə güzəranın möhürüdür. Bu ruzi çarpışmalarında nədən yapışmayıb Fikrət? Teleqraf tellərindən, qəzet səhifələrindən, kino dünyasından... buracan – ilk şeirinin ADU nəşriyyatında çapdan çıxan ədəbi almanaxdakı



"Artist" və "Ana əli" nağılınacan. Elə nağıllardakı keşməkeşli həyatla çarpışmada bərkiyib. Zahiri sakitliyi, dincliyi ona poeziya aləmində şöhrət, zirvə qazanmasına mane olmayıb, əksinə, bu təmkinli addımlar zəfər addımları olub. Bir-birinin ardınca on altı şeir kitabı. Bakı və bölgə səhnələrində dörd pyes. Həm də kitablar hər biri 1963-cü ildə çap olunan "Cığırla" başlayıb. "Ömrün bir günü", "Dəniz küçəmizə gəlir", "Sevgi yağışı", "İşığın yaşı", "Ağ cığır", "Yerdən göyə ümid", "Məndən soruşsalar", "Dünya öz işindədi", "Seçilmiş əsərlər"... Buraya hələ körpələrimiz üçün, onların, az qala, öz dilində bəstələnmiş, səhv etmirəm, onlar şeirdir, həm də bəstələrdir: "Cırtdan hara getmişdi?", "Göydə nə var?", "Göydən alma düşmədi", "Bir parça vətən", "Şeirli əlifba"... daha nələr!

Nəsrdə də sınayıb öz poetik qələmini, amma bu qələmdən süzülən şeirə xəyanət etməyib, cəmi üç hekayə yazıb. Uşaqlar üçün yazdığı "Sinif-sinif oyunu" hekayəsini də əlavə etsək, dörd olar.

Fikrət Sadıq şeirdən başı açılanda onacan məqalə də yazıb – "Adını de, səni tanıyım" və başqaları kimi...

Fikrət Sadığın diqqət etsəniz, əsərlərinin elə adından da nağıl, müdrik babaların deyimlərinin ətri gəlir.

Fikrət Sadıq səs zərgəridir. Onun hər kəlməsi bir naxış, bir qədim... qədim babaların ata sözü, nənələrin ilmələri, butasıdır.

Fikrətin elə şeirləri var ki, "şeir" sözünün özü qədər yığcam, incəcik, zərif, müdrik olduğu qədər də, şairanədir. Gözlənilməz, tapıntı qafiyələri şeirinə əsl bəzəkdir, poetik kəşfdir. Söz sanki şairin əlində mumdur, o da heykəltəraş. İstədiyi şəklə sala bilir, qüdrəti də bundadır.

*Burda uyuyan mənəm –*
*Mais Çaybasarlıyam.*
*Orda qəm dustağıydım,*
*Burda dərd hasarlıyam.*

yaxud:

*Dörd yalın xəncər tiyəsi*
*Dayanıbdır üz-üzə,*
*Uclarından neft damır,*
*Uclarından qan damır.*
*İbrət dərsidir bizə,*
*İbrət dərsidir bizə.*

Bəzi xırdacıqlarında döyüşkən ruh var; sanki böyük Sabirin nəvəsi şair vəzifəsinə xəyanət etməməkdə and içir:

*Qələm olsun barmaqlarım,*
*Qələm tutub yalan yazsa.*
*Səni necə doğru yazım,*
*Başdan-başa yalansansa?*

Fikrim Fikrət şeirini təhlil etmək deyil. Onda gərək bir də dissertasiya yazaydım. Sadəcə istədim ki, Fikrətimiz üçün əziz olan bu gündə bu günün bizimçün də əziz olduğunu söyləyim. Yaş ötsə də, dünyanın gözəlliklərindən, dostların məhəbbətindən doymaq, üz çevirmək olmaz. Sən öz oxucularına, biz şeirsevərlərə pak, təmiz olduğu qədər də, uca şeiriyyət bağışlayırsan. Ulu adaşından geri qalmazsan. Səni türk dünyasına tanıtmaq münəqqidlərimizin borcudur. Var ol! Qələmin həmişə beləcə inci-mirvari düzsün, ilham pərisi həmişə başının üstündə qanad çalsın. Və... Və sən də bizi, öz pərəstişkarlarını yeni-yeni fikrətanələrlə sevindirəsən. Yetmiş yaş nədir ki? Babalarımız bunu ər-igid, kişi gücünün zirvəsi hesab ediblər. Uğurlar olsun, qardaşım!

**Bakı, 30 may 2000**



## Füzulinin nəvələrindən biri (Zivər Ağayeva)[52]

Adı kimi Zivərlidir şeirləri; musiqi var canında, hər bir beytində, bəndində, misrasında, sözündə.

Ona görə də təəccüblü deyil ki, bu qədər təvazökar, gözə soxulmayan şairin şeirlərinə, demək olar ki, çağdaş bəstəkar, yaradıcı xanəndə, həvəskar musiqi bəstələyib. Lirika, incəlik, insan, sevən insan, eşq ilahisi Füzulinin şeiriyyətdəki nəvə-nəticəsinin bütün sevgi çalarları bu lirik xırdacalarda öz əksini tapıb. Görəsən, elə bir sevən ürək çırpıntısı, duyğusu, aşiqanə hissin çalarları varmı ki, Zivərin ilham çiçəklərindən yayına bilsin? Məhəbbət hopub bu incələrin müəllifinin vücuduna, bütün hüceyrələrinə. Elə ona görə də gəncliyin ən gözəl, ən ülvi duyğularına cavab verir bu aşiqanə tərənnümlər.

Zivərin yaradıcılığına çoxdan bələdəm. Lap ilk addımlarından. Qadın aşıq və şairlərimizin yaradıcılığıyla məşğul olsam da, sənətdə cins, qadın-kişi bölgüsünün əleyhinəyəm. Yaxşı əsər var, pis, ya ortabab var. Kişi olsun, qadın olsun, nə fərqi var? Sənət sənətdir. Təsvir, ifadə sözün gücündən asılıdır. Kim dediyinin, kim cavab verdiyinin fərqinə varmıram.

Zivərin yaradıcılığında ictimai motivlər də var. Vətən məhəbbəti, Qarabağ problemi, itirilmiş torpaqlarımızın acı faciəsi, dərdi bütün soydaş, qələmdaşlarımızın olduğu kimi Zivərin də ürəyindən sağalmaz xəncər yarası kimi keçir. Bir zamanlar "büllur çeşmə"yə bənzədib sevə-sevə gözəlliklərini vəsf etdiyi Şuşaya indi:

[52] Cəfərzadə Ə.M. / "Füzulinin nəvələrindən biri" / "İmpuls" qəzeti / 2001, 14 sentyabr / səh. 14
"Füzulinin nəvələrindən biri" (Zivər Ağayeva haqqında) (13.07.2001) / Əzizə Cəfərzadənin Ev Arxivi, Fond "P" / Qovluq №40 / Sənəd № 4 / vərəq – 4

*Amandır, ay Şuşa,*
*yuxuma gəlmə,*
*İmanım kəsilər,*
*dindən dönərəm.*
*Yad təpiyin sinən üstə*
*görəndə,*
*İnan, yuxumda da*
*ölə bilərəm...*

– deyir.

Zivərin yaradıcılığında bütün şairlərimizin müraciət etdiyi, şükranla tapınaraq qarşısında diz çökdüyü ANA mövzusu var. O, dəbdəbəli, gurultulu, şüara bənzər misralar yazmır:

*Uşaq oldum, ay ana,*
*Qədrini bilmədim mən.*
*Saçını tumarlayıb,*
*Yapışmadım əlindən.*
*Nə üçün axşam-səhər,*
*Dolanmadım başına?*
*Axır pərvanə oldum,*
*Soyuq məzar daşına.*

Pərvanə oda yanar, soyuq məzar daşına özü yanan övlad dolanar. Gözəl təzad və deyilməmiş, bala ürəyindən qopan ANA məhəbbətidir. "Ağlama, ay ana" da belədir və beləsi onlarladır. Zivər xanım bu mövzuyla müqayisədə çox az müraciət olunan ATAdan da yazıb. Elə burada da deklorasiyaçılıq yoxdur, misralar şüar deyil. Zivər bir atadan danışır ki, o, "haqqı sayalı" üçün övladdan "heç bir şey uman"' deyil. Bəlkə də, elə buna görədir ki:

*Ay dilimdə şirin andım,*
*Sənlə gülüb hər muradım.*
*Ünvanımdır sənin adın.*



Elədir, ata adıyla adlanmaq, ata canına and içmək kimi müqəddəslik hər kişiyə nəsib olmur.

Bütün bu mövzulara baxmayaraq Zivər xanım Ağayevanın lirikası məhəbbət lirikası yaradıcılığında üstünlük təşkil edir. Sevginin bütün anları, rəngləri öz əlvanlığı, səmimiyyəti, təbiiliyi ilə bu şeir sözünün özü qədər yığcam, inci mirvaridə bəstələnib. Əgər Zivər Ağayevanı tanımasaydım, əgər onun incilərinə musiqi bəstələyən Zeynəb Xanlarova, Məmmədbağır Bağırzadə kimi mötəbər el sevgisi qazanmış xanəndələri, mərhum Emin Sabitoğlu, Oqtay Rəcəbov, Eldar Mansurov, T.Məmmədzadə və b. kimi tanınmış bəstəkarlara bələd olmasaydım, deyərdim ki, bu misraların hər biri Zivərin fleyta kimi qəlb ovan ürəyindən qopub bizi də oycalayır.

Qəsdən ixtisarla verdiyim misralara baxın:

...
*Sən yuxuya dönmüsən*
*Gözümün qarasında.*
...
*Səni gəzim arayım*
*Dünyanın harasında?*
...
*Aparmısan elə bil,*
*Dərdimin çarasın da.*
*Olmusan dünya qəmi,*
*Ay qəlbimin həmdəmi.*
*İtirmişəm mən səni,*
*Yerlə göy arasında.*

Hansımız keçirməyib bu hissləri? Onları hardan axtarıb, tapıb, qoparıb çıxarmısan bu gün işığına? Şübhə etmirəm ki, öz qəlbindən.

Zivər Ağayevanın məhəbbət lirikasında nakamlıq, həzinlik, bir inilti var. Onun bütün lirik şeirlərindən və hətta "Kimlərə qaldı dünya" kitabına daxil etdiyi yeganə "Kör-

pülər" adlı iricə hekayəsində də bu nakam məhəbbət motivi bir xətt kimi keçir, sanki bu mövzulu şeirləri Zivərin sapa düzdüyü eyni biçimli, eyni ölçülü qiymətli incilərdir.

Zivər hecamızın onbirlik ölçüsündənsə, daha çox oynaq səkkizlik ölçüsünü seçir və elə bu da şeirlərdə musiqililiyi bir az da artırır. Bayatılarını "Mən aşiq"lə başlamasını doğru hesab etmirəm. Folklorumuzda Sarı Aşıq adlı, eləcə Aşıq təxəllüsü ilə bayatılar yazan el şairləri olub. Buna görə də qarışıqlıq düşməsin deyə Şah Xətayi, Zakir, Zabit, Püstə Şikar qızı, Gülgəz kimi şairlər bayatı qoşduqda öz adlarını deyiblər. El danışığından təbii, canlı, əlvan deyimlər, sözlər, ifadələr, məsəllər seçib işlədirsən, qafiyələrin mükəmməldir, yenə də onlara və vəznə diqqət elə.

Sənə onlarla belə ürəkdən gələn, riya bilmədən haqqı, gözəlliyi, pak hissləri tərənnüm edən kitablar arzulayıram. Mənim də məhəbbətimə, qəlbdən uğurlar arzuladığıma arxayın ol.

**Bakı, 14 sentyabr 2001**



## Qarğa məndə qoz var (Cahangir Aslanoğlu)[53]

Cahangir Aslanoğlunun yaradıcılığıyla çoxdan tanışam. Bu tanışlığın azı əlli il tarixi var: 1937-ci ildən başlayır. O zamandan ki, Cahangir Aslanoğlu Teatr texnikumunun aktyorluq şöbəsində oxuyurdu. Telli-toqqalı oğlanıydı. Boy-buxun onda, yaxşı diksiya onda, zərif yumor onda... Yuxarı sinifdə oxuyurdu. Tələbələrimiz həmişə başına toplanardı. O toplantıdan həmişə şən gülüş səsləri gələrdi. Cahangir Aslanoğlu elə o zamandan başlayaraq yumorlu gülüşüylə diqqəti cəlb eləyib. Aktyor da olub, rejissor da, klub müdiri də, administrator da. "Kirpi"nin xüsusi müxbiri, ədəbi işçisi, şöbə müdiri də olub. O zamanlar "Kirpi"nin bir nömrəsi Cahangirsiz keçməzdi. İndiyəcən onun "Camışlar", "Qəbiristan qarğaları" və başqa dadlı, duzlu, bədii, yumorlu yazıları yaddan çıxmır.

Yüzlərlə felyetonun, yumorlu, satirik parçaların, günün tələblərinə cavab verən onlarla əsərin müəllifi Cahangir Aslanoğlunun kitabı çoxdan və bir neçə adda çıxmalıydı. Cahangir Aslanoğlu həyatımızda baş verən bütün hadisələrə, əyər-əskiklərimizə yerində, vaxtında cavab verir. Antipodları, əliəyriləri suyun lilindən, lil axmazından üzə çıxarmağa çalışır. Tanınmış şəxsiyyətlərimiz haqqında çox duzlu, məzəli, onların həyatının, yaradıcılığının bu və ya digər cəhətini daha parlaq nəzərə çarpdıran lətifələr – bir növ ədəbi "yoldaşlıq şarjları" yaradır və həm də bunları özünə, aktyor Cahangir Aslanoğluna xas baməzəliklə danışır. Tez-tez gülüş günlərində televiziya və radioada üzünü görüb səsini eşidirik, "Ədəbiyyat qəzetinin" gülüş səhifə-

[53] Cəfərzadə Ə.M. / "Qarğa, məndə qoz var" / "Azərbaycan gəncləri" qəzeti / 1991, 16 iyul / səh. 4
"Qarğa məndə qoz var" (Cahangir Aslanoğlu haqqında) (16.07.1991) / Əzizə Cəfərzadənin Ev Arxivi, Fond "P" / Qovluq №9 / Sənəd №39 / vərəq – 5

sində Məftilağa Çıraqban ləqəbiylə yazılarını oxuyuruq. Amma bunları toplayıb nəşr etdirmək, ayrıca kitab şəklində oxuculara çatdırmaq işində səriştəsi və həvəsi yoxdur. Bu gün-sabaha salmaqla bu qocaman gülüş ustası, Qabrovonun fəxri vətəndaşı, Şəki gülüş günlərinin təşkilatçısı və komissiya sədri, ağsaçlı, səriştəli yumor və satira yazarının indiyəcən bircə kitabı çapdan çıxıb: "Ürəyinizi qoruyun". Cahangir Aslanoğlu bütün həyatı, təhsili, ədəbi-ictimai fəaliyyətiylə teatr aləminə bələd və candan bağlı insan və yaradıcıdır. Onun həyat və yaradıcılığının qanuni nəticəsi bu günlərdə Lenin adına sarayda nümayiş etdirilən "Qarğa məndə qoz var" kimi şən, gülməli vodevil olmalıydı. Həm də çoxdan baş verməliydi bu iş. Cahangir Aslanoğlu həmin əsəri azı on il olar ki, yaxın dostlarına oxuyub, ilk variantında bəyənilib. Dostlar oxuyub gülüb və müəllifə əsəri səhnəyə çıxarmaq təklifi verib. Amma müəllif əsəri bir növ acxəmirə kimi "gəlməyə" qoyub. Uzadıb... Nə tamaşaçı, nə özü, nə də aktyorlar, lap deyərdim ki, əsərin özü də bu uzatmadan qazanmayıb. Nə isə... Deyəsən, yazmaq istədiyim "dost sözü"nün istiqaməti dəyişir. Mətləbə keçək.

Dörd ilə yaxındır ki, xalqımızın namərd qonşusundan çəkmədiyi əzab qalmayıb. Şəhid düşənlər, yaralananlar, sərhədlərimiz boyu səngərlənənlər gündən-günə artır ki, azalmır ki. Əynimizdən qara libas çıxmır, üzümüzü təbəssüm işıqlandırmır. Bu süst, bu az qala şok vəziyyətimizdə, əlimizin heç bir işə yatmadığı günlərdə ürəyimizi həyata daha sıx bağlaya bilən qadir təbəssümə, gülüşə elə böyük ehtiyacımız var ki! Bunu təkcə sözlə ifadə etmək mümkün deyil. "Eşq nədir?" sualına Mövlana Cəlaləddin Rumi "Mən ol da, gör" cavabını vermişdi. Qəlbimizdən kədər pasının silinməsinə yardım edə biləcək hər əsərin birə beş qiyməti var bu gün. Bu baxımdan Cahangir Aslanoğlunun "Qarğa məndə qoz var"ı çox yerinə düşüb. Premyera günü Lenin adına saray ağzınacan doluydu. Hamımıza iki şey əyan



oldu: birincisi, Cahangir Aslanoğlunu xalq yaxşı tanıyır və sevir. Yumoru, zərif zərafəti məhz ondan gözləyir. İkincisi, hamımızın gülüşə, azacıq dincliyə, sayxaşmaya ehtiyacımız çoxdur. Unutmaq deyil bu. Dərdimiz elə dərd deyil ki, onu hər şeylə unudaq. Sadəcə bir az dinclik, sükunət tapıb, yenidən, yeni qüvvət, güc toplayıb çətinliklərimizdən çıxmaq üçün əlac tapa bilək. Bu baxımdan Şıxəli Qurbanov adına Azərbaycan Dövlət Musiqili Komediya Teatrı çox xeyirxah bir iş görüb. Proqramda əsər iki hissəli, məzəli, musiqili tamaşa adlandırılır. Zənnimcə, respublikanın Əməkdar incəsənət xadimi Hüseynağa Atakişiyev "Tələbələrin kələyi", "Xor-xor", "Cancur Səməd", "Kəblə Hacı" kimi teatrımız tarixində onun müxtəlif dövrlərində səhnəmizdə oynanmış vodevillərin davamı kimi əsərin doğru dramatik həllini tapıb. Quruluş xoşumuza gəldi, rəqslər, mükalimələr yerli yerindəydi; gündəlik həyatımızla bağlı atmacalar, xalq məsəlləri, atalar sözlərindən bu günün əyər-əskiyini qamçılamaq da unudulmurdu. Belə əsərlərdən ciddi ideya, müəyyən süjet tələb etmək doğru olmasa da, "Qarğa məndə qoz var" məzəli tamaşasında ara-sıra ciddi tənqidi mükalimələr nəzəri cəlb edirdi. Aktyor ansamblı, xüsusilə, yaxşı seçilmişdi. Sevdiyimiz Afaq Bəşirqızı, sözsüz ki, gözəl sənətkardır və bu əsərə də öz ustalığı ilə daxil olub. Lakin müəllif inciməsin, bu qüdrətli sənətkarın bütün tamaşa boyu səhnədən çıxmamasına baxmayaraq mükalimələri bir az, təkrar, bəzən hətta bəsitdi. Ona ifa materialı azlıq edir, Afaq sanki darıxır səhnədə. Bir qədər də işləmək lazımdır bu surətin üzərində. Afaqa geniş meydan verilməlidir.

Əvəzində İlham Namiq Kamalın meydanı genişdir. Əsərlə onun əlyazmasında tanış olan dostlar bilir ki, buradakı bütün rolları bir aktyor ifa etməliydi. Rejissor həmin rolları üç aktyor arasında bölməklə əsərə xeyli canlılıq, yeni hava gətirib, istedadların üzə çıxarılması kimi bir məsələni qabardıb. Bununla belə, İlhamın oynadığı rollar tamaşaçının canlı gülüşünə səbəb olur. Biz İlhamı "Bir aktyorun tamaşası" kimi televerilişlərdə görmüşdük, gülüş gücünə də

bələddik. Amma bu əsərdə İlham xüsusi ilhamla oynayır, meydanı genişdir, mükalimələri canlı, oynaq, gülüş doğurur.

Görkəmli sənətkarlarımızın səsini, ifa manerasını ustalıqla təqlid edən aktyor Elçin də rolunu uğurla oynayır. Onun, xüsusilə, Zərzibonskayası məlahətli, gülməli olduğu qədər də canlıdır, ustalıqla yaradılıb.

Respublikanın Əməkdar artisti Mobil Əhmədovu da yeni surətin yaradıcısı kimi alqışlamaq olar.

Ələkbər Əliyevin yaratdığı Aşıq obrazı xüsusilə unudulmaz, koloritli, bir növ "çayxana aşığı" surətinin canlı-qanlı portretidir. Onun hər hərəkəti, hər sözü, baxışı gülüş doğurur. Ələkbər – aşıq quş kimi uçur səhnədə, yerimir, məhz uçur və bu uçuşuyla da tamaşaçıya bol gülüş bağışlayır.

Əsərin musiqisi, geyimləri, rəqsləri məhəbbətlə yaradılıb. Onların elmi təhlilini incəsənət sahəsinin xüsusi alimlərinə həvalə edərək yalnız öz şəxsi fikirlərimi söyləmək istəyirəm. Tamaşa bütün ansamblı ilə xoş əhvali-ruhiyyə yarada bilir. Təkcə iki təklifimi müəllifə söyləmək zərurəti duyuram: Mənə elə gəlir, belə kaskadlı gülüş səhnəsində "kəlmeyi-şəhadət"in, həm də dəyərli, təsirli səslə oxunması münasib deyil. Bəlkə, başqa bir şey tapmaq mümkün oldu. Bir də son səhnədə rəqslərdən əvvəl İlham aktyor rolundaykən son söz söyləyir: "Deməli, "Qarğa məndə qoz var" əməliyyatı başa çatdı" (qurtardı). Bu cümlə tamaşaçıda əsərin, tamaşanın bitməsi fikrini oyadır və camaat yerindən qalxır. Halbuki, həmin ifadədən sonra tamaşanın sonluğu olan rəqslər itib-batır, adamlar yenidən yerlərinə qayıtmalı olurlar. Məncə, həmin ifadə nəsə başqa bir şeylə əvəz olunmalıdır.

Cahangir Aslanoğlu ən güclü çağdaş gülüş ustasıdır. Qoy bu tamaşa birinci olsun, axırıncı olmasın. Qoy o bu sahədə işini davam etdirsin. Bizim, irəlidə dediyim kimi, bu yorğun vaxtımızda gülüşə xüsusi ehtiyacımız var. Həm də təkcə xüsusi günlərdə, teleradioda, mətbuatda deyil, səhnədə daha çox ehtiyacımız var. Musiqili teatrımızın öz səhnəsi əlindən çıxıb, buradaca yeri gəlmişkən arzu edirəm ki, tezliklə ona müvəqqəti, öz binası tikilib başa çatanacan müəyyən yer verilsin, qapı-qapı gəzməsin sevimli teatrımız və onun Nəsibə xanım kimi, Afaq Bəşirqızı kimi gülüş ustaları uğurlu sənətlərini davam etdirmək imkanı qazansınlar.



Cahangir Aslanoğluna da uğur diləyir, ondan yeni vodevil də olsa, çağdaş həyatımızın çatışmazlıqlarını əks etdirən yumorlu, satirik pyeslər gözləyirik.

**16 iyul 1991**

## Bir əlyazmanın tarixçəsi (Qulamrza Cəmşidi)[54]

Bu günlərdə arxivimdən mənə gərək olan qeydlər axtarırdım. Diqqətimi ərəb əlifbası ilə yazılmış "Ana" başlıqlı bir şeir cəlb elədi. Oxudum. Şeirin altında imzanı görəndə halım dəyişdi. Qulamrza Cəmşidi. İli çıxmayıb, deyəsən, hələ. Bəs bu şeir burda haçandan qalıb, niyə qalıb? Vərəqin belinə öz xəttimlə yazılmış qeydi eynilə bura köçürürəm:

"Bu şeir bu Azərbaycanın deyil, o Azərbaycan anasının qara geyimindən bəhs edir.

– Azərbaycan Azərbaycandı da. Bunun nə orası, nə burası? Alnına yazılmayıb ki, oradı.

– ...

– Alnına niyə? Altına yazaq Təbriz 1946-cı il.

– Olmaz! – deyə şeir yazılı kağızı alıb seyfə qoydu və qapadı.

Ruhdan düşdüm:

– Siz onun arzularını həbs etdiniz o seyfdə.

– Özünü də təhlükəyə atma, qız!"

Qeydin altında nə tarix var (elə şeirin də), nə də qəzetin, redaktorun adı. Onda ruhdan düşmüşdüm, incimişdim də redaktordan. Axı, yəqin, bizimkilərlə hələ tanış olmayan müəllifə cavab sözü vermişdim. Amma redaktor ikimizdən də ehtiyatlı, ikimizdən də təcrübəli və məni hər halda sevən insanmış: Qoruyub məni. İndi anlayıram neyçün, nədən.

Bəs axı bu şeirin əsli (görünür, makina surətini vermişəmmiş) necə olub ki, mənə verilib (Məndə qalıb)?

1946-1947-ci illərdi. Bakı Teatr Texnikumunun müdiri işləyirdim. Gəncdim, müəllim təcrübəm az olsa da, var idi.

[54] "Bir əlyazmanın tarixçəsi (Qulamrza Cəmşidi)" (08.08.2001) / Əzizə Cəfərzadənin Ev Arxivi, Fond "P" / Qovluq №40 / Sənəd №9 / vərəq – 5



Dörd il Ağsu rayonunda müharibə illərində müəllim işləmişdim. Müharibədən əvvəl M.Ə.Sabir adına pedməktəbi və elə müvazi[55] olaraq Bakı Teatr Texnikumunun Teatrşünaslıq şöbəsini bitirdiyimdən, güman ki, elə buna görə də teatr texnikumunun müdirliyini mənə etibar eləmişdilər.

Bir gün xalam Fatimə xanımın oğlu general Mustafa Nuriyev məndən soruşdu ki, Cənubdan Bakıya hərbi məktəbə oxumağa gələn oğullara yardım edərsənmi? Neynəyə biləcəyimi soruşanda dedi: "O cavanlar öz bayramlarını qeyd edəcəklər. Səhnəcik hazırlayıblar. Geyim, dekor..." Məmnuniyyətlə edərəm, dedim.

Səhəri günü kabinetə bir cavan, boylu-buxunlu, mütənasib oğlan gəldi. Əlindəki məktubu utana-utana verdi mənə. Məktub Azərbaycan diviziyasındandı. Mustafa Nuriyevin dediyi sözlər, xahiş yazılmışdı. Əlbəttə, dərs hissə müdiri ilə məsləhətləşib, özümüzdə olmayan geyim, rekvizit və s. (siyahısını məktuba əlavə etmişdilər) də müxtəlif yerlərdən əldə edib, göndərilən yük maşınına yığdıq. Maşında yenə həmin gənc gəlmişdi. Bu çox işgüzar, bacarıqlı, çalışqan oğlan həmin vaxt Təbrizdən zabitlik oxumağa göndərilmiş, inqilabi hərəkatda fəal iştirak edən, M.C.Pişəvərinin ayrıca diqqət yetirdiyi fədai – Qulamrza Cəmşidiydi. O zaman milli azadlıq hərəkatında iştirak edənlər fədai adlanırdı.

Tədbirlərinə məni də dəvət etdilər. Getdim. Cənub hərəkatında yaxından iştirak edən xalam oğlu Mustafa da ordaydı. Yeri gəlmişkən, Azərbaycan generallarından danışan jurnalistlər bilmirəm neyçün, II Dünya savaşında odlar içindən mətin çıxmış əsl döyüş sərkərdələri bir neçə azəri türk generalının, o cümlədən Məmməd Hüseynov, Hakim (Akim demirdik) Abbasov, Mustafa Nuriyev və b. haqqında ya heç danışmırdılar, ya da... "Ya da"sı yoxdu. Onların gəncliyə nümunə olan cəngavər yürüşləri yada salınmalıdır. Qərəz, həmin tədbirdə neyçünsə bir-iki gün-

[55] Müvazi – paralel olaraq

lüyə Bakıya gəlmiş S.C.Pişəvərini də ilk və son dəfə olaraq gördüm, yardımımçün təşəkkür etdi.

Fədailər əvvəlcə öz marşlarını oxudular. Sonra, deyəsən, elə Q.Cəmşidinin yazdığı "Hücum davam edir" adlı faşizmə qarşı yönəldilmiş tamaşanı göstərdilər. O gecə fədailərdən Sabir Əmiri, İsfəndiyar, Ələkbər Yədulla, Ziya və başqalarıyla tanış oldum. Özlərini qərib hiss etməmələriyçün bizim bütün tədbirlərə dəvət edir, bacardığım köməyi əsirgəmirdim... Sonra onlar başqa tamaşalar da göstərdilər: "1905-ci ildə", "Vaqif" və b. Birdən aləm dəyişdi. Dəmir pərdə qapandı. Azərbaycan diviziyası ümumi Sovet ordusu içində əridi, fədailər məktəbdən dağıldı, hərəsi bir peşə seçdi. Kimi həkim, kimi mühəndis... Ana, bacı həsrəti...

Görünür, o zaman həmin "Ana" şeirini çap üçün mənə sonralar "Hacı Kərimin Aya səyahəti", "Bizə bircə xal lazımdır" və b. əsərlərindən gözəl bir yazıçı kimi tanıyıb sevdiyimiz Qulamrza Cəmşidi veribmiş. Mən də çap etdirə bilməmişəm. Qeydimlə birlikdə arxivdə yatıb qalıb. Fədailərlə əlaqəm, dostluğum sonralar da, elə indiyəcən davam edir. Cəmşidinin əkiz tay bacısı Məhbubə xanımla da o, qardaşının görüşünə gələndə tanış olmuşam. Tehranda Kitabxaneyi-millidə materiallar toplamaqçün İrana gedəndə Məhbubə xanım məni evinə dəvət etmiş, Tehranda yaşayan soydaşım şairlər Ataş, Yanar, Savalan, Qaflantı, Haşim və b. tanış eləmişdi. Cəmşidi qardaşımız vəfat edəndə Məhbubə xanım Bakıya gəldi. Hüzürdə görüşüb dərdləşdik... Mən də qardaşlarımı təzəcə itirmişdim. İki dərdli bacı kimi ağlaşdıq. Fədailərdən o zamankı dostlarım içərisində Sabir Əmiri mənə ixtisasca daha yaxın olduğundan, tez-tez bu gözəl alim, tədqiqatçı, cənub ədəbiyyatımızın burada ən fəal təbliğatçısı ilə görüşür, bir-birimizdən öyrənir, bildiklərimizi bölüşürdük. Yeri düşmüşkən, deməliyəm ki, Sabir Əmiri yaradıcılığını daim izləyir, onun ciddi tədqiqatını yüksək qiymətləndirirəm.



Qərəz, hörmətli oxucum! Xatirat, memuar, gündəlik yazmaqla aram yoxdur. Amma əziz və çox tez dünyasını dəyişmiş, necə deyərlər, millətin kisəsindən getmiş istedadlı qardaşım Qulamrza Cəmşidinin arxivimdən tapdığım o bir vərəq, öz əlilə yazdığı mənimçün yadigara çevrilmiş şeiri, məni keçmişin o uzaq illərindəki xatirələr dünyasına aparıb xeyli çalxalandırdı. Gəncliyimizin coşqun, Cənub həsrətilə, birlik arzusuyla qızğın çırpınan ürək döyüntülərimizi, müsahibələrimizi, nidalarımızı yadıma saldı.

Sənə böyük Allahımızdan, ulu Göy Tanrımızdan rəhmət diləyirəm. Məzarın qəlblərimizin işığıyla, məhəbbətiylə çıraqban olsun. Sevdiyin, Ana kimi sevdiyin Anamız Vətən torpağı pərqudan da yumşaq olsun, qardaşım! Amin.

Hörmətli oxucum! Sizə gec də olsa, Qulamrza Cəmşidinin "Ana" şeirini təqdim edirəm. Bəlkə də, gənc, təcrübəsiz qələmiylə şair sonralar təkmilləşdirib çap etdirib. Mənə məlum deyil. Oxuyun, son beytləri, xüsusilə, dönə-dönə oxuyun!

**Mərdəkan, 8 avqust 2001**

## ANA

*Gecə yatdım, yuxuma gəldi anam,*
*Nə təbəssüm, nə navaziş, nə salam.*
*Etinasız keçərək qarşımdan,*
*Gözü yaş, çöhrəsi qan, sinəsi qan.*
*Sinəsindən qan axar lalə kimi,*
*Saralıb gül üzü bir halə kimi.*
*Məni sarsıtdı onun əhvalı,*
*Dedim: Ey varlığımın amalı,*
*Ana! Sinəndəki bu yarə nədir?*
*Oğlun ölsün, yarana çarə nədir?*
*Niyə məndən elə küskünsən, ana?*
*Barı aç dərdini söylə balana.*
*Söylə, kim salmış(dı) bu əhvala səni?*

*Anamın əsdi qəzəbdən bədəni.*
*Dedi: "Oğlum, mənə bir an qulaq as,*
*Mənim əynimdəki bu qara libas*
*Min cavanmərk[56] oğlumun qarəsidir*
*Bu yaram da onların yarəsidir.*
*Qalmışam düşmən əlində nalan,*
*Var-yoxum, sərvətim olmuş talan.*
*Zülm ilə qollarımı bağladılar,*
*Sinəmə dağ çəkib dağladılar.*
*İki namərd məni etdi hərrac*
*Biri dəllal, biri sahibi-tac.*
*Biri Amrikadan aldı dəstur,*
*Biri Londondan edildi məmur.*
*Həq deyən dilləri kəsib atdılar,*
*Qəhrəman balalarımı həbsə saldılar.*
*Güllələdilər namərdlər qəhrəmanları,*
*Şaha meydan oxuyan mərd oğulları.*
*Ah, bala, dərdim çox ağırdır, çox ağır,*
*Durma, övladımı imdada çağır!*
*Ağrıdan ərşə çıxır fəryadım,*
*De silahlansın bu gün övladım.*
*Düşmənin başına ataş eləyin,*
*Məni əllərdən siz azad eləyin.*

*Qulamrza Cəmşidi*

*P.S.* Məqaləmi çapa verəndə öyrəndim ki, həmin şeirlə bağlı hörmətli müəllimim professor Mübariz Əlizadənin arasında müəlliflik mübahisəsi gedib. O zaman Bakıda olmadığımdan hadisədən xəbərsizəm. Amma şeiri bir daha diqqətlə oxuyanda onun təcrübəsiz, gənc, vətən və ana həsrətli fədai təcrübəsi olduğunu düşündüm. Professorum Şərqin möhtəşəm şairlərinin poemalarını tərcümə edən, şeir vəznlərinə dərindən vaqif olan ustad kimi xətalara yol verməzdi.

[56] Cavanmərk – cavankən ölən



## Şəxsiyyətə pərəstiş qurbanlarından biri (Əlirza Abdullayev)[57]

Əslində, şəxsiyyətə pərəstişdən çox satqınlıq qurbanı olub şair Əlirza. İndi oxucular təəccüblənərək məndən olmasa da, özlərindən və ya bir-birindən soruşacaqlar: "Bu şair Əlirza kimdir?" Deyəcəyəm ki, axtarmayın, izini heç yerdə tapmayacaqsınız, suallarınız cavabsız qalacaq. Əlirzanın adı Yazıçılar Birliyinin kitablarında, bir müddət çalışdığı "Ədəbiyyat qəzeti" arxivində belə yoxdur, olsaydı, kitabların birinə düşərdi. Gözəl şair idi, otuz-qırxıncı illərin İkinci Dünya savaşınacan çap olunan qəzet və jurnallarında lirik şeirləri, poemaları çap olunub. Həsəd aparanlar, istedadından çəkinənlər, lirikamıza ikinci Müşfiq gəldiyindən ehtiyat edənlər bolluca tənqid, təqib ediblər. Əlirzanın üslubuna aid nümunələri – sizə təqdim edilən şeirlərini o dövrün qəzet və jurnallarından və onu sevən tanışlarının hafizələrindən toplamışam. Niyə? Necə yəni niyə? Bəs millət bilməməlidi ki, kimi itirib?

*Bir irmaq olsaydım, ah...*
*Bəzən çaşıb yolumdan*
*Dəhnəyə dolsaydım, ah...*
*Bilsən, necə coşardım?..*

*Gəmirərək bəndləri, qırardım, parçalardım....*
*Hər sahilə bu günün sevincini çalardım*
*Azadlıq sevdasilə dalğalanıb daşardım.*

[57] Cəfərzadə Ə.M. / "Şair Əlirza Abdullayev – şəxsiyyətə pərəstiş qurbanlarından biri" / "İmpuls" qəzeti / 2001, 5 oktyabr – səh. 14
"Şəxsiyyətə pərəstiş qurbanlarından biri – şair Əlirza Abdullayev" (26.08.2001) / Əzizə Cəfərzadənin Ev Arxivi, Fond "P" / Qovluq №128 / Sənəd №1, / vərəq – 10

"Azadlıq sevdasilə dalğalanıb daşan" Əlirza novator şair idi. Lirikasıyçün elə formalar, şəkillər seçirdi ki... Sözə hakimdi, bədii dilin ifadə vasitələrindən istifadə edərək elə qafiyələr, rədiflər, mübaliğələr, bənzətmələr, təzadlar tapır işlədirdi ki, şeirinin hərəsi bir musiqiydi, yazılmamış, qoşulmamış nəğməydi:

*De, sevgilim, bu sahil eşq anlamazmı, bəlkə?*
*Yoxsa öz cananına etdiyi nazmı, bəlkə,*
*Bildim qumsallı sahil o qədər qəlbi dar ki...*

*Dedin: Bizə nə var ki...*
*Hiss etdikcə qəlbimiz*
*Hələ sevəcəyik biz.*

Əzizlərim, çox çalışdım ki, sizə gözəl şairimiz Əlirza haqqında məlumat verim. Yadıma yalnız Yazıçılar Birliyinin uzun illər əvəzsiz makinaçısı olmuş mərhum Sona xanım Sadıqovanın sözləri düşdü. Vaxtilə "Ədəbiyyat qəzeti"nə gəlib Əlirzanı görmədikdə Sona xanım belə bir əhvalat danışdı. Dedi ki, Əlirza bir gün işə çox qəmli gəlmişdi. Səbəbini soruşdu qəzetin o zamankı redaktoru M.S.Ordubadi.

Əlirza dedi: "Beşmərtəbənin yanından keçirdim, çörək növbəsi, qiyamətdi. Yanda ayaqyalın bir oğlan uşağı qarın üstündə atdanıb-düşür, oxuyurdu: "Əcəb ağ gündədir mənim vətənim". Təzada baxın".

Müharibəydi, ürəyi yanğılıydı şairin. Səhər Əlirza işə gəlmir. Bir gün sonra orqanlardan gəlib onun masasında nə varsa, yığıb aparırlar. Sonra da Ordubadini, Sona xanımı çağırıb Əlirzanın o gün nə danışdığını soruşurlar. Nə Ordubadi, nə də Sona xanım onun üzünə durmur. İdarənin işlər müdiri erməni qadın onun üzünə durur, sovet hökumətini ələ saldığını deyir. Əlirza o gedən olur, Sibirə sürüldüyünü deyirlər. Sonrakı taleyindən xəbər tuta bilmədik, dedi Sona xanım. Mən də Xalq şairi Nəbi Xəzri



və başqa o dövrün gənclərindən soruşdum, bir məlumat toplaya bilmədim. Əgər məqaləni oxuyan varsa, Əlirzanın qohumlarından, dostlarından, tanışlarından, həmyerlisi və kim olsa, bir şey bilirsə, xəbər versin. Gənc tədqiqatçılar 1935-ci ildən 1942-1943-cü illərə qədərki latın və kiril əlifbasıyla nəşr olunmuş qəzet və jurnallardan Əlirzanın əsərlərini toplayıb xalqımıza çatdırsalar, xeyirxah iş olar. Xalqımız itmiş övladını, unudulmuş gözəl şairini yenidən tanıyar. Uğur arzulayıram Əlirza yaradıcılığını izləyib tədqiq edənlərə.

**Bakı, 26 avqust 2001**

## ARZU

*Bir irmaq olsaydım, ah,*
*Bəzən çaşıb yolumdan*
*Dəhnəyə dolsaydım, ah!*
*Bilsən, necə coşardım...*

*Gəmirərək bəndləri, qırardım, parçalardım*
*Hər sahilə bu günün sevincini çalardım.*
*Azadlıq sevdasilə dalğalanıb daşardım.*

*Bir ceyran olsaydım, ah!*
*Mahir ovçu önündə*
*Belə qovulsaydım, ah*
*Rüzgar kimi qoşardım...*

*Yurdumun çöllərindən, dumanlı dağlarından,*
*Sonalı göllərindən, duru bulaqlarından*
*Yaşıl meşələrindən söhbət edib çapardım...*

*Bir aşiq olsaydım, ah!*
*Bir dilbər həsrətilə*
*Sevdaya dolsaydım, ah,*
*Bilsən, nələr qurardım...*

*Basıb sədəf sazımı sinəmə səhər erkən,*
*Qayğısız ellərimin qızından, gəlnindən*
*Bir dastan bəstələrdim, bülbülü susdurardım.*

*Dəli Kür olsaydım, ah!*
*Bəzən dalğalanardım.*
*Bəzən durulsaydım, ah!*
*Bilsən nələr, edərdim...*



*Hər addımda ölkəmin torpağını öpərdim.*
*Bəxtəvər insanların yoluna zər səpərdim.*
*Hər gecə nəşəmizdən danışardım, gedərdim.*

*Bir kaman olsaydım, ah!*
*Sevgilimin əlində*
*Bir an gurlasaydım, ah!*
*Bilsən, nələr çalardım...*

*Şirin bir xəyal kimi adı dillərdə gəzən,*
*Möhnətsiz sevgimizdən, hicransız eşqimizən*
*Ötərdim zaman-zaman, ellərə səs salardım.*

*Qaranquş olsaydım, ah!*
*Bahar məhəbbətilə*
*Yanıb, qovrulsaydım, ah!*
*Uçar, uçar, uçardım.*

*Baş vurub ənginliklərə, buludları yarardım,*
*Parlayan ulduzları bircə-bircə arardım.*
*Sevgi dolu könlümü günəşimə açardım.*

## BİZƏ NƏ VAR Kİ...

*... Sevgilim ləpələr oxşadıqca sahili,*
*Mən qısqandım onlara, əsdi könlümün teli.*
*Düşündüm, indi sahil o qədər bəxtiyar ki!..*

*Dedim: "Bizə nə var ki..."*
*Bir vurduqca qəlbimiz*
*Daha bəxtəvərik biz.*

*Bax, sevgilim, ləpələr sahilə yaxınlaşınca,*
*Sahil susdu, dinmədi... öpüb uzaqlaşınca*
*Gördüm küskün ləpələr o qədər intizar ki...*
*Dedim: "Bizə nə var ki..."*
*Döyündükcə qəlbimiz,*
*Ayrılan deyilik biz.*

*De, sevgilim, bu sahil eşq anlamazmı, bəlkə*
*Yoxsa öz cananına etdiyi nazmı, bəlkə.*
*Bildim, qumsallı sahil o qədər qəlbi dar ki...*

*Dedim: "Bizə nə var ki..."*
*Hiss etdikcə qəlbimiz,*
*Hələ sevəcəyik biz.*

*Gör, sevgilim, ləpələr mənimlə tay olurmu?*
*Onlar bəzən susur da... heç könlüm yorulurmu?*
*Duydum çılğın qəlbimin atəşi o qədər ki...*

*Dedim: "Bizə nə var ki..."*
*Odlandıqca qəlbimiz*
*Daha mehribanıq biz.*

*Eh... Sevgilim, ləpələr oxşadıqca sahili,*
*Mən qısqandım onlara, əsdi könlümün teli.*
*Düşündüm indi sahil o qədər bəxtiyar ki....*

*Dedim: "Bizə nə var ki..."*
*Bir vurduqca qəlbimiz*
*Daha bəxtəvərik biz.*



## BƏXTƏVƏRLİK DEYİLMİ

*Ah nə qədər şirindir sevib sevilmək,*
*Sevginin məhəbbətin dadını bilmək.*
*Xoşdur ürək gül kimi,*
*Qoxlamaqçın özündə*
*Duyğu bəsləsə.*
*Bəxtəvərlik deyilmi, bir şeyda bülbül kimi*
*Sevda budaqlarında açan hər çiçək səni səsləsə?*
*Nə dilbərdir səhərdən bir quşa dönmək,*
*Yarın pəncərəsində ötmək, öyünmək,*
*Pərişan bulud kimi*
*Üzə enmiş tellərin seyrinə dalmaq.*

*Bəxtəvərlik deyilmi, sönməyən ümid kimi*
*Səhər yelilə yarın könlünə enmək,*
*Orada qalmaq.*

*Nə xoşdur ilk baharda olmaq bir çiçək*
*Sancılmaq yar döşünə vurmaq bər-bəzək*
*Həssas duyğular kimi*
*Duymaq sevdalı qəlbin döyüntüsünü...*

*Bəxtəvərlik deyilmi,*
*Könlünü nübar kimi*
*Sevgilinə, dostuna hədiyyə vermək*
*Bir bayram günü?*
*Nə şərəfdir, söz olub qəlbdən üzülmək,*
*Nadir incilər kimi sapa düzülmək,*
*Odlu məhəbbət kimi*
*Dolanmaq sənətkarın oynaq qanında...*
*Bəxtəvərlik deyilmi,*
*Ən zərif sənət kimi*
*Pərdələrdə oynamaq teldən süzülmək,*
*Yar kamanında?*
*Nə xoşdur sevgilinlə vaxtını bölmək,*

*Bir yerdə qüssələnmək, bir yerdə gülmək,*
*Bir can, bir ürək kimi*
*Girmək elin qoynuna, sarınmaq elə...*
*Bəxtəvərlik deyilmi?*
*Xəstə bir çiçək kimi*
*Üzülsün düşüncədən ayrılıq, ölmək,*
*Pay olsun yelə.*
*Ah nə qədər şirindir sevib-sevilmək,*
*Sevginin, məhəbbətin dadını bilmək,*
*Xoşdur ürək gül kimi*
*Qoxlamaqçın özündə*
*Duyğu bəsləsə,*
*Bəxtəvərlik deyilmi?*
*Bir şeyda bülbül kimi*
*Sevda budaqlarında açan hər çiçək səni səsləsə.*

## YADINDAMI?

*Yadındamı, gül qoxulu gecəydi,*
*Bir can kimi seyrə çıxdıq dəryanı.*
*Yadındamı, onda sahil necəydi?*
*Dalğalandı eşqimizin ümmanı.*
*Yadındamı, sən dedin ki, yetər, dur,*
*Dur, ayrılaq, mən səninki deyiləm.*
*Bu gecəni öz qəlbinə unutdur,*
*Mən sevsəm də, sevəninki deyiləm.*
*Yadındamı bir yaş axdı gözündən,*
*Gur saçından bir tel qırdın mənimçün,*
*Od qalxmazmı ürəyimin gözündən,*
*Yuvasını tərk edərsə göyərçin?*
*Yadındamı bir-birinə sarıldıq,*
*Bir döyünən cüt qəlbimiz ağladı,*
*Bir-birini sevə-sevə ayrıldıq,*
*Arxamızca coşdu dəniz, ağladı.*
*Mən o teli ipəklərdə gizlədim,*



*Axşam-səhər öpüb basdım sinəmə.*
*Yetim kimi ondan ümid gözlədim*
*Rast gəlirkən hər möhnətə, hər qəmə.*
*Ah... Hər gecə ona ətir səpirdim,*
*Ürəyimin çeşməsindən inan, mən.*
*Mən bu gecə yenə onu öpürdüm,*
*Pəncərədən külək aldı əlimdən.*
*Qəlbim sındı sən ayrılıq deyirkən,*
*Əlim belə sustalmışdı əlində.*
*Boş yollara baxıb-baxıb dedim mən:*
*Özün kimi vəfasızmış telin də.*

## HAMAN GÖZLƏR

*Haman gözlər, aman Allah, yenə haman gözlərdir,*
*Yenə hər bir baxışında min can alan gözlərdir.*
*Nişan almış vücudumu, baxsın, bir də baxsın qoy,*
*Haman gözlər, can əzizim, səninkidir onlar, bax!*
*Bax, bir də bax, bu baxışla vücudumu odla yax!*
*Köhnə eşqim bir can kimi vücuduma axsın qoy!*

## BƏXTƏVƏRLİK TƏRANƏSİ

*Səhər yeli şad alnımı öpəndə*
*İncələndi könlüm oldu tel mənim.*
*Mən aşıqəm, tel mənim,*
*Dərya mənim, sel mənim.*
*Oynaq ruhlu bülbüləm,*
*Dayağımdır el mənim.*
*Hər cəhcəhim min bir lalə yetirir,*
*Kəsə bilməz budağımı yel mənim.*
*Dillən könül, həsrət çəksin naşılar,*
*Mən bilirəm, səndə ümman var indi.*
*Mən aşığam yar indi,*

*Bağda verir bar indi,*
*Zəhmət çəkən analar,*
*Evladından yarındı*
*Sən də dillən, mizrab eylə sözləri*
*Çal sevdalı ürəklərdə tar indi.*
*Ömür indi qənddən, baldan şirindir,*
*Ağır günlər bizdən gena düşübdür.*
*Aşıq şenə düşübdür,*
*Xoş vətənə düşübdür,*
*Bulud bizdən uzaqdı,*
*Düşmən çənə düşübdür.*
*Bəxtəvərlik badəsini içmişəm*
*Azadlığın eşqi mənə düşübdür.*
*Bu yerlərin alı dünən dumanmış,*
*O vaxt ellər qəmlə, sirdaş olubdur.*
*Aşıq sirdaş olubdur,*
*Qəmlə qardaş olubdur,*
*Əli qanlı çarların,*
*Ürəyi daş olubdur.*
*İndi zümrüd gecələrim ayla dost,*
*Gündüzlərim günlə sirdaş olubdur.*
*İndi atam dərddən ölüm diləməz*
*Yaş anamın tor gətirməz gözünə*
*Mən aşıqam gözünə,*
*Söhbətinə, sözünə,*
*Kiçik dostum pioner,*
*Aslan deyir özünə.*
*Nazlı yarım buludlara sirr açır*
*Ləkə düşməz çiçək rəngli üzünə.*

**Y.Raynis (Latviya)**
**Çevirəni: A.Əlirza**



## MÜLAYİM İNSANA

*Edirsən azadlığa, dar ağacına hörmət,*
*Göstərirsən xalqına, həm də ağana xidmət.*
*Hər zaman ehtiyatlı, ciddi olursan, fəqət,*
*Əziyyətsiz, orta, dinc, sakit yol arayırsan.*
*Bununçün dörd tərəfdən döyülürsən hər zaman!*
*Əziz ata, əziz rəhbər, əziz dost!*
*Minnətdardır bu xoş çağlar adına.*
*Aşiq dağlar adına,*
*Güllü bağlar adına,*
*Baxıb-baxıb nəşə al,*
*Qəhrəman evladına.*
*Bizim ellər əl çalanda adına,*
*Şair könlüm dəstə bağlar adına.*

## SƏHƏRİN TÜRKÜSÜ

*Sökülür dan yeri, açılır səhər,*
*Günəş tellərilə qucur dünyanı.*
*Sığmır köküslərə arzu əməllər,*
*Bu səhər ölkəmin qaynayır qanı*

*Bu səhər seçilir adi səhərdən*
*Günəşə hökm edən məharətilə,*
*Bu səhər sevinir, fəxr edir vətən,*
*İgid oğulların rəşadətilə.*

*Çalınır musiqi şaqraq səsindən,*
*Meydanda ruhlanır atlar oynayır,*
*Bugünkü şənliyin tərənəsindən,*
*Səmada ən yüksək qatlar oynayır.*

*Dəyir buludlara polad qanadlar,*
*Uçur təyyarələr tərlanlar kimi.*
*Döyüş nəhəngləri, zirehli atlar,*
*Atılır meydana aslanlar kimi.*

*Düzülür sıraya bir nəfər kimi,*
*Əmək bağçasının keşikçiləri.*
*Başlayır yürüşə igidlər kimi,*
*Zəfər mahnıları gəzir dilləri.*
*Axır insan seli çoşqun dalğalı,*
*Dolaşır əllərdə qırmızı bayraq.*
*Qalxır mavzoleyə ellər marşalı,*
*Qaliblər nəslini salamlayaraq.*

*Bu gün həyəcanlıdır gümrahdır hər kəs,*
*Üzlərdən oxunur nəşə və şadlıq.*
*Budur, hər tərəfə yayılır bu səs,*
*Biz hərb istəmirik, hərbə hazırıq.*



# Gecikmiş nekroloq (Niyazi Yıldırım Gəncosmanoğlu)[58]

*(Türk poeziya pərəstişkarlarına başsağlığı)*

Bir neçə ay əvvəl hörmətli oxucularımızı şeirləriylə tanış etdiyim Niyazi Yıldırım Gəncosmanoğlu dünyasını dəyişib, avqustun 21-də əbədiyyətə qovuşub. Təəssüf ki, bu xəbəri "Türk ədəbiyyatı" dərgisinin bu gün aldığım 228-ci sayından öyrəndim. Türkü öz türk mənliyini dərk etməyə, türklüyüylə fəxr etməyə çağıran "Dastanlar bürcü" şairi haqda başsağlığı yazmaq, gözəl tanıdığım yaradıcılığına, ulu insanlığına pərəstiş etdiyim Niyazi Yıldırım Gəncosmanoğlunun yoxluğuna inanmaq çətindir mənimçün. Dərginin üz qapağında mehriban təbəssümlü nurani simasını görəndə gözlərim doldu, 1990-cı ilin yayına qayıtdım. "Dastanlar bürcü" kitabının üzərinə "sağlıq və başarı diləyi"ylə imza atıb mənə bağışladığı günlərə döndüm. Kitabın qapağında çap olunmuş "Malazgird marşı"nı öz ləhcəmlə, bir kəlmə də dəyişmədən ona, yanımızdakı yazıçı Sevinc Çokum, Əhməd Kabaklı, jurnalist Ömər bəy Öztürkmən, alim Turan Yazğan və başqa dostlara oxudum:

*Aylardan ağustos, günlərdən Cuma,*
*Gün doğmadan əvvəl iqlimi-Ruma,*
*Bozqurdlar ordusu keçdi hücuma,*
*Yeni bir şövq ilə gurladı göylər,*
*Ya Allah... Bismillah... Allahu Əkbər...*

[58] "Gecikmiş nekroloq (Niyazi Gəncosmanoğlu)" (03.12.1992) / Əzizə Cəfərzadənin Ev Arxivi, Fond "P" / Qovluq №12 / Sənəd №35 / vərəq – 4

*Öndə yalınqılınc türkmən Başbuğu,*
*Ardından Oğuzun əlli min tuğu,*
*Andırır Altaydan qopan bir çığı,*
*Budur Peyğəmbərin öydüyü türklər,*
*Ya Allah... Bismillah... Allahu Əkbər...*

*Türk – ulu Tanrının soylu gözdəsi,*
*Malazgird – Bizansın Türkə səcdəsi,*
*Bu səs insanlığa Haqqın müjdəsi...*
*Bu səsdə birləşir bütün ürəklər,*
*Ya Allah... Bismillah... Allahu Əkbər...*

*Nərəmizdə bu gün göy gurultusu,*
*Qanımızdır bu gün yerin örtüsü,*
*Qazi atlarının nal parıltısı,*
*Qılınclarımızdır çaxan şimşəklər,*
*Ya Allah... Bismillah... Allahu Əkbər...*

Bundan sonra türk dilinin başına oyun açanlar, yeni qondarma söz uyduranlara qarşı ağzım açıldı. Bircə kəlməsini dəyişmədən oxuduğum şücaət şeiri həvəsləndirirdi məni: "Baxın, əsl türk dili budur, onu sizli-bizli hamımız anlayırıq. Amma "yeni uydurma sözlər dolu televizyon dilinizi" nə mən, nə də müsahibim olmuş türk anaları anlayır: "Kəndi çocuklarımızın konuşduğunu zorlukla anlıyoruz", – deyirlər. Dostlar təsdiqlədikcə, özlərinin də bu "söz oyunbazlıqlarına" qarşı çıxdıqlarını söylədikcə, Gəncosmanoğlu həmin bu dərgidəki nəvazişkar təbəssümüylə gülümsəyir, bir söz demirdi. O, öz sözünü əsərləriylə deyirdi. Sakit, səssiz, gözə soxulmadan, meydan sulamadan, təvazökarlıqla.

Niyazi bəy türk gəncliyinin qəlbində Vətən sevgisi oyatmaqçün tarixi mövzular, tarixi şəxsiyyətlər və onlardakı qəhrəmanlıq, şücaət tərənnümüylə qürur aşılayırdı. Onun bütün türk dünyasıyçün ölümsüz əsərləri türk milləti yaşadıqca yaşayacaq, yeni-yeni nəsillər tərbiyə edəcək, qəhrəman nəsillər Vətənçün, türklükçün, millətçün hər şeyi fəda edə bilən "Dədəm Qorqud" igidlərindən Malazgird cəngavərlərinə, Antantanın və bütün Avropanın dəstəklədiyi erməni təcavüzünə qarşı çarpışmalarda türkün şanlı qazilərinəcən igidlər yetişməsində iştirak edəcək və:

*Öz mənəm, öz mənəm,*
*Onlar qabıq, öz mənəm!*
*Sən yerdə sovrulan kül,*
*Ürəklərdə köz mənəm,*

– deyəcək.

Yaxud:

*Türkəm, cümlə cahanda ünüm aşikar,*
*Türkəm və müsəlmanam, dinim aşikar,*
*Düşmanlarıma qarşı kinim aşikar,*
*Pünhan edilməz!*

– söyləyəcək əski, yeni qəhrəmanları Niyazi Yıldırım Gəncosmanoğlunun.

"Onun iki türlü qüruru vardı: biri türklüyü, digəri şairliyiydi... Türklük deyildimi, oğuzlaşır, səsinin tonu belə dəyişirdi... Yunus kimi soylu qəriblər halqalarından biriydi o... Gəncosmanoğlu bir cığırdı şeirimizdə... Vardığı yer də şeirləri kimi ucalarda olsun" – (Sevinc Çokum).

"Aylardan ağustos, günlərdə Cümə və bir ər kişi uçdu bu dünyadan. Dostlar yetim qaldı. Şeir bürcü səssiz qaldı. Şairlər meydanı ıssız[59] qaldı. O Niyazi Yıldırım Gəncosmanoğlu ki, vətən, millət duyğularını, igidlik və ərlik hisslərini, tarix və kültür zənginliyi ilə dopdolu olan neçə gözəllikləri misra-misra könüllərə işlədi" – (Nevzad Ozqaň).

[59] Issız – heç bir insan yaşamayan, əhalisiz, boş

"Böyük şair idi Niyazi Yıldırım Gəncosmanoğlu... Soy isminə yaraşan bir kişiliyi vardı. İllərlə müəllim olmuşdu. Şəfqət onun qanına işləmişdi" – (M.Nihad Malkoç).

"Türk milləti, türk elləri, türk şeiri və türk dastanları çox böyük bir şəxsiyyətini, bir qəhrəmanını və bir şairini qeyb etmənin dərin üzüntüsünü yaşamaqda indi" – (Məhsin Karabay).

"Biz Niyazi bəyin şeirlərini əzbərləyərək böyüdük. Kəndimizi bulduq. Millətimizi və dəyərlərini sevdik" – (İsa Qocaqaplan).

Və nəhayət, Gəncosmanoğlunun tələbələrinə dediklərindən: "İnsanlar yaşadığı və dünya var olduğu müddətcə qəhrəmanlıq, igidlik, mərdlik heç bir zaman ölməyəcək. Hər dövrün özünəməxsus qəhrəman tipləri və mərdanə hərəkətləri var. Bu xasiyyətlər millətimizdə yaşayacaq. Bu yetər ki, biz qəhrəmanlıq ənənəsini canlı tutaq. Onları unutmayaq".

Və mən: Ruhun şad olsun, ulu, böyük TÜRK! Türk şeirinin mütəvazi sərkərdəsi, öydüyün Tanrı dağına ucal, Tanrının rəhmətinə qovuş! Qəhrəman, igid, mərd millətin yaşadıqca, sən də yaşayacaqsan, könüllərdə, nəsillərin şücaətində.

**Bakı, 3 dekabr 1992**



## Gecikmiş nekroloq (İdris İbrahimov)[60]

*Çox gənc ikən həyatdan getmiş yüksək biliyə, dərin erudisiyaya malik əziz dostum İ.İbrahimovun əziz xatirəsinə*

İşdə, iş otağımda idim. Məni qapıya çağırdılar. Foyedə, "səni bu yoldaş axtarır, bir neçə dəfə gəlib" – dedilər. Döndüm, tanımadım, oxucu zənn etdim, bəlkə, bir şey lazımdır, yanaşdım.

Bu ucaboylu, enlikürəkli, başı Savalanın qarlı zirvəsini andıran tənumənd[61] bir adam idi. Saçlarının vaxtsız ağardığı aşkar görünürdü. Bir tanış kimi yanaşdı mənə, amma baxışlarımdakı sualı oxuyan kimi, anladı ki, mən onu tanımadım. Güclü görkəminə uyğun gəlməyən olduqca həlim, mehriban təbəssümlə gülümsədi:

– Məni tanımadız, deyəsən, bir dəfə gəldim, Kamçatkadasız, dedilər, ikinci gəlişimdə Afikada olduğunuzu söylədilər, üçüncü gəlişimdə Orta Asiyada – Tacikistanda idiniz. İndi nəsib oldu. Sizi çoxdan görmək istəyirdim.

Əlimdən tutdu, balaca əlim iri pəncələrin içində itdi. Daxilimdə nəyinsə qırıldığını duydum. Mən bu adamı görmüşdüm, lakin harada, nə zaman... bu sima isə mənə indi çoxdan səraba[62] çevrilmiş əziz bir surəti xatırlatmağa başladı. Daxilimdən elə bir fəryad qopdu ki, istədim, ona yalvarım: "demə, o adı çəkmə, mənə o dadlı olduğu qədər də əzablı günləri xatırlatma", lakin o dedi:

— Mən İdrisin qardaşı İsfəndiyaram. Burdan Qubadlıya aparandan sonra ömrünün son günlərini yaşayarkən sizin və başqa yoldaşlarının haqqında elə şeylər danışıb ki,

[60] "Gecikmiş nekroloq (İdris İbrahimovun xatirəsinə)" (14.01.1970) / Əzizə Cəfərzadənin Ev Arxivi, Fond "P" / Qovluq №18 / Sənəd №18 / vərəq – 7

[61] Tənumənd – boylu-buxunlu, qədd-qamətli

[62] Sərab – susuz çöldə yer üstünə yığılan buxarın uzaqdan su kimi görünməsi, ilğım

sizi görməyi, sizə təşəkkür etməyi özümə borc bildim. Siz mənim qardaşım və oğlum olan bir insanın tənha və axır günlərində ona dost əli uzatmısınız...

... Xeyli danışdı. Qəhər boğazımı, yaş gözlərimi boğduğundan onu əyləyə, saxlaya, o əziz insan haqqında söhbətləşə bilmədim. Onu çox soyuq müşayiət etdim. Getdi. Bəlkə də, təsəlli, xoş söz gözləyirdi. Lakin mən elə haldaydım ki...

... O gedəndən sonra uzun müddət bu hadisəyə qayıda bilmədim. İndi öz borcumu yerinə yetirmək, haradasa, qardaş dərdiylə vaxtından əvvəl qara saçları ağarmış o böyük qəlbli insana həmin hadisələri danışmaq istəyirəm...

... Mən ona ilk dəfə Nizami muzeyində rast gəldim. Dostlarım bizi ötəri tanış etdilər, "Folklorçudur, sevdiyim müəllimin Təhmasibin aspirantıdır" – dedilər. Uca boyu, mütənasib əndamı, zil qara saçları, mətin igidlərə məxsus gözəl üzü var idi. Şən görünür, qızlarla zarafatlaşır, təzə tanış olduğu mənə məhəl qoymurdu.

Bundan bir neçə ay sonra Kamo (indiki S.Rəhimov) küçəsində yaxın rəfiqəm Həbibə[63] xanıma rast gəldim. "Buralarda nə edirsən?" sualıma kədərlə cavab verdi:

– Yadındadırmı, səni keçənlərdə folklorçu bir aspirantla tanış etmişdim, muzeydə. Xəstədir, dəyməyə gedirəm.

– Xəstəliyi nədir ki? – deyə laqeydliklə soruşdum. Çünki o ilk görüşü artıq unutmuşdum.

– Vərəmdir, həm də çox ağır. Arvadı da vəfasız çıxıb, ağır günündə qızını götürüb evdən gedib. O isə tək, ev sahibəsinin ümidinə qalıb. İndi bir neçə iş yoldaşı növbə ilə gündə ona baş çəkirik. Əyər-əskiyini alırıq.

Heç bilmirəm, hansı bir qüvvə mənə dedirtdi:

– Məni də öz növbənizə daxil edin.

Həbibə xanımla onun evinə ilk dəfə gəldim. Təmiz, səliqəli, birmərtəbəli otaqda olurdu. Pəncərəsi həyətə baxan bu mənzildə hava az, günəş yox idi. İçəri girəndə yatağında uzanmışdı. Əynində isti pijama var idi. Öskürürdü. Salamımızı ala bilmədi. Ev sahibəsi orta yaşlı bəstəboy, dolğun qadın yanında əlləşirdi. Öskürüb qurtardı. Arxası üstə yatağına sərilib qaldı. Görünür, çox əzab çəkirdi və mənə elə gəldi ki, gəlişimdən narazıdır. İri qonur gözlərindən oxuyurdum: "Üstümə daha bir məsuliyyət yükləmək nə üçünmiş?" İşarə ilə yer göstərdi. Bu onun yatağından xeyli aralı qoyulmuş taxt idi, üstünə nəsə bir xalça salınmışdı.

[63] Həbibə Məmməd qızı (1919–1984) – Azərbaycan yazıçısı



... O gündən narazılığına baxmayaraq növbəyə qoşuldum. İlk günlər təsadüfi tanışdan kömək almağa çətinlik çəkir, sıxılır, əsəbiləşirdi. Sonralar öyrəşdi. Hər gün darülfününa gedəndə yolüstü onlara dəyməyi unutmurdum. Həbibə xanımın körpəsi vardı, Nəimə xanım ana olmağa hazırlaşırdı. Bircə mən tək idim... O, arabir özünü yüngül hiss edir, bir neçə günlüyə işə çıxır, sonra həftələrlə yatırdı. Qonşumuz Əminə xala ilə danışdıq. Paltarlarını yumağı boynuna götürdü. Bu, işini xeyli asanlaşdırdı. Bazarlığını edir, ara-sıra xörəyini hazırlayırdıq, əsl zəhməti isə ana kimi onu sevən ev sahibəsi çəkirdi. Ünsiyyətimiz artdıqca mehribanlaşır, mənimlə də başqa rəfiqələrim kimi zarafatlaşır, ötgün, sərrast ağlına heyran olurdum. Onun dissertasiya işi qurtarmışdı. Makinadan alıb gətirdim, lakin oturub təshih etməyə iqtidarı yox idi. Mən oxuyurdum, o dinləyirdi, şifahi təshihlərini yazıya köçürürdüm.

... Zahirən heç də xəstəyə bənzəmirdi. Əgər rəssam olsaydım, igid bir sərkərdə surəti üçün onu model seçərdim. Kino çəkərdim, həmyerlisi Qaçaq Nəbi surətini yaratmaq üçün ondan münasibini tapmazdım. Arabir məni acılayırdı: "Özünün iş-gücün yoxdur? Nə düşmüsən bu dissertasiyanın üstünə?" Yaxınına hərlənməyə qoymurdu məni. O, məndən təcrübəli, həyatın ağır zərbələrini dadmış insan idi. Mən isə hələ uşaq idim, təcrübəsiz idim. O məni nədənsə qoruyurdu. Mənə elə gəlirdi ki, xəstəlikdən qoruyur, amma belə deyilmiş, məni özümdən qoruyurmuş. Qorxduğu şey başıma gəldi. Məndə qədim qəhrəman qız-

ların, nənələrin nağıllarındakı xilaskar Selcan xatunların ruhu onu qaldırdı. Mənə elə gəldi ki, əgər onu sevsəm, məhəbbətimdən xəbər tutsa, kiməsə lazım olduğuna əmin olsa, ağır xəstəliyə qələbə çalar, sağalar. Bütün varlığımla öz gizli fikrimi ona bildirmədən hissiyyata qapılırdım. Onu sevdiyimi duyurdu. Amma heç kəsdən mərhəmət, sədəqə alacaq qədər aciz məxluq deyildi. Mənə bildirmədən hər addımda məni rədd edirdi.

Sən məni nə üçün, kimin üçün görürdün, əziz dost, yaxşı insan? Bugünkü səadətim, analıq bəxtiyarlığım üçünmü? Bəlkə də, ürəyinin dərin bir guşəsində ümidin var idi ki, müdafiə edəcək, sağalacaq, yeni həyat başlaya biləcəksən?

... Bir gün anamın bişirdiyi yarpaq dolmasını nimçəyə yığıb onun üçün apardım. Qapıdan girəndə o adəti üzrə çarpayısında uzanmışdı. Nazik, inadkar dodaqları məni görüncə gülümsəyər kimi oldu, cəld çevriləndə onu öskürək tutdu. Nazim Hikmətin gənclik şeirlərindən olan "Üç ölüm" əsərinin ikinci lövhəsi yadıma düşdü:

*Son bahar, son bahar gəldinmi yenə,*
*Xəstələr beklərkən son günlərini?*
*Bəyaz bir gül alıb bir qız əlinə*
*Şığıyar, o şəfa bulmaz yerini.*

*Birdən için-için bu hıçkırık nə,*
*Bir-iki damla qan qızartdı gülü.*
*Kölgələr enirkən sarı bənzinə,*
*Əlindən düşdü gül şimdi qız ölü.*

Nimçə əlimdən düşdü. Dolmalar yerə dağıldı. İsti xörəyin ətri otağı doldurdu. Əyildim. Bir kəlmə demədən, solğun üzünə baxmadan və nimçənin qırıqlarını yığıb həyətə çıxdım, zibil qutusuna tulladım, içəri qayıda bilmədim. Ürəyimdə Nazimin sözləri, gözümdə onun solğun siması titrədiyi halda çıxıb getdim.



Məndən sonra gələn Həbibə xanıma dolma macərasını elə məzəli nəql etmiş, gülünc vəziyyətimi təsvir etmiş, "dolmanın iyi burnumdan getmir, bircəsini də mənə dadızdırmadı, o gedəndir ki, gedib" – demişdi.

Səhər gələndə üzünə baxa bilmirdim. Amma o, heç də son baharda ölümünü bəkləyən xəstəyə bənzəmirdi. O, yaradırdı, təslim olmurdu. O, ağır xəstəliklə cəngavər divlə pəncələşən kimi pəncələşirdi.

Dostlarından Mirəli, elmi rəhbəri Təhmasib, tanış alimlər onu tək buraxmırdılar. Hər gün gəlir, onu yoluxurdular.

Mənim dilsiz məhəbbətimə isə təslim olmurdu. Bir an belə özünü unutmurdu: Bircə dəfə, yalnız bircə dəfə sanki əzmində süstləşdi. Yaylığımın üstündən başımdan öpdü.

Deyirlər ki, ilanı yuvasından çıxara bilən dilə malikəm. Lakin onu əzmindən döndərə bilmədim. Bu təəccüblü deyil, axı o ilan deyildi. Mələk kimi insan idi. Deyirlər, vərəmli xəstələr xudpəsənd olur, onda xudpəsənlikdən əsər yox idi. Hamını, elə bütün varlığı ilə özünü ona qurban verməyə hazır olan məni də elə qoruyurdu ki... "Sən dəlisən, mən ki, dəli deyiləm", – dedi, – "Bu fədakarlığı səndən qəbul edə bilmərəm". Bu məhəbbət haqqında barbar bağırmaq istədim. Bu məhəbbət səhrada dağlar qazdırıb, Məcnuna çöllər gəzdirib, Şekspir, "İnsanı ucaldan məhəbbət var olsun" – deyib. Amma o, əsl insan kimi məni xilas etdi, bu növ ucalmağa qoymadı.

O, xəstəliklə pəncələşirdi, dedim. Bu, doğrudan da, belə idi. O heç kəsdən, hətta onu qoyub getmiş sevgilisindən də şikayətlənmədən mətanətlə vərəmə sinə gərir, arabir qələbə çalıb ayağa dururdu. Belə həftələrdən birində o "Atalar sözü və məsəllər" mövzusunda dissertasiyasını müdafiə etdi. Amma necə? Bir əlində vərəqlər, bir əlində tez-tez dodaqlarına apardığı al qan ləkəli dəsmal olduğu halda. Alimlər onun əsərinə yüksək qiymət verdilər. Xəstəlik isə ömrünün üstündən qara qələm çəkdi... Həmin ağır

günlərdə qardaşı gəlib onu vətəninə aparmalı oldu. Donmuşdum... "Hə" desəydi, ona qoşular, ardınca dünyanın axırına gedərdim. Demədi! Hətta səfər gününü də məndən gizlətdi. Bir sabah evinə gedəndə sahibə dünən qardaşıyla birlikdə doğma yurduna yollandığını söylədi. Mehriban qadın belə güman edirdi ki, bəlkə, doğulduğu yerin ab-havası onu xilas etdi... Lakin etmədi. Vəfat xəbərini aldıq. Dünyadan nəcib bir insan, ağıllı bir alim, tizfəhm[64] və mətin bir igid getdi.

İndi haradasansa, qardaşım, səsimi eşit, o gəlişində səni soyuq yola saldığımdan incimə. Sənin kimi həqiqi dost, 20 ildən sonra belə minnətdar olmağı bacaran insan əsl insandır. Qəlbimin fəryadı ilə o zaman sənin Nəbi görkəmli gözlərini yaşartmaq istəmədim. Heç birimiz, bir vaxt sənin qardaşını tanıyanların heç biri onu unutmamışıq. O sənin təkcə qardaşın, qan qardaşın idisə, bizim üçün qardaş, vətəndaş, dost və alim idi. Cərgəmizdən el bulağından su içən bir bilici gedib. Haqqında nekroloq yazmamışam. Qoy indisə yazım.

**Bakı, 14 yanvar 1970**

[64] Tizfəhm – tez başa düşən, çox fərasətli, zəkalı



## Məhəmməd Füzuli haqqında xatirələrim[65]

Əziz oxucum!

Böyük Füzuli ilə bağlı xatirə yazmağıma təəccüb eləmə! Dahilər, əzəli və əbədi məhəbbət aşiqləri haqqında, sən demə, beş yüz deyil, beş min il sonra da xatirə yazmaq olarmış...

Uşaqdım. Yaşımı xatırlamıram. Amma evimizdə divara əlvan rəngli, gözəl şəkil asıldığını xatırlayıram. Bir dəfə bu əlvan, çöhrəsindən mehribanlıq yağan simaya o qədər baxdım ki... Elə bildim, şəklin dodaqları tərpəndi, gülümsədi... Qorxudan ağladım. Anam başımın üstünü kəsdirdi:

– Nə-oldu sənə, gülüm?

Barmağımla şəkli göstərdim:

– Danışırdı... – dedim.

Anam nəvazişkar əlilə başımı sığallayıb ovundurdu məni:

– Qorxma, gözümün giləsi, Füzuli babandı da...

Böyük aşiqin – Füzulinin adını ilk dəfə anamdan eşitdim. Sonralar anamın əlində şairin divanını, ayrıca çap olunmuş "Leyli və Məcnun"unu tez-tez görərdim. O, bizə Füzulini öyrənməyin, sevməyin dərsini verdi. Mənə də, qardaşlarıma da.

1937-ci ildə orta məktəbdəydim. Mənimçün Füzuli artıq bir gənc qızın titrək, romantik ürəyini oxşayan ecazkar, aşiqanə qəzəllər sənətkarıydı. Birdən həyatimizə qara bəla çökdü. Tonqal qalandı, ərəb əlifbasıyla yazılan kitablar, əlyazmalar ağına-bozuna baxmadan həmin tonqala atıldı. Üzərində "xalq düşmənləri"nin adı olan bütün kitablar

[65] Cəfərzadə Ə.M. / "Füzuli ilə bağlı xatirələrim" / "Səhər" qəzeti / 1994, 26 mart / səh. 2
"Füzuli haqqında xatirələrim" (26.03.1994) / Əzizə Cəfərzadənin Ev Arxivi, Fond "P"/ Qovluq №17 / Sənəd №16 / vərəq – 6

yandırıldı. Üzlərdə, ürəklərdə elə qorxu vardı ki!.. "Xalq düşməni" sayılan ərəb əlifbasilə çap olunmuş Firdovsinin "Şahnamə"si də... Qurani-Kərimi tanıyan anam qonşunun əlindən tutdu:

– Neynirsən, bacı, bu, Allahın kəlamıdı! Apar, qoy Hacı Cavad məscidinə. Allah bilən məsləhətdi.

Qonşular bir-birini bu misilsiz bəladan qoruyurdular. O müsibətlər içindən anam ulu Füzulinin külliyyatını necə, harda gizləyib saxlaya bilmişdi? Möcüzəydi...

1939-cu ildə artıq ərəb əlifbasını bilirdim. Sonra gizli müəllimlərim əvvəlcə şəkili axund Hacı Fərəcullah, daha sonra da uzun illər şeyxülislam olmuş Şeyx Mövsüm Həkimzadəydi. Şəkili axundun mehribanlığından sonra Həkimzadənin tələbkarlığı məni elə sıxırdı ki, get-gedə daha da artan təhlükələri nəzərə alan anam dərslərimin yarımçıq kəsilməsinə mane olmadı. Həmin illər bədii tikməyə yaman həvəsimişdim. Füzuli üçün ürəyim göynəyirdi. Şeyxdən ərəbcə Rəsuli-Xudanın bir kəlamını eşitmişdim: "La fəta illa Əli, la seyfə illa Zülfəqar" (yəni Əlidən başqa cavan, Zülfəqarından başqa qılınc yoxdur. Bu Əlinin qoçaqlığını, zülfəqarın kəskinliyini göstərməkçündü). Bu kəlamı dəyişib əlvan tikməylə Füzuliyə bağlamışdım, tikmişdim: "La şairə illa Füzuli və la kitaba illa divanəhu" (yəni "Füzulidən başqa şair, divanından başqa kitab yoxdur"). Bu əlvan tikməylə kitablarım yığılan qarğı ləməni bəzəmişdim. Bir dəfə anamın ərəbcəni yaxşı bilən qohumlarından biri bizə gəldi. Yazını oxuyub dəhşət içində pıçıldadı: "Bu nədir, qızım? Anana yazığın gəlmir? Bir namərd oxuyub deyər: Necə yəni Füzuli divanından başqa kitab yoxdur? Bəs Leninin, bəs Stalinin kitabları? Onda nə cavab verərsiz?

Beləliklə, Füzuli babam haqqında məhəbbət dolu tikməm ləğv olundu...

Ömrüm uzunu nəsrlə yazsam da, şeir ilk və son diləyim olub. Anamın südüylə əmmişəm bayatılarımızı, Füzulinin, Sabirin ecazkar poeziyasını. Bildiyim dillərdə – Azərbaycan türkcəsi, fars, türk, Orta Asiya xalqları, ingilis dillərində xeyli şeir toplanıb hafizəmə. Amma iki şair ürəyimin də, beynimin də fatehi olub: Füzuli və Sabir... Onlardan ayrı ayım-günüm olmayıb. Füzulinin "Külliyyatı və Divanı" ilə Sabirin "Hophopnamə"si həmişə gözümün önündə, başımın üstündə, kədərimin də, sevincimin də, məhəbbətimin də, nifrətimin də şəriki, iştirakçısı olub. Heç yerdə cavab tapa bilmədiyim suallarıma cavab veriblər. XVI yüzillikdə Füzuli, XX yüzillikdə Sabir. Sabiri tez-tez ziyarət etmişəm. Sabir poeziya günlərində iştirakım təbii sayılıb. Sabirlə bağlı sənədli roman yazmışam. Amma Füzuli... Amma Füzuli türbəsini ziyarət ən ülvi arzularımdan biri kimi qalırdı. Anam Füzuli məzarını 1917-1918-ci illərdə ziyarət edib. Əlbəttə, Kərbəlada Rəsuli-Xuda nəvəsi İmam Hüseynin ziyarətinə gedəndə. Atası Kərbəlayı Əliheydər Hafizi-Quran imiş. Amma Şərq poeziyasını da sevər və sevdirərmiş bircə qızına. Anam o günlərini elə canlı, elə aşiqanə təsvir edərdi ki, elə bilərdim gözümlə görmüşəm o sehirli dünyanı: "Əlimdən tutdu, məqbərənin önündəki səmti – türbəni göstərdi: "Hüseyn xuddamı, şairi-şəhir Füzulinindir" dedi. Anamın təsvirində Füzuli türbəsini dönə-dönə ziyarət etmişdim". Bu həsrətli, bu müqəddəs arzuma 1977-ci ildə qovuşacaqdım. Anamın vəfatından düz qırxca gün sonra Moskvadan kağız aldım. Yazıçılar İttifaqı yazacağım tarixi romanla bağlı Bağdad arxivlərində işləyə bilməkçün mənə bir aylıq ezamiyyə verirdi. Allahım! İl yarım əvvəl ora ərizə verəndə anama demişdim. Mənə hər dəfə Kərbəladan, Nəcəfül-əşrəfdən, Samirədən, Kazimeyndən, Şəddül-Ərəbdən keçməklərindən elə şirin, elə həvəslə danışırdı ki, görməmişdən o yerlərə "bələd olmuşdum", görmüşdüm sanki. Anam o yerləri görəcəyimə sevinir, mənə indidən qiyabi bələdçilik edirdi. Hərdən xəyala dalıb, "Füzuli türbəsini görəndə məni də xatırla", ya da "Əliheydər babanın oradakı qəriblər məzarlığındakı qəbrinə tərəf fatihə verərsən" – deyirdi.

Füzulinin türbəsini ziyarət etmək həvəsilə Bağdad kitabxanasındakı işimə fasilə verdim, Kərbəlaya yollandım. Amma... Kərbəlada Həzrəti-imam Hüseynin məqbərəsi qarşısında heç bir türbə yox idi. Dümdüz, geniş, asfalt meydan... Belədə deyiblər: "Lələ köçüb, yurdu boş". Sən demə, İmam Hüseyn məqbərəsinin qarşısında aparılan işlər zamanı, "imamın sadiq xidmətkarı" (xuddamı), vaxtilə sədaqətinə, imanına görə burada dəfn olunmağa layiq görülmüş Füzuli türbəsi, mənzərəni fəqir görkəminə görə pozurmuş, onu ləğv ediblər. Bəs Kərbəla xuddamının üç dildə: ərəb, azəri türkcəsi və fars dillərində misilsiz abidələr yaradan şairin qəbri haradadır? Buradaca qeyd edim ki, təkcə İraqda deyil, Suriyada da belədir. Orada da Nəsiminin kimliyini və qəbrini tanıyan ərəb ziyalısı yox kimidir. 1986-cı ildə Suriya səfərim zamanı vətəndən apardığım qızılgülləri məzarına səpmək üçün min müsibətlə Dəməşqdən Hələbə getdim. Şahidi oldum. Halbuki vaxtilə ustad Rəsul Rza, övladlarının yardımı ilə Nəsiminin məzarını tapmış, ilk dəfə Azərbaycanda onun yerini, ünvanını göstərmişdi. Ustadın ruhunun məni əfv edəcəyinə ümid bəsləyərək bildirməliyəm ki, o zamankı xatirələrimdə bizim məmurun sözünə uyub Nəsimi məzarının tapılmasını başqasının adıyla bağlamışdım... Bir sözlə, Bağdadda "Füzuli məzarı hardadır?" deyə soruşduğum ərəb ziyalılarından dəqiq məlumat ala bilmədim. Üç cür cavab verdilər:

– Aparıb qəriblər qəbiristanlığında dəfn ediblər.

– Sandığa yığıb imam Hüseyn bargahında saxlayırlar. Yiyəsi çıxıb aparsın.

– Özlərinə zəhmət verib eləməyiblər. Onsuz da, müsəlmanın qəbri itib-batmalıdır. Eləcə türbə sökülüb. Şairin cənazəsi asfaltın altında qalıb...

Yanğımı təsəvvür edin! Bakıya qayıdanda məsələni mərhum professor Abbas Zamanova və Xalq şairi Bəxtiyar Vahabzadəyə danışdım. Yazıçıların az sonrakı qurultayında o zaman MK-nın birinci katibi Heydər Əliyev iştirak edirdi. B.Vahabzadə Füzulinin itkin məzarından danışanda Abbas Zamanov məni qaldırdı. H.Əliyevə müraciətlə, "Bu yaxınlarda İraqdan gəlib, qoy o danışsın" – dedi. "Orada heç bir türbə, məzar yoxdur", – deyə indicə danışdığımı söylədim.

Füzuli qalıqlarının Azərbaycana gətirilməsi zərurətini B.Vahabzadə, A.Zamanov və mən irəli sürdükdə Heydər Əliyev dedi: "İndi orada müharibə gedir. Rəsmi tələb mümkün deyil. Amma siz alim və yazıçılar İraq konsulluğuna, lazım gəlsə, BMT-yə müraciət edin. Arxanızda durmuşam".

Bu arxa-köməkdən ruhlanıb İraq konsulluğuna müraciət etdik. Cavab ala bilmədik. O zaman belə eşitdik ki, guya Türkiyə ziyalıları məqbərə sökülləndə ulu Füzulinin qalıqlarını Türkiyəyə aparmaq istəyiblər. Amma bizim o zaman İraqda çalışan əməkdaşımız mane olub.

"Leyli və Məcnun" məhəbbətinə, onların göz yaşlarından əmələ gələn hovuza, böyük aşiqin – Füzulinin üzündə daşa dönmüş kədərə baxanda, doğrudan da, sənətin bu möcüzəsinə heyran olursan.

Təsadüfən Şamaxı şəhəri yaxınlığındakı Bayat kəndinin tamamilə boşaldılıb yerində tənəklər əkildiyini öyrəndim (böyük qardaşa şərab lazım idi). Müxtəlif təşkilatlara müraciət etdim ki, Azərbaycandakı Bayat adlı kəndlər Füzuli qəbiləsilə bağlıdır. Qan yaddaşımız olan bu kəndlər dağıdıldıqca, heç olmasa, onların yerində xatirə qoyulsun. Məni eşidən olmadı. Söz verdilər, iş görmədilər. Onda heykəltaraşa üzərində belə bir cümlə yazılmış qranit lövhə sifariş verdim: "Böyük Füzulinin mənsub olduğu Bayat qəbiləsi kəndlərindən biri burada yerləşirdi". Gedib Bayat kəndi bulağının üstündə yer seçdim. Burada, yol üstündə bir qaya qoyulmasını, min zəhmətlə hazırlatdırıb Şamaxıya gətirdiyim qranit lövhənin o qaya üstünə həkk olunmasını xahiş etdim. Yerli hökumət söz verdi, iş görmədi. Lövhə indi də kiminsə anbarında durur. Kaş ustadın 500 illik yubileyində işıq üzü görəydi, yerini tutaydı. Onsuz da, bu

torpaqları qəsbə çalışanlar abidələrimizi, Hun, Bayat və başqa qəbilələrlə bağlı kəndlərimizin adını yer üzündən siliblər.

Füzulinin İstanbulda daha çox varlı paşaya bənzəyən heykəlini görmüşəm. Amma onu da görmüşəm ki, türk alimi Agah Sırrı Levendin Bakıda daha əvvəl qoyulmuş Füzulinin möhtəşəm abidəsi önündə gözləri dolub, "Allah, Allah, bu necə möcüzədir?!" – deyib. Onu da görmüşəm ki, türk yazıçısı Yaşar Kamal Nəsimi yubileyində deyib: "Kaş Yunus Əmrə, Qaracaoğlan da sizin olaydı ki, onlara da belə səviyyəli yubileylər keçiriləydi".

Beləydik! Qeyrətimiz vardı. Ulu babalarımızı, böyüklərimizi gəncliyə tanıdır, onların ruhunu şad etdiyimiz kimi, gənclikdə də vətənpərvərlik, millətin yetişdirmələri üçün öyünmək, iftixar hissi tərbiyə edir, onlara layiq övladlar olmağı aşılayırdıq. Bəs indi nə olub bizə? Füzulinin adını daşıyan torpaqları kimlərin ayaqları murdarlayır? Hanı qeyrətimiz? Ulu Füzulinin, çoxlarına himayət göstərən Natəvanın, cəngisi qanımızı coşduran Üzeyir bəyin vətənində kimlər meydan sulayır? Hanı qeyrətimiz? Nədən bu günə qaldıq? Öz qəhrəman babalarımıza, dünya şöhrəti qazanmış ulularımıza, onları və bizi yetirən vətən torpağına məhəbbətimiz harda qaldı, kim unutdurdu o müqəddəs hissi bizə? Ulu Tanrım, özün saxla bu milləti!

**26 mart 1994**



## Nəsimiylə bağlı xatirəm[66]

Gülmə, oxucum! "XIII-XIV yüzilliklərdə yaşamış şairlə bağlı sənin nə xatirən ola bilər?" – deyə gülümsəmə! Bir zaman sənə eşq müğənnisi Füzuliylə bağlı xatirələrimdən danışmışdım. O macəralar çox qəribəydi. Füzuli! Məhəbbətin ağlar gözü, məhəbbət himni yazan Füzulinin, elə bil dərdlərindən bir zərrəsi də mənə keçmişdi. Füzuliylə bağlı xatirələrim olduqca kədərli, qəmliydi, o zamankı gənclikçün, mənimçün qorxuluydu.

Nəsimiylə bağlı xatirəm başqa səciyyə daşıyır. Nəsimi mənim həmvətənimdi. Daha doğrusu, ulularımın həmvətəni, anam, o poeziya pərəstişkarı, dərindən sevdiyi və çox yaxşı tanıdığı, illər keçsə də, ən xırda təfərrüatına qədər Şirvan, Şamaxı hadisələrini yadında saxlamışdı, bizə – mənə və qardaşlarıma danışdığı, dönə-dönə danışdığı, sevdirə bildiyi diyarın həmvətəniydi. Elə Füzuli də, deyəsən, eləydi. Çünki Şamaxının yaxınlığında gözəl, axar-baxarlı, mənzərəli yerində Bayat kəndi vardı. Çoxları (elə anam da, köklü şamaxılı, gözəl insan olan Niyazi Nəcəfov da) deyərdi ki, Füzuli həmin o Bayat kəndindənmiş. Ona qalsa, çox yerdə, çox adam deyər ki, Azərbaycanda Bayat kəndləri olub. Bəlkə, oralardanmış? Ağcabədidə, Qubada, Ucarda və s. Bayat kəndləri indi də var. Şamaxılıların, bayatlıların Bağdad və Kərküklə əlaqəsi varmış. Kərbəlaya gedənlər məktub aparıb-gətirər, orada qədim əqrəbalarıyla görüşməyi vacib sayarmışlar. Füzuli Bağdadi də adlanırdı.

Nəsimiysə İmaməddin Nəsimi Şirvaniydi. Qardaşı Şah Xəndan Julidəmu, Şamaxının "Şahxəndan" məzarlığında uyuyur. Julidəmu! Julidəmu Şah Xəndan. Hətta Füzuli nəslinin, Füzuli dərgahının ən böyük şairlərindən, məli-

[66] Cəfərzadə Ə.M. / "Qardaş qəbrindən" / "Ədəbiyyat və incəsənət" qəzeti – 1988, 15 yanvar / səh. 6
"Nəsimiylə bağlı xatirə" (16.11.1987) / Əzizə Cəfərzadənin Ev Arxivi, Fond "I" / Qovluq №21 / Sənəd №15/ vərəq – 6

küşşüəralarından Seyid Əzim Şirvani məhz bu qəbiristanda dəfn olunmağı arzulamış, vəsiyyət etmişdi:

*Mən öləndə "Şaxandan"da basdırın,*
*Çünki onun Şah Xəndanı vardır.*

Əməl eləmişdilər onun vəsiyyətinə. Hər dəfə Seyid Əzim məzarını ziyarətə gedəndə "Şahxandan" məzarlığının ortasında yerləşən Şah Xəndan Julidəmu türbəsinə baş əyməyi özümə vacib bilirəm.

Belə gətirdi ki, 1975-ci ildə Suriyaya getməli oldum. Ömrümdə birinci və axırıncı dəfəydi ki, turistlərlə birlikdə çıxmışdım səfərə. Turist dəstəsində Azərbaycan gözəli Leyla xanım Bədirbəyli, gözəl nasir və yazıçı Nahid Hacızadə arvadıyla birlikdə, mədəniyyət işçiləri, teleradionun bir sıra diktor və başqa işçiləri vardı. Bu dəstəyə qoşulub Suriyaya getməyimdə bircə məqsədim vardı: Hələbə getmək. Hələbdə möhtəşəm Nəsiminin, böyük vətəndaşımın – Nəsiminin, sevdiyim, bir sıra şeirlərini əzbər bilib çox vaxt oxuduğum, şeiriyyətinə, bədii ifadə vasitələrinə heyran olduğum Nəsiminin məzarını görmək. Buydu məqsədim.

Hələbə getmək imkanı olan kimi səfərimi Şamaxıdan başladım. Böyük Nəsiminin doğmaca vətəninə yollandım. Bilirdim ki, Şamaxıda, "Şahxəndan" məzarlığında Nəsiminin qardaşı Julidəmu təxəllüslü Şah Xəndanın türbəsi təzəcə bərpa olunub. Şeirin, poeziyanın qədrini, dadını, yüksək ideya əhəmiyyətini çoxdan dərk etmiş adamlarımız bu məzara gözəl asfalt yol salıblar. Getdim, qardaş qəbrindən qardaş qəbrinə səpmək üçün bircə ovuc torpaq götürdüm. Şamaxıya getdim. Şəhərin aşağı hissəsində (əslində, orada aşağı-yuxarı yoxdu) bütün həyətlər doludu qızılgüllərlə, şəbbularla, mixəkgülləriylə və başqa güllərlə. Həmin həyətlərdən bir neçəsinin darvazasını döyən kimi "buyurun-buyurun" dedilər. "Yox, gedirəm, – dedim, – Nəsiminin məzarını ziyarətə gedirəm, – dedim. Mənə bu qızılgüllərdən, verin, – dedim. Gedib Bakı bazarından ala bilərdim, amma o qızılgüllər Nəsiminin vətənindən olmaz, ətrini verməz doğma torpağın".

Yığdılar bir qucaq... Qızılgülləri özümlə götürüb təyyarəyə mindim... Və Moskvaya yola düşdüm. Deyəcəksiniz: "Suriya qulağuvun dibində. Moskvaya niyə gedib, yolunu ikiqat uzadırsan? "Amma o vaxt Sovet hökumətinin qanunu beləydi. Hansısa xarici ölkəyə getməli olsaq, əvvəl Moskvaya gedib, orada xarici pasport alır, qeydiyyatdan, nə bilim, nələrdən keçir, müəyyən təşkilatların "nəsihət və məsləhətləri"ni dinləyir, öz pasportumuzu təhvil verəndən sonra yola düşürdük.

Amma Dəməşq (Suriyanın paytaxtı, turizm səyahəti buradan başlanırdı) mehmanxanasına çatanda bizə dedilər ki, Hələbə gedə bilməyəcəksiniz. Niyə? Hələbdə vəziyyət ağırdır, mehmanxanalar zir-zibil, taxtabiti, ağcaqanadla doludu, vəziyyət pisdi, yeməyə şey yoxdu. Ona görə də sizin marşrutdan Hələb çıxarılıb.

Əlbəttə, yoldaşlar hamısı əski Yunan, İtaliya və s. nə bilim məzarlıqlarını, xərabələri görməyə getməli oldular. Mən şinəyib durdum. Dedim ki, "Mən ancaq Nəsiminin qəbrini ziyarətə gəlmişəm. Mən babamın qəbrini görməyə gəlmişəm". Sözləşməyə çıxdıq. Mənə dedilər ki, "Sovet turizmi tarixində bir nəfərin səfər etməyi mümkün olmayıb və mümkün də deyil". Mən dedim: "Onda hələ bizim təyyarə Dəməşq aeroportundadı. Hələ dörd saatdan sonra yola düşəcək. Məni geri qaytarın. Hələbsiz mənə Suriya lazım deyil. Buraya məhz babamın məzarını görməkçün turizmdən istifadə etmişəm. Siz marşruta salıb məni aldatmısınız. Mən ziyarətə gəlmişəm. Onun torpağından götürüb qardaşının məzarına aparmağa gəlmişəm. Bu qızılgülləri min əzabla onun – babam Nəsiminin məzarına səpməyə gəlmişəm. Başqa şey istəmirəm. Bu məsələlərlə turizmin Suriya nümayəndəsi bir ərəb məşğul olurdu. Tərcüməçi sözlərimi həmin ərəbə tərcümə etdikcə o, maraqla

məni gözdən keçirir, tam ciddiyyətlə etdiyim tələbimi dinləyirdi. Mütərcim tərcümə etdikcə düşünürdü o, Nəsimini tanımırdı, şübhəsiz... Və inandı ki, doğrudan da, babamın qəbrini görməyə gedirəm Hələbə. Olmasa, geri qayıdacağam. Çox mübahisələrdən sonra haraylasa zəngləşdilər, həmin cavan ərəbin yardımıyla mənimçün ayrıca adam ayırdılar. Hələbə yollandım.

Bu arzu çoxdan idi ki, sinəmdə qövr edirdi. Çoxdan idi ki, böyük şair və filosofumuz, İslamiyyətə orta əsrlərin ən ağır illərində rəxnə salan, İslam ruhanilərini titrədən, doğma ana dilimizdə yaranan poeziyamızın başında duran, insansevər Nəsiminin, insan oğlunu təkcə bəşərin deyil, ümumən, bütün ulu qüvvələrin fövqündə görən, insanı ən uca, qüdrətli qüvvələrdən belə güclü sayan:

*Həq mənəm, həq məndədir, həq söylərəm,*
*Gör bu əsrarı, nə müğləq söylərəm,*
*Sadiqəm qövlümdə, səddəq söylərəm,*
*Mənsurəm, daim "Ənəlhəq" söylərəm,*

– deyən şairimiz, haqqı, doğrunu, həqiqəti hər şeydən uca tutan şairimiz İmaməddin Nəsimi Şirvaninin qəbrini görmək istəyirdim. Onun, o insan oğlunun son dəfə nurlu günəşə baxdığı, son dəfə nəzm qoşduğu:

*Zahidin bir barmağın kəssən, dönüb həqdən qaçar,*
*Gör bu miskin aşiqi sərpa soyarlar, ağlamaz,*

– deyə son dəfə, son nəfəsini çəkərkən belə ağalar-qullar dünyasına, cəhalət avamlıq, nadanlıq dünyasına, mürtəce nə varsa, hamısına meydan oxuduğu və nəhayət, sığışmadığı cahanda əbədiyyətə qovuşduğu Hələb şəhərini görmək, məzarı önündə baş əymək arzusundaydım. Moskvaya, Dəməşqə, Xomsa və oradan da Hələbə çatanacan o qızılgülləri soyuqda nəfəsimlə isitdim, istidə sərin, dalda yer axtardım, bütün səfər yoldaşlarım (xüsusilə, Ofelya Məmmədova, Xalq artisti, dövlət mükafatı laureatı, ilk kino aktrisamız – Gülçöhrəmiz Leyla Bədirbəyli, Səmayə xanım və başqaları) çiçəklərimi mənimlə birlikdə qorudular, əllərindən yerə qoymadılar, qorudular ki, Nəsiminin məzarına çatdıra bilim.



Xomsda yollarımız ayrılmış, mən Hələbə yollanmışdım. Bir neçə saatdan sonra canımı da bu güllərin – solmaqda olan bu vətən ətirli çiçəklərin üstünə qoyub ulu, uca yerli, bəşərsevər babamızın, İNSAN sözünün sığmadığı iki cahandan da ucalan Nəsiminin qəbrini ziyarət edəcəyəm. Yolları, ətrafdakıları görmürdüm. Hələbə çatar-çatmaz Hələbdəki konsulluğa getdim. Azərbaycanlı balası Sabir Ağabəyov idi konsul. Nəsimi məzarının sorağını vaxtilə Azərbaycana o çatdırıb. Xalq şairimiz Rəsul Rzanı buraya o gətirib. Bütün vətəndən gələnlər kimi məni də Nəsimi iqamətgahına o apardı. Küçənin başında "Şareyn Nəsimi" (Nəsimi küçəsi) yazısını görəndə ürəyim dağa döndü. Qədim, çoxdanın daş binası. Darvazanın üstünə, qədim daş üzərinə "Təkyeyi-Nəsimi" sözləri qazılıb. Nəsimi təkyəsi. Gümbəzsiz, minarəsiz bir ibadətgah, bəlkə də, vaxtilə hürufilərin, Nəsimi əməldaşlarının yığılıb söhbətlər apardığı, Hürufi ibadəti etdikləri bina. Həyət başdan-başa Nəsimi davamçılarının və bu gün də Hələbdə Nəsimi familiyasını davam etdirənlərdən ölənlərin qəbiristanıdır. Böyük otaqda Nəsimi yatır.

Dəməşq-Hələb qalasının altında Nəsiminin evi, binası, həyəti yerləşir. Binanın qapısı bağlıydı, əlbəttə. Ətraf evlərdən heç nə ilə seçilmirdi. Qapısında yazı filan yoxdu. Ərəblər onu tanımırlar. Qoca darvazanı açdı. Həmin bu qocanın nəslindən iki nəfər cavan Bakıda bizim Tibb İnstitutunda oxuyurdular. Bir oğlan, bir qız. Əhvallaşdı mənimlə. Biləndə ki, Azərbaycandan-Bakıdan gəlirəm, uşaqları soruşdu... Və məni içəri apardı. Həyətin içi qəbirlərlə doluydu. Bu qəbirlər həmin nəsildən (dediyim kimi, bugünəcən nəsil davam edir) olanlarındır. Bu nəsildən kim vəfat edirsə, gətirib burada dəfn eləyirlər. Baş daşları, necə deyərlər,

bir-birinə, çiyin-çiyinə dayanıb, qəbirlər bir-birinin qarnına girib. Otaqların hamısını gəzmədim. Məni apardılar Nəsiminin məzarı – sənduqəsi olan otağa. Üzərində, əlbəttə, sonralar salınmış yaşıl ipəkdən örtük vardı. Qəlbim titrədi, qürbətdə yatanlarımızın hamısı kimi, bu qərib məzara da. Qədim Bəktaşi, qədim Hürufi xanımlarının elədiyi kimi gətirdiyim qızılgüllərin ləçəklərini ayırıb onun məzarının ətrafına səpməyə başladım... Və əyilib torpağından bir ovuc götürdüm, bu bir sıxma torpağı apardığım balaca torbaya tökdüm. Üç dəfə qəbrin... yox, Nəsimimizin başına dolanıb məzarın baş daşından öpdüm, ayrıldım. Ürəyim deyirdi: Sən qürbətdə qərib olsan da, unudulmamısan. Səni həmvətənlərin ziyarətə gəlir. İlk dəfə məzarının yeri, soydaşın "Nəsimilər" haqqında məlumatı xələflərindən böyük bir şair – Rəsul Rza vermişdi. Gəlmişdi sənin məzarını görməyə, səni ziyarət etməyə. Hərçənd ki, buradakı indiki konsul məzarın yerinin aydınlaşmasını özünə çıxır.

Nəsimi məzarından aldığım torpağı Sabir poeziya günlərində şairsevərlərlə birlikdə "Şahxandan" məzarlığına aparıb qardaş torpaqlarına qarışdırmağı məsləhət gördü dostlar.

Gətirdiyim torpağı Nəsimi məzarının üzərinə səpdim, qardaş torpağını qardaş qəbrinə qarışdırdım. Həmin düyünçəmə Nəsimi məzarından bir sıxma torpaq götürdüm, onu da "Şahxəndan"ın məzar torpaqlarına qarışdırmaq üçün. Qızılgüllərin ləçəklərini qopardım, qədim Hürufi qadınların adətincə, onları böyük şairin ayaqları altına səpdim, qərənfilləri pəncərəsinə və təkbir məzarların üzərinə qoydum. Bütün bunları edərkən fasiləsiz olaraq İmadəddin Nəsiminin şeirlərini oxuyurdum.



Əgər ruh deyilən bir şey həqiqətdirsə, o böyük bəşər oğlu səsimi eşidirdi. Böyük otağın ortasındakı taxta şəbəkəyə alınmış sənduqənin üzərinə üstü yazılı ipək örtük örtülüb. Nəsiminin ölümündən sonrakı 600 illik ömrü bu daşlarda, bəlkə də, dərviş-Hürufi dostları, əməl dostları ilə birlikdə əvvəl özü, sonra da onu burada dəfn edən dərviş qardaşları və əqrəbasının toplandığı bu otaqdan başlanıb. Bu divarlar Nəsiminin səsini eşidib. Bu torpaq döşəmə üzərində Nəsimi ayaqlarının izi qalıb, bəlkə. Həyətdə ulu insanın nəslinə və əməl dostlarına məxsus məzarlar durur. Şəhərdə o ulu nəslin törəmələri yaşayır. Hətta o nəsildən iki gənc Azərbaycanda, Bakıda təhsil alıb.

Məhəbbətim də, sevincim də, kədərim də göz yaşları ilə birlikdə Nəsiminin şeirlərinə qarışıb məzarına tökülürdü.

**Bakı, 16 noyabr 1987**



*Əzizə Cəfərzadə Nəsiminin qəbri üstündə (1988)*

Deyəsən, arzu-kamıma çatdıqdan sonra başım ayıldı və ətrafıma baxmağa başladım. Bir qadın, bir ana, bir qadınlar şurası nümayəndəsi kimi, əlbəttə, birinci növbədə hələbli,

dəməşqli, ümumən, suriyalı qadınların və uşaqların vəziyyəti maraqlandırırdı məni. Küçələrdə görünən təkbir qadınlar hələ də – XXI əsrin astanasında belə çadralıdırlar. Hələ də müəssisələrdə qadın işləmir. Bazarda, dükanda, ictimai iaşə və ticarət şəbəkələrində qadın görmək, qadın əlinin nəvazişini hiss etmək mümkün deyil. Suriya bizə dost ölkədir, indi Sovetlər İttifaqının yardımı ilə bu yerlərdə böyük işlər görülür. Lakin əski qadın-kişi anlayışı hələ yerində durur. Dedilər: "Qadın anadır. Övlad tərbiyəsi ilə kimsə məşğul olmalıdır. Qoy elə bu ananın özü olsun". Bu fikrə etiraz etməmək olar. Lakin bir şərtlə: Qadın özü bu günün, inkişaf etmiş əsrin qızı olsun. Təəssüf ki, Suriyada "Cənab Zeynəb camei" adlanan məsciddə gördüyüm hallar insanın canına üşütmə salır. Burada arvadlar məscidin içində də rübəndli, üzü-gözü bağlı qadınlar körpə, xəstə uşaqları məqbərənin gümüş şəbəkəsinə çırpır, onları çığırda-çığırda, ağlada-ağlada şəfa istəyirlər. Orta əsrlərin dəhşətli fanatizmini, cəhalətini bu gün öz gözlərimizlə gördük. Və məscidin gözəl sənət əsəri nümunəsi olan bəzəklərini seyr edib zövq ala bilmədik. Ağlar səslər, çığırtılar, göylərə qalxmış ümidli-ümidsiz əllər, nalələr, uşaq bağırtıları insanı dəhşətə gətirirdi. Təəssüf ki, XXI əsrin vətəndaşlarının başına gətirilən bu müsibətdən, mürtəce din xadimlərinin törətdiklərindən sanki divarın o biri üzündə yeni həyat qurmağa can atan qabaqcıl ziyalıların xəbəri yoxdur və ya gücləri çatmır.

Və mənə elə gəldi ki, bu torpaqlarda yatan ölümsüz Nəsimi məhz elə bu hallara qarşı altı yüz il əvvəl şirin canından keçib.

Arzumu yerinə yetirmişdim. Artıq Suriyada heç bir işim yox idi. Amma bununla belə qayıdıb gəldim Dəməşqdə turist dəstəsinə qoşulmağa məcbur idim. Onsuz da, qayda pozulmasından nigaranların ürəyi yerinə gəldi və Sovet turizm tarixində cəmi bir nəfər Hələbə səfər etdi. Cəmi bir nəfər. Qədim məzarlıqları, yunan, italyan və s. şəhər xərabələrini, abidələrini gəzdik. Səyahət bitdi. Bakıya gələn kimi Şamaxıya getdim. Həmin gətirdiyim torpağı, Nəsimi məzarının, möhtəşəm Nəsiminin yatdığı torpaqdan bircə sıxmanı "Şaxandan" məzarlığında yatan, onun qardaşı Şah Xəndan Julidəmu qəbrinə səpdim...

Deyə bilərəm ki, Nəsimiynən ilgili xatirəm bu qədərdir. Amma yox, tam bu qədər deyil. 1970-ci ildə mən doktorluq dissertasiyamı müdafiə edəndə Güney Azərbaycandan gəlmiş, burada bizim Əlyazmalar İnstitutunda bir xəttat işləyirdi. Darabadi. Dostlaşmışdıq. Hürufizmlə əlaqəmi, Nəsimiyə məhəbbətimi bilirdi. Axı qəzəllərini tez-tez təkrar eləyirdim bir yerə yığılanda. Darabadi mənimçün Nəsiminin iki beytini gözəl xətlə yazıb (gözəl xəttat idi, Əlyazmalar İnstitutunda elə tərifəlayiq, təkrarsız yazıları durur ki! Allah ona rəhmət eləsin) mənə müdafiəm münasibətilə hədiyyə elədi, yadigar verdi. Üzərində doktorluq müdafiəsi münasibətilə təqdim olunduğunu da yazmışdı:

*Həq mənəm, həq məndədir, həq söylərəm.*
*Gör bu əsrarı, nə mütləq söylərəm.*
*Sadiqəm qövlümdə, səddəq söylərəm,*
*Mənsurəm, daim ƏNƏLHƏQ söylərəm.*

Rəhmətlik Darabadinin Nəsimidən aldığı bu iki beyt gözəl müqəddəs kimi evimdə, gözümün qabağında divarda asılıdır. Hə, deyəsən, Nəsimiylə bağlı əhvalatım qurtardı. Amma məhəbbətim bitmədi, bitməyəcək də.

**Yanvar, 1988**

## Böyük Nazimlə kiçik bir görüş[67]

Böyük Nazim Hikmətlə o kiçik görüşdən bəhs etmədən öncə anamdan danışmalıyam. Axı türk sözünü dilimizə gətirə bilmədiyimiz o dövrlərdə türk ədəbiyyatıyla məni anam tanış etmişdi. Əbdülhəq Hamid yaradıcılığının vurğunuydu. "Məqbər"i əzbər bilirdi. Xanımının vəfatına böyük bir rekviyem-poema-mərsiyə yazmış Hamidin həyat və ölüm, insan və məhəbbət tərənnüm edən misralarını öz nəfəs qədər həzin səsilə elə oxuyardı ki:

*Siz söyləyiniz bunu, çiçəklər,*
*Zaye nədən oldu həp əməklər?*
*Quşlar, o fidanı varmı bəklər?*
*Ol nura açıldımı fələklər?*
*Qurtlarmı yeyir o cismi nazi*
*Ya dəvətə gəldimi mələklər.*

İlahilər kimi oxuyardı Faruq Nafizin "Zeynəb"ini anam:

*Annesi dün Zeynəbə "Mələk yavrum" diyordu,*
*Bu sözü eşidincə qız məraq etdi, sordu:*
*"Mələk yavrum" nə demək? Doğrusu, anlamadım, –*
*Mələk qanadlı olur, hani benim qanadım?*
*Annesi verdi cavab: – Üç yavrum daha vardı,*
*Onlar qanadlanaraq əlimdən uçmuşlardı...*
*Həpsi tənha burakdı bu talehsiz qadını,*
*Bari sən uçma – deyə qopardım qanadını.*

[67] "Böyük Nazimlə kiçik görüş (Nazim Hikmət)" (28.07.2002) / Əzizə Cəfərzadənin Ev Arxivi. Fond "P" / Qovluq №21 / Sənəd №32 / vərəq – 3



Gözlərim yaşarardı. Axı anam da dörd övlad itirmişdi. Nəsə Nazim Hikmətin "Üç ölüm" adlı şeirini də ondan eşidib əzbərləmişdim. Əllinci illərin ortalarında Moskvaya doktoranturaya göndərilmişdim. O zaman Qiyabi Pedaqoji İnstitutun kafedra müdiri işləyirdim. Moskvada mehmanxanalarda yer ala bilmədim. Həmvətənim qızlardan Moskvada aspiranturada oxuyanlar məni öz yataqxanalarında yerləşdirdilər. Səfərim qısaydı, sənədləri verib qayıdacaqdım. Elə bu zaman qızlarımız məni aspirantura binasının üst qatında yaşayan türk kommunistlərlə tanış etdilər. Hamımız bilirik ki, o zaman kommunist də olsa, türklə tanışlıq nə deməkdi. Söhbət Nazim Hikmətdən düşdü. Bütün qorxulara baxmayaraq Nazim bizə doğmaydı, türkə, elə özümüzə məhəbbətimizdi, əzizdi. Arzumu duyunca məni o zaman Peredelkinodakı yaradıcılıq evinə apardılar. Otağa girəndə özümü elə itirmişdim, inana da bilmirdim ki, bu sarışın, alagöz, gülümsər, tənumənd kişi şeirini məftunluqla əzbərlədiyim Nazim Hikmətdir. Əyləşdirdi, vəziyyətimi anlayır, sadə suallar verir, kimliyimlə maraqlanırdı. Dəqiq yadımda deyil, deyəsən, mənə belə bir sual verdi: "Şeirlərimdən oxumusanmı?"

Düzü, şeir adı gələndə ürkəkliyim keçdi, təklifsiz filansız oxumağa başladım, əvvəlcə bir məktəbli kimi şeirin adını da dedim.

### "ÜÇ ÖLÜM"

*Madam ki, vurmayan yenə qəlbimdir,*
*Bəmbəyaz bir gülü qoqlarkən ölsəm,*
*Bir pala[68] altında can versəm də bir –*
*Madam ki vurmayan yenə qəlbimdir.*

[68] Pala – qılınc

*Bu aqşam korsanlar[69] bekliyor pusu,*
*Əngindən əngina taşan rüzgarla.*
*Kölgələr alçalıb qərarınca su*
*Qalyonlar[70] çatışdı qıcırtılarla.*
*Hər pala yararkən yer-yer göyləri,*
*Boşluğa fışqırdı bir ənsədən qan.*
*Boşluqda bir kölgə irəli-geri*
*Sallandı, devrildi, öldü bir korsan.*

*Son bahar, son bahar gəldinmi yenə? –*
*Xəstələr bəklərkən son günlərini.*
*Bəyaz bir gül alıb bir qız əlinə,*
*Sıqıyor o şəfa bulmaz yerini.*

*Birdən için-için bu hıçqırıq nə?*
*Bir-iki damla qan qızartdı gülü;*
*Kölgələr enirkən sarı bənzinə,*
*Əlindən düşdü gül – şimdi qız ölü.*

*İşıqlar solğundu avizələrdə,*
*Siyah tüllər ilə üryan qadınlar,*
*Loş kölgələr kimi qıvrındı yerdə,*
*Bu axşam xaqanın son matəmi var.*
*Avutmaq istiyor səbəbsiz dərdi,*
*Şəhvətlə damarlar şişmiş boynunda.*
*Bir büllur qədəhi sıqıb can verdi,*
*Ən son bakirənin bəyaz qoynunda.*

[69] Korsan – dəniz qulduru
[70] Qalyon – gəmi



– Qız, sən bunu nərdən bilirsən? 18-19-larda levendken[71] yazılmış, kendim de unutmuşdum.

– Anamdan, – dedim, – anam türk poeziyasının aşiqidir.

– Salamlarımı yetir, qız, sağ olsun, sənin dilinlə ilk gəncliyimi yaşatdı bana (Şairin ruhu bağışlasın məni, xətam varsa. Nə qədər keçib və yaşım – yaddaşım 80-i ötüb, qərəz). O kiçik görüş buydu. Üç ölüm mənzərəsi: Dəniz qulduru, vərəmli gənc qız, harın hökmdarın həyatla vidalaşdığı mənzərələri o böyük sənətkar üç həyati lövhədə, gəncliyində yazsa da, məharətlə canlandırmışdı.

Sonralar o, Bakıya gələndə, elə şəxsiyyətlərlə əhatə olunmuşdu ki, uzaqdan baxır, yaxınlaşmağa ürək eləmirdim. Təkcə bircə kiçik görüş də Nazim Hikmət görmək səadəti bəxş etmişdi mənə.

**Bakı, 28 iyul 2002**

[71] Levend – matros, dənizçi

# Ustad Şəhriyar ilə bağlı xatirəm[72]

Keçən dekabrda Əhməd Cavad adına Mədəni Maarif Texnikumunda ustad Şəhriyar günü keçirilirdi. Mən də dəvət olunmuşdum. Səhnədə Arazın üstündən keçən Xudafərin körpüsünü xatırladan dekorlar qurulmuşdu. Hər iki tərəfdə qadınlı-kişili, bir-birinə həsrət bacı-qardaşlar, o taylı-bu taylı bu həsrət körpüsündən bir-birinə əl eləyir, qovuşmaq, dərdləşmək, söyləşmək arzusu ilə yandıqları aydın duyulurdu. Texnikumun tələbələri bu ayrılıq bəlasını elə yanğıyla ifa edirdilər ki, gözlərim yaşarmışdı. Yadıma çox keçmişdən bir xatirə düşdü: Haçansa, ili dəqiq yadımda deyil, bir neçə şair və nasir Naxçıvana görüşə getmişdik. Culfalıların arzusuyla orada da görüşümüz keçirildi. Hamımız yerli hökumətdən xahiş etdik ki, Araz boyu uzanan o məşum tellərin – sərhədin yanına buraxsınlar bizi. Yaxından, heç olmasa, bu taydan o taya, doğma torpaqlarımıza baxaq.

Axı qatar getdikcə rus əsgərləri əlisilahlı tamburlara yığışır, kimsəni, hətta pəncərədən belə o taya baxmağa qoymurdular.

İndi əlimizə girəvə düşmüşdü. Dəmir tellər sərhəd boyu, heç olmasa, oraya bir baxa bilək... Bizə imkansız görünən bu xahişimizi yerinə yetirdilər, icazə verdilər, ürək döyüntüsüylə tikanlı məftillərin qarşısına buraxdılar. Həsrət gözlərimiz o taya zilləndi. Sanki kimisə, əzizlərimizdən birini görəcək, əl eləyəcək, qəlbimizin dərin telləriylə bir-birimizə dərdimizi danışacaq, iki yüz illik həsrətimizə

[72] "Ustad Şəhriyar ilə bağlı xatirələrim" (07.01.1998) / Əzizə Cəfərzadənin Ev Arxivi. Fond "P" / Qovluq №21 / Sənəd №4 / vərəq – 5



bircə anda qovuşacaqdıq. Əlbəttə, bilirdik ki, bu mümkün deyil, nə haylaşa, nə də əl eləyə bilərdik.

Bir xasiyyətim var. Qızdırmalı, ya da bikef, dərdli olanda bayatılamağa başlayıram. Elə onda da belə oldu. Məndən asılı olmayaraq Araz bayatılarını astadan söyləməyə başladım. Anamdan eşitdiyim kimi:

*Arazıyam adanın,*
*Quluyam şahzadanın,*
*Çıxaydım qabağına*
*Sizə gələn qadanın.*

*Araza gəmi gəldi,*
*Suların nəmi gəldi.*
*Dur bir, qol-boyun olaq,*
*Ayrılıq dəmi gəldi.*

*Arazda buz ağladı,*
*Yanda yarpız ağladı.*
*Oğlan o tayda qaldı*
*Bu tayda qız ağladı.*

*Arazı ayırdılar,*
*Qumiynən doyurdılar.*
*Mən səndən ayrılmazdım,*
*Zülmiynən ayırdılar.*

*Araz aşanda mələr,*
*Kür qovuşanda mələr.*
*Analar balasından*
*Ayrı düşəndə mələr.*

Birdən sağ çiynim üstündə hıçqırtı eşitdim. Möhkəm iradəli "Azərbaycan deyəndə" kimi şeirlər müəllifi tanıdığım və sevdiyim mərhum, çox tez dünyasını dəyişmiş şair qardaşım Tofiq Bayramın hıçqırdığını gördüm:

– Bacım, – dedi, – niyə yanan ürəyimin üstünə od ələyirsən?

Arazı göstərdim:

– Qardaşım, – dedim, – on addımlığımızda axan Arazdan bir qurtum götürə bilərəmmi ki, yanan ürəyinə səpim?

Yaralı getmişdik, arzu-həsrətlə getmişdik, bitkin, bitab, qırıq könüllə tərk etdik tikanlı məftilləri. Dişlərimizlə, dırnaqlarımızla qoparmağa hazır olduğumuz o tikanlı məftilləri. Bax, elə texnikumun səhnəsində ölümsüz şair Şəhriyarın, "Məliküş-şüəra" Şəhriyarın dərviş komasını işıqlandıran çırağın ölgün kölgəsində oturmuş ustadın xəyalı o Culfadakı səhnələri yadıma saldı.

İkinci xatirəm bir qədər xoş idi, bəxtəvərdim. Bir gün mənə dedilər ki, "Ədəbiyyatımızın bilicisi, Türkiyədən gəlmiş bir nəfər səni görmək istəyir". Əlbəttə, "Xoş gəlir. Gəlsin" – dedim. Gəldi. Bu, İranla əlaqəmiz, get-gəlimiz olmadığından Türkiyə vasitəsilə Bakıya gəlmiş Ə.Azərlu idi. Vaxtilə radioda çıxışlarımla əlaqədar məktublar almışdım ondan. Buradaca onu da deməliyəm ki, o zamanlar MK-nın iznilə Bakıda üç nəfər şəxs xaricdən məktub, mətbuat-qəzet, jurnal alırdı. Bunlar: Xalq şairi, Cənub həsrətli şeirlər müəllifi Süleyman Rüstəm, ədəbiyyatımızı, kitablarımızı Türkiyə və İrana göndərən, bu sahədə olduqca böyük işlər görən professor Abbas Zamanov və məndim. Beləcə, Azərlunu qiyabi tanıyırdım. "Azərbaycanın aşıq və şair qadınları" haqqında radioda çıxışlar edəndən sonra Azərlu, Niqabi və başqa dostlar mənə xeyli məlumatlar göndərirdi. Burada onu da deməliyəm ki, məni indiki cənublu və



güneyli soydaşlarımıza tanıtdıran radiomuz, "Dalğalarda görüş" və başqa güneyli proqramlar olub. Tez-tez çıxış edir və radio yoluyla əlaqəm genişlənirdi. Qərəz, Azərlu gəldi. Kimliyini nişan verdi. Gizli yollarla arzusuna çatdığını – Bakını gördüyünü söylədi və... Və çantasından iki şəkil çıxardı. Bu, ustad Şəhriyarın Azərluyla birlikdə çəkdirdiyi şəkildi. Arxasında yazılmışdı: "Bəraye-banuye-danişməndo ədib Əzizə Cəfərzadə təqdim şode, Təbriz, aban mah, Seyid Məhəmmədhüseyn Şəhriyar" şəkil Təbrizdə – ustadın evində 15 oktyabr 1986-cı ildə çəkilmişdi.

Ustadın xəttiylə qara mürəkkəblə yazılmış mətn sonra Azərlunun xəttiylə kiril əlifbasıyla altda yazılmışdı. Görünür, ustad bunu ona görə yazdırmışdı ki, güman etmişdi, ərəb əlifbasını və fars dilini bilmirəm. Məzmunu beləydi. "Alim xanım və ədib Əzizə Cəfərzadəyə təqdim olunur". Üst tərəfdə Azərlu yazmışdı ki, bu şəkil çəkilib ustadın evində, onun səksən iki yaşı var.

Azərlu dedi ki, ustad Şəhriyar sizin "Dalğalarda görüş" verilişlərindəki bütün çıxışlarınızı maraqla izləyir. Bəzən mən də orada oluram. Elə həmin günlərin birində sizi dinlədikdən sonra ustad bu şəkli yadigar yazıb göndərdi".

Az qala, ağlımı itirmişdim. Deməli, məni orada, təkcə ədəbiyyatşünaslar, ədəbiyyat həvəskarları deyil, ustad Şəhriyar da eşidir?! O anda bundan böyük bəxtəvərlik hiss eləmirdim.

Üçüncü xatirəm bir az sonralara aiddi. 1988-ci ilin sentyabrında millətlərarası türkoloji konqresinə getmişdim. Orada sevimlimiz Cavad Heyətlə görüşdüm. Dərdləşdik. Bakıda rəhmətlik Abbas Zamanov tanış etmişdi bizi. Cavad Heyət çox bikef idi. Səbəbini soruşdum. Dedi ki, "Ustad Şəhriyar Tehranda mənim xəstəxanamda yatır. Halı ağırdır. Nigaranam".

Bu ağır gündə Cavad Heyət türk dünyası ədəbiyyatıyla bağlı məruzələr oxunan salona daxil oldu. Elə qapının ağzında görünən kimi hamı onun dərdli simasından nəsə baş verdiyini duydu. Yaxınlaşdı, qucaqlaşdıq. "Ustad keçinib. Dünyasını dəyişib. İndicə Tehrandan xəbər verdilər", - dedi. Hamı bir-birinə dəydi. Donub dayanmışdım. Ağlaya da bilmirdim. Boğazım qurumuşdu. Bircə onu bilirdim ki, Yaponiyadan, ABŞ-dan, İngiltərədən... bir sözlə, bütün dünyanın tanınmış türkoloqları mənə yaxınlaşıb başsağlığı verir. Əvvəlcə heyrət etdim. Mən kiməm axı? Sonra düşündüm. Mən burada bu dəmdə azəri türk qadınıyam, onun qızı, bacısı, anası əvəziyəm. Mənə də başsağlığı verilməyib kimə verilməlidir? Kimsə məni qolumdan çəkə-çəkə mərhum soydaşımız, əvəzolunmaz alim, türk ziyalılarının çoxunun "xocam" adlandırdığı İstanbul Universitetinin professoru Məhərrəm Erginin otağına apardı. Buradan Cavad Heyət və mən Azadlıq radiosuna müsahibə verməliydik. Elə onu danışdım ki, dünyanın tanınmış türkoloqları dünyanın ən ünlü şairi ustad Şəhriyar haqqında mənə başsağlığı verirlər indicə: onun qızı, bacısı, anası əvəzinə. Mən də onlara qoşuluram.

Əlbəttə, Əhməd Cavad adına Mədəni Maarif Texnikumunda mənə söz veriləndə dedim ki, gözəl şair Söhrab Tahir, şəhriyarşünas alim Sabir Əmirov olan yerdə Şəhriyar kimi ümumtürk dünyasının dahi şairi haqqında danışa bilmərəm. Onun "Heydərbabaya salam", "Azərbaycan" haqqında əsərlərini onlar daha gözəl təhlil edirlər. Güneyli şairlərimizdən mərhum Biriyanın qəzəllərini, Şəhriyarın "Heydərbabaya salam"ını əzbər söyləyən Anam! Ruhun şad olsun. Tikanlı məftillər götürülüb. İndi Şəhriyarın yubileyini o taylı-bu taylı təntənələrlə qeyd edirik. Bütün türk dünyasına gözaydınlığı!



Daha o texnikumda bu dediklərimdən başqa nəsə söyləyə bilmədim. Şəhriyar amalının pərəstişkarları, sizə də salam.

**Bakı, 7 yanvar 1998**

## Ustad Qafur Qulamla görüş[73]

1952-ci ilin sentyabr ayı idi, doktorluq dissertasiyam üçün material toplamaqdan ötrü Özbəkistanın paytaxtı Daşkəndə getməli idim. Orta Asiyaya birinci səfərim olduğundan bir qədər narahat idim. Yazıçılar İttifaqında narahatlığımı Xalq şairi Məmməd Rahimə söylədim. "Qafur Qulamla dostam, – dedi, – narahat olma, məktub verərəm, aparарsan, sənə nə kömək lazım olsa, edər". O zamanlar Qafur Qulamı kim tanımırdı? Bizim xalqımız üçün böyük Səməd Vurğun nə idisə, özbəklər üçün də Qafur Qulam, məncə, o idi. Azərbaycan deyəndə Səməd Vurğun, Özbəkistan deyəndə Qafur Qulam göz qabağına gələrdi. Əlimdə Rahim müəllimdən bir kağız olduğu üçün arxayınca Özbəkistanın gözəl paytaxtı Daşkəndə gəldim və birbaşa Yazıçılar İttifaqına getdim. Azərbaycandan gəldiyimi bilincə məni dərhal qəbul elədi və kağızı oxuyan kimi, "Hə, necədilər Səməd, Rahim? Onların əzizi bizim də əzizimizdir, adın da ki, bunu bildirir". Katibinə tapşırdı və onun köməyilə dərhal yer, kitabxana məsələlərim həll olundu. Səhəri gün tezdən Qafur Qulam ustad məni düz-doğru qədim Daşkənd bazarına apardı. Burada böyük şairin ən sadə xalq arasında necə tanınıb sevildiyinin şahidi oldum. Hər bir çörəkçi istəyirdi ki, Qafur Qulam ustad çörəyi məhz ondan alsın. Ustad xırda, bizim qoğallara bənzəyən çörəklərdən aldı, qaydalarınca mənə də kəsdirdi. Xeyli bazarı dolaşıb milli çörək-xörək, meyvə və s. satanlara tamaşa edəndən sonra məni evlərinə qonaq apardı. Həyat yoldaşı Mükər-

[73] Cəfərzadə Ə.M. / "Ustad Qafur Qulamla görüş" / "Ədəbiyyat və incəsənət" qəzeti / 1979, 1 iyun / səh. 3
"Ustad Qafur Qulamla görüş" (01.06.1979) / Əzizə Cəfərzadənin Ev Arxivi, Fond "P" / Qovluq №21 / Sənəd №7 / vərəq – 3



rəmə xanım gözəl özbək plovu bişirmişdi. Böyük ailəsi, arvad-uşağı ilə birlikdə bütün günü onlarda keçirdim. İri həyətindəki üzümlüklər xiyabanını gəzdirib fəxrlə, həvəslə üzümlərin növündən danışdı. Arabir şeir oxuyurdu, birdən farsca bildiyimi duydu və bundan sonra fars dilində danışmağa keçdik. Hafizdən, Sədidən və hər iki xalqlarımızın farsca yazan şairlərinin şeirlərindən danışmağa başladıq. Ona, heç olmasa, bilmədiyi şeir oxumaq istəyirdim. Şərq ədəbiyyatını elə bilirdi ki, bu mənə çox çətin mümkün olacaq idi. Lakin birdən yadıma XIX əsrin birinci yarısında yaşayıb-yaradan azərbaycanlı şairə Tahirə Qürrətüleyn düşdü. Bir müxəmməsini ustada oxumağa başladım, elə ilk sətirlərdən müxəmməs öz ahəngi, gücü, bədii vüsəti ilə onu maraqlandırdı, böyük maraqla dinləməyə başladı. Daha da ruhlandım və beş bənddən ibarət müxəmməsi axıracan oxudum. Ustad xanımına tərəf döndü, diqqətlə onu süzdü, neyçünsə hansı mübahisəninsə davamına, cavabına bənzəyirdi bu baxışlar. Sonra da soruşdu:

– Bu gözəl müxəmməs kimindir, dedin?

Tahirə Qürrətüleyn haqqında məlumat verdim, Babilik hərəkatına başçılıq etdiyini, Nəsrəddin şahın nökərləri tərəfindən edam olunduğunu, gözəl natiq, misilsiz şair və qənirsiz gözəl – bir "möcüzə idi" – deyib sözümü qurtaranda o dərin fikrə getmişdi. Elə bilirdim ki, məni dinləmir. Halbuki dərhal:

– Xalqlarımız belə möcüzələri az yetirməyib. Təəssüf ki, İslam dini adlarını belə mühafizəyə imkan verməyib, – dedi.

Sonra yerindən qalxıb kitabları, qədim əlyazmaları toplanmış rəflərinə yaxınlaşdı, dörd kitab götürdü, mizinin arxasına keçib üstünü yazdı və mənə uzatdı:

– Al, mən, onsuz da, kitablarımdan sənə yadigar verəcəkdim. Bu əlyazmalar isə sən oxuduğun müxəmməsin xatirinə çatır. Tahirə Qürrətüleynə və sənə.

Gözlərimə inanmadım. Ustadın mənə hədiyyə etdiyi əlyazmalarının biri Caminin çox mükəmməl külliyyatı, ikincisi Hafizin çox nəfis əlyazma divanı idi. Qalan ikisi çap kitabı idi. Biri ustadın 1951-ci ildə Daşkənddə özbəkcə çap olunmuş "Moskva dinclik tayancı" (Moskva sülhün dayağıdır), digəri isə yenə də Daşkənddə rusca yenicə çapdan çıxmış "Doğma yurdun səadəti" kitabları idi.

Sonuncunun üstündə ustad bu sözləri yazmışdı:

"Əzizəm Əzizə. Əgərçi aralarımızdakı yol uzun, mənzil də çoxdur, lakin könüllərimiz bir-biri üçün çarpıb durmaqdadır". Özbəkcə yazılmış bu iki misra nəzmin altında "Qafur, 19/IX/52" yazılıb. Bu, ustad Qafur Qulam ailəsində övlad məhəbbətilə qəbul olunduğum gözəl günün tarixidir.

Özbək sovet poeziyasının ən gözəl nümunələrini yaradan ustadın qələm dostları və şagirdləri bu gün respublikamızın qonağı olan əziz günlərdə xalqlarımızın həmahəng döyünən qəlbi xalqlar dostluğundan güc alır.

**1 iyun 1979**



# ELM XADİMLƏRİ HAQQINDA XATİRƏLƏRİ

## Akademik, qəhrəman, şəhid![74/75]
## (Ziya Bünyadov)

**19.01.1981**

... Günün ikinci yarısında "Yazıçı" nəşriyyatına çağırdılar. Romanıma ("Bakı-1501") verilən iki rəyi göstərdilər. Birini Fərman Kərimzadə yazıb. Yerinə olsaydım, mənə onun romanını versəydilər, qəbul etməzdim. Redaksiya düz iş görməyib. Heç bir nəzakət qaydalarına riayət etməyib. Fərmanın özünün bu nəşriyyatda eyni mövzuda Şah İsmayıl Xətayidən bəhs edən romanı çıxır. Mənimkini də veriblər ona. Aylarla qalıb onda. İndi də onun romanı redaktədədir, məndən əvvəl çıxacaq... Əh, Allaha ismarlayıram. Amma ikinci rəy – akademik Ziya Bünyadovun rəyi əladır. Çoxunda da haqlıdır. Mən, əsasən, Rumlunun kitabından istifadə etmişəm. Görünür, Xətayi nəslinə – Səfəvilərə yaxın olan bu adam xeyli üzgörənlik eləyib. Fərman deyir ki, Ş.Xətayini alçaldıb cəllada çevirmişəm. Ziya deyir, "üzünü ağartmışam, o cəllad idi". İndi gəl, çıx içindən, Əzizə! Ziya haqlıdır. O, tariximizi gözəl bilən obyektiv adamdır. Milli qeyrətinə də söz ola bilməz. Rəyini oxuyan kimi işə başladım. Səhifə-səhifə böyük qayğı və dəqiqliklə göstərib qüsurlarımı, sağ olsun. Ad məsələsində də haqlıdır. "Bakı-1501" elə məndə də şərtiydi. Yaxşı tanışlığım olsaydı, gözündən öpərdim Ziyanın.

---

[74] Əzizə ananın bu kitabını tərtib edirkən onun akademik, Sovet İttifaqı Qəhrəmanı, görkəmli tarixçi, şərqşünas Ziya Bünyadov haqqında xatirələrinin olmaması məni təəccübləndirdi. Axtardım... gündəliklərinə baxdım və tapdım. Xatirələri gündəliyində yazıbmış. Bu gündəliklərdən götürülmüş xatirələri sizə təqdim etməyi özümə borc bildim – T.I.

[75] Gündəlik (10.01.81-dən 31.12.99-a kimi) (10.01.1981) / Əzizə Cəfərzadənin Ev Arxivi. Fond "P" / Qovluq №157 / Sənəd №9 / vərəq – 394

**21.01.1981**

Ziya ilə görüşdüm. Maraqlı, mehriban müsahibmiş. Təəssüf ki, gec tanımışam. Həm eyni ayda, eyni ildə doğulmuşuq[76]. Bu il dekabrın 21-də onun da altmış yaşı tamam olur. Verdiyim bircə ədavalı halvanı elə məmnuniyyətlə aldı, "Müharibədən əvvəl görmüşəm bunu..." deyişində bu səmimiyyət duyulurdu. Bir sıra tarixi məsələlərdən bəhs etdik romanla əlaqədar. Vaxtilə Qanadaykən mister Martininin Səfəvi xanədanına mənsub sənədləri İsfahanda yeddi il yaşadığı vaxt topladığını, onunla 1965-ci ildə Afrikada olduğum zaman söhbətlərimizdən danışdım. Sonra da Ziyaya yazdığım əsərdə Həsən Rumludan istifadə etdiyimi söylədim. Razılaşdı bir çox yerdə mənimlə. Təkcə Zübeydə xatun haqqında qəti durdu. Xəlifə qızı, ərəb qızıdır, vəssalam, – dedi. Kitab mübadiləsinə razılaşdıq.

"Yad et məni" – "dərvişin hədiyyəsi yarpaq, yazıçınınkı kitabdır" – deyə təqdim etdim. Romanın adı açıq qaldı. "Bakı-1501" adı məni elə tutub, elə adət etmişəm ona ki, ayrıla bilmirəm.

**24.01.1981**

... Səhər saat onda Ziya ilə görüşdüm. Mənə Ankara Universitetinin İlahiyyat fakültəsində İslam tarixi kursu aparan doktor Bəhriyyə Üçokun "İslam dövlətlərində qadın hökmdarlar" (Ankara, 1965) kitabını və yenə eyni müəllifin "İslam dövlətlərində bəzi nayıblar" bülletenini (Ankara, 1967) verdi. Bir saatdan çox söhbət etdik, Şirvanşahlar, xüsusilə, Eldəgizlər sülaləsi haqqında. Səbəbsiz deyilmiş, o məni istiqamətləndirirmiş. Cahan Pəhləvanın qızı Cəlaliyyə Naxçıvanda hakim olub, iqta torpağıydı, vəzir-vəkili də qadın! Ondan yaz. "O dövrü Ordubadi yazıb", – dedim. Qəbul etmədi: "Qılınc və qələm" macəradır, müasirləşdirmədir. Vaxtilə əlimizdə bunlar olmayanda o

[76] Ziya Bünyadovun doğum ili sənədlərdə nə üçünsə 1923-cü il göstərilib – T.İ.



istədiyini yazıb, hamı da inanıb. Amma sözün əsl mənasında, tarixi romanı sən yazırsan və bu bizim xalqa zəruridir.

... Bugünkü görüşdə gənclərin "nə yazırsınız, planınız?" sualına elə beləcə də dedim:

– Xalqımızın alim oğlu, Sovet ittifaqı qəhrəmanı, məşhur tarixçi, şərqşünas akademikimiz Ziya Bünyadovun tələbi ilə Cəlaliyyə yazacağam. Odlayıb Ziya məni öz cəsur çıxışlarıyla, indi də söhbətləriylə: "Elə biqeyrətlərimiz var. Mən Mixtar Qoşa alban deyib özümə düşmən qazanıram. Mirzə İbrahimov bir şey bilmədən səhvən erməni olduğunu təkrarlayıb, mənbələri tanımayanların, bilməyən anlamazların dəyirmanına su töküb".

Bu gün Ziya Bünyadovu dəfn etdilər. İki gün əvvəl onu bıçaqla, gülləylə qətlə yetirtdirənin və yetirənin bircə zərrə türk qanı yoxdur.

Ziya – elmin öndə gedəni... Ziya – Azərbaycanda ən igid qəhrəman... Ziya – Azərbaycanda ən düz və dik üzə danışan, qorxmaz vətəndaş kişi.

Alimlər alimi, igidlər igidi, qəhrəmanlar qəhrəmanı, kişilər içində yeganə başıpapaqlı, mərdlər içində mərd... Ona atılan güllə millətimin ürəyinə, mənim ürəyimə dəyib. Mənə məlum olan o məşum iclasda dediyi sözlər şüuruma həkk olunub:

– Ermənistandan qovulan azəriləri göndərək Qarabağa, hərə öz açarını versin bir erməniyə, desin, məni bax, bu evdən qovublar, get, sahiblən.

Kamran Bağırov dinləmədi. Etmədi və...

Bir dəfə də məni müdafiə edərək "Bakı-1501"i tənqid edənlərə verdiyi cavab: "Əzizə haqlıdır. Şah İsmayıl elə şəxsiyyətdir ki, onun laklanmağa ehtiyacı yoxdur!"

29 dekabrda telefonla məni belə təbrik elədi: "Səni bir il qocalmaq münasibətilə təbrik etmirəm, səninçün 3 kitab qoymuşam katibənin yanında, deynən, aparsınlar".

Gətirtdim. Birində o tərifə qısqanc olan Ziya 26.12.1996-cı ildə yazmışdı: "Kitabəlfütuh"un üstündə "Əzizə xanıma eşq olsun". İbn Əl Əsirin "Əl kitab fit tarif" kitabının üstünə "Ustad Əzizə xanıma ən xoş arzularla".

İstəyirəm, bütün dünyaya bar-bar bağıram:

*Haray, ellilər, haray,*
*Şana tellilər haray,*
*Bəndimi sel apardı,*
*Əli bellilər haray!*

Yetmiş dörd il yaşa, faşizmlə qəhrəmanlıqla vuruş... və miskin qatil əlində öz qapının ağzında ŞƏHİD ol! Allah!

Qardaşım Məmməd də bir qısa şeir yazıb bu barədə:

### SÖNDÜ ELMİN ZİYASI

Namərdlərin əlilə söndü elmin Ziyası...
Ürəkdə sevinənlər möhkəm tutacaq yası...
İtirmədi vətəni böyük haqqı-sayını –
Bıçaqla, güllələrlə axır verdi payını.
Oyadacaqmı zaman yüz minlərlə qafili?
Bilinəcəkmi onun, görən, şəksiz qatili?

**23.02.1997**



20.12.1998

Ziya! Qardaşım, dostum!

Üzərinə avtoqraf yazdığın kitabların əlimi yandırır. O igid, o qəhrəman, o yenilməz Ziya Bünyadov millətin bağrından qoparıldı. Güllləbaran olundu şəhidlərimiz kimi. Bu gün dinlər haqqında ensiklopediyasını mənə gətirdilər. Ölümündən sonra çıxıb. Üstündəki şəklini görə bilmirəm, qardaşım. Sənin kimi oğula qıyan alçağın hər tikəsi qulağıycan olsa da, ürəyim soyumaz. Kitaba üz çəkdirdim. O ağıllı, o nüfuzedici baxışlarını görə bilmirəm.

# Abbas Zamanov haqqında xatirələrim[77]

Abbas Zamanovu nə zamandan tanıdığım yadıma gəlmir. Elə bilmişəm, anadan olan günümdən tanımışam bu Kişini. Əslində, məgər Abbas Zamanovla kimisə tanış etmək lazım idi? O, elə hamını tanıyırdı. Mənimlə də eləcə "tanış olun, filankəs" söz-söhbəti olmayıb. Ədəbiyyata gözümü açandan tanıyıram onu... Və elə həmin vaxtdan da aramızda olduqca inamlı münasibət əmələ gəlib. Uzun illər Respublika Əlyazmalar Fondunda çalışanda tez-tez gələr, istədiyi mənbəni dərhal "başımız üstündə" təqdim edərdik.

İl yadımda deyil, bir dəfə gəldi, məni kənara çəkdi, əlindəki yazılı vərəqləri verib dedi: "Çapa verilmədi, mane oldular. Bax, gör, məsləhət bildiyin şöbəyə daxil elə. Qoy mənim də fikrim tarixdə qalsın". Getdi, vacib məsələ idi o dövr ədəbi sərkərdələrindən biri üçün. Çap olunmamasının səbəbini anladım. Öz adıyla "fraqmentlər şöbəsi"nə daxil etdim. İnamımız bir qədər də artdı.

Nizami adına Ədəbiyyat tarixi muzeyində çalışdığı zaman bir görüşdə böyük iftixar hissi ilə dedi: "Ay sənin "Bakı-1501"in Türkiyədə Cəlaloğlunda çap olunub". Düzü, sevinmək əvəzinə qorxdum. Mən hara, Türkiyə hara? Cəlaloğlu kimdir, nəçidir? Məni hardan tanıyır? Roman haradan əlinə keçib, kim verib, nə çap eləyib? Bilinsə, mən bu suallara cavab verməliyəm. Abbas müəllim isə deyirdi: "Mənə məktubla xəbər veriblər, hələ kitabı göndərməyiblər, göndərəndə göstərərəm". "Allah eşqinə heç kimə demə", – deyə də bilmədim. O mərdlikdə adama belə söz

[77] Cəfərzadə Ə.M. / "Ədəbiyyatımızın mübariz təbliğatçısı" / "Bizim əsr" qəzeti / 2003, 1 aprel / səh. 6
"Abbas Zamanov" (21.02.2003) / Əzizə Cəfərzadənin Ev Arxivi, Fond "I" / Qovluq №21 / Sənəd №33 / vərəq – 2



demək olardı? Xaricdən aldığı bütün ədəbi məlumatları yiyələrinə çatdırır, sevindirməyə çalışırdı. Amma bir məktubun belə arxivindən kənara çıxmağına izin verməzdi.

1974-cü ildə BDU-ya keçəndən sonra yaxınlığımız bir qədər də artdı. Tez-tez ədəbi müsahibələr edirdik ikilikdə. O dövrdə tez-tez çap olunan kitablarıma özününküymüş kimi sevinir, hər kitabımdan bir neçə nüsxə aldırır, mənə üstünü müxtəlif adamlara, ədəbi müəssisələrə yazdırır, Türkiyə, İran və başqa məmləkətlərin görkəmli şəxsiyyətlərinə, kitabxanalarına göndərirdi. Ömür yoldaşı Asiyə xanımdan eşitmişdim ki, hər ay maaşından yüz manat (o zaman bu PUL idi) həmin işlərçün poçtlara xərcləyir.

Yoldaşımla – təyyarəçi Məmməd İbrahimovla da dostluq edirdi. Tez-tez onlara gedirdik. Hərdən deyirdi: "Bu Məmmədi təyyarəçi olsa da, gərək Yazıçılar İttifaqına qəbul edək. Üzvlərin bəzisindən daha çox Məmməd iştirak edir xeyirdə-şərdə. Poeziya günlərində".

Bir çox türk və Türkiyədə yaşayan soydaşlarımızla, kərküklülərlə də o məni tanış etdi (ünvan verdi və s.).

Günlərin birində universitetdə məni təkləyib qalın bir kitab verdi: "Oxu, – dedi, – bunu sən yazmalısan, sən yazacaqsan, – təkrar etdi. Kitabda Güney Azərbaycanın səadəti uğrunda canından keçmiş şair-müəllim Mərziyyə xanım Üsküvidən söhbət gedirdi. Mövzu məni, doğrudan da, bərk götürdü. Əgər çox kiçikkən vəfat etmiş qızım Səma sağ olsaydı, Mərziyyəylə yaşıd olardı. Qəlbimdə əkiz bala itirmiş ana hissi oyandı. Elə bildim balalarım məktəb bitirməmiş, dünyanın heç bir ləzzətindən tam almamış, nakam, toysuz, böyük ALLAHIN insana bəxş etdiyi ömrü yaşamamış tərk ediblər. Bu ana fəryadıydı. Millətin belə bir fədakar şairi itirməsindən qopan fəryad idi məqalə. Çapını da Abbas müəllim özü təşkil elədi. Sonra əllidən çox surətini fotoprintdə çıxartdırıb bildiyi yerlərə, şəxslərə göndərdi. Şair Sabir Rüstəmxanlı buna əks-səda olan gözəl şeir də yazdı...

Xatirələr çoxdur, aramıza girib bizi salışdıranlar da tapılırdı. Amma Abbas Zamanov nəzərimdə həmişə ədəbiyyatımızın yayılması üçün əsl fədakar şəxsiyyət kimi qalıb. Bu sahədə ikinci belə adam tanımıram, desəm, yanılmaram.

Allah bizə ədəbiyyatımızın, sənətimizin, əsl doğru tariximizin təbliği üçün belə canından-malından keçən, mübariz, millətini sevən şəxsiyyəti bir daha qismət eləsin. Və hamımızın dərs deməsə də, sevimli müəllimimiz kimi əbədi xatırlayacağımız, xatırladıqca həm sevinəcək, həm də kədərlənəcək, itkisinə yanacağımız müəllimimizə rəhmət eləsin.

**21 fevral 2003**



## Paklıq rəmziydi o...
## (Qulu Xəlilov)[78]

"Professor Qulu Xəlilovdan danış", – dedilər, xəyalımda bütöv bir aləm oyandı. Bizə, elmimizə, sevdiyi xalqına ürəkdən bağlı olan Qulu qardaşım tez dəyişdi dünyasını. Zahiri sərtliyi ilə daban-dabana zidd olan nəcib, kövrək ürəyi zəmanənin keşməkeşlərinə davam gətirmədi, məncə.

Nə zaman tanış olmuşam Qulu Xəlilovla... indi deyə bilmirəm. Əvvəlcə onu yazılarından, dövri mətbuatdakı məqalələrindən tanıyırdım. Sərrast jurnalist, bir yetik alim kimi məqalələrini oxuyurdum. Bu məqalələrdə heç kəsin vəzifəsinə, şöhrətinə, ad-sanına üz görmədən deyilən cürətli, cəsarətli fikirlər məni xeyli maraqlandırmışdı. Az-az olurdu belə cürətli, sərrast fikirlər deyən münəqqidlər. Sonralar bədii yazılarını oxudum. Bunların bir çoxu həyatı, səhhətiylə bağlıydı. Kitabları... Nəsə bir zaman gəldi ki, dəyərli kitabları çapdan çıxdı. Hələ bundan xeyli əvvəl Qulu Xəlilovla tanış olandan sonra bir də gördüm ki, özüm də ummadan, gözləmədən, səmimi qardaş, hər şeydən əziz əməl dostu, düşüncə dostu tapmışam, fikirlərimiz bir-birinə elə uyğun gəlirdi ki, heç kəsə üz görməmək, heç kəsə baş əyməmək, qürur, cəsarət... bunlar idi Qulu Xəlilovu nəzərimdə səciyyələndirən, sevdirən mənə. Qardaş tapmışdım.

Bu zaman "Aləmdə səsim var mənim" romanım çapdan çıxdı. O vaxtacan Qulu Xəlilov haqqımda mətbuatda danışmamışdı. Hekayələrimdə, sonra ilk böyük povestim olan "Əllərini mənə ver"də, görünür ki, elə də diqqəti cəlb eləyən şey görməmişdi. "Aləmdə səsim var mənim"

---

[78] Cəfərzadə Ə.M. / "Paklıq rəmziydi o" / "Torpaq dərdli insan" (Qulu Xəlilli xatirələrdə) kitabı / Bakı: Şuşa / 2000 / səh. 119-122
"Paklıq rəmziydi o... (Qulu Xəlilov)" (10.05.2000) / Əzizə Cəfərzadənin Ev Arxivi, Fond "P" / Qovluq №21 / Sənəd №14 / vərəq – 4

çıxandan sonra Qulu Xəlilov məni düşündü. Haqqımda danışmağa başladı. Danışdı... İki məqalə yazmışdı, bu məqalələrdə tarixi əsərə verdiyi qiymət, tarixdən yazmağın zərurəti ciddiyyətlə qoyuldu ortalığa. Yaxşı bilirdi ki, Azərbaycan tarixinin başına əngəllər gətirilib, qarmaqarış, anlaşılmaz, baş-ayaq hala salınıb, tarixi təhrif etdiriblər tarixçilərə. Yazıçıların boynuna böyük tarixi vəzifə düşüb. Bədii əsər janrından istifadə edərək əsl tarixi həqiqətləri olduğu şəkildə gənc nəslə çatdırmaq kimi böyük, şərəfli vəzifə. Məmməd Səid Ordubadi (xüsusilə, "Qılınc və qələm", "Dumanlı Təbriz" əsərlərində), Yusif Vəzir Çəmənzəminli, Ənvər Məmmədxanlı... eləcə də mən. Təhsinləriylə bərabər mənə bir irad da tutmuşdu: Romanda obrazların dilində ərəb-fars sözləri var. Söhbət əsnasında dedim ki, Qulu, əzizim, XIX yüzillikdə bu yüksək ziyalı, o zamankı ziyalı təbəqəsinin dili ancaq belə ola bilərdi. Onlar sadə xalq dilində danışa bilməzdi. Mədrəsə təhsili görmüşdülər. "Busitan", "Gülüstan"la tərbiyələnmişdilər. Fars dili, müqəddəs Quranın ərəb dili onlarçün əsas idi. Razılaşmadı. Amma məqalədə hər halda bu, qüsur kimi qeyd olunmuşdu.

Onunla bəzi görüşlərdə olmuşam. Suallara verdiyi cavablar, atəşin uca səslə, aydın dillə çıxışları, heç kəsə güzəştə getməməsi məni həmişə qane edib, heyran edib. Qəribədi ki, Qulu Xəlilovu düşünəndə yadıma hadisələr, detallar, görüş dəqiqələrində, saatlarındakı ciddi, ya məzəli əhvalatlar düşür. Həmişə nəzərimdə cürətli, mehriban, sədaqətli dost kimi canlanır. Çox paklıq, qızğınlıq, cəsarət, birüzlülük Qulu Xəlilovun birinci xasiyyəti idi. Elə bu da Qulu Xəlilov haqqındakı bütün xatirələrimi üstələyir. Bir gün Qulu Xəlilovla Yazıçılar Birliyində rastlaşdıq. Diqqətlə üzümə baxdı, həmişəki mehriban təbəssümüylə soruşdu: "Bacı, nə olub sənə?" Həmişə Əzizə xanım deyirdi. Görünür, üzümdə nəsə hüzn hiss eləmişdi ki, "bacı" dedi. Dedim: "Qulu, heç kəsə deməyəcəyəm, heç ailə üzvlərinə də, deyəsən, məni cərrahiyyə əməliyyatı gözləyir". Bir an



tutuldu. Sonra dərhal özünü ələ alıb, "Nədən qorxursan? - soruşdu.

– Bu yolu artıq dörd dəfə keçmişəm. Bu beşinci dəfədir. Bıçaq altına...

– Narahat olma! – dedi, – səsində elə nəvaziş, elə qüvvət varıydı ki. Sonra əlavə etdi. – Mən də dönə-dönə o bıçağın altına girmişəm, bacı. Narahat olma! Yatan ölmür, yetən ölür; o qədər ayaq üstündə, heç bir azar-bezar görməyən adamlar rəhmətə gedir ki. Allah bilən məsləhətdi. Ümidini Allaha bağla! Heç nə olmayacaq. Yaxşı çıxacaqsan bu beşincidən də. Sən mənim dözümlü bacımsan".

Güldüm:

– Elə birinci sinifdən aspiranturanı qurtarana qədər həmişə beş qiymətlə oxumuşam, beş almışam. Deyəsən, bu beşinci də, sən demiş, o ayağa çıxacaq.

Bir gün yenə hardasa yığıncaqda, vaxtı xatirimdə deyil, rastlaşdıq. Söhbətləşirdik. Bu dəfə o kədərli dəydi gözümə.

– Nə var, Qulu, nə olub sənə, qardaşım? – soruşdum.

Kədərlə:

– Narahatlar içində rahat adam olmaq, napaklar içində pak olmaq çətin məsələdir, – dedi.

Anladım. Auditoriyadan uzaqlaşdırmışdılar. O zaman idi ki, artıq "rüşvət" sözü elə yayılmışdı ki, elə yayılmışdı ki! Əlbəttə, Qulu kimi adamlara belə murdar yapışmazdı. O paklıq rəmziydi. O, təmizlik rəmziydi. O, düzlük, cürət, obyektivlik, barışmazlıq rəmziydi. Düz sözü dik üzə dediyi üçün onu düzlükdən qorxanlar uzaqlaşdırmışdılar. Çox təəssüf, çox təəssüf elədim ki, tələbələr belə bilgili, düşündürən alimin, yazıçının mühazirələrindən məhrum olacaqlar. Dönə-dönə təəssüf elədim.

Mənim alim qardaşım, filoloq elmlər doktoru, professor, Məmməd Cəfərzadə (o rəhmətə gedib) gözəl dialektoloq idi. Onu akademik M.Şirəliyevdən sonra dialektoloqlar içində ən yaxşı bilikli alimlərdən hesab edirdilər. Qulu Xəlilovun əsərlərini o da oxumuşdu Qulunun əsərlərini. Xüsusilə, bədii əsərlərini oxumuşdu. Deyirdi, "Qulu Xə-

lilovun dili ürəyə yatmış, sadə, canlı danışıq dilindədir". Çox bəyənirdi Qulunun dilini.

O zaman Qulu Xəlilovun dövri mətbuatda çap olunmuş məqalələrini, müxtəlif illərdə kitab halında yazılmış əsərlərini, Rəsul Rza haqqında, "Vaqif" dramı haqqında, sonra ədəbi, böyük sənət uğrunda mübarizələrdən bəhs edən əsərlərini oxumuşdum. Əlbəttə, bunlardan başqa, xüsusilə "Atam və mən", bir neçə dəfə çap olunmuş "Yaşamaq istəyirəm" əsərləri bizə, xüsusilə, təsir bağışlamışdı. "Atam və mən" əsəri ətrafında qardaşımla xeyli müzakirələr aparmışdıq öz aramızda. Onun "Yaşamaq istəyirəm" romanında həyata bağlılıq güclü idi.

Sən aramızdan, millətin kisəsindən tez getdin, Qulu qardaşım. Bu dövrdə və elə həmişə pak, heç bir ləkə götürmədən millətinə bacardığı xidməti edib dünyasını dəyişənlərin ruhuna rəhmət və salam olsun!

**Bakı, 8-10 may 2000**



# İnayətimizi xatırlarkən (İnayət Bəktaşi)[79]

Belə gətirdi ki, mən Akademiyanın Əlyazmalar İnstitutundan yenidən Universitetimizə qayıdandan az sonra İnayət Bəktaşi Türkiyəyə işləməyə getdi. Kollektivi imzalarıyla tanıyırdım, şəxsi tanışlığım o qədər də dərin deyildi. Mərhum kafedra müdirimiz, professor Mircəlal Paşayev, İnayət müəllimin XX əsr Azərbaycan ədəbiyyatı fənnindən dərslərini mənə həvalə etdi. Deməli, həmin ildə tələbələrimizə həm XIX əsr və həm də XX əsrin əvvəlləri ədəbiyyatından mühazirə oxudum. Bir kurs əvəzinə iki il eyni siniflərdə, eyni auditoriyalarda tələbələrə alışdım. İnayət müəllim qayıtdı, hər şey öz yerini aldı... Və bundan sonra İnayət müəllimlə yaxın tanışlığım, dostluğum başladı. Xanımı Şəfiqə xanımla birlikdə hər ikisini mehribanlıqlarına, səmimiyyətlərinə, başlıcası, qərəzsiz, gülər üzlərinə görə sevdim.

Bir dəfə soruşdum:

– İnayətinizi başa düşürəm. Amma bu Bəktaşi soyadı hardandı? Olmaya, məlum bəktaşilərə mənsubsunuz?"

Güldü, astaca dedi:

– Ay qız, eşidərlər, indiki zamanda...

Doğrudan da, o zaman hansısa din, dini təriqətlə bağlılıq üstündə incidilə bilərdi adam. Hər ikimiz sözü zarafata salıb üstündən keçdik.

Hər dəfə kitablarım çıxdıqca kafedraya gətirirdim və əlbəttə, İnayət müəllimsiz keçinmirdim. Yoxsa inciyərdi məndən. Günlərin birində, mənim altmış yaşım tamam olanda, əlbəttə, heç bir təntənəyə, yubileyə yol vermədən evimizdə bir məclis düzəltmişdim, bu da İnayət müəllimsiz, onun tələbi olmadan keçməmişdi.

[79] "İnayətimizi xatırlayarkən (İ.Bəkdaşi)" (14.03.2001) / Əzizə Cəfərzadənin Ev Arxivi, Fond "P" / Qovluq №21 / Sənəd №29 / vərəq – 2

Dekabrın 29-da yalnız kafedra üzvləri bizdə yığışdı. Hamı gəlmişdi. Ev kiçik olduğundan iş yoldaşlarım tək, ömür yoldaşları olmadan gəlmişdilər. Amma kafedra üzvlərindən iki nəfər yox idi. Bunlardan biri məlumdu: Bilirdim, elə hamı bilirdi ki, gəlməyəcək. Sevmirdi məni. Amma İnayət müəllimin yoxluğu, az qala, məni dəli eləmişdi. Bir söz deyib heç kəsdən soruşmasam da, ürəyimi yeyirdim: "Görəsən, niyə gəlməyib? Axı yığışmağımızı arzulayan birinci o idi. Girib çıxdıqca iş-güc arası qulağım çaldı ki, yoldaşlarımdan kimsə soruşdu: "İnayət müəllim niyə gecikdi?" Kimin nə cavab verdiyini bilmədim. Başım işə qarışıqdı, süfrə düzəldirdim. Birdən qapı açıldı, İnayət müəllim çiynindəki ağır yüklə içəri girdi. Qızarmışdı, tərləmişdi... Alnının tərini silmədən bağlamanı açdı. İri bir xalçaydı, üzərində böyük Nizaminin portreti toxunmuşdu. Sən demə, mənimçün hədiyyə almaq zəhmətini İnayət müəllim öz üzərinə götürübmüş, gecikməyinin də səbəbi buymuş. Məni xəcalət təri basdı, alim, pedaqoq, dost da olsa, tanınmış şəxsiyyət ağır xalçanı çiyninə alıb bizim o dəhşətli pillələri yuxarı qaldırmışdı. İndi həkimlər mənə həmin pillələri yalnız həftədə ikicə dəfə çıxmağa icazə verirlər. Və hər dəfə gözüm divardakı Nizami şəklinə düşəndə mehribanım İnayət müəllimi məhəbbətlə, rəhmətlə yad edirəm. Məclis o gələndən sonra daha da canlandı.

Bir gün söhbət arasında soruşdum:

– İnayət müəllim, bu rəssam hardan bilib ki, Nizami solaxaydı? Qələmi onun sol əlinə verib?

Güldü:

– Hə, fikir vermişəm, – dedi, – satıcıdan da soruşdum, dedi, iki cür gəlir, fabrikin əməlidi, rəssamın günahı yoxdu. Rəssam düz çəkib, qələm sağ əlindədi, fabrikdə xalça toxunanda əvvəl düz olub, sonradan aparatı dəyişib o biri tərəfindən götürüblər, olub solaxay".

Əzizim, İnayət müəllim, mənə elə yadigar sözlər qoyub getmisən ki, səni necə unuda bilərəm? Xüsusən, "Cəlaliyyə" çıxanda. Sənə bir az gec vermişdi qızlar. Az qalmışdı, əməllicə küsəsən məndən. Belə danışıram qəlbimdə hər dəfə xalçaya, ya kitaba gözüm düşəndə.



Başqalarını bilmirəm, amma mən bu nəcib, mehriban insandan bir kəlmə də ağrılı-acılı söz eşitməmişdim. Mərd tanıyırdım onu. Üzgörənliyi yox idi. Gülərüz idi. Allahımız onun ömrünü balalarına, sevdiklərinə versin, bağışlasın, rəhməti əskik olmasın ruhu üstündən. Özünün də ruhu bizə duaçı olsun. Yatdığın anamız torpaq pərqu olsun sənə, İnayət müəllim. Bütün Bəktaşi babaların inayəti səninlə olsun, amin!

**Səni həmişə rəhmətlə yad edən bacın**
**Əzizə Cəfərzadə**

**Bakı, 14 mart 2001**

## Ana, dilçi, professor[80] (Rəhilə Məhərrəmova)

1945-ci il idi. Müharibənin qurtardığı, amansız hərb illərinin geridə qaldığı, bütün dünya xalqları üçün qələbə ili – 1945-ci il. Azərbaycanda Elmlər Akademiyası təsis olunmuşdu. Buraya tanınmış alimlər, Akademiyanın fəxri üzvləri olan böyük şair və ədiblər cərgəsində özünü xırdaca, kövrək qəlbli quşcuğaz hesab edən bir qız gəlmişdi. Elm aləmində hələ tanınmırdı. Aspirant idi. Zəmanəsinin böyük dilçilərindən Azərbaycan dilinin doğma, əlvan çalarlarını, onun tarixini, köklərini, onun gələcək problemlərini dərindən öyrənən bu qız Rəhilə Məhərrəmova, S.M.Kirov adına Azərbaycan Dövlət Universitetini təzəcə bitirmişdi. Gəncliyi ilə məğrur, həyatının mənasını ər evi, bəzək-düzək bilən yaşıdlarının içində ömrünü tədqiqata həsr edən bu qız tez bir zamanda "Əbdürrəhim bəy Haqverdiyevin əsərlərinin dil və üslub xüsusiyyətləri" mövzusunda namizədlik dissertasiyası müdafiə elədi. Həm də müvəffəqiyyətlə. Bir qədər sonra bütün varlığı ilə tədqiqata cuman gənc alim, alovlu satirik Mirzə Ələkbər Sabirin yaradıcılığını öyrənməyə başladı. Böyük Sabir onu valeh etmişdi. Bu valehlik, bu məhəbbət Rəhilə Məhərrəmovanın yeni elmi qələbəsi, elmdə yeni zirvə fəth etməsilə nəticələndi. 1962-ci ildə "Sabirin satirik şeirlərinin leksikası" mövzusunda doktorluq dissertasiyası müdafiə etdi. Bu alim üçün böyük qələbə idi, çünki mövzu həm çətin idi, həm də bu sahədə örnək azlığı işini ağırlaşdırmışdı. Amma

[80] "Rəhilə Məhərrəməva – 60" (07.11.1983) / Əzizə Cəfərzadənin Ev Arxivi, Fond "P" / Qovluq №8 / Sənəd №24 / vərəq – 3



Rəhilə xanım öz çiyinlərində təkcə bu ağırlığı daşımırdı. Həm də akademiyanın Nəsimi adına Dilçilik İnstitutunda "Dil tarixi" şöbəsinin müdiri vəzifəsində çalışırdı. Üstəlik, möhtərəm bir alimin ömür yoldaşı və ana idi. Alimin öz işinə ciddi münasibəti, əsərlərinin, tədqiqatlarının sambalı ona təkcə respublikanın deyil, həm də ümumittifaq miqyasında türkdilli xalqların dil problemləri ilə məşğul olan alimlər arasında şöhrət qazandırdı. Rəhilə xanımın səsi dilçiliyə həsr olunmuş müxtəlif konfranslardan, simpoziumlardan gəlməyə başladı.

Alimlərimiz onun fəaliyyətini nəzərə alıb respublikada ən böyük müdafiə şuralarından birinin – Dilçilik İnstitutunun Müdafiə şurasına elmi katib seçdilər. Professor Rəhilə Məhərrəmova indi, eyni zamanda ədəbi dil problemləri ilə məşğul olur. Üçcildlik "Azərbaycan ədəbi dili tarixi" kitabının üçüncü cildi bu günlərdə çapdan çıxıb. "Sovet dövrü Azərbaycan ədəbi dili" – Rəhilə xanım bu samballı kitabın həmmüəlliflərindən biri, həm də yeganə redaktorudur.

Nə qədər məşğul olsa da, mətbuat səhifələrində, televiziyada, radioda dil məsələlərinə həsr edilmiş, tez oxucu və dinləyiciləri, tamaşaçıları razı salan, onların marağına səbəb olan çıxışları ilə nəzəri cəlb edir. Dedik ki, Rəhilə Məhərrəmova həm də gözəl anadır. Balalarının hər ikisi valideynlərinin yolunu davam etdirib. Qızı Sevinc universitetin filologiya fakültəsini bitirib dilçilik sahəsində çalışır. Oğlu Elçin Saratov universitetinin filologiya fakültəsində V kursda oxuyur. Rəhilə Məhərrəmova qayğıkeş insan, yaxşı, mehriban yoldaş və alimdir. Başqa respublikalardan və ya elə öz institutlarımızdan Dilçilik İnstitutuna müdafiəyə gələn tədqiqatçılara qayğısı dillər əzbəridir. O, həm də dilçi alimlərin yetişməsində opponent, məsləhətçi kimi

böyük fəaliyyət göstərir. İndi Rəhilə Məhərrəmovanın 60 yaşı tamam olur. Görkəmli alim, gözəl insan, nəcib ana kimi tanıdığımız filologiya elmləri doktoru, professor Rəhilə Məhərrəmovanı ürəkdən təbrik edir, ona möhkəm can sağlığı, uzun və yaradıcı ömür, qanadlı ilham, başlıcası ana səadəti arzulayıram. Eliniz-gününüz, balalarınızla xoşbəxt olun, Rəhilə xanım!

**Bakı, 7 noyabr 1983**



## Bakının keçmişi ilə görüş (Ömər İsmizadə)[81]

Bu sadə, mehriban və bir qədər söhbəti duzlu insanı tanıyan gündən mənə elə gəldi ki, Vətən məhəbbəti onunla əkiz doğulub. Təmkinli söhbətlərində, tarix, etnoqrafiya və arxeologiyaya dair danışdığı hadisələrdə bu böyük hiss açıq duyulur. Qəlbinin bütün hərarətini doğma yurdunun keçmişini öyrənməyə həsr edib, hələ müharibədən əvvəl çiynində bağlama, əlində çəkic çölləri, qayalıqları dolaşıb.

Müharibə müvəqqəti olaraq əlindən çəkicini alıb, əvəzində silah verdi. Axıradək silahdan möhkəm yapışdı. Vətəni düşməndən təmizləmək üçün bacarığını əsirgəmədi.

Sonra yenə sevimli peşəsi – axtarışlar. Əlindəki kiçik çəkiclə dəli Xəzərin coşqun sularına sinə gərdi, meydan oxudu. Zamanın torpaqlara və şor sulara gömdüyü qədim abidələri, üstü yazılı daşları Xəzərin dərinliyindən çıxardı, sirrini açdı. Qızmar günəş, dəli dalğalar böyük marağını söndürə bilmədi. Tapdığı hər daş, hər maddi mədəniyyət qalığı vətənin tarixinin sirli səhifələrini aydınlaşdırmaqda gərək oldu...

Başqa arxeoloqların tapıntılarından, kəşflərindən elə həvəslə danışır ki, səsində "heyif, mən kəşf etməmişəm" təəssüfü duyulmur.

Onun məsləhəti ilə Qobustanın qayalarına, Cingirdağın daşlarına dırmanmış, qədim babaların qayalara yazılmış əfsanələrini dinləmişəm.

---

[81] Cəfərzadə Ə.M. / "Bakının keçmişi ilə görüş" / "Bakı" qəzeti / 1969, 3 avqust / səh. 4

Onun məsləhəti və dəvəti ilə qədim Bayıl qəsrinin qalıqlarını gəzmiş, bu qəribə abidə haqqında maraqlı söhbətlərinə qulaq asmışam. Ömər İsmizadə elə həvəs və inamla danışır ki, söylədiklərini göz önündə canlandırıram: Bura gömrükxana imiş... Divarlara nəsb olunmuş bu deşikli daşlara gəmilər bağlanarmış... Yoxlama keçirildikdən sonra körpüyə yan alar, yük boşaldar, mətah qəbul edərmiş... Bakının zəfəranı, Şamaxının ipəyi... Rusiya, Orta Asiya və İrandan gələn gəmilərə burada yüklənərmiş, dünya bazarına çıxarmış...

Ömər İsmizadə dostları ilə birlikdə Qız qalası və Bayıl qəsri arasındakı əlaqəni öyrənir, vaxtı ilə Bayıl qəsri ərazisindən çıxarılmış (bürcü kəmərləyən) daşların çatışmayanlarını axtarıb tapır və yazıların bütünlükdə oxunmasına çalışır.

Ömər İsmizadə Azərbaycan abidələri haqqında bir sıra ciddi əsərlərin müəllifidir. Doktorluq dissertasiyası da Bakı arxeoloji abidələrinin öyrənilməsinə həsr olunub.

Bizi qədim abidələrlə tanış edərkən onda olan enerjiyə, gənclik qüvvəsinə heyrət etdim. Dostlarından biri Ömər müəllimin altmış dörd yaşı olduğunu söylədikdə heç kəs inanmadı. Amma bir həqiqət var ki, Bakının keçmişi üzə çıxarıldıqca şəhər cavanlaşır, yaşa dolduqca gözəlləşir... Bakının vurğunu, bütün ömrünü onun keçmişinin öyrənilməsinə həsr etmiş Ömər İsmizadə də elədir. O da sevdiyi şəhəri kimi keçmişlərə daldıqca daha da gəncləşir, cavanlaşır.

Ömər İsmizadəyə və dostlarına respublikamızın paytaxtında daha qədim və gözəl abidələri üzə çıxarmaqda müvəffəqiyyətlər arzu edirik.

**Bakı, 3 avqust 1969**



# İNCƏSƏNƏT XADİMLƏRİ HAQQINDA XATİRƏLƏRİ

# Əksinə dövran edən kəcröv fələk... (Kazım Ziya)[82]

Müxtəlif rollarda görmüşdüm, sevdiyim aktyorun bir zaman mənimlə bir məktəbdə dərs deyəcəyi ağlıma da gəlməzdi. O zaman çox gənc olsam da, Bakı Teatr Texnikumunun sonuncu direktoru idim (birinci direktoru da qadın – SSRİ Xalq artisti Şövkət Məmmədova olmuşdu). Kazım Ziya ilk təşəbbüs – "Səhnə danışığı" kitabını yazmışdı. Orfoqrafiya, orfoepiya haqqında söhbətlərində mübahisə edər: "Düz deyil, azərbaycanlılar danışdıqları kimi yazırlar" – fikri yanlışdır. Heç kəs damdan demir: belə yazılsa da, "damnan" şəklində tələffüz edilir" deyirdi. Bizi də öz orfoepiyası ilə alışdırmışdı. Dərsə gecikməzdi. Kitabçası əlində, mehriban, gülən siması, təmkinli yerişi ilə əvvəlcə müdir otağına gəlib salamlaşar, zəng çalınana kimi sinfə yollanmazdı. Uca boyu, mütənasib əndamı, dərin, ifadəli baxışları qarşısında "Müdir" olsam da, uşaqlaşardım.

Son görüşümüzü (xüsusilə, dəqiq bu görüşü) nə mən, nə də onun şagirdi olmuş kiçik qardaşım Əhməd unudub. Hərdən yadımıza salırıq. O zaman indiki Basin küçəsilə 3№-li tramvay işləyirdi. Bir dəfə biz bacı-qardaş, indiki Füzuli meydanında həmin tramvaya mindik, vağzala tərəf gedirdik. Birdən tramvayda Kazım Ziya müəllimi gördük.

– Salam, müəllim!

Nə o müəllimim idi, nə qardaşım şagird idi, nə də mən müdir. Amma o böyük, o sevdiyimiz sənətkar bizim üçün müəllimliyində qalırdı.

– Salam.

Qənşərində dayandıq, tramvay tünlük deyildi. Sərbəst danışa bilirdik.

---

[82] "Kazım Ziya" (15.01.1986) / Əzizə Cəfərzadənin Ev Arxivi, Fond "P" / Qovluq №21 / Sənəd №25 / vərəq – 3

– Necəsiniz?

– Sağ olun, siz necəsiz, müəllim?

Teatrdan ayrıldığını bilirdik. Radioda son – qüsurlu çıxışını eşitmişdik və kaş "siz necəsiniz, müəllim?" sualını verməyəydik. Birdən-birə qarşımızda "qocaman dağa bənzər" əzəmətli sənətkar canlandı, boylu boyuna dikəldi, uzun qollarının biri ilə qardaşımın, o biri ilə mənim çiynimizdən qucaqladı. Dərinə çökmüş kədərli gözlərindən qürur ilə bu beyti söylədi:

*Ey muradım əksinə dövran edən kəcrəv fələk,*
*İndi neynərsən ki, könlüm namurad olmaq dilər?*

Əlbəttə, tramvaydakı azacıq sərnişinlərdən heç kim, hətta onu bir aktyor, sənətkar kimi tanıyan var idisə də, bu beytin mənasını başa düşmədi. Biz isə... Biz başa düşürdük: Onu sevməyənlər, candan sevdiyi, bütün həyatını həsr etdiyi sənətindən – səhnədən ayırmışdılar onu. Üzünü fələyə tutub "Əlindən gələni beş qaba çək! Həmişə arzumun, muradımın əksinə eləmisən, indi isə mən murad istəmirəm. İndi neyləyəcəksən, elə" deyir. Bütün o böyük boy-buxunu, sənətkar əzəməti ilə, "fələyə" – düşmənlərinə (əmin idi ki, onları tanıyırıq) meydan oxuyurdu. Bir də sanki, "Balalarım! Nigaran olmayın, sağam! Varam. Heç nədən də çəkinmirəm" – deyirdi.

**Şüvəlan, yanvar 1986**



## Təsəllimiz (Mehdi Məmmədov)[83]

II Dünya müharibəsi illərində çalışdığım Ağsu rayonu Çaparlı məktəbindən azad olundum, artıq müharibədən qayıtmış kişi müəllimlər öz yerlərini tutur, mənim kimi təhsili yarımçıq qalmış gənclərə ehtiyac duyulmurdu. Müharibədən əvvəl Bakı Teatr Texnikumunun Teatrşünaslıq bölməsində oxumuşdum. Təhsilimi davam etməklə yanaşı işləməliydim. İllər ağırdı, anam, kiçik qardaşım öhdəmdəydi, böyük qardaşım hələ tərxis olunmamışdı. İş üçün müraciət etdikdə o zaman maarif naziri olan Xalq yazıçısı Mirzə İbrahimov və İncəsənət işləri idarəsinin rəisi Hökümə xanım Sultanova məni Teatr Texnikumunun direktoru vəzifəsinə layiq bildilər. Həmin məktəbi bitirməm, müharibə illərində kənd məktəbi müdiri işləməm, Yazıçılar İttifaqının üzvü, cavan yazıçı olmağım, görünür, bu qərarda həlledici rol oynamışdı.

Texnikumumuz olduqca ağır vəziyyətdəydi. Darısqal bina, müəllimlərin bəzisinin səriştəsizliyi... Problem çox idi. Vaxtilə həmin texnikumdan yaxşı tanıdığım Xalq artisti, dövlət mükafatı laureatı gözəl insan və əla pedaqoq Kazım Ziya müəllimimi "Səhnə danışığı" fənnindən dərs deməyə dəvət etdim. Həmin illərdə orfoepiyamızla bağlı kitabçası da çıxmış və böyük rəğbətlə qarşılanmışdı. Öz ana dilimizlə yanaşı fars dilini, əruzu, poeziya qanunlarını əla bilən Kazım Ziya əvəzsiz pedaqoq idi.

Başqa tədbirlərim içərisində dərs hissə müdiri Mirzəzadəni və başqalarını cəlb etməkdi. Amma əsl məsələ "Aktyor sənəti" fənni məsələsiydi. Kimi? Sualı yorurdu məni. Rza Təhmasib kimi aktyor rejissor-pedaqoq işləmişdi texnikumumuzda. Yaxşı tanıyırdım, sözümü yerə salmazdı.

[83] "Təsəllimiz (Mehdi Məmmədov)" (30.09.2002) / Əzizə Cəfərzadənin Ev Arxivi, Fond "P" / Qovluq №21 / Sənəd №31 / vərəq – 3

Amma film çəkilişləriylə elə yüklüydü ki, özü demişkən, "başını qaşımağa macalı yoxuydu".

Əslində, məqsədim Mehdi Məmmədov idi. Yaxşı tanıyırdım. Rollarını da, rejissuradan dərslərini də, müəllim-pedaqoqluğunu da... Çox da sevirdim ciddiyyətini. Bizim intizamı müharibə illərində düşmüş məktəbimizə elə belə də ciddi, tələbkar müəllim lazım idi. Razılıq verəcəyinə ümidim yox idi. Qorxurdum. Onun simasında aktyor-filosof, rejissor-filosof, nəhayət, müəllim-pedaqoq-filosof görürdüm. Qərarımı Hökümə xanım da bəyəndi, lazım gələrsə, yardım göstərəcəyini vəd etdi. Lakin buna ehtiyac olmadı. Mehdi müəllim qarşısında ürəyi döyünə-döyünə dayanmış, müharibənin, yamac kənd müəllimi həyatının çox sıxdığı arıq, balacaboy, qarayanız qıza öz uca boyunu bir az da uca, əzəmətli edən, cazibədar siması, çatıq qaşları altından nüfuzedici ağıllı gözləriylə baxırdı. Başqası olsaydı, qarşısındakının texnikum direktoru olduğuna inanmazdı. O inandı, bəlkə də, mətbuatdan tanıyırmış məni, bəlkə, texnikumda oxuduğum illərdə nəzərini cəlb etmişdim. Bilmirəm. Amma hər halda inandı mənə, intizarda qoymadı məni. Qəbul etdi. Məncə, həm texnikumun taleyi, həm də mənim vəziyyətim, yardımına ehtiyacım bu qərarı verdirmişdi ona. Vaxtilə mən burada oxuyanda bizə geyim tarixini A.A.Tuqanov, səhnə danışığını əvvəlcə Nəzirə xanım, sonra Kazım Ziya, rus ədəbiyyatını Mudrov, Qərbi Avropa ədəbiyyatını qoca Tumbil və b. deyirdi. İndiysə təzə-təzə məhz öz müəllimlərimiz deyəcəkdi bu dərsləri, sönməkdə olan ocağı yenidən alışdıracaq, gələcək Teatr İnstitutu üçün (indiki İncəsənət) zəmin hazırlayacaq, baza rolunu oynayacaqdı.

Elə də oldu. Teatr Texnikumunun ilk direktoru Şövkət Məmmədova, son direktoru Əzizə Cəfərzadə oldu.

Mehdi müəllimə gəldikdə həmin bir neçə ildə dayağım, yol göstərənim oldu. Axı tələbələrimizin çoxu yaşca məndən böyük, həmçinin boy-buxunca uca, qədd-qamətli, qalanları xırdaca direktordan seçilməyənlərdi, şuluq idilər,



dəhlizə yığılanda onlardan seçilmirdim. Mehdi müəllim öz təmkinli, əzəmətli addımlarıyla bu dəhlizdən keçəndə hər şey başqalaşırdı. Sakitlik çökürdü, müdirlə sinif yoldaşı kimi danışanlar öz yerini tanıyırdı. Tələbələr siniflərə çəkilir, dərs başlanarkən açıq qapı və pəncərədən Mehdi müəllimin gur, məğrur, əzəmətli səsi dəhlizə dolanda milçək uçsaydı, qanadının səsi eşidilərdi. Dərsi olmayan tələbə və müəllimlər belə sükut içində dayanıb, bu hər halı izahında bir həyat fəlsəfəsi vərəqləyən alimin, müəllimin, böyük sənət adamının izahatını dinləyirdi. Arxam, köməyim, dostum və həyat müəllimim Mehdi Məmmədov dünyasını dəyişəndə elə bildim ki, Xəyyam yenidən öldü, elə bildim ki, "Ölü canlar" yenidən dünyaya gəlmişdi, yenidən dünyamıza vida etdi.

Əvəzolunmaz itkilərimiz çoxdur, Mehdi müəllimin mühazirələri, Mehdi müəllimin ruhu, şagirdlərinin, tələbələrinin, tərəf-müqabillərinin yaradıcılığında, onu məhəbbətlə seyr edən tamaşaçılarının ürəyində yaşayır. Mənim də eləcə. Budur təsəllimiz.

**Bakı, 30 sentyabr 2002**

## Rəşid Behbudovla görüşüm[84]

Bir dünya şöhrət və məhəbbət qazanmış Rəşid Behbudovu səhnədə çox görmüşəm... O vaxtlar adını çəkə bilmədiyimiz Türkiyənin, türklərin şux bir türküsünü də ilk dəfə ondan eşitmişəm, uçuna-uçuna dinləmişəm. Doğrudur, bu mahnını Bolqarıstan bayrağı altında oxuyurdu. Amma hər halda türkcəmizdəydi, doğmaydı...

*Qara qoyun ətli olur,*
*Qovurması tatlı olur.*
*Dul yerinə varan qızlar*
*Ölməz... amma dərtli olur.*
*Halvaçı, halva,*
*Şəkər lokumlu halva...*

– necə gülümsəyir, necə ifa edirdi bu "Halvaçı" mahnısını? Az qala, durub onunla rəqs etmək istəyirdin. Qərəz... Mahnılarını sevə-sevə, bihuşcasına dinlədiyim Rəşid Behbudovla şəxsi, üz-üzə birinci görüşüm Bakı Kinostudiyasında baş verdi. O vaxtlar kinostudiyada Ssenari şöbəsinin müdiri idim. Rəşid "Arşın mal alan" filminə çəkilirdi. Məni tanıyırdı, salamlaşırdı, amma hələ heç söhbətləşməyimiz üçün məqam olmamışdı. Axşamlar müdirimiz Mehdi Hüseynin kabinetində növbə çəkir, qəfil telefon zənglərinə cavab verir, gərəkli tədbir görürdük. Bir gecə növbətçi idim. Mehdinin kabinetində oturub Teodor Drayzerin "Amerika faciəsi"ni oxuyurdum. Baxtımdan zəng zad da yox idi. Birdən açıq qapıda Rəşid göründü, burada axşamlar da iş getdiyindən Mehdi müəllimi görmək istəyirdi. Mehdi müəllim isə az əvvəl tapşırığını verib getmişdi. O günlərdə

[84] Cəfərzadə Ə.M. / "Rəşid Behbudovla görüşüm" / "Bizim əsr" qəzeti / 2002, 15 sentyabr / səh. 13
"Rəşid Behbudovla görüşüm" (15.09.2002) / Əzizə Cəfərzadənin Ev Arxivi, Fond "P" / Qovluq №10 / Sənəd №26 / vərəq – 5



filarmoniyada Rəşidin fasiləsiz konsertləri gedirdi. Qızlar, gənclər hamısı onun konsertləri üçün dəli-divanəydilər. Bir katibəm vardı, qara çörəyə sarımsaq sürtüb yeyir, maaşını Rəşidin konsertlərinə bilet üçün yığırdı. Konsertdən sonra da cavanlar onu küçədə gözləyirdilər. İndi həmin əlçatmaz Rəşid kabinetdə gözümün qabağında var-gəl edir, nəsə fikirləşirdi. Birdən tam ciddiyyətlə məndən soruşdu:

– Bura bax, konsertlərimə niyə gəlmirsən? Heç gözümə dəymirsən.

"Pulum yoxdur" deyə bilmədim, utandım. Ailə saxlayırdım axı. Söz tapmadım, deyəm.

O mehriban, zərif insan, deyəsən, nəsə duydu, gülümsəyib dedi:

– Neynək, deyirlər dağ peyğəmbərin yanına gəlməsə, peyğəmbər özü dağa sarı gedər. İndi əvəzini çıxarıq. Sənə burda konsert verərik.

– Və kabinetin ortasında əllərini yana açıb bir az əvvəl adını çəkdiyim "Halvaçı" mahnısını oxumağa başladı. Bircə bənd oxuyub dayandı:

– Bəsindi, yoxsa xarab elər səni, – dedi və əlilə məni salamlayıb kabineti tərk etdi. Deyəsən, o gecə Allahın mənə rəhmi gəldi; heç bir çağırış filan olmadı, sevdiyim romanı da oxuya bilmədən süst halda səhərəcən o cazibədar, sevimli səsin sehrində qaldım.

İkinci görüşümüz çox sonra baş verdi. Artıq Pedaqoji İnstitutda kafedra müdiri işləyirdim. O zamankı evim lap instituta yaxındı. Plaş-paltomu çiynimə salıb ev geyimində gedirdim, Qiyabi institutun binası yanında Rəşid qarşıma çıxdı. Salamlaşdıq. Həmişəki səliqəli, gözəl geyimindəydi. Məni diqqətlə başdan ayağa süzüb dedi:

– Bu nə görkəmdir?

– İş yerim evə yaxın...

Sözümü bitirməyə imkan vermədi, ərklə:

– Qadın da belə küçəyə çıxar?

– Vaxt... – kəkələdim.

– Yox, nə olur-olsun, qadın vaxt tapıb özünə qulluq eləməlidi. Qadının saçının tağı, corablarının arxa cizgisi dümdüz olmalıdı. Qadın hər səhər yuxudan duran kimi özünə əl gəzdirməlidi. Və heç vaxt necə gəldi küçəyə çıxmamalıdı.

"Dərsimi" aldım. Ömrüm uzunu bər-bəzəyə fikir verməsəm də, Rəşidin sözləri həmişə qulağımda sırğa olub. Rəşidlə unudulmaz görüşlərdən biri onun özünün iştirakı olmadan Afrikada Qananın paytaxtı Akkra şəhərində baş verdi. Orada SSRİ-nin ticarət müvəkkili Poqosov familiyalı bir erməni vardı. Ömür yoldaşım Qana prezidenti Kvame Nkrumanın şəxsi pilotu olduğundan tez-tez bizə gəlir, qulluq təklif edirdi. Orasını da deyim ki, olduğum xarici ölkələrin hamısında ticarət müvəkkilləri ermənilər idi. Bir dəfə həmin müvəkkil bizdəykən söz Rəşid Behbudovdan düşdü və o, belə bir hadisə danışdı:

– Mən Hindistanda da ticarət mərkəzində işləmişəm. Orada Rəşid Behbudovu çox sevirlər. Hindistanın prezidenti cənab Cəvahirləl Nehru Rəşidi "Azərbaycanın mavi bülbülü" adlandırırdı. Bir dəfə onu yenidən Hindistana dəvət etməyi bizimkilərə tapşıranda öz qulağımla eşitdim, Nehru dedi: "O, təkcə Azərbaycanın, Sovetlərin deyil, Hindistanın da mavi bülbülüdür".

Qürbətdəydim, millətimin bu böyük istedad sahibi oğluyla, cənab Nehru demişkən, "mavi bülbülümüzlə" qiyabi görüşdüm. Təkcə iştirak etdiyi filmləri deyil, bütün dillərdə oxuduğu nəğmələrini mən də bütün millətim kimi ürəkdən sevir, əzbər bilirdim. Səsim olmasa da, indi ara-sıra o "mavi bülbül" ürəyimin içində oxuyur.

**27 may 2002**



# Bəstəkar Cahangir Cahangirovla bağlı bir xatirə[85]

İli yaxşı yadımda qalmayıb. Deyəsən, sevdiyim, gözəl bəstəkar Cahangir Cahangirovun altmış illik yubileyi idi və bu münasibətlə məni də Bülbüləyə dəvət etmişdilər. Qonaq kimi çağırmışdılar, çünki Cahangiri orada görəcəyimi bilmirdim, onun da mənim çağırılmağımdan xəbəri yox idi. Nə isə... Məktəbin direktoru iclası açdı. O zaman belə tədbirlər iclassayağı keçirilirdi. Birdən məktəbin direktoru gözləmədiyim halda söz verdi mənə. Doğrusu, sənətşünas olmadığım, burada musiqini təhlil edəcək başqa münəqqid filan olmadığıyçün təəccüblənmişdim. Amma daha keçmişdi. Qalxdım və sözə belə başladım:

– Hörmətli Cahangir müəllim, hörmətli müəllimlər, hörmətli ziyalılar, hörmətli şagirdlər! Mən musiqişünas, nəzəriyyəçi deyiləm. Ona görə də bu gün niyə məni dəvət etməyiniz mənimçün aydın deyil... Və yəqin ki, Cahangir müəllimə də həmçinin. Çünki tanınmış, sevilən, qüdrətli bəstəkar yaradıcılığından danışmaqçün, əlbəttə, musiqişünas dəvət olunması daha münasibdi. Amma Cahangir Cahangirov çox sevdiyim bəstəkardır və özü də bilmir ki, eyni texnikumda oxumuşuq – Teatr Texnikumunda. Mən birinci kursda Teatrşünaslıq şöbəsində, o zaman Teatr tənqidi şöbəsi adlanırdı. Cahangir müəllim isə dördüncü kursu – Aktyorluq şöbəsini bitirirdi. Yaxşı bir son imtahan tamaşası da qoymuşdular. C.Cabbarlının "Yaşar" pyesi. Cahangir müəllim Yaşar rolundaydı. O zaman Cahangir müəllim telli-toqqalı, gözəl, cavan, şax, uca boylu, əntiqə bir oğlan idi. Məktəbimizin bütün qızları ona vurulmuşdular. Məndən başqa. Mən də vurulmamışdım ona görə

[85] "Bəstəkar Cahangir Cahangirovla bağlı bir xatirə" (10.10.1999) / Əzizə Cəfərzadənin Ev Arxivi, Fond "P" / Qovluq №21 / Sənəd №13 / vərəq – 4

ki, inanmırdım ki, bu sir-sifətim, balaca boyum, cılız vücudumla onun qəlbində nəsə yer tuta bilərəm.

İndi bu sevdiyim möhtəşəm bəstəkarın yaradıcılığından danışmaq istəyirəm. Mənim anlayışımla, mənim duyduğum şəkildə. Böyük Üzeyir bəyin ruhu məni bağışlasın. Məhəbbət tərənnümçüsü Məhəmməd Füzulinin məşhur "Şəbi-hicran" qəzəlini Üzeyir Hacıbəyov özünün və bütün Yaxın Şərq tarixində ilk operası "Leyli və Məcnun" üçün müqəddimə-uvertura götürüb... Və bu uvertura qəlbimizdə elə yer eləmişdi ki, elə bil "şəbi-hicran" məhz belə olmalı, belə oxunmalı, belə səslənməli, Füzulinin "Qara sevdalı" məhəbbəti Üzeyir bəyin "Leyli və Məcnun"un nakam məhəbbətinə rekviyemi əbədiyyət qazanmalıydı bu müqəddimədə, o kədər mücəssəməsi xorun ifasında. Operanın Leylilər və Məcnunlar dünyasına girişində tamaşaçı bu qəm siminə köklənməliydi. Belə də qəbul eləmişdik. Və "Leyli və Məcnun" haqqında düşünəndə onu məhz həmin "Şəbi-hicran"dan başlayırdıq.

Günlərin bir günündə... Yox, elə ki Cahangir müəllim Füzuli kantatasını yazdı və öz təkrarsız ifasıyla Şövkət Ələkbərova bu "Şəbi-hicran"ı oxudu, mən artıq, yenə də bağışlasın Üzeyir bəyin ruhu, uvertura "Şəbi-hicran"ı unutdum. İndi artıq "Şəbi-hicran" adı gələn kimi Cahangir Cahangirovun kantatasını, o ölümsüz Füzulinin qəzəli kimi, Üzeyir bəyin operası kimi təkrarsız bəstələri – kantatanı sevdim, ürəyimdə yer elədi. Cahangir müəllimin mahnılarından danışmıram. Onları hamınız bilirsiz, hamımızın dillərinin əzbəridi bu əsərlər – "Ana" kimi...

Bir teatr tamaşasına bəstələdiyi musiqini xatırlatmaq istəyirəm. Çünki mənə çox böyük təsir bağışlayıb. Bu da onun böyük Cavidin "Xəyyam" pyesinin Mehdi Məmmədov tərəfindən hazırlanmış tamaşaya verdiyi musiqidi. Musiqi! Elə bil Cavidin o nəhəng əsəri, o möhtəşəm "Xəyyam", Mehdi Məmmədovun o təkrarsız rejissorluğu və Cahangir Cahangirovun musiqisi üçlük vəhdəti təşkil eləmişdi. Bəli, üçlük vəhdəti!



Tamaşa salonunda əyləşmişdim. Tamaşanın başqa yerlərindəki musiqi parçalarını demirəm, o kişilər xoru oxumağa başlayanda elə bildim yuxarıdan – teatr salonunun tavanındakı qəndillərdən üzərimizə ilahi möcüzəli musiqi tökülür. İlahi səslərdi bu. İlahi nəfəslərdi bu.

Beləliklə, Cahangir Cahangirovun əsərlərindən danışanda gördüm, zaldakı gözlərin çoxu mənə – danışana yox, Cahangir müəllimə dikilib. Dönüb mən də baxdım. Gördüm, Cahangir müəllimin gözləri dolub və sözüm qurtarar-qurtarmaz ayağa qalxıb dedi:

– Vallah, Əzizə xanım deyir ki, musiqişünas deyil. Amma musiqişünaslar bizə belə təhlil vermirlər, belə sözlər demirlər.

Qərəz ki... Yığıncaq qurtarandan sonra bizi başqa zala dəvət elədilər. Dedilər ki, burda bir balaca yığıncağımız var. Əyləşdik. Qədim Bakı qaydasıynan bizi düşbərə-qutaba qonaq elədilər. O zaman indiyə nisbətən kasıbçılıqdı. Amma hər halda Bakının düşbərə-qutabı qeyri-adi şeydi. Əvvəl düşbərəni verdilər. Yeməyə başlayanda gördüm ki, düşbərənin hərəsi bir noxud boyda ola-olmaya. Qaşığımdakı düşbərələri saydım, dedim:

– Cahangir, sən də say!

O da saydı. Mənim qaşığımda on doqquz, onun qaşığında iyirmi bir dənə düşbərə vardı. Qaşığı kasaya qoyub üzümü məktəbin direktoruna tutdum:

– Çağırın bu düşbərəni bükən xanımı. Onun barmaqlarını görmək istəyirəm. O barmaqlar necədi, necə büküb bu düşbərələri?

Çağırdılar. Gördüm, elə mənim kimi yoğun-yumru barmaqlardı. Elə topala bənzər yoğun-yumru barmaqlardı, vəssalam! Nə isə. Bundan sonra düşbərənin dalınca təndirdə bişirilmiş Bakının təndir qutabı gəldi. Bu da elə qədim bir şey idi. Bizə ləzzət verdi. Unutmamışam o görüşü Cahangir müəllimlə.

Bu hadisədən bir qədər sonra Cahangir müəllim mənə zəng elədi ki, "Əzizə, sizin o "Cəlaliyyə" əsərinizi yolda-

şım oxuyub və mənə məsləhət görür ki, o mövzuda bir balet yazım". Sevincimi deyə bilmirəm, nə oldu. Telefonda dedim: "Təşəkkür edirəm. Xanımınıza da mənim məhəbbətimi çatdırın. Çox sağ olsun".

Bir qədər keçdi, soraq çıxmadı. Xəstəymiş. Az sonra Cahangir müəllim dünyasını dəyişdi. Və bu arzu olaraq ürəyimdə qaldı. Böyük Cahangiri itirməyimiz qarşısında bu arzu nə idi ki!

Qara dəniz, Ağ dəniz, Sarı dəniz, Qırmızı dəniz. İrqlərin sayı qədər dəniz var. Həmişə ürəyimdə dolanıb ki, nə olaydı, bu mövzuda bir balet yazılaydı, mən də ssenarisini yazaydım. Mətndə hər bir irq öz geyimində, öz rəqsləri, öz adət-ənənələriylə...

Cahangir müəllim sağ olsaydı, bu mövzunu ona təklif eləyərdim. Günlərin birində bəstəkar Sevda İbrahimova da mənə müraciət elədi ki, "Cəlaliyyə"ni balet kimi yazmaq istəyir. Hətta mətni də yazıb ona verdim. Görünür ki, hardasa ağır gəldi ona. Bir neçə gündən sonra zəng elədi ki, özüm sizə telefonla dil-cavabı deyərəm. Bunu "yox" kimi qəbul elədim. Və... Ondan sonra sevdamız da baş tutmadı Sevda xanımla. Mənimmi, "Cəlaliyyə"ninmi bəxti gətirmədi...

Cahangir müəllim yaşasaydı, bəlkə də, "Cəlaliyyə" səhnə üzü görərdi. Ruhu hamımıza duaçı olsun o əziz bəstəkarımızın.

**Bakı, 1 oktyabr 1999**



## Rəssam rəfiqəm (Maral Rəhmanzadə)[86]

Maral xanım Rəhmanzadə haqqında danışmaq mənim üçün həm asandır, həm də çətin. Asandır ona görə ki, Maral xanımla rəfiqəyik. 1973-cü ildən bu günə kimi bir çox görüşlərdə, şənliklərdə, Maral xanımın çox sevdiyi el toylarında, ezamiyyətlərdə, istirahət və yaradıcılıq evlərində, təbiətin dilbər guşələrində birlikdə olmuşuq. Eyni bulaqdan su içmişik, eyni təndirdən çıxan çörəyi dadmışıq, bir xəstəxanada yatdığımız da olub. Hər ikimiz anamızı itirəndə bir-birimizə təsəlli vermişik, bir-birimizin sevinci ilə sevinmiş, kədəri ilə kədərlənmiş, yaradıcılıq uğuru ilə fərəhlənmişik. Qüsurlarımızı bir-birimizə deməkdən çəkinməmişik, inciməmişik. Deməli, haradasa ardıcılıq, əməl birliyi, xalqımıza, onun əməksevər istedadlı, qəhrəman keçmişinə məhəbbət bizi birləşdirir.

Nəsimidən:

*Gətir, gətir, gətir ol kaseyi-rəvanpərvər,*
*Gətir, gətir, gətir ol çəngi, bir nəva göstər.*

*Verim, verim, verim öz canımı mən ol yara,*
*Öpüm, öpüm, öpüm ol ləli şəhdilə şəkkər,*

misralarını oxuyanda xanəndə Qədirin yanıqlı səsini radioda eşidəndə dərhal zəng vurub, zövqünü bölüşdürüb, heyrətini, sevincini bildirməkdən, mən də o zövqdən məhrum olmayım deyə xəbər verməkdən ərinməyib, zövq'alıb.

Deməli, bu zövq yaxınlığı, əqidə, əməl birliyi mənə imkan verər ki, Maral xanım haqqında geniş danışa bilim. Lakin eyni zamanda və bütün bunlara baxmayaraq Maral

[86] "Maral Rəhmanzadə haqqında" (1984-1986) / Əzizə Cəfərzadənin Ev Arxivi, Fond "P" / Qovluq №18 / Sənəd №25 / vərəq – 3

xanım haqqında danışmaq mənim üçün çox çətindir. Bu böyük, nadir istedadın işləmək prosesini görmüşəm. Dağlarda, yandırıcı günəş altında saatlarla molbert arxasında durub çuğundura dönənəcən qızarmağının, şirin zəhmət təri tökməyinin şahidi olmuşam. Maral xanım qəlbimə uyğun tarixi şəxsiyyətlərin – Nəsiminin, Xətayinin, Natəvanın və onlarla başqa klassikimizin əsərlərini canlandıran rəsmlər çəkib. Maral xanım "Bacılarım" silsiləsi kimi müqəddəs mövzunun müəllifidir. Müqəddəs dedim, səhv etmirəm, çünki bu silsilədə ana var, qucağı körpəli gəlin var, zəhmətkeş Azərbaycan qadınının əməyin bütün cəbhələrindən gələn səsi-siması var. Maral xanım Azərbaycan qadınını gözəl, mütənasib görür, əynindəki paltarın, ən qədim parçalarımızın əski naxışının bircə butasının belə unudulmamasına çalışır. Biz Azərbaycan qadınları istər müharibə illərində, istər dinc quruculuq dövründə pambıq, üzüm, çay plantasiyalarında harada, hansı sahədə qəhrəman əmək nümunəsi, sədaqət, vəfa nümunəsi göstərən bacılarımızın surətini, xarakterini, gözəlliyini əbədiləşdirdiyi üçün böyük, mahir, istedadlı və zəhmətkeş sənətkarımıza, Maral bacımıza minnətdarıq. Maral xanım uzun illərdir ki, Respublika Qadınlar Şurasının ən görkəmli və sevimli, işgüzar üzvlərindən olub. Şuranın rəyasət heyəti Maral xanıma xüsusi təşəkkür və fəxri fərman qəbul edib.

Şəxsən öz həyatım və işimlə əlaqədar olaraq M.Rəhmanzadənin işgüzarlığı və zəhmətkeşliyinin şahidi olmuşam. Əslində, Maral xanımı bir rəssam kimi çoxdan tanımışam, şəxsi tanışlığımız yox idi. 1973-cü ildə "Azərbaycanın aşıq və şair qadınları" kitabını çapa hazırlayırdım. İstədim ki, kitabın redaktoru da, rəssamı da qadın olsun. Redaktorluğu mərhum Xalq şairimiz Nigar Rəfibəyli öhdəsinə götürəndə rəssamdan danışdım. Maral xanımla şəxsi tanışlığım olmadığını biləndə bizi tanıtdı bir-birimizə. Maral xanımla ilk yaradıcılıq dostluğumuz belə başladı. İlk dəfə Azərbaycanın gözəl qadın aşığı, XIX əsrdə poeziyamızda mühüm rol oynamış Aşıq Pərinin, sadə və eyni zamanda



müasirlərinin xatirələri əsasında portretini yaratdı. Bundan başqa, Maral xanım kitaba XII əsrdən bu yana müxtəlif əsrlərdə yaşayan altı şairənin xəyali rəsmini daxil etdi.

Daha sonra Maral xanım "Vətənə qayıt", "Bakı-1501" romanlarımın illüstrasiyalarını yaratdı. Onların içərisində XVII-XVIII əsr Azərbaycanın keşməkeşli, tarixi, azadlıq mübarizələri ilə dolu olan həyatını, insanlarını, Ağa Nəcəf Nişat, Şəbnəm bəyim, Maro, "Diri baba türbəsi" və başqa obrazlarından, xüsusilə, danışardım. Maral xanım, qadınlarımızın indiki həyatını öyrənmək üçün kəndlərə, qəsəbələrə, uzaq rayonlara təkcə gedib kütlələrlə çalışır, o keçmişimizi, tariximizi, etnoqrafiyamızı öyrənən elin qızı, vətəndaş və sənətkarıdır. Getdiyi, gəzdiyi, öyrəndiyi, fırça ilə işlədiyi yerlərdə Maral xanımı ən doğma dost, ana-bacı kimi qarşılayır, sevir, işləməsi üçün lazımi şərait yaradırlar. Maral xanım keçmişimizin ən kiçik qırıntısına belə laqeyd yanaşıldığını görəndə əsəbiləşir, it qabağına yal qoyulmuş qədim piyalənin dəyərini sahibəsinə başa salır. Onun evi belə qədim, cazibədar həyatımızın zərrələri ilə doludur. Qədim geyim, bəzək, ev əşyası nümunələri... Harda tapsa, hörmətlə, məhəbbətlə saxlayır. Maral öz geyim və ev səliqəsində də, biş-düşündə də milli adət-ənənələrimizi qoruyan xanımdır. Evində müasirliklə yanaşı qədim dirsəkaltı mütəkkələrimiz, döşəkçələrimiz, çutqu, don, arxalıq kimi geyimlərimiz, ən qədim dadlı yemək və şərbətlərimiz indi də hörmətdədir. Maral xanım həm sənətkar, həm də qadın kimi gözəldir. Zərgər sənətkar atası Ceyrangöz Yusifin gözləri kimi yaza həsrət güllərini xatırladan ala gözləri, mütənasib vücudu ilə öz çəkdiyi "Bacılarım" silsiləsindəki gəlinlərimizin tənasübü, gözəlliyi var onda. Biz, Maral xanımın pərəstişkarları, sevdiyi bacıları ona möhkəm can sağlığı, uzun-uzun yaradıcı ömrü arzulayırıq. Yaşasın və yaratsın sənətkar bacımız, öz gözəl, əbədiyyət müjdəsi ilə parlayan əsərləri ilə sevindirsin bizi.

**1984-1986**

## Dayan, bu an necəsənsə...
## (Zeynəb Xanlarova)[87]

O öz konsertlərini Xalq şairi Səməd Vurğunun ölməz "Çox keçmişəm bu dağlardan" misraları ilə başlayır. Şair, bəstəkar və xanəndənin vətən məhəbbəti bu mahnıda ümumxalq məhəbbətinin himni kimi səslənir. Şeirdə deyildiyi kimi, xanəndə dağlar aşır, dərələr keçir, dünyanın hər tərəfini gəzir, nağıl həvəsli nənələr demişkən, ayağına dəmirdən çarıq geyir, əlinə dəmir əsa alır, ellər dolaşır... Zeynəb xanım bu mahnı həvəsilə, böyük bir vətən eşqilə doğma yurdunun nəğmələrini dünyaya yayır, elə bil hər nəfəsində, hər baxışında: "Eşidin, ay ellər, ay xalqlar, mənim də belə bir yurdum, belə bir mahnılı xalqım var; onun geniş, bir cahan qədər böyük ürəyi bu oxuduğum incilərdə döyünür, mənim qəlbim kimi... Şairin, bəstəkarın qəlbi kimi".

Çoxdan idi ki, Zeynəb Xanlarovanın mahnılarının əvəzsiz ifasının ardınca qanad açıb, həmin sözlərin, həmin ifanın dinləyicilərə necə təsir etdiyini bilmək, təəssüratımı oxucu dostlarımla bölüşmək istəyirdim.

Nəhayət, bu arzuma çatdım. Zeynəb xanımla görüşdüm, onun xalq çalğı alətləri ansamblı ilə məşqlərini gördüm. Konsertlərinə getdim, Leyli rolunda gördüm. Gördüm ki, Zeynəb oxuyur, yox, Zeynəb özü mahnıdır.

Zeynəbin sənəti hər cür kədəri qova bilir, qəlblərdə şux əhval-ruhiyyə oyadır. Zeynəb hipnozçumu, əsrarəngiz sehrkarmı, ahənrübamıdır, bilmirəm. Bildiyim budur ki, hamının qəlbini fəth edib. Hamının. Zeynəb xanım mahnı ifaçılığı sənətinə fərəhli, oynaq, sevimli ahəng, bir ye-

[87] Cəfərzadə Ə.M. / "Dayan, bu an necəsənsə" / "Azərbaycan" jurnalı / 1975 / №3 / səh. 99-106
"Dayan, bu an necəsənsə..." (Zeynəb Xanlarova haqqında) (01.03.1975) / Əzizə Cəfərzadənin Ev Arxivi, Fond "P" / Qovluq №26 / Sənəd №10 / vərəq – 25



nilik, canlılıq gətirib. O, sübut etdi və inandırdı ki, bizim xalq mahnıları məhz rəqslə, oynaq ifa olunmalıdır. Sakit, hərəkətsiz dayanmaq bu mahnıların ruhuna yaddır. Hamının pərəstiş etdiyi öz sevimli müğənnisi var, Zeynəbi isə, məncə, hamı sevir.

Ucsuz-bucaqsız pambıq tarlalarının qəhrəmanları ilə, Qızqayıt Həsənova ilə söhbət etdim: "Kolxozçuların həmişə gözü yollarındadır. Mahnısını həsrətlə gözləyirlər, radiolarda səsini axtarırlar, min səs içindən biri kimi. Gözlər mavi ekranlarda gülümsər simasını görməyə can atır, ən doğma, ən yaxın bir dost kimi. Yolunu intizarla gözləyir, kəndlərə, rayonlara ayağı dəysin, yolu düşsün, deyirlər. Zeynəb bizim pambıqçı qızların qollarına qüvvət verən gözəl xanəndədir. Oxuduğu mahnılarda ən yaxşı oğul və qızlarımızın əməyini tərənnüm etməklə onları daha yaxşı, daha can-başla çalışmağa ruhlandırır, əmək ilhamı verir. Səsində, ifa etdiyi mahnılarda coşqun həyatın səsi, qaynar zümzüməsi var. Sülhdən oxuyanda da, anadan deyəndə də, qəhrəmanlıqdan danışanda da, vəfalı məhəbbətdən söyləyəndə də. Mahnıları dilləri dolaşır".

Lap elə bu yaxınlarda Zeynəb Xanlarovanın səsi Fransadan gəlirdi. Sovet incəsənətini, Azərbaycan mahnı sənətini ləyaqətlə ifa etdiyi, Fransa tamaşaçılarının da qəlbini fəth etdiyi üçün Sovet nümayəndə heyətinin başçısı Zeynəb yaradıcılığına yüksək qiymət verir, Azərbaycan elçiləri içində onun da adını təşəkkürlə yad edib yazır: "Fransızlar Z.Xanlarova və İ.Rzayevin ifasında muğam və mahnıları böyük maraqla dinləyirdilər" ("Bakinski raboçi" qəzeti, 5 yanvar 1975).

Sənət meydanında həmişə hərənin öz yeri olub. Heç kəs öz ətri, sözü, rənglər palitrası, öz melodiyaları ilə başqasına mane olmayıb. Musiqi aləminə də hərə öz səsi-sözü ilə gəlib, ümumun yaratdığı simfoniyaya çevrilib.

Nəğmə şairin gözəl məzmunlu sözü, bəstəkarın ürək oxşayan melodiyaları və sənətkarın ifa məharətindən ibarət sintez olduqda ürəklərə yatar, gözəl ola bilər. Zeynə-

bin ifa etdiyi mahnıların çoxu belədir və məhz belə olduğu üçün də alqışlanır, təkrarlanır, davamçıları, yeni-yeni ifaçılar meydana çıxır. Zeynəbin oxuduğu "Reyhan" nəğmə ifaçılığında təbəddülat olub, dillərə düşüb, rəqsə çevrilib. "Azərbaycanım", "Ananın səsi", Arif Məlikov, Tofiq Quliyev, Ramiz Mirişli, Ələkbər Tağıyev və başqalarından oxuduğu bir sıra mahnılar gözəl sənət nümunələridir. Belə mahnılar ürəklərə tez yol tapır, dillərə düşür, həm yazanı, həm bəstələyəni, həm də oxuyan, ifa edən sənətkarı sevdirir, sevindirir, şöhrətləndirir. Zeynəb xanımın oxuduğu mahnıların hamısı eyni bərabərdə sənətkarlıqla yazılmayıbsa, bunda da bəstəkarlarımız müqəssirdir. Axı, Zeynəb Xanlarova ən çox yeni-yeni mahnılar oxumağı sevən sənətkardır; ona həmişə, hər gün, hər konsert üçün təzə mahnılar gərəkdir və bu mahnıları hansı bəstəkar ona tez, vaxtında, gözəl çatdırırsa, o da ifa edir.

Zəynəblə görüşəndə bu məsələdən də söhbət saldım. Bu zaman gözlərini görməli idiniz. Gözlərində, hər tərənəsini tərəhlə dinlədiyimiz dodaqlarında elə həzinlik var idi ki, coşqun fərəh saçan mahnı ifaçısına bənzəmirdi: "Yazsınlar, qəlbimə, ruhuma, repertuarıma uyğun şən mahnılar qoşsunlar. Elə də oxuyum ki!.. Mən mahnı ilə yaşayıram, mahnı ilə qidalanıram, mahnı acıyam, – dedi, – xahiş edin, deyin ki, məni təzə mahnısız qoymasınlar!"

... Söhbət uzandı, gecəyə çəkdi, hər kəlməsi nəğmə kimi səslənən sözlərindən, mükalimənsindən doymurdum, elə bilirdim ki, söhbət kəsilsə, mahnı susar; sükut çöksə, ağırlığına dözə bilmərəm. Hərçənd onun sükutu da mahnı idi. Davranışında, sadə hərəkətlərində, incə, uşaqca münasibətində elə yapışıq var idi ki!.. Elə bil sussaydı, nəğməli bir bülbül otağı tərk edib gedərdi. Zeynəb xanım isə xatirələrə dalmışdı, başımızın üzərindən gözə görünmədən uçan ağ göyərçinə bənzər xoş bir xəyal onu körpəlik illərinə çəkib aparmışdı. Dünyanın qəribə işləri var.





*Zeynəb Xanlarova, Əzizə Cəfərzadə və nəvəsi Nəsrin (1987)*

– Həyatda nəyə desəniz, inanardım, xanəndə olacağıma yox. Xırda idim, qəlbimi ən çox kitablar, bir də müəllimlər fəth etmişdi. Atam qırçı və savadsız olsa da, çox nəcib qəlbli, mədəni, uzaqgörən adam idi. Deyərdi ki, bizimki keçmişin qalığıdır. Dünyada nə varsa, elmdədir, kitabdadır, oxuyun, biz çəkəni siz çəkməyin. İndi də ki, Allaha şükür, qabağınızda elə yollar açılıb ki!..

Mənə elə gəldi ki, Zeynəbin gözlərində nə isə söndü. Çıraqmı, işıqmı qaraldı? Dumanlandı, tutuldu, elə bil məni də unutdu, hara isə tanımadığım, amma özünün çox yaxşı xatırladığı bir aləmə getdi. Cəhənnəm kimi zəbanə çəkən tiyanın qırağına balaca bir qız su gətirmişdi. Qızın əlindəki yarım litrdən bir az çox su tutan bir mis birəllini görüncə qoca kişi başına ələnən Bakı günəşinin və tiyanın altından qalxan odun təsirindən puçur-puçur tər tökülən alnını silmək üçün bir an, tək bircə an qaynar qırı qarışdırmaqda olduğu kürəyə dirəndi. Qızı görüncə his və qırdan qaralmış, tərdən boz zolaqlar açılmış üzündə elə mehriban, elə nəvazişkar təbəssüm oyandı ki!.. Cəld payanı qara pıqqıltılı tiyanın böyrünə atıb yerə sıçradı. Qıza yanaşdı, qıvır-

cıq, ipək kimi yumşaq saçları dağılmış başını tumarlamaq istədi. Amma bu tər-təmiz, gül kimi qıza toxunmaqdan ehtiyat elədi. Təbəssümlə, qayğı ilə, sevinclə mis birəllini aldı. Sərin suyu birnəfəsə içdi. Sonra da başından təsəyini götürdü, birəllidə qalan bir neçə damlanı ülgüclə təmiz qırxılmış əmgəyinə çilədi.

... Yox, yox! Bu hadisəni mənə Zeynəb Xanlarova danışmayıb. Bunu çoxdan, lap çoxdan, uşaq olduğum illərdə yaşadığım Yuxarı Dağlıq küçəsində görmüşəm. Xəyalımda həkk olunub qaldığını da heç bilmirdim, unutmuşdum. Amma indi Zeynəb xəyala dalanda, gözləri dərin-dərin dərinləşəndə, fikri məndən uzaqlarda uçanda nə üçünsə həmin mənzərə gəlib gözlərimin önündə canlandı. "Zeynəbim mənim, o balaca qız sonralar bizim məktəb yoldaşımız olanda sən heç dünyaya gəlməmişdin; amma bizim Məlik əmi də eynilə sənin atan kimi elm, şeir aşiqi idi. Qır tiyanının yanından keçəndə mütləq hansısa həmkarına o zamanlar yaxşı anlamadığımız bir beyt dediyini eşidərdik. Qızı sonralar həkim olsa da, şeirə, şeiriyyətə marağını ata irsi kimi qəbul elədi. Sənin atanı görməmişəm, amma deyişindən, xatırlayışından başa düşürəm, görmüş kimiyəm. O da bizim atalar kimi... Yox, yaxşısı budur, özün danış... Bu gün mən həmişəki kimi sənin qarşında dinləyiciyəm.

– Atamın arzularına əməl eləyib məktəbdə yaxşı oxuyurdum. Dünyada hamıdan gizli bircə arzum vardı: Müəllimim kimi müəllim olmaq! Yerişimdə də, geyinməyimdə də, danışığımda da ona oxşamaq istəyirdim. Dərsdən evə qayıtcaq həyətimizdə dərsxana açmaq, xırdaca, hələ məktəbə getməyən uşaqları başıma yığıb sinif düzəltmək, əllərinə qələm-dəftər vermək, özüm də müəllimə olub onlara dərs vermək üçün tələsirdim. Uşaq olmayanda özümün parçadan düzəltdiyim gəlinciklərimlə, lap elə pişiyimiz olsun – ona "müəllimlik" etmək istəyirdim... Gülməlidirmi? Hə, elədir (Amma nə deyirsiz, deyin, lap istəyir, gülümsəyin də, pişikləri elə indi də çox istəyirəm. Yazığım gəlir,köməksizdilər, bizə pənah gətirirlər). Odur ki,



məktəbi qurtaran kimi pedməktəbə daxil oldum. Musiqi isə məni tərk etmirdi, çəkib aparırdı. Məktəb müəllimlərim də, sinif yoldaşlarım da hamısı, "heyifdir, Zeynəb, get, oxu" – deyirdilər. Özümün də, deyəsən, oxumaq həvəsim müəllimlik həvəsimdən güclü idi. Elə bu həvəs də məni hörmətli bəstəkarımız Ramiz Mustafayevin rəhbərlik etdiyi xor dəstəsinə çəkib gətirdi. Mahnıları müstəqil ifa etmək taleyim bundan sonra başladı. İlk konsertimdə çox həyəcan keçirirdim. Elə indi də bu hiss məni tərk etməyib. Axı, hər dəfə xalq qarşısında imtahan verirsən. Səni sevənlərin mehribanlıq, nəvaziş dolu gözlərini görəndə, bu məsuliyyət hissi səni daha da həyəcanlandırır. İlk alqış dərsdə aldığın qiymət kimidir. Dinləyicilərin xoşuna gəldiyini, oxuduğun mahnının onlara zövq verdiyini bildikdə özünü necə xoşbəxt hiss edirsən! Amma o ilk konsertdə hələ bunların heç birisi mənə aydın deyildi. Mənim üçün ikitərəfli imtahan idi. Əvvələn, dinləyicilər qarşısında ilk müstəqil çıxışım idi, bəyənilib-bəyənilməyəcəyimi bilmirdim. İkinci tərəfdən də sevimli müəllimim Aliyə müəllimə ön cərgələrdən birində oturmuşdu. Həm ona, həm də salonu doldurmuş Bakının tələbkar, musiqisevər dinləyicilərinə imtahan verəcəkdim. Ürəyim çırpınırdı, əllərimi necə tutacağımı bilmirdim. Mənə elə gəlirdi, səsim çıxmayacaq, oxuyacağım mahnının sözlərini də unutmuşam. Qərəz, çox narahat idim. Amma sağ olsunlar, kirpiklərimi qaldırıb birinci dinləyicilərimə, onların arasında isə istəkli Aliyə müəlliməmə baxanda, onların gözlərindəki nəvazişi görəndə səsim də öz-özünə axmağa, sözlər də rəvanlıqla xatirimə, dilimə gəlməyə başladı. Mahnının oynaq ahənginə uyğun olaraq əllərim də özünə iş tapmağa başladı...

Zeynəbin əlləri... Bu əllər oxuduğu nəğmələrə uyğun bəzən bütün bir aləmi bağrına basmağa hazırdır. Sözlərin, melodiyaların ən incə çalarlarını dinləyiciyə çatdırmaq üçün çırpınır, titrəyir, danışır...

İlk konsertdən sonra Aliyə müəllimə onu qucaqlayıb öpmüşdü:

– Sən əsl yolunu tapmısan, qızım, uğur olsun! Çalış, sənətində mahir olasan, sənətini yüksək tutmağı bacarasan, əsl sənətkar olasan.

Zeynəb bu sözləri unutmayıb. İlk konsertdən sonra sənətkarlığının daim kamilləşməsi uğrunda bütün varlığı ilə çalışıb. Asəf Zeynallı adına musiqi məktəbini bitirib, görkəmli sənətkarlarımızdan dərs alıb. Xüsusilə, muğamı! Muğamın incəliklərini xalqımızın adlı-sanlı xanəndəsi Seyid Şuşinskidən öyrənib.

Zeynəb Xanlarova heç kəsə bənzəmək istəmədən özündən əvvəlki xanəndələrin, tanınmış mahir sənətkarların ifa tərzini öyrənib, özününküləşdirib. Amma sənətdə də məhz öz yolunu tapıb. Bizim bəzən olduqca durğun səciyyə daşıyan ifa tərzinə yenilik, canlılıq gətirib. Zeynəb xanımın ifa tərzi çoxlarının sevdiyi canlı-qanlı, həyatsevərliklə dolu, oynaq və rəngarəngdir. Nəğmə onun ruhundadır. Rəqsan bir tərzdə, bütün vücudu ilə mahnı oxuyanda oynamaq bilməyənlər belə yerindən qalxıb əl-qol açmaq, oynamaq, oxumaq istəyir. Onun ifasında hər mahnı canlanır, ürəklərə işləyir. Zeynəb sözlərin deyilişinə, şair və bəstəkarın bu söz və melodiyalara verdiyi mənaya xüsusi diqqət yetirir. Çalışır ki, hər söz öz xüsusi məna və çaları ilə dinləyiciyə çatsın, qəlbinə girsin, ruhunu oxşasın. Elə buna görə də Zeynəb haqqında şeirində Əli Tudə yazır:

*Sanma ki, oxuyan ya bülbül, ya da*
*Qocaman dağların çeşmələridir.*
*Yox, yox! Dinlədiyin o səs, o sədа*
*Nəğməkar Zeynəbin nəğmələridir.*
*Bəli! Pərdə-pərdə yayılır o səs,*
*Necə də ilhamla Zeynəb oxuyur!*
*O gözəl nəğməni dinləyən hər kəs*
*Öz-özünə deyir: Əcəb oxuyur!..*



"Günəşin şəfəqi yerinə içilə bilən" bu nəğmələr dinləyicilərdə ruh yüksəkliyi yaradır. Onun növbəti konsertlərində tamaşaçılar uzun sürən sürəkli alqışlardan sonra, sevimli nəğməkarın "Gecəniz xeyrə qalsın" sözlərini eşitməyincə salonu tərk etmirlər. Salondan çıxarkən üzlərdə elə bir sevinc, fərəh hissi olur ki!.. Elə bil tamaşaçıların hər biri burada nə isə nəcib hünər göstərib, yaxşı bir iş görüb. Özlərilə bir aləm fərəh aparır, qollarına yeni qüvvət axıb gəlir.

Zeynəb Xanlarovanın ifa tərzi təkcə Azərbaycan xalqının deyil, onu dinləyən bütün başqa xalqların da xoşuna gəlir. Onu Moskva, Moldova, Şərq ölkələri, Kanada, Bolqarıstan, Fransa və başqa yerlərdə hərarətlə qarşılayırlar. Xarici ölkələrdə Zeynəb xanımı "böyük sənətkar", "məşhur xanəndə", "Sovetlər ölkəsinin ən şöhrətli sənətkarı", "Azərbaycanın şöhrətli sənətkarlarından", "məşhur azərbaycanlı xalq mahnıları ifaçısı", "xalq mahnıları ustası" adlandırırlar. Bu sözlərə "Tərcüman", "Akşam", "Dünya", "Milliyyət", "Saklambac", "Cümhuriyyət", "Hürriyyət", "Yeni İstanbul" qəzetlərinin 1970-ci il mart ayı nömrələrində rast gəlmək olar. Bu, Zeynəb xanımın Türkiyəyə ikinci səfəri idi. Bütün qəzetlər onu bir ağızdan Yaxın Şərq xalqları mahnılarını ifa edən sevimli, məşhur, tanınmış, istəkli sənətkar kimi alqışlayır, elanını verirdi. "Mart ayında Türkiyənin İstanbul, İzmir, Ankara şəhərlərinə baharla birlikdə Zeynəb gəlib, mahnı gəlib, sevinc gəlib" – deyə yazırdılar.

Xarici ölkələrdə olarkən Zeynəb Xanlarova özünün Sovet mədəniyyətinin və incəsənətinin elçisi olduğunu bir an unutmur, sosialist Vətəni ilə, xalqı ilə fəxr edən, bütün millətlərin tərəqqipərvər ənənələrinə dərin ehtiram bəsləyən həmvətənimiz kimi çıxış edir. Sənətkarımızın ən gözəl, ən qiymətli keyfiyyətlərindən biri də budur ki, bu ülvi, nurlu hisslərini, coşqun vətənpərvərliyini, beynəlmiləlçiliyini yalnız xarici müxbirlərlə söhbətlərində, oradakı dostlarımızla və yadlarla müsahibələrində deyil, hər şeydən əvvəl

mahnılarında, xanəndəlik sənətinin incəliklərində, doğma nəğmələrimizi sevənlərə səmimi münasibətində ifadə edir. Zeynəb oxuyarkən onun səsinin hər ahəngində, hər zərif titrəyişində, zəngulәsində dinləyicilər böyük, ucsuz-bucaqsız sovet elinin gözəlliklərini, adamlarımızın geniş, insansevər ürəklərinin həssaslığını görür və duyurlar.

Zeynəb Xanlarova haqqında çox yazılıb. "Pravda" qəzetində sevimli bəstəkarımız Tofiq Quliyevin böyük xanəndəyə ehtiramla dolu kiçik, lakin gözəl məzmunlu məqaləsi hafizəmdən silinmir. Bizim "Ədəbiyyat və incəsənət" qəzeti, "Azərbaycan gəncləri", "Azərbaycan qadını", İraqda çıxan "Bağdad Observer", Dəməşqdə buraxılan "Ədəbi məcmuə", Bolqarıstanda nəşr olunan "İşıq" qəzeti və onlarla başqaları Zeynəb Xanlarovanı əsl xalq mahnıları ifaçısı, sənətkar kimi qiymətləndirib.

Zeynəb Xanlarovanın opera teatrımızdakı çıxışı da uğurlu olub. Onun "Leyli"si, "Əsli"si uzun illər yaddan çıxmayan lirik, sədaqətli və fədakar surətlərdir.

– Hə, opera teatrımızda mənə "Leyli" surətinin tapşırıldığını biləndə uçmağa qanadım yox idi. Leyli! Axı bu surəti səhnəmizdə böyük sənətkarlar oynamışdı. Həm də onların sənətkarlığını görmüş tamaşaçılar yaşayırdılar. Bir də ki axı tamaşaçılar məni xalq mahnılarının ifaçısı kimi tanıyırdı. Birdən-birə onların qarşısında "Leyli" rolunda çıxış etmək, özümdən əvvəlki sənətkarların yaratdığı ölməz "Leyli"ni unutdurmaq, öz düşündüyüm "Leyli"ni onlara sevdirmək lazım idi. Mən elə, əslində, Füzuli yaradıcılığının, Füzuli qəzəllərinin məftunuyam. Bu qəzəllər xalqımızın çoxdan bəri tanıyıb sevdiyi, muğamatın ahəng və qanunlarına uyğunluğu ilə seçilən şeir inciləridir. Necə ifa etməli idim ki, Məcnun kimi işıqlı bir insanın sevdiyi "Leyli" olum? Necə edim ki, bu Leylinin, doğrudan da, Məcnunanə sevildiyinə, bütün başqa qızlardan üstün olduğuna tamaşaçını inandırım? Deyəsən, pis keçmədi.

"Pis keçmədi". Bu iki söz uzun ayların zəhməti ilə yaranmış əsl Füzuli Leylisini canlandırır. Zeynəb – Leyli olduqca incə, nəcib, Məcnun məhəbbətilə sevilməyə layiq orta əsr gözəli oldu.



**– Operada oynadığınız rollar mahnı yaradıcılığınıza mane olmadı ki, Zeynəb xanım?**

– Yox, nə danışırsınız, əksinə! Mənə elə gəlir ki, muğamı, təsnifləri daha dərindən öyrənməyimə kömək elədi. Kaş bu başlanğıc təkcə Leyli və Əsli ilə bitməyəydi...

Zeynəb Xanlarova repertuarını tədricən genişləndirir, dəyişir, indi artıq repertuarında görkəmli Azərbaycan bəstəkarlarının əsərləri ilə bərabər qardaş xalqların gözəl, rəngarəng mahnıları, dünya musiqisinin inciləri layiqli yer tutmağa başlayır. Xanəndə başqa xalqların nəğmələrini də özünəməxsus səmimiyyətlə, dərin hissiyyatla, coşqun emosional qüvvə ilə ifa edir. Dərhal görünür ki, melodiyalarını sevərək seçdiyi bu xalqları doğma övlad qəlbi ilə sevir, onların mədəniyyətinə, məişətinə, adət-ənənələrinə dərin ehtiram bəsləyir.

Bəhreyn, Cənubi və Şimali Yəmən, Suriya, Kanada, Seneqal, həm də bu ölkələrdən bəzisində Zeynəb Xanlarova bir dəfə deyil, dəvət üzrə iki-üç dəfə olub. Xalqımızın mahnılarını ürək açan bir ifa ilə yayıb, tanıtdırıb.

**– Bəs ilk ifa etdiyiniz mahnı hansıdır, Zeynəb xanım?**

O çox düşünmədi. Bu suala bir neçə dəfə cavab vermişdimi, ya bu günü heç unutmamışdımı, nədənsə... Yenidən xəyala daldı, o günləri bir də yaşayırdımı, bilmirəm, amma sözlərinə yenə də hekayət kimi başladı:

– Xorda oxuyurdum, adi xor ifaçısı idim. Yoldaşlarımdan heç nə ilə seçilmirdim. Nə səsim, nə ifam, nə də zahirimlə.

İlk ifa etdiyim mahnı Ələkbər Tağıyevin şair Hüseyn Hüseynzadənin[88] sözlərinə bəstələdiyi "Qonşu qız" olub. Heç yadımdan çıxmır, onu birinci dəfə 1959-cu ilin son gecəsində dekabrın otuz bir ifa etmişəm.

[88] Hüseyn Hüseynzadə – Xalq şairi Hüseyn Arif

Zeynəb xanımın qaraca gözləri gülümsəyir, zərif, oynaq səslə bala-bala zümzümə etməyə başlayır:

*Uşaqkən oynardıq biz bir bağçada,*
*Əsla yorğunluğu salmazdıq yada,*
*Dolaşıb yanaşı çəmənlikləri,*
*Həvəslə toplardıq tər çiçəkləri,*
*Doğanda səhər, çıxardıq çölə,*
*Verib əl-ələ, qonşu qız...*

– Hüseyn Hüseynzadənin "Göy Xəzər" sözlərinə yazılmış mahnını da oxumuşam. Onlarda təbiətə məftun şairanəlik var. Xalqımızın sevimli şairləri Səməd Vurğunun, Mikayıl Müşfiqin, Süleyman Rüstəmin, Rəsul Rzanın, Məmməd Rahimin, Nəbi Xəzrinin, Mirmehdi Seyidzadənin, Rəfiq Zəkanın, Novruz Gəncəlinin, Ələkbər Ziyatayın sözlərinə yazılmış mahnıları da ifa etmişəm. Bir zaman Müşfiqin sözlərini daha çox oxuyardım. Deyəsən, Müşfiqin nəğmə kimi səslənən elə şeiri qalmayıb ki, ona musiqi qoşulmasın və mən də həmkarlarımla birlikdə onu ifa etməyim. Bir zamanlar məni hətta buna görə Müşfiqin həmyerlisi hesab eləyənlər də olub. Halbuki atam şamaxılı, anam Müşfiqin həmyerlisidir; özüm isə əsl bakılıyam. Burda doğulub-böyümüşəm, burda oxumuş, ilk mahnıları burda eşitmiş, dinləmiş, ilk mahnımı da burda ifa etmişəm. Mən təkcə Müşfiq sözlərindəki şeiriyyətin məftunu olmuşam. Eləcə də başqa şairlərimizin... Təki gözəl söz yazılsın, ona gözəl musiqi bəstələnsin və bu mahnı da ruhuma, səsimə, ifama uyğun gəlsin, o zaman elə xoşbəxt oluram ki!..

... O haqlıdır, elə bir zaman "Mahnı ilə xoşbəxtəm" deyə "Azərbaycan gəncləri" qəzetində çıxış da etmişdi.

**– Zeynəb xanım, repertuarınız haqqında nə deyə bilərsiniz?**

Dodaqlarındakı təbəssüm hara isə uçdu. Üzündə qayğı göründü. Mən səbirlə nə deyəcəyini gözləyirdim.



– Bəstəkarlarımız daim gözəl söz axtarışında olduğu kimi, böyük bir dəstə qüvvətli xanəndələrimiz də var ki, həmişə gözəl və təzə mahnılar sorağındadır. Dinləyici isə həm şair, həm bəstəkar, həm də xanəndələrdən bircə şey tələb edir: gözəl ifalı, məzmunlu, rəngarəng mahnı! Mahnılarımızdakı yekrənglikdən, yeknəsəklikdən narazılıq edən sənətkarlara da bircə tələb var: Yeni-yeni, müasir tələblərə cavab verən, həyatımızın gözəlliklərini tərənnüm edən mahnılar yaradın, xanəndələrimizi də, dinləyicilərimizi də yeknəsəklikdən yalnız onda xilas edə bilərsiniz. Biz də məmnuniyyətlə ifa edərik, dinləyici də minnətdarlıqla dinləyər.

Sən nə qədər haqlısan, Zeynəb!

Onu bu xoş olmayan xəyallardan ayırmaq istəyirəm.

**– Zeynəb xanım, deyirəm, eşitdiyiniz ilk mahnı yadınızda qalıbmı?**

Gözlənilməz sualımdan duruxur, həmişəki adətincə qəflətən üzü dəyişir və mehribanlıqla gülümsəyir, ana dizinin dibindəki uşağa dönür:

– İlk eşitdiyim mahnı? Yəqin ki, laylay olub. Anamın laylası... Dünyada ana laylasından şirin, ondan həzin nəğmə bilmirəm, təsəvvür də eləmirəm. Ana, adına da, laylana da qurban olum.

... Bilirəm, Zeynəb, sənin iki sevgilin var: Biri ana, biri Vətən! Uzaq ölkəli, yadelli müxbirlərə elə beləcə də demisən: İki məhbubumun biri ana, biri Vətəndir.

– Hə, ilk eşitdiyim mahnı yəqin ki, yox, şübhəsiz ki, anamın laylası olub. Sonra da ilk uşaqlıq illəri... O illərdə dahi bəstəkarımız Üzeyir Hacıbəyovun, Səid müəllimin, bir qədər sonra isə gənc ikən bu dünyaya göz yummuş Qənbər Hüseynlinin mahnılarını eşitmişəm, sevmişəm, arabir zümzümə eləmişəm. Mahnı çox idi, muğam da... Amma bunlardan ən çox könlümü oxşayan, qəlbimə yatan xalq mahnıları idi... Axı bir də ilk mahnı niyə? Məgər bütün ətraf, bütün bu dünya mahnı, incə səslər, bəstələr dolu bir aləm deyil? Mən həmişə mahnı ilə xoşbəxt olmuşam. Mənə

elə gəlir ki, gözümü açan gündən oxumuşam. Ya ucadan, ya da qəlbimdə... Əvvəllər küçəylə bir iş dalınca gedəndə də qəlbimdə aramsız olaraq mahnı, hansısa muğam və ya təsnifin bir parçası fasiləsiz olaraq səslənəndə elə bilərdim ki, heç vaxt tək deyiləm. Burada (Zeynəb barmağı ilə köksünə işarə eləyir), kim isə gizlənib oturub, elə hey oxuyur... Mən də ona səs verib elə hey oxuyardım... Nəğmə dərsində də, fasilələrdə də, dərnəkdə də. Mahnı mənim üçün, özüm də fərqinə varmadan, hava kimi zəruri ehtiyaca çevrilirdi. Dərs arası, xüsusilə, böyük tənəffüslərdə qızlar başıma yığılardı:

– Zeynəb, oxu!..

Oxuyardım, qızları çox yalvartmazdım, axı özümün də oxumaqdan ötəri ürəyim göynəyərdi... İlkin ən çox oxuduğum xalq mahnılarından "Nar-nar" lap yaxşı yadımdadır. Az qala, adımı da "Nar" qoyacaqdılar.

Zeynəb Xanlarovanı müxtəlif şəraitdə görmüşəm. Evdə qonağı olmuşam, konsertlərdə dinləyicisi, Opera Teatrında məşqlərinin tamaşaçısı. Dinləyicisi olduğum konsertlərini siz də görmüsünüz. Tamaşa etdiyim məşqlərini yalnız sənət dostları görüb. Onlardan biri mənə xüsusilə təsir bağışladı.

Bu zaman Zeynəb xanım öz əllərilə tikdiyi gözəl geyimlərindən birində idi. Mixəyi rənglərdən yaranmış bu paltar gözləri, dalğalı gur saçları ilə xoş ahəng yaratmışdı. Mərhum Əhməd Bakıxanovun vəfatından az keçmişdi. Zeynəb xanım istəkli muğam müəllimlərindən biri ilə təzəcə vidalaşdığı üçün xeyli məyus idi. Lakin bir az keçmiş xalq çalğı alətləri ansamblının təranələri ucaldı. Ansamblın üzvləri öz adəti qaydalarınca yarımdairə vurub oturmuşdular. Həbib Bayramovun işarəsi ilə incə bir melodiya səsləndi. Zeynəb xanım üzü ansambla kürsü üstündə əyləşmişdi. Tam səsi ilə oxumurdu.

Onu müşahidə etdikcə sənətkarda əmələ gələn dəyişikliyə heyran olurdum. Əvvəlcə məyus olan Zeynəb musiqi təranələri altında dirçəlməyə, canlanmağa başladı. Əlləri,



ayaqları, bütün varlığı musiqiyə qoşuldu. Zeynəb oxuduqca ansambl üzvlərinin üzündə təbəssüm doğulurdu. Söylədiyi hər sözün ecazını sanki bu musiqi ustalarının üzündə, üzərində təcrübədən keçirir, hər hərəkət və səs çalarının təsirini duymağa, gələcəkdə geniş dinləyici kütlələrinə necə təsir edəcəyinə inam əldə etməyə çalışırdı. Onlarla xanəndə ilə məşq etmiş, onlarla xanəndə ilə səhnədə çıxış etmiş sənətkarlar Zeynəbin xoş təsiri ilə xüsusi bir eşqlə çalırdılar. Zeynəb isə getdikcə özünü unudub mahnının ahənginə dalırdı. Arabir əlinin yüngül, yalnız dostlarına tanış olan işarəsilə onları saxlayırdı.

– Bax, burda qoy qarmonçu təkcə çalsın, elə bilsin ki, mənə səs verir, görək necə çıxır?

Musiqi yenidən başlanır və yeni möcüzə yaranırdı. Hamı da bu dəyişiklikdən razı qalırdı. Bu hal məşq boyu bir neçə dəfə təkrar olunurdu. O gah bu, gah da başqa musiqi aləti ilə təkbətək qaldı, bir an keçməmiş bütün ansambl onlara qoşuldu. Zeynəb ansamblın rəhbəri, səslərin, alətlərin, tənzimçisi kimi işləyirdi. Heç kəs də narazı qalmırdı. O, səslərin, bu və ya başqa musiqi alətinin nə zaman müstəqil dillənməli olduğunu dəruni, qəlbdən gələn hisslə duyurdu. Məşq xeyli çəkdi. Zeynəb xanım yorulmuşdumu? Bu ağır zəhmət zahirində heç yorğunluq əlaməti törətməmişdi. Axı ən çox sevdiyi və sevdirməyə əmək sərf etdiyi işlə məşğul idi. Sabah-biri gün konsertlərdə dinləyicilər məhz bu çalarlara heyran olacaqlar. Alqış səsləri salonu başına götürəndə Zeynəb və dostları zəhmətlərinin mükafatını alacaqdılar.

Belə konsertlərdən birindəyəm. Zeynəb xanımın solo konsertidir. Yüzlərlə göz dikilib səhnəyə. Zeynəb xanım oxuyur, mahnıların ahənginə uyğun olaraq əlləri, ayaqları, bütün vücudu oxuduğu söz və melodiyalarında iştirak edir. Bu məftunedici rəqs, qəlbinin dərinliklərindən gələn səs və sözlər dinləyicini qanadlarına alıb aparır – bir xəyal, şirin bir nağıl, ecazkar bir əfsanə kimi. İstəmirəm, mahnı qurtarsın, istəyirəm ki, həmişə belə olsun, Zeynəb xanım

gözlərimdə, qəlbimdə elə beləcə qalsın. Şəkildə gördüyünüz bu görkəmilə. Bu, Zeynəb mahnılarının bir anıdır. Fotoqraf bu anı çox gözəl duyub və tutub. Fotoaparat bu anı həkk eləyib, saxlayıb. Xəyalımda böyük Turgenevin mənsur şeirlərindən biri canlanır. Elə bil dahi rus sənətkarı yanımdaca əyləşib və bu sözləri məhz Zeynəb xanım haqqında pıçıldayır: "Dayan! Bax, bu an gözlərim önündə nə cürsənsə, eləcə də həmişə hafizəmdə qal!"



Coşqun ilhamla dolu son zəngulə indicə dodaqlarından qopub, gözlərin yanmır (Zeynəbinki isə yanır!), parlamır (Zeynəbinki isə sönməz atəşlə parlayır), ifadə edə bildiyin gözəlliyin sevinc və səadətindən onlar ağırlaşıb xumarlanır və sən sanki öz qalib əllərini, yorğun əllərini qaldırıb o gözəlliyi çağırırsan!

Günəşin şüasından daha zərif, daha saf olan hansı nur sənin bütün əzalarına, paltarının ən xırda qatlarına yayılıb?

Allah öz nəvazişli nəfəsilə sənin pərişan saçlarını geri atıb?

Sənin mərmər kimi solğunlaşmış simanda (Zeynəbinkində isə həyat, nəşə dolu şəfəq yanır) onun – o ulu qüvvənin busəsi yanır!



Budur, o kəşf edilməmiş sirr – şeiriyyətin, həyatın, məhəbbətin sirri! Budur, budur ölməzlik! Başqa ölməzlik yoxdur və lazım deyil. Bu an sən ölməzsən...

... Sənin bu anın heç bir zaman qurtarmayacaq.

Dayan! Qoy ölməzliyinin şahidi olum, öz əbədiyyət nurunun, heç olmasa, zəif bir şüasını qəlbimə saç!"

Kaş bu sözləri Turgenevdən əvvəl sənin haqqında mən demiş olaydım, Zeynəbim! Səni dinlədikcə əbədiyyətə, musiqi və şeirin bəxş etdiyi səadətə qovuşanların biri kimi! Mən də mahnılarının bəxş etdiyi bircə anı gözlərimdə və qəlbimdə əks etdirmək, əbədi saxlamaq istəyirəm. İstəyirəm ki, hafizəmdə əbədilik olaraq beləcə qalasan: Gənc, gözəl, həyat dolu, mahnı, nəşə dolu, qalib kimi!

**Bakı, 1975**

# Bizim Ərəbzəngidi (Gülxar Həsənova)[89]

Gülxar xanım Həsənova Azərbaycanın Xalq artisti, operamızın gözəl sənətkarı, bizim səhnənin Ərəbzəngisiydi. Əsli, Leyli, Şah Sənəm, lap bu axırlarda "Gəlin qayası"nda ana rolunda da görmüşəm. Bütün rollarında. Amma ən çox sevdiyim Ərəbzəngi olub. Dönə-dönə görmüşəm bizim Ərəbzəngini, Şah İsmayılı başqa-başqa aktyorlarımız oynayıb, amma uzun illər mən biləni Ərəbzəngini əvəzsiz oynayıb Gülxar xanım. Bilirsiz, elə buna görə Ərəbzəngi rolunun tarixiylə maraqlanmışam. Müslüm bəy Maqomayev "Şah İsmayıl" operasını 1916-cı ildə yazsa da, ilk dəfə 1919-cu ildə oynanıb. Əvvəllər səhnəmizdə, onsuz da, azəri-türk qadını yox idi. Ərəbzəngini də kişi aktyorları oynayırdı. Səhnəyə qadın ayaq açandan sonra da mübahisələr gedirdi. Bəziləri deyirdi ki, Ərəbzəngini elə kişi oynamalıdır. Çünki cəmi bir səhnədə, operanın axırında qadın geyimində görünür. Həm də Ərəbzəngi kişilərlə çarpışmalıdır, qılınc çalmalıdır. Bu da qadın işi deyil. Uzun mübahisələrə səhnəmizin unudulmaz sənətkarı Həqiqət Rzayeva son qoydu. İlk dəfə də Ərəbzəngini, o oynadı. Sonralar Gülxar xanım səhnəyə gəlib Ərəbzəngi oynayanda, doğrusu, valeh oldum. Bu rolda Həqiqət xanımı da, Yavər xanımı da, bir neçə başqa xanımı da görmüşəm. Səslərinə söz ola bilməz. Amma öz boy-buxunu, bədən tənasübü, qəddü-qamətiylə Gülxar xanımın boyuna biçilmişdi Ərəbzəngi. Kaş, görəydiniz... Bir qılınc vurmağı vardı... Əsl kişiydi.

Ərəbzəngiyə qədər Gülxar xanımın həyatında elə səhnələr olub ki... Başqa teatr, başqa rollar...

[89] "O bizim Ərəbzəngidi (Gülxar Həsənova haqqında TV ssenarisi)" (01.12.1993) / Əzizə Cəfərzadənin Ev Arxivi, Fond "P" / Qovluq №21 / Sənəd №17 / vərəq-13 əsasında çapa hazırlanıb.



Amma səhnəyə gəlməzdən əvvəlki bəlalar, bəlkə də, həmin həyatı üçün zəmin yaratmışdı. Doğrudan da... Şamxordan (indiki Şəmkir) Bakıya necə düşmüşdü Gülxargilin ailəsi? Tanınmış nəsildəndi. Bu haqda danışanda Gülxar xanım həzin kədərlə deyir: "Bəylərin oduna yandıq. Ata yurduyla üzülüşdük. Soyadımla da... 1937-ci ildə bizimlə yerli, eyni soyaddan olan inqilabçı Həmid Sultanovun oduna yandıq. O tutulan kimi bizi də təqiblər gözləyirdi. Gizlin yerlərdə saxlanırdıq. Getsin, gəlməsin o günlər. Gündə bir ev, gündə bir ailənin, yox, yox... Gündə bir neçə ailənin dağıdıldığını, didərgin düşdüyünü, ailə başçısının məhv edildiyini eşidirdik".

Amma Gülxar xanımı teatr, musiqi, sənət aləmi çəkirdi özünə. Mərhum rejissor, təəssüf ki, haqsız yerə adı unudulan Ağasəlim Manaflı məktəbindən çıxıb – bir çox sənətkarlarımız kimi. Fədakar səhnə xadimiydi. Həvəskarları başına toplayıb mətbəə işçilərinin mədəniyyət sarayında, Əli Bayramov klubunda, daha bir neçə yerlərdə tamaşalar qoyardı. Gülxar xanım Həsənova onun verdiyi tamaşalardan "Cancur Səməd"də qulluqçu qız, "Zorən təbib"də lal qız rollarını oynayıb. Ondan dərnək rəhbəri Ağasəlim Manaflı çox razılıq edir, gələcəyinə inanırdı.

Elə Əli Bayramov klubunun dərnəyində çalışarkən tanınmış səhnə xadimi, Xalq artisti, Gənc Tamaşaçılar Teatrının bünövrəsini qoyanlardan biri, xalqımızın çox sevdiyi dram aktyoru Ağadadaş Qurbanov Gülxar xanımın səhnə həyatıyla tanış oldu. Ağadadaş Qurbanov elə o zaman gənc tamaşaçıların sevimlisiydi. Bir neçə nəsil gəncin tərbiyəsində onun oynadığı qəhrəman surətlərinin böyük rolu olmuşdu. Sonralar Akademik Milli Dram Teatrında Səyavuş, Sənan kimi obrazları ümumxalq məhəbbəti qazanmışdı. Amma Ağadadaş Qurbanov həm də gənclər arasından səhnəmizə istedadlar tapıb gətirmək sahəsində az iş görməmişdi. Belə gənclərdən biri də Gülxar xanımdı. 1937-ci ildə, o, Gülxar xanımı Gənc Tamaşaçılar Teatrına gətirdi və 1937-1941-ci illər arasında orada işlədi.

Dediyimiz kimi, Gülxar xanım Şəmkirin tanınmış Sultanovlar nəslindəndir. Qardaşları Həmid, Nazim, Səlim Sultanovlardı. O isə Həsənova. Bu, indi gənc nəslə anlaşılmaz görünə bilər. Lakin Gülxar xanım Gənc Tamaşaçılar Teatrına elə bir dövrdə gətirilib ki, xalq düşməni Həmid Sultanovun qohumu sayılan adam o dövrdə gənc nəslə tərbiyə verən teatrda işləyə bilməzdi. Ona görə də Ağadadaş Qurbanovun məsləhəti və köməyilə Gülxar xanım öz ata babası Hacı Həsən ağa Sultanovun adını özünə familiya götürüb. Ağadadaş Qurbanov elə düzəldib ki, bütün sənədlərində və afişalarda adı Gülxar Həsənova yazılıb.

Elə həmin ildə də iki sənətkarın taleyi birləşib. Evlənmələrinə Gülxar xanımın anası razı deyildi. Artistə qız vermək arvada birtəhər gəlirdi. El-camaat nə deyər deyə düşünürdü. Amma o zaman hələ uğrunda can qoyduğu partiya və hökumət tərəfindən ləkələnib, balaları əlindən alınıb, sürgünlərə göndərilməmiş, ağbirçək Ceyran Bayramovanın elçiliyi və məsləhətilə Gülxar xanımın anası bu evlənməyə razılıq verib. 1938-ci ildə bu nikahdan bir oğul dünyaya gəlib ki, bu gün səhnəmizin işıqlı, sənətkar fədailərindən biridir. İki güclü sənətkarın övladı Hamlet Qurbanovun oynadığı rollar tamaşaçıların yadından heç zaman çıxmayan surətlərdir.

Gülxar xanım həmişə Hamletin hər uğurunu sanki öz uğuru sayıb. Ana kimi fəxr edib, sənətkar kimi yaradıcılığını qibtəylə izləyib. Bilsəniz, hər uğuru qəlbində ona necə çıraq yandırıb, fərəh verib.

Gülxar xanımla söhbətlərdə, o, həmişə özündən çox oğlundan danışır. Şekspirin bir kəlamı var: "Əgər sevdiyinin tərifiylə dinləyiciləri yormamısansa, deməli, sevməmisən". Əlbəttə, ana sənətkar oğul sənətkardan məhz belə danışa bilər. Bu gün isə söhbət Gülxar xanımdan gedir, hörmətli oxucum! Gülxar xanım Gənc Tamaşaçılar Teatrında tanınmış, qüdrətli sənətkar rejissor Məhərrəm Haşımovun məktəbini keçib. Burada o, Ağadadaş Qurbanov, Xalq artisti Süleyman Ələsgərov, Yusif Vəliyev, Süsən Məcidova,



Əlməmməd Atayev, Əhməd Qəmərli kimi sənət vurğunu sənətkarlarla tərəf-müqabil olmuşdu. Rejissor Kərim Həsənovu, Səfər Nemətovu görüb, tanıyıb. Gənc Tamaşaçılar Teatrındakı dörd illik fəaliyyəti dövründə o, "Qaçaqlar"-da Amaliya, "Qatır Məmməd"də kəndli qızı, "Ceyran"da Ceyranın bacısı, şahın qızı və başqa obrazlar yaradıb.

Bu surətlər içərisində birinin üzərində xüsusilə dayanmaq lazımdır. Bu da "Ceyran"dakı şah qızı surətidir. Burada gələcəkdə oynayacağı Ərəbzənginin ruhu duyulurdu. Gəncliyində Gülxar xanımı həmin rolda görənlər Ağadadaş Qurbanovla cəngavərcəsinə qılınc oynatmasından məhəbbətlə danışırlar. Qılınc məşqini kimdən almışdınız, Gülxar xanım, idmançılardanmı? Yo-o-ox, idman nə gəzirdi onda? Müharibəydi, baş qarışıqlıqdı. Gənclərə vətənpərvərlik, vətən məhəbbəti aşılamaq lazım idi. Hər gün cəbhələrə yollanan gənclər bizim dünənki tamaşaçılarımızdı. Ona qılınc məşqini də Ağadadaş Qurbanov özü vermişdi, özü öyrətmişdi. Məşqləri də onunla özü aparmışdı.

Doğrudan da, o zamankı Gənc Tamaşaçılar Teatrı gəncliyi vətənpərvər ruhda tərbiyə etmək işində əvəzsiz rol oynamışdı. Müharibə gedirdi. Doğrudur, bu müharibə faşizmə qarşı aparılırdı, amma hər halda xalqımızın bu gün apardığı müharibə deyildi. Bu gün gənclərimiz öz torpaqlarımızı erməni faşizmindən (Hitler canavarlarından geri qalmayan, bəzən hətta onları ötən) qoruyur, erməni quldur qəsbkarlarına qarşı gedir çarpışmalarımız. Bu gün də bizim bütün teatrların repertuarında qəhrəmanlıq, vətənpərvərlik ruhunu qaldıran, tərbiyə edən tamaşalar olmalıdır. Belə tarixi dramlarımız var. Təəssüf ki, "Fərhad və Şirin", "Cavanşir", "Dumanlı Təbriz", "Qaçaq Nəbi", "Nadir şah Əfşar", "Ağaməhəmməd şah Qacar", "Oqtay Eloğlu", "Od gəlini", "Vətən", "Nəsrəddin şah" və onlarla başqaları, lap elə "Ceyran"ın özü səhnə üzü görmür, gənclərimiz vətənsevərliyi harada öyrənməlidir, teatrlarımızda

deyilsə, kimlərdən öyrənməlidir, yazıçı, şair və xüsusilə, aktyorlarımızdan deyilsə? Hörmətli oxucular, mətləbdən uzaq düşdüyümü zənn etməyin, bu bir tərəfdən günün tələbidir, digər tərəfdən səhnəmizdə iki cəngavər qadın surəti yaratmış Gülxar xanım Həsənovanın yaradıcılığıyla əlaqədardır, ona görə də həmin mövzuya toxunmağı vacib sandım. Gülxar xanımın operaya gəlişi necə, hansı şəraitdə baş verib?

Görünür, Gülxar xanımın yaradıcılığı onu yetişdirən rejissor, aktyor dostlarının daim diqqətindəymiş. Zaman elə gətirib ki, opera sənətimizin xanım-xatın, gözəl sənətkarı Həqiqət Rzayeva o zaman, yəni 1942-ci ildə incəsənət işçilərimizlə birlikdə İrana qastrol səfərinə gedib. Səhnəmizdə onun yeri boş görünürdü. Bir gün Ağasəlim Manaflının nişan verdiyi Gülxarı filarmoniyada dinləmək üçün mərhum dünya şöhrətli bəstəkarımız Üzeyir Hacıbəyov və o zaman Opera Teatrının direktoru Mirzə İbrahimov filarmoniyaya gəlirlər. Onu dinləyirlər. Üzeyir bəy onu operaya ilk rolu – Əsli surətini yaratmağa aparır.

Operaya Əsli roluna gələn Gülxar Həsənova az sonra "Aşıq Qərib"də Sənəm, "Leyli və Məcnun"da Leyli, sonralar ana, "Durna"da Lalə, "Koroğlu"da xanəndə qız, "Arşın mal alan"da xala, "Gəlin qayası"nda ana, ən başlıcası isə Müslüm Maqomayevin "Şah İsmayıl" operasında Ərəbzəngi rollarını ifa etdi. Yaşadı bu rollarla, yaratdı onları özünəməxsus cizgilərlə, özünəməxsus səs çalarlarıyla. Geyimində də, oturuş-duruşunda da başqalarından, əvəzçilərindən seçilirdi. Sevən aşiq qız rolundaydısa, incə, həssas, sədaqətli, əsl şərqli aşiq qız idi. Ana rolundaydısa, övlad ürəyi canı əsən, bütün həyatını bala üçün, bala yolunda qurban verməyə hazır azəri-türk anasıydı. Səsində laylay çalarları duyulurdu.

Gülxar xanımın Müslüm Maqomayev yaradıcılığıyla tanışlığı Ərəbzəngidən çox əvvəl başlayıb. Hələ ilk gənclik illərində, bir zaman Ərəbzəngi olacağı xəyalına belə gəlmədiyi illərdə, Müslüm bəyin o zamanlar geniş yayılmış "Yaz", "Tarla mahnısı" kimi əsərlərini oxuyardı. Amma sonralar "Şah İsmayıl"ı görəndə bu əsərə vurulmuşdu. Ərəbzəngi üçün ürəyi axırdı. Amma Həqiqət xanım kimi sevdiyi sənətkar meydandaykən bu arzusunu dilinə belə gətirə bilməzdi. Qıymazdı. Təsadüf elə gətirdi ki, Həqiqət xanım səfərdəykən Gülxar Həsənova onu əvəz etməli oldu. Və möcüzə baş verdi, onu səhnədə Ərəbzəngi rolunda görən geniş qəlbli sənətkar özü bir daha bu rolda çıxış etməkdən imtina etdi. "Yaraşır ona, – dedi, – qoy oynasın". Ərəbzəngi, Gülxar xanımın uzun müddət əvəzsiz oynadığı rol oldu.

Maraqlıdır ki, Gülxar xanım Həsənova bu rolu beş yüz dəfədən də çox oynayıb. Həm də bu nadir istedadlara xas hadisədir. Səhnəmizdə eyni rolu – Vaqifi Xalq artisti Ələsgər Ələkbərov, Qacarı Sidqi Ruhulla kimi böyük sənətkarlara; Vaqifin, Qacarın məşhur ifaçılarına, əfsanəvi istedad sahiblərinə belə uzun müddət oynamaq qismət olub. Hərbçilər qarşısında çıxış edərkən də çox hallarda məhz Ərəbzəngi rolunda çıxışını xahiş edirdilər. Əsgərlər Ərəbzəngiylə Şah İsmayıl duetindən xüsusilə xoşlanırdılar. Səsində, hərəkətlərində məhz cəngavər tövrü var idi. Gülxar xanım cəbhələrdə çox çıxış edib. O zaman bütün sənətkarlarımız, dram, opera, Gənc Tamaşaçılar, estrada... Bir sözlə, bütün Azərbaycanın incəsənət nümayəndələri cəbhələrə yollanırdı. Bu sənətkarlar da əsgərlər qarşısında konsertlər verir, onların əhval-ruhiyyəsini bacardıqca yüksəltməyə çalışır, əllərindən gələn hədiyələri də aparırdılar. Müharibə illərini xatırlamaq Gülxar xanım üçün, xüsusilə, çətindir. Gülxar xanımı İkinci Dünya müharibəsi alovlarıyla təkcə konsertlər bağlamır. Gülxar xanımın hə-

min illərdə üç qardaşı Həmid, Nazim, Səlim Sultanovlar cəbhədə igidliklə çarpışıb və heç biri qayıtmayıb. Bu günə qədər Gülxar xanım qardaşlarının məktublarını qoruyur. Şəkillərinə baxanda gözlərindən yaşlar gilələnir, xüsusilə, şair qardaşı Nazim Sultanovun ona yazdığı məktubları, bu məktublardakı şeirləri, xüsusilə, yarımçıq qalmış son şeiri oxuyanda qəlbindən dərin, ağrılı inilti, ah qopur.

Onlarla, yüzlərlə dəfə oxuduğu halda, indi də yarımçıq qalmış, nakam bir həyatın şahidi olan bu saralmış vərəqlərə baxdıqca ürəyi sızlayır:

*Toxunsa yurduma duyğusuz bir əl,*
*İnan ki, bir qana min qan eylərəm.*
*Sözlərim cəbhədə qatarlaşanda,*
*Qəlbimi onlara sarvan eylərəm.*

Təəssüf ki, Gülxar xanımın qardaşları, bu sətirləri qəlbindən qoparıb kağıza yazan Nazim qardaşı doğma yurdumuz uğrunda deyil, bizə namərd çıxmış Sovetlər uğrunda çarpışırdı və məhz ölkələri, dünyanı faşizmdən azad etmək uğrunda çarpışdığını düşünürdü. Səkkiz qardaşın bircə bacısıydı, o biriləri kiçikkən dünyalarını dəyişmişdi, üç qardaşı qalmışdı, onlar da ki, faşizmə qarşı döyüşlərdə canlarından keçdilər, qayıtmadılar. Bax, Gülxar xanımı həmin odlu-alovlu illərdə cəbhələrlə bağlayan bir də bu idi.

Gülxar xanımın dərdi böyük olsa da, qırx üç il ərzində beş yüz dəfədən ziyadə qəhrəman qadın – Ərəbzəngi rolunu oynayıb, qızlarımıza, qadınlarımıza mətinlik, cəsarət aşılayıb, "bizim Ərəbzəngi" ləqəbiylə tanınıb çox yerdə, çox halda. Küçədə, ictimai yerlərdə onu görənlər beləcə də pıçıldayıblar: "bizim Ərəbzəngi".



Gülxar xanım Şah İsmayıl rolunun, demək olar ki, bütün ifaçılarıyla tərəf-müqabil olub. Mərhum artistlərimiz Əlövsət Sadıqovla, Hüseynağa Hacıbababəyovla, Şirzad Hüseynovla, Xanlar Haqverdiyevlə, sonralar Arif Babayev, Baba Mahmudoğlu, Canəli Əkbərov və Əli Mehdiyevlə. Amma ən çox, hamıdan çox mərhum Əlövsət Sadıqovla tərəf-müqabil olub. İlk dəfə Əlövsət Sadıqovla, son dəfə Canəli Əkbərovla qarşılaşıb.

Müslüm Maqomayevin "Şah İsmayıl" operası bildiyimiz kimi 1919, 1924, 1930-cu illərdə verilmiş üç əsas quruluşda oynanıb. Gülxar xanımın dediyinə görə, axırıncı quruluşu olduqca bacarıqlı sənətkar, aktyor və rejissor Hidayətzadə verib. Ondan sonra həmin tamaşa mərhum Soltan Dadaşov və Şəmsi Bədəlbəyli tərəfindən təzələnib. Operanın uzun müddət gözəl tamaşalar verən rejissoru Soltan Dadaşov tərtibində şair və hökmdarımız Şah İsmayıl Xətayinin obrazı daha baxımlı olub.

Adını çəkdiyimiz rejissorlardan Gülxar xanım çox şey öyrənib, qəlbən onlara bağlı olub. Amma daha çox Soltan Dadaşovla işləyib. Dirijorlara gəldikdə o zamankı dirijorlar arasında öz geniş biliyi, geniş dünyagörüşü, yüksək mədəniyyəti, musiqi duyumu və əsl ziyalı davranışıyla bəstəkarımız Əfrasiyab Bədəlbəyli yaradıcılığının, dirijorluğunun vurğunu olub. Çox qayğıkeş, çox da nəcib insan kimi xatirində qalıb.

Gülxar xanımın operada oynadığı sonuncu rol – Şərqdə ilk dəfə opera yazan qadın bəstəkar Şəfiqə Axundovanın "Gəlin qayası" operasındakı ana surətiydi.

Yenidən Gülxar xanımın Ərəbzəngisi üzərinə qayıtmağım sizi təəccübləndirməsin, hörmətli oxucular. Axı dədələrimiz "Aslanın erkəyi, dişisi olmaz" məsəlini əbəs çəkməyiblər. Bu gün də erməni qəsbkarlarına qarşı çar-

pışmada həmin məsələnin, yazıçı, şair, bəstəkar və onların əsərlərini ifa edən artistlərimizin rolu az olmayıb. Elə qəhrəmanlıq ruhunda tərbiyələnən qızlarımızdır ki, bu gün ata, qardaş və ərlərindən geri qalmadan silaha sarılıblar. Gülxar xanım özü də belə qadınlarımızdan biridir. İncə şair ürəkli, şair qələmli bu Xalq artistimiz indinin özündə də cəbhə xəttində çarpışan balalarımızın yanına gedib onlarla görüşmək, onlara hədiyyə aparmaq, konsertlər vermək kimi ictimai vətənpərvər fəaliyyətindən ayrılmayıb. Hər dəfə dünyasını dəyişmiş sənətkarlarımız haqqında gözəl xatirələrini dinləyirik səhnələrimizdə, televiziya ekranlarında. Arabir şeir də yazır. Xalqımızın qeyrətli oğlu Şıxəli Qurbanovun xatirəsinə həsr etdiyi şeirindən:

*Ey dərin fikirli, geniş zəkalı,*
*Allahım bəxş etdi sənə kamalı.*
*Halal əməyinlə, az bir zamanla*
*Özünə cəlb etdin bütün mahalı.*
*Gözəl sənətkarım bu gün səhnədə*
*Çox gərgin oynandı "Sənsiz"in sənsiz.*

Bu misralarda dərin xalq kədəri var. Gülzar xanım bu yaxınlarda Qarabağ marafonunda iştirak edib. O, heç vaxt xalqı, milləti üçün gərəkli olan anda heç bir çağırışa, dəvətə yox deməyib. Xalqımız, millətimiz öz ləyaqətli qızını – öz Ərəbzəngisini bir də ona görə sevir ki, Gülxar xanım xəsis, qısqanc olmadan sənətini gənc xanəndələrə həvəslə, təmkinlə öyrədir.

Onların səhnə yolunu öz qəlbinin alovları ilə işıqlandırmağı bacarır, bildiklərini öyrədib özünə və həmyaşıdlarına əvəz hazırlayır. Hazırlayır ki, operamız Leylisiz, Əslisiz,



ən başlıcası, Ərəbzəngisiz qalmasın. Gülxar xanıma milli operamızı sevənlər adından, onların icazəsi və məhəbbətilə uzun ömür, can sağlığı, hələ davamlı, ilhamlı nəfəs, şüurlu yaradıcı fəaliyyət arzulayırıq.

**Bakı, dekabr 1993**

## Aktyor, sənətkar[90] (Süleyman Ələsgərov)

II Dünya hərbindən əvvəl – 30-40-cı illərin əvvəllərində yaşıdlarım – məktəblilər arasında Gənc Tamaşaçılar Teatrının xüsusi yeri vardı. Bizi ailəmizlə, məktəbimizlə bərabər, həm də bu teatrın tamaşaları, orada candan çalışan sənətkarlar tərbiyə edirdi. Həmin dövrlərdə biz bu teatrda tamaşaya qoyulan "Çelyuskinlər", "Pozğun", "Qaralar ölkəsində", "Nərgiz", "Vətən", "Fitnə" və başqa indi adı xatirimdə qalmayan tamaşalarla nəfəs alır, vətəni sevməyi, yaxşıdan ibrət götürməyi, pisə nifrət etməyi öyrənirdik. Bu tamaşalarda iştirak edən aktyorlar bizimçün həyat müəllimi kimi əzizdi, nümunəydi. Ağadadaş Qurbanov, Süleyman Ələsgərov, Əlməmməd Atayev, Məmmədağa Dadaşov, Süsən Məcidova, Cəvahir xanım, Rüxsarə xanım, Yusif Vəliyev, Əhməd Əhmədov və başqaları...

Bunların içərisində mənə xüsusilə yaxın olan, əlbəttə, Süleyman Ələsgərov idi. İki səbəbdən: birincisi buydu ki, Süleyman müəllimin bacısı, Kukla Teatrının aparıcı aktrisası Həcərlə dostluq edirdik. Zahiri və batini gözəllikləri vəsfə gəlməz Həcəri qəlbən sevirdim. Anam onu da mənimlə birlikdə əzizləyirdi. Gözəl idi Həcər, incə, mehribandı, eyni zamanda ötkəm, cürətli idi. Həcər qardaşı Süleyman Ələsgərova böyük məhəbbət və hörmət bəsləyirdi. Təkcə bir dəfə onun sözündən çıxdı. Onu sevən Hüseynağa Sadıqova ərə gedəndə. Süleyman müəllim öz həmkarı və tərəf-müqabili olan Hüseynağanı yaxşı tanıyırdı və bacısının ona qovuşmasını istəmirdi. "Tay deyillər", – deyirdi və haqlı da çıxdı. Həcər bircə balası Rəna qucağında ərindən ayrıldı. Süleyman müəllim bacısını bu səhvinə görə ömürlük bağışlamadı. O, əsl azəri türk, ər-kişi idi. Qeyrətli, namuslu, heç nəyə və heç kəsə əyilməyən, yaltaqlıq, ikiüzlük bilməyən mərd insandı, əsl insandı.

[90] "Süleyman Ələsgərov – aktyor, sənətkar" (14.06.2001) / Əzizə Cəfərzadənin Ev Arxivi, Fond "P" / Qovluq №21 / Sənəd №21 / vərəq – 2



İş elə gətirdi ki, Süleyman müəllim bu dəfə bizim qonşuluqda ev aldı. Onlarla, mərhum həlim təbiətli xanımı Leylayla dostluq, qonşuluq binası qoyduq. Qızları Sevili öz balamız kimi sevirdik. Ömür yoldaşımla vaxtları olanda nərd, şahmat oynayardılar.

Süleyman müəllimin bir sənətkar kimi lap ilk rollarından tanıyıb məftunu olmuşdum. "Yağışdan çıxdıq, yağmura düşdük"dəki Hacı Qəmbər, "İki ağanın bir nökəri"ndə Pantalone, "Kapitan Qrantın uşaqları"nda matros (ilk rolu olsa da), "Babək"də Aqşin, "Qızıl quş"da Polad, "Seyran"da şah Sərxan, "Ovod"da Montanelli, "Bizim Cəbiş müəllim" filmində Cəbiş, "Tom dayının koması", "Nərgiz", "Pozğun" və başqalarında gördüyüm sənətkaranə yaratdığı rollar, surətlər bizimçün nümunəydi. Gənc Tamaşaçılar Teatrının tamaşaları, xüsusilə, Süleyman Ələsgərov, Ağadadaş Qurbanov (o zaman hələ böyük teatra keçməmişdi), Yusif Vəliyev kimi sənətkarların yaratdıqları obrazların təsirilə teatra valeh olmuş və sonralar direktoru olduğum Teatr Texnikumunda teatrşünas şöbəsində oxumağa başlamışdım. Süleyman müəllim həm sənətkar, həm də bir azəri-türk mərd kişisi, Leyla xanımın vəfalı ömür yoldaşı, həm də bir ata və qonşu kimi dərin hörmətimi qazanıb. Unutmamışam, gənc nəslin də məhz belə şəxsiyyətlərimizin həyatından tərbiyə almasını, nümunə götürməsini arzulayıram.

**14 iyun 2001**

## Bir şəklin xatirəsi (Nəsibə Zeynalova)[91]

Qəribə gün idi o gün. 37-ci ilin qara sədası azalmağa başlamışdı. Hər səhər oyananda "Dərs kitablarımızdan tanıdığımız şəxsiyyətlərdən, görəsən, bu gün kimi apardılar?" sualımız azalmağa üz qoyurdu. Bahar idi. Gənc ürəklərimiz gülmək, sevinmək, sevilmək duyğularıyla doluydu. Hər yerdə olduğu kimi Teatr Texnikumunda da bütün rəhbərlik və müəllimlər dəyişmişdi. Müdirimiz incə aşıq-şair Osman Sarıvəlliydi. Bir az da xəstəydi. Sevirdik onu. Sevdiklərimizdən biri də ədəbiyyat müəllimimiz, o zaman həm də yazıçı-dramaturq kimi tanınan Qurban Musayevdi. Ədəbiyyatı, poeziyanı bizə elə sevdirmişdi ki, dövrün ən qabaqcıl şairlərinin: Səməd Vurğun, Süleyman Rüstəm, Rəsul Rza və b. bu gün mətbuatda görünən şeirini sabah əzbər bilirdik. Hər gecə olmasa da, hər halda həftədə bir neçə dəfə Azərbaycan Dövlət Dram Teatrına – Şekspir Teatrına havayı "tələbə bileti" alıb gedir, "quşbazlar məhəlləsi" adlandırdığımız lap uca yerdə əyləşib heyran-heyran "Romeo və Cülyetta", "Maqbet", "Ögey ana", "Fərhad və Şirin", "Vaqif", "Kələkbaz Skapen" tamaşalarının sehri ilə əfsunlanırdıq. Barat xanım – Cülyettanın, Mərziyə xanımın... vurğunuyduq. O zaman Teatr Texnikumunda Aktyorluq, Rejissorluq, Kino sənəti və Ədəbi tənqid şöbələri vardı. Aktyorluq şöbəsində mərhum Mirvari Novruzova, Nəcibə Məlikova, xüsusilə, sevimlimiz Nəsibə Zeynalova oxuyurdu. Hərəsi məndən bir-iki sinif irəlidəydi. Tənqid şöbəsində oxuyurdum (ailəvi səbəblərdən yarımçıq qoydum). O zaman may, oktyabr bayramları xüsusi təntənəylə keçirilirdi. Mollanı, "burjuy"u qəribə geyimdə ələ sala-sala maşınlara mindirib küçələri gəzdirirdilər. Onlara qarşı nifrət təbliğ edilirdi. Komsomol katibimiz Həsənağa bizi

[91] "Bir şəklin xatirəsi (Nəsibə Zeynalova)" (1992-1996) / Əzizə Cəfərzadənin Ev Arxivi. Fond "P" / Qovluq №21 / Sənəd №18 / vərəq – 3



may bayramına milli geyimdə hazırlamışdı. Hamıdan cılız, kiçik, həm də Aktyorluq fakültəsində olmamağıma baxmayaraq məni də onlara qoşmuşdu. Dəstələrlə şəhəri gəzir, tribunanın önündən keçirdik.

Əziz oxucularımıza təqdim etdiyim bu şəkil o zaman çəkilib. Başqa yerdə varmı-yoxmu, bilmirəm. Nəsibə xanımımız elə onda da diqqət mərkəzindəydi. Şəkildəkilərdən Nəsibə xanımın solunda dayanan oğlan Kərim, sağında da Ümid adlı tələbəydi. Təəssüf ki, qalanların adı xatirimdə qalmayıb. Axı məni o dəstəyə təsadüfən qoşmuşdular.

Əzizim Nəsibə xanım! Bu şəkil sizdə varmı? Yoxdursa, o günləri xatırladar sizə. Əgər dodaqlarınızda bircə təbəssüm oynasa, bəxtiyar ollam. Siz təkcə mənim deyil, bütün türk dünyası sənətsevərlərinin pərəstiş etdiyi sənətkarsınız. Var olun!



*Əzizə Cəfərzadə (üçüncü cərgədə sağdan birinci) Nəsibə Zeynalova, (ikinci cərgədə sağdan ikinci) və başqaları ilə (Bakı, 1 may 1939-cu il)*

Bu şəkil... Hə, bu şəklin tarixi belədir: Bakı, 1 may 1939-cu il.

**1992-1996**

# Rəssam Nəcəfqulu ilə bir görüşümüz[92]

"Molla Nəsrəddin"in Xalq rəssamı Əzim Əzimzadə ənənələrinin davamçısı, "Kirpi" jurnalı səhifələrindən istedadlı yumorist rəssam kimi tanıdığımız Əməkdar incəsənət xadimi Nəcəfqulunun çəkdiyi milli geyim nümunələri albomu haqqında öz fikirlərimi oxucularla bölüşmək istərdim. Rəssam tariximizə və etnoqrafiyamıza olan marağımı bildiyindən alboma baxmağıma məmnuniyyətlə razılıq verdi.

İrəlicədən deyim ki, Nəcəfqulunu təkcə yumorist rəssam kimi tanımıram. "Ana", "Sabir", "Üzeyir Hacıbəyov", "Səməd Vurğun" və onlarla başqa əsərini görmüş, sərgilərdə rəsm sənətinin başqa sahələrindəki işlərinə baxmış, arabir yazdığı həm ciddi, həm də satirik şeirləri oxumuşam. Rəssamın yaradıcılığına bu qədər yaxından bələdliyimə baxmayaraq qarşımdakı albom məni heyran qoydu.

Titul vərəqində "Azərbaycan geyimləri" (tiplər). Bakı-Şamaxı, XVIII – XIX əsrlər" sözlərini oxuyub albomu maraqla vərəqləməyə başladım. Sanki həyatımızın, xalqımızın iki əsrlik tarixini əks etdirən əlli beş tablo asılmış rəsm qalereyasına düşdüm. Bu əlli beş vərəqi bir neçə dəfə çevirdim. Hər əsərə bir neçə dəfə baxdım. Hər xırda cizgini diqqətlə gözdən keçirdim. XVIII və XIX əsrlərdə Bakı-Şamaxı zonasında yaşayan əhalinin bütün təbəqələrini əks etdirən tiplər bir-birinin ardınca gözlərim önündə canlandı. Rəssam təkcə geyim yaratmayıb, həm də xarakterlər, tiplər yaradıb, iki-üç əsr bundan əvvəl yaşamış insanları canlandırıb.

– Albomun üzərində nə qədər işləmisiniz? – ondan soruşdum.

---

[92] Cəfərzadə Ə.M. / "Gözəllik aləmində" / "Bakı" qəzeti / 1983, 6 iyun / səh. 3
"Gözəllik aləminə səyahət" (Nəcəfqulunun sərgisi haqqında) (12.05.1983) / Əzizə Cəfərzadənin Ev Arxivi, Fond "I" / Qovluq №18 / Sənəd №28 / vərəq – 4



– İl yarım.

– Bəs nə qədər müddətə öyrənmisiniz bu aləmi?

– Bütün ömrüm boyu.

– Hə, bax, bu düzdür...

Nəcəfqulu:

– Məsələn, bax, bu Hacını görürsünüz?

– Xorasan kürkü geyənimi?

– Hə, bu Hacını siz də görməmiş olmazsınız. Məhəlləmizdə tin başında oturardı, keçən əsrin "yadigarı" idi. Qocalmışdı, çox qocalmışdı, amma özü yıpranmış da olsa, kəhrəba kimi sarı, tikməli kürkünü çiyninə salıb tin başında əyləşərdi.

Yuxarıda dediyim kimi, keçən əsrlərin şahından, xanından, bəyindən tutmuş sarvanına, kəndxudasına, qoçusuna, təlxəyinə, tacirinə, axunduna, şeyxinə, baqqalına, ovçusuna; əkinçi kəndlisinə qədər əhalinin bütün nümayəndələri albomda özünə yer tapıb. Qadınlar aləmi burada ayrıca təmsil olunub: bəyimlər, yengələr, gəlinlər, qayınanalar; əli xonçalı oğlan bacısı, yaylaq gözəli, rövzəxan arvad... Kimi istəsəniz, taparsınız bu aləmdə. Hərənin də öz geyimi, öz bəzəyi, öz adı...

Kimxa, hacımənəbax, qaymağı xara, qanovuz, atlas, bənarə, məxmər, "iynəbatmaz-qayçıkəsməz", cuna, şəmsi-qəmər – parçaların adı çox, gözəllərin zövqü isə rəssama bəllidir. Sənətkar qadınların bəzəklərindəki ən xırda detalları belə unutmayıb: piyalə, şəlpəli, qırxdüymə sırğalar, əncaməli, həsiri, gül qolbaqlar, bilərziklər, sinəbəndlər, ətəkliklər, kəmərlər, boğazaltılar, balıqşəlpəli silsilələr, yaxalıqlar, düymələr, müxtəlif üzüklər, üzü güləbətin tikməli kimxa başmaqlar, qaytarmaburun sağrı başmaqlar...

*Sağrı başmaq zənənə,*
*Dünyada gözəl çox, mənə nə?*
*Ərənlər qənim olsun,*
*İlqarından dönənə...*

Ana və nənələrimizin sadə, sadə olduğu qədər də gözəl, incə, əlvan geyimlərinin, bəzəklərinin təsvirini görəndə beləcə oxumaq, zümzümə etmək istəyirsən.

Nəcəfqulu bu rəsmləri çəkməzdən əvvəl qırıq-söküyü qalmış sandıq yadigarlarını, köhnə geyim və bəzək nümunələrini dönə-dönə, bircə-bircə, ən incə detallarına qədər öyrənib, tədqiq edib, bəli, tədqiq edib! Bunu da deməkdən çəkinmirəm ki, bu əlli beş rəsm bədii məziyyətindən başqa həm də tarixi-etnoqrafik baxımdan tədqiqat əsəridir.

Böyük əməyin, gərgin tədqiqatın nəticəsi olan bu rəsmlər barədə bəzi arzularımı da bildirmək istərdim. İstərdim ki, nənələrimizin zəngin baftası ilə yanaşı sadə sərmə, gümüş sərmə, hərəmi, qaragöz hərəmi bəzəkləri də paltar köbəsi kimi işlənsin. Günbəz kəmər Şamaxı-Bakı zonasında xüsusi yer tutub, qoy o da geyimlərə əlavə olunsun. Qaytarmaburun başmaqla, uzunboğazla, qundluyla yanaşı nəleyin başmaq, xüsusilə, çutqu və dingə də unudulmasın. Sırğaların, döş bəzəklərinin, xüsusilə, Şamaxıda geniş yayılmış gül pərəklərin bəzək detalı kimi işlənməsi də yaxşı olardı.

Eyni zamanda nəzərə almaq lazımdır ki, Bakı zərgərləri mirvari ilə işlənmiş bəzək əşyalarına daha çox üstünlük verirdilər.

Əlbəttə, bütün bunlar arzudur və sevimli rəssamımızın böyük əməyinə məhəbbətin nəticəsidir. Yaxşı olardı ki, respublikanın Naxçıvan, Şəki-Zaqatala, Qazax, qədim Gəncə və başqa zonalarının da geyimlərini əks etdirən belə albomlar yaranaydı. Bu albom isə bütün əlvanlığı, gözəlliyi qorunmaqla tezliklə çap olunaydı.

Albomun əhəmiyyəti böyükdür. Bir tərəfdən müasir geyim modelləri yaradanlar, zərgərlər və başqaları oradakı milli detallardan istifadə edə bilərlər, digər tərəfdən isə albom rəqqaslarımız, ansambllarımız, teatr tamaşalarına tərtibat verənlər üçün maraq doğurar. Məncə, etnoqraflar və tarixçilər, tarixi mövzuda bədii əsər yazanlar üçün də bu geyimlər, bu surətlər əvəzsiz material verər.



Nəcəfqulunun yumoristik-satirik qələminin gücü ilə cəmiyyətimizə yad ünsürlərin eybəcər mənəviyyatına çox gülmüşük. Bu əsəri ilə isə istedadlı rəssamımız bizə tarixi keçmişimizi öyrənmək, onunla bir daha fəxr etmək imkanı yaradıb.

Sənə uğurlar olsun!

**Bakı, 6 iyun 1983**

# Aşıq Şakiri xatırlarkən[93]

II Dünya müharibəsindən sonrakı illərdi. Hələ lazımınca hərbin qara günlərinin bitdiyinə alışmamışdıq. Bununla belə qəlbimiz ədəbi-bədii gecələrə can atır, sanki müharibənin ürəyimizə çökdürdüyü acıları qazıb çıxarmaq istəyirdik. O davadan sonrakı bir-iki ildə belə yığıncaqlar, görüşlər, yubileylər, xatirə gecələri tez-tez olurdu. Hamısına da dəvətnamə alıb, bacardıqca yaraşıqlı geyinib getmək arzumuzdu. Geyim deyəndə də indiki bər-bəzək yox idi. Yadıma gəlir ki, mərhum şairimiz Mədinə Gülgün Bakıya gələndə bir müddət bizdə qaldı. Anam ona da analıq edir, öz Təbrizdə qalan anasını yada salıb ağlayanda "can bala" deyib özünü ovundururdu. Bircə qara güpr paltarım vardı, bayır-bacaqçün. Növbəynən geyirdik onu. Mədinə gedəndə mən evdə qalırdım, mən gedəndə o qalırdı evdə anamla. Qardaşlarım əsgərlikdəydi. Qərəz... Həmin illərdə birdən elan olundu ki, Bakıda o vaxtkı Azdrama (indi Muzkomediya) teatrının binasında Aşıq Şakirin konserti olacaq.

İlahi! Elə can atırdım ki! Düzdü, heç Aşıq Şakiri tanımırdım. Amma... Amma axı aşıq oxuyacaqdı. Uşaqlıq illərindən xatirimdə Aşıq Şamılın dastan, nağıl danışaraq apardığı toy məclisləri canlandı. Ölsəm də, gedəm gərək. Getdim də. Mənim kimi aşıq şeiri pərəstişkarları zalı elə doldurmuşdu ki, adamın çoxu ayaq üstə durmuşdu. Yuxarı mərtəbədə rejissor lojasıyla üzbəüz lojada misilsiz komediya aktyoru Mirzağa Əliyev oturmuşdu. Təkcə onu gördüm öndə ortada. Qalanlar kimdi, bilmədim. Canım pərdənin açılmasına bağlıydı, gözlərim heç kəsi, heç nəyi görmür, pərdəyə zillənib qalmışdı.

93 "Aşıq Şakiri xatırlarkən" (14.02.2001) / Əzizə Cəfərzadənin Ev Arxivi, Fond "P" / Qovluq №21 / Sənəd №28 / vərəq – 3



Nəhayət, pərdə açıldı. Aşıq Şakir göründü. Əlində saz, əynində noxudu qalife və köynək, belində dörd barmaq enində qayış, başında papaq. Vəssalam! Sazı da sadəydi, üstündə sonralar gördüyümüz bər-bəzək, sədəf, ad yoxuydu. Zala tərəf baş əydi, sazı sinəsinə qaldırdığını gördüm... və türklər demişkən, bayıldım. İndi ha çalışıramsa, onun o gecə hansı qoşma, gəraylı, gözəlləmə oxuduğunu xatırlaya bilmirəm. Musiqinin ecazına, ifanın gözəlliyinə elə dalmışdım ki!!! Deyəsən, sözlərin mənimçün bu anda əhəmiyyəti yoxuydu. Dörd-beş ağır müharibə ilində həsrətindəydi hamı, mən də... musiqinin... Belə musiqinin. Belə aşiqanə aşıq ifası oxuyurdu!

Birdən qulağıma qəribə səs gəldi. Şakir bəndlər arası "buy-buy-buy... Dərdin alım..." deyəndə lojada oturan Mirzağa Əliyevin səsi ona qatıldı. O da "buy, buy, buy" deyə-deyə çırtmıq çalır, oxuyurdu, aşığa səs verirdi. Allahdan sürməli gözləri sevinc təbəssümündə qıyılmış, ətrafa işıq saçırdı.

Söz arası deyim ki, Mirzağa Əliyev dünyasını dəyişəndən sonra şəxsi arxivini almağı Respublika Əlyazmalar fondu mənə həvalə etmişdi. Evlərinə getdim. Yeganə qızı sənədlər siyahıya alınanda ağlar səslə mənə dedi, "Başsağlığı verməyə gələnlərdən kim isə atamın cürə sazını götürüb aparıb". "Oğurlayıb" demədi. Sən demə, o zaman gördüyüm səhnə, doğrudan da, o gözəl sənətkarın aşıq musiqisinə bağlılığından irəli gəlirmiş. Qərəz...

Aşıq Şakirlə ikinci yaxın görüşüm Udulu sovetliyinin Qubalı kəndində baş verdi. Orada bütün Udulu sovetliyinin kənd soveti sədri Tutu xanımın oğlu Əlinin toyuna dəvət olunmuşdum. Tutu xanımı tanıyır və sevirdim. Bu mərd qadın bütün müharibə və sonrakı çətin illərdə əvvəlcə öz Qubalısında kolxoz sədri, sonra da bütün sovetlikdə ağbirçək, kənd sovet sədri olmuşdu. Böyük hörmət və məhəbbət qazanmışdı. Cavandı, əri müharibədə həlak olmuşdu, yeganə oğlunu nə çətinliklərlə böyütmüş, istəyənə

ərə getməmiş, yəni ailə qurmamışdı. "Arvadın başı bir ərin yastığına qoyular. Məhəbbət bir olar, Allah ikinci bəxt yazmır mənim kimisinə" deyərdi. Bax, həmin Tutu xanımın oğlunun toyunda Aşıq Şakiri ikinci dəfə gördüm, yaxından tanıdım, bəzi səciyyəvi cəhətlərinə bələd oldum. Üç gün qaldı Tutu xanımgildə (elə mən də). Üç nağıl söylədi. Əlbəttə, bizim adətdə qadınlar, qızlar toyxanaya girməz. Mağarın bu üzündən dinləyirdik aşığı. Orada öyrəndim ki, Aşıq Şakir dövran yığmır, bəzi üzdəniraq "toyxana aşığı" kimi nağılda üç-dörd dəfə ciblərə əl uzatmır. Çox ağayana aparır özünü. Xalqın vəziyyətini yaxşı bilirdi axı. İkinci, Tutu xanımdan toy haqqı almadı, belə mərd ananın, müharibə qurbanı oğlunun toyunu öz oğlununmuş kimi apardı, heç bir xalturaya yol vermədi. Hələ üstəlik, bir tanış, toya dəvətli qonaq kimi toya nəmər də saldı.

Sonralar Aşıq Şakiri konsertlərdə görür, radiolarda çıxışlarını sevinclə, fərəhlə eşidirdim. Sevinir və fərəhlənirdim ki, xalqımızın belə qabil, mərifətli ozan-aşığı var.

Bir dəfə haqqında müsahibə də vermişdim. Təəssüf ki, o zamanlar video olmadığından, deyəsən, canlı çıxışı qalmayıb yadigar üçün. Yaxşı ki, hələ səsi qalıb. Arabir radioda dinləyəndə kədərlənirəm. Şirvan aşıq məktəbinə deyilən böhtanlar ürəyimi ağrıdır. Bu məktəbin Aşıq Şakir kimi güclü nümayəndəsinin dünyanı çox tez tərk etməsinə ağrınıram.

**Bakı, 14 fevral 2001**



## Mirzə Məhəmmədhəsən[94]

Bəzi mənbələrdə soyadını Fələkizadə yazırlar. Amma mənə elə gəlir ki, bu "Fələkzədə"dir. Yəni fələyin vurduğu, zədə yetirdiyi, gözlərini əlindən aldığı insan. Məlumdur ki, Böyük Seyid Əzimin "Ləhni-Davud"a bərabər tutduğu səsilə gəncliyində böyük şöhrət və məhəbbət qazanmış Mirzə Məhəmmədhəsən, ömrünün sonlarına doğru gözlərindən, qulaqlarından məhrum olmuş fələkzədəydi. Tale-fələk bir sənətkarla, həm də məhz səs, muğam, xanəndəlik sənətkarıyla, belə amansız rəftar etmiş, onu sevdiyi tərənələri eşitməkdən, məftunu və yaraşığı olduğu toy şənliklərini görməkdən məhrum etmişdi. Bu elə faciəydi ki, misli sənət dünyasında nadir tapılar.

Mirzə Məhəmmədhəsən həm də şair idi. Torpağının hər zərrəsi bir şair ürəyindən xəbər verən qədim Şirvan ocağında, şeir sənət dünyasında, Seyid Əzim qulluğunda, Azərbaycan xanəndələrinə "diplom" verən, uğurlu yol diləyən Mahmud ağa məclislərində sanki şair olmamaq mümkün deyildi. Muğamı çox xanəndələr kimi məclislərdə ustad Füzulidən, Seyid Əzimdən oxuyurdusa, ara-sıra təklikdə zümzümə edəndə öz qəlbini qələyana gətirən hisslərini öz sözləriylə də tərənnüm edirdi. Amma artıq bu qəzəllər, bu tərənnümlər "fələyin zədələdiyi" şair-xanəndənin kədər hissiylə elə yoğrulmuşdu ki, onlardan elə dərd, qəm süzülürdü, sanki təzə yaradan qan damırdı.

Həyatının sonu faciələrlə dolu keçsə də, sevdiyi insanların məclislərindən məhrum, daxilinə dalmış, tənha, kimsəsiz, unudulmuş həyatı keçirsə də, bir zamanlar bütün yaxın şərqdə tanınmış, Şirvan, Azərbaycan, İran toylarının yaraşığıydı. Mirzə Məmmədhəsən öz səsi, təkrarolunmaz ifası ilə ümumxalq məhəbbəti qazanmışdı. Yaratdığı mu-

[94] "Mirzə Məhəmmədhəsən" (23.10.1991) / Əzizə Cəfərzadənin Ev Arxivi, Fond "P" / Qovluq №9 / Sənəd №31 / vərəq – 2

ğam ifaçılıq məktəbi bu gün də Şamaxıda öz ənənələriylə Ağakərim Nafiz, Alim Qasımov, Mələkxanım və başqalarının ifasında yaşayır. Təəssüf ki, o zamandan nə maqnitofon yazısı qalıb, nə başqa bir şey. Amma hafizələrdə, ata-analarımızın danışdığı hekayətlərdə, başlıcası isə muğam ifaçılarımızın – Şirvan muğam sənətinin ənənələrində yaşayır böyük, ustad sənətkar Mirzə Məhəmmədhəsən.

**23 oktyabr 1991**



# MÜXTƏLİF SƏNƏT SAHİBLƏRİ HAQQINDA XATİRƏLƏRİ

## Bakıxanov nəslinin xanımları[95]

Əslində, bu yazımı "Bakıxanov nəsli" adlandırmalıydım. Amma elə olub ki, Bakıxanov nəslindən ilk tanıdığım qadın olub. Özü də bizim tarix müəllimimiz Xanım Bakıxanova. Xanım müəllimi çox sevərdik. Əsəbi, qışqırıb-bağıran deyildi. Gözəldi. Geyimində də, hər cəhətdən, səliqəsində də. Danışığında da. Təbəssümündə də. Bəlkə, öz uşaq ömrümdə birinci gözəl görürdüm. Hərtərəfli gözəl, daxili aləmiylə zahiri müvazinətdə olan əsl insan, əsl xanım gözəlliyi. Bəlkə də, elə adı kimi xanım gözəlliyi. Elə danışardı qədim dünya tarixindən ki, elə bil Beynənnəhreyni, Neynəvanı öz gözlərilə görmüşdü. O aləmin adət və ənənələrini elə canlı, elə gözəl təsvir edərdi ki! Deyəsən, tarixə marağı, tarixə meyli, məhəbbəti elə mənə Xanım müəllimə təlqin edib, öyrədib. Ürəyim gedirdi onun dərs saatları üçün. Ah, Allahım! Mən də belə danışa bilsəydim... Yox!.. Bu, Allah vergisiydi. Nəslinin bütün zahiri və batinindəki gözəllikləri bu nazəndə, incə xanımda mühafizə edən Allah vergisi!.. Bakıxanov nəsli belə də olmalıydı. O, "Gülüstani-İrəm" müəllifi ulu babasının yoluyla gedirdi.

Doğrudur, o zaman 3-4-cü siniflərdə hələ Abbasqulu ağa Bakıxanovu tanımırdıq, keçməmişdik şair Qüdsi yaradıcılığını. Amma sinfimizdə iri qızlar vardı; deyirdilər ki, keçəcəyik, belə bir şair olub. Özü də müdirimiz Allahverdi Bakıxanov onun nəvə-nəticəsindəndir, Xanım müəllimə də Allahverdi Bakıxanovun qardaşı qızı, yəni o da Bakıxanovun nəslindəndir.

---

[95] Cəfərzadə Ə.M. / "Bakıxanov nəslinin xanımları" / "Azərbaycan" jurnalı / 1999 №3 / səh. 181-185
"Bakıxanov nəslinin xanımları" (01.03.1999) / Əzizə Cəfərzadənin Ev Arxivi, Fond "P" / Qovluq №5 / Sənəd №3 / vərəq – 13
"Bakıxanovlar ailəsi haqqında materiallar" (1970-1999) / Əzizə Cəfərzadənin Ev Arxivi, Fond "P" / Qovluq №79 / Sənəd №3 / vərəq – 29

Bakıxanovu sonralar yaxşı tanıyıb biləndə bir şeyə hayıfsılandım. Bakıxanovun xanımı Səkinə xanım müəlliməymiş, iki qızları varmış, onları oxudubmuş, zəmanəsində yaxşı təhsil də veribmiş onlara. Hayıf ki, şəkilləri qalmayıb. Vallah, mənə elə gəlir ki, Xanım müəllimə onlara oxşayıb. Əgər şəkilləri qalsaydı... Nənələr deyərmiş ki, bu nəslin qızları elə belə olublar, həm gözəl, həm kamallı, həm savadlı... Kim bilir, indi qonşu ölkələrin hansında, hansı gimnaziyada oxumuşdularsa, orada onların sənədləri, adları şəkilləri durur. Oğlum Turan qayğılarımı görüb incə kinayəylə gülərək sataşdı mənə. Axı axır vaxtlarda sözüm-söhbətim Bakıxanov nəsliydi.

Dedi:

– Ana, "Matenadaran"a yaz, bəlkə, elə tapdığın o Ripsime gimnaziyasında oxuyan "müsəlman qızları" (mənbədə adları çəkilmir) onlarmış. O saatdaca sənə cavab yazarlar.

– O ayrı söhbətdir, bala, – cavab verdim.

Amma ürəyimdə bu fikir də dolanmağa başladı. Tozlu-torpaqlı, illər, qərinələrlə əl dəyməyən arxiv materiallarına sovxaşdım. Yadıma gəlir ki, görüşlərdən birində qocaman bir oxucu zaldan uca səslə söylədi: "Arzu edirik ki, daha çox toz udasan". Zal gülüşdü: "Əyşi bu nədi, xəstələnər". Cavab qaytardı: "Mən o tozdan demirəm, arxivlərin tozunu deyirəm". Düz deyirmiş. Bir xırdaca sənədi, bircə adı öyrənməkçün bəzən həftələrlə qədim əlyazması və ya əski kitab oxumalı olursan. İndi də elə oldu. Həmişəki kimi.

Bu dəfə mənə yol göstərən sənədlərdən biri 1852-ci ildə Sankt-Peterburqda Xalq Maarifi Nazirliyinin çap etdirdiyi jurnallar oldu. Oxudum, əlbəttə, A.Bakıxanovun qızları haqqında bir şeyə rast gəlmədim. Əvəzində öyrəndim ki, 17 may 1952-ci ildə Şamaxıda müqəddəs Nina məktəblərindən birində iyirmi beş qız şagird oxuyurmuş, eyni vaxtda İrəvanda müqəddəs Ripsime məktəbində də oxuyan iyirmi beş qızdan üçü müsəlmanmış və onlara xüsusi molla da dini, şəriət dərsi verirmiş. Öz doğma ana



dillərində də oxuyur, eyni zamanda rus dilində xüsusi bacarıq göstərirmişlər. Daha sonra eyni ilin nömrələrindən birində Qafqazda təhsil haqqında hesabat verilir, yazılır: "19 марта в заведении св. Рипсиме открытом 11 января 1850 г., был торжественный акт и публичное испытание воспитанниц, которые принадлежат к трем вероисповеданиям. Православному, Армяно-Григорянскому и Магометанскому. На одной из стен зала, в коей происходило испытание, развешаны были рукоделия; далее в особом столе разложены были рукоделия; далее в особом столе разложены были с большим вкусом, пожертвованная разными особами в пользу заведения.

Испытание началось с Закона Божия, на русском языке, и воспитанницы смело и отчетливо отвечали на предлагаемые вопросы. Весьма удовлетворительно были так же ответы их прочих предметах на Татарском (əlbəttə, onda azəri türkcəsi rus aləmində belə adlanırdı – Ə.Ç.) и армянском языках. Но особенное внимание присутствующих обращено было на успехи в русском языке. Нельзя было не удивляться как воспитанница мусульманка в виду посетителей читала свободно, из уст, басни Крылова.

Оригинально и как то странно было слушать эти гениальные басни из уст – дочери народа, коему почти не знакомы еще звуки чуждого для него языка, и слух которого привык только к песням муаззина и помнит еще залпы ружейных выстрелов прежних боевых тревог"[96]. Bundan sonra məqalə müəllifi Rusyanın şərq xalqlarına gətirdiyi səadətdən ağız dolusu danışır, tərifi göylərə qaldırır.

Müəllifin azəri-türk qadını haqqında təsəvvürü belədir. O, yalnız azan səsi eşidir, muğamatdan, şərq poeziyasının incəliklərindən bixəbərdir. Məhsəti Gəncəvi, Aşıq Pəri, Aşıq Bəsti, Fatma xanım Kəminə, Ağabəyim ağa Ağabacı, Xurşidbanu Natəvan o cərgədən, o eldən, o millət içindən çıxmayıb. Jurnalın 76-cı nömrəsində oxuyuruq: "Вдова полковника Аббас-Кули-Бакиханова, Сакина ханум за безвозмездную уступку Академии наук оставшихся после мужа ее книг на восточных языках (13 июля)"[97] - mükafatlandırılıb. Hər iki qızına yüksək, zəmanəsinə görə əla təlim, tərbiyə verən, təhsillərini başa çatdıran Səkinə xanımı nə məcbur edib, kim məcbur edib ki, Qüdsinin qiymətli kitablarını Peterburq akademiyasına bağışlasın?

[96] 11 yanvar 1850-ci ildə açılan Müqəddəs Ripsime müəssisəsində 19 mart tarixində təntənəli mərasim və üç dinə – Pravoslav, Erməni-Qriqoryan və Məhəmməd dininə mənsub şagirdlərin kütləvi sınağı oldu. Sınaq keçirildiyi salonun divarlarından birinə əl işləri asılmışdı; sonra xüsusi bir masada əl işləri düzülmüşdü; daha sonra xüsusi mizdə müxtəlif şəxslər tərəfindən qurumun xeyrinə ianə edilmişlər böyük bir zövqlə düzülmüşdür. Sınaq rus dilində Allahın Qanunu ilə başladı və şagirdlər təklif olunan suallara cəsarətlə və aydın şəkildə cavab verdilər. Tatar və erməni dillərindəki digər mövzulara verilən cavablar da olduqca qənaətbəxş idi. Ancaq iştirak edənlərin xüsusi diqqəti rus dilindəki uğurlara yönəlmişdi. Müsəlman qız şagirdin dodaqlarından Krılovun təmsillərini ziyarətçilərə necə sərbəst oxuduğunu görüb təəccüblənməmək mümkün deyildi. Bu dahiyanə təmsilləri ona yad dilin səslərini, demək olar ki, tanımayan və qulağı yalnız müəzzin-azançı səslərinə alışmış və hələ də əvvəlki döyüşlərin həyəcanlı atəşlərini, tüfəng atışlarının yaylımlarını hələ də xatırlayan xalqın qızının dodaqlardan dinləmək orijinal və həm də qəribə idi.
[97] Polkovnik Abbasqulu Bakıxanovun dul arvadı Səkinə xanım, ərindən sonra onun Şərq dillərindəki kitablarını Elmlər Akademiyasına təmənnasız güzəşt etdiyi üçün (13 iyul).



Çarizmin müstəmləkə siyasətini dərk etmək üçün bu o qədər də kiçik detal deyil. Hər şey: Dil də, məişət də, adət-ənənələr də – hər şey rus çarizmini maraqlandırırdı. Təkcə bu parçaya diqqət yetirilsə, vaxtilə başqa mənbələrə istinad edib bu mənbədən bixəbər olan mən "Eldən elə" romanını yazanda, məşhur səyyah Hacı Zeynalabdin Şirvaninin həyatından bəhs edəndə çox səhifəni aça bilmişdim tarixdən, amma bu səhifədən xəbərim yox idi:

"... Помощник председательского, А.Чл. Импер. Р.Г. Общ. Н.В. Ханыков прочел записку о неизданном и известном под заглавием "Сад путешествия" географическом труда Персидского путешественника XIX столетия Хаджи Зеин-ель-Абедина, урожена г. Шамахи,.. В прочтении этой любопытной и возбудившей общее внимание записки, Г. Покровитель изволил поручить Н. В. Ханыкову (в) изготовить от имени Его Сиятельства отношение к нашему Послу в Персии, князю Долгорукову, с просьбой собрать сведения о Зеин-ель-Абедине поселившемся в 1821 в местечке Курмуши, Ширванского округе, если можно отыскать остальные три части его географического труда, сообщить их в Отдел, и (б) распорядится в переводе из этого сочинения более любопытных мест и в особенности о Закавказском крае, могущих дать, по сличению их с другими сведениями, меру добросовестности и верности оценки описания стран, виденных этим путешественником[98]".

[98] Sədrin köməkçisi, A. Rusiya İmperator Coğrafiya Cəmiyyətinin üzvü N.V.Xanıkov, XIX əsr fars (?) səyyahı Şamaxıda doğulub-böyümüş Hacı Zeynalabdinin "Səyahət bağı" adlı dərc edilməmiş və bilinməyən coğrafi əsəri haqqında bir qeydi oxudu. Bu maraqlı və ümumi həyəcan yaradan qeydi oxuyarkən cənab himayədar zati-aliləri adından N.V.Xanıkova bizim Farsistandakı səfirimiz knyaz Dolqorukova əlaqəli məktub hazırlamağı tapşırmışdı. Burada səfirdən 1821-ci ildə Şirvan mahalının Kurmuşi qəsəbədə məskunlaşan Zeynalabdin haqqında məlumat toplamaq, mümkünsə coğrafi əsərinin digər üç hissəsini tapmaq, şöbəyə bildirmək və bu əsərindən daha maraqlı hissələrini, xüsusən də, Zaqafqaziya bölgəsi haqqında digər məlumatlarla müqayisədə, bu səyyahın gördüyü ölkələrin təsvirini qiymətləndirərkən vicdanlılıq və dəqiqlik ölçüsü verə biləcəyi üçün tərcümə etdirməyi xahiş edib.

Amma bu cənab bilmirdi ki, Hacı Zeynalabdin Şirvani, beş tarixi-coğrafi-elmi əsərin müəllifi artıq çoxdan vəfat edib. Knyaz Dolqorukov bir sıra başqa ingilis, alman, fransız "alimləri" kimi onun əsərlərini və ailəsini axtarırlar, əldə etdiyini hərə öz ölkəsinə göndərir; o cümlədən kn. Dolqorukov da artıq belə bir fəaliyyətdə olub. 70 il bizə Azərbaycan ədəbiyyatının təbliğatçısı kimi tanıdılan Xanıkov gör kim imiş?..

Mətləbdən uzaqlaşıram, hörmətli oxucu! Söhbət Abbasqulu ağa Bakıxanovun vəfatından sonra dul qadını Səkinə xanım və qızları Zibənnisa (mənbələrin, rus mənbələrinin çoxunda onu Ziba-nisa adlandırırlar) və Tuğra xanımdan gedir. Bəlkə də, bu qız məktəblərindən birində oxuyan elə Abbasqulu ağa Bakıxanov Qüdsinin vəfatından sonra onun əmisi qızı və sevgili qadını Səkinə xanımın təşəbbüsüylə onların balaları, qızları oxuyub? Nəsildəki rəvayətlər çox maraqlıdır. Bunlardan birində deyilir ki, Abbasqulu ağa Bakıxanov oğul həsrətindəymiş. Oğul istəyirmiş, ulu Tanrı isə ona bir-birinin ardınca iki mələk kimi gözəl qız vermişdi. Arabir istəkli ərinə oğul bağışlaya bilməyən Səkinə xanım bundan çox sıxılarmış, sanki o, "müqəssirmiş" ki, Abbasqulu ağa oğul həsrəti çəkirmiş. Deyilənə görə, qızlar bir az böyüyəndə bir gün hərbi yürüşlərdən evə dönən zaman Səkinə xanım ərinə deyib: "Ağa, düzdü, yanında üzüqarayam, sənə oğul verə bilmədim..." Bakıxanov incə şair ürəyilə xanımının bu sıxıntısına dözməyib: "Sən neynəyəsən, Səkinəm mənim? Bu, Allahın işidi. Verəndə verir, verməyəndə yox". Səkinə xanım dolmuş gözlərinin nəmini gizləyib deyir ("kəbini göylərdə kəsilmiş" əmisi oğlunun ürəyini bir az şənləndirməkçün demiş): "Düz deyirsən, əmoğlu, düzdü. Tanrı onları qız yaradıb. Amma hər ikisi sənin yolunla gedir. Tuğra qızın hələ şeir də yazır".

Şair təəccüblənmişdi: "Necə, şeir də yazır? Tuğra ha?" Səkinə xanım gülümsəmişdi: "Hə... Tuğra!.. Sən hardan



biləsən? Evdə tapılırsan ki? Həmişə səfərlərdə..." Söhbətin mövzusu dəyişmişdi. İndi bir-birinə həsrət sevgililərin arabir imkan düşdükcə Rusiya ilə Türkiyə, Rusiya ilə İran və başqa Qafqaz xalqları ilə vuruşmalardan başı açılan zabitin məhəbbət, hicran dolu hekayətlərinə keçmişdi.

Abbasqulu ağa Bakıxanovun qızlarının hər ikisinin şair olduğu haqqında nəsildə söhbətlər gəzir. Amma mənbələrdə ruslar Zibənnisa xanımı Ziba-nisa kimi təhrif etsələr də, adını çəkir, şair olduğundan və ümumiyyətlə, nə ilə məşğul olduğundan elə bir xəbər vermirlər. Tuğra xanımınsa adı çəkilmir. Halbuki Respublika Əlyazmaları İnstitutunda mühafizə olunan qədim əlyazmalarından birinin kənarında – "Tarixi-Nadir"də belə qeyd var: "Tarixi-Nadir" əlyazması 1826-cı ildə yazılıb. Görünür, qeyd az sonra edilib. Həmin vərəqdəki qeyddən aydın olur ki, Abbasqulu ağa Bakıxanov Qüdsinin qızı Tuğra xanım "məşhur şair"dir. Burada Tuğra xanımın öz əli, öz xəttilə yazıldığı ehtimal olunan bir beyt də var:

*Tuğra xanımam, mən bu cahan içrə əzizəm,*
*Abbasqulu ağa qızı – Zəhraya kənizəm.*

Bu ikicə misradan çox şey öyrənmək, anlamaq olur. Tuğra xanım çox məğrur, qürurlu, atası Abbasqulu ağa Bakıxanovun adıyla fəxr edən, onun kimliyini anlayan qız imiş. Bu iftixar hissi ata mövqeyindən doğur, onun atalıq məhəbbəti yaradıb sanki bu hissi. Lakin eyni zamanda Tuğra xanım dindar, əsl müsəlman qızıdır. Atası həm fars dilində, həm də azəri türkcəsiylə yazırdı. Tuğra xanımdan bizə yalnız ikicə misra – sadə türkcəmizdə ahəngdar ikicə misra qalıb. Saxlayıb millət bu ikicə misranı, doğma misranı. Əmin olmaq olar ki, Tuğra xanımın yaradıcılığı təkcə bu bir beytlə bitməyib. Zəmanəsində "məşhur şair" sayılan Tuğra xanımın şeirləri hardasa ya "laədrilərə (müəllifi bilinməyən) qarışıb, ya da zamanın keşməkeşli anlarında məhv edilib. Axı Bakıxanovun nəslinin Qüdsiyə görə de-

yil, məhz xanlar nəsli olduğuna görə təqib olunduğu məlumdur.

Elə məhz buna görə də Bakıxanovların az qismi öz familiyasını dəyişib (məsələn, bu nəsildən olan Balaxan bəy Bakıxanov 1906-cı ildə Almaniyada Hamburq Texnoloji İnstitutunu bitirmişdi, Hacı Zeynalabdin Tağıyevin toxuculuq fabrikində baş texnoloq işləyirdi. Həmin illərdə Balaxan bəyin əmisi oğlu Hacı bəy də fabrikdə baş icraçı kimi çalışırdı. 1937-ci ildə Balaxan bəyi Almaniyada oxuduğu, orayla əlaqədar olduğu və deməli, "alman casusu" olduğuna görə həbs edirlər. Onun əmisi oğlu olduğu üçün Hacı bəy bir müddət gizlənir, sonra Əliyev familiyasıyla "üzə çıxır". Onun da özündən böyük qardaşı Qasıməli bəy isə babalarının adıyla Abbasov familiyası götürür. Balaxan bəyin qardaşları isə repressiya qorxusundan Məlikov familiyası daşımağa məcbur olurlar), bir neçə nəfəri də xarici ölkələrə pənah aparmağa məcbur olub. Amma əksəri... Əksər Bakıxanovlar bu familiyanı qürurla, şərəflə daşıyıblar. Yazımın əvvəlində dedim ki, gərək, ümumiyyətlə, Bakıxanov nəslindən danışaydım! Kişili-qadınlı. Amma... Axı bu nəsil Azərbaycanın tarixinə onlarla – iyirmidən ziyadə general-leytenantdan tutmuş, podpolkovnikəcən ər-igid verib. Elə bil 1920-ci illər, bir az da dəqiq desək, 1937-ci ilə qədər bu nəslin kişiləri hərbi xidmətə daha çox üstünlük veriblər. Onların içərisində rus ordusunda tanınmış Bakıxanov Abbasqulu ağa – general-mayor, Cəfərqulu ağa – general-leytenant, Mustafaqulu ağa – general-mayor, Abdulla ağa – general-mayor, Həsən ağa – general-mayor, Əhməd ağa – qvardiya polkovniki, Qədir ağa – kapitan, İbrahim bəy Aslanbəyov vitse-admiral (İbrahim bəy Bakıxanovun nəvəsi) və onlarla başqaları. Sonralar da, Böyük Vətən müharibəsi illərində və sonra Bakıxanov nəslindən podpolkovnik Əli Soltan oğlu Bakıxanov... və onlarla başqaları. Dəfələrlə təkrar etsəm də ki, əsas mövzum Bakıxanov nəslinin qadınları və qızlarıdır, buna baxmayaraq



deməliyəm ki, inqilabdan xeyli əvvəl Bakıxanov nəslinin kişiləri hərbi xidmətə meyil göstərirdilərsə, Sovet hakimiyyəti illərində təqiblərdən, repressiyalardan yaxa qurtarmaq üçün, elə bil qəsdən iki sənət seçiblər. Bunlardan böyük qismi müəllimlərdir (məşhur maarifpərvər, müəllim, məktəb direktorum Allahverdi Bakıxanov kimi. Həm də beş qız atası, beş maarif yolçusu yetişdirmişdi), ikinci qisim Bakıxanovlar Azərbaycan musiqisinin inkişafında xüsusi xidmətləri olan bəstəçilər, musiqişünaslar, qabiliyyətli ifaçılardı.

Bu, Bakıxanovların ən məşhuru, şübhəsiz ki, hamımızın sevdiyi, vaxtilə Azərbaycan muğam məktəbinin bilicisi, öyrədici, bir çox adlı-sanlı xanəndələrimizin yetişməsində xüsusi rolu olan, ilk xalq musiqi alətləri ansamblının yaradıcısı, Xalq artisti Əhmədxan Bakıxanovdu. Onun oğlu Məmmədrza Bakıxanov Asəf Zeynallı adına Azərbaycan Dövlət Musiqi Texnikumunun baş müəllimi, "Azərbaycanşünaslar müstəqil birliyi"nin təsis etdiyi A.Bakıxanov adına mükafatın laureatıdır. Nəsildə üçüncüsü Məmmədrza müəllimin oğlu Elxan Bakıxanov, müxtəlif mükafatlar laureatı, hazırda Ankarada bəstəkarlıq kafedrasına başçılıq edir.

Hamımızın tanıyıb sevdiyimiz Tofiq Bakıxanovu geniş dinləyici kütlələrinə, musiqi sevərlərə tanıtmaq artıqdır. Musiqimizdə onun öz izi var. Başqa musiqişünas Bakıxanov qardaşlarım bağışlasın məni, əsas mövzum yenə də deyirəm ki, qadınlardı. Elə buna görə də bu məsələdən vaz keçib, xanımlara qayıdıram. Abbasqulu ağa Bakıxanov nəslinin xanım-qızlarına.

Əvvəldə dediyimiz kimi, Abbasqulu ağa Bakıxanovun oğlu olmayıb. Nəsildən, qardaşlarından, əmisi oğlanlarından qalan övladlardır ki, Bakıxanov familiyasını daşıyıblar. Bu günə qədər. Bakıxanovun iki qızı olduğunu bilirik. Nəsildə gedən rəvayətlərə görə, hər iki qız – Zibənnisa bəyim və Tuğra xanım hər ikisi şairə olub. Anaları Səkinə xanım yüksək savadlı müəllim olub, qızlar isə savadı

Qafqaza sürgün olunmuş polşalı alim və yazıçı Vladislav Stejimtskidən öyrəniblər. Cənab Vladislav, Bakıxanovun qızları Zibənnisa bəyim və Tuğra xanıma, həmçinin general-leytenant, Qüdsinin qardaşı Cəfərqulu ağanın oğlanları Həsən ağa və Əhməd ağaya dərs deyib. Yəqin ki, rus dilində. XIX yüzilliyin ortalarında Sankt Peterburqda nəşr olunan maarifə dair jurnallarda Səkinə xanım və ümumiyyətlə, Bakıxanov nəslinin başqa üzvləri haqqında ufaq-tufaq məlumata rast gəlmək olar.

Bakıxanovlar nəslində qız övladları oğlanlardan əskik tutulmayıb, bəlkə də, yüksək tutulub, oxudulub, heç olmasa, "molla bacı" məktəbi görüblər. Müşahidə etdiyim dövrdən bu günə qədər yüzdən ziyadə Bakıxanov familiyalı bu nəslə mənsub qız-gəlinin birini də, demək olar ki, kəmsavad görmədim. Bu nəsildə qızları seviblər. Onlara elə gözəl adlar qoyublar ki! Zibənnisa (qadınların gözəli, bəzəyi), Tuğra (Şahlıq nişanı, şahanə göndəriş), Soltan xanım və s. Hətta sonralar belə çox qız doğulan ailələrdə – Gərəkməz, Kifayət, Bəsti, Oğlangərək, Qızbəs və s. kimi eybəcər, təhqiramiz adlar qoymayıblar. Məsələn, bizə yaxın illərdə, elə bizim məktəbin müdiri Allahverdi Bakıxanov ailəsində dünyaya xoş gəlmiş beş qızını gör bir necə adlandırıb: Afət, Ülfət, Qismət, İsmət, Qiymət...

Bu nəsildə yetişən qız-gəlinlər savadlı olduğu kimi dünya məsələlərindən də hali, sədaqətli, ərlərinə əsl mənada yardımçı xanımlar olublar. Məsələn, qədim mənbələrin birində göstərilir ki, Abbasqulu ağa Bakıxanov ən qiymətli kitablarını sandığa toplayıb Qurban bəyin vasitəsilə ona göndərilməsini xanımından xahiş edir. Uzun həftələr, aylar, bəzən illər boyu hərbi yürüşlər, vəzifə borcuyla ərindən uzaq qalan Səkinə xanım qızlarını atalarının adına, məsləkinə, arzularına layiq böyüdüb, cəmiyyətə iki yararlı, bacarıqlı övlad bəxş edib, ərinin bütün dərd-sərinə sədaqətlə yardım edib, bir məktubunda belə Bakıxanov Səkinə xanımın gileyindən, narazılığından danışmır. Əksinə, məktublar Səkinə xanıma böyük məhəbbət və hörmətlə yazılıb.



Bu nəslin qızları təqiblərə, repressiyalara baxmayaraq sevdikləri gənclərlə həyat quranda belə nəsillərinə sadiq qalıb, Bakıxanova soyadını dəyişməyiblər. Maraqlıdır ki, Abbasqulu ağa Bakıxanov Qüdsi şairdən, tarixçidən gələn ənənəmi deyək, xislətmi deyək, bu qız-qadınların ruhuna çilənib. Əvvəllərdə olduğu kimi çoxu müəllimdir, həm də tarixçidir, ədəbiyyatçıdır, jurnalist-yazıçıdır. Qüdsidən gələn maraqdır, nəsli ənənədir, şeirə, poeziyaya, xüsusilə, ümumən ədəbiyyata, tarixə meyil.

Bu nəslin kişiləri tənümənd, ucaboy, yaraşıqlı, kişi gözəlliyinə malik, mütənasib olduğu kimi qız-gəlinləri, qadınları da olduqca gözəl, nəsli-sima yaraşığını mühafizə etmiş insanlardır. Təkcə mənim müəlliməm Xanım Bakıxanova və onun əmisi qızı Ülfət Bakıxanovaya baxanda bu gözəlliyə heyran olmaya bilmirsən. Bu gözəllik – daxili və batini vəhdət təşkil edir. Nəslin qocaları deyərmiş ki, Xanım müəllimə Qüdsinin qızlarına, xüsusilə, Tuğra xanıma çox bənzəyirmiş.

Bu nəslin xanımlarının təkcə adını sadalamaq bir məqaləyə sığışmaz. Amma hər halda bir neçəsinin adını çəkməliyəm. Axı onların hamısı ədəbiyyatçı, tarixçi deyil, elmin başqa sahələrində də fəaliyyət göstərən, həm də çox qabiliyyətli sənətkarlar, öz sahəsində şəxsiyyətlərdir. Ən yaxşı müəllimlərdən, ən bilgin alimlərdən, sənətkarlardan dərs alıblar.

Qeyd etdim ki, bu nəslin xanımlarının təkcə adını saymaq böyük bir məqaləyə sığar. Elə indi Bakıda onlarla belə xanım yaşadığı kimi, mərhum Ziya Bünyadovun məlumatına görə, bu gün İranda belə (hələ başqa azəri-türk soydaşlarımızın yaşadığı başqa Avropa, Amerika və s. qitələri demirəm) Bakıxanov nəslinə mənsub altmış ailə yaşayır. Təkcə Bakıda, bir neçə də başqa şəhərlərimizdə yaşayan, bəzilərini hətta tanıyıb müxtəlif münasibətlərlə əlaqədar olduqlarımın adını sayıram. Çox olsa, bağışla məni, oxucum! Böyük istedada malik, həm zahiri, həm batini gözəlliyi ilə seçilən Xanım müəlliməm (rəhmət olsun), onun

qardaşı podpolkovnik Əli bəyin qızı kitab və kitabxanalar vurğunu, rus dili institutunun məzunu, hazırda təqaüdçü Arifə xanım, tarixçi İlahə xanım, filoloq Nərgiz xanım (rəhmət olsun), diş həkimi Püstə xanım (rəhmət olsun), cərrah həkim Lətifə xanım, diş həkimi Fatma xanım, musiqi müəllimi Aliyə xanım, həkim Ameliya xanım, tibb işçisi Səmayə xanım, tarixçi Xırda xanım, mühəndis Nərgiz xanım, filoloq Gülər xanım, musiqi müəllimi Zivər xanım, filoloq Fəridə xanım, teatrşünas Tünzalə xanım, musiqişünas Rəna xanım, bunların içərisində yalnız üç nəfər evdar xanım – qadına rast gəldim Zivər xanım, Süreyya xanım, Soltan xanım. Onu da qeyd edim ki, bu nəslə mənsub üç qadın da tanıyırdım, böyük Allahın rəhməti onlarla olsun: Maarif fədaisi, ictimai xadim Çimnaz xanım, həkim Ağabacı, xüsusilə, hamımızın ata kimi sevdiyimiz, bircə dəfə də professor deyil, akademik belə olmasına baxmayaraq hamımızın, hətta sevimli arvadı Tubu bacının belə "Mirzə" adlandırdığı Feyzulla Qasımzadənin dörd alim böyütmüş və biz dissertantları da balası kimi sevən Tubu xanım. Hər birimizin – yaşıdlarımın, xüsusilə, mənim üzümə qapı açan bu kübar xanımın təbəssümlü simasını, "Mirzə, bu şağ[99] yoruldu pilləkənləri çıxmaqdan ki..." dediyini əbədi unutmayacağam. Bakıxanov nəslinə mənsub xanımların hamısı, demək olar ki, beləcə, işgüzar, elmə həvəsli, başlıcası, mehriban, təvazökar, kübar xanımlardı. Məni bağışla, oxucum, bu xanımlar içərisində beş, sözün əsl mənasında ziyalı qadının adını ayrıca çəkəcəyəm. Bunlar maarifçi, ziyalı, ömrü uzunu məktəblərdə can qoyan məktəbimizin müdiri Allahverdi Bakıxanovun beş qızı, beş bacı, beş müəllim – ömrü uzunu övladlar böyütməklə, ailə dolandırmaqla məktəb həyatından, şagirdlərindən bir an belə ayrılmayan Afət – filoloq, Qismət – filoloq, İsmət – mühəndis, Qismət – pedaqoq-metodist, Ülfət – kitabxanaçı. Heç biri də sevgili ərin familiyasında deyil, baba-ata nəslinin soyadını dəyişməyib, hamısı Bakıxanov adlanırlar. Afətin

[99] Şağ – uşaq (Bakı dialektində)



evində Qüdsinin adını daşıyan, Politexnik İnstitutunun məzunu Qüdsi balamız yaşayır.

Abbasqulu ağa Bakıxanov hərtərəfli inkişaf etmiş ensiklopedist alim idi. Onun türkcə, farsca əsərləri məşhurdur. Elm və əlyazmalar fədaisi, Əlyazmalar Fondunun direktoru, Şərqdə tanınmış əlyazma mütəxəssisi alim Məmmədağa Sultanov Abbasqulu ağa Bakıxanov əsərlərini farscadan, xüsusilə, mənzum əfsanələrini, hekayələrini tərcümə və nəşr etdiyi kimi, başqa alimlərimiz də Bakıxanov irsinin öyrənilməsinə böyük zəhmətlər çəkiblər. Bu irs nəsli qədər böyükdür, məsələn, xalqımızın qəlbindən xəncər yarasıyla çıxarılan əvəzsiz alimimiz Ziya Bünyadov, A.Bakıxanovun Vatikan kitabxanasında "Ümumi coğrafiya" əsərinin saxlandığını xəbər verirdi.

Burada bir neçə dəfə təkrar etdiyim kimi qarşıma A.Bakıxanov irsinin öyrənilməsi məsələsini məqsəd qoymamışam. Məqsədim bu nəsildən tanıdığım qadınları yadınıza salmaqdı. Yorulmadın ki, oxucum? Məncə, yox, yorulmazsan. Axı bu, milli tariximizin şərəfli vərəqi, səhifəsidir. Onlar böyüdüb ədəbiyyat, tarix və musiqimizdə görkəmli şəxsiyyətlərimizi. Belə olub, belədir bizim analar, bacılar, gəlin-qızlar. Beş-üç namərdə, ədabaza, anlamadığı xarici əxlaq düşkünlərinə – modalara baş əyənlərə baxıb onlarla ölçməyin analarımızı, xanımlarımızı. Ətrafınıza məhəbbətlə nəzər salın. Öz doğmalarınıza: ana, bacı, qız, ömür-gün yoldaşlarınıza diqqət yetirin. Yad məmləkətlərdə özünü türk qadını kimi qələmə verən azəri-türk qadını adına min oyunlar çıxaranlarla ölçməyin. Sənə xəstə olan, canını da əsirgəməyən, üstünüzdə ana ləyaqəti və məhəbbəti ilə əsən, sizinlə bu ağır günlərimizin həqiqətini bölüşən, sizə – millətimizə övladlar doğub böyüdən, minlərlə əzab bahasına analıq vəzifəsini Ulu Tanrı qarşısında, tarix qarşısında yerinə yetirən onlardır.

Ot öz kökü üstündə bitər. Nəslimiz öz mənliyini, qürurunu, ismətini, ləyaqətini qoruyur və qoruyacaq da. Elə A.Bakıxanov yaradıcılığının sorağı ölkələrdən, nəsli bura-

lardan və başqa məmləkətlərdən gəldiyi kimi. Mirzə Cəlilin də, Sabirin də, Almas İldırımın da və onlarla başqalarının da. Sağ olun... Yox, əsl məsələ qaldı. A.Bakıxanov nəsliylə bağlı rəvayətləri, şəxsiyyətləri, bəzi sənədləri belə mənə nişan verən hörmətli Əhmədxan Bakıxanovun oğlu Məmmədrza Bakıxanov və istəkli müəllimlərimin yadigarı Afət xanım Bakıxanovaya təşəkkür etmək mənəvi borcumdur. Sağ olun, Məmmədrza müəllim, Afət xanım, öz nəsil silsilənizi yaxşı tanıyır, əlinizə keçən ən xırdaca bir kağızı belə göz bəbəyi kimi qoruyursunuz. Nəsillərə nümunə kimi. Hə... İndi sağ olun.

**Mart 1999**



## Gecikmiş nekroloq (Emin Əfəndiyev)[100]

Gözlərin aydın, deyərdim, Emin bəy, bu gün həm sənin böyük xidmətlərinə qiymət verildi, həm də səhhətini sənə borclu olanların arzusuna əməl olundu. Uzun illər çalışdığın xəstəxanaya Məhəmməd Emin Əfəndiyev adı verildi! Gözün aydın, xalqım! Bu günlər belə xoş xəbərləri, belə ürəyindən xəbər verən, canına kərə yağı kimi yayılan xəbərləri çox eşidirsən!

Xalq şairimiz Bəxtiyar Vahabzadənin bu mövzudakı çıxışlarını gözləyirsən, arzuyla, həvəslə, həsrətlə! Gözlərini televiziya ekranlarına dikirsən, qulaq kəsilirsən, bütün varlığınla dinləyirsən: bu gün kimin adı əbədiləşdiriləcək? Bu gün kimin, hansı unudulmuşun, yox! yox! yox!!! Hansı unutdurulmuşun adı yada düşəcək? Məgər onları biz, xalq, könüllü surətdə etibarsızlıq, vəfasızlıq edib unutmuşduq? Məgər onlar qəlbimizdə öz yerlərini itirmişdilər, hafizəmizdən silinmişdilər ki?..

Gözlərin aydın, deyərdim, Emin bəy! Dünya, gəlimli-gedimli, bir ucu ölümlü olsa da, gözəlim dünya haqqı itirmədiyi, haqq üçün əsl mənada, mübarizədə qalib gəldiyi günlərə qovuşur. Təəccüblənmə, "məgər nekroloqa da gözün aydınla başlarlarmı?" deyib düşünmə, oxucu! Əgər ruh deyilən bir şey varsa, o yaşayırsa, əbədidirsə, Bəxtiyar Vahabzadə həmin qərarı oxuduğu gün, həmin qərar televiziyada səsləndiyi an, gözləri dolan dostlarını, fərəhindən əl vuran, bu qərarı alqışlayan şagirdlərini görüb, doğrudan da, Məhəmməd Emin Əfəndiyev ruhu şad oldu və elə gözləri də aydın oldu.

[100] Cəfərzadə Ə.M. / "Gözün aydın, yaxud gecikmiş nekroloq" / "Bakı" qəzeti / 1990, 7 aprel / səh. 3
"Gecikmiş nekroloq – 2" (Emin Əfəndiyevin xatirəsinə) (08.12.1989) / Əzizə Cəfərzadənin Ev Arxivi, Fond "I" / Qovluq №18 / Sənəd №21 / vərəq – 5

Dünyanın qəribə işləri var. Bir gün ağlayan bir gün gülür, bir gün unutdurulana bir gün abidə qoyulur. Bir gün adını çəkməyə qorxduğumuz, adını çəkənin belə həbsxanalara salındığı şəxslərə heykəl ucaldılır, haqlarında kitablar, dissertasiyalar yazılır, haqq işi gec-tez qalib gəlir deyə fərəhlənir insanlar.

Bu elə bir faciə içindəki bəxtiyarlıq, göz yaşları içində gülüşdür ki, onu özündən başqa heç bir şeylə müqayisə etmək, heç bir şeyə, heç nəyə bənzətmək olmaz.

Vəfatını yadıma salanda tüstüm təpəmdən çıxır. Elə dostlarının, tələbələrinin da. Məgər sən elə dəfn olunmalıydın? Məgər sənə elə nekroloq yazılmalıydı? Axı xalqımız, xalqlarımız üçün xidmətlərini saymaqla məqaləni, yəni bu gecikmiş nekroloqu uzatmaq istəmirəm. Məgər dostların, tələbələrin, davamçıların, amansız xəstəliklərin pəncəsindən xilas etdiyin insanlar bilmir ki, 20-30-cu illərdə Azərbaycan xalqının başına bəla kəsilmiş titrətmə-qızdırmanın, necə gözəl canları cavan, nakam ikən həyatdan aparan vərəmin amansız düşməni idin, bu mühlik[101] bəlalara qarşı xalqının sağlam, gözəl oğul və qız sahibi olması üçün öz canından keçirdin. Təkcə Bakıda deyil, Azərbaycanın bir çox rayonlarında – Lənkəran, Masallı, Əlibayramlı (indiki Şirvan), Astraxanbazar (Cəlilabad), Yevlax, Xaldan, Ağdam, Bərdə, Qasım İsmayılov (Goranboy), Səfərəliyev (Samux), Qədim Gəncə, Sabirabad, Şamxor (Şəmkir), Qaryagin (Füzuli) və başqa yerlərdə fədakarlıqla çalışır, öz canının qeydinə qalmadan öz canından keçərək həmvətənlərinin canını xilas edir, səhhətini qoruyurdun. Hardan idi səndə bu böyük vətənsevərlik, vətənpərvərlik, bu böyük VƏTƏNDAŞLIQ hissi?

Təəccüblü deyil, əslində. Həyat tarixçən vərəqlənsə, bu, gün kimi aydın olar. Böyük maarifpərvər Seyid Əzim Şirvani məktəbinin davamçısı Abbas Səhhət məktəbini keçmişdin. Maarif ocağı bir ailədə, ziyalılar içində böyü-

[101] Mühlik (möhlik) – öldürücü, məhvedici, ölümlə nəticələnən, son dərəcə şiddətli



müşdün. Uşaqlıq illərindən böyük, əvəzolunmaz inqilabi satirik Mirzə Ələkbər Sabir, geniş erudisiyalı, bir neçə dünya dilində danışan, tərcümələr edən Abbas Səhhət, şair və maarif dostu Ağəli bəy Naseh, şair Məhəmməd Tərrah və başqaları ilə öz doğmaca evində, yurdunda həmsüfrə, həmsöhbət idin. Onlardan xalq işi uğrunda canından keçən, öz fədakar vətəndaşlarından nümunə götürməliydin, dərs almalıydın. Bu təbiidir o zamankı Şamaxı, xüsusilə, Bakı mühiti, dərs aldığın müəllimlər, dostluq etdiyin ziyalılar məhz sənin kimi insanlar yetirə bilərdi və yetirirdi də.

1924-cü ildə Bakı Dövlət Universtitetinin Tibb fakültəsini bitirəndən sonra o zamanlar Bakıda çalışan professorlar P.Q.Mezernitski, N.Q.Uşinski, E.A.Qranstrem, N.P.Afonski və başqaları ilə birlikdə xalqın səhhəti uğrunda mübarizəyə girişdin. Tibb terminləri yaratmaqdan başlamış, azərbaycanlı tələbələr üçün assistentlik, ordinator, 1944-cü ildən ömrünün sonunacan Tibb İnstitutunda kafedra müdiri, uzun illər isə vaxtilə səbəbli-səbəbsiz adlar verənlərin yüngül əlilə Şaumyan adını almış xəstəxanada çalışdın, dosent oldun, professor adı aldın əməyinlə, sədaqətinlə, ən çətin anlarda, ən çətin yerlərdə fəaliyyətinlə. Həkimləri təkmilləşdirmə institutunda həkim də oldun, direktor da. Bakı küləklərinin vərəm, ürək xəstəliyi olanların qan təzyiqinə təsiri, turşuların təsiri və başqa sahələrdə rus tibb elmində ilk tədqiqat işi apardın.

İnsaflılar haqlı olaraq səni Azərbaycan kurortlarının öyrənilməsi və yaranmasının əsasını qoyan alim hesab edirlər. Uzun illər Azərbaycan tibb elminin tarixini öyrənmək zərurətini qarşıya qoydunsa da, səsinə səs verən olmadı. Qədim kitablarda, məhv edilən əlyazmalarında, ərəb əlifbasıyla yazıldığı üçün "xalq düşməni" hesab edilən mənbələrdə itib-batırdı Azərbaycan tibbinin tarixi. Deyəsən, elə indinin özündə də bu barədə ciddi bir kitab, real tədqiqat yox kimidir. O tədqiqatlarını Bakı, Tbilisi, Moskva, Pyatiqorsk kitabxanalarından topladığı materiallar əsasın-

da tropik xəstəliklər, titrətmə-qızdırma, iqlim-balneoqrafiya haqqında məlumat kitablarının əsasını təşkil etdi.

Doğrusu, əmək, elm fəaliyyətini sadalamağa utanıram. Utanıram ki, oxucu, M.Ə.Əfəndiyevi həkim, alim, vətəndaş kimi tanımayan oxucu, saydığım məziyyətlərini görüb ona qarşı laqeydliyi anlamaya, bilməyə ki, elə məşum günlər olub ki, M.Ə.Əfəndiyevin adını çəkmək də qəbahətə bərabər tutulub. Xidmətləri vətəndaşlarının gözündən salınıb, özünə də kəm baxılıb. Bir də ki tibb sahəsindəki fəaliyyətini təsvir etmək, gördüyü işləri, yazdığı əsərləri təhlil üçün təbib, tibb aliminin qələmi lazımdır.

Emin bəy, biz sizi "bəy" sözü yasaq olanda da belə adlandırardıq. Sizi 40-50-ci illərin tələbə və aspirantları xüsusilə sevərdi. İxtisasımıza dəxli olmasa da, ara-sıra maraqsız mühazirələrdən qaçıb Tibb İnstitutuna gedər, tanış tələbələrinə qarışıb sənin mühazirələrini dinlərdik. Onların içərisində biri xüsusilə yadımdadır. Ürək qüsurlarından danışırdın. Böyük və çox sevdiyin Füzulinin ürəklə bağlı şeirlərindən də elə məharətlə istifadə edir, deyirdin ki, insan orqanizmi, xüsusilə, ürək olduqca mürəkkəbdir. Ürəyi müalicə edəndə kimyaya, dərmanlara müraciət etməyə tələsməyin.

Ədəbiyyatı, Azərbaycan poeziyasını dərindən sevdiyini, bildiyini dedim, bir hadisə də yadıma düşdü. İnandığımız, paytaxtın baş diaqnostiki, Yazıçılar İttifaqının bütün üzvlərinin sevimli, misilsiz həkimi, doktor Haqqı Veysov vəfat etmişdi. Çox kədərliydin, həyatdan gözəl müalicə həkimi və səmimi dost gedirdi. Dost itirməyin ağırlığı çöhrənə çökmüşdü, qəm dəryasına qərq olmuş Veysov pərəstişkarları səni əhatə etmişdi. Tibb işçilərinin sarayında son söz deyirdin. Doktor Veysovdan bir İNSAN və HƏKİM kimi danışdın, ağır itkidir dedin və hamımıza, deyəsən, elə özünə də təsəlli verərkən ustad Seyid Əzim Şirvanidən bu beyti oxudun:



*Batdın yenə bəstim kimi bilməm nə qəraya,*
*Qurban sənə bu şiveyi-matəm nə üçündür?*
*Dünyaya gələn getmək üçündür, bu nə qəmdir?*
*Bir fikr elə bu xilqəti-aləm nə üçündür?*

Biz də həmin bu sözləri deyə bilərdik. Laqeyd dəfn mərasimini, sönük, bəlkə də, standart yazılmış başsağlığını heç kimə bağışlamırıq. Elə bu gün xalqın düşünən, duyan oğulları həmin haqsızlığı dərk etdilər. Bizə hədiyyə verdilər: Məhəmməd Əmin Əfəndiyev adına xəstəxana var Bakımızda. Orada sənin ruhun dolaşır. Orada şagirdlərin, tələbələrin, davamçıların, dostların verdiyin bilik və təcrübələrlə həmvətənlərini müalicə edirlər. Yetirmələrinin içərisində respublikanın şəhər və rayonlarında, Azərbaycan və rus dilində mühazirələrini dinləyənlərdən ittifaqın digər regionlarında yüzlərlə həkim çalışır. Rəhbəriyin altında doqquz doktorluq və otuz dörd namizədlik dissertasiyası yazılıb müdafiə olunub. Eşq olsun bu VƏTƏNDAŞLIĞA. Eşq olsun bu xidmətləri unutmayanlara! Qəlbimizdə yaşadığın kimi, adını daşıyan xəstəxanada davamçılarının müalicəsi ilə səhhət tapanların da qəlbində yaşayacaqsan. Bu gecikmiş nekroloqun hər kəlməsi, hər hərfi birər qızılgülə, qərənfilə çevrilib məzarının üstünə tökülsün.

Gözün aydın, xalqım, bir fədakar oğlunun da adı doğma Bakımızda əbədiləşdi.

**Bakı, 7-8 dekabr 1989**

## Vətənsevər partiya xadimi Həsən Həsənov[102]

Mən Həsən Həsənovu çoxdan tanıyırdım, lap çoxdan. Şəxsən deyildi bu tanışlıq. Qardaşım, filologiya elmləri doktoru, professor Məmməd Cəfərzadə Gəncədə Zərdabi adına Pedaqoji İnstitutda dərs deyirdi və tez-tez qardaşımın yanına gedirdim. Bu səfərlərimdə yavaş-yavaş nə isə Gəncədə dəyişikliklər hiss etməyə başladım və bu fikirlərimi onunla ara-sıra bölüşürdüm. Xüsusilə, Gəncədə mərhum şairimiz Hüseyn Ariflə birlikdə Aşıq Şəmşirin yubileyini keçirməyə getmişdik, İmkanım var idi və Gəncənin küçələrini, qədim binalarını yenidən gəzməyə başladım. Nəzərimə elə dəyişiklik çarpdı ki:

– Qardaş, – dedim qardaşıma, – Gəncədə belə yenilik, daha doğrusu, keçmişin yeniliyini görürəm.

Gülümsədi. Çox ciddi, heç kəslə zarafat etməyən adam idi. Dedi:

– Kərpic Həsənin[103] işidi.

– Boy, o nə deyən sözdü?

– Hə, bacı, Gəncənin əski binalarını yenidən ehya elətdirir bişmiş qırmızı kərpiclə. Camaat arasında onu sevə-sevə Kərpic Həsən adlandırırlar. Bu kərpic sözündə bir möhtəşəmlik, bişkinlik var, sevirlər onu. Cavandı, amma sevirlər onu bütün işlərinə görə. Əski Gəncəni yenidən dirildib, yenidən gözəlləşdirib. Ona məhz qədim görkəmini, qədim gözəlliyini verməyə başlayıb.

Bax, belə tanış olmuşdum onun əməli fəaliyyəti ilə. Sonra zaman elə gətirdi ki, 1983-cü mən növbəti cərrahiyyə əməliyyatından bir qədər sağalıb Şüvəlandakı Yaradıcılıq evində istirahət edirdim. Daha doğrusu, həm sağlamlığımı

[102] "Həsən Həsənov (2000-2003)" / Əzizə Cəfərzadənin Ev Arxivi, Fond "P" / Qovluq №21 / Sənəd №34 / vərəq – 8

[103] Həsən Həsənov o vaxt Gəncənin MK katibi idi.



qaytarır, həm yaradıcılıqla məşğul olurdum. Bir gün dedilər ki, səni Mərkəzi Komitədən telefona çağırırlar. Getdim. Əvvəlcə çox sevdiyim jurnalist, qardaş kimi, doğma qardaş bildiyim jurnalist Qəşəm Aslanovun səsini eşitdim.

– Səninlə Həsən Həsənov danışacaq, – dedi.

Heyrətləndim. Həsən Həsənov artıq Mərkəzi Komitədə bir xeyli müddət idi ki, ideoloji katib idi. Və axı o, məni neynəyə bilərdi? Nəyə gərək idim orada?

– Buyursunlar, – dedim.

Bir neçə saniyə keçmiş Həsən müəllimin səsini eşitdim.

– Səni məsləhət bilirik ki, Azərbaycan Qadınlar Şurasının, Mərkəzi Komitə nəzdindəki Şuranın sədri təyin eləyək. Necə bilirsən?

– Həsən müəllim, – dedim, – mən xəstəyəm və təzə cərrahiyə əməliyyatından çıxmışam. Özü də ictimai işlərlə o qədər məşğul olmamışam. Daha çox yaradıcılıqla...

– Bacım, cidanı çuvalda gizlətməzlər. İki gün bundan qabaq televizorda gur-gur guruldayırdın.

Düz deyirdi. İki gün əvvəl televiziya işçiləri gəlib elə Şüvəlandaca məni yaşadığım otaqda ekranlaşdırmışdılar bir mövzu ilə əlaqədar.

– Siz bilən məsləhətdi, – dedim, – Həsən müəllim.

– Sabah Bakıya gəl.

Səhərisi gün ömür yoldaşım, təyyarəçi Məmməd İbrahimov məni öz maşınında Mərkəzi Komitəyə gətirdi. Burada əlbəttə, əvvəlcədən Qəşəm qardaşımla görüşdüm.

– Etiraz eləmə, bir kəlmə də etiraz eləmə, – dedi mənə.

– Qəşəm, qorxuram. İctimai işlərdə çalışmamışam.

– Heç nədən qorxma. Sənə hamımız kömək eləyəcəyik.

Dedi və məni Həsən müəllimin yanına apardı. Əlbəttə, məsələ artıq həll olunmuşdu və "işə başla" dedilər. Əslində, iki il idi ki, gözəl, ziyalı xanım, uzun müddət Qadınlar Şurasının sədri olmuş Hökümə xanım Sultanova vəfat etmişdi. Onu əvəz edəcək adam tapmamışdılarmı? Məncə, elə öz müavinləri, bu yerə göz dikənlər çox idi. Buna baxmayaraq məni məsləhət bilmişdilər. Mən də etiraz et-

mədən işə başladım. Nə bina var idi, nə bir şey. Əlbəttə, əvvəlcədən bunları düşünməli idim. Çünki Hökümə xanımın işlədiyi institutda öz kabineti var idi, o kabinetdə qəbul edirdi gəlib-gedəni, şikayətçiləri, iclasları filan orda keçirdirdi. Mənim isə belə yerim yox idi. Bu qayğılarımı general Hakim Abbasovla bölüşdüm. Xalam oğlu (uzaq qohumdur – T.İ.), general Mustafa Nuriyevlə Hakim Abbasov qardaş kimi idilər və uzun müddət müharibə illərində bir yerdə çalışmış, çarpışmış, vuruşmuşdular. Və xalam oğlu artıq həyatda olmasa da, məni general Hakim Abbasov böyük hörmətlə qəbul elədi. Özünün Sülh Komitəsinə mənsub binasının otaqlarından ikisini mənə verdi. Həmin bina İçərişəhərdə çox yaraşıqlı, gözəl bina idi. Buraya toplaşdıq və yavaş-yavaş işləməyə başladıq.

O zaman tez-tez rayonlara gedirdim və bütün işlərim də ideoloji katib olan Həsən Həsənovla, Qəşəm Aslanovla bağlı idi. Qəşəm məni olduqca çox istəyirdi və mən də onun Şuşada ermənilərə qarşı apardığı mübarizəni, Bakıda qəbiristandakı hadisələri yaxşı bilirdim. "Dağlardan düzlərə"... məqalə zad da yazmışdım Qəşəm haqqında. Amma daha çox çalışırdı ki, Həsən müəllimlə bölüşüm. Həsən müəllim bilavasitə mənə daha yaxşı kömək eləsin. Beləliklə, Lənkəranı, Qubadlını və eləcə də Azərbaycan kəndlərini çox tanıyıb oradakı qadınların problemlərini yaxından öyrənmək istəyir, xüsusilə, Gədəbəy rayonu ilə maraqlanırdım. Elə gətirdi ki, daha çox rayonun həyatı ilə maraqlandığımı hiss eləyənlər mənə yardım elədilər. Başa saldılar ki, Gədəbəy rayonunda əla mərmər çıxır, boz mərmər, ağ mərmər. Bu mərmərlərdən evlərdə, inşaatda, xüsusilə, qəbiristanlarda məzarların üstünə qoymaqdan ötrü gedib Kiyevdən o zamankı pulla beş-altı min manata güclə gətirib gəlirlər. Halbuki bu mədənlər işə salınsa, həm Gədəbəy rayonunda işsizlik deyilən söz qalmaz, işsiz adam qalmaz, yaxşı sənaye inkişaf edər, mərmər sənayesi, həm də əhalimiz, camaatımız ucuz inşaat materialı



əldə eləmiş olar respublikanın özündə. Hər mərmərdən iki parça – həm ağ, həm boz mərmərdən götürdüm. Bakıya qayıdanda icazə alıb Həsən müəllimin yanına gəldim. Bunları göstərdim. Ümumiyyətlə, hansı rayona gedirdimsə, xüsusilə, Daşkəsəndən, dəmir mədənlərindən, kobalt mədənlərindən qayıdıb gələndə həmişə camaatın vəziyyəti haqqında bildiklərimi, gördüklərimi ona danışırdım və əmin idim ki, Həsən müəllim dərhal bu deyilənlərə çarə qılacaq. Beləliklə, Həsən müəllim artıq məni Qadınlar Şurasının sədri kimi yaxşı tanıyırdı. Belə oldu ki, bir dəfə mənə dedilər ki, Şuşada – indi itirdiyimiz o gözəlliklər diyarında Vaqifin böyük məqbərəsi açılacaq, inşa olunub. Həmin məqbərənin açılışına cənab Heydər Əliyev – respublikanın ən tanınmış şəxsiyyətlərini ədəbiyyat, poeziya, incəsənət musiqi sahələrindən hamını, xeyli adam toplamışdı və biz qatarla Şuşaya getdik. Qış idi, qar idi. Çox çətinliklə yeriyirdim. Anar mənə kömək eləyirdi, yanaşı gedirdik, qolumdan tutub kömək eləyirdi qardan çıxmağıma. Qarın, soyuğun qorxusundan yaşlı nəslin bəzi nümayəndələri, o cümlədən Qəmər xanım, Niyazi müəllim, başqaları (indi adları xatirimdə qalmayıb) evlərə, mehmanxanaya gedib istirahət edirdilər. Heydər Əliyev isə heç bir istirahətə baxmadan Şuşanı küçəbəküçə gəzirdi. Bu küçələrdən birində evlərdən birindən bir qadın çıxdı. Halbuki biz bir nəfər də Şuşanın içində qadın, kişi görmürdük. Yerli əhali sanki bizi boykot eləmişdi, gəlmirdilər görüşə. Bir qadın çıxdı, Heydər Əliyevin boynunu qucaqladı, dedi:

– Deyirlər ki, bizdən acığınız gəlir, zəhləniz gedir. Çıxmırıq bayıra ki, sizi əsəbləşdirməyək.

Heydər Əliyev heyrətlə qadına dedi:

– Nə danışırsan, bacım, anam, neyçün mən sizə nifrət eləməliyəm?

– Bizə belə deyiblər...

O zaman orada hakimiyyətdə olan ermənilər yerli camaatı inandırmışdılar ki, Heydər Əliyevi qarşılamaq lazım deyil. Onun sizdən, şuşalılardan xoşu gəlmir. Nə isə, bu

insident keçəndən sonra xeyli küçələrdə adamlar göründü. Cənab Heydər Əliyev öndə, onun yanıycan, arxasıycan katiblər gəlirdi. Mən və Anar elə düşmüşdük ki, Həsən müəllimin yaxınındaydıq. Bir an Heydər Əliyev qədim binalardan birinin qarşısında dayandı. Binanın üstündə yazılan kitabəyə baxdı, baxdı, dedi:

– Ay camaat, bəs bunu oxuyan bir adam olmayacaq, görək bu nə binadı?

Əlbəttə, yaşlı nəsildən orada ərəb əlifbasını bilənlər yox idi. Həsən müəllim məni, az qala, itələyərək irəli verib dedi:

– Oxu.

Oxumağa başladım. Bu Hacıqululların böyük, zəngin kaşanəsi idi. Sonralar mərhum Hüseyn Seyidzadə ilə birlikdə Natəvan haqqında çəkiləsi film üçün həmin binanı da nəzərdə tutmuşduq. Nə isə, oxudum. Heydər Əliyev diqqətlə dinlədi və bəlkə də, təəccüb elədi ki, bu cavan qadın ərəb əlifbasında kitabəni necə oxuya bilər. Bir söz demədi.

Axşam qonaqlıq oldu. Yaxşı bir qonaqlıq verilmişdi. Yenə də Cənab Heydər Əliyev öz xanımı mərhum Zərifə xanımla birlikdə yanaşı əyləşmişdi. Biz isə bir az yan tərəfdə Həsən müəllimin yaxınına düşmüşdük. Burada heç kəs heç kəsə söz vermir, danışıq, iclas aparılmırdı. Amma kim isə hardasa qalxırdı, sağlıq deyirdi.

O, yenə yavaşca çiynimə toxunub:

– Qalx, sağlıq de, qalx, çıxış elə, – dedi Həsən müəllim mənə.

Sözün düzü, ürəyimdə elə bir hiss oyandı ki, İlahi, qohumu deyiləm, yerlisi deyiləm. Elə bir yaxın ailəvi tanışlığımız da yoxdu. Amma hardasa sanki çalışırdı ki, nəyə qadir olduğumu, nə qabiliyyətli olduğumu nəzərə çatdırsın. Bundan ötrü hər yerdə məni irəli verməyə çalışırdı. Qalxdım. Ana haqqında fars dilində İrəc Mirzanın gözəl bir şeirini oxudum:



*Quyənd məra cizad madər,*
*Pestan be dəhən gereftən amuxt.*
*Şəbha sərе qəhvareye mən,*
*Bidar neşəsto xoftən amuxt.*
*Yek hərf do həfr bər zəbanəm,*
*Əlfaz nəhado qoftən amuxt.*
*Ləbxənd nəhad  bər ləbe mən,*
*Bər qonçeye qol şekoftən amuxt.*
*Dəstəm gereft və pa be pa bord,*
*Ta şiveye rah rəftən amuxt.*
*Pəs həstene mən ze həsteye ust,*
*Ta həstəm həst darəmeş dust.*[104]

Hər beyti dedikcə tərcümə eləyirdim qısa şəkildə ki, dinləyiciləri yormayım. Sonda dedim ki, şairimizin ana haqqındakı bu gözəl şeiriynən məsləhətdir ki, anaların sağlığına badə qaldırılsın. Cənab Heydər Əliyev qalxdı ayağa və dedi:

– Kişilər qalxsın. Anaların sağlığına! Madam ki anaların sağlığına deyildi, anaların sağlığına ayaq üstə içsinlər.

Burada içdilər. İçki qurtarar-qurtarmaz misilsiz xalça ustadımız, fars dilinin gözəl bilicisi, alim, mütəfəkkir, professor Lətif Kərimov gəlib çiynimi qucaqladı.

– Ay qız, fars dilini belə gözəl bildiyini bilmirdim, – deyib öpdü məni, getdi.

---

[104] Deyirlər anam məni dunyaya gətirəndə,
Mənə süd içməyi öyrətdi.
Gecələr beşiyimin başında oyaq oturaraq,
Mənə yatmağı öyrətdi.
Dilimə bir-iki kəlmə söz qoyaraq,
Mənə danışmağı öyrətdi.
Dodaqlarıma gülüş qoydu –
Qönçəyə açmağı öyrətdi.
Əlimdən yapışıb addım-addım apardı –
Mənə gəzməyi öyrətdi.
Deməli, mənim varlığım onun varlığındandır,
Nə qədər mən varamsa, onu sevəcəm – Rüstəm Lazımovun sətri tərcüməsi

Bax, həyatım boyu, nə qədər ki Qadınlar Şurasında çalışmışam, o qədər də Həsən Həsənovu həmişə özümə qarşı belə mehriban, nəvazişkar, təşviqedici görmüşəm. Millət onu sevirdi.

Hadisələr 90-cı illərdə dəyişəndən sonra, əlbəttə, Həsən Həsənov kimi, mərhum, torpağı sanı yaşasın, Qəşəm Aslanov kimi, Şəyavuş Əlizadə kimi şəxsiyyətlərlə işləyə bildiyim halda, əlbəttə, Əbdürrəhman Vəzirovla birlikdə işləyə bilməyəcəkdim. Xüsusilə də, məni erməni mənşəli, erməni qohum-əqrəbalı Mərkəzi Komitə işçilərinə təhkim eləyəndə lap qanım qaraldı. Ona görə də Vəzirov gələndən az sonra istefa verdim və ictimai aləmlə əlaqəm tamamilə kəsildi. İctimai aləmdən tamamilə ayrıldım. Amma son illərdə Həsən müəllimi yığıncaqlarda görəndə uzaqdan boyuna sevinmişəm. Yaşca ondan çox-çox böyük olduğum üçün övlad kimi, ana kimi, öz millətini bu qədər dərindən sevən, millət üçün çox işlər görən, indi yenidən xarabaya dönmüş Gəncənin əsl simasını ona qaytaran şəxs kimi boyuna sevinmişəm həmişə. Elmi, bədii yaradıcılıqla məşğul olması məni fərəhləndirib. Mətbuatda imzasını görən kimi dərhal, əlbəttə, oxuyuram. Burda da öz milləti üçün döyünən ürəyini duyuram. – Afərinlər olsun sənə, millətin övladı, – deyirəm. Təəssüf eləyirəm ki, son zamanlar bir qədər xəstə olduğumdan heç yerə çıxa bilmədiyim üçün onun böyük müvəffəqiyyətlə Azərbaycan Akademik Milli Dram Teatrında nümayiş etdirilən əsərinin tamaşasını görə bilməmişəm. Amma eşitdiyim uğurlar, eşitdiyim təriflər məni fərəhləndirib, məni düşündürüb və həmişə təəssüf eləmişəm ki, kaş imkanım olsun, gedib əsəri görüm, haqqında yazım. Yazım və özümün hardasa ana məhəbbətilə ona yaradıcılığında da xeyir-dua verim.

**2000-2003**



# Dağlardan düzlərə (Qəşəm Aslanov)[105]

1975-ci il idi, deyəsən. Dağlara çıxmışdım. Düzənlərin yandırıcı günəşi, elə bil dağlarda mehriban, həlim dosta çevrilmişdi, sərin dağ havasında mehriban-mehriban gülümsəyə-gülümsəyə isindirirdi bizi ana nəfəsi kimi. Qədim Cavanşir elini, Qarabağı gəzdikcə-gəzib, sevimli Şuşaya çıxmışdıq. Qafqazın konservatoriyası, Azərbaycanın Şirazı... Kim nə ad verir-versin, mənim üçün bu zümrüd yamaclar, adı Bağrıqan, özü könül oxşayan dağlar, dibi görünməyən, amma indi günəşin bol-bol işıq əlediyi dərələr doğma yurdum, Xarıbülbül vətəni, Şakir, Zakir, Aşıq Pəri, Nəvvab, Natəvan, Bülbül, Üzeyir... Məhəmmədağa Müctəhidzadə-Müştəri... Ustad Sadıq... Və onlarla başqa sənətkar yetirən əzizim Şuşa idi.

– Gəlin İsa bulağına enək, – dedim.

Dodaq büzdülər.

– Əh... Onu namərd kababpərəstlər bir günə qoymayıb ki, gedək, ləzzət də alaq... Suyunu içib dadlanacağıq, ətrafına baxıb qəmlənəcəyik...

Nə olur-olsun, Şuşaya gəlib, İsa bulağına getməmək – bu qədim musiqimizin səsləndiyi, Seyidi, Cabbarı, Zülfünü dinləyib onlara öz saf sularının xoş şırıltıları ilə ilham verən, adı şairlərin dilində şeirə, şeir sevənlərin dilində qəlbə düşən ulu bulağımızı ziyarət etməmək... Doğrusu, ağlıma sığmırdı. Getdik... Elə ilk enişdən, dərəyə doğru gedən yol bizi heyrətləndirdi, elə hamarlanmış, elə gözəl asfaltlandırılmışdı ki... Rahatca bulağa çatanda gözlərimizə inanmadıq... Bir təmizlik, bir səliqə vardı ki... Əvvəlki üfunətdən boğulan yamac, elə bil təzə-təzə canlanmağa, yenidən dünyaya gəlməyə, ikinci ömrünü yaşamağa başla-

---

[105] "Dağlardan düzlərə (Qəşəm Aslanov)" (1984) / Əzizə Cəfərzadənin Ev Arxivi, Fond "P" / Qovluq №8 / Sənəd №4 / vərəq – 8

mışdı. Yeni tikilmiş yaraşıqlı kafenin önünü süpürməkdə olan gözəl cavana yanaşdım, süpürgəçiyə oxşamırdı, heyrətlə soruşdum:

– Oğul, səndən nə əcəb... süpürürsən?

Dikəldi, gözlərində məhəbbət vardı:

– Bilirsinizmi? Cavan bir katibimiz var, gəlir, yerdə bir papiros kötüyü görəndə bir söz demir, əyilib götürür, qutuya atır. Xəcalətdən tər töküröm.

– Aydın oldu!

Vaxtilə bu haqda geniş yazmışam, indi yada salmağımın səbəbi var. Onun sorağını sonra İsmayıllıda aldım. Yenə də özü ilə görüşmədən İsmayıllını gəzməyə başladım. Elə rayona dönən yoldan yol onun sorağını verdi mənə.

Deyirlər, Stanislavskimi, ya Nemiroviç-Dançenkomu deyib ki, "teatr qarderobdan başlayır". Bir şəhərin, bir elin-obanın, bir ölkənin də mədəniyyəti deyərdim ki, yolundan başlayır. Doğrudan da, İsmayıllının yolu aynalanmışdı. Küçələrində yenicə güllər əkilmişdi, park salınmışdı, mağazalara girdim: satıcıların hamısı cavan gəşəng qızlar idi, qadın alt paltarını bığıburma kişilər satmırdı. Tək bircə ağır əşya götürmək lazım olan radio-televiziya satılan mağazada kişi satıcıya rast gəldim. Ərzaq mağazaları göz qamaşdırırdı, çörək-bulka və s. məmulatın üzərinə nişastalanmış ağ tənziflər çəkilmişdi, heç bir yerdə bircə milçək gözə dəymirdi... Bunu da çoxdan görmüşəm, İsmayıllıdakı o yeni tikintilər haqqında yazanlar da olub böyük Xalq şairimiz Rəsul Rza kimi. Mən də gördüklərimi yazmışam. Amma bu gün yazmağımın, xırdaca təkrarımın başqa səbəbi var.

Onun izini, əməlini görmək istəyən qəbul otağının görkəmli yerində "Özünə hörmət qoyan şəxs başqasının xahişi üçün qəbulə gəlməsin" sözləri yazılmış lövhə qoyulan yerə ayaq döyməsin. Onu görmək istəyən Xırdalana dönən yola çıxsın və o saatca "dəsti-xətti" aydın görünəcək. Rayonun bütün əsas yolları aynalanıb, bəli, asfaltlanıb



demək azdır, məhz aynalanıb, kənarlarına cavan ağaclar əkilib.

Zarafatçının birindən soruşublar: "Haralısan?", "Evlənməmişəm" deyib. Bu baxımdan mən də, əslində, abşeronlu, daha doğrusu, onun ucqar bir yerində yerləşən Pirəkəşkül sovetliyinin Ortaoba kəndindənəm. Bu kəndlər vaxtilə öz alma qabığı kimi soyulan zərif, baldan şirin, bir xırdasını yeyəndə, az qala, şirinliyindən ağız yaralayan "Çay yemişi", üzümü, incili, kökü, başqa tərəvəzi, həmçinin qırmızıbuğdası ilə məşhur idi. Analığım Şirvan "Ağbuğdasına", "Qaraqılçığına", "Sarıbuğdasına" Abşeronun "qırmızıbuğdasından" bir-iki ovuc qatardı ki, xəmir möhkəm olsun, sıyılmasın, təndirə küt getməsin. Bax, həmin o altı-yeddi para (Xəllilli, Ortaoba, Keçəllər) kəndlərdə indi bir-iki qoca qalıb. Qalanlar dağılışıb Sumqayıta, Corata, Fatmayıya, Nasoslu qəsəbəsinə, Şuraabada...

Elə bu böyük nəslin həmin kəndlərdə yaşayan qohumlarına baş çəkəndə hələ bir il olmamış nəzərə çarpan yenilikləri mənə çatdırırdılar. Biri bir neçə qəzet gətirirdi:

– Bir elana bax!

Baxdım. "Abşeron" qəzetinin bildirki dekabr – bazar günü və builki aprel-may nömrələri idi. Burada Abşeronun müxtəlif sovetliklərində yaşayan əhalinin nəzərinə çatdırılırdı ki, raykomda qəbul günüdür, "Arzu, təklif, tənqidi mülahizəsi və ərizəsi olan vətəndaşlar qəbula gələ bilər". Diqqət edin: şikayət yox ha, arzu və təklifləri... Həm də bu qəbullar məhz şənbə və bazar günlərində, özü də rayonun müxtəlif qəsəbə, kənd sovetliklərində, sovxozlarında keçirilir, burada rayonun əlaqədar təşkilatlarının nümayəndələrinin də iştirak edəcəyi bildirilirdi. Deməli, rayonun rəhbər təşkilatları kabinet dairəsindən çıxıb birbaşa əhalinin yaşadığı yerə gedir, ortaya çıxan məsələləri yerində həll edirdi. Təəccüb eləmədim, axı hələ gənclik illərindən qəzet səhifələrindən tanıdığım Qəşəm Aslanovun fikrinə bələd idim. Deyəndə ki el məsəlidi, "Pis ana yoxdu, pis rəhbər var", o da həmişə deyir, "Pis əhali yoxdu, pis

rəhbər var". Elə bu fikrini bildiyim, fəaliyyəti ilə çoxdan tanış olduğum üçündür ki, Abşerona gəldiyini, dağlardan düzə endiyini eşidəndə, "Abşeronun bəxtı açıldı" – dedim.

Bu dəfə Abşerona gələndə birbaşa raykoma getdim, əvvəlcə heç yerə baş çəkmədim, qəbul otağında ilkin "Hər kəs özünə qiymət qoyursa, başqasının işi üçün xahişə gəlməsin" lövhəsini görəndə səhv etmədiyimi anladım. Raykom binasının arxa həyətində salınan bağçanı göstərdilər. Burada qızmar Abşeron iqlimində subtropik meyvə ağaclarının yetişdirilməyə başladığını görəndə, gömgöy limon, naringi, feyxoa ağaclarından sallanmış meyvələrə baxanda, xəyalımda yenə də onun sözləri canlandı:

*Abı-şor deyərək gözdən salıblar,*
*Olub-qalanını ondan alıblar...*

Neynək, qoy hələ bağçacıq balaca olsun, üzəri örtülü olsun, insan, xəyalpərvər gələcəyin romantikası ilə yaşayan insan xəyalını və arzularını ki, onun əlindən almaq olmaz. Təcrübədir. "Bir qədər sonra, elə indinin özündə Mehdiabad sovxozunda subtropik bitkilərin yerini bir neçə metr dərinə salmışıq, bu həm nəmişlik verəcək, həm də subtropik bitkiləri xəzrinin zavalından qoruyacaq", – dedilər.

Abşeron!.. Doğrudan da, çox illər sənə Abi-şor deyiblər, lap yaxın otuz-qırx il əvvələcən yetirdiyin dünya şöhrətli meyvə-tərəvəzini unudublar, şanın, az qala, qırmızı kitaba düşüb... Şirin yemişin, qovunun, bal kəliyin toxumluğu da itib, az qala. Niyə? Ataların məsəli var, "Torpaq deyir: öldür məni, dirildim səni". Məgər bu öldürmək, torpağı indiki Abşeronda olan vəziyyətə salmaq demək idimi? Bağların, torpaqların vəziyyətindən rayonda da, mətbuat səhifələrində də dönə-dönə danışılıb, indi mövzum bu deyil. Hələ bir ili tamam olmamış yeniliklərdən və Abşeronun çiçəklənən gələcəyindən artan ümidlərdən danışmaq istəyirəm. Elə buna görə də "subtropik meyvələr" yetişdirmək xəyalı da mənə qeyri-adi görünmədi. Xəyal kimi gəlmədi. Bugünkü xəyal özü də əsl insan əllərində gələcəyin real həqiqətidir. Yola çıxdım. Qədim məsəldi: "Bir sıxma dən bir çuval buğdanın nümunəsidi". Aynalanmış asfalt yollarla ikicə sovxoza getmək istədim. Yolumu elə saldım ki, yerdən fışqıran alovlar diyarını, "Odlar ölkəsi"nin xırdaca atəşli parçasını da görüm.

"Ağaclı kəndi sel basmaz..." Hamar asfalt yolların kənarına onlarca kilometr məsafədə beş ağaclıq salınıb. Yolların ətrafı vaxtilə gördüyüm zir-zibildən təmizlənib. Axı indi rayonda vaxtaşırı "təmizlik günləri – sanitariya günləri" (bəlkə, antisanitariya günləri) keçirilir. Abşeron bağlarının, kəndlərinin ətrafını basan zir-zibil, köhnə təkər, dəmir-dümürdən bu yerlərdə əsər-əlamət qalmayıb; görünür ki, indi Abşeronda torpağa hörmət tərbiyə edilir insanlarda. "Meşəsi çox olan elin məzarı az olar" məsəli yada salınır. Torpaq yaşıl dona bəzənir, məxmər don geyməyə başlayır. Axı onu paslı dəmirlərin pəncəsindən selofan torbaların selindən xilas edənlər çoxalıb. Hələ böyük Nizaminin:

*Torpağa mərhəmət xeyirdir, inan!*
*Lütf etsən, gül verər, zülm etsən, tikan.*
*... Əgər öz meylini sən salsan yerə,*
*Artar şərafətin birə min kərə.*

– hikmətli misraları dillərə düşüb. "Abi-şor" deyilib gözdən salınan, "Nə verəcək bu abi-şor?" deyə vecsizləşdirilən torpaq təzə-təzə azad nəfəs almağa başlayıb. Boş-bekar adam, maşın nəzərə çarpmır. Mən həmişə bir şeyə inanmışam ki: "Əgər el bilsə ki, onun xeyrinə, ona heç bir xəyanət etmədən, onun mənfəətinə çalışırsan, sənin üçün, başladığın iş üçün canını əsirgəməz". Abşeronlular indi elin, elliyin tərəqqisi, partiya və hökumətin qarşıya qoyduğu nəhəng ərzaq proqramını yerinə yetirmək üçün can-başla əlləşir, çünki iki şeyi başa düşüblər: Yaratmaq, planları həyata keçirmək üçün Abşeronda imkan var. Və bu imkanı həyata keçirmək üçün onların qüvvəsi çatar.

Deyirlər, qəhrəman o adamdır ki, lazım olan işi görəndə canını əsirgəmir. Bax elə bu cür adamlardan biri – sovxoz direktoru Əli Əliyev haqqında danışanda rayon partiya rəhbəri belə bir ifadə işlətdi: "Onun üzünə diqqət edin, görərsiz ki, bu üzün hər əzələsi qeyrətdən yoğrulub". Bu gün üzünə çox böhtanlar deyilmiş Abşeron torpağını diriltməyə başlayanlar, ona qədim şöhrətini, ağaclarını, meyvə-tərəvəzini, heyvandarlığını qaytaranlar, hərtərəfli xalq tikintisi ilə məşğul olanların üzü, doğrudan da, beləcə qeyrət əzələlərindən yoğrulub.

Tər-təmiz, hamar yollar məni gətirib babalarımızın Ataş yurdlarından birinə çıxardı. Alovların istisindən dərəyə enmək olmurdu. Amma təpənin bəri üzündə yanar atəşlərlə üz-üzə gözəl, milli naxışlı, üçotaqlı köşk tikilib, ölümsüz ədibimiz Cəfər Cabbarlının "Od gəlini" dramındakı surətlərdən birinin adı verilib bu ulular məkanına. Köşkün üzərinə yazılıb: "YANARDAĞ". Bu köşkdə ulularımızın yadigarı əşyalarımızın xırdaca xatirə nümunələri satılacaq. Turistlər əsl təbii "Odlar diyarı"nı görəcək, orta otaqda yaşlılar dincələ biləcək, daha bu yer hind atəşpərəstlərinin adı ilə bağlanan "Atəşgah"ımızdan fərqli olaraq məhz bizim "Odlar diyarını" nümayiş etdirəcək. "Yanardağ"ın yerləşdiyi qarşı təpə haqqında rayon rəhbərliyinin elə gözəl xəyalları var ki... Onlardan danışmaq özü xüsusi oçerk tələb edər. Qoy olsun! Həyata keçirilən hər xəyal xalqımızın ömrünə vurulan naxışdır, onun uzun ömürlülüyünün rəmzidir.

"Yanardağ"dan ayrıldım, ayrıldıqca da Abşerondakı yeni tikintiləri düşünürdüm. Xırdalanda təkcə üç-dörd ay ərzində on kilometrlik küçə asfaltlanıb. Bu il səkkiz yüz min ağac və gül kolu əkilib, həyətlərə, bağçalara baxış keçirilib. Qəsəbənin özündə çoxsaylı tikintilərlə yanaşı şərq üslubunda ticarət mərkəzi tikilir. Bu bazarın bu başından düşüb o biri başına çatanacan ev-ailə üçün lazım olan bütün şeyləri almaq, əyər-əskiyi ödəmək mümkün olacaq. Ondan bir az aralıda "Qərənfil" ana-uşaq kafesi işə salınıb.



Rayon rəhbərləri bir şeyi həmişə xatırladıb deyirlər: "Tikmək, qurmaq kişilikdən nişanədir".

Rəqəmlərin dili nə qədər quru olsa da, rəqəmlərin dili qədər faktik, inandırıcı söz tapmaq çətindir. Təkcə 1984-cü ildə rayonda doxsan üç irihəcmli, ümumilikdə isə dörd yüz əlli tikinti işi gedir ki, bunların da iyirmi iki milyon dörd yüz altmış iki min manatlıq xərci var. Onlardan Qobu qəsəbəsində tikilməkdə olan min yüz yetmiş altı yerli orta məktəb binasını, Hökməlidə klub və kitabxananı, Güzdəkdə "Çobanlar evi", Xırdalanda rayon veterinar stansiyası, Xırdalanda min altı yüz əlli kv m. ərazidə yerləşən univermağı, dörd yüz otuz altı yerli ümumi yataqxananı, Masazırda iki yüz baş iribuynuzlu mal-qara tövləsi, Ceyranbatan, Məmmədli, Mehdiabad və başqalarında yaşayış binalarını, Binədə iki yüz səksən yerli uşaq bağçası və körpələr evini, eləcə də onlarla başqasını göstərmək olar. Lap bu yaxınlarda H.Səfərovun müdir olduğu Mehdiabad sovxozunda yaraşıqlı, ürəklərə fərəh gətirən "Vüsal" şadlıq evi istifadəyə verilib. Burada sovxoz əməkçiləri əsas tikintiləri öz qüvvələri ilə aparır. Məişət xidmət evi, dörd yüz yerlik mədəniyyət evi, musiqi məktəbi binası, qəsəbə sovetinin idarə binası tikiblər. Eyni sözü Əli Əliyevin müdir olduğu Məhəmmədli sovxozu haqqında da demək olar. Bu adam, elin deməyinə görə, "tikmək azarkeşidir". Burada öz qüvvəsi ilə sovxoz sağıcı evi, ticarət mərkəzi, böyük xırman, çörəkxana, məişət evi, yem anbarı, on beş yaşayış evi və onlarla başqa bina tikilməkdədir. Bunların bir qismi artıq istifadəyə verilib. Küçələr yamyaşıldır, yolların kənarına on kilometrlərlə məsafədə ağaclar əkilib.

Abşeronda yaşayış evləri üç istiqamətdə gedir: Bir tərəfdən fərdi ev tikənlərə yardım göstərilir, ikinci, kooperativ üsulu ilə, bir də dövlət xərcinə yaşayış binaları tikilir. Bütün rayon sanki iri bir tikinti obyektinə – meydançasına çevrilib. Rast gəlsəniz, yalnız tikinti tullantısı görə bilərsiniz, məişət zir-zibili yox.

Abşeronda yeniliklər çoxdur, bunların haqqında yüz eşitməkdənsə, bircə görmək yaxşıdır. Abşeronlular respublika və rayon partiya təşkilatlarının istiqamətləndirdiyi yolla gedir, partiya və dövlətin ümumxalq işi kimi qarşıya qoyduğu vəzifələri yerinə yetirmək uğrunda can-başla çalışırlar. Çünki inanıblar, bilirlər ki, Abşeron torpağı qızıla bərabərdir, nadir zəfəran da yetirir, dadlı Hövsan soğanı da, ətirli gül-çiçək də, şip-şirin əncir, üzüm də, yemiş-qarpız da, qırmızı buğda da. Təkcə bu qızıl torpağa şor adı qoyub ondan üz çevirənlər oradan bir şey əldə edə bilməz, əmək çəkib, bu torpağı alın təriylə suvaranlar orada uca çinarlar yetirib ki, boyu ərşə dayanıb. Təki bu diqqətdən bütün qəsəbə və kəndlər, kolxoz və sovxozlar eyni bərabərdə bəhrələnsin. Bəhrələnir də. Abşeronun paytaxtımız Bakı və digər fəhlə mərkəzləri üçün ərzaq, ət-süd, tərəvəz bazasına çevirilməyə başladığı göz qabağındadır.

Partiyanın əsas xəttində düzgün irəliləyən Abşeron kolxozçuları, sovxoz fəhlələri, yüksək ruh yüksəkliyi ilə sabaha addımlayırlar.

Onlara bu xeyirxah, bu nəcib əməklərində, bu partiyalı və xəlqi fəaliyyətlərində uğurlar arzulayırıq.

1984



## İsmayıllıda üç gün (Qəşəm Aslanov)[106]

Gözəlliyinin sorağını çoxdan eşitmişdim. Əziz Vurğunun atəşli misraları İsmayıllının dilbər bir guşəsini mənə görmədən sevdirib:

*Ormanlar içində durur Talıstan,*
*Ona ilk baxışdan vurulur insan.*
*Günəş bu yerlərdə qalxır atına.*
*Yüksəlir göylərin yeddi qatına.*
*Bu yurdun havası, suyu sərindir,*
*Keçdiyim dərələr göydən dərindir.*
*Baxdıqca insanın gözü qaralır,*
*Şair olmayan da xəyala dalır.*
*Burda süd kimidir dağların qarı,*
*Sallanır qayadan buz salxımları.*

Ondan sonra İsmayıllı ilə ötəri görüşmüşdük də. Amma bu səfərim "Quşqonmaz qayalarında dünyanın sözü olan" İsmayıllının gözəllikləri, gələcəyə tuşlanmış bugünkü taleyi qarşımda vərəq-vərəq açıldı. Qızıl zəmilərini, həmişəbahar atlas donlu üzümlüklərini gördüm. Dadlı almasından, bal tamlı üzümündən daddım. Nəhəng heyvandarlıq komplekslərini gəzdim. İnandım ki, doğrudan da, İsmayıllıda:

*Naxışlar açacaq insanın əli,*
*Qalxacaq Leninin böyük heykəli.*
*Qalxıb, ucalıb şair! Ruhun şad olsun.*

106 "İsmayıllıda üç gün (Qəşəm Aslanov)" (1979-1980) / Əzizə Cəfərzadənin Ev Arxivi, Fond "P" / Qovluq №8 / Sənəd №2 / vərəq – 5

Xalqın arzuları bu torpaqda çiçəklənməyə başlayıb. Əslində, İsmayıllıya Xalq yazıçısı adı almış ustad yazıçımız Əbülhəsənin şərəfinə təşkil edilən məclisdə iştirak etmək üçün gəlmişdim. Gözəl, səmimi görüşlər içində bir görüş planlarımı dəyişdi. Bir neçə saatlığa, bir günlüyə gəldiyim halda üç gün qaldım. Hələ Şuşada işlərkən məni öz atəşinliyi, tikmək, qurmaq həvəsi ilə maraqlandırmış partiya rəhbəri Qəşəm Aslanovun buradakı fəaliyyəti heyran etdi. Elə tələsirəm ki, istəyirəm birnəfəsə bütün bu tikintilər haqqında xəbər verim. Xalqın mədəniyyəti yolundan başlanır. İndi bu iş İsmayıllıda hərtərəfli aparılır. İsmayıllıdan dörd istiqamətdə asfalt yol çəkilir. Birinci, İsmayıllı-Qaraməryəm, ikinci, İsmayıllı-Lahıc, üçüncü, İsmayıllı-Qutqaşın[107], dördüncü, İsmayıllı-Muğanlı. Özü də necə yollar? Təkcə bunu deyək ki, Bakıdan Tbilisiyə qış aylarında qar-çovğun vaxtı gedən maşınlar İsmayıllı-Muğanlı yolu qurtarandan sonra daha Ağsu aşırımını görməyəcək. Qar vaxtı dolaylar tutulanda məhz bu yeni yol işləyəcək. Tbilisi-Bakı arasındakı yol, hava şəraiti ilə əlaqədar olaraq heç vaxt bağlanmayacaq. İndi İsmayıllıda yeddi asfalt zavodu işləyir. Bakı-Tbilisi yolunu qat-qat qısaldacaq yol boyu dərələr, çaylar üstündən körpülər salınır. Bu körpülərdən ən böyüyü indi üzərində iş gedən Girdiman çayı üstündə salınır. Uzunluğu yüz qırx metr olacaq. Şair təbiətli, işinə vurğun Q.Aslanov deyir:

– Bilirsiniz, ümumxalq mənfəətindən, maddi xeyrindən başqa bu yol gözəlliyi ilə də respublikamıza gələn qonaqları, turistləri, iş-gücünə gedən zəhmət adamlarını heyran qoyacaq, göz oxşayacaq. Axı yol həmişə meşələr, yaşıl dağlar, dərələr arasından keçəcək. Azərbaycanın hüsnünü, əsl gözəlliyini göstərəcək. Yol üstündəki buz bulaqlardan su içib sərinlənən yolçular, iş adamları duracaqlarda, əsrlik ağacların altında dincələcəklər.

[107] Qutqaşın – indiki Qəbələ



Şair kimi danışmasına təəccüb etməyin. Axı Qəşəm Aslanov bizə hələ "Azərbaycan gəncləri"ndə işlədiyi vaxtdan tanışdır. Onu öz sıralarından məhz gənclik ilhamlandırıb, qanadlandırıb, pərvaz etdirib. İndi İsmayıllıda başına özündən də xeyli cavan mütəxəssislər toplayıb; köhnəliyə, geriliyə qarşı əsl mübarizə meydanı açıb. Tikililərin hər sahəsini rayonun bir məsul işçisinə həvalə edib. Burada hamı: prokuror da, məhkəmə sədri də, milis rəisi də... tikintiyə, yol çəkilişinə təhkim olub. O, sualımı gözümdən oxuyur, özü də cavab verir. "Məhz inzibati işçilər niyə?" Çünki o zaman bəzi əliəyrilər tikintidən heç nə yayındıra bilməz. Süründürməçilik, baş girləmək halları baş verməz".

Oxucu! Rəqəmlərin dili daha dəqiqdir. Nəzərdən keçir: indi İsmayıllıda iyirmi milyon manat dəyərində tikinti-inşaat işləri görülür. Ötən beşillikdən, təkcə bu 1979-cu ildə görülən iş yeddi dəfə artıqdır. iki yüzdən çox böyük obyekt, o cümlədən on yerdə müasir heyvandarlıq kompleksi tikilir ki, bunlardan hazır olan birini gördüm. Oktyabr kolxozuna məxsus olan bu kompleksdə səkkiz yüz baş mal saxlanır. Kolxozlararası quşçuluq fabrikində saxlanan "Kros 288" cinsli toyuqları da gördük. Bütün bu obyektlərdə ideal təmizliyi (axı söhbət mal-qaradan, toyuqdan gedir), ciddi tibbi nəzarəti və burada işləyən gəncləri görəndə yadıma İsa bulağında rast gəldiyim mənzərə düşdü. Bir zaman İsa bulağı ətrafında təmizliyi görəndə kafedə işləyən cavana demişdim: "Nə yaxşı, nə yaxşı!" O da mənə belə cavab vermişdi:

– Bilirsinizmi? Cavan bir katibimiz var, gəlir, yerdə bir papiros kötüyü görəndə bir söz demir, əyilib götürür, qutuya atır. Xəcalətdən tər töküRəm.

Bax, bir neçə il keçsə də, katib sağlamlığın rəhni olan bu xasiyyətini dəyişməyib əsla, üstələyib də. Bu dəfə kompleks və fabriki gəzəndə heç nə soruşmadım. Amma bütün işçilərin iti baxışlarına dikilmiş gözlərini görəndə, elə bil şuşalı cavanın cavabını eşidirdim.

Əlbəttə, İsmayıllı rayonu təsərrüfatın bütün sahələrində planı da, öhdəlikləri də doldurmaq üçün səy göstərir və müvəffəq də olur. Mətbuat səhifələrindən bunu bilirsiniz, təkrar etmək fikrində deyiləm. Məni heyran qoyan başda katib olmaqla rayonun bütün tikinti-inşaat və kənd təsərrüfatı sahəsində, demək olar ki, hələ otuzunu doldurmamış cavanların böyük həvəslə çalışmaları idi.

İsmayıllını bir növ "komsomolçu gənclər briqadası" kimi "Cavan partiyaçılar rayonu" adlandırmaq olar. Sanki buna görə də indi İsmayıllının özlərinə və övladlarına məxsus gələcəyini hazırlayırlar. İctimai əsaslarla kəndarası yollar çəkir, böyük iməcilikləri məhz bu sahəyə həsr edirlər. Çəkilən su kəməri də, böyük internat məktəblər də, rayon mərkəzindəki gözəl park da, gecənin qaranlığında belə işıq saçan, gözəlliyi, səliqəsi ilə göz oxşayan təzə ticarət mərkəzi də, hər bir idarə başçısının öz binası qarşısında yaratdığı çiçəklik, səliqə-səhman da gənc rayon rəhbərlərinin, onların ətrafında birləşmiş cavanların gözəllik, yenilik aşiqi olduqlarını göstərir. Axı insan təkcə çörəklə yaşamır. Mənəvi gözəlliyə, gözəllik qidasına da ehtiyacı böyükdür. Bunların hər ikisi: maddi bolluq və mənəvi gözəllik isə bugünkü İsmayıllıda yaranmaqdadır. Bu işdə onlara böyük uğurlar, səbir və mətanət arzulayıram.

1979-1980



# Axund Hacı Soltan Hüseynqulu oğlu Əlizadə[108]

Hacı Soltan ruhanidir, axunddur. Onun dini ədəbiyyat, İslamiyyətin yetmiş illik bəlalı sovet dövründə zorla xalqa, millətə unutdurulan adabı[109] haqqında kitablar yazması heç də təəccüb doğurmaz və doğurmur da. Həm də bu kitablarda Hacı Soltan gəncliyinə baxmayaraq çox sadə, anlaşıqlı dillə dinin elə mürəkkəb qayda-qanunlarını, tarixini, şəxsiyyətlərini işıqlandırır ki, bu gün millətə çox lazımdır, zəruridir. Hacının çıxışları da öz dərin məzmunu, genişliyi, tam müasirliyi ilə "dinləyiciləri razı salır" demək azdır. Çox şey öyrədir. Bunlar hamıya məlum həqiqətlərdir. Məni ilk tanışlıq aylarımızda maraqlandıran, daha doğrusu, heyrətə gətirən bu oldu ki, Hacı Soltanla müsahibələrimizdə, onunla rəsmi görüşlərdə, adi həyati üz-üzə görüşlərdə özümü təkcə din xadimi deyil, həm də geniş dünyagörüşünə malik ədəbiyyatçı, alim, tədqiqatçı, ədəbiyyat tariximizin bilicilərindən biri ilə qarşılaşmış gördüm.

Təşkil etdiyi iki ədəbi gecə məni valeh etmişdi. Bunlardan biri böyük hökmdarımız, sərkərdəmiz, şairimiz və din-təriqət başçımız Şah İsmayıl Xətayiyə həsr olunmuşdu. Hacı sonralar bu əməlini, tədqiqatını davam etdirərək "Xətayişünaslığa hədiyyə" kitabını meydana çıxardı. Kitab o qədər lazımlı, gərəklidir ki, haqqında haradasa ayrıca danışmaq lazımdır. Hacı Xətayi ilə bağlı yazılan məqalə, tədqiqat, elmi incələmələri bir yerə toplayıb və sanki deyib: hörmətli tədqiqatçı, aspirant, dissertant... gəzib, arxivlər axtarıb mənbə toplama, o sənin əlindədir. Nə istəsən, kimi istəsən, burada taparsan. Xətayişünasların mizüstü

[108] Cəfərzadə Ə.M. / "Əzizə Cəfərzadənin təbrik məktubu" (Hacı Soltanın 40 illiyinə) / "Günaydın" qəzetinin xüsusi nəşri / 1998, 21 dekabr / səh. 6
[109] Adab – əxlaq qaydaları, ədəb qaydaları, cəmiyyətdə ünsiyyət qaydaları

kitabı, bir növ əbcədidir bu qiymət olmayan kitab. Cəhalətimi bağışla, əziz oxucu, elə həmin kitabdan öyrəndim ki, Hacı Soltan özü də çağdaş Bakı şairləri içərisində məxsusi yer tutan şairmiş.

Hacı Soltanın böyük eşqlə sevdiyi azəri-türk ədəbiyyatında Hacı Seyid Əzim Şirvaninin xüsusi yeri var. Çoxlarına məlum deyildi ki, Seyyidin "Cəfər, ey qönçeyi-gülüstanım" deyə gəncliyə müraciət etdiyi şeirlərin hədəfi onun öz oğlu olan Mir Cəfər ağanın məzarı Buzovnadaymış. Hacı Soltan, böyük əmək və qeyrət sərf edərək Mir Cəfər ağanın qəbrini süslətdirdi, ailəsini tapdı, Seyyid yadigarlarından rəsmini əldə edib qəbrin üstünə həkk etdirdi və nəhayət, gözəl, möhtəşəm xatirə gecəsi təşkil edib ata ilə oğulun böyüdülmüş şəkillərini səhnədə yan-yana vurdu. Seyyidin "Aləmdə səsim var mənim" misrası altında keçən bu xatirə gecəsi öz orijinallığı ilə diqqəti xüsusilə cəlb etdi. Bu gecənin proqramı çox maraqlı tərtib olunmuşdu. Burada Hacı Seyid Əzim Şirvani və Mir Cəfər ağanın tərcümeyi-halını professor N.Cəfərov danışdı. Burada Seyyidin aşiqanə qəzəllərini xanəndələr gözəl muğamlarımız üstündə oxudu, ilahilərini – mərsiyə və dini münacatlarını dərvişlər oxudu, başlıcası, Seyid Əzimin Cəfərə – millətin gəncliyinə müraciətlə söylədiyi şeirlərini məktəblilər məlahətlə ifa etdilər. Hacı özü də bu xatirə gecəsində parlaq çıxışla şairimizi yad elədi: özünü də Buzovna camaatının hörmətlə, məhəbbətlə məzarını qoruduğu, orada müəllimlik etmiş, maarifpərvər insan, gözəl dost kimi sevilmiş Seyyid oğlu Mircəfər ağanı yüksək qiymətlərlə, alim kimi yad elədi.





*Əzizə Cəfərzadə Hacı Soltan Əlizadə, Rəfiqə Nuray, Qabil və başqaları ilə (Buzovnada)*

Bugünkü təbrikimdə Hacı Soltanın onlarla kitabı, şairlər, qəzəlxanlar, dərvişlər, rovzəxanlar və s. haqqında kitablarından danışmadım, uzun çəkərdi. Təkcə onu demək istəyirəm ki, Hacı Soltan çalışır, heç kim unudulmasın, millətinə nə iləsə xidmət etmiş heç kim yaddan çıxmasın. Buna nail də olur. Afərin, Hacı!.. Səndən yaşca xeyli böyük olsam da, qələm dostum, qardaşım, həm də alim adlandırıram səni və həmişə hörmətlə çağırışlarına cavab verirəm, çünki bəzi başqa mollalardan fərqli olaraq xurafatı deyil, əsl İslam mədəniyyətini yaymaqla məşğulsan. Bir daha, min daha afərinlər olsun sənə! Uzun ömür, can sağlığı, həyatın boyu düşünən, yazan, axtaran, üzə çıxaran şəxsiyyət olmağını arzulayıram. Böyük Allahımız sənə bu istedadı, bu həvəsi, bu bacarığı bol-bol verib. Əbədi olsun. Yaşın mübarək! Allah ömrünü uzun və mənalı etsin. Amin!

**Bakı, 14 noyabr 1998**

## Mirzə İsmayıl Qasirin nəvəsi (İshaq Axundov)[110]

Dünyada iki nəvə tanıyıram ki, bütün qələm dostlarıma da məhz belə qədirbilən nəvə arzulayıram. Bunlardan biri Səmərqənddə yaşayır, əslən Təbrizdən olub bütün həyat və fəaliyyəti Bakı-Azərbaycan, xüsusilə, Özbəkistan və Tacikistan ilə bağlı Seyid Rza Əlizadənin nəvəsi Fərhad Əlizadədir. Fərhad Əlizadə şəxsiyyətə pərəstiş dövrünün qurbanı olan babasının tikə-parça olub əllərə düşmüş, zahirdə izi belə qalmamış, kimlərinsə yaradıcılığında, arxivində "həll olunmuş", qocaman inqilabçı, jurnalist, şair, ictimai xadim olan Seyid Rzanın irsini bərpa etdirmək sahəsində sözün əsl mənasında azman iş görüb, məzarını Səmərqəndə köçürtdürə bilib, Ev-muzeyinin, adına küçə, yubileylərinin təşkili, əsərlərinin nəşri, yaradıcılığının alimlər tərəfindən tədqiqi məsələsində ağlagəlməz çətinliklərlə qarşılaşıb və nəhayət, məqsədinə nail olub.

Bu gün söhbət Fərhaddan getmir, tanıdığım ikinci nəvədən gedir, əgər Fərhad Əlizadə cavan melioratordusa, bu nəvə arxeoloqdur, iki infarkt keçirmiş təqaüdçüdür. Babası Mirzə İsmayıl Qasirin əsərlərinin toplanıb nəşri sahəsində İshaq Axundovun fəaliyyəti xüsusi qeyd olunmağa layiqdir. Məhz onun nəvə və vətəndaş qeyrəti sayəsində bu gün əlimizdə qiymətli, həm də çox nəfis kitab var. "Yazıçı" nəşriyyatının bu il çapdan buraxdığı Mirzə İsmayıl Qasir "Şeirlər" kitabını nəzərdən keçirən Xalq yazıçısı, Sosialist Əməyi Qəhrəmanı Mirzə İbrahimov, kitaba müqəddimə yazan dosent Ş.Mustafayev, Xalq şairi Balaş Azəroğlu, professor Əziz Əfəndiyev, "Qobustan" toplusunun redaktoru, gözəl şairimiz Fikrət Qoca... hamısı bir sözlə, kitabın məziyyətlərindən M.İ.Qasir yaradıcılığının keyfiyyətlərindən, geniş oxucu kütlələrinə çatdırılmasının vacibliyindən danışırlar.

[110] "M.İ.Qasirin nəvəsi İsaq Axundov" (07.05.1988) / Əzizə Cəfərzadənin Ev Arxivi, Fond "P" / Qovluq №21 / Sənəd №5 / vərəq – 5



Mirzə İsmayıl Qasir yaradıcılığı ilə XIX əsr Azərbaycan poeziyasını tədqiq edən vaxt, Respublika Əlyazmalar İnstitutunda araşdırmalar apararkən tanış olmuşdum. Bu maraqlı şairin əsərlərinin nəşr olunmamağına həmişə təəssüf edirdim. Bir neçə il bundan əvvəl "Hər budaqdan bir yarpaq" adlı kitabı tərtib edərkən M.İ.Qasirin də beş şeirini həmin topluya daxil etmişdim.

Mirzə İsmayıl Qasir maraqlı və hadisə dolu həyat yaşayıb. 1805-ci ildə Ağdaş rayonunun Ləki kəndində anadan olsa da, ilk təhsilini Şamaxıda alıb. Sonra şəhərdə yaşayan bacısıgilə gəlib orada məktəbə davam edib. Daha sonra Təbrizdə oxuyub, doğma ana dili ilə yanaşı ərəb, fars və hətta o zaman üçün qəribə görünsə də, rus dilini belə öyrənməyə nail olub. Çox erkən atasız qaldığından bacılar, yeznələr və başqa qohumların evlərindən bir-bir ötürülməyə, təhsilini gah bu, gah başqa şəhərdə davam etdirməyə məcbur olsa da, şəxsi səyi, qeyrəti sayəsində Yaxın Şərq və rus ədəbiyyatını mükəmməl öyrənə bilib. Gah Şamaxıda yaşayan anasının yanında, gah da Qaradonlu (İmişli) ərazisində, 1840-cı ildən isə Sərhəd İdarəsində tərcüməçi işləyib. 1850-ci ildə Mirzə Sadıq bəy Mehmandarovun dəvətilə Lənkərana gəlib. Bundan sonrakı fəaliyyəti tamamilə Lənkəran ilə bağlıdır. M.İ.Qasir Lənkəranda məktəbdarlıqla məşğul olub, məktəb açıb, uzun illər dərs deyib, ictimai həyatda yaxından iştirak edib, əsas yaradıcılığı da burada təşəkkül tapıb.

Qasir zəmanəsinin mühüm şəxsiyyətləri, görkəmli şairləri, o zaman "mədiküş-şüəra" adlandırılan Seyid Əzim Şirvani və başqaları ilə əlaqə saxlayıb, tanış olub, yazışıb. Maraqlıdır ki, Qasir öz dövründə məhz ictimai satira ədəbi məktəbinə mənsub olan şairlərlə daha çox yaxınlaşıb, yaradıcılığı ilə Seyid Əzimin, Navahılı Mirzə Baxış Nadimin, Gəncədə Mirzə Mehdi Naci, Cənubi Azərbaycanda Mirzə Mehdi Şükuhi kimi şairlərin satirik əsərləri ruhunda ya-

zıb-yaradıb, XIX əsrdə Azərbaycanda, xüsusilə, Lənkəran, Bakı və Şamaxı hadisələrini, bütün mənfilikləri, qeyri-bərabər "Allah bölgüsü"nü, maarifə, mədəni inkişafa, xalqın gözünün açılmasına mane olan xanları, bəyləri, ruhaniləri amansızlıqla ifşa edirdi. Elə buna görə də yoxsul idi, ehtiyac içindəydi, bir xalvar un, bir geymə üçün dövrünün "qəniləri"nə əl açmağa məcbur idi, amma eyni zamanda qürurunu da itirmir, yeri düşdükcə bütün o var-dövlət sahibi "qəniləri", xalqın alın təri hesabına varlanıb zəhmət adamlarını insan yerinə qoymayanları həcvlərində unutmurdu. Hərənin yerini özünə göstərə bilirdi. M.İ.Qasirin satiralarından külli miqdarda etnoqrafik, tarixi məlumat ala, o zamankı Azərbaycan vətəndaşları ilə tanış ola bilirik. M.İ.Qasirin məhz bu kimi əsərlərinin tarix və etnoqrafiya, iqtisadiyyat, sinfi mübarizəmizin yaranma və inkişafının mərhələlərini öyrənmək baxımından böyük əhəmiyyəti var.

Satiralarında, mənzum məktublarında çəkdiyi adların sahibləri kimlərdir, xalqın, ölkənin həyatında nə kimi rol oynayıblar? Bu sualların tədqiqinə ehtiyac böyükdür. XIX əsr həyatından bəhs edən tarixçiyə, etnoqrafa, xüsusilə, bu dövr Azərbaycan həyatından bədii əsər yazan yazıçıya M.İ.Qasir yaradıcılığı çox kömək edər. Müəyyən tarixi şəxsiyyətləri tanıdar. Keçmişimizin maraqlı həyat lövhələrindən, əxlaq, tərbiyə məsələlərindən xəbər verər. Kim nə yeyib, nə geyib, nə düşünüb, nə alıb-verib, valideyn-övlad münasibətləri necə olub? M.İ.Qasir yaradıcılığında bu sualların çoxuna həm də dürüst, dolğun cavablar almaq mümkündür. Təəssüf ki, biz məşhur müəlliflərlə daha çox məşğul oluruq, ədəbiyyatımızın böyüklü-kiçikli bütün nümayəndələrini kompleks halında, eyni zamanda yaradıcılığının tanınmış, tanınmamış olmasından asılı olmayaraq tədqiq etmək borcumuzdur. Xüsusilə, Qasir kimi şairlərin buna daha çox hüququ var. Onun təkcə Məhəmməd ağa Cürminin rəhbərliyi ilə Bakıda fəaliyyət göstərən "Məcməüş-şüəra", yaxud Şamaxıda fəaliyyət göstərən "Beytüs-səfa" ədəbi məclisləri və Seyid Əzimlə əlaqəsi, yazışmaları, mənzum məktubları, XIX əsr ədəbiyyatımızın tarixinin öyrənilməsinə nə qədər material verər. Yaxud M.İ.Qasirin Lənkəranda təşkil etdiyi "Fövcül-füsəha" (fəsihlərin, gözəl danışanların yığıncağı) ədəbi məclisini götürək. Burada Lənkəran və Lənkəran zonasında ədəbi fəaliyyətdə olan nə qədər şair iştirak edib? Vaxtilə "Ədəbi məclislər" mövzusunda dissertasiya müdafiə edən, çox gənc ikən həyatdan gedən Nəsrəddin Qarayevin yazılarından başqa bu məclislərin haqqında daha geniş, daha dürüst hansı mənbə var? Xalqımızın tarixində müəyyən rol oynamış, böyük bir ədəbi qrupu təşkil edən şairlərdən Mirzə İsa Xəyali, Ağababa Bixud Lənkərani, Molla Fəttah Sehban, Məhəmməd Mücrim, Mirzə Mütəllib Ərçivani, Usta Hüseynqulu Şuri-Dübəndiduz, Əliəkbər Aciz, Mirzə Ələkbər Mühəqqir, Mirzə Möhsün və onlarla başqası haqqında nə bilirik? Onların əsərlərini toplayıb tədqiq etmişikmi? Onların içərisində tarixçimiz də olub, şairimiz də. Hansına rəğbət göstərmişik? Halbuki bu ədəbi məclislərin hər birinin ayrı-ayrılıqda orada iştirak edən şairlərin də yaradıcılığının ayrılıqda tədqiqata ehtiyacı var. Onlar bütövlükdə Azərbaycan ədəbiyyatını yaradıblar. Onlara epiqonlar, nəzirəçilər adı qoyub nəzərdən salmaq ziyandır. Bu gün əlimizdə olan M.İ.Qasir "Şeirlər" kitabı da öz məzmunu ilə bunu sübut edir. "Ustadına kəm baxanın gözlərinə qan damar" demişlər ulularımız, kaş onlar bir də "öz tarixinə kəm baxanlara vəhşi deyirlər, əsil-nəcəbsiz deyirlər" sözlərini də bura əlavə edərdilər. Gec deyil. Tariximizin, xüsusilə, tariximizin yaranmasında, xalqımızın tanınmasında olduqca mühüm, qədimlər demişkən, müəzzəm rol oynamış ədəbiyyatımızın, poeziya tariximizin yeni baxımlı tədqiqatçılara böyük ehtiyacı var. Tale elə gətirib ki, əlli ildə əlifbamız bir neçə dəfə dəyişib, haqlı da, haqsız da. İndi gənc nəsil içərisindən hazırladığımız tədqiqatçıların lap məktəb partasından başlayaraq ərəb əlifbasını öyrənməyə böyük ehtiyacı var. Ali məktəblərdə ərəb əlifbasına

ayrılan vaxt çox azdır. Demək olar ki, heç nə vermir. Eləcə də gənc tədqiqatçı latın əlifbasını öyrənməyə məcburdur. Səkkiz yüz il ərəb əlifbası ilə əlyazmalarda, beş-on il latın əlifbası ilə çap olunan kitablarda yatır tariximizin görkəmli hadisələri, ədəbiyyatımızın maraqlı şəxsiyyətləri. Elə bu gün nəşr olunan "Şeirlər" kitabı da bunu sübut edir.

Təəssüflə qeyd etməliyəm ki, bu gözəl təşəbbüs, bu nəcib işdə İshaq Axundov, qocaman tədqiqatçı, şair-mütərcim, qədim əlyazmalarının mahir bilicisi, Məmmədağa Sultanov, dosent M.Mustafayev kimi hörmətli şəxslərin iştirak etmələrinə baxmayaraq kitabda xeyli orfoqrafik səhvlər gedib. Oxuduqca, bu yazı xətalarını gördükcə adamın ürəyi ağrıyır, bilmirsən ki, belə laqeydlik kimin ucbatından baş verib? Adi hərf xətası nə qədər məna pozuqluğuna səbəb olub. Və bu xətalar o qədər çox və ciddidir ki, onları sadalamaq, könül bulandırmaq istəmədim. Bu xətaların ayrıca yazılmasına ehtiyac, müzakirəsinə ümid var.

Amma yenə də təkrar edirəm ki, XIX əsrin uzaq illərində ədəbi fəaliyyət göstərmiş, ictimai həyatda qanlı-canlı yaşamış, sevmiş, nifrət etmiş, tərif və tənqidlərə məruz qalmış, amma zəmanəsinin bütün ən görkəmli adamları tərəfindən sevilmiş, bizə külli miqdarda mənəvi aləmin yadigarlarını – əsərlərini vəsiyyət etmiş babalarımızdan birinin, Mirzə İsmayıl Qasirin "Şeirlər" adlı ilk kitabının nəşri, bütün qüsurlarına baxmayaraq sevinc doğurmaya bilməz. Tərtibçisinə möhkəm can sağlığı, uzun ömür arzulayırıq. Eşitmişik ki, gənc nəsilə nümunə olan bu nəvə babasının şeirlərini rus dilində də nəşr etdirməyə hazırlaşır. Bəlkə, bu beynəlxalq dilin köməyilə bir şairimiz də başqa xalqlara tanındı. Uğur olsun!

**7 may 1988**



## Bir dostluğun tarixçəsi (Şəfiqə Məhərrəmova)[111]

Qarşıma səliqəylə saxlanmış şəkillər düzülüb. Birində əfsanəvi general Rokossovskinin böyrünə qısılmış, bir başqasında zamanın ittifaq miqyasında tanınmış ziyalı, maarif işçiləri və b. ilə ən ön sıralarda, fəxri yerlərdə əyləşmiş utancaq, sadə görkəmiylə yalnız və yalnız müəllimə olduğu anlaşılan gənc qadın əyləşib. Bu nəcib, zərif görkəmiylə diqqəti cəlb eləyən incə qadın 1972-ci ildə Əməkdar müəllim adını almış Şəfiqə xanım Məhərrəmovadır. Deyə bilərsiniz, nə olsun, o qədər belə adlı-sanlı müəllimlərimiz olub da, var da! Amma bilirsiniz, harda alıb bu adı? Din içində din bəslədiyi Ermənistanda! O zamanlar bir azəri-türk qızı zahiri "dost", batini qatil düşmən olanların içində necə çalışmalıydı, necə əməksevərliyiylə seçilməliydi ki, bu "kirvələr" onu təsdiq edə, ona ad verə? Mərhəba sənə, Şəfiqə xanım!

Oxucum, təəccüb eləmə ki, bu hadisədən danışmağı indiki ağır günlərimizdə vacib bilmişəm. Səbəbi var. İndi süstləşməyə başlamış həsrətini çəkdiyimiz təmənnasız dostluq, indi paklığını xəyal kimi arzuladığımız məktəb-müəllim-şagird-tələbə münasibətləri... Və daha çox başqa bir sıra məsələlər yazacağımla əlaqəlidir.

Bu gün üçün vacib olan mövzuya qayıtmazdan əvvəl deməliyəm ki, günlərin birində Şəfiqə müəllimə məni maraqlı görüş üçün evinə dəvət etdi. Orada mövzumun daha bir qəhrəmanıyla tanış oldum. Bu, Şəfiqə xanımın bir vaxtlar müəlliməsi olmuş Şölə Fərhadova – Şölə xanım idi. Üç, təxminən yaşıd maarif fədaisi... Üç ömrünü sinifə, audito-

[111] Cəfərzadə Ə.M. / "Bir dostluğun tarixçəsi" / "Bizim əsr" qəzeti / 2002, 14 noyabr / səh. 6
"Bir dostluğun tarixçəsi (Şəfiqə Məhərrəmova)" (14.11.2002) / Əzizə Cəfərzadənin Ev Arxivi, Fond "P" / Qovluq №2, Sənəd №11 / vərəq – 6

riyaya, şagird-tələbə yetişdirməyə, millətin gələcəyini tərbiyələndirməyə həsr etmiş ixtiyar qadın qucaqlaşdı. Uzun illərdən, həm də son on-on iki ildəki keçməkeşli illərdən çıxmış müəllimə-qadın-ana görüşüb xatirələrə dalmışdılar...

Oxucum, qoy onlar xatirələrini təzələməkdə olsunlar, mən də sizə vaxtilə doğma Gümrüdə, ermənilərin Leninakan adlandırdığı bölgənin Oğuz yurdu Güllücə, Oxçuoğlu, Ağüzüm... kimi adları qədər özü də dadlı və gözəl qərbi torpaqlarımızdan didərgin salınmışlarımızla nə zaman, hansı şəraitdə tanış olduğumdan danışım. Geriyə, ötən yüzilliyin altmışıncı illərinin lap əvvəlinə qayıdıram, bağışla məni.

Qardaşım, filologiya elmləri doktoru Əhməd Cəfərzadə hələ gənc yaşlarında (1953) "xalq düşməni" kimi həbs edilib Qorki vilayətinin "Suxobezvodnı" adlandırılan, adı quru yer olsa da, həmişə dizəcən palçıq içindəki Sibir lagerinə salınmışdı. Orada dünyanın tanınmış alimlərindən professorlar, akademiklər: Xaraxoz, Şeyman, Ataquzi və onlarla başqa siyasi məhbusla birlikdə Əsəd kişi adında sadə insanla da tanış olmuş, acı illəri birlikdə keçirmişdi. Əsəd kişi müharibədə əsir düşdüyündən bura salınmışdı; rus dilini bilməyən sadə kəndliydi. Əhmədi ağır ağac baltalamaq kimi işlərdən qoruyur, balası kimi şaxtadan, çətinliklərdən mühafizə edir, Əhməd də onun məktublarını yazır, məmurlar qarşısında rusca bildiyindən yaşlı, günahsız kişinin hüququnu mühafizə edirdi. Dost, qardaş, ata-oğul kimi ayrılmışdılar bəraət alanda. Əhməd Bakıya, Əsəd kişi yuxarıda adını çəkdiyim Oxçuoğlu kəndinə getmişdi. Bədbəxt taleyin birləşdirdiyi bu adamlar bir-birini unutmur, yazışır, imkan düşəndə görüşürdürlər. Bunların içərisində o sadə kəndli Əsəd kişinin xüsusi yeri vardı. Azərbaycana, Bakıya və o zaman qardaşımın yaşadığı Uduluya gəlir, Əhmədi də evinə dəvət edirdi.



Günlərin birində qardaşım maşın yoxluğundan şikayətləndi:

– Utanıram, – dedi, – kişi neçə dəfə gəlib, məndən haqlı olaraq gileylidir.

Təsadüfən söhbətin şahidi olan ömür yoldaşım təyyarəçi Məmməd İbrahimov söz verdi və Əhmədin xatirinə məzuniyyət götürüb bizi Ermənistanın o zaman Leninakan adlanan Gümrü bölgəsindəki Oxçuoğlana apardı. Əlimə girəvə düşdü. Çoxdankı arzuma çatdım, "Qarapapaq tayfası" folkloruyla tanış olmaq istəyiylə onlara qoşuldum.

Bizi o yerlərdə olduqca əziz mehman kimi qarşıladılar. Gündə bir evə qonaq apardılar. Mənim arzumla ətraf kəndləri gəzdik, Oxçuoğlu ətrafında, əfsanəvi Arpaçayının o tay bu tayındakı kəndləri gəzdikcə qələm-dəftər əlimdən düşmürdü: Oxçuoğlu, Güllübulaq, Qızıldaş, Gümrü, Qaraməmməd... Əfsanələri yazırdım: Oxçuoğlu haqqında, Arpaçayının apardığı Sara xanım – Sara gəlin haqqında... Bayatıları, nanayları, tapmacaları, atalar sözü və məsəlləri, rəvayətləri... Ağüzümlü yüz iyirmi dörd yaşlı Şma nənənin hafizəsinə heyran oldum. Onu da deyim ki, Bakıya döndən sonra topladığım materiallar əsasında bir neçə məqalə və gözəl şairəmiz Xurşidbanu Natəvanın həyatıyla bağlı, amma Şma nənənin surətini ədəbi qələmə alaraq "Qarapapaq qəbiləsinin qızı" adlı hekayə yazdım, orada da bol-bol bu tayfanın toy-büsatıyla bağlı nanaylardan istifadə etdim.

Məsələ bundadır ki, folklor toplamaq öz yerində, hansısa ölkəyə, xarici-daxili məmləkətə getsəm, ziyarət yerim, əlbəttə, birinci orta məktəb olur, sonra ali məktəb. Axı pedaqoji fəaliyyətə orta məktəbdən başlamışam. Əsəd kişi indi artıq çoxdan rəhmətə getsə də, hələ də qardaşımı əmi, məni bibi adlandıran övladlarından xahiş etdim ki, məni məktəbə aparsınlar. O zaman Oxçuoğlunda orta məktəbin müdiri Məhərrəmov Məmmədəli müəllim idi. Bax, əzizim Şəfiqə xanımın ailəsi ilə tanışlığım elə oradan başlanır. Məmmədəli müəllim "Böyük Ermənistan" xəyalı ilə İrəvandan türkləri müxtəlif bəhanələrlə qovub çıxaran, başqa

millətlərdən, xüsusilə bizdən "təmiz" İrəvan yaratmağa başlayan erməni faşistlərinin damla-damla millətimizin qanına yeritdiyi zəhəri, əlaltı çəkdirdikləri əzabları öz şəxsi həyatında dadmış, bu əzablara sinə gərmiş ziyalıydı. Təhsilini belə doğma yurdunda almağa qoymamışdılar, orada institutu bitirə bilməmişdi. Amma yenə də Bakıda təhsilini bitirən kimi doğma kəndə qayıtmış, din içində din bəsləyərək, gənc nəslə tərbiyə vermək işini əlinə almışdı. Çalışırdı ki, millətin balaları lazımınca savad alsın, vətəni sevsinlər, insanlığa məhəbbət hissi aşılayırdı oradakı balalarımıza. Əlaltı, zahirdə görünməyən təqiblərə baxmayaraq öz insanlıq siyasətini yürüdürdü. Düşməni tanısa, puç mənəviyyatına bələd olsa da. Qayğıkeş ömür yoldaşı, cəmiyyətimizçün layiqli yeddi övlad böyütmüş pedaqoq-ata, insanlara pak niyyət, təmiz əməllə xidmət edən müəllim, həm də kənd təsərrüfatı işlərində bacarıqlılığı, əməksevərliliyiylə kolxoz sədri işləyəndə də uğurla, birincilər arasında yer tuturdu.

Məktəblə tanışlığım Məmmədəli müəllimin ömür yoldaşı, balalarının şəfqətli anası Şəfiqə müəllimə ilə tanışlığıma, yaxınlaşmağıma səbəb oldu, həm də iki yöndən: Şəfiqə müəllimə folklor xəzinəsidir. "Folklor xəzinəsi" sözünü təkcə anamla bağlardım həmişə. Torpağı sanı yaşasın Şəfiqə xanım, tayfasının, Qarapapaq qəbiləsinin adət-ənənələrini, bayatılarını, nanaylarını, bütün başqa folklor nümunələrini sinəsinə qatlayıb çin-çin. Yaxın-uzaq qohum-əqraba, tanış-bilişin şənliklərinə, eləcə özü də bu nümunələrin təsirilə qoşduğu nəzm parçalarını hədiyyə verir. Sinədəftərliyindən bəhrələnib Qarapapaq qəbiləsi folklor nümunələrindən nə qədər yazıya almışamsa, elə o qədər də təşəkkür etmişəm.

Şəfiqə xanım indi yaşının nəvə-nəticə toyu eləyən çağında olsa da, ərinmir, ayağa durub o yerlərdə millətimizin zəngin rəqs havalarını, xüsusilə, aşiqi olduğu yallının neçə növünü göstərir. İlahi, rəqqasların yeri məlum, çox şey öyrənərdilər bu müdrik nənədən.



Şəfiqə xanım çoxuşaqlı Ana – sözün əsl mənasında sevən, tərbiyə verə bilən ana-müəllimədir. Zarafat deyil, dörd oğul, üç qız... Həm də necə? Hamısı ali təhsilli, alimlər, həkimlər, mühəndislər, ictimai xadimlər... Elm və mədəniyyətimizin, ictimai həyatımızın bütün sahələrində ən öndə gedən övladlar yetirib bu müdrik ana. Necə də haqlı, qanuni iftixarla sadalayır balalarını, deyir: "Fəridəm kimyaçı, Abelim professor, akademiyanın müxbir üzvü, Adilim auditor, Alidəm kimyaçı müəllim, Məhərrəmim Prezident Aparatında ekspert, Ramellam bacıları kimi kimyaçı, sonbeşik Raufumsa hüquqşünasdır".

Hər birində bir Məmmədəli müəllim, hər birində bir Şəfiqə xanımın həyatının davamı yaşayır.

Atalar sözüdür, "Ot kökü üstə bitər", Şəfiqə xanım! Səkinə xanım kimi nənənin elə sənin kimi də insanlığı, faydalı həyat yolu keçən, gərəkli övladlar böyüdən nəvəsi olar. 1918-ci ildə vurhavurdan istifadə edən ağalar doluşdu Səkinə xanımın İrəvandakı ondan ziyadə mülklərinə. Atan o satqınların əlinə dəstavuz verməmək üçün sənətini, ticarətini, Səkinə xanım soyadını dəyişməyə məcbur oldu. Atalar sözü, ya məsəli işlətmədən keçinə bilmirəm, Şəfiqə xanım! "Bu arxa bir su gəlib, ümid var, bir də gələ" – deyib ululalarımız. Su gəldi Əfşarlar nəslinin adlı nümayəndəsi Afşarov Məşədi Ələsgər Hüseyn oğlunun, nənən mülkədar Hacı Mehdi ağanın qızı Hacı Səkinə xanımın arxına yenidən su gəldi. Şəfiqə xanım kimi Ana – müəllim, övladları kimi millət üçün yeddi ziyalı ulduz yetişdi. Ermənin çırağı sönsün, söndürə bilmədi haqdan yanan çırağı...

Eh-h-h... Ay əziz oxucum, sənə maraqlı görüşdən, ləzzətli süfrədən danışacaqdım. Gör hardan başladım, hara getdim. Qərəz. Keçək qonaqlıq əhvalatına. Oxçuoğlundan tanıdığım, ləziz süfrəsinin qonağı olduğum Şəfiqə müəllimi düz qırx il idi ki, görməmişdim. Heç o gözəl yaylaqlarımızdan Bakımızın aranına endiyini də bilməmişdim. Birdən o vəfalı xanım dost arayıb axtarıb görüşə dəvət etdi məni; telefonda, "Gəl, – dedi, – özüm gələrdim və

gələcəyəm də. Amma indi burda səni bir maraqlı görüş də gözləyir".

Maraqlı görüşdə, doğrudan da, ummadığım hadisə baş verdi. Sən demə, bir zamanlar tanıdığım, balalarıyla, hətta yaxınlığım da olmuş Şölə müəlliməymiş ikinci qonaq. Və... Bu Şölə müəllimə Şəfiqə xanımın müəllimi olub, dərs deyib gəncliyində ona. Üç müəllim, üç Ana, üç qədim dost görüşürdü bu açıq süfrə başında. Üçümüz də o ilk gənclik illərindəki "tanışlığ"ın simasını axtarırdıq, bu indi səksəni keçmiş, səksənə çatmaqda olan nənələrin simasında. Axtar tapa bildikcən. Deyəsən, təkcə gözlər və bir az da səs qalmışdı yadigar o illərdən. Yox, səhv elədim, döyünən, sevən, sədaqətli ürəklər çırpınırdı indi bu ixtiyarlaşmış sinələrin altında.

Şəfiqə ananın süfrəsində o dövrü, o doğma yurd yerlərini xatırladan nə vardı? Çox şey (Allah daha da bol eləsin). Təkcə "asma sucuğ"un adını çəksəm, bəs elər. Amma inan ki, bir-birimizin sözünü kəsə-kəsə, əlavələr edə-edə o ilk tanışlıq, gənclik illərini xatırlayır, nə və necə yediyimizin fərqinə varmırdıq. Üzümüzdəki qırışlar o ötən ağrılı-acılı illərin açdığı cığırlardı. Balalar böyütmüşdük, millət üçün, şagirdlər, tələbələr tərbiyə etmişdik Vətən üçün. Qara Yanvar günlərini yaşamışdıq, keşməkeşli xəyanət, itkin torpaq dövrlərini yaşamışdıq. Amma sanki münasibətimizə, xüsusilə, Şəfiqə müəllimin dostluq, sədaqət, vəfa duyğularına xələl gəlməmişdi. Arayıb dostlarını, eləcə mənim kimi əlli-altmış il öncə ayrıldığı müəlliməsi Şölə xanımı da məhz o axtarıb tapmış, bu unudulmaz görüş anını o yaşatmışdı üçümüzə də. Təşəkkür azdır, Şəfiqə xanım! İstərdim ki, analarımız sənin kimi Ana, müəllimlərimiz sənin kimi "tikəsiz dost", xanımlarımız sənin kimi baş yoldaşına və dostluğa sədaqətli olsunlar.

**Bakı, dekabr 2002**



# İÇİNDƏKİLƏR

## ÖZÜ VƏ AİLƏSİ HAQQINDA XATİRƏLƏRİ


Ömrün ötən illərinə boylananda ........ 11
Qırx ilə bərabər dörd il ........ 17
Atam (Kərbəlayi Məhəmməd) ........ 29
Məşədi Böyükağa və Hacıağa əmilər ........ 32


## MÜƏLLİMLƏRİ HAQQINDA XATİRƏLƏRİ


Mənim birinci şeyxim (Hacı Şeyx Fərəcullah Zeynalabdin oğlu Pişnamazzadə) ........ 37
Şeyxülislam Şeyx Mövsüm Ağayla görüşlərimdən ........ 44
Universitet müəllimlərim ........ 49
Məmmədcəfər müəllim (Məmmədcəfər Cəfərov) ........ 56
Şair, alim, müəllim (Cəfər Xəndan) ........ 60


## YAZIÇILAR HAQQINDA XATİRƏLƏRİ


Şaiq əfəndi (Abdulla Şaiq) ........ 67
Klassiklərimizin arxivində nələr var (Məmməd Səid Ordubadi) ........ 69
Məmməd Səid Ordubadi haqqında xatirəm ........ 72
Ustad Xalq yazıçısı haqqında şagird sözü (Əbülhəsən) ...74
Böyük Süleyman haqqında kiçik xatirə (Süleyman Rəhimov) ........ 79

Böyük insan Xalq yazıçısı (Mirzə İbrahimov) ..................... 87
Mehdi Hüseyn ömründən bir neçə an ..................................... 89
Yenə də açıldı xatıratımın... (Süleyman Rüstəm) ............... 96
Sən elə sənətkarsan ki... (Əli Vəliyev) ................................ 100
Uzaq xatirə (İlyas Əfəndiyev) ............................................ 104
Füzuli ürəkli (Əliağa Vahid) ............................................... 110
Kövrək şairə (Nigar Rəfibəyli) ............................................ 111
Şairə və ana (Mirvarid Dilbazi) ............................................ 117
Şairə, ana, vətəndaş (Hökumə Billuri) ................................. 131
Lələyi yandır, dadına çataram (Qılman İlkin) ..................... 134
İsmayıl Şıxlının rəqibi ......................................................... 136
Şair (İsmayıl Soltan) ............................................................ 139
Ənvər Məmmədxanlı haqqında xatirəm ............................. 144
Aşıq Sənəmlə görüşüm ......................................................... 146
Yazıçı, redaktor (Xalidə Hasilova) ..................................... 149
Adaşım, rəfiqəm (Əzizə Əhmədova) ................................... 154
Təbiətə və insana qayğıkeş yazıçı (Ənvər Yusifoğlu) ......158
Gözəl nasir, satirik, dramaturq (Seyfəddin Dağlı) ......... 165
Qonşumuz (Ənvər Əlibəyli) ............................................... 172
Ürək möhlət verəydi (Məmməd Aslan) ............................. 173
"Tək səbir"lə birlikdə (İsgəndər Etibar) ............................ 178
Şirvana bağlı oğul (İsgəndər Etibar) .................................. 181
Sən kimsən, Fikrət? (Fikrət Sadıq) ..................................... 183
Füzulinin nəvələrindən biri (Zivər Ağayeva) ................... 187
Qarğa məndə qoz var (Cahangir Aslanoğlu) ..................... 191
Bir əlyazmasının tarixçəsi (Qulamrza Cəmşidi) ............... 196
Şəxsiyyətə pərəstiş qurbanlarından biri
(Əlirza Abdullayev) ............................................................. 201
Gecikmiş nekroloq (Niyazi Yıldırım Gəncosmanoğlu) ..213
Gecikmiş nekroloq (İdris Ibrahimov) ................................ 217
Məhəmməd Füzuli haqqında xatirələrim .......................... 223
Nəsimiylə bağlı xatirəm ..................................................... 229



Böyük Nazimlə kiçik bir görüş ............................................ 238
Ustad Şəhriyar ilə bağlı xatirəm .......................................... 242
Ustad Qafur Qulamla görüş ................................................. 248

## ELM XADİMLƏRİ HAQQINDA XATİRƏLƏRİ

Akademik, qəhrəman, şəhid! (Ziya Bünyadov) ................ 253
Abbas Zamanov haqqında xatirələrim ................................ 258
Paklıq rəmziydi o... (Qulu Xəlilov) ..................................... 261
İnayətimizi xatırlarkən (İnayət Bəktaşi) ............................ 265
Ana, dilçi, professor (Rəhilə Məhərrəmova) ..................... 268
Bakının keçmişi ilə görüş (Ömər İsmizadə) ...................... 271

## İNCƏSƏNƏT XADİMLƏRİ HAQQINDA XATİRƏLƏRİ

Əksinə dövran edən kəcröv fələk... (Kazım Ziya) .......... 275
Təsəllimiz (Mehdi Məmmədov) .......................................... 277
Rəşid Behbudovla görüşüm ................................................. 280
Bəstəkar Cahangir Cahangirovla bağlı bir xatirə ............ 283
Rəssam rəfiqəm (Maral Rəhmanzadə) ............................... 287
Dayan, bu an necəsənsə... (Zeynəb Xanlarova) ................ 290
Bizim Ərəbzəngidi (Gülxar Həsənova) .............................. 306
Aktyor, sənətkar (Süleyman Ələsgərov) ............................ 316
Bir şəkilin xatirəsi (Nəsibə Zeynalova) ............................. 318
Rəssam Nəcəfqulu ilə bir görüşümüz ................................ 320
Aşıq Şakiri xatırlarkən ......................................................... 324
Mirzə Məhəmmədhəsən ...................................................... 327

## MÜXTƏLİF SƏNƏT SAHİBLƏRİ HAQQINDA XATİRƏLƏRİ


Bakıxanov nəslinin xanımları ........................................ 331
Gecikmiş nekroloq (Emin Əfəndiyev) ................................ 345
Vətənsevər partiya xadimi Həsən Həsənov ........................ 350
Dağlardan düzlərə (Qəşəm Aslanov) ................................. 357
İsmayıllıda üç gün (Qəşəm Aslanov) ................................. 365
Axund Hacı Soltan Hüseynqulu oğlu Əlizadə ..................... 369
Mirzə İsmayıl Qasirin nəvəsi İshaq Axundov ..................... 372
Bir dostluğun tarixçəsi (Şəfiqə Məhərrəmova) ................... 377




ƏZİZƏ CƏFƏRZADƏ

# TANIDIQLARIM, SEVDİKLƏRİM XATİRƏLƏRİMDƏ

Xatirə ədəbiyyatı seriyasının 58-ci kitabı

# "XAN" XATİRƏ ƏDƏBİYYATI SİLSİLƏSİNDƏN NƏŞRLƏRİMİZ



xannesriyyati

xannesriyyati

www.xannesrleri.az

ISBN: 978-193-089-736-6

XAN NƏŞRİYYATI

Kitabların satış ünvanı:
www.sinkod.az
Kitab və dəftərxana mallarının
topdan və pərakəndə satışı

₼ 10.00